# Azərbaycan FOLKLORU ANTOLOGİYASI

IX

GƏNCƏBASAR FOLKLORU

Ш3
A99

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

243495

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

IX kitab

(GƏNCƏBASAR FOLKLORU)

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – "SƏDA" – 2004

Az
A-39

Azərbaycan Respublikası MEA
Folklor İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

TƏRTİB EDƏNLƏR: F.e.n. Hüseyn İSMAYILOV, f.e.n. Ruziyə QULİYEVA

ÖN SÖZÜN MÜƏLLİFİ: F.e.n. Hüseyn İSMAYILOV

REDAKTORU: F.e.d., prof, İsrafil ABBASLI

RƏYÇİLƏR: F.e.n. S.XAVƏRİ, A.XƏLİL

NƏŞRİNƏ MƏSUL: f.e.n. Əziz ƏLƏKBƏRLİ

**Azərbaycan folkloru antologiyası, IX kitab (Gəncəbasar folkloru)**, Bakı, "Səda" nəşriyyatı, 2004.

Azərbaycan MEA **Folklor İnstitutunun** nəşr etdirdiyi "Azərbaycan folkloru antologiyası" silsiləsindən olan bu cilddə **Gəncəbasarın** zəngin və təkrarsız folklor inciləri toplanmışdır.

ISBN-586874-032-7

©"Səda" nəşriyyatı, 2004

## ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

1. **AFA, I.** Naxçıvan folkloru, tərtib edənlər: Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı, elmi redaktoru və "Ön söz"ün müəllifi İsrafil Abbasov, rəyçilər: Vəli Əliyev, Bəhlul Abdulla, Bakı, "Sabah" nəşriyyatı, 1994.
2. **AFA, II.** İraq-Türkman folkloru, tərtibçilər: filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri doktoru, professor Azad Nəbiyev, filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, Bakı, "Ağrıdağ" nəşriyyatı, 1999.
3. **AFA, III.** Göyçə folkloru, toplayıb tərtib edəni, Hüseyn İsmayılov, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: fiollogiya elmləri doktoru, professor Qara Namazov, filologiya elmləri namizədi Oruc Əliyev, Bakı, "Səda" nəşriyyatı, 2000.
4. **AFA, IV.** Şəki folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Oruc Əliyev, Hikmət Əbdülhəlimov, Ramazan Qafarov, Vaqif Aslan elmi redaktoru və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, sənətşünaslıq namizədi Faiq Çələbi, Bakı, "Səda" nəşriyyatı, 2000.
5. **AFA, V.** Qarabağ folkloru, toplayanlar: İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim (Quliyev), tərtib edəni və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, redaktorları: filologiya elmləri doktoru, professor Yaşar Qarayev, filologiya elmləri namizədi, dosent Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru Bəhlul Abdulla, filologiya elmləri namizədi Oruc Əliyev, "Bakı", "Səda" nəşriyyatı, 2001.
6. **AFA, VI.** Şəki folkloru, tərtib edəni: Hikmət Əbdülhəlimov, elmi redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, "Ön söz"ün müəllifi sənətşünaslıq namizədi Faiq Çələbi, rəyçi filologiya elmləri namizədi Hüseyn İsmayılov. Bakı, "Səda" nəşriyyatı, 2002.
7. **AFA, VII.** Qaraqoyunlu folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Qurban Süleymanov, elmi re-

daktoru filologiya elmləri doktoru, professor Qara Namazov, rəyçilər, filologiya elmləri doktoru İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2002.

8. **AFA, VIII.** Ağbaba folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Tacir Qurbanov, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçi filologiya elmləri namizədi Əziz Ələkbərli, Bakı, "Səda" nəşriyyatı, 2003.



## İNSTİTUTDAN

**AFA-nın "Gəncəbasar folkloru" cildi Azərbaycan MEA Gəncə Elmi Mərkəzi İctimai Elmlər bölməsində nəşrə hazırlanmağa başlanmış və Akademiyanın Folklor İnstitutunda başa çatdırılmışdır. Gəncə Elmi Mərkəzinin İctimai Elmlər bölməsinə rəhbərlik etmiş filologiya elmləri namizədi Ziyəddin Xasıyev, folklor qrupunun əməkdaşlarından – filologiya elmləri namizədləri Ruziyə Quliyeva, Maqbet Əhmədov, Sahib Axundov və elmi işçi Vahid Hümbətov işlədikləri dövrdə toplama işində yaxından iştirak etmişlər. Sonralar "Gəncəbasar folkloru"nun tərtibi və çapa hazırlanması işi R.Quliyevanın öhdəsinə düşmüşdür. Onun Folklor İnstitutuna təqdim etdiyi tərtib işi MEA Folklor İnstitutunda "Gəncəbasar folkloru"nun ikinci cildi kimi hazırlanmış topludan, İnstitutun əməkdaşları tərəfindən bölgəyə elmi ezamiyyətlər zamanı əldə edilmiş folklor örnəklərindən, həmçinin İnstitutun elmi əməkdaşı Sahibə Sədnikqızının təqdim etdiyi materiallardan geniş istifadə edilməklə xeyli təkmilləşdirilmişdir.**

**Toplunun hazırlanmasında tərtibçilərə Folklor İnstitutunun elmi əməkdaşı Tahir Orucov yaxından kömək etmişdir.**

**Önəmli qədim tarixi qəhrəmanlıq gələnəyi və zəngin poetik söz sənəti olan Gəncəbasarın folklor örnəklərini bir cildə sığışdırmaq imkan xaricindədir. İndi çap edilən "Gəncəbasar folkloru" cildi adını daşıdığı regionun mənəvi-mədəni irsini səciyyələndirən ilk təşəbbüs kimi böyük elmi-filoloji, eyni zamanda, mühüm tarixi-siyasi əhəmiyyətə malikdir. İnstitut gələcəkdə bölgə folklorunun toplanması və nəşri işlərini davam etdirmək və oxuculara daha kamil folklor nəşrləri təqdim etmək niyyətindədir.**

## ETNİK-MİLLİ YADDAŞDAN – FOLKLORDAN GÖRÜNƏN GƏNCƏ

*Azərbaycan folklor antologiyası silsiləsindən Gəncəbasar folkloru həm elmi ictimaiyyətin, həm də geniş oxucu kütləsinin mütaliəsinə təqdim edilir. Azərbaycanımızın istər itirilmiş, istərsə də mövcud bölgələri üzrə folklor antologiyaları işıq üzü görüncə antologiyalar haqqında müxtəlif mülahizələr səslənir. Ağır fiziki (ekspedisiyalar) və intellektual (janr təsnifatı, izah və s.) fəaliyyətin nəticəsi kimi yaranan hər bir antologiya işıq üzü gördükcə bu işin milli-mənəvi dəyərlərimizin rekonstruksiyası, dövlət və dövlətçilik miqyasında əhəmiyyəti yüksək qiymətləndirilməklə yanaşı, qeyri-elmi səviyyədə iradlar da səslənir. Belə qeyri-elmi iradlar içərisində milli folklorumuzun regional aspektdən öyrənilməsinin qeyri-səmərəliliyi, hətta zərərliyi haqqında mülahizələrdir. Bu mülahizələr çox güman ki, müasir humanitar elmlərin nailiyyətlərini, lap elə folklorşünaslıq tədqiqatının adi üsullarını bilməməkdən irəli gəlir.*

*İstər vahid ideoloji, istər dini, istər regional, istərsə də etnik-milli mədəniyyət tipləri struktur bütövlüyü səciyyəsi daşımaqla yanaşı, bu bütövlüyü təşkil edən ayrı-ayrı mikrostrukturların cəmindən, bir-biri ilə qarşılıqlı münasibətdə olan və bu münasibətlərin mürəkkəb dinamikasından mədəniyyət fenomenini doğuran vahidlərdən təşkil olunmuşdur. Mədəniyyət tiplərinin teoloji, ideoloji, etnik-milli və s. səciyyəsindən asılı olmayaraq onların kulturoloji, fəlsəfi, filoloji tədqiqində ən ümumi səciyyəvi təmayüllərin müəyyənləşdirilməsi və bütövlükdə fenomen hadisə kimi elmi dəyərləndirilməsində həmin mikro vahidlərin həm ayrı-ayrılıqda, həm də bir-biri ilə qarşılıqlı münasibətdə öyrənilməsi ən səmərəli üsuldur. Bəşəriyyətin inkişaf mərhələləri ərzində müəyyən zaman çevrəsini və planetin müəyyən coğrafi ərazisini əhatə edən istənilən mədəniyyət digər mədəniyyətlərə münasibətdə təşkil olunandır, bu böyük mədəniyyətin öz daxilində isə ayrı-ayrı struktur komponentləri struktur bütövlüyünə böyük mədəniyyətə münasibətdə təşkil edəndir. Təşkil edənin təşkilolunana münasibəti kulturoloji müstəvidən fəlsəfi müstəviyə keçirildikdə təkin ümumiyə münasibəti ilə paralelləşir. Müxtəlif humanitar elmlərin təcrübəsi sübut edir ki, mədəniyyətlərin öyrənilməsində təkdən ümumiyə, mikrostrukturda markostruktura hərəkət dinamikası daha səmərəlidir. Bu cəhət etnik-milli xarakterli mədəniyyət tiplərinə daha çox şamil*



*olunur. O baxımdan ki, etnik-milli xarakterli mədəniyyət onu yaradan mədəniyyət subyektinin (etnosun) etnik təfəkkür və emosiya potensiyasının ifadəçisidir və həmin etnosun coğrafi lokalizasiyasından asılı olaraq müəyyən regional səciyyəvilik də kəsb edə bilir. Məhz bu baxımdan etnik-milli mədəniyyətlərin lokal coğrafi çevrələrdə təzahür edən struktur komponentlərinin ayrı-ayrılıqda öyrənilməsi müasir humanitar-elmi düşüncənin zəruri vəzifələrindəndir.*

*Qədim və orta əsrlər bəşər sivilizasiyasının inkişafında, sosial və mədəni tərəqqisində əhəmiyyətli rol oynamış türk mədəniyyəti onun öz tarixinin mürəkkəbliyi ilə şərtlənərək olduqca mürəkkəb xarakterə və inkişaf dinamikasına malik olmuşdur. Zaman-zaman türklər çin, monqol, tunqus-mancur, iran, german, slavyan, ərəb mədəniyyətləri ilə etnokulturoloji əlaqələrdə olmuş və bu əlaqələrin xarakterindən asılı olaraq mədəniyyətlərin tipoloji xarakteri müəyyənləşmişdir. Qədim və orta əsrlər türk mədəniyyətinin daxili differensiyası, başqa sözlə ifadə etsək, vahid struktur bütövlüyünü təşkil edən mikrostrukturlarının-ayrı-ayrı etnik-mədəni sistemlərin yaranması bir tərəfdən ictimai-siyasi hadisələrlə şərtlənirsə, digər tərəfdən də digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrdən irəli gəlirdi. Ümumtürk mədəniyyətinin ayrılmaz tərkib hissəsi-struktur vahidi olan Azərbaycan etnik-mədəni sistemi yad etnik mədəniyyətlərlə (xüsusən İran) daha sıx qarşılıqlı münasibətlərdə olsa da, öz inkişafının istər təşəkkül, istər təkamül, istərsə də intibah mərhələlərində türkçülük keyfiyyətini həmişə yüksək səviyyədə mühafizə etmiş, müasir günümüzə qədər böyük türk dünyasının ayrılmaz bir parçası kimi qoruyub saxlamışdır. Nə ən qədim dövrlərin aborgen türk tayfaları ilə Qafqaz mənşəli xalqların etnokulturoloji münasibətləri, nə eramızın I minilliyinin ortaları qıpçaq-Qafqaz xalqları və İran əlaqələri, nə orta əsrlərin türk-ərəb və türk-İran əlaqələri, nə də XIX əsrin əvvələrindən XX əsrin sonlarınadək türk-rus əlaqələri bu ərazidə-Azərbaycanda nisbəti heç vaxt etnik-mədəni sistemdə türklüyün zərərinə dəyişə bilməmişdir. Əksinə, bütün bu əlaqələr Azərbaycan etnik mədəni sistemində tipologiyası etibariylə türk olan mədəniyyətin daha unikal təzahür çalarlarını meydana gətirmişdir. XII əsrdə Gəncəli Nizaminin fars dilində türk epik təfəkkür imkanlarını daha unikal bir formada, yüksək bədii-estetik səviyyə əks etdirməsi, XVI əsrdə Füzulinin İslam mədəniyyətinin digər iki (ərəb və fars) komponentlərinin imkanlarını da türk dilinin rəsmi elitar dil səviyyəsinə*

yüksəldilməsi işinə səfərbər etməsi bunun bariz nümunəsidir.

Etnik-milli mədəniyyət sistemində mühüm struktur vahidlərindən birini folklor təşkil edir. Bunu şərtləndirən başlıca səbəb odur ki, folklor yazılı ədəbiyyatdan fərqli olaraq dolayısıyla deyil birbaşa, bilavasitə onu yaradan mədəni subyektin-etnosun təfəkkürünün, etik-estetik təzahürü kimi meydana çıxır. Məhz bu xüsusiyyətinə görə folklor etnik-milli mədəniyyətdə o mədəniyyətin müxtəlif təzahür formalarının genezisini təşkil edir, bu təzahür formalarının millilik keyfiyyətinin səviyyəsi folklora münasibətdə müəyyənləşir. Etnik-milli mədəniyyət sistemində istənilən kulturoloji təmayül digər etnik mədəniyyətlərin təsirinə də məruz qala bilər, kosmopolitizmə qədər millilikdən uzaqlaşa da bilər. Lakin əgər bu uzaqlaşmaların kökündə folklor təfəkkürünə söykənmə, genezis etibarilə ona dayanma varsa, onda yenə də bu təzahürlər istər-istəməz milli keyfiyyətə malik olmalıdır. Beləliklə, etnik-milli mədəniyyətdə folklorun statusu keyfiyyət göstəricisi, milliliyin meyar və etalonu statusundadır.

Bu mənada etnokulturoloji sistemdə folklorun regional öyrənilməsi olduqca böyük əhəmiyyətə malikdir. Bu əhəmiyyət özünü yalnız folklor irsinin müasir azərbaycanlı şüuruna inteqrasiyası kimi olduqca zəruri bir missiya ilə məhdudlaşmayıb, bütövlükdə Azərbaycan və eləcə də türk etnik-mədəni sisteminin genezisini, digər mədəni təzahürlərin bu mədəniyyətə nə dərəcədə aidliyini də müəyyənləşdirməyə yardım edir.

Azərbaycan folklor antologiyası silsiləsindən növbəti Gəncəbasar folkloru cildi Azərbaycanın ən qədim yaşayış məskənlərində olan Gəncə və ona yaxın olan ərazilərin zəngin folklor örnəklərini özündə ehtiva etməkdədir. Bizim eranın əvvəllərindən qədim türklərin daimi yaşayış məskənlərindən olan biri kimi heç kimdə şübhə doğurmayan Gəncə və onun ətrafında yaşayan folklor örnəklərində regional spesifika ilə yanaşı, əski türk mədəniyyətinə aid inam və inanc sistemini, dünyagörüşləri özündə çox dolğun bir şəkildə əks etdirməkdədir. Təbii ki, bölgənin folklor örnəklərində əksini tapan ideya estetik istiqamətlərin, onların Azərbaycan etnik-mədəni sistemi daxilində digər qonşu folklor mühitləri ilə müqayisədə spesifikasını müəyyənləşdirməmişdən əvvəl regionun coğrafi, etnik və tarixi özəlliklərini aydınlaşdırmaq zəruridir. Çünki bunlardan birincisi folklor mühitinin arealını, ikincisi, subyektini, üçüncüsü isə inkişaf dinamikasını şifrələyir.

1) Regionun coğrafi hüdudları:



Müasir Gəncə şəhərinin tarixən inzibati-siyasi təsir dairəsinə daxil olan şimali-qərbi Azərbaycanın mühüm bir hissəsi tarix boyu müxtəlif adlarla adlandırılmışdır. Miladdan öncə Gəncə və Gəncə ətrafı rayonların yerləşdiyi ərazi Sakasena vilayəti kimi tanınmışdır. Ərəb istilası zamanı bu ərazi Aran, Şirvanşahların hakimiyyəti dövründə Gəncə, Səfəvilərin hakimiyyəti dövründə Gəncə-Qarabağ bəylərbəyliyi adlanmışdır. XVIII əsrin ortalarından Gəncə xanlığının əhatə etdiyi ərazi qərbdən İrəvan xanlığı, Qazax və Borçalı sultanlıqları, şimaldan Kaxetiya çarlığı, Sığnaq mahalı, İlisu sultanlığı, Şəki xanlığı, Şərqdən isə Qarabağın Bərdə və Cavanşir mahalları, Cənubdan isə Qarabağın Xəmsə mahalı ilə əhatə olunmuşdur.

Xanlıq Ayrım, Şəmşəddil, Zəyəm, Şəmkir, Gəncəbasar, Samux, Kürəkbasar, İyirmi dörd adlı səkkiz mahalı özündə birləşdirirdi. Rus işğalından sonra Gəncə xanlığı ərazisində Yelizavetpol dairəsi yaradıldı. Sonra isə Yeni Bəyazit, Qazax, Sığnaq, Ərəş, Cavanşir qəzaları, və Zaqatala dairəsini əhatə edən Yelizavetpol qəzası formalaşdırılır. Gəncə qəzası sovet hakimiyyətinin 30-cu illərinə qədər öz adını və ərazisini qoruyub saxlayırdı. 30-cu illərdən yeni inzibati ərazi bölgüsü nəticəsində Gəncə vilayətinin ərazisi müxtəlif rayonlar arasında parçalandı.

İstər tarixə, istərsə də filologiyaya aid tədqiqatlarda tarixən Gəncənin siyasi-inzibati təsir dairəsində olan ərazilərin Gəncəbasar adlandırılması ilə rastlaşırıq. Bu ad altında isə indiki Tovuz, Şəmkir, Xanlar, Goranboy, Yevlax rayonları nəzərdə tutulur. Hətta folklorşünaslıqda bu adın çevrələdiyi ərazi tarixçilərdən də irəli gedərək daha da böyüdülür. Tarixin heç bir mərhələsində «Gəncəbasar»ın inzibati-ərazi vahidi kimi adı çəkilən indiki rayonları əhatə etdiyi vaxt olmayıb. Gəncə xanlığı daxilində səkkiz vilayətdən biri olan «Gəncəbasar» Gəncəçay vadisi boyunca yaşayış məskənlərinin yayıldığı dar bir ərazini bildiribdi. İstər tarixi inzibati-ərazi bölgü prinsipi baxımından, istərsə də regional etnoqrafik, adət-ənənə, dialekt-dil-üslub xüsusiyyəti özəllikləri baxımından «Gəncə» toponimi haqqında söhbət gedən ərazinin tarixi inzibati-siyasi adı kimi daha uğurlu və həqiqətə uyğundur.

«Gəncə» toponiminin hal-hazırda Bakıdan 363 km. qərbdə, Kiçik Qafqazın şimali-şərq ətəyində, Gəncə çayının hər iki sahilində yerləşən, Gəncə və Kəpəz rayonlarına ayrılmaqla 107 kv.km. sahəni əhatə edən Azərbaycanın Bakıdan sonra ikinci böyük şəhərinə aid edilməsi baxımdan «Gəncə tarixi», «Gəncə folkloru», «Gəncə dialekti» və s. kimi ifadələrin geniş oxucu kütləsi tərəfindən haq-

*qında söhbət gedən anlayaşların müasir Gəncəyə (107 kv. km ərazini əhatə edən şəhərə) aidliyi təəssüratı yarada bilər. Ona görə də tarixilik prinsipinə əsaslanmaq özünü o qədər də doğrultmur. Məhz bunu nəzərə alaraq "Gəncəbasar" adının tarixən Gəncənin inzibati təsir dairəsinə aid olan əraziyə aid edilməsi daha düzgündür. Digər tərəfdən XX əsrin ikinci yarısı "Gəncəbasar" adının tarixən əhatə etdiyi dar bir ərazini Gəncəçay vadisini deyil, böyük bir coğrafi ərazini işarələdiyi, xalq arasında da bu anlamda işlənmə təcrübəsi var.*

*2) Regionun etnik tərkibi:*

*Məlum olduğu kimi Azərbaycan tarixinin ən mürəkkəb, mübahisələr doğuran problemlərindən biri etnogenes problemidir. Sovet hakimiyyəti illərində türksoylu respublikalara tətbiq edilən «hazır konsepsiyalar» onların tarixi ərazilərində türklərin məskunlaşmasını orta əsrlərin ortalarına qədər gətirib çıxarırdı. Azərbaycan tarixçilərinin uzun illər ərzində normativləşdərməyə çalışdıqları Azərbaycan ərazisinə türklərin gəlişini X-XI əsrlərdən başlamaq kimi yanlışlıq müəyyən təshihlərlə bu gün də davam edir. Ümumən Azərbaycan xalqının etnogenezisi ilə bağlı şüurlu şəkildə yaradılmış «qeyri-müəyyənlik», sistemsizlik onun ayrı-ayrı bölgələrinin etnik tərkibi, etnokulturoloji lokalizasiyası və inkişafına da aiddir. Şimali Azərbaycanın böyük bir ərazisini əhatə edən Gəncə vilayəti də bu cəhətdən xali deyil.*

*Yaranma tarixi miladdan öncə 750-700-cü illərə aid edilən Gəncə şəhərinin ən qədim sakinlərinin etnik tərkibi haqqında birmənalı şəkildə yekdil fikir söyləmək çətindir. Lakin tarixi dəlillər əsasında bir həqiqət sübut edilmişdir ki, təxminən e.ə. I minilliyin ortalarından b.e. minilliyinin əvvələrinədək bu ərazinin etnik (əsasən qıpçaq türkləri; mənbələrdə: huntürklər, yaxud buntürklər) böyük əksəriyyəti təşkil etməyə başlayır. Regionun etnokulturoloji təmərküzləşməsində türklərin həlledici rolunu «Gəncə» sözünün etimologiyasından da görmək mümkündür.*

*Elmdə (tarix, türkologiya, iranşünaslıq, dilçilik, etnoqrafiya və.s) «Gəncə» sözünün etimologiyası ilə bağlı mövcud mülahizələri iki qrupa ayırmaq olar:*

*1.«Gəncə» sözünün etimologiyasında qeyri-türk interpretasiyası;*

*2.«Gəncə» sözünün etimologiyasında türk interpretasiyası;*

*Toponimin qeyri-türk mənşəli «interpretatorları» da öz mülahizələrində yekdil olmayıb aşağıdakı qruplara bölünür:*

*a) toponimin Pəhləvi mənşəli olmasını iddia edənlər: Gəncə -*



*«Gəncə» (xəzinə).*

*b) toponimin midiya mənşəli olmasını iddia edənlər: Gəncə-«qauz»*

*s) toponimin yunan mənşəli olmasını iddia edənlər: «Gəncə»-«Qunicə» (Qadınlar ölkəsi (amozon qadınlar));*

*Gəncə sözünün qeyri-türk mənşəli olmasını irəli sürən alimlərin mülahizələrində zahiri uyğunluqlara əsaslanan etimologiya daha qabarıqdır.*

*Toponimin türk mənşəli olmasını israr edənlər bir neçə qrupa ayrılır:*

*a) toponimin «güncək», «günçü», «günəşdən olan» şəklində izahı;*

*b) Toponimin «Gencə» sözü ilə izahı. (coğrafi baxımdan geniş ərazi mənasında);*

*s) Toponimin türk tayfaları hunlar və «gəncək»lərin adı ilə əlaqələndirilməsi;*

*ç) Toponimin türk mənşəli «xan», «qan», «kaan» (hakim və sərkərdə mənasında) və ca, (cə ça, çə) hissəciyinin kombinasiyasından yaranması;*

*Toponimlərin izahına keçməzdən əvvəl onu qeyd edək ki, «Gəncə» şəhər, vilayət, ərazi adından başqa mövcud ərazidə çay, düz adlarını da bildirir. Mövcud arealda bu sözün geniş yayılması tayfa adından götürülməsi ehtimalını qabardır. Məlum olduğu kimi türkdilli xalqlarda coğrafi adların tayfanın adı ilə adlandırılması ənənəsi çox aparıcı mövqedə olmuşdur. Bu faktı sübut edən dəlil isə hunlarla bağlı yer adlarının Gəncə düzündə geniş yayılmasıdır: Hunnan qalası, Hunnar belə toponimlərdir*. Hesab etmək olar ki, əski vaxtlardan bu ərazidə məskən salan türklər öz tayfa adlarına uyğun olaraq ərazini də adlandırmışdılar. Toponimin etimoloji izahında digər bir cəhəti də nəzərə almaq lazımdır ki, «Gəncə» sözünün ilk komponenti «gən» gəncək tayfasının adındakı hissəyə uyğun olaraq «xan», «kaan» mənasını bildirir, ca (cə) hissəciyi isə ərazi, yer, yurd mənasındadır. Bu sahədə fakt və dəlillərə əsaslanan son sözün tarixçilərə aid olacağını nəzərə çarpdırmaqla, biz də «gəncə» sözünü «xan yurdu» kimi türkmənşəli əsasda izah edən tədqiqatçılarla həmfikr olduğumuzu bildiririk.*

-----------------

*Ətraflı məlumat üçün bax: Мамедов Т. Политическая история и историческая география Кафгизской Албании. Баку, 1986, с 131; Меликсет бек Л.М. К истории появления гуннов в Васточном Закафкзаии. Докл. АН Аз.ССР, Б.1957 т. XII. кн. 6, с. 712.

«Gəncə» sözünün etimoloji izahından da göründüyü kimi bu ərazi qədim türk torpaqlarındandır. Lakin tarixən bu ərazinin etnik tərkibi sabit olaraq qalmamış, süni yollarla dəyişdirilməyə çalışılmışdır.

Xüsusilə Çar Rusiyasının Gəncəni işğalından sonra planlı şəkildə şəhərin erməniləşdirilməsi siyasəti yürüdülmüş, Rusiyanın müxtəlif vilayətlərindən Gəncəyə erməni ailələri köçürülmüşdür. Tarixi faktlardan məlum olur ki, yalnız 1804-cü ilin mart-may ayları Gəncəbasara 4667 erməni köçürülmüşdür. Rusiya nümayəndələrinin köçürmə siyasətinin nəticəsidir ki, 1808-ci ilin dekabrında şəhərdə ermənilər 3596, türklər isə 6320 nəfər qeydə alınır. Ermənilər 1803-cü ildə əhalinin 8,5 %-ni təşkil etdikləri halda, 1808-ci ildə 36,26%-ə çatırlar. Əlbəttə, işğalçı Rusiyanın bu siyasətinin əsasında Gəncə ərazisində türk-müsəlman milli mənəviyyatını məhv etmək niyyəti dayanırdı.

XIX əsrin 30-cu illərindən Gəncə vilayətinə ermənilərlə bərabər digər xalqların nümayənləri də göçürülməyə başlayır. Gəncə haqqında dəyərli tədqiqat əsərinin müəllifi Fərrux Əhmədov tarixi mənbələrə əsaslanaraq XIX əsrin sonu Gəncə əhalisinin etnik tərkibini aşağıdakı kimi göstərir:

«Azərbaycan türkləri 17436, çuvaşlar 34, qaraçaylar 6, avarlar 103, çeçenlər 7, inquşlar 6, çərkəzlər 4, Türkiyə türkləri 3, türkmənlər 4, velikoruslar 2519, maloruslar 215, polyaklar 240, çexlər 12, italyanlar 13, almanlar 103, ingilislər 6, yunanlar 5, ermənilər 12055, farslar, 39, kürdlər 3, yəhudilər 93, 9, gürcülər 486, minqrel 13, lazlar 7».

Göründüyü kimi, XIX əsrin sonları Gəncə qəzasının etnik tərkibində «beynəlmiləl mənzərə» xeyli dəyişsə də ermənilərin bu tərkibdə nisbəti aşağı düşməyə başlayır. 1911-ci ildə isə Gəncənin 59 minlik əhalisinin 45 mini türk, 2,5 mini erməni, 3,5 mini rus, qalanları isə digər millətlərin nümayəndələri olmuşdur.

Heç bir süni köçürmə, qeyri-təbii (təşkil olunmuş) demoqrafik proseslərə baxmayaraq tarixin ta qədim dövrlərindən günümüzə qədər Gəncənin etnik tərkibində nisbət heç vaxt türk əhalinin zərərinə əsaslı şəkildə dəyişməmiş, Gəncə bir türk ərazisi kimi təşəkkül tapmış, türk ərizisi kimi inkişaf etmiş, müasir günümüzə də türk ərazisi kimi daxil olmuşdur.

* * *

Əgər tarixi fakt və dəlillər, maddi arxiologiya nümunələri Gəncənin Azərbaycan türklüyünün ta qədim dövrlərdən bu günədək



ayrılmaz bir tərkib hissəsi olduğunu sübut edirsə, bu bölgədən toplanmış folklor nümunələri etnik subyektinin əsrlərdən bəri bütün varlığı-estetik düşüncəsi, həyata fəlsəfi-emosional baxışı, məişətdə mənəvi-əxlaqi prinsipləri, Tanrı-İnsan münasibətlərinə yanaşması və s. etibarilə türk şifahi bədii ənənəsinin və deməli türk mənəvi dəyərlər kompleksinin daşıyıcısı olduğuna şəhadət verir. Folklor nümunələrinin özündə əks etdirdiyi etnik dünya görüş kompleksi regional spesifika baxımından fərqlənmək şərtilə, bütün parametrləri üzrə həm Azərbaycanın digər bölgələrinin, həm də əski türk folklorunun ideya istiqamətləri ilə tam bir paralellik təşkil edir. Antologiyada təqdim edilən folklor örnəkləri istər lirik, istərsə də epik növlər üzrə olduqca zəngin janr rəngarəngliyinə malikdir. Digər bölgələrimizin folklor mühitlərindən fərqli olaraq Gəncə folklorunda hansısa təmayülün dominant mövqeyi (Göyçə folkloru-Aşıq yaradıcılığı, İraq-Türkmən folkloru-lirik janrlar, xüsusən bayatı, Şəki folkloru-lətifə və s.) Gəncə folkloruna xarakterik deyildir. Burada öz mənbəyini istər ideya-estetik baxımdan (etnik dünyagörüşü şifrələmə) istərsə də forma - dil-üslub xüsusiyyətləri baxımından əski türk epik təfəkküründən götürən folklor örnəklərinin eyni dərəcədə mükəmməl inkişaf səviyyəsi, paralel yayılma arealı ilə tanış oluruq.

Lirik janrlar içərisində dəgər janrlarla müqayisədə əski dini dünyagörüşü etnik-inam sistemini, mifoloji baxışları əks etdirən ovsunlar, alqışlar, qarğışlar, andlar, yanamalar öz orijinallığı, əski dünyagörüşün izlərini özündə qoruyub saxlaması ilə diqqəti cəlb edir. Əski etnik emosional-poetik duyğuların ifadəçisi olan bayatılar, ağılar, laylalar da lirik növün janrları içərisində xüsusilə fərqlənir.

Öz janr-üslub səviyyəsi baxımından müasir nəzəri qəliblərə sığmayan (lirik və epik səciyyəsi çətin müəyyənləşən) elə janrlar da vardır ki, bunlar birbaşa xalq məişətinin, onun etnik həyat tərzinin birbaşa ifadəçisidir. Antologiyada lağlar, gileylər, yanamalar, tapşırmalar, kimi sırf milli səciyyə daşıyan janrlar bu baxımdan diqqəti daha çox cəlb etməkdədir. Regionun mədəni subyektinin birbaşa fərdi psixoloji özəlliyindən irəli gələrək meydana çıxan yanamalar və tapşırmalar xüsusilə az təsadüf olunan nadir janrlardır. Folklorun lirik janrları içərisində geniş yayılmış holavarlar, sayaçı sözləri, mövsüm-mərasim nəğmələri də Gəncə folklor örnəkləri içərisində geniş yer tutur. Xüsusən mərasim nəğmələri regional spesifikası ilə seçilir.

Gəncə folklor antologiyasının əksər hissəsini epik janrlar təşkil edir. Mifoloji rəvayətlər, əfsanə və rəvayətlər, nağıllar, gülməcələr, dastanlar və s. türk epizminin bütün incəliklərini, janr spesifikası baxımından özəlliklərini özündə əks etdirir.

Gəncə folklorunun janr özəlliklərindən danışarkən uşaq folklor örnəklərini də xüsusi qeyd etmək lazımdır. Düzgülər, dolamalar, cırnatmalar, yanıltmaclar, nazlamalar kimi şux, oynaq ritmli janrları özündə əks etdirən Gəncə uşaq folkloru həm duzlu-məzəli üslubi xüsusiyyətləri, həm də ideya baxımından tərbiyəvi əhəmiyyəti ilə xüsusilə seçilir.

Bildiyimiz kimi Gəncə və ona yaxın olan ərazilər Azərbaycanın olduqca mükəmməl inkişaf səviyyəsi keçmiş aşıq mühitlərindən biri kimi tanınmaqdadır. İstər söz-repertuar, istərsə də ifaçılıq özəllikləri baxımından xüsusi aşıq mühiti kimi formalaşmış Gəncə aşıq mühiti özündə bir çox ustad aşıqların ad və imzalarını tarixi-bədii yaddaşımızda bu günümüzə qədər qoruyub saxlamışdır. Məhz coğrafi arealda aşıq sənətinin qədim ənənələrinin mövcudluğu bu regionda aşıq sənəti ilə əlaqədar janrların da geniş yayılmasına səbəb olmuşdur. Antologiyada xüsusi yeri olan dastanlar və el şairlərinin şer nümunələri regionun aşıq sənəti ənənəsinin diqqətəlayiq işarələridir. Aşıqlar və el şairlərindən Molla Əsgərin, Bisavad Teymurun, Mülkülü Həsənin poeziya örnəkləri bu dediklərimizin əyani təsdiqləridir.

Beləliklə, Gəncə folklor örnəklərinin janr spesifikası, Azərbaycan folklorunun zəngin janr müxtəlifliyini bütün dolğunluğu ilə özündə əks etdirir, bundan əlavə bir neçə yeni janrlar da (yanamalar, tapşırmalar və s.) təqdim edir.

Gəncə folklor nümunələri xalqın mənəvi dünyagörüşünü əks etdirməsi baxımından türk mənəvi dəyərlər kompleksinə söykənir. Bu cəhət hissi-emosional ifadə planının qabarıq olduğu lirik janrlarında xüsusilə nəzərə çarpır:

Əzizinəm əvəngəz,
Dağda bitər əvəngəz.
Yadlardan arxa olmaz,
Öz arxana güvən gəz.

Yaxud:

Əzizim, başa çalar,
Çalmasın başa çalar.



Yemə namərd çörəyin,
Qaldırıb başa çalar.

Yaxud:

Mən aşiq yerdə məni,
Salmayın dərdə məni.
Namərdə qul olmaram,
Qurban kəs mərdə məni.

Nümunə gətirilən bu bayatılarda xalqın mənəvi-əxlaqi dəyərlər kompleksi (doğma-yad, mərd-namərd oppozisiya cərgəsində əyaniləşən mənəvi dəyərlər) yüksək bədii-estetik bir poeziya örnəkləri səviyyəsində təqdim olunmuşdur. Lirik janrlar içərisində, xüsusən bayatılarda məhəbbət, ayrılıqdan doğan həsrət, vüsal ümidi əsas aparıcı istiqamətləri təşkil etməklə yanaşı, bu poetik fonda xalqın həyat haqqında fəlsəfi düşüncələri də özünün dolğun bədii əksini tapmışdır:

Dağlar başı qarıdı,
Dibi bəhram barıdı,
İlki şirin dünyanın,
Sonu zəhirmarıdı.

Dünyanı əzəli və sonu arasında bir yolçuluq kimi təqdim edən etnik-bədii şüur bayatılar vasitəsilə bu iki nöqtə arasında insanın bütün emosiyalarını-sevincini, kədərini, sevgisini, nifrətini, vətən həsrətini, fəlsəfi düşüncələrini özündə əks etdirir.

Lirik janrlar içərisində ağılar da öz poetik özəllikləri baxımından diqqəti cəlb edir:

Ürəyimdə yara var.
Üstündə xal-qara var.
Aç ürəyimin başın,
Gör yanmamış hara var?

Dörd misralıq bir şerdə «dərd»in ağrı-acısı olduqca mükəmməl poetik səviyyədə təqdim olunmuşdur.

Gəncə folklor antologiyasının mühüm bir hissəsini təşkil edən alqışlar, qarqışlar, mövsüm-mərasim nəğmələri və s. əski türk inanc sistemini əks etdirməsi, özündə əski etnik-dini, mifoloji «folklor informasiyası» daşımaq baxımdan maraq doğurur. «Qurd ağzı

bağlama», «Ziyili yox etmə», «Bədnəzərdən qorunma», «Duzyandırma», «Xıdır Nəbi» kimi ovsunlar və mövsüm-mərasim nəğmələri əski türk inanc sistemi ilə İslami inanc sistemini özündə sintezin bariz nümunəsi kimi xalqımızın tarixən formalaşan inanc sistemləri kompleksini bir bütöv halında əks etdirir:

Üzərliksən, havasan,
Hər dərdlərə davasan.
Pis gözlərə yavasan,
Üzərliyin çırtlasın,
Yaman gözlər partlasın.

Bu, birbaşa çox qədim əski türk inanc sisteminin bu gün xalq arasında yaşayan izləridir. Bundan fərqli olaraq «Qurd ağızı bağlamaq» ovsunu isə İslami mərhələnin göstəricisidir:

Qulfu, qulfu,
Allah qulfu.
Qulfu,
Süleyman Allah qulfu.
Qülfunu götdüm əlimə,
Adını gətdim dilimə.
Dörd yanın hasar olsun,
Hasarın müxtəsər olsun.

Gəncə folklor antologiyasına daxil edilmiş mətnlər içərisində aşıq yaradıcılığı nümunələri xüsusi əhəmiyyətə malikdir. Məlum olduğu kimi Gəncə aşıqlarının yaradıcılığı Azərbaycan aşıq sənətinin inkişafında xüsusi rol oynamışdır. Gəncə aşıq yaradıcılığında janr rəngarəngliyi diqqəti xüsusi cəlb edir. Toplanmış folklor örnəkləri içərisində aşıq yaradıcılığının ən iri janrı olan dastandan tutmuş, qoşma, gəraylı, təcnis, müxəmməs və s. müxtəlif şer şəkilləri öz ideya-estetik və bədii-sənətkarlıq özəllikləri ilə diqqəti cəlb edir.

Məlum olduğu kimi dastan, onun aşıq mühitində formalaşma və mükəmməlləşmə səviyyəsi bilavasitə həmin mühitin inkişaf səviyyəsinin göstəricisidir. Gəncə folklor antologiyasına bu regiondan toplanmış üç dastan: «Məmmədlə Güləndam», «Səmədlə Savad», «Nəcəf» daxil edilmişdir. Hər üç dastan ənənəvi dastan təsnifatı prinsipinə görə məhəbbət dastanlarına uyğun gəlir. Bu dastanlar öz süjet və kompozisiya strukturu baxımından, dastan üçün mövcud məlum qəhrəmanın mərhələli həyatını əks etdirməsi baxımından əski türk epik ənənəsinə əsaslanır. Məsələn, «Məmmədlə Güləndam» dastanında sujet mərkəzi qəhrəmanın həyatını əks etdirməklə aşağıdakı hissələrə ayrılır:



1. Məmmədin dünyaya gəlməsi;
2. Məmmədin Güləndamı görməsi;
3. Qarşıya çıxan maneələr və onlara qarşı mübarizə:
4. Mübarizə və qələbə:

Dastan sujetinin bu strukturu mərhum folklorşünas M.Təhmasibin müəyyənləşdirdiyi mövcud struktura tam cavab verir. Lakin bəzi məqamlarda bu strukturun qəlibləri pozulur. Belə ki, məlum olduğu kimi ənənəvi məhəbbət dastanlarında qəhrəman öz sevgilisini yuxuda görür, ona buta verilir. «Məmmədlə Güləndam» dastanında isə qəhrəman sevgilisini real həyatda görür:

«Nə təhər oldusa bir gün səhər tezdən Məmməd icazəsiz nökərin otağının qapısını açdı. Baxdı ki, otaqda bir qənirsiz gözəl yatıbdı. Bu qızın on səkkiz-on doqquz yaşı ola-olmaya. Qızın gözəlliyi Məmmədin ağlını başından aldı».

243495

İlk baxışdan dastan strukturunun «pozulması» kimi nəzərə çarpan bu cəhət Gəncə dastan yaradıcılığının regional spesifikasından irəli gəlir. Gəncə dastanlarının regional spesifikası özünü bu dastanlarda nağıl ünsürlərinin mövcudluğunda göstərir. Bu cəhət istər hadisələrin təhkiyəsindəki dil-üslub xüsusiyyətlərində, istər ayrı-ayrı nağıl komponentlərinin dastanda iştirakında, istərsə də yuxarıdakı misalda olduğu kimi dastanın struktur hissəsinin «deformativ xarakterində» üzə çıxır. Belə bir spesifika Gəncə dastan yaradıcılığına özünəməxsus bir orijinallıq gətirir.

Gəncə aşıq yaradıcılığının diqqət çəkən digər bir cəhəti burada aşıq şer nümunələrinin zəngin formalarda təzahürüdür. Praktiki olaraq aşıq sənəti ilə məşğul olmayan, lakin xalq şer üslubunda əsərləri ilə Gəncə regionunda məşhur olan el şairlərinin əsərləri ilk növbədə didaktik ruhu (ustadnamə), fəlsəfi ideyaları ilə diqqəti çəkir. Bu şer nümunələri Azərbaycan aşıq şerinin zəngin inkişaf təcrübəsinə əsaslanaraq öz poetik ruhunun bütövlüyü, fəlsəfi ideyalarının dərinliyi ilə xüsusilə seçilir:

Dünya bivəfadır, aldadar səni,
Könül uyma bu cahana, dedimmi?
Bir kəsə qalmayıb, sənə də qalmaz,
Bivəfadan çəkil yana, dedimmi?



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

*Bu dünya dediyin bir xanimandı,*
*Kim gəldi dünyaya bu dünya dandı.*
*İqbaldan yonulmuş bir nərdivandı,*
*Səni çəkər imtahana dedimmi?*

*(Bisavad Teymur)*

***Bu nümunədə şairin dünya haqqında fəlsəfi düşüncələri sufi dünya modelinə uyğun gəlir ki, bu da bu regionda aşıq şerinin sufitəriqət təmayülünün geniş intişarından xəbər verir. Bu istiqamət digər bir el şairi Molla Muradın divanisində bütün poetik terminologiyası, fəlsəfi-ürfani ruhu etibarilə daha da qabarıqlaşır:***

*Ləli-gövhər isimlərdə,*
*İsmə gərək dal gələ.*
*Əsəd, Səməd, Əsədullah,*
*Əsgərə əhval gələ.*

*Məhərrəm, Əhməd, Hilal,*
*Məhəmməd al gələ.*
*Bu məqamda Molla Murad,*
*Səs-səsə, sual gələ.*

***Gəncəbasar folklor antologiyasında cəmlənmiş folklor nümunələrimiz öz janr müxtəlifliyinə, daşıdığı zəngin informasiya tutumuna, spesifik əlamətlərinə görə gec-tez xüsusi folklorşünaslıq tədqiqatının predmetinə çevriləcəyi şübhəsizdir. Bu antologiya gələcəkdə professional tədqiqatlara yol açmaq baxımından bu yolda atılmış ilk addımdır.***

***HÜSEYN İSMAYILOV***



# I. İNAMLAR, SINAMALAR

## A

Axır çərşənbə gecəsində bir tərəfinə qırmızı, o biri tərəfinə qara qələm qoyulmuş yumurtanı axar suyun qırağında gizlədirlər. Niyyətin baş tutacaqsa, yumurtanın üstünə qırmızı, baş tutmayacaqsa qara xətt çəkilər-deyərlər.

Axır çərşənbə gecəsində kasaya bir az su töküb içərisinə bir ucuna pambıq dolanmış iki iynə salırlar. Əyər iynələr yaxınlaşsa, ürəyində niyyət tutan adam tezliklə öz sevgilisinə qovuşacaqdır-deyərlər.

Axır çərşənbə gecəsində ürəyində niyyət tutub qapı dinləyirlər. Yaxşı söz eşitsən, istəyinə çatarsan-deyərlər.

Axır çərşənbə gecəsi hamıdan xəlvət bişirdiyin duzlu kökəni yeyib yatırsan. Həmin gecə yuxuda susayanda sevdiyin oğlan sənə su verəcək-deyərlər.

Axır çərşənbə gecəsi almanı qabıqlarını qırmamaq şərti ilə bütöv soyub yeyirsən. Güzgünü həmin qabıqlarla bir yerdə başının altına qoyub yatsan, qismətinə çıxacaq adamı yuxuda görərsən-deyərlər.

Axır çərşənbə gecəsində iki dolça götürüb xəlvətcə birini manşırlayırsan. Dolçaların ikisini də bir uşağa verib suya göndərirsən. Ürəyində tutduğun-manşırladığın qab dolu gələrsə, niyyətinə çatarsan-deyərlər.

Axır çərşənbə gecəsində qızlar arxası qapıya sarı durub ayaqqabı tayı atarlar. Ayaqqabının burnu qapıya tərəf düşərsə, onu atan qız tezliklə ərə gedəcək-deyərlər.

Adna gecəsi bütün ruhlar öz ocaqlarına qayıdırlar. Ona görə də həmin axşam gözü ocağınızda olanların adına qazan asmalı, xörəyə duz tökdükcə onların adını anmalısan ki, ölülərin ruhu şad olsun-deyərlər.

Ay tutularsa savaş olacağına inanardılar. «Div ay nənəni tutub» deyərək küçələrdə, evlərdə tənəkə çalaraq səs-küy salardılar.

Axşam gün sarısında parça buludlar qızarsa yağmur olar.

Aşura günü dünyaya gələnin böyüyəndə uşağı olmurmuş-deyərlər.

### B

Birinin dilindən bəz çıxanda özündən kiçik olana deyər:
-Dilimə bəz çıxıb.
O da gərək cavabında desin:
-Tüpür yerə düşsün!
Bu hərəkət üç dəfə təkrar olunmalıdır.

Birinin gözünün altına kiprik düşübsə yanındakı adam ürəyində niyyət tutub bunun hansı gözü olduğunu həmin adamdan soruşur. Əgər düz taparsa, niyyətin baş tutacaq-deyərlər.

Birisinin evində ilk dəfə yatanda nə yuxu görsən, gerçək olar-deyərlər.

Boylu qadın yeriyəndə əvvəlcə sağ ayağını atırsa, oğlu olar - deyərlər.

Bıçağın ağzı dik durarsa, deyərlər ki, qurban istəyir, kəsmək lazımdı.

Bıçaq yerə düşərsə, deyərlər ki, kişi qonağı gələcək.

Bir döşəkçənin altına qayçı, o biri döşəkçənin altına bıçaq qoyurlar. Hamilə qadın əgər gəlib qayçı olan döşəkçənin üstündə oturarsa, qızı, altında bıçaq olan döşəkçənin üstündə oturarsa, oğlu olar - deyərlər.

A ləlo-ləlo Ağakərim,
Saqqalı şələ Ağakərim.
Qızın oğlan doğubdu,



Get onu belə, Ağakərim.

Mən lələ-lələ deyiləm,
Saqqalı şələ deyiləm.
Qızım oğlan doğubdu,
Mən ona bələd deyiləm.

Birinin günahını yumaq üçün başına qırx çanaq su tökərdilər. Onda günahından keçiləcəyinə inanırlar.

### Ç

Çörəyi dizinə dayayıb kəssən, aclıq düşər-deyərlər.

Çörəyi ayaq altına atan adam çörək tapmaz-deyərlər.

Çörəyi tək əllə kəsmək günahdı-deyərlər.

### D

Duz töküləndə dava düşər-deyərlər.

Dırnağında ağ xal görünərsə, deyərlər ki, hədiyyə alacaqsan.

Dovşanın quyruğu yuxusuz uşağın başına bağlanarsa, ya yastığının altına qoyularsa onun yaxşı yatacağına inanırlar.

Diş ilə kəsilən loxmanı başqası yeməz, yeyərsə aralarına düşmənçilik düşər - deyərlər.

### E

Evin damında bayquş ulasa, həmin evə vay düşəcək. Qada-bəlanı sovuşdurmaq üçün duz-çörək götürüb bayquşa and verirsən ki, buradan getsin.

Eşşək anqıranda başını qaşı, yoxsa başına qotur düşər-deyərlər.

### Ə

Əlindən düşüb sınmayan qabı mütləq sındırmalısan ki, qada-bəla səndən uzaq olsun-deyərlər.

G

Güzgünün sınmağı pis əlamətdi. Guya güzgü sınanda bəxt sınır.

Gəlin ilk dəfə evə qədəm qoyanda evin içinə çörək düzərlər. Gəlin həmin çörəkləri yığışdıra-yığışdıra evə girir. Onda gəlinin ayağı uğurlu, ev isə bərəkətli olar-deyərlər.

Gəlinin qabağına güzgü, çıraq tutarlar.

Gəlinin sandığına, şirin çörək (nazik) qoyarlar. Guya onda gəlin düşdüyü ocağa özü ilə şirinlik, bərəkət gətirər.

Gəlin ata evindən çıxmamışdan qabaq cavan qızlar onun ovcuna düyü qoyurlar ki, qapıdan çıxanda bir-bir subay qızların adlarını çəkib yerə səpələsin. Adları çəkilən qızların da tezliklə bəxti açılar-deyərlər.

Gəlin oğlan evinin astanasında əvvəlcədən qız evindən götürülmüş boşqabı sındırmalıdır.

Gəlin gələndə başını qaldırıb zehə baxsa, qaynanası ölər-deyərlər.

Gəlin ilk dəfə oğlan evinə gələndə bəyin ayağını basmalıdı. Onda gəlinin sözü keçər-deyərlər.

Gəlin gedəndə qabağında yanan çıraq sönərsə, pis əlamətdi.

Gəlin gedən evin qapısına qız evindən götürülmüş mismar çalınır. Onda qızın yeri möhkəm olar-deyərlər.

H

Hər kimin ayağına süpürgə dəysə, şərə düşəcək-deyərlər. Onda süpürgəni əlinə alıb üç dəfə tüpürməlisən.

Hər kim təndirdən çıxan ilk çörəyi yesə, ilk bəxti (arvadı, yaxud əri) ölər. Ona görə də ilk çörəyin siftəsindən bir tikə kəsib itə atarlar.

Hamilə qadının başına ondan xəbərsiz bir çimdik duz atıb onun hərəkətlərinə göz qoymaq lazımdır. Əgər qadın əlini saçına çəkərsə



qızı, ağzına çəkərsə oğlu olar - deyərlər.

Hamilə qadının döşlərinin kənarı qızarsa oğlan, qaralsa qız olacağına inanırlar.

X

Xəmir yoğuran iki adam əlinin xəmirini eyni qabda yusa, öc düşərlər.

Xəmir yoğuranda xəmirdən bir tikə sıçrayıb yerə düşərsə, qonaq gələcək-deyərlər.

İ

İt quyruğunu bulayırsa yağış yağacaq.

İt arxası qapıya tərəf şöngüyürsə, ev yiyəsinin sözünü danışırlar-deyərlər.

İki uşaq qəfildən baş-başa dəysələr, ikisi də yerə tüpürüb deyərlər: "Tfu, keçəlim yerə!"

K

Kəlləpaça bişəndə iki adam heyvanın gözünün yağını yesə, həmin adamlar öc düşərlər.

Q

Qaşıq yerə düşərsə, arvad qonağı gələcək-deyərlər.

Qabağından qara pişik keçərsə, uğurun xeyir olmayacaq-deyərlər.

Qulaq civildirsə qeybətinin edildiyinə inanırlar.

P

Pişik əl-üzün yuyanda qonaq gələcək-deyərlər.

Pişiklərin ağlaşması pis əlamət sayılır.

### S

Süfrədə qablar cərgəyə düzülsə, qonaq gələcək-deyərlər.

Sərçələr küldə eşələnərsə, deyərlər ki, yağış yağacaq.

Sərçə kimin başını bulasa, dövlətli olacaqsan-deyərlər.

Sağ qulağın cingildəsə, kimsə xeyirliyə, sol qulağın cingildəsə bədinə danışır.

### T

Tikəsi ağzından düşən adam şad xəbər eşidər-deyərlər.

Toyuğun banlaması pis əlamətdir. Deyərlər ki, vaxtsız banlayan toyuğun başını kəsərlər.

Tanış bir adam səni tanımasa, deyərlər ki, dövlətli olacaqsan.

### U

Uşaq başını qıçlarının arasına soxub baxırsa, qonaq gələcək-deyərlər.

### Y

Yatan adam qorxmasın deyə başının altına bir tikə çörək qoyarlar.

Yerə düşən çörəyi kim görsə, öpüb gözünün üstünə qoymalıdı.

Yarasa qanadını suda saxlayıb, sonra həmin sudan körpəyə içirdəndə onun gələcəkdə çox ağıllı olacağına inanırdılar.

Yola çıxanın dalınca su atanda yolunun aydın olacağına inanırlar.

### Z

Zahı qadın on günlüyündə onunu tökməli (çimib təmizlənməli), qırx günlüyündə isə qırxını tökməlidir. Qırxını tökəndə başından qırx qaşıq su (buna kusul (qüsul) suyu da deyirlər) tökməlidir. Suyu tökə-tökə üç dəfə bu sözləri təkrar etməlidir: Can kusulu tökürəm, vacibdi, qürbətən Allah.



# II. OVSUNLAR, ALQIŞLAR, QARĞIŞLAR, YANAMALAR, LAĞLAR VƏ ATMACALAR, GİLEYLƏR, TAPŞIRMALAR, ANDLAR

## OVSUNLAR

### QURDAĞZI BAĞLAMA

Qulfu, qulfu,
Allah qulfu.
Qulfu,
Süleyman Allah qulfu.
Qulfunu götdüm əlimə,
Adını gətdim dilimə.
Dörd yanın hasar olsun,
Hasarın müxtəsər olsun.

Bu sözləri arada fışqırıq çalmaq şərtilə birnəfəsə üç dəfə təkrar etmək lazımdır. Onda qurdun ağzı bağlanar, örüşdən qayıtmayan mal-qara salamat gələr.

### ZİYİLİ YOX ETMƏ

Təzə ay doğanda aya baxa-baxa ziyilə köhnə süpürgə çəkmək, yaxud öpmək, bu sözləri təkrar etməklə ziyil yoxa çıxır:

Ay, səni xoş gördük,
Ziyil, yerin boş gördük.

### BƏDNƏZƏRDƏN QORUNMA

Gecə yatanda, uzaq səfərə çıxanda, hər hansı bir işə başlamaq istəyəndə bədnəzərdən qorunmaq üçün bu sözləri oxuyarlar:

Bismi-bismi bismillah,
Bismi sübhən qulfallah.
Qulfallahnan İmam Hüseynin,
Möhrünü yazaram.
İmam Hüseynin möhrünnən,
Pisin, oğrunun, bədnəzərin,
Ağzını, gözünü bağlaram.

Dörd yanımız hasar olsun,
O bir Allah üstümüzdə yar olsun.

## DUZYANDIRMA

Duzyandırma üzərlik yandırma törəni kimi icra olunur. Göz dəyən adamın başına bir çimdik duz hərləyib gözü dəyməcəli adamların adlarını çəkə-çəkə ocağa atıb, oxuyarlar:

Bir ovuc duz,
Ocaqda qız.
Yanıb kül olsun,
Balama dəyən göz.

## TÜSTÜ BAZAR

Tüstünü belə qovardıq:
Tüstü bazar,
Tüst bazar.
Bizdə çörək yoxdu,
Qonşumuzda çoxdu.
Əgər tüstü qonşuya getməsə, çobana tərəf göndərərdik:
Tüstü çobana,
Qatıq çalana.

## TAPIL-TAPIL

Tapıl-tapıl,
Yağlı kökə bişirmişəm.
Tapılmasan,
Küllü kökə bişirərəm.



## ALQIŞLAR

**A**

Adını bir kotan çəkməsin!
Aqibətin xeyir olsun!
Ağ bəxt olasan!
Ağzın şirin olsun!
Ağ günlü, ağ yaylıqlı olasan!
Allah qüvvət versin!
Allah köməyin olsun!
Allah gözünə işıq versin!
Allah sənə yar olsun!
Allah canını sağ eləsin!
Allah tutduğundan, qoyduğundan xeyir versin!
Atın nalsız olmasın!
Axırın aydınlıq olsun!
Allah balalaruvu xoşbəxt eləsin.
Allah süfrəni açıq eləsin!
Allah köməyin olsun!
Allah qəfil xətadan-bəladan saxlasın!
Allah gözünə işıq versin!
Allah əziz eləsin!
Allah ruzunu başından töksün!
Allah şəfa versin!
Allah toy qismət eləsin!
Allah yaman gün verməsin!
Allah ömür versin!
Allah canını sağ eləsin!
Allah amanında!
Allah kölgəni üstümüzdən əksik eləməsin!
Allah sənə bir şirin pay versin!
Allah səni göyərtsin!
Allah əvəzini versin!
Allah özü qıymasın!
Allah sənə də gəlin qismət eləsin!
Allah bazar versin!
Allah uğur versin!
Allah bədnəzərdən iraq eləsin!

Allah balalarının gözünə çıraq eləsin!
Allah çox yerdən ruzunu yetirsin!
Allah səni heç kəsə möhtac eləməsin!
Allah səni sevindirsin!
Allah qəbul eləsin!
Allah ovsanatdan çıxartmasın!
Allah ürəyinə görə versin!
Allah səni daramanda qoymasın!
Allah dardan qurtarsın!
Allah başatan versin!
Allah özü xeyirə calasın!
Allah xeyrə döndərsin!
Allah səni anana başacan versin!
Allah bəxtini açsın!
Allah səni güldürsün!
Allahın kərəmi uca olsun!
Allah qismət bərəkət versin!
Allah səni ananın gözünə çıraq eləsin!
Allah əlimizdən alıb, könlümüzdən də alsın!
Allah hərənin gözünü öz ocağında eləsin!
Allah bədnəzərdən saxlasın!
Ananın südü kimi halalın olsun!
Allah yarıyanlardan eləsin!
Allah həvəsinə yetsin!
Atan behiştlik!
Allah bu qapıya həmişə xeyir iş qismət eləsin!
Allah o günlərdən toy versin!
Axır qəmin olsun!
Axşamın xeyir!
Allah əziyyətini əlində qoymasın!
Allah səni namərdə möhtac etməsin!
Allahın nəzəri üstündən əskik olmasın!
Allahın ətəyinə atıram!
Allah özü sənə yar olsun!
Allah sözünü eşitsin, sən ki, mənim sözümü eşitdin!
Allah hər kəs öz qəlbinə görə versin!
Allah düşmənimi də çörəknən imtahan eləməsin!
Allah səni sındırmasın!



Allah qazanının canını sağ eləsin!
Allah niyyətinə çatdırsın!
Allah səni sayılıb seçilənlərdən eləsin!
Allah atana rəhmət eləsin!
Allah səni Tur dağına döndərsin!
Allah ver deyincə versin!
Allah ziyarətini qəbul eləsin!
Allah günaha yazmasın!
Allah özü qismət eləsin!
Allah mübarək eləsin!
Allah səndən razı olsun!
Allah səbr versin!
Allah özü səni sinsitməsin!
Allah səni şirin paynan söyündürsün!
Allah sənə bir könül oylağı versin!
Allah sənə bir asand çörək qismət eləsin!
Allah nanəcibdən uzaq eləsin!
Allah cəmi darda qalanları dardan qurtarsın içində də bizi!
Allah sənə minnətli çörək qismət eləməsin!
Allah cəmi yaratdıqlarını Özü böyüklüyünə bağlasın, içində də bizi.
Allah dinaz götürməsin!
Allah bizi də cərgələrə qatsın!
Allah haqqı nahaqqa möhtac eləməsin!
Allah atanı oğula möhtac eləməsin!
Allah adamın ağlını əlindən almasın!
Allah adamın ağlını alınca, canını alsın!
Allah dualarımızı qəbul etsin!
Allah günahımızdan keçsin!
Allah yenə bizi düz yola qaytarsın!
Allah hərənin öz payını versin!
Allah hərənin qəlbinə görə versin!
Allah Allahlığına bağışlasın, bu qaranlığı üstümüzdən götürsün!
Allah hamının qəlbinə xof salsın!
Allah bir də bizi əyməsin!
Allah qolunuza qüvvət versin!
Allah özü qıymasın! Bir əyildik, bir də əyilməyək!
Allah görər gözümüzü, yeriyər qıçamızı, tutar əlimizi əlimizdən almasın!

Allah özü bu quyuda işıq yolu versin!
Allah bizi bu zindandan qurtarsın!
Allah bizi bir də pərən-pərən salmasın!
Allah sözümüzü eşitsin!
Allah bizi xar eləməsin!
Allah üstümüzdən acı yellər əsdirməsin!
Allah öz böyüklüyünə bağışlasın, bizi bu qırx arşın quyunun dibindən çıxartsın!
Allah yaxşıların hoyuna yetsin, çox biləni çox dərdə salsın!
Allah malına bərəkət versin!
Aydınlıq içində olasan!
Axırı xeyir olsun!
Ayağın sayalı olsun!
Alnına gün doğsun!
Ağzın şirin olsun!
Ağız şirinliyinən!
Adınnan yaşasın!
Axırın durulsun!
Ayağın sayalı olsun!
Ağzın şirin dadsın!
Ağız şirinliyi, könül xoşluğnan!
Ad alıb süfrə salasan!
Ağ günlü, ağ döyranlı olasan!
Axırdan yarı!

B

Başın uca olsun!
Bərəkətli olsun!
Bəxtin açılsın!
Bəxtin üzdə olsun!
Bəxtindən yarıyasan!
Bala dağı görməyəsən!
Başın uca olsun!
Balalarından yarıyasan!
Balan sağ olsun!
Baxtın üzünə gülsün!
Bağlı qapın açılsın!
Bayramın mübarək!



Bəxtinin çörəyini yeyəsən!
Bu dünyadan olub o dünyadan olmasın!
Bir qoy yüz götür!
Birin min olsun!
Borclunu borcdan qurtarıb, ahu balasına yetirən özü köməyin olsun!
Bir yandan bağlayan Allah bir yandan açsın!
Bizə deyənə Allah desin! Biz ki, heç kəsin toyuğuna kiş demirik. Yatar oğlağına daş atmırıq.

C

Canına qurban olum!
Canın sağ olsun!
Cəddinə qurban olum!
Cənnətlik olasan!
Cəmi ölənlərə Allah rəhmət eləsin!
Cibin dolu olsun!
Canın cənnətdə!

Ç

Çörəyi bol olasan!
Çırağın sönməsin

D

Damazlığın kəsilməsin!
Dərd-bəla səndən iraq olsun!
Dörd yanını oğul-uşaq bürüsün!
Dilin uzun olsun!
Dırnağı bərk olsun!
Dövlətin aşıb-daşsın!
Duan müstəcəb olsun!
Dünya durduqca durasan.
Dost deyən olsun!

E

Evin şen olsun!
Evinizə xeyir işə gələk!
Evinizə şadlıq aparın!

Eldən, obadan əskik olmayasan!
Evinə bərəkət düşsün.
Elədiyin qabağına çıxsın!

### Ə

Əziz olasan!
Əkdiyinin barını görəsən!
Əskik yeməyin belə olsun!
Əskik günümüz belə olsun!
Əlin-qolun ağrımasın!
Əlin umudlu olsun!
Əlin boşda qalmasın!
Əlin xeyirli olsun!
Əlinlə verdiklərin qabağına çıxsın!
Əli köməyin olsun!
Əllərin var olsun!
Əməyin əlində qalmasın!
Əlinən verdiyin balalarının qabağına çıxsın!

### G

Gözün aydın olsun!
Gözün işıqlı olsun
Görüm səni heç neylim-necə eliyim deməyəsən!
Günün ağ olsun!
Getsin o günlər bir də gəlməsin!
Gecən xeyirə qalsın!
Güllü-çiçəkli olasan!
Gözü dolu görəsən!
Gun o gün olsun ki, haqq öz yerini tapsın!
Günün gündən xoş keçsin!

### H

Halalın olsun!
Halal süd əmmişə urcah olasan!
Halal-halal hivəsi olsun!
Həmişə bu gündə!
Hər arzuna yetəsən!
Hörmətin artıq olsun!



Həmişə toylarda!
Həmişə evində-eşiyində!
Hər səfərdən sağlıqnan!
Həmişə təmizlikdə!
Halal olsun səni doğan anaya!
Halal oslun sənə tərbiyə verənə!
Həmişə xeyir tapasan!
Hoy deyənin Allah hoyuna yetsin!
Hökm Allahındı! Bizi bu günümüzə bağışlasın!

### İ

İlin ilindən xoş gəlsin!
İnəyi südlü olasan!
İstəyinə çatasan!
İtin hürsün, işığın gəlsin!
İşin avand olsun!
İşin irəli!
İştahlı olasan!
İman yiyəsi olasan!

### K

Kölgən üstümüzdən əskik olmasın!
Kaş ki, dünyamız düzəlsin!

### Q

Qabağına xeyir çıxsın!
Qədəmlərin uğurlu olsun!
Qolun qüvvətli olsun!
Qul sahibi olasan!
Qurbanın qoyun olsun!
Qurbanın qəbul olsun!
Qurdun ulasın!
Qədəmin mübarək!
Qəbri nurla dolsun!
Qohumluqdan əskik olmayasınız!
Qədir bilənə uçrah ol!
Qara daşa murad verən Allah bizim də muradımızı versin!
Qapına toylara gələk!

Qonşuluqdan əksik olmayasan!
Qapın həmişə xeyirliyə açılsın!
Qoşa qarısınlar!
Qazancın xeyirliyə qismət olsun!
Qonaq-qaralı olasan!
Qabağından duru sular axsın!
Qurbanın qoyun olsun!
Qayım-qədim olsun!

**M**

Min budaq olasan!
Murazına çatasan!
Mübarək olsun!
Min il yaşayasan.
Muştuluğun borc olsun!
Mərdlərə yoldaş olasan!

**N**

Nəvə-nəticəli olasan!
Nəzirin qəbul olsun!
Nehrən yağlı olsun!
Neçə belə bayramlara çıxasan!
Nəfəsin üstümüzdən əskik olmasın!
Nəvə-nəticə buyurasan!

P

Payın çox olsun!
Pir olasan!
Pis gözdən iraq olasan!

S

Sabahın xeyirliklə açılsın!
Sağlığına qismət!
Sağlıqla geyəsən!
Sənə quzu kəsim!
Sənə qurban olum!
Səni Tur dağına dönəsən!
Səsinə-səmirinə qurban olum!



Səfərin uğurlu olsun!
Südüm sənə halal olsun!
Süfrən açıq olsun!
Süfrən bol olsun!
Səni Allah qorusun!
Sinə dağı görməyəsən!
Səni görüm yeddi oğulnan bir süfrəyə əl uzadasan!
Sümüyün söyünsün!
Səni görüm yüz yaşa!
Sağ olasan!
Sağlıqnan işlədəsən!
Saqqalın ağarsın!
Səni qocalasan!
Sağ əlin başıma!
Səni Allah çox istəsin!
Süfrən dolu olsun!

**Ş**

Şərdən uzaq olasan!
Şadlıqlarda görüşək!
Şadlıqda qal!
Şirin yuxular görəsən!

**T**

Toyunu görək!
Toyun mübarək!
Toyunda pul xərcləyək!
Toyunda oynayaq!
Toylara geyəsən!
Torpaq sanı yaşayasan!
Təzə nübarlara çıxasan!
Təki dünyamız düzəlsin!

**Y**

Yayın yaylaqlı, qışın oylaqlı olsun!
Yalandısa, gerçək olsun!
Yastığın yüngül olsun!
Yapıncın qotazlı olsun!

Yarıyanlardan olasan!
Yeddi oğulnan bir süfrəyə əl uzadasan!
Yediyin yağ-bal olsun!
Yığvalın yeyin olsun!
Yığdığın sağlığına qismət olsun!
Yolun uğurlu olsun!
Yorulmayasan!
Yuxun şirin olsun!
Yeddi oğul atası olasan!
Yeddi oğlan babası olasan!
Yaman gözdən iraq!
Yekə qız olsun!
Yekə oğlan olsun!
Yolun yaxın olsun!
Yurdun şən olsun!
Yeri behişt olsun!
Yarıyanlardan olasan!
Yalandırsa gerçək olsun!
Yaman günlərimiz dalda qalsın!

Z

Zalım əlində qalmıyasan!
Zəhmətinin barını görəsən!
Zəhmətin əlində qalmasın!
Ziyanını görməyəsən!



## QARĞIŞLAR

A

Adın adlara qoyulsun!
Ağzına qıfıl vurulsun!
Ağzın əyilsin!
Ağzın ağı dadsın!
Ağzına keçə yamayım!
Ağzını qara molla yumsun!
Ağzında dilin yansın!
Ağzından çıxan ilan olub qoynuna girsin!
Ağ gün deyəndə burnunun ucu göynəsin!
Ağ gün görüb ağ əppək yemə!
Ağ gün görməyəsən!
Ağ gün deyəndə başın-dişin ağrısın!
Ağ gün görüb ala yaylıq bağlama!
Ağ günün ağlar qalsın!
Ağlını Allah alsın!
Ayağın yer tutmasın!
Allah arzunu, murazını gözündə qoysun!
Allah qoluna qüvvət verməsin!
Alova düşəsən!
Allah evini yıxsın!
Allah əlinin xeyrini kəssin!
Allah kəssin səni!
Allah kəssin damazlığını!
Allah kökünüzü kəssin!
Allah gözünə işıq verməsin!
Allah səni verincə bir qara daş verəydi!
Allah sənə qənim olsun!
Allah səni zəlil eləsin!
Allah sənə bəla versin!
Allah tutduğundan, qoyduğundan heç xeyir verməsin!
Allah həmişə səni ona-buna möhtac eləsin!
Allah heç işini onartmasın!
Ağzından çıxan qoynuna dolsun!
Allah dilini gödək eləsin!
Allahın ucuz ölümü yoxdu, öləsən!

Allah başına daş salsın!
Al qanın göl olsun, göl qanın xırman!
Allah səni mənə çox görsün!
Adın daşlara yazılsın!
Allahdan istəmişəm, səni diri olasan, dilənçi olasan!
Allah olan-qopan ağlını da əlindən alsın!
Allah bəlanı versin!
Ağlar günə qalasan!
Al qana batasan!
Allah belini qırsın!
Allah əkməyini kəssin!
Axırın ələk satanın axırına dönsün!
Ananın qarnı cırılaydı səni doğduğu yerdə!
Allah cavabını versin!
Andırın tökülsün!
Ahım səni tutsun!
Axırın paxır olsun!
Allahın qəzəbinə gələsən!
Allah sənə lənət eləsin!
Allah səni əlimdə alsın!
Anan səni ağlasın!
Allah başına mən ağırlıqda daş salsın!
Allah sənə qotur versin, dırnaq verməsin!
Alnına gün doğmasın!
Axır gedişin olsun!
Allah cəfanı versin!
Anan mələr qalsın!
Allah səni həmişə mənə möhtac eləsin!
Allah sənə umud ucu verməsin!
Ağrım ürəyinə!
Ağzın yaşmaq, ayağın başmaq görməsin!
And yiyəsi sənə qənim olsun!

## B

Bayramın qara boyansın!
Balaların yetim qalsın!
Bala deyəndə burnunun ucu göynəsin!
Barmağın qələm tutmasın!



Basalağın basılsın!
Başına arvad ləçəyi bağla!
Başın batsın!
Başın-dişin ağrısın!
Başın heç açılmasın!
Başın elə həmişə qaramatda olsun!
Başına kül ələnsin!
Başına ildırım düşsün!
Başını top aparsın!
Başın heç uca olmasın!
Belin qırılsın!
Bədəninə piltələr qoyulsun!
Bədəninə qotur düşsün!
Bədəninə qurdlar düşsün!
Boğazına boğma!
Böyrü üstə qalasan!
Bir dərdə düşəsən dərmanın tapılmasın!
Boyunu yerə soxum!
Boğazına qarayara çıxsın!
Belin sınsın düz ortadan!
Boynun qırılsın!
Boğazına şiş batsın!
Bəxtin qara çalınsın!
Barmaqların topal olsun!
Barmağın qurusun!
Başına qara yaylıq olsun!
Barmağın xına tutmasın!
Bin-bərəkətin göyə çəkilsin!
Bala böyüdüb barını yeməyəsən!
Bayramın qara geysin!
Baca-baca olasan, a belə bacı!
Başın duran yerdə ayağına daş dəyməsin!
Bir yerdə oturub min yerə qurd salasan!

## C

Cavan gedəsən!
Cavan canından xeyir görməyəsən!
Ciyərin yansın!

Cəllad əlinə düşəsən!
Cəhənnəm ol başımdan!
Canı cəhənnəm olsun!
Cibində siçanlar oynasın!
Canın qara yerdə qalsın!

Ç

Çörəyin zəhərə dönsün!
Çörək atlı olsun, sən piyada!
Çörək gözünü tutsun!
Çörək özü sənə qenim olsun!
Çörək tapmayasan!
Çarxın dönsün!
Çırağın keçsin!

D

Damazlığın kəsilsin!
Dalınnan qara daş getsin!
Dar gündən qurtarmayasan!
Deyən dilin qurusun!
Dizin-dizin olasan!
Dilin ağzında la ilahə illəllah tutmasın!
Dilin ağzında yansın!
Dilin qurusun!
Dilinə düyün düşsün!
Dilin lal olsun!
Dilin gödək, üzün qara olsun!
Dilin çürüsün!
Dədəndən sən qalıbsan, səndən də bir keçi başı tutan qalmasın!
Dərdin sinənə!
Döşümdən əmdiyin süd zədən-zədən olub burnundan gəlsin!
Dilin tutulsun!
Dilindən ilan çalsın!
Dilin pəltək olsun!
Dilli arvad toruna düşəsən!
Dəli dərdinə düşəsən!
Dilinə qarayara çıxsın!
Dilbilməz əlində qalasın!
Dəli ol, düzlərə düş!



E

Evin başına uçsun!
Evin dağılsın!
Elə dərdə düşəsən, çarası tapılmaya!
Evin yıxılsın!
Ev tik, içində oturma!
Evin xəraba qalsın!
Eynin açılıb, üzün gülməsin!
El içində xar olasan!

Ə

Əzrayılın güclü gəlsin!
Əkdiyini biçməyəsən!
Əlin aşa çatanda başın daşa çatsın!
Əlin qurusun!
Əsir-yesir ol!
Əlin qoynunda qalsın!
Ələ baxasan!
Əlin dalına çatmasın!
Əlin xına tutmasın!
Əlin çörəyə çatmasın!
Əndamına piltələr döşənsin!
Əzizivün beşi üstüvə gəlsin!
Əndamında qurdlar yerisin!
Əlin boş olsun, üzün qara!
Əndamın iylənsin!
Əllərimin əməyi səni tutsun!

G

Gedişin olsun, qayıdışın olmasın!
Geri yanın boş qalsın!
Gərdəyin qara boyansın!
Gorun çatlasın!
Gora imansız gedəsən!
Gordan gora hoppanasan!
Gorbagor olasan!
Goruna nəhlət!
Gözün tökülsün!

Gözün göyərsin!
Görüm səni qarğa-quzğuna yem olasan!
Günün günündən pis gəlsin!
Günün göy əskiyə düyülsün!
Günün qara olsun!
Gülən günün olmasın!
Gözünə qara su ensin!
Gözdən olasan!
Günün gündən qara gəlsin!
Gora əl uzadılı gedəsən!
Gələnin qabağınnan baxasan, gedənin dalınan!
Gözünə tikan batsın!
Gözün ovcuna qoyulsun!
Günün vayla keçir!
Görüb görəcəyin elə bu olsun!
Gözün əllərdə qalsın!

H

Haram olsun o boy-buxunun sənə!
Haram olsun sənə dədənin çörəyi, ananın südü!
Həmişə qarnın ac olsun, yanın boş!
Heç eynin açılı olmasın, üzün gülməsin!
Heç xeyrini görməyəsən!
Heç ürəyin açılıb, üzün gülməsin!
Heç bərəkallah almayasan!
Heç başın uca olmasın!
Havayı gülləyə rast gələsən!

X

Xaraba qalsın evin-eşiyin!
Xeyir əlin suya dönsün!
Xeyir görməyəsən!
Xeyir tapmayasan!

İ

İçin özünü yandırsın, çölün özgəsini!
İt kimi ulayasan!
İtnən bir qabda yal içəsən!



İt əlindən əppək alasan!
İki gözü kor olasan!
İynən tikiş tutmasın!
İmanına qorxaq tula bağlayım!

K

Kəndirin kəsilsin!
Kəfənin yırtılsın!
Kitabın bağlansın!
Kor ol, yedəkdə gəz!
Kökünüz kəsilsin!
Köçün köndələn sürülsün!
Kül başına!
Külün göyə sovrulsun!
Kürsəyə gələn canavar yığnağına düşəsən!

Q

Qada-bala heç evindən əskik olmasın!
Qadam ürəyinin başına!
Qazancın başına dəysin!
Qazancın həkimlərə qismət olsun!
Qan qusasan!
Qanına bələn!
Qanına qəltan olasan!
Qanın qotura dərman olsun!
Qanın it qanına dönsün!
Qana düşəsən!
Qapın bağlı qalsın!
Qapılarda qalasan!
Qapını Əzrayıl açsın!
Qapına vay düşsün!
Qarnın cırılsın!
Qara yola gedəsən!
Qara günnü, qara yaylıq qalasan!
Qarnına qara yara çıxsın!
Qarnın doğransın!
Qarnına şiş batsın!
Qara yara!

Qızın gəlin olsun, gərdəkdə qalsın!
Qırmızı paltara həsrət qalasan!
Qırx qıznan bir dərədə qalasan!
Qırx qapı əlliyəsən!
Qoldan-qılçadan olasan!
Qolun qurusun!
Qudurasan səni!
Qulağına yuyucu barmağı girsin!
Qulluğun qayım olmasın!
Qurdnan qiyamata qalasan!
Qana boyanasan!
Qapına qıfıl vurulsun!
Quyulara düşəsən!
Qazancın qana dönsün!
Qanın daşlara dağılsın!
Qolların yanına düşsün!
Qızıl gülləyə tuş gələsən!
Qucağın qundaq, ağzın quymaq tanımasın!
Qulağın Quran səsi eşitməsin!
Qarnında gora getsin!
Qəfil bəlaya tuş gələsən!
Qadam ağzına!
Quran sənə qənim olsun!
Qəfil xataya düşəsən!
Qurda-quşa yem olasan!
Qolun yanına düşsün!
Qulağına qara pambıq tıxansın!
Qarnına qara xamırrar bağlansın!
Qarğa-quzğuna yem olasan!

L

Lal olasan!

M

Meyidini görüm!
Meyidin ortalıqda qalsın, ağlayan olmasın!
Meyidin qurda-quşa yem olsun!
Mərdimazara rast gələsən!



Mürdəşir üzünü yusun!
Murazın gözündə qalsın!
Mən görən gündən görəsən!
Meydini ağlıyım!

N

Neyliyim-necə eliyim deyə-deyə qalasan!
Nəvə üzü görməyəsən!
Nə oğul toyu görəsən, nə qız!
Niyyətin öz başında çatlasın!
Niyyətin gözündə qalsın!

O

Oğul üzünə həsrət qalasan!
Onnan artıq yekələnməyəsən!
Ortalarda qalasan!
Oturmaqdan altından qara yara çıxsın!
Oxlanasan səni!
Ocağın qaralsın!
Ocağın sönsün!
Oğul toyu görməyəsən!

Ö

Öz ətəyindən od alasan!
Özün yolnan get, Əzrayılın kolnan getsin!
Öyünün bərəkəti göyə çəkilsin!
Öfkən yansın!
Öz başını ye!
Ömrün boyu ələ baxasan!
Ömrün gödəlsin!
Öləndə üstündə su tapmalısan!
Özündən güclüsünə rast gələsən!
Öləndə ağzına su tökən tapmalısan!
Ömrün kəsilsin!

P

Payın palçığa dönsün!
Papağın ağzına basılsın!

Papağın boş qalsın!
Partdamıya düşəsən!
Parça-parça olasan!
Partdaman güclü gəlsin!
Pis gözə bıçaq batsın!

**S**

Sağ gedib salamat qayıtmayasan!
Sağ başı gora salamat aparmayasan!
Saqqalın doğransın!
Səni yerə quyluyum!
Səni yer payı olasan!
Səni yer yesin!
Səni görüm paçıxlara qismət olasan!
Səni çörək tapma!
Səni cavan gedəsən!
Səni yarımıyasan!
Səni qır qazanına düşəsən!
Səni görüm yeddi qıznan bir süfrəyə əl uzadasan!
Səni qəfil gülləyə tuş gələsən!
Səni görüm həmişə inək çalxalayıb, qız başı darayasan!
Səni yeddi il bir üzünün üstə yatasan, yeddi il o biri üzünün üstə!
Səni soğan kimi soyulasan!
Səni görüm qudurub çiyninin ətini yeyəsən!
Səni kor olub yedəkdə qalasan!
Səni topal olasan!
Səni kor ilan çalsın!
Səni özündən güclüyə tuş olasan!
Səni elə azar tutsun ki, dərmanın qiyamata kimi tapılmasın!
Səni görüm qapı-qapı dilənəsən!
Səni dizin-dizin sürünəsən!
Səni çörəyin dustağı olasan!
Səni qana düşəsən!
Səni doğunca daş doğaydım!
Səni heç yekələnməyəsən!
Səni qara yer qucaqlasın!
Səni bedova dərdə düşəsən!
Səni görüm ölməyəsən: yeddi il bir böyrünün üstündə yatasan!



Səni qanının içində oynayasan!
Süylüsünündən vurul!
Səni heç artıb aramayasan!
Səni yanasan!
Səni daşa dönəsən!
Səsin batsın!
Sinənə çalın çarpaz dağ çəkilsin!
Sənə and qənim olsun!
Səni heç yarımayasan!
Səni bimar qalasan!
Səni gözdən olasan!
Səni heç sağ olma!
Səni səhərə sağ çıxmayasan!
Səni sonsuz öləsən!
Sinənə Əli-Vəli dağı çəkilsin!
Seyidlərin ceddi sənə qənim olsun!
Səni xain ilan vursun!
Səni görüm ər çörəyi yeməyəsən!
Səni görüm yeddi qıznan bir süfrəyə əl uzadasan!
Səni görüm öz canın hayına qalasan!
Səni şikəst olasan!

**Ş**

Şeytan ol, divara yapış!
Şenniyin heç şen olmasın!
Şərə düşəsən!

**T**

Təhnən boş qalsın!
Təhnən qurusun!
Tək qalasan!
Tikə-tikə olasan!
Toyun vaya dönsün!
Təpəndən yaloy çıxsın!
Toxumunuz yer üzündən kəsilsin!
Tay tuşdan seçkin olasan!
Tufanın dağılsın!
Təpənnən vurul!
Təpənə ulduz düşsün!

U

Uzun dilini Allah özü gödək eləsin!
Ulaya-ulaya qalasan!
Urvalığa həsrət qalasan!
Urzan göyə çəkilsin!
Uğuran daşa dəysin!

Ü

Üzün qara olsun!
Üzünü gor görsün!
Ürəyinə dağ çəkilsin!
Ürəyinə Əli-Vəli dağı çəkilsin!
Üstün unnu olsun, qarnın ac!
Üzünün suyu tökülsün!
Üzün heç ağ olmasın!
Üzünə daş yamansın!
Üzünü mürdəşir yusun!
Ürəiynə güllə dəysin!
Üzün gülüb, ürəyin açılmasın!
Üzün tüpürcəkli olsun!

V

Var-dövlət üzünə həsrət qalasan!
Vay düşsün başına!
Vayına oturum!
Var-dövlətin ellərə qismət olsun!
Varından xeyir tapmayasan!
Vurğun səni vursun!

Y

Yaman dərdə tutulasan!
Yaman günə qalasan!
Yanın yerdə qalsın!
Yeddi arxa dönəninə Allah nəhlət eləsin!
Yeddi yerindən çivan çıxardasan!
Yediyin çörək səni tutsun!
Yəhərin qanla dolsun!
Yiyəsiz qalasan!



Yığdığın yağıya qismət olsun!
Yolun bağlansın!
Yolun yomrulsun!
Yönün heç bəri düşməsin!
Yurduna su calansın!
Yurdunda bayquşlar ulasın!
Yurdunda turp əkilsin!
Yurdda qalma!
Yurd bayquşu kimi ulayasan!
Yurdunda başıpapaqlı qalmasın!
Yaman gözə bıçaq batsın!
Yeyib içdiyin zədən-zədən burnundan gəlsin!
Yəhərin dönsün!
Yəhərin qanla dolsun!
Yarandığın günə peşman olasan!
Yastığın ağır olsun!
Yurdunda keçi başı tutan qalmasın!
Yığvalın qara gəlsin!
Yurdun itsin!
Yarımayasan!
Yuvası dağılsın!
Yuxun ərşə çəkilsin!

Z

Zəlil olasan!
Zəhərə dönsün!
Zəhmətin əlində qalsın!

## YANAMALAR

Ananı mələr qoyaram!
Ananı ağlatmaq mənə borc olsun!
Qanına qaltan eliyərəm!
Qazancını qana döndərərəm!
Dilini boynunun kökündən çıxardaram!
Dilini bir qarış çıxardanda deyərəm sənə.
Körpüdə qoyunumu ha bölməyəcəksən?
Gözünün ikisini bir deşikdən çıxardacam!
Gözünə ağ salaram!
Gör sənin başına nə oyun açacam! Dədənnən, ananın toyu yadına düşəcək.
Sənin gönünü aşılıyacam!
Sənin gönünü soyaram!
Sənin papağını boş qoymasam, atamın oğlu deyiləm!
Sənə bir qaz qatığı çaldıraram!
Səni yarandığına peşman eləyərəm!
Sənə bir gəliş gəlləm, adın da yadından çıxar!
Pişiyini ağaca dırmaşdıraram.
Cərcənəyini ayıraram!
Ətini şişə taxaram.
Anandan əmdiyin südü burnundan gətirərəm.
Sənə dağ basaram.
Başın bədəninə ağırlıq eləməsin.



## LAĞLAR, ATMACALAR

### A

Ağzından süd iyi gəlir.
Arım var, arım var, eşşək arısı!
Aralıq atı, kor fatı.
Arığın nəyi var qoruqda, vurub qıçasını sındıralar.
Acından günorta durur!
Acından dəyirmanda durur, yekəxanalığından şahad almır.
Andır, a andır, cındırından cin hürkür.

A keçəl, başını yudunmu?
Yudum da, daradım da.

A xala, xala xaldırına,
Bir tuman tikim baldırına,
O da qalsın andırına!

Açıbsan, arı ye,
Dəyirmanda darı ye.

A keçəl, haran yaxşıdı,
Dağdan aran yaxşıdı,
Başın keçəl, gözün kor,
Sənin haran yaxşıdı?

### B

Bağa başını, qurbağa leşini tanımır.
Başı girməyən yerə burnunu soxur.
Başını yarıb, ətəyinə qoz töküb.
Bir ayağı burda, bir ayağı gorda.
Bir həsirdir, bir Məmmədnəsir.
Bu da arığını ilxıya qatır.
Bu da dağarcığını sürüyüb, çuvallar cərgəsinə qoyur!
Bu da adını kişi qoyub!

Baldızım, çuvaldızım,
Dəm-dəm batar.

Balağı batdaq,
Dabanı çatdaq.

Bəzənmisən bu gündəsən,
Bəzənməsən nə gündəsən?

Birə bitdən aşağı,
Bit birədən aşağı.
Gedərəm, qayıdıb gəlləm,
Ollam itdən aşağı.

C

Cəhənnəmə gedən özünə yoldaş axtarır.

Cavad xandı xanımız,
Unucadı unumuz.
Unnucaya qurd düşüb,
Necə olacaq günümüz?

D

Daz daznan yatdı, daz da dazalıq atdı!

Dadanıbdı duzlu dolmaya,
O da bir gün olmaya!

Dədəmi öldürmüşəm ki, goruna and içəm!
Dəli dəliyə qoşulub, dəyənək göydən yağır!
Dərdi çəkər dərdəcər, eybi çəkər eybəcər!
Dimdiyindən tora düşüb!
Dədəmi öldürmüşəm ki, goruna and içim!

Dədəm hər yarağı,
Qaldı saqqal darağı.

Düzəldi hər yarağı,
Qaldı saqqal darağı.

Dayı, dayı, daylaqlayım,
Səni minim, oynaqlayım.

E

Evində yel vurub, yengələr oynayır!
Elə bil yeddi eşşəyi sağına gəlir!

Eşşək nə bilir zəfəran nədir!



Evində yoxdur urvalıq,
Könlündən keçir darğalıq.

Eybi çəkər eybəcər,
Dərdi çəkər dərdəcər.

Ə

Ələ də, Əlləzə də!
Əli ətəyindən uzun gəldi!
Əli dəllal əlinə dəyməyib!

Əlimin içindən gəlir,
İçinin içindən gəlir,
İçində bir noxud var,
Onun da içindən gəlir.

G

Gəlin ayağa qalxdı, başlı başını saxlasın.

Gözəllər içində gözəlim itdi,
Başı sirkəliydi, yaxası bitdi.

Günümdə duranı gün vursun,
Şahmar ilanlar vursun.

Göy söyüd göyərdi,
Ərim məni döyərdi.

Gözəlağa çox gözəldi, vurdu çiçək çıxartdı.

Gəlirsən adam vurmağa!

H

Hamı hamıynan olanda keçəl də papağınnandı.
Hələ yüz il qanqal otla.
Hürən it dişləmir.

Hamı gedir quş gətirir,
Şaqqulu bayquş gətirir.

Harda aş,
Orda baş.

X
Xeccə bəzəkdə qaldı.

İ
İynə udmuş itə dönüb!
İtdən düşmüşə dönüb.
İtdən bir əppək borc alıb.
İt əlindən əppək almaz.
İtimə öyüd verdim, iki çivin də artıq tutdu.

K
Kor atın, kor da nalbəndi olar.
Kor kora kor deməsə, bağrı çatlayar.

Keçəlin dərdi, başı,
Bir qazan ayran aşı.

Q
Qara ağarmaz, su qurtarmaz!
Qara sudan qaymaq tutur!
Qırxı ayaqüstə çıxıb.
Qoy desinlər Xaçaturun da xançalı var!
Qudurasan qurbağa!
Qızlar ərə gedir, ər tapmayan gora.

M
Məmədalı,
Çal qavalı!
Kim oynasın,
Gülzar qarı!

Ö
Özü doğub, özü də göbəyini kəsir.
Öz gözündə tiri görmür, özgə gözündə qıl axtarır.

Ölmə eşşəyim, ölmə,
Yaz gələr, yonca bitər.



P
Pişiyin əli ətə çatmayanda adını iylənmiş qoyur.

S
Siçan deşiyini satın aldı.
Siçan olmamış dağarcıq yırtır.

Səbr elə, səbr daşı,
Su cürdəyi, daş bıçağı.

T
Toydan sonra nağara, xoş gəldin Bayramağa.
Tısbağa özünü apara bilmir, xalasını da dalına alır.

U
Uşaq başı aldadır.

V
Verəsən ətdən-mətdən,
Vuraram bərtdən-bərtdən.
Verərsən şordan mordan,
Vuraram ordan-burdan.

Y
Yağırını basdılar.
Yumurta yükü aparır.
Yumurtadan yun qırxır.
Yüz il namaz qılır, hələ qibləsini bilmir.
Yüz ilin eşşəyidi, dəyirmanın yolunu tanımır.

Yaxşılığa yamanlıq,
Kor eşşəyə samanlıq.

Yaz əkinçi,
Qış dilənçi.

## GİLEYLƏR

Bağda ərik var idi, salamməlek var idi, bağdan ərik qurtardı, salamməlek qurtardı.
Bugünkü sərçə dünənkinə cib-cib öyrədir.
Bizdən gedən mat olur, bizə gələn at.
Biz getmişik gəlin görməyə, gəlin gedib təzək dərməyə.
Gözümün kökü saraldı.
Xalqa aftafa-ləyən gələndə, bizə də sarımsaqdöyən gəlir.
Xalqa şalonnandı, bizə talonnan.
İsinmədik istisinə, kor olduq tüstüsünə.
Mən oğru oldum, ay dana qaldı.
Sən gördüyün küllü kömbə yoxdu.
O baban getdi ta...
Yüz il oruc tutdum, iftarımı zəhərnən açdım.



## TAPŞIRMALAR

Çörək Qur'andan irəlidi. Sən ki, yalandan çörəyə and içdin, çörək bilsin, sən bil!
Səni o kəsdiyimiz duz-çörəyə tapşırıram!
Səni o göydəki Allaha tapşırıram!
Səni bu şərin dar vaxtına tapşırıram!
Səni yeri-göyü Yaradana tapşırıram.
Səni o bir Allaha tapşırıram.
Səni bu işığa tapşırıram.
Səni bu gecənin yiyəsinə tapşırıram.
Səni anda tapşırıram.
Səni əlimin əməyinə tapşırıram.
Səni bu yanar ocağa tapşırıram.
Səni bu isti təndirə tapşırıram.
Səni bu axar suya tapşırıram.
Səni gözümün yaşına tapşırıram.
Səni bu qızıllı Qurana tapşırıram.
Səni bu şərnən şamın arasına tapşırıram.
Səni bu ağ birçəyinə tapşırıram.
Səni bu Əli yoluna tapşırıram.
Səni bu əllərimə tapşırıram.
Səni bu göy otu göyərdənə tapşırıram
Səni bu yağışı yağdırana tapşırıram.
Səni bu yorğun qollarıma tapşırıram.
Səni bu yuxusuz gözlərimə tapşırıram.
Səni bu axar suyun mələklərinə tapşırıram.
Səni İmamzadaya tapşırıram.
Səni oxuduğum Qurana tapşırıram.
Səni südümə tapşırıram.
Səni Haqq Yiyəsinə tapşırıram.
Səni bu Sabahın Yiyəsinə tapşırıram.
Səni Məkkə-Mədinyə tapşırıram.
Tərəzi çəkənin yüzdə biri cənnətə gedir.
Tərəzi bilsin, sən bil!

## ANDLAR

A

Axar su haqqı!
Atamın canına and olsun!
And olsun bizi yaradan Allahın birri birriyinə!
Allah haqqı!
And olsun Yeri, Göyü Yaradana!
And olsun bizi yoxdan xəlq Eləyənə.
And olsun gecəni-gündüzü Yaradana!
And olsun Yerin-Göyün Sahibinə!
And olsun Yerə-Göyə!
And olsun gecənin-gündüzün Sahibinə!
And olsun bu otu Bitirənə!
And olsun bu yağışı Yağdırana!
And olsun küllü-məxluqatın Yiyəsinə!
And olsun bu suyun mələklərinə!
Anamdan əmdiyim südə and olsun!
And olsun bizi Yaradan Allahın cəlalına!
And olsun bu küləyi əsdirənə!
Ay haqqı!
And olsun kəsdiyimiz duz-çörəyə!
And olsun Mişkin ocağına!
And olsun əzizlərimizin üz qoyduğu yaralı torpağa!
And olsun Günü Günortadan döndərənə!
And olsun bu əziz Bayrama!
And olsun dədəm oxuduğu Qurana!
And olsun göy otu göyərdənə!
And oslun qəbirlər ağası qərib İmam Rzanın qəbrinə!
And olsun şəhidlərimizin ruhuna!
And olsun əzizlərimizin goruna!
Namusum haqqı!
And olsun Qara daşa murad Verənə!
And olsun bağlı qapılar açana!
And olsun borclunu borcdan Qurtarana!
And olsun qeyb kəziləsindən ruzu Verənə!
Aldədə haqqı!



B

Bərəkət haqqı!
Bu tam haqqı!
Bu yol haqqı!
Bu süfrə haqqı!
Bu ne'mət haqqı!
Bunun (məsələn: qoyunun) qurbanlığı haqqı!
Bu açılan sabah haqqı!
Bu axşama and olsun!
Bu suyun mələkləri haqqı!
Bizi yaradana and olsun!
Bu ruzi haqqı!
Bu od haqqı!
Bunun (məsələn: qoyunun) damazlığı haqqı!
Bu çıraq haqqı!
Babalarımızın ruhuna and olsun!
Bu qənd kimi gözüm ağarsın, yalan deyirəmsə!
Bu qızıllı Quran haqqı!
Bu su haqqı!
Bü qıvla haqqı!
Bunun Minada kəsilən qurbanlığı haqqı!
Bu qəndin halvalığı haqqı!
Bü dəzgah haqqı!
Bu od kimi gözüm yansın, yalan deyirəmsə!
Bu halal süfrən haqqı!
Bu halal süfrədə kəsdiyim duz-çörək haqqı!
Bu düyünün qıfıllahı haqqı!
Bu nəzir haqqı!
Bu halal çörəyin haqqı!
Bu çırax haqqı!
Bu ocaq mənə qənim olsun, yalan desəm!
Bu işığa kor baxım yalan deyirəmsə!
Balamın əziz anı haqqı!
Balam ölsün, yalan deyirəmsə!
Bu əziz gün haqqı!
Bu gecənin yiyəsi haqqı!
Bu günkü günün İmamı haqqı!
Bu buğdanı Bitirən haqqı!

Bu qızıldan qiymətli başın haqqı! Bu duz haqqı!
Bu halal nemət haqqı! Bu duzun tamı haqqı!
Bu Sabahın Yiyəsi haqqı!Bu isti təndir haqqı!
Bu yanar ocaq haqqı!
Bu ocaq mənə qənim olsun, yalan desəm!
Bu Əli yolu haqqı!
Başın haqqı!

**C**

Canım haqqı!

**Ç**

Çörək haqqı!
Çörəyin bərəkəti haqqı!

**D**

Duz-çörək haqqı!
Dədəmin canı üçün!
Dilim qurusun, birini altdan, birini üstdən desəm.
Dədəmin goru haqqı!

**Ə**

Əzizlərizin yatdığı torpaq haqqı!
Ətağa!
Əzizlərimin urfu haqqı!
Əlinnən verdiyim çörək mənə qənim olsun, yalan desəm!

**G**

Göy haqqı!
Göy İmamın göy sandığı haqqı!
Göy İmamın göy günbəzi haqqı!
Gora imansız gedim, yalan desəm!

**H**

Halal nemət haqqı!
Haqq-salam haqqı!
Həzrət Abbas haqqı!
Haçaqaya haqqı!

**İ**

İmamzada haqqı!



İmamzadaya and içirəm.
İki gözdən olum əgər yalan deyirəmsə!

**K**

Kəpəz haqqı!

**Q**

Qoşqar haqqı!
Qardaşımın canına and olsun!
Qətl haqqı!
Qurana əl basıram!
Qərib Seyid haqqı!

**M**

Məslək haqqı!
Meçit haqqı!
Mir Qafar ağanın cəddi haqqı!

**O**

Ocağa and olsun!
O gün haqqı!
O işıq haqqı!
Oğlumun canına and olsun!
Oğlumun ölmüşü haqqı!

**Ö**

Öləndə üstümdə tapılmasın, yalan desəm!

**P**

Pir haqqı!

**S**

Səni and verirəm bu şərin dar vaxtına!
Sənnən kəsdiyim çörək burnumun iki deşiyindən gəlsin, əgər yalan desəm.
Seyid Bayram ağanın cəddi haqqı!
Seyid Mürsəl ağanın cəddinə and içirəm!
Sənin canına and içmirəm. Öz canım haqqı!
Sənin əziz canına and olsun!

**Ş**

Şeyxin (Nizami Gencəvi nəzərdə tutulur) qəbrinə and olsun!
Şamamboyimin cəddi haqqı!

**T**

Torpaq haqqı!

**Ü**

Üzünün nuru haqqı!

**Y**

Yer haqqı!
Yalan deyirəmsə, qudurum çiyinlərimin ətini yeyim!
Yediyim çörək haqqı!
Yalan deyirəmsə, bu axar su üstümdə tapılmasın!
Yalan deyənə and qənim olsun!
Yalan deyəni and kəssin!



# III. MÖVSÜM-MƏRASİM NƏĞMƏLƏRİ VƏ ONLARLA BAĞLI İNAMLAR

## ÜZƏRLİK YANDIRMA

Mərasimdə istifadə olunan üzərlik yalnız insan nəfəsi toxunmayan, yə'ni xoruz səsi eşitməyən yerdən yığılıb qurudulmalıdır. Üzərliklə birlikdə çox zaman soğan, sarımsaq qabığı da yandırılır. Həmin tüstünü nəzər toxunmuş adama iylədib oxuyurlar:

– Üzərliksən, havasan,
Hər dərdlərə davasan,
Pis gözlərə yavasan,
Üzərliyim çırtlasın,
Yaman gözlər pırtlasın.

Bu nəğmədən sonra üzərlik çırtlayarsa, bəd ruhlar, bədnəzərin nəfsi evdən qovulur. Göz dəyən adamı üç dəfə yaaan üzərliyin üstündən keçirdikdən sonra mərasim sona çatır.

## YAĞIŞI KƏSMƏK

Yağış həddindən çox yağıb kəsilmək bilməyəndə insanlar qorxuya düşür. Onda anasının ilki olan uşaq mis qazan götürüb daşla döyəcləyir, özü də belə oxuyur:

– Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Mən kəsirəm,
Sən də kəs!

## XIDIR NƏBİ

Xıdır Nəbi bayramında uşaqlar hansı evə torba atsalar xorla oxuyarmışlar:

Xıdır Nəbi, Xıdır Ellaz,
Bitdi çiçək, oldu yaz.
Mən Xıdırın quluyam,
Boz atının çuluyam.

Çatma-çatmaya,
Çatma yerə batmaya.

Xıdır gəldi hayınnan,
Bir qaraca dayınnan.
Qara day palçığa batdı,
Xıdır yanında yatdı.

Kim Xıdırın payın verməsə,
Əri yanında yatmaya.

## SAYAÇI SÖZLƏRİ

Saya yaxşı sayadı,
Yeri-yurdu qayadı.
Onun gözəl sözləri,
Yatanları oyadı.

Təkəmə bir pay gətir,
Tikələri say gətir.
Təkəni tez yola sal,
Özünə bir tay gətir.

Tut qoyunun belini,
Ələ gəlmir yelini.
Bir doyunca görəydim,
Onu sağan gəlini.

Qoyunum, ağ qoyunum,
Dərisi yağ qoyunum.
Mən öləndə istərəm
Qalasan sağ,qoyunum.

Nənəm qoyunun ağı,
Gedir dolanır dağı.
Qızlara cehiz ağı,
Uşağa bələk bağı.
Qarı tutanda yağı,
Gəlin yeyər qaymağı.

Ala kərə, tayın gördüm,
Özünü görmək istərəm.
Qara kərə, özün gördüm,
Tayını görmək istərəm.

Nənəm sarıbaş qoyun,
Qarlı dağlar aş, qoyun.
Yağından plov olar,
Quyruğundan aş, qoyun.

## HOLAVARLAR

İrandakı boz öküz,
Qoparıbdı toz öküz.
Alıb yerin canını,
Çıxsın yaman göz, öküz.

Dağların enişi var,
Diki var, enişi var.
Cütə gedən öküzün
Özünün yerişi var.

Kotanın hodaqları,
Partlayıb dodaqları.
Qarğayın kotan sınsın,
Dincəlsin hodaqları.

Öküzüm qoşa getdi,
Güc vurdu daşa, getdi.
Cütün macı qırıldı,
Zəhmətim boşa getdi.

* * *

Öküzüm gedər başdan-başa,
Kotanını qoşaram qoşa.
Holal ho yeri, ho yeri.

Yaxşı ək, qoy buğda bitsin,
Düşmənnərın dönsün daşa.
Holal ho yeri, ho yeri.

Öküz, boynunu yağlaram,
Boyunduruğu dağlaram.
Holal ho yeri, ho yeri.

Öküzüm, sən xərəyə çəkməsən,
Səni gözüm üstə saxlaram.
Holal ho yeri, ho yeri.



# IV. MİFOLOJİ RƏVAYƏTLƏR

## OVÇU PİRİM

Ovçu Pirim adında bir kişi vardı. Bir gün bu kişi ova gedir. Görür ki, iki ilan dalaşır. İlanın bir ağ idi, biri qara. Ovçu Pirim tüfəngini qaldırıb qara ilanı vurmaq istəyir. Amma qara ilanın əvəzinə ağ ilanı yaralayır. İlanlar qaçıb gedirlər.

Ovçu Pirim evinə qayıdır. Bir gün iki ilan gəlib Ovçu Pirimə deyir ki, ilanların padşahı səni yanına çağırır. Ovçu Pirim ilanlarla gedir. Yolda ilanlar Ovçu Pirimə deyirlər:

- İlanların padşahı səndən nə istədiyini soruşacaq. Onda deynən ki, heç nə istəmirəm, elecə mənim ağzıma üç dəfə tüpür. İlanların padşahı deyəcək ki, axı sən insansan, mən ilan. Ağzına tüpürsəm, ölərsən. De ki, sən tüpür, ölmərəm.

Ovçu Pirim ilanlarla gəlib ilanlar padşahının yanına çıxır. İlanlar padşahı Ovçu Pirimdən soruşur ki, niyə mənim qızımı yaralamısan? Ovçu Pirim görür ki, həmin yaraladığı ağ ilan orada yatır. O, ilanı görməməzliyə vurur. Ovçu Pirim cavab verir ki, mən qara ilanı vurmaq istəyirdim, güllə ağ ilana dəydi.

İlanların padşahı heç nə deməyib bütün ilanları bir yerə yığdı. Sonra Ovçu Pirimdən soruşdu:

- Bax gör qara ilan bunlardan hansıdı?

Ovçu Pirim baxıb dedi ki, həmin ilan burda yoxdu. İlanların padşahı vəzirə buyurdu ki, gör hansı ilan burda yoxdu? Vəzir qara ilanın burda olmadığını söylədi. İlanların padşahı iki qanadlı ilan yolladı ki, gedib qara ilanı gətirsinlər. Bir göz qırpımında qara ilanı gətirdilər. İlanların padşahı qara ilanı öldürdü. Sonra Ovçu Pirimdən nə istədiyini soruşdu. Ovçu Pirim dedi ki, səndən heç nə istəmirəm. Sən mənim ağzıma üç dəfə tüpür. İlanların padşahı dedi:

- Sən insansan, mən ilan. Ağzına tüpürsəm ölərsən.

Ovçu Pirim əl çəkmədi, yenə dedi:

- Sən tüpür, ölmərəm.

İlanlar padşahı Ovçu Pirimin ağzına üç dəfə tüpürdü, özünə də bərk-bərk tapşırdı:

- Bax, bu sirri heç vaxt, heç kimə açma. İşdi bu sirri kiməsə açsan, onda dönüb daş olacaqsan. Bir də yadında saxla: kim səni çağırsa, cavab vermə.

Ovçu Pirim evinə qayıdanda gördü ki, bütün dağlar, daşlar, otlar, güllər, heyvanlar hamısı onu çağırır. O, heç kimə cavab vermədi, yoluna davam etdi. Gəlib evinə çatdı. Ovçu Pirim başına gələnləri arvadına söylədi... Bu sirri açdığına görə Ovçu Pirim daş oldu.

## OCAX İLANI

Bir evdə ocax ilanı yaşayırmış. Özünün də bir neçə balası var imiş. Bir gün ev sahibi ağır xəstələnir. Qonşu qadın xəstəyə baş çəkməyə gəlir. Nətəri olursa ilan balasının biri evin ortasına düşür. Qonşu qadın bala ilanı götürüb çölə atır. İlan yuvasına qayıdanda balasının birini tapa bilmir. Elə bilir öldürüblər. Heyfini çıxmaq üçün otağın bir küncünə qoyulmuş qatıq qazanına yaxınlaşır, içinə zəhər tökür. Qayıdır öz yuvasına. Bunu görən qonşu qadın əhvalatı ev yiyəsinə danışır. Ev yiyəsi ilanın balasını gətirib götürdüyü yerə qoyur. İlan balasının sağ olduğunu görüb yuvasına aparır. Sonra yenidən otağa düşür. İlan qatıq qazanına dolanıb onu tökür.

## YEDDİ QARDAŞ İLAN

Bir kişi yolnan gedirdi. Gördü ki, iki ilan oynaşır. Kişi ilanın birini öldürür. Sən demə bunlar yeddi qardaş ilan imiş. O biri ilan kişini güdür. Kişi bunu başa düşüb ordan köçür gedir başqa yerə.

Bir gün bir dəvə karvanı gedirdi. Dəvələrin beli yüklü idi. İlan dəvələrdən birinin belindəki yükün içinə girir. Karvanı aparanlar da ilanı öldürmür. Onlar yol üstündə bir neçə adamın taxıl biçdiyini görürlər. Biçinçilərdən biri yanıqlı səslə oxuyurdu. İlan səsi eşidən kimi yükün içindən çıxdı, həmin səsə qulaq asmağa başladı. Sonra yükün üstündən düşüb getdi. Karvanı saxladılar, gördülər ki, ilan gedib bir su cürdəyinin içinə girdi. Onlar gedib su cürdəyinin ağzını möhkəm bağladılar. Cürdəyi də götürüb biçinçilərin yanına gəldilər. Əhvalatı söylədilər. Oxuyan kişi ilanın onu güddüyünü başa düşdü. Adamlar cürdəyi ocağın içinə tulladılar. Cürdək partladı. İlanın sümüyündən bir qırığı kişinin gözünə düşdü. Kişinin gözü kor oldu.

## QARA PİŞİK

Şəmkirdə bir Alı kişi var imiş. Bir gün Alı kişini qonşu kəndə toya çağırırlar. Kişi gəlir toya. Toyda görür ki, tanımadığı bir qadın ortaya çıxıb oynayır. Əynindəki paltarlar da arvadınındı. Alı kişi qalır məhəttəl. Axırda əlini yağlı xörəyə bulayıb çəkir paltarın kürəyinə, qadının xəbəri olmur.

Axşam kişi evinə qayıdır. Arvadına deyir ki, sənə aldığım o ipək paltarı bura gətir. Arvad səbəbini soruşanda kişi deyir:

- Sənin həmin paltarını bu gün toyda tanımadığım bir adamın əynində gördüm. Əlimi yağa batırıb kürəyinə vurdum.

Arvad paltarı gətirir. Görürlər ki, həqiqətən də kürəyi yağlıdı. Alı kişinin evində bir qara pişik var imiş. Kişi bunları danışanda pişik ayağa durub kişinin üzünə tüpürür, qeybə çəkilir.

# V. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## QARA İNƏK ZAĞASI
**(Daşkəsən rayonu)**

Xaçbulaq kəndinin Əmirvar yaylağında gözəl bir qız var imiş. Ögey anası onu incidirmiş. Əl boyda quru çörəyi şişin burnunda verirmiş. Bu qızın bir qara inəyi var imiş. Qız hər gün ağlaya-ağlaya inəyini otarmağa aparırmış. Deyilənə görə inək də qızı çox istəyirmiş. Qız ağlayanda qara inək ağzını ota tərəf uzatmır, eləcə qızın göz yaşını yalayırmış. Ögey ananın qızla inəyin dostluğuna paxıllığı tutur. Ərinə deyir:

- Kişi, ya inəyi kəs, ya da mən çıxıb gedirəm atam evinə.

Kişi nə qədər dil tökürsə, arvadı yola gətirə bilmir. Əlacsız qalıb inəyi kəsməyə razılıq verir. Qara inək bu söhbəti eşidən kimi baş götürüb qaçır. İnək qaçıb zağaya girir, qız da onun dalınca. Qızın atası inəknən qızı nə qədər axtarırsa, heç birini tapa bilmir.

Rəvayətə görə, o gündən həmin zağanın ağzından dörd bulaq qaynıyıb axır. O bulaqların hər biri inəyin bir əmcəyidir.

## HƏZRƏT SÜLEYMANIN ÜZÜYÜ

Günlərin bir günü Həzrət Süleyman altı aylıq səfərə çıxır. Yolnan gedəndə görür yol qırağında bir gözəl qız oturub. Adam deyir yeməyim, içməyim bunun xətti-xalına, gül camalına tamaşa eləyim. Süleyman peyğəmbər bir könüldən min könülə qıza aşiq olur. Sevgisini ona bildirir, sonra qıza deyir:

- Mən bir neçə aylıq səfərə çıxıram. Qayıdanbaş gəlib səni də özümlə apararam.

Qız deyir:

- Bəs bir nişanə-zad vermirsənmi saxlayam?

Süleyman peyğəmbər tez barmağındakı üzüyü qıza verir. Sonra yoluna davam edir.

Həzrət Süleymanın altı aylıq səfəri başa çatır. Həmin yolla geri qayıdır ki, qızı götürüb aparsın. Gələndə görür qızın yerində bir qoca qarı oturub. Saçı ağarıb, qabaq dişləri tökülüb. Süleyman peyğəmbər qarıya yaxınlaşıb soruşur:

- Qarı nənə, mən gedəndə burda bir cavan qız qoyub getdim. O



qız hanı?

Qarı deyir:

- Elə həmin qız mənəm.

Həzrət Süleyman qarının sözünə inanmır. Deyir ki, qarı nənə, zarafatı burax, de görüm hanı o qız? Qarı yenə dediyinin üstündə durur:

- O qız mənəm.

Süleyman peyğəmbər görür ki, yox, olmayacaq. Qarıya deyir:

- Qarı nənə, indi ki, o qız sənsən, onda mənim üzüyümü ver, çıxım gedim.

Qarı yanındakı sandığı göstərir. Süleyman peyğəmbər sandığı açır, görür burada minlərlə üzük var. Hamısının da üstündə yazılıb: "Həzrət Süleyman".

Süleyman peyğəmbər nə qədər əlləşirsə, öz üzüyünü tapa bilmir. Qarıya deyir:

- Qarı nənə, üzüyümü tapa bilmirəm.

Qarı gülüb deyir:

- İndi inandınmı mən həmin qızam. Oğlum, mən həyatın təşbehiyəm.

Sən burdan keçəndə yazbaşı idi. Gördünmü bütün güllər, çiçəklər, otlar, ağaclar hamısı canlı idi. Onda mən pardaqlanmışdım, cavan qıza bənzəyirdim. İndi isə payızdır, həyat solur, güllər, çiçəklər öz təravətini itirir. Mən də qocalıb qarı oluram. İndi isə get. Çox sənin kimi süleymanları yola salmışam, üzüyünü özümdə saxlamışam.

Həzrət Süleyman qarıya heç nə demir, dinməz-söyləməz geri dönür.

## İMAM HƏSƏNİN ARVADI

Günlərin bir günündə Yezid İmam Həsənin arvadını öyrədir ki, ərini öldür, səni oğluma alım. Arvad da xəlvətcə su cürdəyinə zəhər tökür. Gecə İmam Həsən bərk susuyur. Cürdəyi başına çəkib su içir, ciyəri doğranıb ölür.

İmam Həsən öləndən sonra Yezid arvadı evinə gətirir. Arvad evdəki çıraqları görəndə soruşur:

- Bu nədi belə yandırıbsınız?

Yezid deyir:

- Bu çıraqdı. Gecələr bunun işığında otururuq.

Arvad:

- Biz hamımız gecələr İmam Həsənin işığına otururduq, onun üzü gün kimi işıq saçırdı,-deyir.

Arvadın sözünə bərk qəzəblənən Yezid:

- Sən ki, işığına oturduğun kişinin qədrini bilmədin, mənim oğlumun qədrini hardan biləcəksən?-deyib arvadı qatırın quyruğuna bağlatdırır.

Əfsanəyə görə, hələ də qatır o arvadı özü ilə hərləyir, dağda-daşda sürütmə çəkir. Belə deyirlər ki, ayaq üstə su içmək, əlini üst-üstə çatmaq günahdı. Onda arvadı sürüyən qatır dayanır, həmən nəhlətdəmə arvadın yornuğunu çıxarır.

## ELM XƏZİNƏDİR

Ən qədim əyyamda ərəb ölkəsində İbn Ziyad adında varlı bir bəy var imiş. Bu bəyin həddindən ziyadə dəvəsi, sürü ilə qoyunu, malı var idi.

Bu bəyin çoxlu torpağı da var idi. Öz vilayətində bütün xalq bunun varına heyran qalmışdı. O, bəy olduğuna baxmayaraq çox rəhmdil bir şəxs idi. Bunun qapısında olan nökərlərinin içərisində Ziyadəli adında bir süfrə nökəri var idi.

Bəyin övladdan qisməti yox idi. Uzun nəzir–niyazdan sonra Allah buna bir oğlan bəxş etdi. Böyük ziyafət edib oğlanın adını Mərdişah qoydular. İş elə gətirdi ki, Mərdişah anadan olanı gecəsi süfrə nökəri Ziyadəlinin də arvadı bir oğlan doğdu. İbn-Ziyad öz övladını istədiyi kimi, Ziyadəlinin oğlunu da çox istəyirdi. Ona görə ki, öz oğlu olan gecəsi həmin uşaq da anadan olmuşdu. İbn-Ziyad həmin uşağın adını Xanəhməd qoydu.

Aylar keçdi, illər dolandı, Mərdişah məktəb yaşına çatdı. İbn-Ziyad ağır töhfə ilə oğlunu məktəbə göndərdi. Mərdişah hər gün dərsdən gələndə dərsini hazırlayarkən Xanəhməd bunu çox ciddi dinləyirdi. Xanəhməd həmin dərsi Mərdişahdan yaxşı bilərdi. Xanəhmədin bu zəkasını görən Mərdişah atasından xahiş etdi ki, Xanəhmədi də məktəbə göndərsin.

Xanəhmədin taleyi anadan olan gündən gətirmişdi. Ona görə ki, məktəbə rütbəli şəxslərin, ruhanilərin uşaqlarını götürürdülər. Bunun ismindəki xan sözü Əhməd adına təsadüfi ziynət oldu. Adındada «Xan» sözü olduğuna görə məktəbə qəbul etdilər.

Hər iki oğlan bir sinifdə oxuyaraq, təhsillərini davam etdilər.



Məktəbi qurtaranda ruhani müəllimi hər ikisinin əllərini arxadan çataraq töhfə almaq niyyəti ilə bunların evlərinə gəldi. İbn-Ziyad oğlunun məktəbi qurtarması münasibətilə müəllimə həddindən ziyadə bəxşiş verdi.

Ziyadəli isə bir illik zəhmət hesabına İbn-Ziyaddan bir qızıl üzük alıb, müəllimin şəhadət barmağına taxıb, böyük ehtiramla əlini öpdü. Ziyadəli bir illik haqqını almışdı. Bu, ailəyə çətinlik gətirdi. Ata-ana ağır vəziyyətə dözə bilməyib vəfat etdi.

Tək qalan Xanəhməd dolanmaq üçün çox fikirləşdikdən sonra İbn Ziyadın qapısında nökər olmağı qərara aldı. İbn-Ziyad onu nökərliyə qəbul etmədi.

Mərdişah isə atasının sayəsində onun pulu hesabına yaxşı vəzifə taparaq işləməyə başladı.

Sahibsiz, pulsuz qalan Xanəhməd nə qədər çalışdısa, heç bir vəzifə tapa bilmədi. Sərgərdan qaldı. Sahibsiz qalan Xanəhəməd şəhərdə hambalıq edib dolanırdı. Hambalıqdan gəliri az olanda dilənməyə başlardı. Bir müddət keçdi. Xanəhmədin bənizi saraldı pal-paltarı cırcındır oldu, səhhəti artıq dərəcədə zəiflədi. İş görməyə taqəti qalmayan Xanəhməd dilənməyə məcbur oldu. İş elə gətirdi ki, təhsil aldığı şəhərin bazarında səhər tezdən duraraq gəlib- gedənə belə yalvarırdı:

– «Mərhəmət ediniz, əl tutunuz, üç gündür acam».

Bu əsnada Xanəhmədin müəllimi bazara gəlmişdi. O, Xanəhmədi görərkən çox təccüb etdi. Ona görə ki, məktəbi müvəffəqiyyətlə qurtaran Xanəhməd nə üçün dilənsin?

Müəllim öz gözlərinə inanmayaraq öz- özünə düşündü ki, bu Xanəhmədə oxşadığına baxmayaraq, o olmaz. Müəllim Xanəhmədin yanından keçərkən, Xanəhməd müəllimi tanıyaraq utancaq bir halda qısılıb yönünü arxaya çevirdi. Bu vaqiə müəllimi inandırdı ki, bu Xanəhməddir. Müəllim Xanəhmədi bir küncə çəkib bu sifətlərə düşməsinin səbəbini öyrəndi.

Xanəhməd dedi:

– Mənim əzizim, mən yoxsul balası idim. İbn Ziyadın vasitəsilə adım Xənəhməd olduğuna görə məni məktəbə qəbul etdilər. Oxuduğum müddətdə atamın az pulu, Mərdişahın köməkdarlığı ilə məktəbi qurtardım. Sonra atam, anam vəfat etdi. Özümə bir iş tapa bilmədim. Mərdişaha nə qədər yalvardımsa, daha mənə kömək etmədi. Atasına yalvardım ki, məni öz qapında nökər saxla, o da məni rədd etdi. Məcbur oldum küçələrdə dilənməyə.

Müəllim bir az buna pul verərək Xanəhmədə deyir ki, sabah məni bu vədə burada gözlə. Gələn səhər Xanəhməd həmin yerdə müəllimi gözlədi.

– Mənim övladım, hərənin bir dərdi var, qavalın da bir dərdi. Siz pula möhtacsınız mən isə elə bir dərdə düşmüşəm ki, onun dərmanını tapa bilmirəm. Xanəhmədcan, sənin dərdinin dərmanı çox asandır. Sən gəl bu qoca müəllimin dərdinə dərman etməyə çalış. Xanəhməd dedi:

– De görək müəllim, dərdin nədi?

Müəllim ah çəkib sözə başladı:

– Şəhər valisi məndən tələb edir ki, ya baldırının, ya əlinin, ya da gözünün birini kəsib mənə verməlisən. Mən isə çarəsiz qalmışam. Valiyə deyirəm ki, gözüm balacadır, baldır əzamın on çəkisi qədər qızıl verim, məndən əl çək. Yenə razı olmur. Valinin mənə verdiyi vədəyə üç gün qalıb. Ha fikirləşirəm bir yana çıxara bilmirəm. Mənim əzizim, indi gəl belə edək.

Xanəhməd deyir: - "Buyur"!

– Sən savadlısan, sənə istədiyin qədər pul verim, özünə sim tap. Oturub işləyərsən. Sənin baldıra çox ehtiyacın yoxdur. Gəl sol baldırını kəs mənə ver. Xanəhməd razı olmadı. Müəllim yenə dedi ki, nə edək, yazını sağ əlin yazır, sən gəl sol əlini mənə ver. Xanəhməd yenə razı olmadı. Axırda müəllim yenə də dedi ki, iki əl birdən işləməlidir. Bunun kəsilməyinə sən haqlı olaraq razı olmadın. Sağ baldır ilə sol baldır növbə ilə yeriməlidir, bunun kəsilməyinə sən yenə də haqlı olaraq razı olmadın. İndi gəl belə izah edim ki, sən gəzərkən qolların sağ, ayağların sağ, hər cür hərəkət edə bilərsən. Ancaq bir gözün olmaması insana o qədər də ziyan vermir. İndi gəl gözünün birini mənə ver. Sənə əvəzində istədiyin qədər pul verməklə bərabər, övladlarıma, nəvələrimə vəsiyyət edərəm ki, ömrü boyu Xanəhmədə, onun törəmələrinə hörmət etməklə, maddi yardım göstərsinlər.

Xanəhməd bu cavabın qarşısında hirslənərək müəllimin bütün təkliflərini qətiyyətlə rədd etdi. Bu vaxt müəllim dinməz-söyləməz çıxıb getdi.

Xanəhməd bu sirrin mənasını nə qədər fikirləşdisə də, tapa bilmədi. Müəllim verdiyi puldan bir manat qalmışdı. Bu pulun beş- on qəpiyinə bir parça çörək alaraq axşam yatdı.

Səhər şəhər valisinin yanına yollandı. Qapı qulluqçularından soruşdu ki, valinin bədən kəsiklərini almaqda məqsədi nədi? Qulluqçular Xanəhmədin dərrakəli danışığından onun ağılsız olmadığını görərək belə şeyi şəhər valisinin axtarmadığını söylədilər.

Xanəhməd bir istədi ki, müəllimin yanına getsin, müəlliminin yanından küsüb getdiyi yadına düşdükdə getmədi. Küçə ilə qəmgin gələrkən əhli bir qadının əlində ağır yük ilə getdiyini gördü. Xanəhməd: "Anacan qoy kömək edim" – deyib yükü götürdü, qadının evinə qədər getdi. Qadın nurani bir qoca idi. Xanəhmədi evdə yaxşı yedizdirdi, bir qədər evdə yeməyinə təam qoydu.

Xanəhməd yenə evə gəldi, hey fikirləşdi, axırda belə nəticəyə gəldi ki, müəlliminin qurduğu qurğunun bir məqsədi var imiş. Bu məqsədlə müəllim mənə nə isə başa salmaq istəyirmiş. Bunun səbəbini Xanəhməd başa düşdü. Belə ki, demək istəyirmiş ki, səndə olan sağlam əzaları, beynində bilik xəzinəsini nə üçün işlətməyi bacarmayasan?

Xanəhməd fikirləşdi ki, indi nədən başlamalı. O öz-özünə belə dedi: «Atalar demişdir ki, nərdivana ayağı bir-bir qoyarlar; indi aşağıdan başlamalıyam". Elə həmin gün kağız fabrikasının yanından keçəndə gördü ki, uşaqlar cındır yığıb fabrikə satırlar. Xanəhməd özünə belə bir qəti söz verdi ki, bu iş mayasız gəlirdi. Şəhərdə cında çoxdur, yığıb gətirim satım. Həmin gündən sonra Xənəhməd cındır yığıb satmağa başladı. Gördü ki, çox ucuz götürürlər. Xanəhməd səbəbini soruşduqda qəbul edici dedi ki, bunu biz yuyur, növlərə ayırırıq. Əgər bacarırsansa özün yu, sortlara ayır. Onda yaxşı pul alarsan».

Xanəhməd savadı sayəsində hər parça növünü yuduqdan sonra növlərə bölüb gətirdi. O, cındırları gətirib verəndə təsadüfən fabrik sahibi ilə parça növünü ayıran mütəxəssis orada oldular. Xanəhmədin gətirdiyi cındırların təmizliyini, onun düzgün növlərə ayrılmasını gördülər. Xanəhmədin savadlı olmasını və nə sənət sahibi olmasını soruşdular. O cavabında özünü ayağa salmamaq üçün belə dedi:

– Bəyim, bir az savadım var.

Fabrika sahibi dedi:- Elə isə gəl səni fabrikaya bir işə qoyum. Xanəhmədi fabrikada onbaşı vəzifəsinə qoydular, balaca bir mənzil verdilər.

Xanəhməd öz işində çox bacarıqlı hərəkət etdi. İşçilərini nizamla işlətdi. Bir neçə vaxt işlədikdən sonra bəy onda olan bacarığı görərək, onu parça növü ayıran vəzifəsinə təyin etdi.

Xanəhməd yenə yaxşı işləyərək əlinə xeyli maya saldı. Fabrik sahibi Xanəhmədin iş bacarığını görüb fikirləşdi ki, onu bütün fabri-

kaya nəzarətçi, rəhbər qoysa, fabrika yaxşı işləyər. O belə də etdi.
Xanəhməd belə nəticəyə gəldi ki, keçmiş günlərim mənə dərs oldu, səfalətdən qurtarıb, yüksəlmək üçün işləyirəm.

Bir neçə ildən sonra fabrika həddən ziyadə kağız istehsal etdi. Fabrika sahibi fikirləşdi ki, satmaq üçün bir karvan kağız Misirə göndərsin. Yolda karvan qasırğaya düşdü. Fabrika sahibi borc altından çıxa bilməyib, fabrikanı satmağa məcbur oldu.

İndi fabrikanı Xənəhməd aldı. Bir neçə il Xanəhməd fabrikanı işlətdirib rütbə almaq dərəcəsinə qədər pul qazandı. Köhnə qanun ilə Xanəhmədə milyoner adı verdilər.

Bu gün Xanəhməd müəllimin düşündü və özünün bu sahədə səhvini anladı. Müəlliminin harada yaşamasını və sağ olmasını öyrəndi. Müəlliminin bu hörmətini qaytarmaq üçün həmin şəhərdə və həmin vilayətdə olan bütün rütbəli şəxslərin iştirakı ilə böyük ziyafət təşkil edib, həmin ziyafətdə müəllliminə minnətdarlığını bildirməyi qərara aldı. Ziyafət təşkil olundu. Xanəhməd müəllimini hörmətlə ziyafətə dəvət etdi.

Müəlliminin bazar küncündə Xanəhmədə verdiyi nəsihəti Xanəhməd məclisdə söylədi. Hamı öz şərbətini cəfakeş müəllimin şərəfinə içib ona öz minətdarlığını bidirdi.

## MUSAYNAN FÜREY

Belə deyirlər ki, qədim zamanlarda Fürey nəsli ilə Qureşin nəsli düşmən imiş. Bu vaxtlar Qureşin arvadı hamilə imiş. Bir gün arvad yatıbmış, bir də görür bir qarı gəlib dedi ki, ey arvad uşağın olan kimi bir sandıx qayıtdır, onu bəhri-Nilə atdır. Arvad yuxudan oyanıb görür ki, qarı zad yoxdur. Qureş gəlir, arvad əhvalatı Qureşə danışır.

Bəli, vaxt gəlir, arvad yükünü yerə qoyur. Bir oğlan uşağı doğur ki, elə bil Yusifi-Kənandı. Qureşlə arvad əlacsız qalıb, bir sandıx düzəldirlər, uşağı onun içinə qoyub bəhri-Nilə atırlar.

Bir gün Füreylə arvadı şəhərdən gəlirmiş, həmin bu bəhri-Nildən keçəsi olurlar. Gəmiyə minirlər, bir də Fürey görür ki, bir şey dəryada atıla-atıla gəlir. Gəlhagəl, görürlər ki, bir sandıxdı. Fürey kəmənd atıb sandığı tutur. Dəryanın kənarına çıxıb sandığı açırlar. Baxıb görürlər ki, bir oğlan uşağıdı ki, gözəlliyi ilə adamı heyran edir, bir baxan deyir ki, bir də baxım. Fürey deyir ki, arvad deyəsən bu Qureş nəsilindəndir.



Füreyin arvadı deyir:

- A kişi, nə danışırsan, kim bilsin kimin uşağıdı, nə Qureş nə zad. Belə gözəllikdə olan uşağı öldürmək olarmı. Arvad kişinin başını yozur, uşağı götürüb evə gəlirlər. Kişi dünyada olan bütün arvadları gətirir ki, uşaq əmsin.

Uşaq hansı arvad gəlirsə əli ilə onu itələyir. Bir də arvad dedi ki, bir arvad qalıb onu da gətirək, bəlkə onu əmə. Bəli, adam göndərirlər, arvad gəlir. Uşaq o saat onu əmir. Fürey arvada deyir ki, bu uşağı apar iki il saxla, saxlamaq haqqının pulunu verərəm. Arvad uşağı aparır. Aradan iki il keçir, bir də kişi deyir ki, get uşağı gətir. Uşağı gətirirlər, Fürey uşağı alıb dizinin üstündə oturdur. Uşaq o saat başlayır kişinin saqqalını yolmağa.

Fürey dedi:

- Arvad, mən sənə demədimmi ki, bu Qureş nəsilindəndir. Bax, indi saqqalımı yolur, gör sonra başımıza nə iş açacaq. Gəl vaxtekən bunu öldürək. Arvad deyir a kişi, ağlın yoxdumu, istəyirsən başqa uşaq gətirək, görək onlar da yolmurmu? Gedib bir balaca qız gətirirlər. Qızda başlayır kişinin saqqalını yolmağa. Bunu görən Furey uşağı öldürməkdən əl çəkir. Arvad deyir, a kişi, gəl uşağa da bir ad qoyaq. Fürey deyir:

- Arvad, mənnən olsa uşağı öldürmüşdüm, indi ki, uşaq qaldı, onun adını Musa qoyuram.

Bəli, vaxt gəlir uşağın yeddi yaşı olur. Bir gün Fureyin evində böyük bir məclis düzəlibmiş. Bu vaxt Musa əlinə bir ağac alıb, Füreyi vurur. Füreyin bu işə bərk acığı tutur. Tez durub dar ağacı qurdurur ki, uşağı asdırsın. Arvad görür ki, Furey uşağı asdıracaq, ona görə də Füreyə deyir:

A kişi, gəl bir şərt qoyaq, ondan sonra öldür.

Fürey deyir:

- De görüm nə deyirsən?

Deyirəm ki, gəl bir siniyə həm köz, həm də qızıl qoyaq özü də deyək ki, bunlardan birini ağzına al. Əgər qızılı alsa onda öldürək, yox közü alsa onda bil ki uşaqdır. Fürey yaxşı deyib bir sinidə həm köz, həm də qızıl gətizdirir.

Musanı çağırırlar ki, bunun birini ağzına al.

Musa tez közü götürüb ağzına alır.

Arvad deyir:

- A, kişi gördünmü uşaqdı.

Aradan bir neçə il keçir, bir gün Musa yolnan gəlirmiş, bir də görür ki, iki adam dalaşır. Həmin bullar da Musanı görüb onun yanına gəlirlər, soruşurlar ki, Musa, de görək taxsır hansımızdadı. Musa da bullardan birini göstərir ki, səndədi. Sən demə həmin adam da Füreyin qohumu imiş. Musanın ağzından söz çıxan kimi Füreyin qohumu Musanı vurur. Musa da bir daş götürüb onu vurur, o da o saat ölür.

Arvad bunu eşidir. Musanın əlindən tutub onu meşəyə gətirib deyir:

- Oğul, get, səni Allaha tapşırıram.

Arvad Musanı yola salıb evə qayıdır. Axşam Fürey gəlir, Musanın yerini soruşur. Arvad deyir ki, Musa şəhərdən çıxdığıdı. Fürey qoşun töküb hər yeri gəzir, Musanı tapa bilmir.

İndi sizə kimdən deyim, Musadan. Musa səkkiz gün meşə ilə yol getdi, doqquzuncu gün bir qocaya rast gəldi, ona dedi:

- Əmi, de görüm hara gedirsən, bəlkə yoldaş olduq.

Qoca dedi:

- Mən filan padşahın yanına gedirəm.

Bullar birləşib yola düzəldilər, xeyli getmişdilər ki, bir də qoca dilləndi:

- Oğul, o qoyun sürüsünü görürsənmi?

Kişi bunu deyib yox oldu.

Musa gördükü kişi yoxdu, tez duruf sürünün yanına gəldi. Gəlib gördü, bir balaca göl var, iki qız bir-birilə dalaşır ki, qoyunumu əvvəlcə mən sulayacam. Musa gördükü suyun qabağını bir qaya kəsib, əgər onu götürüb atsa, bütün qoyunun hamısı su içəcək. Buna görə də tez qayanı götürüb atdı. Qızlar tez qaçıb atasına xəbər verdilər ki, bir oğlan gəlib, suyun qabağındakı qayanı götürüb atdı. Kişi qızı göndərdi ki, get o oğlanı bura gətir. Qız gəlib oğlanı kişinin yanına apardı. Kişi soruşdu:

- Ay bala, de görüm haralısan?

Musa dedi:

- Ay baba, əlimdən xata çıxıb, filankəsi öldürmüşəm.

Kişi dedi:

- Lap yaxşı eləmisən, indi mənim yanımda qal.

Musa, on il də burada qaldı. Bir gün kişi dedi:

- Oğul, istəyirəm, səni evləndirəm, nə deyirsən?

Musa dedi:

- Baba, özün bilərsən.



Kişi qızının birini Musaya verdi.

Aradan bir-iki il keçdi.

Bir gün Musa dedi:

- Ay baba, mənə izin ver, gedim ata-anamla görüşüm.

Kişi Musaya izin verib dedi:

- Bala, məndə iki hasa (əl ağacı) var, ikisi də tilsimlidir. Al birini sənə verim. Musa kişi ilə hallalaşıb, bir sürü də qoyun götürüb getməyə üz qoydu. Bir xeyli getmişdi ki, bir də gördü qoyunun biri sürüdən aralanıb gedir. Musa sürünü burda qoyub bu qoyunun dalınca getdi. Gedib gördü ki, bir ağac yanır, bu da nurdandı.

Ağac dilə gəlib dedi: - Səni Füreyə davaçı verirəm. Musa, geri qayıdıb, qoyunu da götürüb evə gəldi, ata-anası ilə görüşdü.

Sonra qoşun götürüb Füreylə barışmağa getdi. Fürey Musanı tanıyıb dedi:

- Musa səni mən böyütmüşəm, indi torpağımı almağamı gəlmisən?

Musa dedi:

- Mənə heç bir torpaq lazım deyil. Gəlmişəm ki, barışaq, bir-birimizə düşmən olmuyaq.

Fürey dedi:

- Heç elə şey yoxdu. Mən sizinlə ölənəcən düşmənəm. Özü də hazırlaş, dava edək.

Dava başladı.

Musa dedi, nə ilə dava edirsən?

Fürey dedi:

- İlanla.

Musa gördükü ilan qoşunu gəlir, tez əlindəki hasanı tullayıb dedi:

- Hasar ol. O, saat hasar əmələ gəldi ilanlar keçə bilmədi.

Qırx il davadan sonra Fürey dedi: Gəl ikimiz bir iş edək, ikimiz də çəliyimizi dəryaya çəkək, hansımız çəkəndə dərya yarılıb yol əmələ gəlsə ona inanaq. Belə də edirlər. Musa hasasını dəryaya çəkir, yol açılmır, Fürey çəkəndə yol açılır. Fürey Musaya deyir: - İndi de görüm mənə tabe olursanmı.

Musa deyir:

- Yox, mən sənə tabe olmuram.

Təzədən müharibə başlanır. Fürey Musanın qoşununu dəryaya qısdırır ki, qoşun suda qırılsın. Tez Musa hasasını dəryaya çəkir, dəryada yeddi yol əmələ gəlir. Musanın qoşunu o biri üzə keçir, dər-

ya yenidən birləşir. Fürey də öz qoşunu ilə özünü dəryaya atır, hasasını nə qədər dəryaya vurursa dəryada yol əmələ gəlmir ki, gəlmir. Fürey öz qoşunu ilə dəryada həlak olur. Bununla Qureşin nəsli Füreyin nəslinə qalib gəlir.

## ABUZƏRLƏ İLAN

Cavan bir qız Məhəmməd peyğəmbərin yanına gəlib ondan soruşur:

-Ya peyğəmbər, mənə yaş təyin elə. Mənim neçə yaşım olar?

-Sənin otuz yaşın var-deyə peyğəmbər cavab verir.

-Ya, peyğəmbər, düzdü, mənim otuz yaşım var, özüm də on beş dəfə ərə getmişəm, amma qızam.

Qızın sözünə məhəttəl qalan peyğəmbər soruşur:

-O necə olan işdi?

Qız deyir:

-Hansı oğlana ərə getmişəmsə, toy gecəsi mənə əlini vurmamış yatıb, səhər yerindən qalxmayıb, ölüb.

Məhəmməd peyğəmbərin əsabəsi Abuzər də onların yanında idi. Məhəmməd peyğəmbər Abuzərə deyir ki, sən bu qızı oğluna almalısan. Bu sözü eşidən Abuzərin qarnına sancı dolur. Amma onun nə həddi varıydı peyğəmbərin sözünü çevirsin. Tez dillənir:

-Ya peyğəmbər, sən buyurandan sonra mən nakarəyəm? Al, deyirsən, alım.

Gün o gün olur ki, Abuzər oğluna toy eləyəsi olur. Toy günü görürlər ki, bir kor qarı gəlir, nəvəsinin yedəyində. Adamların yanına çatanda qarı yalvarır:

-Acam, çılpağam, Allah irzasına mənə kömək edin!

Abuzər qarını da, nəvəsini də yaxşı yedirib-içirdir, çoxlu pul, pal-paltar, yeməli şeylər verib yola salır.

Arvad Abuzərin özünə, oğluna alxış oxuya-oxuya çıxıb gedir.

Gecə düşür, toy soğulur, gəlini bəyə tapşırıb dağılışırlar. Elə bu vədə qızın o biri nişanlılarını öldürən qara ilan da sürünə-sürünə oğlanla qızın yatdığı döşəyin altındakı xalçanın arasına girir. Elə burdaca ilanı yuxu tutur.

Səhər açılır. Bu işin hamısı peyğəmbərə agah idi. Məhəmməd peyğəmbər deyir:

-Gedin üstündə bəylə gəlin yatan xalçanı bükülü mənə gətirin!

Xalçanı gətirirlər. Məhəmməd peyğəmbər deyir ki, xalçanı açın!



Xalçanı açırlar ki, orada iri bir qara ilan var. Məhəmməd peyğəmbər üzünü ilana tutub deyir;

– Sən buraya niyə girmisən? İlan Allahın əmri ilə dil açır:

– Mən Abuzərin oğlunu vurmağa gəlmişdim. Sonra mənə əmr gəldi yat qal xalçanın içində. Səni gəlib buraxacaqlar. Sonra Məhəmməd peyğəmbər Abuzərə üzünü tutub soruşur:

– Sən dünən nə etmisən?

Abuzər başına gələni – kor qarı ilə nəvəsini yedirib doyurduğunu deyir:

Məhəmməd peyğəmbər deyir ki, sənin bu hərəkətin Allaha xoş gedib, ona görə də sənə rəhm edib. Hamı Allahın böüyklüyünə şükür edir.

## YAQUB PEYĞƏMBƏR

Deyir Yaqub peyğəmbərin varı-döyləti başınnan aşırmış. Özünün də beş oğlu varıymış. Yaqub peyğəmbər qəti ası tüşməzmiş. Bir gün Allahtaaladan səda gəlir ki, bu heç ası tüşmür. Allahtaala Yaqub peyğəmbərin varını-döylətini əlinnən alır. Peyğəmbər genə ası tüşmür. Bu dəfə Allah onun beş öyladının beşini də əlinnən alır. Yaqub peyğəmbər muna da dözür, ası tüşmür. Özünü yorğan-döşəyə salır, canına qurtdar daraşır. Amma ası tüşmür. Onun Fatma addı arvadı varıymış.

Bir gün Fatma hər yeri gəzif dolanır. Çörək atdı olur, o piyada. Nə illah eliyirsə, bircə loxma çörək tapa bilmir. Fatmanın diləndiyi kənddə bir Firon yaşıyırmış. Bunun varı-halı haşan-gaşanıymış. Fatma gəzə-gəzə gedif çıxır Fironun qapısına. Firon yaman kəmfirsatıymış. Fatmıya deyir ki, hörüyünün birini kəsif mana ver, nə qədər istiyirsən, çörək verim. Fatma muna razı olmur. Başıdaşdı arvad hansı qapıya gedirsə, əliboş qayıdır. Axırda Allah əlacını kəsif Fir'onun dediyinə razı olur. Hörüyünün bir tayını kəsif Firona verir. Çörək alıf qayıdır. Fatma bu yolnan gedəndə Firon da o biri yolnan özünü yetirir Yaqub peyğəmbərin yanına. Ona deyir ki, sənin arvadın çörək dilənməyə gedif, yoxsa pis yola qulluq eləməyə? Mana inanmırsansa, öz gözünnən bax! Bu da onun saçı. Hörüyünün birini kəsif gətirmişəm. Birdən Fatma içəri girir. Yaqub peyğəmbər onun üstünə qışqırır:

-Arvad, mana de görüm sən çörək gətirməyə gedirsən, yoxsa başqa yola?

Fatma başına gələnnəri yerbəyer Yaqub peyğəmbərə danışır. Ya-

qub peyğəmbərin səvir kasası daşır. Dözə bilmiyif ası tüşür. Üzünü göyə tutuf deyir:

-Ey Allahtaala, keç günahımnan! Başıma bu boyda müsüybətdər gətdin, ası tüşmədim. İndi bu şərə, böhtana dözə bilmərəm.

Allahtaaladan səda gəlir:

-Ya peyğəmbər özüm sənə qəsd elədim ki, ası tüşəsən. Varını özünə qaytarıram. Ölü dirilməz, beş oğulun əvəzinə sana bir oğul verirəm. Elə oğul ki, beş oğulun əvəzi olajax.

Allahtaala Yaqub peyğəmbərə igid bir oğul verir.

## NƏ GƏZİRDİN OZANDA?

Ölümündən qorxan bir arvad varıymış. Günnərin bir günündə ərinə deyir ki, a kişi, gəl gedək özümüzə ölüm-itim olmayan bir yer tapax. Kişi də qayıdır ki, ay arvad, nə danışdığındı, heç elə də yer olar? Arvad iki əyağını bir başmağa soxur:

-Axtaran tapar deyiflər, a kişi. Gəl əl-ələ verək, el-el, ova-ova tüşüf gəzək. Harda qavırsannıx görməsək, bil ki, orda yaşayannar ölmüllər.

Kişinin də Allah axlını əlinnən alır, gij söz beyninə batır. İkisi də bir-birinə qoşuluf tüşüllər yola. Hansı kəndin, şəhərin həndəvərində qavırsannıx görüllərsə, orda bənd almıllar. Davannarına tüpürüf qaçıllar. Nəysə, uzun sözün gödəyi, gəlhagəl, gəlif qavırsannığı olmuyan bir yerə çıxıllar. Ha göz gəzdirillər, qavırsannıx görmüllər. Arvad söyündüyündən bilmir neyləsin. Kişiyə gözaydınnığı verir:

-A kişi, nə yaxşı oldu, Allah üzümüzə baxdı. Elə burda qalax!

Deyir bu yerin adı Ozan imiş. Bunlar Ozanda binəliyillər. Bir xeylax keçir. Günnərin birində nətəri olursa, kişi işə gedənnən sonra arvad bir balaca sozalır, azarranan kimi olur. Tez Ozanda xəvər çatdıyır, nə çatdıyır, hamı arvadın başına yığışır. Sən demə, Ozanda xəstələnən adamı kəsib ətini öy-öy paylıyırmışdar. Ta nolasıdı, həmən saat arvadın başını bədənindən ayırırlar. Ətini də alışma eliyillər. Şər qarışır, kişi öyə qayıdanda baxır arvad nə gəzir? Qonşular hərəsi bir yannan tökülüşüf kişiyə muştuluq xəvəri verirlər:

-Gözün aydın olsun, a qardaş! Vallah yaman halal adam imişsən. Bir tikə çörəyin osanata keşdi! Azca qalmışdı arvadın mundar ola. Elə zornan pıçağa gəldi. Elə yağlı əti var imiş, gəl görəsən! Heş tikəsi də yerə tüşmədi, maa deyənə çatmadı. Qardaş, bizi bağışda, bir



də baxdıx sana qalmıyıf. Bircə baş-əyağı durur. Onu da asmışıx, odey qazanda qaynıyır.

Kişi başıdaşdı qazana baxıf deyir:

-Nə gəzirdin Ozanda,
Başın qaynıyır qazanda?

## QANLI KÖRPÜ
### (Gədəbəy rayonu)

Qədim əyyamlarda bir kasıf kişi varmış. Bu kişinin də gözünün ağı-qarası bircə qızı varmış. Kişi gejə-gündüz işləyər, bircə balasını saxlamaq üçün qan-tər tökərmiş. Qız da nə qız. Ağılda, mərfətdə bütün el-obada ad-san çıxarmışdı. Dindirəndə yüz yerdən qızararmış. Özü də elə gözəl, elə gözəliymiş ki, ay onu görəndə bir xeyli xəjalət çəkərmiş.

Günlərin bir günü bu yerdən bir zalım bəy keçirmiş. Elə ki, obaların yaxınlığındakı bulağa yaxınlaşır, ürəyi bərk susayır. Atlılara əmr edir ki, dayanın, bir az dincimizi alax, həm də bu bulağın suyundan içif gözümüzü işığa gətirəy. Atlılar atdan düşürlər, bulağın başına toflaşırlar. Bu hində həmin qız, çiynində də cürdəy bulağa gəlir. Adamları görəndə istiyir kin qayıtsın. Sən demə zalım bəyin gözü ondaymış. Qız qayıtmax istəyəndə adamların birini göndərir kin, o qızı yanıma gətirin. Gedif qızı gətirirlər. Bəy ondan soruşur:

-Ay qız, de görüm kimlərdənsən?

Qız utancaqlığından cavab verə bilmir.

Bəy genə də soruşur. Qız bu səfər də cavab vermir. Onda bəy acıxlanıf deyir:

Səni özümnən aparası oldum. Sən çox xoşuma gəlirsən. Aparıf özümə arvad eliyəjəm.

Qız görürkün daha həyadan keçif, deyir:

-Ay bəy, mən kasıf bir kişinin qızıyam. Mən getsəm, atam məndən narahat olar. Qoy gedim onu xəvərdar edim kin məni axtarmasın.

Bəy razılaşır. Onsuz da bilir kin, qız qaça bilməz. Harda olsa, axtarıf tafdırar. Deyir get, amma tez gəl, yolumuz uzaxdı.

Qız daha atasının yanına getmir. O da bilir kin, bu zalım bəydən yaxasını qurtara bilməz. Ona getməkdənsə, ölümü üstün tutur.

Qız doluxsuna-doluxsuna yaxınlıqdakı hündür bir qayalıxda salınmış körpüyə tərəf gedir. Gedir çıxır düz körpünün üstünə. Sən

demə bəy onun başqa tərəfə üz tutduğundan şübhələnifmiş. Dalınca adam salırkin, bir baxın görün bu qız hara gedəjəy? Bəy adamları da onu qaravaqara izdiyirmişlər. Eləkin qız körpünün üstünə çıxdı, bəyin adamları indi annadılar kin, qız qəsd etmək fikrindədir. Ona görə də qışqırışdılar:

-Ay qız, özünə yazığın gəlsin. Bəy səni yağ içində böyrək kimi saxlayajax. Atma özünü.

Qız dedi:

-Gedin bəyinizə deyin kin, mən elin namusuyam. Bəy məni aparıf bir azdan əskiyə döndərəjəy. Ona getməkdənsə, ölüm daha yaxşıdır. Zalımnan yaşamaxdansa, torpağı qucaxlamax üstündür. Bəy hələ bilmirkin qəlbə zor eləməy olmaz.

Qız bunu deyif özünü qayalıxdan başıaşağı atdı. Qayalıxlara dəyif parça-parça oldu. Qanı daşların üstünə yayıldı.

Deyirlər o vaxtdan bu körpünün adı "Qanlı körpü" oldu. Buradan gəlif keçənlər bir anlıx dayanar, yazıx qızı yad edif, onun nakam ölməsinə göz yaşı tökərmişlər.

## XAN ÇOVANLA SARA

Keçmişlərdə bir yurd varmış. Bu yurdda da bir oğlan varmış, bir də bir qız varmış. Oğlanın adına Xan Çovan, qızın da adına Sara deyərmişlər. Xan Çovan elin çovanı imiş, hamının sürülərini otarırmış, həm də deyilənə görə çox iyid adammış. Dünyasında heş nədən qorxusu olmazmış.

Sara da bir Saraymış. Uzun hörükləri dalında ilan kimi qıvrılarmış. Suya gedəndə su dayanarmış ki, onun ayax səslərini eşitsin. Sən demə Sara elə uşaxlıxdan Xan Çovana deyikliymiş. Vaxt gəlif, vədə yetişir. El dağa köçəsi olur. Xan Çovan da elin sürüsünü yaylağa aparmağa hazırlaşırmış. Gəlif Saraya deyir ki, bir az da döz, elin sürüsünü yaylağa aparım, güzdəyə gələndə toyumuzu edərik.

El dağa köç edir. Sara da anasının yanında qalıfmış. Bir gün o, yaxınlıxdakı çay kənarında ojax çatır, qazan qaynadıf paltar yumax istiyir. Başını aşağı salıf öz işiylə məşğul imişkən uzaxdan bir gurultu, bir nə'rilti qopur. Sən demə dəhnəyə yağış yağıfmış. O qədər yağıf ki, sel suya qarışıf, dəhnə yerli-kümlü dağılıf. Yazıx Saranın da nə xovəri. Elə başını sallıyıf paltar yuyurmuş. Bir də onu görür ki, su dizə qalxdı, gözünü aşmamış sel onu qoynuna alıf suaşağı aparmağa başladı. Sara da nə qədər çavalayır, seldən qurtara bilmir. Son anda söygülüsü Xan Çovanı xatırlayır.

El-obaya səs düşür. Köş etməyənlər tökülüf çay aşağı Saranı axtarırlar. Amma nə ölüsünü, nə də dirisini tapa bilirlər. Sara elə bil ki, heş dünyaya gəlməyif. Xəvər Xan Çovana çatır. Yazıx Xan Çovan neyləsin? Gəlib görür ki, lələ köçüf, yurdu qalıf.

Deyirlər, Sara elin sevimlisi imiş. Hamı onun xətrini istiyirmiş. Onun itkin düşməsi hamıya ağır dərd olur. İllər keçir, amma Sara yaddan çıxmır ki, çıxmır. Elə hey Saradan deyirlər. Sara söz-söhbətə çevrilir, mahnılara dönür. Kimi dindirsən deyirmiş:

Gedin deyin Xan Çovana,
Gəlməsin bu il Muğana.
Muğan batıfdı al qana,
Apardı sellər Saranı,
Bir uca boylu balanı.

Deyirlər, hər yağış yağanda adamlar çay kənarında toflaşır, Saranı yad edirlər. Elə bil Saranı elə indijə sel götürüf aparıf.

## KİŞİLƏ CİN

Bir kişi gejə duruf toylaya baş çəkməy istiyir ki, görsün dana-duna, inəy, at nejədir. Birdən hal-qəziyyədir boğulanı ola bilər. Gedif toylaya girəndə görür ki, atını mıxçadan çıxarıflar. Özü də at bir haldadı ki, çim qan-tərin içində. Öz-özünə düşünür ki, axı bu atı bütün günü işdətməmişəm. Elə toylada oluf. At bu qışın günü niyə qan-tərə bülənif? Elə fikirləşə-fikirləşə gəlif yerinə girir, amma bir şey annıya bilmir.

Daha heş kimə bir söz demir.

Düşünür ki, bir savax da baxaram görüm bu nə olan işdir. Savax açılır. Kişi gündüzü bir təhər gejə edir. Yenə də gejənin bir məqamında özünü toylaya salır. Görür ki, yox a, burada nəsə bir sirr var. At yenə də qan-tərin içindədir. Deyir ki, yəqin kimsə dadanıf, gejə atı xəlvətcə toyladan çıxarıf aparır, işdədif gətirir. Gərək pusam görüm atı kim yerindən tərpədir.

Savahısı gejəsi kişi yatmır. Gəlif xəlvətcə toylanın bir kənarında dayanır.Gejənin bir vaxtı baxır ki, qadına oxşayan bir ağ geyimli gəlif toylaya girdi, atın bağını mıxçadan açıf çölə çıxartdı, minif

harasa seyirtdi. Kişi az gözlədi, çox gözlədi, hannan-hana həmin ağ geyimli qadın atı gətirif qan-tər içində öz yerinə bağladı.

Kişi o saat barmağını dişlədi. Bildi ki, bu qadın insan deyil,cindi. Cinnər də ki, at minməydən ləzzət alarmışlar. Kişi yəqin eləyəndən sora onu tutmağı qərara aldı. Amma kişini bir şey də narahat edirdi. Onun əynindəki ağ paltar arvadının cehizdiyinə oxşayırdı. Öz-özünə düşünürdü ki, bəlkə elə bu arvadımın özüdü. Yəqin arvad havalanıf, gejələr duruf gəlif atı minir. Amma evə dönəndə arvadını öz yerində görəndə yəqin edir ki, yox o, olsa-olsa cin nəslindən olar. Bir də fikrini dürüstləşdirmək üçün savahsı atın belinə təzəy yaxır. Özü də güdür. Həmin vaxt ağ paltarlı qadın gəlif atı mıxçadan çəxarır minif gedir. Xeyli keçəndən sonra atı eyni halda qaytarıf öz yerinəcə bağlayır.

Kişi səs-səmir etmir. Gəlif yerindəjə uzanır. Savah açılanda arvadına deyir:

-Ay arvad, çoxdandır sənin cehizdiy paltarını görmürəm. Dur onu gətir bir baxax, cavannığımızı yad edək.

Arvad deyir:

-Ay kişi, dəlimi olufsan? Bizim nə haymızdı ki, indi gəlinlik paltarına baxax? Mağılja otur yerində.

Arvad nə qədər deyirsə, kişi əl çəkmir. Axırda arvad deyinə-deyinə bağlamadan gəlinliyni çıxarır. Kişi baxır ki, budey, axşam atın belinə sürtdüyü təzəyin izi paltarda qalıf. Arvad da görən kimi gözləri böyüyür.

-Ay kişi, deyir. Bu nə əhvalatdı? Bunu mən elə əzizdiyirdim ki. Kim bunu bu kökə salıf? Heş onu boxçadan kənara aparmamışdım. Özün də bilirsən ki, mən onu əynimə taxmamışdım da.

Kişi deyir:

-Arvad, hələ kirimiş dur, deyəsən burada iş var.

Daha kişi bir söz demir. Əhvalatı da arvadına danışmır. Amma çox səvirsiz axşamı gözdüyür. Elə ki şər qarışır, kişi evdə hamını yuxuya verəndən sonra əlinə bir sancax alıf toylaya girir. Yenə də bir yanda gizlənif qadının gəlməsini gözdüyür. Cinsə də, arvadısa da gərəy onu tutsun.

Aradan bir az keşməmiş ağ paltarlı qadın gəlif elə atı mıxçasından açmax istəyəndə kişi qəfilcə əlindəki sancağı onun qoluna sancır. Arvad başlayır kişiyə yalvarmağa ki, nə istəyirsən verim, sancağı qolumdan çıxart. Kişi onun sözünə baxmıyıf əlindən tutuf evinə gətirir. Arvadı durğuzuf başına gələnləri ona nağıl edir. Üstəlik onun



gəlinliyinin də necə təzəyə bulandığını danışır. Sən demə cin arvadın paltarını boxçadan çıxarıf geyinər, sonra da toylaya girif atı çıxardarmış. Amma paltarı nejə çıxartmasından kimsə nə xəvər tutarmış, nə də gözə görünərmiş.

Elə ki, savah açıldı, kişi arvadı buyurmağa başladı. Nə deyirdisə, arvad hamsını göz qırpımında yerinə yetirirdi. Ancax hamsını tərsinə edirdi. Kişi o saat başa düşdü ki, bu arvad cin nəslindəndi. Ona tərs deməy lazımdır ki, düz eləsin. Elə o gündən arvadı işdədir. Arvad odun yarır, ojax qalayır, paltar yuyur, yemək bişirir. Özü də əlini nəyə vurur̄muş, hər şey aşıf daşırmış. Belə-belə bir neçə gün keçir. Günlərin bir günü cin kişinin arvadının saqqızını oğurlayır. Onun qılığına girif deyir ki, nə desə verəjəy, təkcə onun qolundakı sancağı çıxartsın. Yazıx qadının nə xəvəri. Cinin yalvarışı ürəyni yumşaldır. Həm də verdiyi vədlərə allanır. Sancağı onun qolundan çıxarır. Elə də cinə bu lazım idi. Göz qırpımına aradan çıxıf yox olur. İş hara çatajax?! Qadın nə qədər başına, dizinə döyürsə, cindən xəvər verən olmur.

Deyirlər cin gedəndən sonra o kişinin evinin bərəkəti də yoxa çəkilir. Arvadnan kişi nə qədər işdəyirmişlərsə, qarın dolusu çörək tapa bilmirlərmiş.

## QOÇ DAŞ
### (Kəlbəcər rayonu)

Deyirlər ki, keçmişlərdə bu yaylaqda Muğanlı elatı yaşayırmış. Onların yaxınlığında Kəbirli tayfaları da məskən salıbmış. Bu iki tayfa arasında qədimdən ziddiyyət varmış. Amma hər dəfə qarşılaşanda Muğanlı tayfası qalib gələrmiş. Kəbirlilər isə həmişə onları addım-addım izləyir, fürsət gözləyərmişlər. Belə fürsət bir gün ələ düşür.

Özlərinə arxayın olan Muğanlı tayfasının igidləri atlanıb arana gedirlər. Obada arvad-uşaq, bir neçə adam, bir də tayfanın igid çobanı Qeyvalı qalıbmış. Bunu bilən Kəbirli cavanları iki dağın aşırımında çoban Qeyvalıya hücum edib sürünü aparmaq istəyirlər.

Düşmənlər çox, Qeyvalı isə tək. Bu qədər qüvvənin qarşısında gücsüz olduğunu, həmişə qalib çıxmış bir tayfanın bu gün basılacağını hiss edən çoban əllərini göylərə qaldırıb allaha yalvarıb ondan kömək istəmişdir.

Deyirlər ki allah onun yalvarışlarını eşidib, sürü ilə birlikdə onu daş eləmişdi. Sürünün içində iri, burma buynuzlu qoçlar çox olduğundan həmin yerə «Qoç daş» adı verilmişdir.

## GƏLİN QAYASI

Bir gün düşmənlər qəfildən hücum çəkirlər. El-obada qaçhaqaç düşür. Adamlar özlərini itirib çaş-baş qalırlar. El-obanın çox igidləri qırılır. Yırtıjı düşmənlər qocaları, qarıları, körpələri atların ayaqları altında tapdaq edir.

Bu qaçhaqaçda bir gəlin də gizlənməyə yer axtarır, ha göz gəzdirsə də, sığınacaq tapmır. Hər yanda düşmənləri görür. Başıaçıq, ayaqları yaxınlıqdakı dağlara tərəf üz tutur. Düşmənlər də onu görüb dalınca at salırlar.

Gəlin hamilə imiş. Özü də piyada. Hara qaça bilərdi? Düşmənlər çathaçatda gəlin üzün göylərə qaldırıb tanrıya yalvarır ki, düşmənlərdən xilas olsun, ələ keçməsin, el namusu tapdalanmasın.

Söz qurtaran kimi gəlin daşa dönür.

Qılınclardan qan daman düşmən atlıların qarşılarında gəlin əvəzinə bir sal qayanın ucaldığını görüb don qalırlar. Cilovlarını gəmirən atlar isə ürkək-ürkək kişnəşirlər. Atlılar bu möcüzədən qorxub tələsik arxaya qayıdırlar.

Bonəniyar kəndinin yaxınlığında, dağ döşündə yüksələn bu qaya hamilə gəlinə bənzəyir. El söyləmələrinə görə, qanlı müharibələrin yadigarıdı. Elə adına da «Gəlin qayası» deyirlər.

## PİRİ BABA
## (Şəmkir rayonu)

Daşüz kəndinin altı kilometrində bir bulaq var imiş. Bu bulaqdan su axıb həmişə kəndə gələrmiş. Bulağın adı Qarağaclı bulaq idi. Bir gün bulağın suyu kəsilir. Bütün kəndin camaatı, onların mal-qarası susuz qalır. Bir gün Piri baba qılıncını da götürüb su gələn arxın kənarı ilə bulağın yanına gəlir. O, burda nə görsə yaxşıdır? Görür ki, bulağın gözünü yekə bir əjdaha tutub, suyu kəndə buraxmır. O, çox çətinliklə əjdahanı yaralayıb, öldürür, «kafir, səni daşa dön» deyir. O dəqiqə əjdaha daşa dönür. Daşa dönmüş əjdahanın üstündə Piri baba ilə tulasının izləri qalmaqdadı.

## HƏZRƏTALI PEYĞƏMBƏR

Bir obada yaşayan div obanın camaatına güzəran vermirmiş. Sözünə baxmayan, özü dediyi kimi hərəkət etməyən adamları dar ağacından asırmış. Bir gün div yenə də 40-50 adamı öldürməyə hazırlaşır. Elə bu vaxt Allah tərəfindən Həzrətalı peyğəmbər oraya gəlir, obada baş verən bu ağır hadisəni görür. O, divdən xəbər alır ki, bu adamlara bu qədər əzab-əziyyət verib öldürürsən, de görək bunların günahı nədi? Div bu sözlərdən qəzəblənir, Həzrətalı peyğəmbərin üstünə hujum çəkir. Div özünün ağır çəkili toxmağını Həzrətalının başına vurmaq istəyəndə Həzrətalı cəldlik edərək başının üstünə öz qalxanını tutur. O, bu zaman dizlərinə kimi torpağa girir. Növbə Həzrətalıya çatanda o, qılıncını divin üstünə qaldırır. Elə bu vaxt ilahi bir səs Həzrətalının qulağına deyir: «Həzrətalı, qılıncını yavaş vur. Dəyirman daşını bölmə».

Həzrətalı qılıncı ilə divi iki yerə bölür, bir az dəyirman daşına toxunur. Həzrətalı camaatın canını divdən xilas edir.

## DAŞ OĞLAN

Rəvayətə görə, bir gəlin olur. Vaxt gəlir, vədə yetişir, gəlin barihəmlini yerə qoymalı olur. Evdə də heç kim yoxuymuş. Evin kişisi çöl işinə gedibmiş. Gəlin rahat olandan sonra sevincək uşağa baxır. Bu onun çoxdankı arzusuydu. Neçə dəfə uşaq dünyaya gətirmişdi, heç biri yaşamamışdı. Ona görə də hələ bu ailə bir ürək dolusu sevinib gülə bilməmişdi.

Halsız gəlin «can bala» -deyə-deyə körpəyə baxanda az qalır başına hava gəlsin. Dünya-aləm gözündə qaranlıqlaşır, evin divarları başına hərlənir, bütün ağır dərdlər düyünlənib çiynindən asılır. Sən demə bu uşaq da ölü doğulmuşdu.

Gəlin başını itirir, bilmir neyləsin, başına haranın daşını töksün. Ölüm onun üçün ən qiymətli arzuya çevrilir. Bir yandan da ərinin qorxusu onu haldan salır. Bilmir ki, çöl işindən qayıdacaq ərinə nə desin, necə bildirsin ki, bu körpə də ölü doğulub?

Gəlin çox fikirləşəndən sonra ölü uşağı gizlədib yerinə daş qoyur. Əri gələn kimi başlayır uşağı yürüməyə.

Kişi arvadın bari həmlini yerə qoyduğunu bilib sevinir. İstəyir ki, uşağı görsün, bir doyunca ona tamaşa eləsin. Beşiyə yaxınlaşmaq istəyəndə, gəlin qoymur.

Deyir:

–Ay kişi, bir hövsələni bas. Uşaq təzəcə yuxuya gedib, oyadarsan.

Kişi səbrini basıb gözləməyə başlayır. Gəlin içini yeyə-yeyə daş qoyulmuş beşiyi yırğalayır, kişi də həsrətlə körpənin yuxudan oyanmasını gözləyir. Bir xeyli keçir, daha kişinin səbri qalmır. Gedib beşiyə baxır ki, orada oğlan uşağı var. Gəlin heyrətlənir ki, beşiyə qoyduğu daş gözəl-göyçək bir oğlan olub. Kişi də heyrətlənir ki, bir günlük körpə onu görən kimi başlayır oxumağa:

Əzizinəm daşdan mən,
Kiprikdən mən, qaşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

Gəlin heç bir söz demir. Bu sirri açıb ağartmır. Hər ikisi şad-xürrəm körpələrini böyüdürlər.

## ŞALFİRUZ BABA

Şalfiruz baba keşmiş zamanlarda Dağıstanda yaşayırmış. Onlar iki qardaşıymış. Qardaşının adı Piri babaydı. İş elə gətirir ki, Piri baba Şalfiruz babadan ayrılır. O köçüb Şəki rayonunun Daşüz (Cumankənd) kəndinin altı kilometrliyində dərənin arasında, dağlar qoynunda yurd salır. Onun yurd saldığı yerdə içməyə su tapılmır. O əlacsız qalıb qardaşı Şalfiruz babaya xəbər göndərir. Şalfiruz baba qardaşına deyir ki, qardaş bir az döz, hər şey düzələcək-yeni suyun olacaq! Şalfiruz baba Dağıstandan öz əsasını yerin altı ilə qardaşı yaşadığı yerə atır. Əsa Piri babanın yaşadığı yerə su ilə birlikdə gəlib çıxır, həmin su indi də Daşüz kəndindən axır.

## PİRABDALQASIM

Bizim kəndin on iki-on beş kilometirliyində Pirabdalqasım deyilən bir kənd var. Rovayətə görə o kənddə İsgəndər adında bir bəy yaşayırmış. Bu bəyin də bir naxır malı varıymış. Bəyin naxırını nökərlər otarırmış. Bəyin Qasım adında bir nökəri də varıydı.. Qasım çox ağıllı, tədbirli, həm də gözəl bir oğlanıymış. Bəyin malları arasında Qızıl adında bir inəyi varıydı. Bu inək başqa inəklərdən xüsusilə fərqlənirdi. İnək olduqca gözəliydi. Bəy nökərlərə bu inəyə daha yaxşı qulluğ etməyi tafşırmışdı. Bir gün mallar örüşdən qayıdan vədə Qızıl inək gəlmir. Bəy Qasımdan soruşur ki, inək niyə gəlmiyif, get



axtar, tapmasan evə qayıtma. Qasım inəyi axtarmağa gedir. Yol boyu o, fikirləşir ki, əgər mən inəyi tapmasam bəyə nə cavab verəcəyəm. Bəy məni qapısından qovajaq. Qasım bu fikirlə gedərkən birdən hənirti duyur, başını qaldırıb görür ki, Qızıl inək Güllü təpədə otduyur. Qasım inəyə deyir ki, ay Allahın heyvanı, səndən ötəri bəy məni evdən qovuf, niyə gəlmirsən? İnək birdən dilə gəlif deyir ki, ay Qasım, mən balam üçün oğurluyıf süd saxlıyıram, ancaq qaravaşlar onu da sağıllar. Ona görə də gəlməy istəmirəm. Qasım inəyi gətirif gəlir. Deyirlər yerin də qulağı varmış. Bu xəbər gəlif bəyin qulağına çatır. Bəy bunu eşidib çox təəcüblənir və bunu yoxlamaq istiyir.

Bir dəfə bəyin nökərləri deyir ki, gəlin Qasımın inəklə danışmağını yoxlıyax. İndi elə edin ki, Qızıl inək naxırdan gej qayıtsın. Nökərlər bəyin dedikləri kimi edillər. Mallar örüşdən qayıdan zaman Qızılın ağzını güllü-çiçəkli bir təpəyə tərəf yönəldillər. İnəyin başı otdamağa qarışır. Axşamın nə vaxt düşdüyünü bilmir. Qasımın da bu işlərdən xəbəri yox. Axşam olur, bəy yenə mallara baş çəkməyə başdıyır. Görür ki, inəh yoxdur. Yenə də Qasımı evdən qovur ki, get inəyi tap gətir. Qasım çox qəmgin halda inəyi axtarmağa gedir. O, yol getdikcə fikirləşir ki, nə etsin, bəyin zülmündən lap cana yığılıf. Qaçıb getsin, hara getsin, yetim bir nökər kimə pənah aparsın. Qasım yol gedə-gedə öz taleyindən acı-acı gileylənir. Elə ki Qasım həyətdən çıxır, İsgəndər bəy də başlayır qarabaqara onu izdəməyə. Qasım da ki, işdən bixəbər. Qasım gəlib görür ki, Qızıl güllü-çiçəkli bir yamacda otdayır. İnək onu görən kimi dilə gəlib deyir: ay Qasım deyirəm qoy doyunca otduyum ki, südüm çox olsun, bəlkə sağılanda balama bir az oğurluya bildim. İsgəndər bəy görür ki, Qasım həqqətən inəklə danışır. Birdən bəy gizləndiyi yerdən çıxıf deyir:

–Ə Qasım, sən heyvanların dilini də bilirsən?

Qasım çevrilif bəyi görür. Elə bu vaxt yer aralanıf Qasımı udur. Kəndə yayılır ki, Qasım pir oldu. O vaxtdan həmin kəndin adı Pirabdalqasım qalır.

## KƏLƏMƏRC

Bizim bu qonşu kəndlər, məsələn, Gəndo, Qaraqaya, Yeniyol kəndlərində əvvələr mərc çəkişmək çox böyük dəb imiş. Elə olurdu ki, mərcdə çox böyük dəyərli əşyalar uduzurlarmış. Bəziləri at, camış, inək, başqa qiymətli əşyalar uduzarmışlar. Bunlardan ən qiy-

mətlisi at sayılırdı. Çünki at kişilərin namusu hesab olunardı. Kişinin ya atını apardın, ya da arvadını – ikisi də namusdan sayılardı.

Qaranohurdan iki kilometr aşağı bir düzənlik var, oraya da Kələmərc deyirlər. Deyilənlərə görə, Qaraqaya kəndində Musa adında 80-90 yaşında bir kişi olarmış. Musa kişi həmişhə mərcə qoşularmış. Bir dəfə Musa kişi qonşusu Məmmədvəli ilə Ağsu rayonundan gələndə həmin dediyim o böyük düzə çatırlar. Söhbət əsnasında Musa kişi Məmmədvəliyə deyir ki, Sərdaharlı Mirzəmməd on üç yaşında evlənib. Məmmədvəli Musanın sözünə inanmıyır. Onlar bir atdan, bir canmışdan mərcə girirlər. Bunlar iki şahid götürürlər. Çünki bu, çox böyük bir mərciydi. Bu vaxta qədər heç kəs belə böyük bir şeydən mərcə girməmişdi. Nəhayət, onlar daha evə gəlməyib, birbaşa Sərdahara – Mirzəmməd kişigilə gedirlər. Mirzəmməd kişi bunları görən kimi nə isə ürəyinə damır. Çünki o bilirdi ki, Musa kişi yaman mərc həveskarıdır. Mirzəmməd kişi onları gülərüzlə qarşılayır. Yeyib-içdikdən sonra ev sahibi onların nə mətləb üçün gəldiklərini soruşur. Musa kişi elə birinci sualda Mirzəmməddən soruşur ki, sən neçə yaşında evlənmisən? Mirzəmməd cavab verir ki, 13 yaşında evlənmişəm. Nə isə, bu mərci də Musa kişi udur. Məmmədvəli kor-peşman evə gəlir, bir at, bir dənə camış verir Musaya. Elə o vaxtdan həmin düzənliyin adı qalır Kələmərc – yəni böyük mərc. Kələ böyük deməkdir.

## KƏRƏM KÖRPÜSÜ

Əsli ilə Kərəmin məhəbbəti dillərdə gəzir, eşidib bilənin ürəyini parçalayır. Qara Məlik bir yerdə durub fikirləşir, çalışır ki, Kərəm Əslini görməsin, Əsli də Kərəmi. Bu niyyətlə Qara Məlik gah arana, gah da uzaq dağlara köç eyləyirdi. O, həm də özünü, nəsil-nəcabətini hamıdan gizli saxlamağa çalışırdı. Məqsədi də o idi ki, Kərəm ondan, onun hara getdiyindən xəbər tuta bilməsin.

Qara Məlik bu dəfə də çox çətin qorxulu, təhlükəli keçidlərlə dolu olan dağ kəndlərindən birinə köç eyləyirdi. Onun bu səfərindən xəbər tutan Kərəm tək-tənha Qara Məliyin köçü gəlib keçəcək bir dərin dərənin qırağında dayandı. Dərənin dibinə baxanda qorxudan adamın tükü ürpəşirdi. Kərəm fikirləşdi ki, dərənin dar keçidinə bir körpü düzəltsin. Bu məqsədlə o gedib iki uzun tir tapıb gətirir. Tirləri dərənin bu tərəfindən o tərəfinə uzadır. Lakin tirin biri sıldırımın o biri tərəfinə gödək gəlir. İstəyir ki, gedib başqa bir tir gətirsin.



Elə bu zaman Kərəm görür ki, Qara Məliyin köçü gəlir. Tez sıldırıma girib tirin çatmayan yerinə özü dayanır. Köç arabaları gəlib Kərəmin çiyni üstündə dayanan körpüdən keçəndə, o fikirləşir ki, bəs mən necə edim ki, Əsli mənim burda olduğumu bilsin? Bu fikirlə də o, körpünü bir azca silkələyir. Doğrudan da Əsli bu körpünü silkələyənin Kərəm olduğunu bilir. Ancaq köç körpüdən keçib gedir. Elə o zamandan körpünün adı Kərəm körpüsü qalır. Kərəmin düzəltdiyi bu körpü elin yoluna çevrilir.

## NAMƏLUM AZƏRBAYCAN ŞƏHƏRİ

Deyilənə görə, eramızın I-IX əsrləri arasında bir tərəfi Xına dərəsi, digər tərəfi kəndimizin yaxınlığında Qalaça adlanan torpaq qala olmuş, həmin qalada müqəssirləri saxlamışlar. Qala ətrafında çəkilən hasarın uzunluğu 600 metr olmuşdur. Babalarımızın deməsinə görə, yerin altından Qala ilə Torpaqşəhər arasında əlaqə saxlanırmış. Torpaq – şəhər əhalisi gözəl incəsənət işləri ilə, heykəltaraşlıq ilə məşğul olmuşdur. 9 il bundan qabaq kəndimizin arası ilə Saratovka deyilən yer arasında yeni yol işlənərkən yerin altından çıxan əşyalar buna parlaq misaldır. Tanınmış yarımbədən insan heykəlləri üstündə nəsihətli atalar sözləri tapılmışdır. Həmin sözlərdən mən bir neçəsini ağsaqqallarımızın köməyi ilə yazıb götürmüşəm. Həmin sözlərdə qocalığa dair deyilmiş tərbiyəvi hikmətlər daha diqqətəlayiqdir:

Cavanlıqda bir mənzilə yola saldı,
Getdi, məndən qabaq çatdı qocalıq.
Kəsdi qabağımı bir dar küçədə,
Tutub məni oda atdı qocalıq.

Nə qədər yalvardım, get kənarda dur,
Yaramaz işlərə məni az buyur,
Dedi yaranmışın qaydası budur,
Aldadıb başımı qatdı qocalıq.

Eramızın VII əsrində ərəblərin Azərbaycan torpağına yürüşləri zamanı kəndimizdə bir sıra nişangahlar – Haçaqaya adlanan yer Dağdağan ocağı adlanan yer, ərəb karvansaraları, bir sıra ziyarətxanalar olmuşdur. Həmin nişangahlar hal-hazırda da dini abidələr kimi yaşlıların qəlbindən çıxmayır. Nişangahlar tərbiyəvi xarakter daşı-

yır. Belə ki, öz zəmanəsinə görə nişangahlar olan yazılarda Azərbaycan xalqı ilə ərəb xalqlarının dostluğunu əks etdirən rəsmlər, nəsihətli sözlər də olmuşdur.

Məsələn: Şıx Sədi bir gün şəhəri gəzərkən bir pinəçiyə rast gəlir. Deyilənlərə görə, pinəçi Sədidən xahiş edir ki, mən pinəçilik ilə uşaqlarımı dolandıra bilməyirəm. Mənə də bir xanlıq ver, qoy həmin vəzifə ilə uşaqlarımı yaxşı dolandırım. Bu zaman Sədi pinəçidən rüşvət almaqla vəzifə vermək istəyir, pinəçi isə yoxsulluğa görə Sədinin bu fikri ilə razılaşır. Səbəbi isə yoxsulluq olur. Nəticədə Sədi ondan bir at almaqla onun xan olmasını məsləhət bildi. Pinəçi Sədinin bu fikri ilə razılaşdı.

Sədi bu zaman pinəçiyə dedi ki, səhər sizə gələcəyəm, xəngəl bişir, üstündə qurud süzməsi tökərsən. Həmin xəngəli gəlib yeyib səni xan qoyacam. Səhər Sədi pinəçinin evinə gəlib pinəçiyə dedi ki, xəngəli bişirərkən əmək bölgüsünə əməl edək. Beləliklə, sən qurudu əz, mən qazanın altını qalayım, arvad isə xəngəl kəssin. Bu zaman Sədi bir alma sirri oxudu. Pinəçi röyada padşah oldu. Cəlladlar isə əllərində qılınc durmaqla şahdan əmr gözləyirlər ki, görək şah kimin boynunu vur deyəcək. Elə bu zaman, cəlladlardan biri şaha deyir ki, Sədi tələb edir ki, şah mənə bir at verəcək onu versin. Əvvəlcədən danışmışıq. Şah (pinəçi) dedi ki, Sədi nə zibildir ki, mən ona at verəm. Sədi elə edir ki, pinəçi oyanır. Pinəçi isə yuxudan ayılan kimi gördü ki, əli qurud əzməkdədir, Sədi isə ocaq qalayır. Arvad isə xəgəl kəsir.

Pinəçi gördü ki, Sədi yanında durub ona baxır. Odur ki, bir söz deyə bilməyib utandığından yerə baxdı.

## İSMAYIL QURBANI

İbrahim peyğəmbər hər səhər Məkkəni yarıbayarı gəzib görürmüşkü, Məkkə uçub. Bir belə, beş belə axırda Allah-talanın yanına gedib bu sirri ondan soruşur. Allahtala buyurur ki, əgər Məkkənin uçmağını istəmirsənsə, onda gərək imamların yolunda ən əzizinin boynunu vurasan.

İbrahim peyğəmbərin bircə camışı var imiş. Gətirib bunun boynunu kəsir. Səhər Məkkəni gəzir onu yenə uçmuş görüb yenidən Allahtalanın yanına gedib deyir ki, ay Allah, qurban olum, dediyini elədim, amma, Məkkənin binəsi yenə uçdu -deyir.

Allahtala camışın onun əzizi olmadığını söyləyir və ən əzizin



oğlun İsmayıldır deyir.

İbrahim peyğəmbər başladığı işin yarımçıq olmasını istəmir. Buna görə də çox götür-qoy etdikdən sonra, oğlunun bir qurban kimi kəsilməsinə razı olur.

İbrahim peyğəmbər səhər arvadından bir ip və bir xalça istəyib, oğlu İsmayılı Yəmən dağlarına seyrə apardığını söyləyir.

Yol boyu İbrahim peyğəmbər oğluna fikir verir, oğlu isə hər şeydən bixəbər olduğu üçün ətrafı seyr edirdi. Birdən hardansa bir şeytan peyda olub İsmayılın qabağında o tərəf-bu tərəfə atılmağa başlayır. O, astaca İsmayıla xəbər verir ki, bəs atan sənin boynunu vurmağa aparır. İsmayıl deyir: ay ata bu şeytana bax, mənə deyir ki, atan sənin boynunu vurmağa aparır. İbrahim peyğəmbərin oğlunu bu işdən halı edən şeytana acığı tutur. İsmayıla deyir ki, yerdən bir daş götürüb gözünü çıxart. İsmayılın atdığı daş şeytanan gözünü kor edir. O vaxtdan, «nəhlət sənə kor şeytan» kəlməsi işlənməkdədi.

Yəmən dağına çatıb Yaqub peyğəmbər istəyir ki, oğlunun əl-qolunu, gözünü bağlasın. İsmayıla hər şey agah olduğu üçün əl-qolunun bağlanmasına razı olmur. İbrahim peyğəmbər xançalı oğlunun boynuna bir vurur, iki vurur, xançal kəsmir. Hirslənib xançalı böyük bir qayaya vurur. Qaya yarılır, oradan ağ, qara gözlü bir qoç çıxır. Allah taladan bir səda gəlir ki, bu, İsmayılın qurbanıdır. O vaxtdan, bu vaxtadək İsmayıl qurbanı hər il qeyd olunur.

## GƏLİN QAYA

Hal-hazırda indiki Daşkəsən rayonunun Qabaqtəpə kəndi yaxınlığında «Gəlin qaya» adlanan bir qaya mövcuddur. "Gəlin qaya" haqqında Qabaqtəpə kəndində bir əfsanə var.

Deyilənlərə görə keçmişdə Hacı Abdal adlı bir kişi yaşayırmış. Bu kişinin övladı yox imiş. Onun əlindən demək olar ki, hər bir iş gəlirmiş. Xüsusiylə daşdan heykəl yonmağı, daş üzərində bəzəkli şəkillər çəkməyi, bir də ovçuluğu çox sevərmiş. Hacı Abdalın arvadı Pərişan çoban qızı idi. Bu ərlə arvad bir-biri ilə çox mehriban yaşayırdılar. Onların arasında heç bir söz-söhbət olmaz, həmişə bir-birinə can deyib, can eşidərdilər. Bu ailə nə qədər mehriban olsa da onların bir övladı yox idi. Artıq kişinin saçlarına yavaş-yavaş dən düşürdü. Arvad isə çoban qızı olduğuna görə çox gümrah görünürdü.

Bir gün Hacı Abdal öz sevimli arvadı Pərişanı yanına çağırıb ona

mehribanlıqla deyir: -«Pərişan, çox güman ki yaşımızın xeyli hissəsi keçib, lakin bizim övladımız yoxdur. Bəlkə bizim bu torpaq bizə düşmür, gəl var dövləti satıb pula çevirək, buradan çıxıb başqa ölkəyə gedək. Bəlkə bir parça övlad qismətimiz oldu». Mehriban ərinin bu sözlərini maraqla dinləyən Pərişan bir qədər fikirləşib dedi:

-Hacı Abdal, mən sənin sözlərinlə razıyam, necə məsləhət görürsən elə də edək. Ancaq atalar məsələsidir, deyərlər «daş yerində ağır gələr», «səbr hər şeyə qalib gələr», qoy atamla məsləhət edim, hamıdan böyükdü. Çoban olmağına baxmayaraq, çox tədbirli kişidir, el ağsaqqalıdır. Ağıllı məsləhətləri var. Bayaqdan fikrə getmiş Hacı Abdal mehriban arvadının bu sözlərini maraqla dinləsə də fikri çox uzaqlarda idi. Hər dəqiqə həyatı haqqında, övladı haqqında düşünürdü. Pərişanın bu məsləhətinə qeyri-adi olaraq başı ilə razılığını bildirirdi. Pərişan çoban qızı olsa da çox dünyagörmüş, tədbirli bir qadın idi. O, ərinin pisikməsini hiss etsə də yenə ona ürək-dirək verirdi. Həmişə övlad söhbəti düşəndə bir maraqlı söhbət edib əri ovundururdu.

Günlərin bir günündə Hacı Abdal meşəyə ova getmişdi. Pərişan fürsətdən istifadə edib cəld atasının yanına gəldi, əhvalatı atasına danışdı. Atası bir qədər qızını dinlədikdən sonra əlini cibinə atdı, cibindən çıxarıb ona üç alma verib dedi:

-Qızım, bu almaları səhər-səhər yeyərsən, dənələrini südə qatıb ərinə yedirdərsən. Bir ildən sonra bir qızınız olacaq, onda məni çağırarsınız, adını mən qoyacam.

Pərişan almaları atasından alıb çox sevindi. Atasının üz-gözündən öpüb ondan ayrıldı. Ata qızını yola salandan sonra çox fikirləşdi, əllərini göyə qaldırıb xeyir-dua verdi. Pərişan axşam öz evinə gəlib çıxdı. Nə qədər gözlədisə, Hacı Abdal gəlib çıxmadı. Pərişan bərk narahat oldu. Evin yaxınlığında təpənin başına tərəf gəldi. Gözü işlədikcə uzaqda görünən meşəyə tərəf baxdı. Nə qədər gözlədisə, heç bir xəbər tuta bilmədi. Kor-peşman evə qayıtdı. Gecədən xeyli keçənə qədər gözlədi. Hacı Abdal gəlib çıxmadı ki, çıxmadı. Pərişan çarpayısına uzandı, onu birdən yuxu tutdu. Şirin yuxunun içində qulağına bir səs düşdü: "Pərişan qəm yemə arzuna çatacaqsan. Atanın dediklərinə əməl et". Pərişan bu sözləri yuxuda eşidən kimi, cəld yuxudan ayıldı. Ətrafına nəzər saldı, heç kim yox idi. O, cəld bayıra qaçdı. Dan yeri təzəcə ağarırdı. Əri gedən tərəfə baxdı. Çox uzaqdan nə isə qaraltı görünürdü. Bir qədər gözlədi. Gördü ki qaraltı yavaş-yavaş ona yaxınlaşır. Pərişan daha diqqətlə tamaşa etməyə başladı. Nəhayət, yəqin



etdi ki, gələn əri Hacı Abdaldır. Amma nə isə çiynində böyük bir şey var. Pərişan ərinin qabağına doğru yeridi. Yanına çatanda Pərişanı dəhşət bürüdü. Hacı Abdalın başı, qolu sanki özünün deyildi. Bütün üst-başı al qan içərisində idi. Yaralarını isə köynəyi ilə sarımışdı. Ərinin cəsarətinə köhnədən bələd olan Pərişan ondan soruşdu. «Ay kişi bu nə gündür düşübsən? Bəs bu gecəni harada qaldın»?

Hacı Abdal dedi: «Pərişan mən ki sağ-salamat gəlib evə çıxdım, Allaha şükür elə, çox qorxulu bir hadisə ilə qarşılaşmışdım».

Pərişan ərinin halına acıyaraq ona bir söz deməyib çiynində gətirdiyi şeyə diqqət yetirdi. Pərişanı dəhşət yenidən bürüdü. Hacı Abdal çiynində gətirdiyi pələngi yerə qoyub bir daşın üstündə oturdu, yavaş-yavaş nəfəs almağa başladı.

O, meşənin lap dərinliyinə getdiyini, heç bir ova rast gəlmədiyini, nəhayət, qaranlıq düşən zaman dar bir qayanın dibində qəflətən böyük bir pələnglə qarşılaşdığını söylədi. Hacı Abdal elə güman etdi ki, pələng ona qalib gələcək. Pələng onun başını, qolunu çeynəyir, didir. Lakin təcürbəli ovçu fürsəti əldən vermir. Əlini atıb belindəki xəncəri çıxarır, pələngin qarnına soxur. Bir qədər keçən kimi, pələng yerə sərilir. Hacı Abdal özünü ələ alır, köynəyini çıxarıb yaralarını bağlayır. Bir qədər dincini alıb pələngi bir böyük torbaya salır, gecə ikən pələngi də çiyninə alıb evə tərəf yol başlayır. Hacı Abdalın bütün yaraları göynəyirdi. Səhərə yaxın kəndə yaxınlaşır. Pərişana bu söhbəti edəndən sora sevimli ərlə arvad evə gəlib çıxırlar. Pərişan axşamdan hızırladığı yeməyini stola gətirir, Hacı Abdala deyir gəl otur nahar edək. Pərişanla Hacı Abdal birlikdə nahar edirlər. Hacı Abdal bir qədər dincəlir.

Pərişan gördüyü yuxunun sevincini ərinə söyləmək istəyir. Lakin çox götür-qoy edir. Əvvəlcə demək istəmir. Nəhayət, səbri tükənir. Ərinə yaxınlaşır, atasının verdiyi məsləhəti, yuxuda gördüklərini ona danışır. Hacı Abdalın sevinci birə-beş qat artır, bir anlığa xəyala dalır. Hacı Abdal yaralarının ağrısını unudur. Bu işin olacağına o qədər də inanmır. Çünki, bu neçə illərdə onlara heç bir belə iş təsadüf etməmişdi, ona görə də ona yuxu kimi gəlirdi. Onlar həyat qurah 20 ildən çox vaxt keçmişdi, onların övladı yox idi. Fikirləşdi ki, bəlkə adi yuxudur. Bəs onda Pərişanın atasının verdiyi almalar nə üçündür? Bir qədər fikir xəyal edib yuxuya getdi. Bir də gördü ki, yuxuda qulağı bir səsə düşdü: "Hacı Abdal, qəm yemə arzuna çatacaqsan". Hacı Abdal cəld yuxudan ayıldı, yan-yörəsinə baxdı. Gördü ki, heç

kəs yoxdu. Onu fikir yenidən bürürdü.

Aradan bir müddət gəlib keçdi. Bir gün el-obanı bir xəbər bürüdü. Camaat ordan-burdan danışıq eşitməyə başladı. Hacı Abdalın arvadı Pərişanın boyuna uşaq düşüb. Şadlıq, sevinc hissi gəzib dolaşmağa başladı. Kənd camaatı ara-sıra Pərişana gözaydınlığı verməyə başladı.

Nəhayət bütün el-oba yəqin etdi ki, Hacı Abdalın uşağı olacaq. Onlar da arzusuna çatacaqlar. Pərişanın atasına qızına verdiyi almaların söz-söhbəti də dildə- ağızda gəzirdi. Hərə bir şey yozur, hərə bir şey düşünürdü. Həqiqətdə isə bu almalar «Cənnət alması» idi. Çobana bu almaları çöldə qoyun otararkən Zümrüd quşu yatdığı yerdə veribmiş. O, bir qayanın dibində qoyunu otlağa yayıb daşın üstündə oturubmuş. Çoban həmişə qızının taleyinə acıyır, hər dəqiqə onun övladı olacağı haqqında düşünürmüş. Elə buradaca çobanı yuxu tutub. Bir də qulağına bir səs düşür. Çoban bu almaları qızına ver yesin. Dənəsini isə ərinə yedirtsin. Onların Zümrüd adlı bir gözəl qızı, iki oğlu olacaq. Çoban hövlank yuxudan ayılır, oyan, bu yana baxır, heç kimi görə bilmir. Xeyli düşünür. Çoban yuxuda gördüyü kimi də edir. Almaları qızı Pərişana verir.

Aylar gəlib keçir. Doğrudan da Pərişanın bir gözəl qızı olur. Neçə-neçə qurbanlar kəsilir, nəzir-niyazlar verilir. Çoban gəlib qızın adını Zümrüd qoyur. Zümrüd günlər keçdikcə böyüyür, böyüdükcə gözəlləşir. Bir neçə il də keçir. Hacı Abdalın iki oğlu da olur. Yenə həmin qaydada Pərişanın atası gəlib onların da adın qoyur. Birinin adın Adil, birinin adın Hafiz qoyurlar. Neçə-neçə nəzir-niyazlar verirlər. Hacı Abdal isə elə bil övladları olandan sonra cavanlaşır. Özünü elə xoşbəxt sanır ki, sanki bütün qəm-qüssədən uzaqdır. Hacı Abdalın oğlanları da böyüyür. Yavaş-yavaş atayla ana uşaqları ilə birlikdə şən həyat keçirməyə başlayırlar.

Aylar-illər gəlib keçir. Qız böyüyür, böyüdükcə də gözəlləşirdi. Nəhayət, Zümrüdün ərə gedəsi vaxtı olur, ata-ananı yeni fikir, yeni qayğı bürüməyə başlayır.

Uşaqların gələcək qayğılarını düşünürdülər. Həm də, artıq ərlə arvad yavaş-yavaş qocalmağa başlayırlar. Onlar qocaldıqca bir-birini daha mehribanlıqla sevirdilər.

Zümrüd isə həddi-buluğa çatmışdı. O qədər gözəlləşmişdi ki, heç el-obada tayı, bərabəri yox idi. Bütün kənd camaatı Zümrüdün gözəlliyindən danışırdı. Onun bu gözəlliyinin səsi-sorağı hər yanı bürümüşdü.



Artıq Hacı Abdalın oğlanları da böyüyüb gənc bir oğlan olmuşdu. Adillə Hafiz də Zümrüd kimi gözəl idilər. Hacı Abdal həm qızını ərə vermək, həm də oğlanlarını evləndirməyi düşünürdü. Pərişan isə həmişə Hacı Abdalı tələsdirirdi ki, ay kişi, tez ol uşaqları evləndirif, qızı ərə ver, qoy biz də bir nəvəmizi görək, nənə, baba olaq. Qızın elçiləri isə gün-gündən çoxalırdı. Lakin atası qıza gələn elçilərin bəzisinə "hə" vermək istəyəndə qız heç kəsə razılıq vermirdi. Ata naəlac qalıb elçilərin qabağında məğlub olurdu. Zümrudun anası çoban qızı olduğuna görə, Zümrüd də çobana ərə getmək fikirində idi.

Deyilənlərə görə, qonşu kəndlərin birində Sayad adlı bir varlı kişi yaşayırmış. Bunun da gözünün ağı-qarası Həsən adlı bircə oğlu var imiş. Bir gün Hacı Abdalın qızı Zümrüdün sədası gəlib Həsənə çatır. Həsən öz dostları ilə gəlib bulaq başında Zümrüdə baxır, bir könüldən min könülə qıza aşiq olur. Həsən atasına təkid edir ki, nə olursa olsun, Zümrüdü ona alsın. Həsənin atası əlacsız qalıb bir neçə ağsaqqal ilə Hacı Abdalın evinə elçi gəlir. Xoş-beş, on beşdən sonra Sayad kişi söz açır, fikrini Hacı Abdala bildirir. Lakin Hacı Abdal razılıq vermir. Sayad kişi çox bikef duruf ağsaqqallarla birlikdə evinə gəlir. Əhvalatı olduğu kimi oğlu Həsənə danışır. Həsən atasının boş qayıtdığını bilib çox pərt olur, qarşısına məqsəd qoyur ki, nə olur olsun, Zümrüdü alacam.

O, kəndin bir dəstə cavanlarını başına toplayıb qızı zorla qaçırtmağı qərara alır. Hacı Abdal elçiləri yola salandan sonra Pərişanla da məsləhətləşir, Zümrüdün də fikrini öyrənir. Zümrüd isə narazılığını bildirir. Nəhayət, xəbər qızın qardaşlarına çatır. Bir gecə Həsən öz dəstəsi ilə Hacı Abdalın evinə hücum çəkir. Qızı zorla aparmaq istəyir. Zümrüdün qardaşları ilə Həsənin dəstəsi arasında qanlı vuruşmalar gedir. Nəhayət, hər iki tərəfdən ağır təlafat baş verir. Həsənin dəstəsindən bir neçə adam ölür. Zümrüdün qardaşları həlak olur, Həsən isə ölümcül yaralanır. Bu zaman xəbər kəndə yayılır. Kənd, el-oba bu hadisəni yatırır. Aradan bir müddət keçir, Hacı Abdalın arvadı Pərişan oğlanlarının dərdinə dözə bilməyib xəstəliyə tutulur. Oğlanlarının dəfnindən sora bir il Pərişan yataqda yatır sonra ölür.

Zümrüd isə daha bu dərdə dözə bilməyib baş götürüb evdən qaçır, el-obadan çıxır. Gecə ikən onu heç kəs görə bilmir. Səsi-sorağı tamamilə kəsilir. Bütün kənd camaatı onların halına acıyır. Pərişanın ölümündən sonra Zümrüdün gül yanağı solur, gözəlliyini itirir.

Yazıq Hacı Abdal kişi isə evdə tək-tənha qalır. Bütün bu hadisə-

ləri bir anlığa gözlərinin qabağına gətirib, öz- özünə deyir: "Kaş Allah heç bizə bu övladları verməyəydi, ömrümüz bir anın içərisində gül kimi açıldı, lampa kimi soldu". Aylar, illər gəlib dolanır. Hacı Abdal kişinin saçı-saqqalı tamam ağarır. Qəddi əyilir, beli bükülür. Yavaş-yavaş taqətdən düşür.

Bir gün Hacı Abdal yatıbmış. Yuxuda görür ki, bir quş gəlib onun yatdığı evin başına qonub. Quş yavaş- yavaş ona nağıl edir. Sanki kişinin əhvalına quş da acıyır: «Ay Hacı Abdal, sənin ömrün qurtarır. Bu evdə tək-tənha qalıbsan, arvadın, iki oğlun həlak oldu, qızın Zümrüd isə baş götürüb getdi. Zümrüd daha yoxdur. Heç olmasa qızına bir xeyir-duva ver. Bəlkə gəlib çıxdı». Hacı Abdal isə cavabında deyir: «Görüm onu daşa dönsün. Gəlin ölsün. Qaya olsun» Quş bu sözləri eşidən kimi uçub gedir. Həmin gecə Hacı Abdal canını tapşırır. Səhər açılanda camaat xəbər tutur ki, Hacı Abdal ölüb. Kənd camaatının hamısı tökülüb gəlir. Onu aparıb bir uca dağ başında hörmətlə dəfn edirlər.

Aradan qırx gün keçir. Kənd camaatı bir gün səhər-səhər yuxudan duranda görürlər ki, Hacı Abdalın yaşadığı evin arxa tərəfində böyük bir qaya əmələ gəlib. Həmin qayanın arxa tərfində də bir uşaq var. Kənd camaatını təəccüb bürüyür. El ağsaqqalları bir yerə yığışıb, bu qayanın necə əmələ gəldiyi barədə düşünürlər. Hərə bir şeyə yozur. Axırda bu qərara gəlirlər ki, həmin qaya Hacı Abdalın qızı Zümrüddür. Deyilənlərə görə, Zümrüd baş götürüb gedəndə uzaq bir kəndə gedib çıxır, orada yoxsul bir çobana ərə gedir. Çünki bu onun arzusu idi. Anası Pərişan çoban qızı olduğuna görə o, çobana ərə gedir. Aylar, illər ötür, Zümrüdün çobandan bir oğlu olur, adını isə Əfsanə qoyur. Bir gün çöldə qoyun otararkən Zümrüdün ərini şimşək vurur, öldürür. Zümrüd isə kimsəsiz qalır. Atasının ölüm xəbərini eşidir. Nə qədər qəm çəkir, ağlayır fəğan edir. Lakin heç nə edə bilmir. Nəhayət, belə qərara gəlir ki, gedib atasını evinə, varına- dövlətinə sahib olsun. Zümrüd bu məqsədlə uşağını da götürüb öz kəndlərinə gəlir. Gəlib gecə yarı kəndin kənarına çatır, ata-anasını xatırlayır. Oradan durub evlərinə tamaşa edir. İstəyir ki, atasını səsləsin, lakin heç bir cavab ala bilməyəcəyini düşünüb ağlayır. Bir qədər keçən kimi Zümrüdü yuxu tutur. Birdən gözlərinə atası görünür. O, cəld irəli yeriyib atasının boynuna sarılmaq istəyir. Atasından üzr istəyəcəyini bildirmək istəyir. Lakin atası geri çəkilib onu rədd edib deyir:

«Namərd qızım, səni daşa dön, gəlin öl, qaya ol». Qız diksinib geri çəkilmək istəyir. Lakin nə qədər edirsə, tərpənə bilmir. Uşağı



dalında oradaca daşa dönüb, qaya olur.

Deyilənlərə görə, həmin gündən o kəndin adı «Gəlin qaya» kəndi qalır. Hacı Abdal dağın başında basdırıldığına görə isə həmin dağa «Hacabdal» dağı deyillər.

Hacı Abdalın qəbri uca bir dağın başında olduğuna görə, dörd bir yanı gül-çiçəyin içindədir.

Hacı Abdalın qəbri ilə «Gəlin qaya» da şı isə bir-birinə tamaşa edir. Hal- hazırda həmin dağın ətəklərinə hər il kənd camaatı yaylağa çıxır. Hər yerdən oraya qonaqlar gəlir. Hacı Abdal dağının mənzərəsi adamı heyran qoyur. Gül-çiçəyinin iyisindən adamlar nəfəs dolusu çəkirlər. Hacı Abdal dağının bir tərəfi də meşəlikdir.

## DAŞQALAQ

Keçmişdə İslam dininin hökmranlıq etdiyi bir dövrdə, islam ölkələrinin birində Cahankəşt adlı bir dəvriş var idi. O, öz zəmanəsinə görə zirək, müdrik, uzaqgörən bir adam idi. Bu dəvrişin daimi məskəni yox idi. Bir müddət şəhərdə qalandan sonra, başqa bir şəhərə, ya mahala gedərdi. Orada bir müddət qalandan sonra yenə də yerin dəyişib başqa bir yerə köçərdi. Heç bir yerdə özünə xüsusi ev, təsərrüfat düzəltməz, pul qazanmağa, sərvət toplamağa fikir verməzdi.

O, maddi həyatını təmin etmək üçün dərvişliyi seçmişdi. Yığıncaqlarda, toylarda, adamların bir yerə toplandığı yerlərdə qəsidə oxumaqla, nağıl söyləməklə adamları əyləndirərdi. Zəhməti müqabilində aldığı az- çox pul ilə gündəlik həyatını təmin edərdi. Dəvriş hansı bir şəhərdə, mahalda, yaxud kənddə müvəqqəti məskən salardısa, o yerin adət, ənənələrini öyrənməyə çalışırdı. Xalqın yaşayış tərzini, mədəni səviyyəsini, ictimai işlərini müşahidə edərdi. Xalqın avamlığından əmələ gələn təriqət mübahisələri ilə orada baş verən başqa hadisələrlə maraqlanırdı. Özü isə heç kəsin işinə qarışmaz, mübahisələrə qoşulmazdı. Dəvriş bu xətti-hərəkətlə ölkənin hər yerin gəzib səyahət edərdi. Dəvrişin bu səyahətlərdəki, məqsədləri haqqında heç kim bir şey bilməzdi. Dəvriş bir əlində nacaq, bir əlində kəşkül ölkənin çox yerlərində səyahət edəndən sonra, bir gün gəlib şah əyləşən böyük bir şəhərə yetişir. Bu şəhərə daxil olur, karvansarada özü üçün bir daxma kirayə edir, yemək üçün bir aşpazxananın daimi müştərisi olur.

Bir gün səhər dərviş əlində nacaq ilə kəşkül şəhərə çıxır. Adəti üzrə şəhərin abadlığına, mədəniyyətinə, binalarına, küçələrə, yollara,

bir sözlə, yaşayış səviyyəsinə fikir verir. Burada da yığıncıqlarda nağıl deməyə, qəsidə söyləməyə başlayır. Dəvriş şirin dilli, gülərüzlü, təvazakar adam olduğundan, heç kim ondan uzaqlaşmağa çalışmır, onunla dost olmağa, söhbət etməyə meyl edərdilər. Bunun nəticəsində dəvriş şəhərdə olan hadisələri tez öyrənməyə müvəffəq olurdu.

Dəvriş bir gün görür ki, çayxanalarda, dəllək dükanlarında adamlar bir neçə nəfərin gənc, gözəl qızları oğurlamağından danışırlar. Oğurlanan qızların içərisində şahın da qızı var imiş. Şahın qəzəbi həddini aşmışdı. Şəhərdə olan bütün əyanları ayağa qaldırmışdı. Cürbəcür tədbirlər görür, cinayətin üstünü açanlara ənam vəd edirdi. Yüzlərlə şübhəli adamlar həbs olunmuşdu. Bütün şəhər əhli bu işə qoşulmuşdu. Günlər gəlib keçir, lakin heç bir nəticə əldə edilmirdi. Dəvriş bu əhvalatı eşitdikdə çox heyrətlənir.

Şəhərdə Şah məscidi adı ilə məhşur olan böyük bir məscid var idi. Neçə müddət idi ki, bu məsciddə böyük bir alim, müqəddəs bir şeyx hər gün səhər, günorta, axşam mömünlərə peşnamazlıq edir, camaat namaz qılırdı. O, Allah-talanın bir nümayəndəsi kimi müsəlmanları doğru yola dəvət edirdi. Həftədə bir gün minbərə çıxıb ərəb kəlamları ilə xütbə oxuyur, möizə söyləyirdi. Adamları pis işdən yayınmağa çağırırdı. Öləndən sonra, son səadətə çatmaq üçün həmişə Allah-taladan təmənnə edərdi. Bəli, şəhər camaatı şeyxi bu cür tanıyırdılar. Şeyxin hörməti, nüfuzu butun şəhər əhlinin üzərində hakim idi. Əlahəzrət şahın özü də həmişə ona hörmət edərdi.

Şəhərin kənarında şeyx üçün möhkəm, gözəl, bağlı-bağçalı bir qalaça tikilmişdi. O, qalaça şeyxə iqamətgah hesab olunurdu. İqamətgahla məscidi birləşdirən yol pəyandazla bəzədilmişdi. Yəni yolun eninə müvafiq ölçüdə dar, qəşəng, qiymətli xalçalar döşənilmişdi. Hər gün mömin müsəlmanlar namaz vaxtından qabaq məscidin həyətində hazır olub, payəndazın üstü ilə gələn şeyxin gəlişini səbirsizliklə gözləyərdilər. Şeyxi uzaqdan görən kimi, qabağına gedib onu təntənə ilə, salavat çəkə-çəkə məscidin yuxarı tərəfinə keçirərdilər. Şeyx cənabları mehrabın qabağında dayanıb, camaatla namaz qılmağa başlayardı. Şeyxin arxasında səf-səf duran adamlar öz hərəkətlərini şeyxin hərəkətləri ilə uyğunlaşdırmağa çalışırdılar. Namazdan sonra dua oxunar, bir nəfər uca səslə fatihə deyərdi. Sonra hamı Quran ayələri oxuya-oxuya ayağa durur, bir-biri ilə əl tutub görüşür, hər kəs öz evinə gedərdi. Şeyx cənabları da öz iqamətgahına təşrif aparırdı. Şeyxə ixlas əlaməti olaraq onu iqamətgahına kimi müşayət etmək



istəyənlərə şeyx qətiyyən icazə verməzdi. O, həmişə təklik sevdiyini söyləyir, təklikdə Allah-tala ilə söhbət etdiyini xatırladırdı. Bəli, Şeyx çox təvazökar, həlim, nəfəsi təmiz zat kimi tanınmışdı. Onun heç kimdən təmənnası yox idi. Məhəmməd peyğəmbərin dini qanunlarını müsəlmanlara təbliğ etməkdən başqa bir məqsədi yox idi.

Dəvriş bu şəhərə daxil olub qaldığı müddətdə bir neçə dəfə şah məscidində olmuş, şeyxin moizələrinə qulaq asmışdı. Şəhərdə baş verən ciddi hadisədən sonra dəvriş məscidə daha çox gəlməyə, Şeyxin söylədiklərinə fikir verməyə, yavaş-yavaş ondan şübhələnməyə başladı. Lakin o, şəhər əhlinin heç birindən Şeyxə qarşı bir şübhəli söz də eşitməmişdi. Dəvriş öz şübhəsində səhv edəcəyindən qorxurdu.

Yenə bir dəfə dəvriş məscidə gəlib Şeyxin moizəsini dinləməyə oturdu. Diqqətlə Şeyxə qulaq asmağa başladı, Şeyxin bəzi kəlmələrindən dəvriş onun çox dərin biliyə malik olmadığını gördü. Şeyxin köklüyü, sağlam bədənli olması, xalqın həddindən artıq avamlığı dəvrişi düşündürürdü. Onun yadına ataların söylədiyi hikmətli bir söz düşür: «Həkimin kökü, mollanın arığı xalq üçün nümunə olmalıdır».

Dəvriş çox düşünür, nəhayət, Şeyxi izləməyi qərara alır.

Bir gün dəvriş şam namazından sonra Şeyxin dalınca qarabaqara gedir. Uzaqdan görür ki, Şeyx qalaçanın qapısına çatıb cibindən açar çıxartdı, qapını açdı, səssiz-küysüz qalaçanın içərisinə daxil oldu. Dəvriş tez gəlib qapıya söykənir, içəri qulaq asır. İçəridən heç hənirti eşidilmirdi. O, qalaçanın ətrafını gəzir, dolanır, hər tərəfi diqqətlə yoxlayır. Lakin içəri girməyə heç bir yol tapmayır. Qapı möhkəm, divarlar hündür, əlçatmaz idi. Dəvriş qaranlıq bir yerə çəkilib oturur, yenə fikirləşməyə başlayır. Yenidən diqqətlə qalaçanın ətrafını yoxlamağa başlayır. Birdən dəvriş su arxı ilə qalaçaya su axdığını görür. Dərviş sevinərək ayağa qalxır, su arxına yaxınlaşır. Arxın içi ilə suyun qalaçaya daxil olan yerinə gəlir. Gecə qaranlıq idi. O, əli ilə su yolunu yoxlayır. Su yolu çay daşları ilə qayrılmış, genişliyi təxminən insan başının həcmi qədər idi. Eyni bir ölçüdə su yolu qalaçanın cənub tərəfində var idi. Həmin su ordan axıb çölə gedirdi. Dəvriş mənzilinə qayıtdı, müvəffəqiyyət ümüdü ilə yatıb dincini aldı.

Dəvriş ertəsi gün lazım olacaq bir-iki alət tapır, axşam tərəfi qalaçanın yaxınlığına gəlir. Bir yerdə gizlənib gözləyir. Şeyx hər gün olduğu kimi təmkinlə gəlib qalaçaya yaxınlaşır, ətrafını yenidən nəzərdən keçirir, lakin heç bir şübhəli yer görmür. Dərviş sakitcə su yolunu genişləndirməyə başlayır. Dan yeri ağarana qədər təşvişlə

elləşir, çalışır su keçən yolu özünün keçə biləcəyi səviyyədə böyüdür. Yorğun halda mənzilə qayıdır, yatıb bir az dincini alır. Axşam dəvriş yenə də qalaçanın qapısını açıb, içəri girir və qapını bağlayır. Dəvriş bir neçə dəqiqə ətrafına fikir verir. Hər tərəfdə sakitlik olduğunu görüb, paltarını soyunur, bir daşın altına qoyur. Ehtiyatla gəlib su yolundan içəri daxil olur. Dəvriş diqqətlə ətrafına baxır. Bura çox yaraşıqlı idi. Müxtəlif növlü ağaclar, zəngin bitkilər, yaraşıqlı çarhovuz adamı istər-istəməz valeh edirdi. Ay doğmamışdı. Ulduzların zəif işığı altında həyət qaranlıq idi. Birdən uzaqdan ateş böcəyi kimi bir işıq dəvrişin diqqətini cəlb edir. Dəvriş ehtiyatlı addımlarla işığa tərəf getdi. Gördü ki, işıq qalaçanın ikinci mərtəbəsindən gəlir. Dəvriş pəncərənin qarşısında olan qollu-budaqlı bir ağac görür, ağacın yuxarısına çıxıb özünə münasib yer rahatlayır. Pəncərədən görünən zəif işığa diqqətlə baxır. Otağın içərisi dumanlı şəkildə görünür. İçəridə şeyx səssizcə oturub təsbeh çevirirdi. Budaqlar dəvrişin bədənini incitsə də o, səbrlə gözləyir. Otağın içərisi dumanlı şəkildə görünür. İçəridə şeyx səssizcə oturub təsbeh çevirirdi. Budağlar dəvrişin bədəninin incitsə də o səbrlə gözləyirdi. Şeyx bir neçə dəqiqədən bir divardan asılmış böyük saata gözucu baxır. Nəhayət, saatın zəngi dalbadal bir neçə dəfə səslənir. Həmin dəqiqə yarımqaranlıq otaq işıqlanır, içəri aydın görünür.

Şeyxin tanış səsi eşidilir:

–Ay oğlan, gətir! Götür!

Otağın altındakı zirzəmidən yuxarıya doğru bir qapı açılır, oradan bir neçə cavan oğlan, gəlin kimi bəzədilmiş cavan qızlar otağa daxil olur. Gənc oğlanlardan biri cəld Şeyxin labbadəsini, süni saqqalını çıxardır. Əmaməsini götürür. Başqa bir gənc eyni surətlə Şeyxin əyninə qiymətli, yaraşıqlı paltar geyindirir. Otağın ortasına masalar düzülür, zəngin süfrə açılır. Ləzətli yeməklə, qiymətli içkilərlə süfrə bəzədilir, hamısı yemək-içməklə, eyş-işrətlə məşğul olurlar.

Dərviş müşahidəni davam etdirməyi lazım bilməyib yerə düşür. Məlum su yolu vasitəsi ilə çölə çıxır. Paltarlarını geyinib yubanmadan şəhərə tərəf yüyürür. Şah sarayına yaxınlaşır, saray gözətçilərinə təşvişlə müraciət edir: «Ağalar, mən təcili olaraq şahın hüzurunda olmalıyam. Mən onu mütləq görməliyəm". Gözətçilər cavab verirlər ki, gecə vaxtı şahı narahat edə bilmərik.

Dərviş deyir ki, mənə şah ilə görüşməyi icazə verməsəniz sonra sizin üçün pis olar. Gözətçilər xeyli fikirləşəndən sonra, eşik ağasına



xəbər verirlər. Eşikağası dərbar vəzirinə xəbər aparır. Dərbar vəziri dəvrişi qulluğuna apartdırıb onun məramını öyrənmək istəyir. Dəvriş qəti olaraq bildirir ki, şahın özündən başqa heç kəsə bir söz deməyəcəkdir. Dərbar vəziri məsələni şaha xəbər verir. Şah dəvrişi çağırtdırır, qaş-qabaqlı, qəzəbli halda:

–Dərviş, gecənin bu vaxtında nə cəsarətlə məni narahat etdin, tez danış görüm. Dəvriş qorxa- qorxa dedi:

–Şaha təklikdə deməliyəm. Şah gözünü dolandırır, otaqda dəvrişdən başqa heç kimsə qalmayır. Dərviş özünü toplayıb, gördüyü hadisəni başdan ayağa şaha nəql edir...

Səhəri gün məsciddə ruh yüksəkliyi hökm sürürdü. Camaat namazı başa çatdırmadı. Əlahəzrət şah öz mühafizə dəstəsi ilə şam namazına təşrif gətirmişdi. Namaz, dua mərasimini qurtarandan sonra mömünlər öz evlərinə getməyə başladılar. Şah bu gün Şeyxi iqamətgahına kimi müşayət etməyi lazım bildi. Şeyx təvazökarlıq edib bu müşayəti lazımsız sayaraq, şahı fikirindən döndərməyə çalışdı. Şah Şeyxə nəzakətlə başa saldı ki, ağır cinayətə görə bir müqəssiri bu gün mühakimə etməlidir. Onun cinayəti haqqında Şeyxlə danışmalıdır. Bu gecə saat 10-da saraya qayıdıb müqəssirin edamına, yaxud azadlığına hökm verməlidir.

Şeyx şahın saat 10-da saraya qayıdacağını eşidib sakitləşdi. Şahla Şeyx söhbət edə-edə yanaşı, şahın dəstəsi də onların arxasınca gəlirdilər. İqamətgahın qapısına çatanda Şeyx cibindən açar çıxardıb qapını açdı. Şah öz adamlarına saat 10-na kimi burada dayanıb onun qayıtmasını gözləməyi əmr edir. Şeyx hörmətlə şahı içəri dəvət etdi. Özü isə onun arxasınca qalaçaya daxil oldu. Şahın geri qayıtmalı olduğunu düşünən Şeyx qapını möhkəm bağlamağı lazım bilmədi. Qonaqla ev sahibi şahın arzusu ilə həyətdə bir neçə dəqiqə gəzib hava almaqla vaxt keçirtdilər. Sonra gəlib pilləkənlə ikinci mərtəbəyə çıxıb Şeyxin otağına daxil oldular. Şah əyləşib Şeyxin danışmasına imkan vermədi. Şirin bir hekayə nağıl etməyə başladı. Söhbət o qədər çəkdi ki, nəzərdə tutulan şəriət məsələsini danışmağa vaxt qalmadı. Saat on oldu. Zəngli saat on dəfə zəng çaldı. Şah ucadan səs-ləndi:

–Ay oğlan, gətir! Götür!

Şeyx nə gətir, nə götür, deyib şaha mane olmaq istədiyi vaxt zirzəminin salma qapısı açıldı, yuxarıda təsvir olunan oğlan ilə qızlar otağa daxil oldular. Şeyxə tərəf gəldikdə şahı onun yanında gördülər. Daha nə etməli, sirrin üstü yavaş-yavaş açılırdı. Pusquda duran dəvriş

şahın səsini, saatın zəngini eşidən kimi qapını açdı. Şeypur çalınmağa başladı. Şahın qabaqcadan tapşırıq verdiyi saray adamları həyətə doluşdu. Dəstənin başçısı gəlib şahın əmrinə müntəzir dayandı.

Şahı burada görən qızlar xəcalətindən başlarını aşağı salıb durmuşdular. Əsarətdən xilas olacaqlarını anlayıb qəlbən sevinirdilər. Şah ilə qızının gözləri bir-birinə sataşanda, qız həyacanla: «ata», deyib özünü şahın üstünə atmaq istərkən huşunu itirdi. Qızlar onu özünə gətirmək üçün tədbir görməkdə ikən, şah burada olan qızların evinə adam göndərib, onların atalarının gətirilməsini əmr etdi. Neçə vaxtdan bəri qızlarının oğurlanmasının fikirləri ilə saralıb-solan atalar özlərini pərişan halda Şeyxin iqamətgahına yetirdilər. Hər kəs öz qızını götürüb işin sonunu gözləməyə başladı. Şah qəzəbindən dil-dodağını çeynəyirdi.

–Cənab Şeyx, ay lotu əclaf, etdiyin bu işlər şəriətin hansı qanununda var? Belə namussuz hərəkətini nə cür mənalandırırsan? Bu işə iqdam edəndə bu gününü düşünmədinmi? İndi mən səni bütün şəhər əhli ilə məhv edəcəyəm. Gərək xalqın sənin üstünə atdığı daşlardan bir təpə yaransın. Bu hadisənin xəbəri gecənin qaranlığında bütün mahala çatdı.

Şah tərəfindən şəhərin bütün əhlinə xəbər verildi ki, sabah şəhərdən 5 km aralı olan düzənlikdə Şeyxin, onun əlaltılarının ölüm hökmü yerinə yetiriləcəkdir. Ertəsi gün şəhər əhlinin hər biri özünün ən yaxşı paltarını geyinib düzənliyə tərəf axışdılar. Şah taxta əyləşib hər tərəfə göz gezdirdi. Əhaliyə üzünü tutub dedi:

–Camaat, Şeyxin, onun adamlarının cinayəti, artıq hamınıza məlumdur. Onlar bu gün ən ağır cəza ilə cəzalandırılacaqdır. Bu gün isə bu alçaqların üstündə daşdan hündür bir təpə yaratmalısınız.

Hamı düzənlikdən o tərəfdə olan çaydan daş götürməyə tələsdi. Çox çəkmədi ki, bu düzənlikdə Şeyx, onun əlatılarının üzərində hündür bir təpə ucaldı. Daşlardan əmələ gələn bu təpə isə «Daşqalaq» təpəsi adlandı.

## KƏPƏZ, ALVIZ, MUROV, QOŞQAR

Rəvayətə görə, əvvəllər bu dağlar bir ailəni təşkil edərmiş. Bunların atası yox imiş. Anası Alvaz isə saca fətir salarmış. Bu üç qardaş isə acıblarmış. Anaları fətir salanda dava salırlar. Kəpəz deyir: birinci fətir mənimdir, Qoşqar deyir: mənimdir, Murov da deyir ki, yox, mənimdir. Fətir yarı bişmiş, yarı çiy olanda kiçik qardaşları Kəpəz



fətiri sajın üstündən götürür. O, fətiri götürən kimi Murov xançalı çıxarıb Kəpəzin başına vurur. Bunu belə görən ana (Alvız) ağlayır, qardaşların hərəsi isə bir tərəfə gedir, elə oradaca dağ olurlar.

Rəvayətə görə Kəpəz elə yerində qalır, yaralı Murov ondan bir az aralıda qalır, dəli Qoşqar isə onlardan xeyli aralıda dayanır. Anaları isə ağlaya-ağlaya onlardan lap uzağa düşür. Söylənildiyinə görə Kəpəzin başı yanıq, Murovun başı isə yastıdır. Ona görə ki, Qoşqar sacı Murovun başına vurub. Qoşqar isə dəli, böyük olduğu üçün həmişə başı dumanla, qarla örtülü olur.

## DƏLİDAĞ

Belə rəvayət edirlər ki, keçmiş zamanlarda Taleh adlı bir ovçu var idi. Özü də ovçu mərd, gözəl bir oğlan idi. Onun Pəri adında gözəllikdə tayı-bərabəri olmayan bir arvadı var idi. Onlar haradan gəlib çıxmışdılar, kimlərdən idilər, xəbəri olan yox idi. Amma kimsəynən işləri yox idi. Çiçəkli, dağın ətəyində özləri üçün bir koma tikdirmişdilər. Hər gün Taleh ova gedər, Allah verəndən vurub qayıdardı evinə, şad yeyərdilər, içərdilər. Belə xoşbəxt yaşayardılar. Amma burası da var idi ki, Pərinin gözəlliyi dilə-dişə düşmüşdü. Zalımın qızı elə bil Günəş idi, göydən enmişdi yerə. Qaməti sərv kimi, beli incə, dodağı nazik, dişləri mərcan kimi, yanağında iki qara xal, gözləri qapqara, özü də çıraq kimi yanırdı. Zalımın qızı güləndə elə bilirdin bülbül kimi cəh-cəh vurur, adamı məst eləyirdi. Dağın ətəyindəki bulağa gedəndə arvadlar da həsrətnən baxırdılar onun dalınca. Beləcə-beləcə ər- arvad baş-başa verib dövran keçirirdilər.

Amma yaxşı deyiblər ki, sən saydığın say, gör fələk nə sayır. Bu mahalda bir Hacı Saleh var idi. Allah onun belini-qırsın, dinsizin, imansızın biriydi. Var-dövləti də ki, başından aşırdı. Day onun kəsdiyi başa zaval yoxuydu. Özü vurub-tutan olmasa da, mahalın bəyləri ilə arası saz idi. Qorxusundan da heç kim qabağında dinib danışmırdı. Bilirdilər ki, mərdimazar oğlu mərdimazar əl çəkəsi deyil, şümür kimidi, axırına çıxmayınca əl çəkməz. Hələ Hacının bir xasiyyəti də vardı ki, gözəl arvad görəndə siçan görmüş pişik ağzı kimi ağzının suyunu saxlaya bilmirdi. Allah bilir neçə qız-gəlini siğə etdirmişdi, gözü də doymurdu ki, doymurdu.

Günlərin bir günü Hacı dağa çıxmışdı. Yayın gəl-gəl nəğməsini deyən vaxtıydı. Gül-gülü çağırırdı, bülbül-bülbülü. Bir cah-cəlal va-

rıydı dağda, gəl görəsən. Kəklik qaqqıltısı bülbül nəğməsinə qarışmışdı, qırqovulların səsi turac qaqqıltısına qarışmışdı. Pəri bu vaxt bulağın üstündə palaz yuyurdu. Saçları dağılmışdı üzünə, külək vurduqca durna boynu kimi uzun boynu görsənirdi. Tumanın da ki, çirmələmişdi yuxarı. Hacının ayağı bu bulağın üstünə düşdü. Qəfil Pəri gözünə sataşanda elə bil onu ildırım vurdu. Elə-beləcə dayanıb baxmağa başladı. O, Pərini çox görmüşdü, sorağını da eşitmişdi. Amma hələ bu günki gözəllikdə təsəvvür edə bilmirdi. Pəri öz işində idi. Palazı çırpır, xoşbəxt-xoşbəxt oxuyurdu. Birdən qadın həssaslığı ilə yad kişi baxışlarını duydu, özünü yığışdırıb geri baxanda Hacının onunla maraqlandığını gördü. Hacı irəli durdu:

–A gəlin, bir az su ver içim.

Pəri dolçanı suynan doldurub, hacıya uzatdı, gözləri bir anlığa onun gözlərinə sataşdı. Hacının gözlərindəki qorxulu fikir onu çiməşdirdi.

Hacının isə suyu içməyi gəlməsə də,axıra qədər içdi. Ürəyindəsə fikirləşdi ki, armudun yaxşısını ayı yeyərmiş. Bu ceyran balası gədəgüdə malı deyil. Həmin gündən sonra Hacı Saleh Pərini addım-addım izləməyə başladı. Alaçığını gətirib düz Talehin evinin qənşərində qurdurdu. Nökər-qaravaşlarının da alaçığını elə tikdirdi ki, yazıq Pəri qaldı onların arasında. Dünyadan xəbərsiz Taleh isə buna sevinirdi ki, daha ova çıxanda Pəri sarıdan nigarançılığı olmayacaq. Hər necə olsa da adam nəfəsi var, el-oba burdadı.

Hacı Saleh bir neçə dəfə Pərini qaçırmaq istəmişdi. Amma, Talehdən qorxurdu. Pəri də bilirdi ki, Talehə desəydi qan düşəcəydi. Onun adamları Talehi öldürərdi. Talehə deməməyi isə ona xəyanət bilirdi. Axşamlar əri evə dönəndə pis bir iş tutmuş kimi gözlərini ondan gizlədirdi. Beləcə- beləcə onların xoşbəxt həyatında əzablı günlər başlamışdı. Talehsə heç nədən şübhələnmədən ova gedir, öz sevgili Pərisinə hər gün ov əti gətirirdi.

Yayın cırhacırı idi. Çiçəklər dağın yol-yamaclarını xalı kimi bəzəmişdi. Həmin gün Pərinin elə bil ürəyinə nəsə dammışdı. Özünü əzgin hiss edirdi. Bir neçə gün əvvəl Hacı Saleh Pərinin qabağını kəsib çox dil tökmüşdü ki, Talehdən əl çəksin, ona arvad olsun. Demişdi: nə görmüsən o lüt ovçuda? Səni qızıla bürüyüb, ömrün boyu qızıl içində bəsləyərəm. Pəri də dayı dözə bilməyib tüpürmüşdü Hacının saqqalına. Hacı da onu hədələmişdi ki, sənin o lüt ərini qurd-quşa yem eləməsəm, getdiyim Hac mənə qənim olsun. Buna görə də Pəri ərinə dedi:



–Taleh, bu gün ova getmə, yalvarıram. Özümü çox pis hiss edirəm -deyə Pəri yalvarırdı. Taleh onun gül ətirli saçlarını sığallayaraq yanağındakı xalı öpdü.

–Qorxma-dedi. Nə qədər ki, sənin məhəbbətin mənim ürəyimi qızdırır, mənə heç nə olmaz. Tez qayıdacağam. Pəri yenə də qeyrətə boğulub ərinə heç nə deyə bilmədi. Həmişə gülə-gülə yola saldığı Talehi bü gün göz yaşıynan yola saldı.

Talehin getdiyindən heç iki saat keçməmişdi. Hacının qoyun sürüləri yaylağa gəlmişdi. Nökərlərin səs-küyü aləmi başına götürmüşdü. Bircə Hacının zalımlığı ilə ad qazanmış nökəri Əhməd gözə dəymirdi. Pəri nəsə bunun pis əlamət olduğunu hiss edirdi. Amma əli hara çatırdı?

Birdən hay düşdü ki Taleh kişi qayadan düşüb. Pərini elə bil ildırım vurdu. Pəri başı açıq, ayağı yalın qayaya tərəf qaçdı. Camaat da onun dalınca. Hamıdan tez Pəri özünü qayaya çatdırdı. Talehin hələ nəfəsi var idi. Sol tərəfdən köksünün altında xəncər yeri açıq-aydın bilinirdi. O, gözünü açıb saçlarını yolan Pəriyə baxdı, bircə kəlmə söz deyə bildi:

–Namərdlər... Arxadan vurdular...

Pəri qiyyə çəkdi. Dəli kimi özünü daşlara çırpdı. Qayanın başına çataraq: «məni də gözlə, Taleh» - deyə hayqırdı, özünü qayadan tulladı. Camaat keyləşmişdi, baş verən hadisədən sarsılmışdı. Ona görə də heç kim Pəriyə mane ola bilmədi.

Pəri ilə Talehi torpağa tapşırdılar.Camaat Hacı Salehə nifrət yağdıra-yağdıra evlərinə dağılışdılar.

Deyirlər həmin yay gecəsi qəflət çiçəkli dağın üstünü qapqara buludlar alıb, elə bir leysan, tufan olub ki, dünyanı sel götürüb. Səhər camaat Hacı Saleh yurdunda iri-iri daş qalalarından başqa heç nə görməyiblər, gecə sel hamısını yuyub aparıb.

O vaxtdan qayaya fəlakət qayası, Çiçəkli dağa isə Dəlidağ deyirlər. Həm də deyirlər ki, həmişə Dəlidağda tufan olanda Pərinin «Taleh, Taleh» deyən harayı eşidilir.

## NAFTALAN

Qədim Gəncədən keçən karvan yolu Goranboy rayonunun Safikürd kəndi ərazisinnən, indiki Naftalan hisəsinnən keçərmiş. Buradan keçən karvanlardan birində çox zəifləmiş, bədənini müxtəlif

yaralar örtmüş bir dəvə varmış.

Həmin dəvə o qədər zəifləmişdi ki, karvanla ayaqlaşa bilməmişdi. Sarvan onu indiki Naftalan ərazisində qoyaraq yoluna davam etmişdir. Bir ildən sonra şərq ölkələrinnən qayıdan karvan başçısı yolda kökəlmiş, yaralardan azad olmuş dəvəni tanıyır. Həmin dəvə çöl otlarından yeyərək, neft gölməçələrində özünü müalicə etmişdi.

Həmin vaxtdan Naftalan nefti üzə çıxmış, hər yana səs salmışdır.

## MƏHƏMMƏD PEYĞƏMBƏRLƏ İLAN

Məhəmməd Peyğəmbər Mədinəyə gedərkən bir mağaraya çatır. Həzrəti Əbu Bəkir deyir:

- Ya Rəsulullah, siz girməyin. Qoy birinci mən girim. İçəridə zərərli bir şey varsa mənə gəlsin.

Əbu Bəkir içəri girib hər yeri təmizləyir.

Mağaranın deşiklərini bağlayır. Ancaq bir deşik qalmışdı. Onu da ayaqları ilə bağlayıb peyğəmbəri içəri dəvət edir. Peyğəmbər içəri girir, başını Əbu Bəkirin qucağına qoyub yatır. Bu vaxtı Əbu Bəkirin ayağını ilan sancır. Peyğəmbər oyanar deyə heç hərəkət etmir. Ancaq gözünün yaşı Rəsulullahın üzünə düşür. Rəsulullah yuxudan ayılıb soruşur.

- Əbu Bəkir nə olub?

- Ayağımı, deşikdən bir ilan vurdu. Ayağımı çəksəm sizə zərər verəcəyindən qorxuram. Rəsulullah Əbu Bəkirə ayağını çəkməyi söyləyir. Ayağını çəkəndə bir ilan göründü, Rəsulullah ondan soruşdu.

- Ey utanmaz ilan. Mənim dostuma, sirdaşıma əziyyət edirsən. Məndən utanmırsan?

İlan dilə gəlib belə yalvardı:

- Ey Allahın həbibi, səni yalnız insanlar deyil, quşlar, ilanlar, bütün heyvanlar sevir. Bu mağaraya gələcəyinizi bilirdim. Çoxdandır sizi bu mağarada gözləyirdim. Ancaq o sizi görməyimə mane olunca belə bir hərəkət etdim. Sizdən üzr istəyirəm.

Həzrəti Məhəmməd onu bağışlayır. Həzrəti Əbu Bəkirin yarasına tüpürcəyindən sürtən kimi sağalır.

## LOĞMANIN CAVABI

Davud Əleyhisəlam Həzrəti Loğmana buyurur ki, bir qoyun kəsib onun bədəninin ən yaxşı olan iki tikə ətini gətirsin. O, da gedib dil və ürək gətirir.



Davud ona deyir:

- İndi də get ən pis hissəsindən iki ət gətir.

Loğman yenə də dil, ürək gətirir.

Bunun səbəbini soruşduqda Həzrəti Loğman:

- «Dil ilə ürək yaxşı olarsa bütün bədən yaxşı olar. Pis olduqda isə pislərin pisi olar» - deyərək insanların yaxşılıq, pisliyinin dillə, ürəklə bağlı olduğuna işarət etdi.

## GƏNCƏ

Cənabi Əmir bir gün seyrə çıxır, səhrada bir çobanla qarşılaşır. Çoban həmin səhraya sürülərini dağıdıb otarırmış. Cənabi Əmir ətrafa baxır, çobana deyir ki, burada bir şəhər salmaq heç də pis olmaz.

Çoban onun sözünü təsdiq edir, dili pəltək olduğu üçün deyir:

- Bura nə gencə yerdir. Yəni demək istəyir ki, bura çox geniş yerdir. Cənabi Əmir həmin yerdə şəhər salır, çobanın sözündən həmin şəhərin adını "Gəncə" qoyur.

## QIZILHACILI

Biri var idi, biri yox idi. Pənah adlı bir xan var idi. Onun iki oğlu var idi. Birinin adı Məhəmməd, o birinin adı Hacı idi. Məhəmməd Hacıdan böyük idi. Böyük qardaş 20 yaşa, kiçik qardaş 15 yaşa çatanda Pənah xan ömrünü onlara bağışladı. Atası öləndən sonra Məhəmməd var dövlətə sahib olmaq üçün Hacını evdən qovdu. Hacı piyada yola düşdü, lakin hara gedəcəyini bilmirdi, az getdi, çox getdi gəlib bir çəmənliyə çatdı. Hacı yorulmuşdu. Bir balaca yorğunluğunu almaq üçün uzandı. Bu vaxt onu yuxu apardı. -

Yuxuda Hacı gördü ki, başının üstündə bir dərviş dayanıb. Dərviş dedi: Hacı qardaşının səni evdən qovduğunu bilirəm. Ona görə gəlmişəm sənə kömək edəm. Sənə bir yol göstərəcəm, gərək o yol ilə gedəsən. Əgər getsən xeyir taparsan.

Hacı dedi:

- Dərviş baba sənin sözündən heç vaxt çıxmaram.

Dərviş dedi:

- Oğlum, Qəflə qatır yolu ilə Göyəzən dağına gedərsən, dağın başına çıxarsan, sol küncdə böyük bir qara daş var. Daşı qaldırarsan, altında bir küp qızıl var, onu götürərsən, bu qızıl həmişəlik sənə bəs

edər.

Hacı yuxudan sərsək oyandı, lakin yuxuya inanmadı. Bu fikirlə yola düşdü, bir kəndə gəlib çıxdı. O bir evə getdi, qapını döydü, qapını bir qoca kişi açdı.

Bu evdə əldən düşmüş bir qoca kişi ilə bir qoca arvad yaşayırdı. Onlar Hacını qonaq saxladılar, axşam oldu. Hacı yatağa uzandı, yuxuya getdi, bu vaxt həmin nurani qoca yenə gəldi, həmin sözləri təkrar dedi. Hacı səhər tezdən durdu, yuxusunu qarı ilə qoca kişiyə danışdı. Qarı dedi: "Oğlum, Göyəzən dağına gün əyilməmiş qalxmaq olmaz. Gün əyiləndə özünlə bir qılınc da götürərsən. Allahın adını çağırıb gedərsən".

Qarı ilə qoca dağın yerini Hacıya göstərdilər. Qəflə qatır yolu ilə Hacı Göyəzən dağına gəlib çıxdı. Dağın başına qalxdı. Dərviş necə demişdi, elə də oldu. Dağın sol küncündə qara bir daş var idi. Hacı bir neçə dəfə daşa güc verdi, gördü daş tərpənmir. Hacı yoruldu, bir az dincini aldı, yenidən gücünü toplayıb daşı qaldırdı. Daşın altında qızıl küpənin altında böyük bir Şahmar ilanı yatmışdı. İlan Hacının üstünə tullandı. Hacı qılıncla ilanı iki yerə parçaladı, qızıl küpü götürüb qarı ilə qocanın yanına gəldi. Bu qızılla Hacı çox var-dövlət sahibi oldu. O vaxtdan Hacıya qızıllı Hacı adı verdilər. İndi Hacının adı ilə həmin kəndi Qızılhacılı adlandırırlar.

## ALDƏDƏNİN QAZAN PLOVU

Deyillər Gəncə tərəfdən Cavad xan adlı birisi Tovuz ərazisinə gəlir. Cavad xana xəbərləyirlər ki, deməzsənmi gümbəzin yanında bir seyid olur. Özü də möcüzəlidi. Cavad xan bu seyidnən maraqlanır. Üç nəfər adam göndərir ki, gedin seyidi buraya gətirin. Həmin üç nəfər gəlir gümbəzin yanına. Seyidə deyirlər ki, səni Cavad xan çağırır. Mirəli (seyid) bunlara deyir ki, gedin Cavad xana deyin özü bura gəlsin. Həmin adamlar gəlib eləcə də deyirlər. Cavad xan acıqlanır, yenidən üç atlı göndərir ki, onu zorla gətirin. Atlılar qışqırırlar ki, bayıra çıx. Mirəli çıxmır. İş belə olanda gələn adamlar onu zorla eşiyə çıxarmaq istəyirlər. Mirəli əlindəki əsanı bərk yerə vurur. Yerdən ilan çıxır. Gələnlər ilanı görəndə qaçmaq istəyirlər. İlan bunların ikisini öldürür, biri isə qaçır, Cavad xana olan hadisəni xəbər verir. Cavad xan bərk acıqlanır. Qoşunu çəkib gümbəzi hər tərəfdən dövrəyə alır. Mirəli heç nə olmamış kimi çıxır bunların qa-



bağına. Cavad xana deyir:

– Əvvəlcə atdan düşün qonağımsınız, sonra danışarıq.

Cavad xan öz-özünə təəcüblənir ki, bu kasıb seyid qoşuna nə yedirdəcək. O, heç nə demir, otururlar. Mirəli bir balaca plov qazanı asır. Plov hazır olanda qoşunun bir tərəfinnən düşüb paylayır. Qoşun görür ki, plov ha paylanır, yenə qurtarmır. Cavad xan görür ki, seyid möcüzəlidi. Cavad xan onun hikmətini bir də sınamaq üçün Mirəliyə yer vermək istəyir. Bir qucaq qarğı verir Mirəliyə ki, apar bu qarğıları bir günün içərisində mən dediyim yerlərə sanc. Hansı ki, Cavad xan aylarla vaxt sərf olunası yerlər demişdi. Şah dağı, Əlviz, Murğuz.

Mirəli bir söz demir, qarğıları qoltuğuna götürüb yola düşür. Eyni zamanda Cavad xan onun arxasınca gizlincə adam göndərir. Həmin adamlar görürlər ki, Mirəli bir az getmişdi, birdən toz boğanağı qalxdı. Bu toz boğanağının içinnən bir qatır çıxdı. O, qatırın belinə qalxdı, yox oldu. Səhər tezdən Mirəli Cavad xana deyir ki, qarğılar dediyiniz yerə düzülüb, yoxlaya bilərsiniz. Yoxlayıb görürlər ki, doğrudan da hər yerə qarğı düzülüb. Deyilənə görə Mirəli-Aldədədir.

## NOVRUZ BAYRAMI

Novruz bir kasıb kişiydi. Hər bayramda təzə paltar geyərdi. Yumurta boyayardı, Şax bəzənərdi. Dedilər:

- A Novruz, niyə belə bəzənirsən?

Novruz dedi:

- Bu bayram ən əziz bayramdı. Lap belə bir toyuğum da olsa, satıb bəzənəcəm.

Novruzun sözü Allahtalaya xoş getdi. Ona nəsib bu bayramın adı Novruz bayramıdı.

## QARININ BORCU

Deyir Qarının bir sürü oğlağı varıydı. İl gümrah gəlibmiş. Bayramdan sonra göbələk dombalan çıxıbmış. Hər yan gömgöy imiş. Qarı oğlaqları buraxır göy ota. Deyir:

- Mart gözünə barmağım,
Dərd gözünə barmağım.
Yaza çıxdı, oğlağım.

Mart bunu eşidir. Yazdan on gün borc alır. Bir tufan, bir çalpoy

eləyir gəl görəsən. Qarının oğlaqları qırılır.

On gün sonra hava açılır. Qarı otların üstündə çəhlim çəkir. Özünə deyir:

- Otla gözüm, otla!

## QURD ZÖHRƏ

Keçmiş zamanlarda Samux rayonunun Alnayt kəndində Zöhrə adlı bir qadın varmış. Bu qadın bir gün evinin bütün işlərini görüb, sonra gecənin qaranlıqlaşdığı bir vaxtda rahatlanmaq üçün çimmək istəyir, ancaq o, çimərkən çöldə çimir. Çimib qurtardıqdan sonra o paltarını geyinmək istərkən, göydən ilahi qüvvə vasitəsilə ona canavar dərisindən paltar geydirilir. Bu vaxt Zöhrə canavar sifətinə düşərək, meşəyə, səhralara üz qoyur. Səhər açılanda isə Zöhrə evinə qayıdır, öz paltarını geyinib, canavar paltarını gizlədir. Bir belə, beş belə hər axşam canavar paltarını Zöhrə geyinib kəndlərə gedir. Qoyun, keçi, başqa heyvanları yeyir. Deyilənə görə, Zöhrə canavar sifətində Ağdaşa gedib orada bir ağ atı yoldaşları ilə parçalayarkən Zöhrəyə atın yaralı yeri düşür. Bu vaxt Zöhrə onu yemək istəməyib küsür. Bunu görən yoldaşları onu boğurlar, üst dodağına diş batırırlar.

Səhər yenicə evə gəlib libasını dəyişən Zöhrəyə əri göz qoyur, onun yarasını görür, ancaq bildirmir. Sonra arvadının bütün hərəkətini izləyir. Görür ki, arvadı gecə canavar, gündüz isə adam olur.

Bir gün Zöhrə çörək bişirmək üçün ertədən un ələyir sonra ailəsini yuxuya verib yenə canavar olur. Əri onun paltarını soyunub pərdənin içinə gizlətdiyini görür. Zöhrə təndir qızdıran vaxt o, həmin canavar paltarını təndirə tullayır.

Bu vaxt Zöhrə bərk qışqırır. Sonra bu hiylənin sirrini ərinə açır. O gündən bu hərəkətlərdən əl çəkən Zöhrəni Qurd Zöhrə deyə çağırırlarmış.

## SONA BULAĞI

Dağın yaxınlığında bir bulaq var idi. Bu bulaq olduqca sirli bir bulaq idi. Deyilənlərə görə burada kiçik bir kənd var imiş. Kəndin yuxarı hissəsində bütün evlərdən seçilən, olduqca yaraşıqlı bir ev var idi. Bu evdə beş ailə yaşayırdı. Ailənin başçısı Qüdrət kişi idi. Qüdrət kişinin oğlanlarından ikisi ölmüşdü. Gecələr səhərə kimi nə



Qüdrətin, nə də Pərinin gözünə yuxu getmirdi. İki oğul dərdi onları yuxu üzünə həsrət qoymuş, qədlərini əymişdi. Sona isə körpə olduğu üçün heç nə anlamırdı.

Axır ki, gənc oğlanlarının dözülməz dərdi Pəri xalanı dünyadan köçməyə məcbur etdi. Onu öz vəsiyyəti ilə kəndin baş tərəfində «Yumru qaya» adını almış yerdə dəfn etdilər. Ağır dərd, arvadsız ev, baxımsız Qüdrət kişiyə Sonaya baxmaq dözülməz dərd idi. Sonaya baxmaq ucundan ikinci dəfə evlənməli olur. Bu arvadın adı Nərgiz idi. Nərgiz Sonaya ana yox, bəla gəlmişdi. O gəldiyi ilk gündən qızı döyməyə, söyməyə başlayır. Öz atasının qazandığı çörəyi də ona çox görürdü. Qüdrət kişi qızının gündən-günə saralıb-solduğunu görür, onun səbəbini anlaya bilmirdi.

Bütün bu əziyyətlərə baxmayaraq o böyüdü, yaşa doldu. «Yetim böyüdü, pislik edənə qaldı» deyiblər. Sona böyüdükcə anasının yoxluğunu lap aydınca dərk edirdi. O, anası üçün ağlayar-ağlayar, anasının öz əlləri ilə əkdiyi əzgil ağacına pənah gətirər, dərdini ona söyləyər, anasının iyini ondan alardı. O həmişə vaxt tapan kimi özünü ağacın dibinə verər, onun gövdəsini qucaqlayar, ağlayardı. Elə bil ağac da onu qəlbən duyur, onun halına acıyardı. Hər dəfə Sona qollarını ağaca dolayanda ağac bütün başını yerə əyir, uclarından su eləyirdi. Bir gün ağacın hərəkətini görən Nərgiz bu hadisədən qorxdu, qıza ağacın dibinə getməyi qadağan etdi. Bu tapşırıqdan az sonra Sona yenə də yeganə ümidgahının dibinə hərlənir. Bunu Nərgiz görür, ona acıqlanır, hətta ona söyüş də söyür. Bundan bərk sarsılan Sona ayaqyalın, başı açıq barını aşır, özünü anasının qəbrinin üstünə yetirir. O orada ah-nalə çəkə-çəkə ağlayır. Nə onu ovunduran tapılır, nə dərdinə şərik çıxan. Onun ciyəri od tutub yanmağa başlayır. Su-su deyə ah-nalə çəkir. O susuzluqdan göz yaşlarını yalamağa başlayır. O var qüvvəsini toplayıb «İlahi yandım mənə su» deyə bilir. Birdən qəfil onun üzünə sıçrayan su dənələri onu diksindirir. Onun ayağının altından su vurub göyə qalxır.

Qız sudan acgözlüklə içməyə başlayır. O sudan içdikcə ayaqdan başa daş olur. Onun ağız hissəsindən su axır. Kənd camaatı həmin sudan kəndin qəbirstanlığının hər tərəfinə çəkirlər.

Su oraları cənnətə döndərir.

Həmin bulağın adı nakam gəncin adı ilə «Sona bulağı» adlanır.

## HƏLƏ BİRCƏ MIXÇA ÇIXARMIŞAM

Belə nağıl edirlər ki, bir şenlikdə adamlar çox yaxşı yaşayırmışlar. Həmişə deyif-gülüf, günlərini kef-damaxla başa vururlarmış. Nə fikir varmış, nə də keflərini pozurmuşlar. Hamı bir-birinin əlindən tutuf harayına yetərmiş. Bu iş şeytanları çox narahat etməyə başlayır.

Günlərin bir günü şeytanlar bir yerə toflaşır. Onların böyüyü qavağa çıxıf ajıxlı-ajıxlı deyir:

–Gör nə günə qalmışıx ki, filan kənddə toy-bayramdı. Hamı sevinir, deyir, gülür. Nə dalaşan var, nə savaşan. Amma siz şeytanlar isə işsiz-güjsüz gəzirsiniz. İndiyə qədər bir tədbir tökməmişsiniz. Bunun axırı haraya gedif çıxajax?! Başqa şenliklər də onlara baxıf elə edəjəylər. Onda görüm hansınızın güjü çatajax ki, dava-dalaş yaradasınız, adamları bir-birinə vuruşdurasınız.

Şeytanların lap arxasında bir topal şeytan dayanmışdı. Fağır-fağır bir küncdə dayanıf baş şeytana qulax asırmış. Sən demə, həmin şenliyə də elə bu şeytanın özü təhkim olunmuşdu. Söhbət bu yerə çatanda topal şeytan yavaşca aradan sivişif çıxır. Birbaşa özünü həmin şenliyə salır. Görür ki, bir arvad dananı inəyin yanında mıxçaya bağlıyıf süd sağır. Şeytan arvadın xəvəri olmadan dananı mıxçadan açır. Dana özünü salır inəyə, başlayır əmməyə. Arvadın əlindəki sərnici də yerə salıf südü dağıdır. Bu hində arvadın kişisi çölə çıxır. Baxır ki, süd sərnici aşıf, dana da ki, inəyi əmir. Özünü salır arvadın üstə ki, korsan, görmürsən dana inəyi əmir? Di arvada bir-iki çırpır.

Şenlikdə hamı bir-birinə qohum imiş. Özü də bir-birinə yaxın-yaxın öy tikdirmişlər. Səsə arvadın qohumları tökülüşür. "Sən bizim adamımızı niyə döyüfsən" deyə, düşürlər kişinin üstünə. Bu tərəfdən də kişinin qohumları axışır. Bir dava başlayır ki, gəl görəsən. Şeytan gəldiyi kimi də onları dava-dalaşda qoyuf aradan sivişir, düz özünü yetirir şeytanlar olan yerə. Gəlif yenə bir künşdəjə dayanır. Şenliyin dava-dalaşı ondan qavax gəlib şeytanlara yetişir. Baş şeytan deyir:

–Görün, yenijə o şenlikdən danışırdıq ki, belə əmin-amanlıxdır, aradan bir az keşməyiv dava-dalaş qalxıb. Əhsən bunu edənə. Yəqin bu iş topal şeytanın işi ola bilər.

Topal şeytan sakit-sakit qavağa çıxıf deyir:

–Mən heş zad eləməmişəm. Eləjə bircə mıxça çıxartmışam.



## DAŞ HƏDİYƏ DÖNƏNDƏ

Deyir bir kişi Həcc ziyarətinə gedirmiş. Şər qarışır, gecələmək üçün bir evin qapısını döyür:

–Ay ev yiyəsi, Allah qonağı istəməzsənmi?

Qapıya bir qadın çıxır:

–Allaha da qurban olum, qonağına da. Gəl, xoş gəlibsən.

Kişi içəri girir. Sakitcə bir tərəfdə əyləşir. Görür budur ha arvad göydən bir qara daş asıb. Uşaqların hamısı gözünü zilləyib həmən daşa. Tez-tez də soruşurlar:

–Ana, yemək bişmədi, bəs nə vaxt bişəcək?

Arvad hər dəfə eyni cavabı verir:

–Daş hədiyə dönəndə.

Uşaqlar daşın hədiyə dönməsini gözləyə-gözləyə mürgüləyirlər. Bunlar yatandan sonra kişi dözə bilməyib xəbər alır:

–Ay bacı, bir məni bu sirdən agah elə... O daşı niyə göydən asıbsan?

Arvad cavabında qayıdır:

–Qardaş, Allahdan gizli deyil, səndən nə gizli. Evdə heç nə yoxdu. Uşaqların başını yozmaq üçün o daşı göydən asmışam.

Kişi heç nə deməyib çölə çıxır. Yol xərci üçün götürdüyü pulların yarısını xəlvətcə bacadan içəri tullayır. Arvad pulları götürüb gedir bazara. Hər şey alıb gətirir, uşaqların qarnını doydurur, qonağı da layiqincə yola salır. Kişi başlayır yol getməyə.Yolda qulağına səda gəlir:

-Ey Allahın bəndəsi! Sənin ziyarətin artıq qəbul olunub. Daha həccə getməyin artıqdı...

## QOY SU NƏYİN ÜSTÜNDƏN AXIR AXSIN

Nişanlı oğlan dostuynan ova çıxır. Ovun şirin vaxtı tanımadıqları yad bir oğlan da bunlara qoşulur. Bir quşa həmin oğlan da, nişanlı oğlan da güllə atır. O deyir mən vurdum, bu deyir mən.

Nişanlı oğlanı şeytan yoldan çıxardır. Hikkəsindən oğlanı gülləynən vurur. Təzə gələn oğlan o saat canını tapşırır. Nişanlı oğlanın yadına düşür ki, adam öldürənin bircə cəzası var: asılmaq.

İstəyir özünü vursun. Dostu deyir:

-Get çayın ağzını o tərəfə kəs!

Çayın ağzını dəyişib ortasından çala qazırlar. Meyidi basdırıb çayı köhnə axarına bağlayırlar. Sonra kor-peşman evə qayıdırlar. Yolda nişanlı oğlan öz-özünə fikirləşir: "Toy eləyim, eləməyim? Birdən işin üstü açıldı? Bəs təzə gəlin?" O, çox götür-qoydan sonra toy eləməyə qərar verir. Amma dostunu toya çağırmır. Dostu anasından soruşur ki, məni toya də'vət eləyiblərmi? Anası deyir: yox.

Oğlan gəlir toya. Görür məclisin başında əl suyu verilir.

Bu da bir aftafa-ləyən götürüb ayaq tərəfdən əl suyu verir. Bəy gəlib buna bir şillə çəkir:

-De görüm, nə səbəbə mənim toyumda el adətini pozursan?

Oğlan su verməyini dayandırıb deyir:

-Qoy su nəyin üstündən axır axsın...

Bəy dostunu bağrına basır.

## PADŞAHLA DİLƏNÇİ

Günlərin bir günü padşah vəzirinə deyir ki, get mənə elə bir dövlətli gətir ki, varda, dövlətdə mənə çatan olsun.

Vəzir deyir:

- Şah sağ olsun, mən sənə özün kimi dövlətlini hardan tapım? Sənin altında qızıldan taxtın, başında qızıldan tacın var.

Şah deyir: - Mən bilmirəm, get mənə var-dövləti mənim qədər olan adam gətir.

Vəzir naəlac qalıb bikef halda yola çıxanda görür ki, küçədə bir dilənçi oturub.

Dilənçi vəzirdən soruşur:

-Vəzir niyə belə bikef gedirsən?

Vəzir deyir:

- Şah mənə deyir ki, get elə bir adam gətir ki, var-dövləti mənim qədər olsun.

Dilənçi bildirir ki, gəl sən məni şahın yanına apar, mən onun qədər dövlətliyəm.

Vəzir deyir:

-A kişi, mən səni hara aparım?

Nəhayət axırda vəzirin əlacı kəsilir, dilənçini götürüb şahın qapısına gəlir.

Vəzir deyir:

-Şah sağ olsun, bu dilənçi deyir ki, mən var-dövlətdə onunla bərabərəm.



Şah qəzəblənir, deyir ki, get dilənçiliyini elə, səndə harda idi o qədər var ki, mənə çatasan.

Dilənçi deyir:

- Şah sağ olsun, nə olsun ki, sənin altında qızıl taxtın, başında qızıl tacın var. Öləndə səni də ağa bükəcəklər məni də. Yamana yaman səni ağa bükərlər, məni bezə. Sənin bütün var-dövlətin hamısı bu dünyada qalandır.

## GEC GƏLMİŞƏM

Bir cavan oğlan bir kişi ilə çox maraqlanırdı. Nə vaxt yolnan gedirdisə həmin kişini divarın dibində oturub dilənən görürdü. Kişi həmişə deyirdi: «Allahın yolunda pay verin, mən bu yola gec gəlmişəm».

Oğlan kişini çox izləyir.

Bir gün həmin kişini, dalınca düşür. Kişi evinə çatanda oğlan ona deyir:

- Ay əmi, mənim qalmağa yerim yoxdu, məni bir gecəliyə Allah qonağı saxla.

Kişi cavab verir ki, Allaha da qurban olum, qonağına da, gəl evə.

Oğlan məhləyə girəndə bir cah-cəlal görür ki, lap mat-məəttəl qalır.

Oğlanın qabağına süfrə salırlar, yemək gətirirlər. Yeməyə başlayanda oğlan deyir ki, əmi, səndən bir söz xəbər alacam, ancaq düzünü de.

Kişi deyir ki, oğlum, sən çörəyini ye, mən sözünə cavabı sonra verəcəm.

Çörəyi yeyəndən sonra oğlan deyir ki, əmi, mən səni hər gün təzdən divar dibində dilənən görürəm. Sən dilənə-dilənə həmişə deyirsən ki, mən bu yola gec gəlmişəm. Bu sözün mə'nasını bilmək istəyirəm.

Kişi cavab verir ki, dilənmək pullu peşədi, ancaq mən gec bilmişəm.

## ARVADIN SÖZÜNƏ GAH BAX, GAH DA BAXMA

Günlərin bir günü kəndin mö'təbər hacılarından biri sayılan Hacı Mürsəl, arvadı ilə birlikdə kirvəsigilə qonaq gəlir. Ev sahibi onları çox yaxşı qarşılayır. Yeyib-içirlər. Ordan, burdan söhbət edə-edə söz gəlib var-dövlət üstündə dayanır. O vaxtı da adamlar var-dövləti, mal-qarası ilə tanınardı. Ev yiyəsi arvadına deyir:

-Ay arvad, mal-dövlət demişkən, bizim güzdə otuz doqquz qoyu-

numuz var, yoxsa qırx doqquz?

Arvad ərinə deyir:

-Ay kişi, sən nə danışırsan, əlbəttə ki, qırx doqquz.

Kişi deyir:

-Yox, ay arvad mən biləni otuz doqquzdu.

Bu qayda ilə ər deyir belə, arvad deyir yox belə.

Qonaq görür belə getsə, bunlar çox sözləşəcək, onları sakitləşdirib deyir.

- Ay kişi, nə olub, bir az səbrin olsun, səhər durub sayarsan.

Kişi deyir:

- Yox, kişinin sözü bir olar. Mən yaxşı bilirəm ki, bizim qoyun otuz doqquzdu.

Qonaqlar yeyib içəndən sonra durub evlərinə gedirlər. Yolda kişi arvadına deyir ki, ay arvad, gəlsənə qayıdıb güzdəki qoyunları sayaq. Əgər qırx doqquz olsa onunu götürərik. Onlar geri qayıdıb qoyunları sayırlar. Görürlər ki, qırx doqquz qoyun var. Qoyunlardan onunu seçib evə gətirirlər.

Səhər açılır, kişi təzədən durub qoyunları sayır. Görür ki, otuz doqquz qoyun var. Evə gəlib arvada deyir:

- Ay arvad, axşam mən deyirəm qoyun otuz doqquzdu, sən deyirsən qırx doqquz. Kişinin sözü bir olar. Dedim belədi, qurtardı, getdi. Qonaqların yanında məni biabır elədin.

Arvad doğrudan da çox təəccüblənir. Aradan bir müddət keçir. Kirvələri onları qonaq çağırır. Qonaqlar gələn kimi kişi qoyunlardan birini kəsir. Evlərinə gedəndə də qoyunun bir hissəsini onlara pay verir. Bu qayda ilə onlar hər gələndə kişi durub qoyunun birini kəsir. Yeyib-içəndə hər dəfə ev sahibi qonaqlara deyir:

-Ay kirvə, yaxşı yeyin, için. Elə bilin öz malınızdı.

Bəli, nəhayət, axırıncı qoyun kəsiləndə kişi özünü saxlaya bilməyib gülməkdən uğunur. Süfrə açılır, kabab şişləri ortalığa gəlir. Ev sahibi badə qaldırır, gah kirvənin sağlığına, gah da yedikləri qoyunun «kəlləsi»nin sağlığına.

Qonaq deyir:

Kəllənin sağlığına belə nitq söyləyərlər? Başa sal görək bu nə əhvalatdı?

Ev sahibi qonağa deyir:

- Yadından çıxmamış olar, o vaxt qoyunun otuz doqquz, ya qırx doqquz olduğu üstündə bərk mübahisə etdiniz. Sizin mübahisəyə



son qoymaq üçün, geri qayıdıb güzdəki qoyunları saydıq. Gördük ki, qırx doqquzdu. On dənəsini sayıb gətirdik. Sən belə bir söz dedin: «Kişinin sözü bir olar». İndi onda gərək bizi ya bağışlayasan, ya da öz qoyunlarımızdan onunu ayırıb sizə verək.

Qonaq deyir:

- Əşi, sən nə danışırsan? Bu nə sözdü? Halal xoşunuz olsun. Biz ki, kəsilən qoyunların hamısını sizinlə birgə yemişik.

Sonra qonaq üzünü arvadına tutub deyir:

-Arvad, ataların bir yaxşı məsəli var. «Arvadın sözünə gah bax, gah da baxma».

# VI. NAĞILLAR

## YAZIYA POZU YOXDU

Bir gün Şah Abbas dərviş livasında Vəzir Allahverdi xannan öz ölkəsini gəzməyə çıxmışdı. İkisi də belə şərtdəşillər ki, gejələməyə hansı kəndə getsələr, siftə gördükləri adamın öyündə qonax qalsınnar. Şər qarışır, bunlar elə şərt qoyduxları kimi də eliyillər. Baxıllar ki, öyündə axşamladıxları kişi yaman kasıfdı, öydə tişə dəyəsi heş nə yoxdu. Bir tərəfdə də arvad ağrı çəkir, kişi yazıx xəjələtinnən bilmir neyləsin. Öy də daracax. Belə yerdə qalmağı Şah Abbas özünə ar bilir. Xəlvətcənə vəzirinə qandırır ki, gəl çıxıf başqa yerə gedək, nə çoxdu öy. Vəzir Allahverdi xan deyir:

-Padşah sağ olsun, sözümüz sözdü. Elə burada gejəliyək.

Yatmax vaxdı gəlif çatır. Öy dar olduğuna görə şahnan vəzirə qapının ağzında yer salırlar. Hamı yatır, qonaxların yuxusu ərşə çəkilir. Şahnan vəzir nə görmüşdü belə yerdə yatmağı? Gejənin bir əyyamında arvad bir oğlan doğur. Aradan bir az keçmiş Şah oğlu Şah Abbasnan Vəzir Allahverdi xan görüllər odu ha, bunların üstünnən bir adam addıyıf çölə çıxdı. Şah Abbas üzünü vəzirə tutuf soruşur:

-Vəzir, məni bu sirdən agah elə görüm, gejənin bu vaxtı bizim üstümüzdən yarıf keçən kim idi?

Vəzir bir az fikirləşənnən sonra deyir:

-Şah sağ olsun, bu adam yazı yazandı.

Şah oğlu Şah Abbas bir də sual eliyir:

-Vəzir, tez ol mənə de görüm, indi yazı yazan nə yazdı?

Vəzir də cavabında qayıdır:

-Qivleyi-aləm sağ olsun, yazı yazan sənin qızını bax indi anadan olan oğlan uşağına yazdı.

Şah qəzəflənir:

-Başına atmı təpif, vəzir, mənim qızım hara, bura hara? Mən belə yerə qızmı verərəm? O yazını pozmax mana borc olsun!

Nəysə, gejə keçir, savax üzünüzə xeyırrıxnan açılsın, savax açılır. Şah oğlu Şah Abbas yerindən qalxan kimi öy yiyəsini yanına çağırır:

-Qardaş, Allahdan gizlin deyil, səndən nə gizlin, neçə ildi öylad üzünə həsrətəm. bir parça uşaxdan ötəri tüşmüşəm çöllərə. Öyəcşiyə də yığışa bilmirəm. Görürəm sənin də uşağın çoxdu, eytiyaşdığın da başınnan aşır. Gəlsənə bu axşam anadan olan uşağını mənə satasan. Uşağı tərəzinin bir gözünə qoyum, qızılı da bir gözünə. Sana o uşax ağırrığında qızıl verim.

Öy yiyəsi deyir ki, qoy bir arvad-uşaxnan məsləhətdəşim. Görüm onlar nə deyillər? Kişi gəlif əhvalatı arvadına söyləyir. Deyir ki, ay arvad, bir uşax nə olan şeydi, gəl qızılnan dəyişək, kasıfçılığın daşını atax. Ta nolasıdı, Allah yoxsulluğun üzünü qara eləsin. Arvad da uşağı verməyə razı olur. Şah oğlu Şah Abbas uşaq ağırrığında qızılı verif uşağı alır. Qundağı qoyur vəzirin qucağına. Bir xeylax gedənnən sonra Şah Abbas vəzirə deyir:

-Vəzir, sən deyirdin yazıya pozu yoxdu? İndi mən bu uşağı elə hündür qayadan atajam heş tikəsi də ələ gəlməsin.

Şah oğlu Şah Abbasnan Vəzir Allahverdi xan gəzə-gəzə gəlif bir hündür qayanın başına çıxırlar. Şah uşağı vəzirin qucağınnan alıf uçurumun divinə atır. Cəbrayıl Əleyhissəlam uşağı göydəjə tutur, qoymur yerə düşməyə. Uşağı aparıf qayanın divinə qoyur, Allahdan olan kimi bu qayalığın böyründə də bir ceyranın balası ölmüşdü. Ceyranın naləsı dağı-daşı lərzəyə gətirirdi. Həmin bu ceyran yoruluf əldən tüşəndə qayanın divində yatmax istiyir. Yaxınnaşanda görür ki, qayanın divində bir uşax var. Ceyran çağanın lap böyründəjə uzanıf yatır. Neçə günnən bəri aj olan uşax başdıyır ceyranı əmməyə. Ceyran mehrini salır uşağa. Hər gün çəmənnikdə otduyannan sonra gəlif uşağı əmizdirir. Gün keçir, ay dolanır, ceyran uşağı öz balası kimi bəsdiyir.

Günnərin bir günündə Şah Abbasın uşağı satın aldığı məmləkətdən bir oyçu oya çıxır. Nə qədər gəzif dolanırsa, güzarına bir dənə də oy tüşmür. Yornuxlux oyçunu əldən salır. Oyçu bir təpənin başında oturur ki, bir az yornuğunu alsın. Birdən oturduğu qayanın divində bir ceyran görür. Bu oyçu çox sərrast atırmış. Amma ceyranı neçə dəfə nişan alırsa, hər dəfə gülləsi boşa çıxır. Oyçu bu işə laf məhəttəl qalır. Öz-özünə deyir ki, mən bu ceyrannan əl çəkən döyüləm. Görüm munun canında nə tilsim var, bu hara gedir, harda yatır? Oyçu axşama kimi ceyranı pusur. Görür ceyran axşama kimi otdadı, doydu, üst tərəfdəki qayanın altınnan çıxan bulaxdan su içdi. Sonra yavaş-yavaş dağın ətəyinə tərəf gəldi. Ceyran dağın ətəyindəki qayanın divində yatan kimi bir uşax ceyranı əmməyə başdıyır. Oyçu öz-özünə deyir, ayə, bu biyavannıxda uşax hardandı? Ceyran bu uşağı hardan tapıf? Oyçu bir az da gözdüyür, uşax əmif doyannan sonra

ceyranı qovalayıf uşağı qucağına alır. Qayıdır kəndə. Kənddə nə qədər körpə uşaxlı analar varıydısa, oyçu uşağı onların hamısının yanına aparır. Nə illah eliyirlərsə, uşax bularn heş birinin döşünü götürmür. Birdən oyçunun yadına tüşür ki, bizim kəndin yuxarı başında bir arvad var, onun da uşağı olmuşdu. Aparım görüm bəlkə onun döşünü götürdü. Sən demə həmin arvad uşağın öz anasıymış. Uşax anasının iysini alan kimi başdıyır əmməyə. Ay ötür, il dolanır, uşax böyüyüf on altı yaşına çatır.

Bir gün Şah Abbas genə vəziriynən burdan keçirmiş. Yolun qırağında bir dəstə uşax dayanıfmış. Bir də baxıllar ki, bu uşaxlar arasında bir oğlan var, iki göz istiyir tamaşa eləsin. Şahın gözü bu uşağa sataşan kimi Vəzir Allahverdi xannan soruşur:

-Vəzir, öyrən gör bu kimin oğludu?

Vəzir də cavabında qayıdır ki, şah sağ olsun, bu sənin qayadan atdığın uşaxdı. Görürsənmi ölmüyüf, yazıya pozu yoxdur.

Şah yenə deyir:

-Nə danışırsan, vəzir, dəli olufsan, nədi? Nətəri yanı yazıya pozu yoxdu? İndi gözünün qavağındaja mən o yazını pozum, sən də bax!

Şah oğlanı yanına çağırıf deyir:

-Bala, sana bir namə yazıf versəm, onu mənim sarayıma çatdıra bilərsənmi?

Uşaq o saat dillənir ki, niyə çatdırmıram, çatdıraram. Şah Abbas o saat Qara Vəzirə bir namə yazır ki, vəzir, bu oğlan yanına çatan kimi boynunu vurdurarsan. Uşax yazıx da beysavadıydı. Nə bilsin məktuba nə yazılıf? Şah Abbasın naməsini civinə qoyuf yola başdıyır.

Günə bir mənzil, gecəni gündüzə qatıf, yolun damarını qırıf şahın sarayına çatır. Sarayın yaxınnığında böyük bir bağ varıydı. Oğlan bərk yorulduğuna görə bir ağacın kölgöyündə yıxılıf yatır.

İndi sizə kimnən xəvər verim, şahın qızınnan. Şah qızı qırx incəbel qıznan seyrə çıxmışdı. Qayıdanbaş yolu həmən bağdan tüşür. Bağa girən kimi görür ağacın altında bir oğlan yatıf, bir oğlan yatıf, vallahi yemə-işmə, munun gül camalına tamaşa elə. Baxdıqca adamın ağlını aparır. Qız nə illah eliyir, oğlanı oyada bilmir. Birdən qızın gözü oğlanın civinə sataşır. Qız naməni çıxardıf oxuyan kimi atasının niyyətindən halı olur. Tez vəzirə şahın adınnan başqa bir məktub yazır. Yazır ki, bu oğlan ora çatan kimi toy eliyif qızımı ona verərsən. Qız məktubu oğlanın civinə qoyuf gedir. Oğlan yuxudan ayılan kimi özünü yetirir saraya, məktubu Qara vəzirə verir. Qara vəzir də



toy eliyif padşahın qızını verir bu oğlana.

Gün o gün olur ki, Şah Abbasın səfərdən qayıtmax vaxtı çatır. Qız oğlanı örgədir ki, atamın atını minif onu qarşılamağa gedərsən. Atamın yanına çatan kimi ədəblə salam ver, amma dayanma, atının başını çöyürüf dala qayıt. Şah Abbas vəzirdən soruşur:

-Vəzir, məni agah elə görüm bu kimdi? Nə cür'ətnən mənim atımı minif?

Vəzir deyir:

-Şah sağ olsun, bu sənin kürəkənindi. Görürsənmi yazıya pozu yoxdu!

Şah öz-özünə fikirləşdi: "Mən heç vaxt qoymaram bir naxırçı oğlu mənim qızımı ala". Şah oğlanı öldürməyə bəhanə axtarırdı. Bir gün şah öz yeznəsini yanına çağırtdırıb dedi: "Sənə üç sual verecəyəm, əgər onu tapsan səni həm öz əvəzimə şah seçəcəyəm, həm də mənim qızım sənə halal olsun. Əgər tapa bilməsən sənin boynunu vurduracağam".

Oğlan kor-peşman evə qayıdır. Qız oğlanı bikef görüb soruşur: "Sənə nə olubdur ki, belə bikefsən?" Oğlan əhvalatı qıza danışır.

Şah Abbas bu məsələni təklikdə yox, bir çox adamların qarşısında görmək istəyir. O, vəzirinə əmr edir ki, bütün adamları onun sarayının yanına çağırsın. Vəzir bütün ölkənin adamlarını sarayın yanına toplayır. Şah bir hündür yerə çıxıb üzünü adamlara tutub: "Camahat, mən bu yeznəmə 3 sual verecəyəm, əgər bu suallara düzgün cavab versə, onu öz əvəzimdə şah qoyacağam. Əgər tapa bilməsə, onun boynunu vurduracağam". O, adamların qarşısında bir ağzı bağlı qab gətirdir, ondan bir az o tərəfə başqa bir qab gətirdir, deyir:

– "Bu qabların hərəsinin içərisində bir daş var. Bunlardan biri qırmızı, o biri isə qara daşdı. Əgər qırmızı daşı çıxarsan, sənin boynunu vurduracağam". Oğlan bir az fikirləşir. Birdən onun ağlına gəlir ki, şah qabların ikisinə də qırmızı daş qoyar. O, qablara yaxınlaşır, əlini qabın birinin içinə salıb daşın birin çıxarır. O, daşı çıxaran kimi nə qədər qolunun gücü var, daşı atır. Adamlar nə qədər axtarırlarsa da, tapa bilmirlər. Şah hirslənib deyir: "Camahat, bu daşı çıxaran kimi görüb qırmızı daşdır, ona görə də tullayıb". Oğlan üzün adamlara tutub deyir: "Əgər mən qırmızı daşı tullamışamsa, o biri qabın içərisindəki qara daşdır. Onlar qabı açıb baxıb görürlər ki, qabın içərisindəki daş qırmızı daşdır. Oğlan üzünü adamlara tutub deyir: "Deməli, mən atdığım daş qara daş imiş". Birinci sualı oğlan tapır. Şah ikinci

sual üçün iki alma gətirdir. Almalar bir boyda, bir rəngdə, bir ağırlıqda idi. Şah üzünü oğlana çevirib: "Oğlan, de görüm bu almanın hansı keçən ildən dərilib, hansı bu il dərilib?" Oğlan bir az fikirləşir. O, şaha deyir: "Şah, əmr edin iki qabda su gətirsinlər". Şah adamlarının üzünə baxan kimi suyu hazır edirlər. Oğlan almanın birini bir qaba, o birisini başqa qaba qoyur. Oğlan görür ki, qabların birinin içindəki alma suyun dibinə batdı. O biri alma isə suyun üzündə qaldı.

Oğlan üzünü şaha tutub: "Şah sağ olsun, keçən il dərilən suyun üzündə qaldı. Deməli, alma bir il qaldığı üçün suyunu itirmişdi. O biri alma bu il dərilib, ona görə də suyun dibinə batdı. Deməli, o alma isə hələ suyunu itirməyib".

Şah Abbasın üçüncü sualı lap çətin idi. O, qırx adam gətirdi. Bunların iyirmisi qız, iyirmisi isə oğlan idi. Şah Abbas üzünü oğlana tutub: "Oğlan bu cavanların yarısı oğlandır, yarısı qız, sən tapa bilərsənmi bunların hansıları oğlan, hansıları qızdır?" Oğlan cavanlara baxır, görür ki, bunların hamısı bir boyda bir buxunda, bir formada – hamısının paltarı eynidir. Oğlan üzünü Şaha tutub deyir: «Şah sağ olsun, icazə verin bu sualı bir həftə fikirləşim, sonra cavab verərəm". Şah əvvəlcə razı olmaq istəmir. Şahın adamları şaha deyir ki, icazə ver, gedib fikirləşsin. Sənin əyalın sənə "əhsən" deyəcək. Şah razı olur. Oğlan evə gəlir. Qız görür ki, oğlan çox qəmgindir. Oğlanın qabağına çıxıb soruşur: "Sənə nə olubdur ki, belə qəmginsən?" Oğlan əhvalatı qıza danışır.

Şahın qızı çox tədbirli, ağıllı bir qız idi. O bir az fikirləşir. Axşam olur. Onlar yatırlar. Səhər açılır. Qız sevincək oğlanın yanına gəlib deyir. Mən o sualın cavabını tapmışam. Oğlan da sevinir. Qız oğlana dedi: "Sən bir qab su qızdırarsan. Çünki oğlanların canı qızlarınkından bərk olur. Bu suyu onların əlinə vurarsan. Hansı əlini çəksə bil ki, o qızdır. Əlini çəkməsə, deməli, o, oğlandır".

Nəhayət, bir həftə keçir, yenidən bütün ölkənin adamları sarayın yanına yığışırlar. Şah Abbas əmr edir ki 40 cavan gəlsin. Onlar gəlib adamların qarşısında dayanırlar. Adamlar bu cavanlara nə qədər baxırlarsa, bunların hansının qız, hansının oğlan olduğunu seçə bilmirlər.

Şah əmr edir ki, oğlanı gətirsinlər. Oğlan gəlir. Şaha üzünü tutub: "Şah sağ olsun, mənə bir qab isti su gətirt" – deyir. Şah əmr edir, bir qab isti su gətirirlər.

Oğlan bu 40 cavanın hamısının əlini sıra ilə suya vurur. Hansı



əlini sudan tez çəkirsə bir tərəfə, hansı əlini sudan gec çəkirsə onu başqa bir tərəfə düzür. Oğlan baxır görür ki, bu cavanların 20-si bir tərəfə, 20 –si də bir tərəfdə durub.

Oğlan üzünü şaha tutub deyir: "Şah sağ olsun, bu sırada duran 20 nəfər cavanlar qızdır. O biri cərgədə duranlar isə oğlandırlar. Oraya toplanan bütün adamlar oğlana "əhsən" deyirlər. Oğlan üzünü şaha tutub deyir: "Şah mən səndən heç nə istəmirəm. Ancaq mənə icazə ver bu torpaqda səssiz, küysüz yaşayım". Şah bir söz demədən çıxıb gedir.

O gündən sonra şahın qızı ilə naxırçının oğlu ömürlərinin sonuna qədər dərdsiz, qəmsiz yaşayırlar.

## YOLÇUYLA ÜÇ HEYVAN

Günlərin bir günündə bir kişi Reydən çıxıb Misir ölkəsinə gedirmiş. Yolda bir kişiyə rast gəlir. Salam-əleyk edir. Kişi onun salamını alandan sonra soruşur:

-A kişi, hara gedirsən?

Kişi deyir:

-Misirə gedirəm, ağrın alım, iş gəzirəm.

Yolçu deyir:

-A kişi, mənim də yolum Misir tərəfədi. Elə yaxşı oldu. Bir yerdə gedərik. Yolumuz da qısalar.

Kişi dedi:

-Onda düş atdan bir az dincimizi alaq. Mən piyadayam. Gün çıxandan da yol gəlirəm.

Atlı dedi:

-Gəl yolumuzdan qalmayaq. Mən neçə gündü atla gəlirəm. Sən yorulubsan, min atıma, mən də bir az piyada gedərəm.

Kişi razılaşdı. Yolçu atdan düşüb atını kişiyə verdi. Kişi də tez ata mindi. Başladılar yollarına davam etməyə. Bir az getmişdilər ki, Rey tərəfdən gələn gördü atını verdiyi kişi sür'ətini artırır. Dedi:

-A kişi, bir az yavaş sür, dalınca çata bilmirəm.

Kişi dedi:

-Eyib eləməz. Sən yavaş-yavaş gəl, mən səni qabaqdakı kəndlərin birində gözləyərəm. Yavaş getməyə öyrəşməmişəm.

Bunu deyib ata bir qamçı vurdu. Yolçu gördü bunun fikri özgədir, dalınca qışqırdı:

-A kişi, insafın olsun, heç olmasa atın tərkindəki xurcunda dörd çörək var, ikisi sənin, ikisini yerə tulla, götürüm. Acından ölərəm.

Atlı dedi:

-Əyə, başına atmı təpib, nə çörək? Özümün bəyəm ağzım yoxdu? Mənə at lazım idi, Allah yetirdi.

Bunu deyib ata möhkəm bir qamçı ilişdirdi. Tozu dumana döndü. Göz qırpımında gözdən uzaqlaşdı. Yolçu başına-gözünə döyə-döyə yola düzəldi. Şər qarışbaqarış idi. Gecələməyə yer axtarırdı. Gördü yan tərəfdə, balaca bir təpəliyin döşündə mağara var. Düşündü ki, elə yaxşı oldu. Gecəni bu mağarada keçirərəm. Girdi mağaraya. Yerini təzəcə isitmişdi ki, səs eşitdi. Nəsə donquldana-donquldana içəri girdi. Yolçu bir az da küncə qısılıb nəfəsini belə çəkmədi. Mağaraya girən ayı idi. Bunun dalınca da bir tülkü və bir canavar gəldi. Onlar baş-başa verdilər. Ayı onlardan soruşdu:

-Nə var, nə yox qardaşlar, nə gördünüz, nə eşitdiniz?

Tülkü dedi:

-Nə olacaq, ayı qardaş. Bu yaxınlıqda bir siçan var. Bir xeyli də qızılı var, hər gün çıxardıb qurudur, axşamlar da yuvasına daşıyır. Toyux-cücə deyil ki, əlindən alıb yeyəsən.

Tülkü belə deyəndə canavar dedi:

Eh ay tülkü qağa, min sirr bilirəm. Bir çoban tapammıram ki, o sirri deyəm, əvəzində qoyun-quzudan alıb qarnımı doyuram.

Tülkü dedi:

-Canavar qardaş, o nə sirdir ki, əvəzində qoyun-quzu almaq istəyirsən?

Canavar dedi:

-Burdan bir xeyli uzaxda bir padşahlıq var. O padşahın torpağında da bir dağ var. O dağın döşündəki qayanı qaldırsalar, altından yeddi dəyirmana bəs edəcək su çıxar. Padşahlığın da adamları su deyin can verir.

Ayı dilləndi:

-Canavar qardaş, o padşahlığa mən də bələdəm. Padşahın da qızı anadan gəlmə laldı. Nə qədər həkim çağırıblarsa, əlac edən olmayıb. Amma padşah bilmir ki, onun torpağında, filan yerdə bir ağac var. Yarpaqları dərmandı. Onun yarpaqlarından bir neçəsini əzib suyunu qıza içirtsələr, olar anadan gəlmə. Dili açılar.

Yolçu bir küncdə bu deyilənlərin hamısını eşitdi. Amma sabaha qədər qorxusundan gözünü yummadı. Elə ki, səhər açıldı, heyvanlar



dağılışdılar, bu da mağaradan çıxıb tülkünün dediyi yoldan getməyə başladı. Bir az getməmiş gördü tülkü düz deyir. Burada bir balaca siçan var. Deşiyindən bir-bir qızılları çıxarıb günün altına sərir. Yolçu gözlədi. Elə ki siçan qızılların hamısın çıxardı, bu da bir balaca daş götürüb siçana tərəf atdı. Siçan qaçıb deşiyə girdi. Yolçu da qızılları yığıb padşahın torpağına tərəf yol aldı. Gedib ayı dediyi ağacın yanına çatdı. Tez onun yarpaqlarından bir az yığıb qoltuğunda gizlətdi. Düz oradan birbaşa padşahın sarayına gəldi. Keşikçilərə dedi ki, bəs padşahınıza xəbər verin ki, həkim gəlib, onun qızını sağaltmaq istəyir. Keşikçilər tez bu xəbəri padşaha çatdırdılar. Padşah hökm elədi, yolçunu onun hüzuruna apardılar. Padşah dedi:

-Yolçu, belə deyirlər ki, sən həkimsən, düzdümü?

Yolçu dedi:

-Padşah sağ olsun, düz deyirlər, həkiməm.

Padşah dedi:

-Mənim qızım, anadangəlmə laldır. Neçə illərdi ki, neçə-neçə həkim gətirmişəm, ancaq heç kim onun dərdinə əlac eliyə bilməyib. İndi gəl şərt kəsək, əgər sən mənim gözümün ağı-qarası birco qızımın dilini açsan, öz əlimlə qızımı sənə verib toyunu edəcəyəm. Yox əgər sağalda bilməsən, qanın halaldı, boynunu vurduracağam. Razısanmı?

Yolçu dedi:

-Padşah sağ olsun, razıyam. Sənin qızını elə sağaldacağam ki, tamam anadangəlmə olacaq. Ondan sonra söz sənindir, istəsən şərtə əməl edərsən, istəməsən etməzsən. Mən nə kərəyəm ki, padşahın qabağında şərt kəsəm.

Bundan sonra əlavə etdi ki, gərək ayrıca bir otaq ayıralar. Qıznan ondan başqa heç kim o otağa qədəm basmaya. Padşah razılıq verdi, hökm elədi ki, həkimi ayrıca otağa aparsınlar, qızını da ora gətirsinlər. Padşahın əmrinə əməl elədilər. Yolçunu ayrıca, gözəl bir otağa apardılar. Bir azdan qızı da gətirdilər. Hamı dağılışdı. Yolçu qanrılıb baxanda nə görsə yaxşıdı? Qız nə qız, elə bil Allahtaala onu kefinin ən xoş zamanında yaratmışdı. Adam baxanda deyir bir də baxım. Baxanda da bu dünyadan əl üzür. Nə başınızı ağrıdım, bir könüldən min könülə qıza vurulur. Amma vurulduğunu büruzə vermir. Qoltuğundakı yarpaqlardan əzib sonra onu bir piyaləyə töküb qıza uzadır. Qız piyaləni başına çəkir. Görür sinəsi alışıb-yanır. Yanğı yavaş-yavaş artmağa başlayanda qız dözə bilməyib qışqırır. Səsinə

özü diksinir, həm də sevincindən bilmir ki, nə etsin. Hiss edir ki, ağrılar azaldıqca boğazında nəsə geyişir. Gözünü həkimə zilləyəndə həkim deyir:

-Hə, indi de görüm, mənə gələrsənmi?

Qız "bəli" deyib özünü yolçunun üstünə salır. Onu başdan ayağa duz kimi yalayır. Xəbər padşaha çatır ki, bes deməzsənmi, qızının dili açılıb. Padşah taxtından düşüb özü qızının pişvazına gəlir. Qızının dilinin açıldığını görüb üzünü yolçuya tutur:

-Həkim, doğurdan da sən dünyanın ən yaxşı həkimisən. Mən səni dünya malından qəni etsəm də yenə azdır. İndi de görüm məndən nə diləy diləyirsən?

Yolçu dedi:

-Padşah sağ olsun, sən böyük bir ölkənin padşahısan, mən isə qərib bir həkiməm. Mən cür'ət edib səndən nə dilək diləyə bilərəm? Sözümü də demişəm. İstəyirsən şərtinə əməl et, istəyirsən etmə.

Padşah dedi:

-Həkim, mənim gözümün ağı-qarası bircə qızım var. Onu səndən yaxşısına verməyəcəyəm ki?! İndi de görüm toyunu nə vaxt edim?

Yolçu dedi:

-Padşah sağ olsun, hökm sizindir.

Bundan sonra padşah hökm elədi. Toy məclisi quruldu. Hər yerdə şadyanalıq başladı. Padşah yolçuya bir toy elədi, bir toy elədi, hələ ruzgarın gözü belə toy görməmişdi. Qırx gün, qırx gecə toydan sonra padşah təzə kürəkəni hüzuruna çağırtdırdı. Dedi:

-Kürəkən, indi məndən daha nə dilək diləyirsən?

Yolçu dedi:

Padşah sağ olsun, neçə gündür ki, buradayam, görürəm adamların sudan çox korluq çəkirlər. Sən mənə bir xeyli adam ver, əyalətinə su çəkim.

Yolçu belə deyəndə padşahı təəccüb bürüdü. Dedi:

-Kürəkən, mənim əyalətimdə su çox qıtdı. Neçə vaxtdı axtarırıq, su gördüm deyən olmur. Sən suyu haradan çəkdirəcəksən?

Yolçu dedi:

-Padşah sağ olsun, şəhərimizin yaxınlığındakı dağın döşündə böyük bir qayalıq var. Onun altından çay axır. O qayalığı dağıtsaq, yeddi dəyirman suyu gələr.

Padşah kürəkənin ağlına heyran qalmışdı. Düzdü, inanmasa da, xətrinə dəymək istəmədi. Tez hökm elədi ki, filan dağın döşündəki



qayalığı dağıtmaq lazımdır. Kim işləmək istəyirsə, buyursun.

Padşahın buyruğunu eşidən kimi çoxlu işçi toplandı. Yolçu gördü ki, işləməyə gələnlərin arasında onun atını qaçıran da var. Day üzə vurmadı. Adamları dəstələrə bölüb qayalığın dörd tərəfinə düzdürdü. Başladılar külünglə qayalığı dağıtmağa. İşləyənlərin əmək haqqını isə axşamlar verdirirdi. Bir gün haqq verənlərə dedi ki, filan adamın haqqını verməyin, onu özüm razı yola salaram. Elə də elədilər. Elə ki axşam oldu, işləyənlər işlərini dayandırıb haqlarını almağa toplaşdılar. Yolçu deyən adama isə bildirdilər ki, sənin haqqını padşahın kürəkəni özü verəcək. O da gəldi padşahın kürəkəninin yanına. Padşahın kürəkəni üzünü ona çevirib dedi:

–A kişi, məni tanıyırsanmı?

Kişi zənn edib dedi:

–Yox, ağrın alım, mən bir kasıb adamam, sənin kimi dəyanətdi adamı necə tanıya bilərəm?

Padşahın kürəkəni dedi:

–Bir yaxşı-yaxşı bax!

Kişi bir az da zənd edib dedi:

–Başına dönüm, tanıya bilmədim.

Onda padşahın kürəkəni dedi:

–Filan faxtı Misirə gedəndə heç atlıya rast gəlməmisən?

Kişi dedi:

-Gəlmişəm, başına dönüm.

Padşahın kürəkəni dedi:

–İndi de görüm, o adamın başına nə oyun gətirdin?

Kişi padşahın kürəkənini tanımasa da, içində ağrı çəkdi. Bildi ki, bu kimdisə, əhvalatı tamam-kamal bilir. Dedi:

–Başına dönüm, bir qələtdi eləmişəm, atına minib aradan çıxmışam. Kasıb adam idim. Dedim atı satıb birtəhər gün keçirərəm. İndi atı da satıb pulunu yemişəm. Bu iş də olmasaydı, lap acından ölənin biri idim.

Padşahın kürəkəni dedi:

–Qorxma a kişi, həmin atlı mən özüməm. Sənə heç bir şey etməyəcəm. Çünki sənin pisdiyinə görə bu mənsəbə çatmışam. Sənin cəzanı isə Allah özü verər.

Padşahın kürəkəni sonra başına gələn əhvalatı biz sizə nağıl elədiyimiz kimi ona danışdı. Kişi bu sözləri eşidəndə yenə də tamahı ona güc gəldi. Öz-özünə fikirləşdi ki, gedim mağaraya, heyvanlara

qulaq asım. Bəlkə yenə də xəzinədən-zaddan bir yer dedilər. Gedim tapım, kasıblığın daşını atım.

Kişi bu fikirlə də özünü mağaraya yetirdi. Bir küncə çəkilib heyvanların gəlməsini gözlədi. Şər qarışan kimi əvvəlcə ayı, sonra tülkü, axırda da canavar gəlib çıxdı. Ayı bərk hirsli idi. Üzünü tülküyə tutub dedi:

–Tülkü qardaş, nə var, nə yox?

Tülkü dedi:

–Nə olacaq. Yazıq siçanın dərisini soyublar. Kimsə xəzinəsini daşıyıb aparıb.

Tülkü belə deyəndə cavanar da yanıqlı-yanıqlı dilləndi:

–Ay qardaş hələ tülkünün dediyi bir yana dursun. O su ki, deyirdim ha, onun yerini məndən başqa kimsə bilmirdi. İndi həmin qayalığı dağıdırlar. Mən yazığın əli bir-iki qoyun-quzudan çıxdı.

Bu əsnada ayı bərkdən donquldandı, dedi:

–Qardaşlar, indi siçandı, biri yolnan gedəndə siçanı görər, qızıllarını da apara bilər. Qayalıqda çobanın biri eşələyər, suyun yerini tapa bilər. Amma bu ağac məsələsi məni bir az çaşdırır. Məndən başqa heç kim bilmirdi ki, onun yarpaqları hər bir dərdin dərmanıdı. O ağacın yarpaqlarından qopardıblar. Hələ qoparmaq bir yana, padşahın qızının da dilini sağaldıblar. Qız olub anadangəlmə. Toy da edib veriblər birinə.

Tülkü dedi:

–Qardaşlar, nə deyirsiniz deyin, mən şübhələnirəm. Necə oldu ki, az vaxtda nə ki, sirr bilirdik, onun hamısı açılıb. Xəzinəni də aparıblar, qayalığı da dağıdırlar, yarpaqları da dərib padşahın qızını sağaldıblar. Siz bundan bir şey anlamırsınızmı?

Canavar dedi:

–Tülkü, sənin deməyindən belə çıxır ki, bizdən başqa bu sirri bilən var? Axı kim, hardan bilə bilər?

Tülkü dedi:

–Vallah-billah, ya kimsə bizdən başqa bu sirləri bilən var, ya da kimsə bizim sözlərimizi eşidib.

Ayı dedi:

–Burda nə çətin iş var? Durun mağaranı axtaraq. Bəlkə doğrudan da bizim sözlərimizi gizlənib eşidirlər.

Ayı belə deyəndə heyvanlar yerlərindən durub mağaranı axtarmağa başladılar. Axtarıb bir küncə çəkilmiş kişini tapdılar. Acıqlanmış



heyvanlar kişinin üstünə cumdular. Ayı pəncəsilə vurub onun belini qırdı. Tülkü ilə canavar hərəsi bir tərəfindən tutub parçaladılar.

İndi sizə xəbəri kimdən verim-padşahın kürəkənindən. Aradan bir neçə gün keçdi, padşahın kürəkəni gördü kişidən səs-soraq yoxdu, hər yana adam saldı, soraq verən tapılmadı. O saat barmağını dişlədi. Bildi ki, özünü mağaraya salıb. Yə'qin başında bir işi var. Adamlardan bir neçəsini götürüb mağaraya gəldi. Axtarıb yalnız sür-sümüklərini tapdı. Öz-özünə dedi:

–Bəs mən sənə demədimmi ki, Allah sənin cəzanı özü verəcək.

## ŞAH ABBASLA QIZ

Biri var imiş, biri yox imiş. Şah Abbas adında bir şahla onun bir ağıllı veziri varmış. Bir gün bunlar birlikdə gəzməyə çıxırlar. Şah burada bir qızı görür, ona vurulur. Şah bir neçə adamla elçiliyə gedir. Buna qızın atası, anası razı olur. Qız isə buna razı olmur. Ata-anası ondan nə üçün şaha getmədiyini soruşurlar. Qız deyir: – Nə olsun ki o şahdır, amma səncti yoxdur.

Bu sual şah Abbası çox narahat edir. Şah şəhərə gəzməyə çıxır ki, sənət öyrənsin. O bir dərzinin yanına gedib, ona bu sənəti öyrətməsini xahiş edir. Dərzi isə bu sənətin 3 il müddətinə öyrəniləcəyini dedi. Şah buna razı olmadı. Sonra yoluna davam etdi. O, bir çəkməçinin yanına gəlib dedi:

– Çəkməçi qardaş, sən bu sənəti mənə neçə müddətə öyrədərsən?

Çəkməçi cavab verdi: "Mən bu sənəti sizə 3 aya öyrədərəm". Yenə buna Şah Abbas razı olmur. Sonra yenə şəhəri gəzməyə başlayır. O, gəlir bir xalça toxuyanın yanına çıxır. Şah yenə buna deyir ki, xalçaçı qardaş, sən bu toxumaq sənətini mənə nə vaxta öyrədərsən? O cavab verir ki, mən bu sənəti sizə üç gün müddətinə öyrədərəm. Şah buna razı olur. Xalça toxuyan üç gün müddətinə bu sənəti şaha öyrədir. Şah gəlib qızın atasına deyir ki, mən xalçaçı sənətini öyrənmişəm. Bu xəbər qıza yetdi. Qız buna razı oldu. Qırx gün, qırx gecə toy edib qızı alır.

Bir gün şah şəhərə gəzməyə çıxır. Şəhərdə Şah Abbas qırx nəfər oğlanın adamları soyduğunu görür. Sonra onların ardınca düşüb gedir. Qırx hərami başçısı arxaya dönüb kişinin gəldiyini görüb, onu tutdurur, onu gətirib zindana saldırır. Üç gün onu yedirdib-içirdirlər.

Dördüncü gün isə onu öldürmək istəyirlər. Şah əhvalatdan xəbərdar olub, həramilərin başçısına deyir ki, siz məni öldürüb nə edəcəksiniz?

Başçı cavab verir ki, sizin ətinizdən sabun düzəldəcəyik, ondan min tümən qızıl alacağıq. Şah isə deyir ki, mən sizə elə xalça toxuyaram ki, ondan min tümən deyil, iki min tümən qazanarsınız.

Buna qırx həramın başçısı razı oldu. Sonra gedib şəhərdən ip gətirir. Şah iki gün müddətinə bir xalça toxuyur, altından adını yazır. Sonra xalçanı həramilərə verib deyir, aparıb bu ünvanda satın.

Dörd nəfər adam xalçanı aparır. Qız xalçanı tanıyır, əmr edir ki, əgər onlar ikinci dəfə gəlsə onları tutub əllərini bağlasınlar. Qırx həramilərin yenə dörd nəfəri ikinci xalçanı ona gətirir. Həmin xalça gətirən adamları tutub həbs edirlər. Əsirlərin biri isə onları Şah Abbasın həbs olunduğu yerə aparır. Şah azad olunur. Burda olan qırx həramilərin tutub boynunu vururlar. Şah öz evinə qayıdır.

## ŞAH ABBASLA OĞLAN

Biri varmış, biri yoxmuş, bir qoca qarı varmış. Bunun gözünün ağı-qarası bir oğlu varmış. Oğulla ananın ümüdü ancaq bir keçiyə gəlirmiş. Gündə keçinin südünü sağıb onunla dolanırmışlar. Bunların bir keçi ilə dolanması Şah Abbası maraqlandırır, onlara qonaq gəlir. Ana-oğul bir-birilə məsləhətləşib keçini kəsirlər. Şah Abbas keçinin qızartmış ətindən doyunca yeyir. Durub getmək istəyəndə oğlana deyir: "Səni bir gün mən də qonaq çağıracam, amma vaxtını deyə bilmərəm. Bu da mənim ünvanım".

Aylar keçir, illər dolanır Şah Abbasdan bir xəbər çıxmır. Günlərin bir günü oğlan şah verdiyi ünvana gedir. Nökərlər oğlanı ədəblə qarşılayıb, şahın hüzuruna gətirirlər. Bu vaxt şah başqa otaqda namaz qılırdı. Oğlan bir az gözlədi, şah gəlmədi. Axırda durub otaqları axtarmağa başladı, gördü ki, şah Allaha yalvarır. Oğlan tez dayanmadan evlərinə gəlib anasına deyir: «Ana şah da Allaha yalvarır. Gəl biz də yalvaraq görək axırı nə olur. Bəlkə Xudaya bizə bir yaxşı həyat bəxş edə". Hər ikisi Allaha yalvarmağa başladılar. Axşam oldu, hər ikisi yatdılar. Yuxuda oğlan həyətlərində olan çuxurlarda üç küp qızıl gördü. Səhər açılan kimi oğlan heç kimə bir söz demədi, həyətdə olan çuxurları qazmağa başladı. Çuxurdan üç küp qızıl çıxdı. Oğlan qızılı evlərinə gətirib gözəl bir ev tikdirir.

İndi sizə xəbər verim Şah Abbasdan. Şah namaz qurtaran kimi öz



otağına keçdi, oğlanı görə bilmədi. Şah elə düşünür ki, yəqin oğlan bir şey aparıb. Otağa nəzər saldı, gördü ki, hamısı yerli-yerindədir. Bir müddətdən sonra şah oğlangilə getdi. Oğlanın yerini xəbər almışdı ki, bir də gördü oğlanın anası qapıya çıxıb şahı səsləyir. Şah gözlərinə inanmadı, irəli yeriyib onun həmən qoca arvad olduğunu görür. Qoca onu içəri dəvət edir. Şah evə girir. Oğlan şaha yer göstərib onu əyləşdirir. Şah oturub oğlana bir sual verir ki, sən bu imarəti hardan almısan? Oğlan deyir: "Şah sağ olsun, mən sənin evinə getdim, sənin Allaha yalvarmanı gördüm. Mən də gəlib Allaha yalvardım, bu cah-cəlalı Allah verib".

## DƏRVİŞ XUDAYARIN NAĞILI

Xudayar adlı bir dərviş var idi. Bu dərviş qəsidə deyə-deyə bir neçə şahın paytaxtları ətrafında ənam alırdı. O, günlərin birində bir şahın şəhərinə daxil olanda gördü ki, şahın dərgahında Günəş hər tərəfə şəfəq saçır. Dərviş bərgaha yaxınlaşanda gördü ki, şahın bərgahına daxil olmaq üçün bərgahın bütün ətrafında qırx darvaza var. Şahın bərgahının bir kərpici qızıl, bir kərpici gümüşdür. Xudayar dərviş birinci darvazada bir qəsidə oxuyur, dərvişə bir sini plov, bir sini qızıl verirlər. Dərviş qırx darvazada on gün qəsidə deyir, qırx sini qızıl yığıb özünə bir at alıb qayıdır. Xudayar dərviş böyük ad sahibi olan şahların hamısından ənam almışdı. Başqa şahların ənamından doymayan acgöz dərviş qadın şahından aldığı qırx sini qızılı öz xəzinəsinə doldurub, İsfahanda böyük şöhrət sahibi olan Şah Abbasın bərgahına gəldi. Ətrafı dolanıb bircə darvaza olduğunu görüb, onun ağzında qəsidə deməyə başlayır.

Şahın xidmətçiləri dərvişə bir sini plov,bir dənə də onluq qızıl verirlər. Dərviş qızılı almır, nə də qəsidəni kəsmir, elə oxuyur. Şah Abbas dərvişin oxumağını eşidib dərvişi qəbul edir.

Dərviş Şah Abbasın hüzurunda dayanıb deyir: "Ey qibleyi aləm. Şah oğlu şah Abbas, sənin adın bütün dünyanı götürüb, bərgahın sadə kərpicdir, bərgahıyın darvazası bir dənədir. Mənə bir sini plov, bir dənə də qızıl onluq göndərdin. İndi sən eşit Güldəstə şahın bərgahının büsatını. Binasının bir kərpici qızıl, biri gümüşdü, bərgahının qırx darvazası var. Hər darvazada qəsidə deyən dərvişə bir sini plov, bir sini də qızıl verir".

Dərvişin sözlərini Şah Abbas eşidən kimi onu öz paytaxtında

nəzarət altında qoyub özü dərviş libasına girir. Çox əziyyətdən sonra gəlib Güldəstə şahın bərgahına çatır. Görür dərviş düz deyirmiş. Şah Abbas bir gün axşama kimi bütün darvazaları nəzərdən keçirir. Bir sini plov, bir sini qızıl alır, sonra şahın bərgahında sığınacaq tələb edir. Güldəsdə şah Şah Abbasa bərgahında yer verdirir, eyni zamanda Güldəstə şah dərvişin Şah Abbas olduğunu bilib onu qəbul edir. Şah Abbasa Güldəstə şah qızıl-gümüşlü binaların sirlərini belə izah edir: "Ey Şah Abbas sən çox əziyyət çəkərsən bu sevdadan, qayıt öz paytaxtına. İndi ki məcbur edirsən, onda səhər tezdən mənim paytaxtımın qarşısında bir böyük bazar var. O bazara gedərsən. O bazara bir kor gələcək, o koru yedəkdə gətirəcəklər, korun yedəyində bir at olacaq. Həmin kor, atın yükünü boşaltdırmaq istəyəndə tayların ağzını açacaq, görəcəksiniz ki, taylarda qızıldır. Həmin kor öz üzünə tüpürtdürüb, boynuna bir yumruq vurub, özünə axirətə bir inam dedirdib bir ovuc qızıl verir. Axşama kimi yenə qızıl qurtarmır. Ata yüklədib aparır. Get ondan öyrən, o sənə deyər mənim binamın nəyə görə qızıl-gümüş olduğunu.

Şah Abbas yenə səhər tezdən bazara gəlir ki, korun bir at yükü qızılı necə payladığını görə. Kor qızılı nə qədər paylayır yenə qızıl qurtarmır, axırda yenə qızılları ata yükləyib öz evinə qayıdır.

Şah Abbas həmin günün axşamı yenə qonaq olur ki, bu qəribə sirri öyrənsin. Həmin kor tacir Nəsir olur. Şah Abbas kordan sirri öyrənmək istədikdə, kor deyir:

Dərviş babasan, get qəsidəni oxu, bir parça çörək pulu qazan, o, sirri sən öyrənə bilməzsən.

Dərviş Şah Abbas cürbəcür dəlillərlə kora dönə-dönə müraciət edir.

Kor deyir: "Dərviş, indi ki əl çəkmirsən, onda mənə qulaq as. Dərviş, bax bizim bu şəhərin sağ tərəfində bir məscid var, ikimərtəbəlidir. Günorta əzanının vaxtında pinəçi ikinci mərtəbəsindən özünü yerə atar, nə yıxılmaz, nə qol-qıçası ağrımaz, yenə də oturub ayaqqabıları tikməyə başlayar. Get onun yanına, o, mənim dərdimi sənə deyər. Şah Abbas pinəçini tapır. Korun söylədikləri doğru olur. İndi də o, pinəçiyə qonaq olur.

Şah dərviş indi də pinəçiyə yalvar-yaxardan sonra pinəçi dərvişə deyir: "Dərviş, şəhərin qurtaracağında bir dəmirçi dükanı var. O dəmirçi dırnaxlarını tutmur, bığının qabağını kəsdirir. Dəmiri əli ilə tutur, əli ilə döyür, əlinə çəkic almır, yenə əlləri tərtəmiz olur. Həm



də əllərini od yandırmır, yanında bir donuz saxlayır özü nə yesə qabaqca donuzu doydurur, sonra özü yeyir. Donuz səslənəndə donuzun istədiyi yerini qaşıyır, həm də donuzun üzündən-gözündən öpüb yenə dəmrini döyür. Get onun yanına, mənim dərdimi sənə deyər".

Dərviş libasında Şah Abbas dəmirçinin qonağı oldu. Dəmirçinin sirrini bilmək istədikdə dəmirçi dedi: "-Dərviş siz bu sirri bilmək üçün altı ay yol getməlisiniz. Altı aylıq yolda sizi çox təhlükələr gözləyir. Getdiyiniz yolun qurtaracağında bir ucsuz-bucaqsız meşəyə çıxacaqsınız, həmin meşənin vəhşi heyvanları sizi parça-parça edəcəklər. O, vəhşi heyvanların rəhbəri bəni-adəmdir. Siz onu vəhşilərdən qabaq tapa bilsəniz mənim dərdimi o, sizə deyər".

Dərvişlibas Şah Abbas deyillər, çox ağıllı, təmkinli şah olub. O, bu səfəri edəndə onu müşayət edən pəhlivanları vardı. Onlar hər cür silahlarla təmin edilmişdilər, ancaq onlar şahdan bir–iki vers aralı gedirdilər. Özləri də üç bir, beş bir gedirdilər. Şah Abbas həmin yolu qət etdikdə meşədən xeyli aralı çadır qurdurub özü ilə apardığı bilicini hüzuruna çağırdıb soruşdu ki, de görüm mən necə edim ki, birinci dəfə o, bəni-insanı tapa bilim?

Şahın bilicisi deyir: "Qibləyi aləm sağ olsun, siz dəvriş libasınızı soyunmayın". Səhərin dan yeli əsəndə siz meşənin qırağında olmalısınız. Çünki o, bəni-adəm neçə illərlə vəhşilərlə bir yaşayıb, o bəni adam sübhün çağında meşənin kənarına çıxmalıdır.

Dərvişlibas Şah Abbas bilici dediyi sözə riayət edir, məqsədinə nail olur. Vəhşilərin rəhbəri bəni-adam Şah Abbası görən kimi tanıyıb qaçmağa başlayır. Nə qədər qaçırsa, şah ondan əl çəkmir, axır dayanıb deyir: "Ay Şah Abbas, məndən nə istəyirsən? Sizin əlinizdən qaçıb vəhşilərlə yaşayıram". Şah Abbas çox yalvardıqdan sonra bəni-adəm deyir ki, Şah Abbas sağ olsun, bu meşənin sağ tərəfində bir bina var. O, binada bir nurani qoca olur, bilir mən nə üçün vəhşilərlə yaşayıram. Şah Abbas bəni-adəmdən ayrılıb həmin bina ilə qocanı tapır. Qoca da Şah Abbası tanıyır, deyir:

- "Ey şah, nə çox əzab çəkibsən, buyur qonağımsan.

Şah Abbas qocanın evinə daxil olmaq istədikdə qoca deyir: -Şah sağ olsun, siz sizi müşayət edənləri də çağırmasanız, sizə heç bir sirr söyləməyəcəyəm". Şahın müşayətçiləri də gəlir, bir gecə orda qalırlar.

Səhər həmin qocanı da Şah Abbas özü ilə gətirir, bütün sirləri açaaça gəlib çatırlar Güldəstə şahın bərgahına. Güldəstə şah Şah Ab-

basın özü ilə gətirdiyi qocanı tanıyır, Şah Abbasa ultimatum elan edir.
Şah Abbas azlıq edən öz dəsdəsini çəkib həmin şəhəri tərk edir. Sonra qoşun çəkib Güldəstə Şahın şəhərinə müharibə elan edib, yeddi günlük döyüşdən sonra şəhəri alır, Güldəstə Şahı özü ilə öz qəsrinə gətirir. Həmin şəhərdə qızıl xəzinələri Şah Abbasın ixtiyarına keçir.

## YUSİF AYYAR

Biri var idi, biri yox idi. Bir kişinin üç oğlu var idi. Günlərin bir günü kişi ölüm yatağına yıxılır. Oğlanlarını yanına çağırıb deyir:

– Balalarım, o dağın dalına keçmiyin, ziyan taparsınız.

Nə isə, kişi ölür. Bir müddətdən sonra, günlərin bir günü böyük qardaş deyir ki, gedim görüm o dağın dalında nə var ki, atam bizi ora getməyə qoymur? Böyük qardaş gedir, lakin gəlmir. Bir müddət keçdikdən sonra ortancıl qardaş gedir, o da gəlmir. Növbə Yusifə çatır, gedəndə görür ki, dağda bir ceyran otlayır, istəyir ki, ceyranı vursun, ceyran qaçır. Yusif düşür ceyranın dalına, ceyran gedir, o gedir, axırda ceyran bir mağaraya girir. Tez Yusif də ceyranın dalınca mağaraya girir. Mağaradan bir qarı çıxır, Yusif deyir: "Qarı nənə, ver ceyranımı". Qarı deyir ki, al bu suyu iç, sonra ceyranı apararsan. Yusif suyu vurub tökür, deyir ver ceyranımı. O, belə deyib içəri girir, görür ki, burada bir qız oturub. Qız nə qız, yemə, içmə xətti-xalına, gül camalına tamaşa elə. Qız Yusifi görcək istəyir ki, üzündəki örtüyü götürsün. Yusif qıza bir sillə çəkib deyir ki, ver mənim ceyranımı. Qız deyir ki, gəl nərtaxta oynayaq, kim udsa ceyran onundu. Yusif razı olur, otururlar oynamağa. Bir neçə oyundan sonra Yusif görür ki qız onu aparır. Qıza deyir ki, dur mənə su ver, qız deyir qoy qarı versin. Yusif deyir yox, dur sən gətir. Qız duran kimi Yusif gedib qızın yerində oturur. Qıza deyir ki, indi də sən orada otur, mən də burada. Yenə də oynamağa başlayırlar. Bu dəfə Yusif qızın pullarının hamısın udur. İndi Yusif deyir ki, di ceyranı ver. Qız deyir ki, bir şərtim var, al bu boyunbağını apar, atamın xəzinəsində xırdalat, gətir, yenə də oynuyax, udsan ceyran sənindir. Yusif razı olub boyunbağını aparıb qızın atasına verir, deyir ki, qızın göndərib, xırdala. Padşah o dəqiqə bilir ki, anasının dediyi adam budur.

O, vaxt anası deyif ki, oğul, səndən sonra dünyaya Yusif Ayyar adlı bir adam gələcək, ondan sənə zaval gəlməsə, sənə ölüm yoxdur. Ona görə də padşah onu tapmaq üçün qızı həmin dağın dalına tilsim oxutdurub göndərmişdi. Qız da həmin adamı tapıb atasının verdiyi nişanə ilə birlikdə göndərmişdi atasına. Padşah o dəqiqə vəzir-vəkilini yanına çağırtdırır ki, tədbir tökün, düşmənimiz öz ayağı ilə gəlib. Bunlar bu otaqda tədbir tökəndə Yusifə aydın olur ki, onu öldürəcəklər, tez oradan qaçır. Gedib şəhərin qurtaracağında övladsız bir qarının qonağı olur. Bir müddətdən sonra deyir ki, qarı nənə, al bu pulu, get mənə bir dəstə qız paltarı al gətir. Qarı gedir bir dəstə qız paltarı alıb gətirir. Yusif paltarı geyinib olur gözəl bir qız.

Günlərin bir günü padşahın pəhlivanı qarının qızını görür, qıza aşiq olur. Padşaha deyir ki, filan qarının qızını mənə al. Padşah o dəqiqə elçi göndərir, qızı alıb 40 gün 40 gecə toy edib qızı gətirir evinə. Pəhlivanla qızı bir otaqda qoyub hamı evinə gedir. Qız deyir ki dur otaqlarınızı gəzək. Otaqların hamısını gəzib gəlirlər 40-cı otağın yanına. Qız deyir ki, aç bu otağa da baxaq. Pəhlivan deyir ki, orada heç nə yoxdu, gəl gedək. Qız deyir, yox, aç baxaq. Nə isə, pəhlivan əlacsız qalır, qapını açır. Qız görür ki, otaqda yekə bir şey var, deyir ki, bu nədi, pəhlivan deyir ki, ət maşınıdı. Qız deyir ki, bu kimdən ötrüdür? Pəhlivan deyir ki, bizim Yusif Ayyar adlı bir düşmənimiz var, onu bu maşında doğrayacağıq. Qız deyir lap yaxşı, indi mənim yaylığımın ucunu bu maşında çək görək necə doğrayır. Pəhlivan razı olmur, deyir ki, mənim çuxamın ətəyini çək, ancaq mən deyəndə bəsdi, onda dayandır. Qız deyir yaxşı. Pəhlivan çuxasının ucunu maşının ağzına verib qıza deyir ki, bula. Qız başlayır bulamağa, bir qədər keçdikdən sonra pəhlivan deyir ki, daha bəsdir, dayandır. Qız isə bulayır, o qədər bulayır ki, maşın pəhlivanı tamam doğrayıb qırağa çıxarır. Qız pəhlivanı oradaca qoyub qaçır.

Yusif şəhərdən bir dəstə həkim paltarı alıb geyinib çıxır şəhərə. Yusif qaçmaqda olsun, sizə kimdən xəbər verim, padşahdan. Elə ki, səhər açıldı, padşah gördü kü, pəhlivan qalxmadı. Adam göndərdi ki, gedin görün niyə qalxmıyıflar, gedən adam tez gəlif padşaha xəbər verir ki, otaq boşdu. Padşah o dəqiqə otaqların hamısını gəzir. O gəlib 40-cı otaqda görür ki, düşmənlərini doğruyacaq maşını indi onun pəhlivanını doğrayıb, pəhlivan padşahı görcək başladı zarımağa. Padşah o dəqiqə bildi ki, Yusif Ayyar imiş, yenə də qaçdı. Padşah həkim çağırtdırır, lakin həkimlərin heç biri onu sağaltmağa söz vermir. Bu vaxt Yusif Ayyar həkim paltarında gəlib ora çıxır. Padşah deyir ki, əgər sən bu pəhlivanı sağaltsan, səni dünya malından qəni eləyəcəm.

Həkim deyir ki, mən sağaldaram, ancaq gərək dəryanın kənarın-

da bir çadır qurdurasan. Xəstəni ora qoyasan, 3 gündən sonra gəlib əhval tutarsınız.

Padşah o dəqiqə əmr elədi çadır quruldu, xəstəni aparıb qoydular çadıra, çıxıb getdilər. Həkim gəldi xəstənin yanına «Yusif Ayyarı öldürəcəydiniz» deyib, xəstənin salamat yerini bıçaqla kəsib içinə, duz doldurub, başladı tikməyə. O qədər tikdi ki, axırda pəhlivan öldü. Yusif Ayyar pəhlivanı gecə çölə qoydu ki, donsun. Səhər donmuş pəhlivanı çadıra söykəyib başladı padşahı gəzməyə, elə ki, gördü padşah vəzir ilə gəlir, tez gedib onların qabağını kəsib dedi:

– Soyunub bu çayda çimməsəniz sizi xəstənin yanına buraxmaram. Padşahgil çox yalvardı, həkim razı olmadı, axırda soyunub girdilər suya. Həkim o dəqiqə onların paltarlarını götürüb çıxıb getdi. Gedib köhnə-cırıq paltar geyinib başladı o tərəflərdə hərlənməyə. Padşahgil çimib çıxanda gördülər ki, nə həkim var, nə də paltarlar. Padşah o dəqiqə bildi ki, yenə də Yusif Ayyarın kələyinə düşüb. Yan-yörəsinə baxanda gördü ki, bir uşaq oynayır, tez uşağı yanına çağırıb deyir ki, bala, get bizdən bir dəst mənə, bir dəst vəzirə paltar gətir, sənə qızıl verəcəm. Uşaq tez gedib paltarı alır, lakin aparıb vermir. Padşahgil o qədər gözdüyürlər ki, lap axşam olur, amma uşaq gəlib çıxmır. Axırda əlacları kəsilib bir səhər gedirlər evə. Padşah evə çatan kimi arvadına acıqlanıb deyir: "Niyə bizə paltar göndərmədin?" Padşah bilir ki, Yusif Ayyardı, amma üstünü vurmur.

İndi bunlar burda qalmaqda olsunlar, sizə xəbər verim padşahın ikinci qızından. Padşah ikinci qızını da 7 yol ayrıcında çadır qurdurub 40 incə qızla qoymuşdu ki, bəlkə Yusif Ayyar da qızlar su apardığı bulağın başına gələ. Qızlar topal aşığı görən kimi tutub apardılar xanımın yanına. Xanım aşığı görən kimi bir könüldən min könülə aşığa vuruldu. Atasının dediyi söz də yadından çıxdı. Aşıq qızlarnan oynayıb güldükdən sonra, axşam hərəsinə içinə bihuşdar qatılmış bir dənə xurma verir. Qızlar bihuş olur, yıxılırlar, aşıx tez aradan qaçır. Bu xəbər padşaha çatır, bilir ki, Yusif Ayyardı, bilmir ki, nə təhər eləsin ki, canı onun əlindən qurtarsın. Bu padşahın böyük qardaşı Hindistanda padşah idi. Xəbər ona çatanda o, qardaşına belə bir namə yazıb göndərir:

«Qardaş, sənə ar olsun ki, bir balaca uşağın əlində aciz qalmısan, həm özünü biyabır elədin, həm də məni».

Padşah bütün şəhərə car çəkdirib deyir: "Kimdi Yusif Ayyar, çıxsın üzə, and olsun bu Qurana, ona ölimi də vurmaram. Ancaq bir



şərtlə ki, gərək məni qardaşımın xəcalətindən qurtara. Camahatın içindən balaca bir oğlan çıxıb deyir ki, mənəm Yusif Ayyar. Sizi qardaşınızın xəcalətindən qurtararam. Onda gərək mənə bir dənə keçi dərisi verəsən hər tükündə bir zınqrov olsun, bir dənə də tabut düzəltdir. Padşah o dəqiqə bunun dediklərini hazır elətdirdi. Yusif Ayyar bunları götürüb üz qoydu Hindistana. Elə ki, gəlib padşah yaşayan şəhərə çatdı, öyrəndi ki, padşah səhər hamama gələcək tez hamamın bir küncündə dayanıb başladı padşahı gözləməyə. Elə ki axşam oldu, padşah gəldi hamama, çimib çıxan vaxt Yusif Ayyar keçi dərisinə bürünmüş halda kəsdi padşahın qabağını. Zınqrovların səsləndirib dedi: «Kəlmeyi-şəhadətini dilinə gətir, mən Azreyilam, canını alıram". Padşah başladı yalvarmağa ki, heç olmasa mənə 3 gün möhlət ver, gedim evimə, həm uşaqlarla görüşüm, həm də alınasımı alım, veriləsimi verim, sonra gəlim sənə fəda olum. Yusif Ayyar deyir get, ancaq 3-cü günü axşam səni burda gözdüyürəm. Padşah deyir yaxşı, gələrəm. Üç gün tamam olduqdan sonra axşam padşah gəlir. Yusif padşahı görən kimi zınqırovları səsləndirib deyir ki, uzan tabuta canını alıram. Padşah əsə-əsə tabuta uzanır. Yusif dedi ki, əyər mən dediklərimi o dünyada təkrar eləsən, səni cənnətə göndərəcəm, yox əyər mən dediklərimi təkrar eləməsən, səni qır qazanında yandıracam. Padşah deyir ki, yaxşı sənə fəda olum, sən nə desən mən onu deyəcəyəm. Yusif Ayyar dedi ki, indi mən o dün-yada dediklərimi indi deyəcəyəm, sən də təkrar elə, həm də yadında yaxşı saxla. Padşah dedi ki, yaxşı. Mən o dünyada sənə deyəcəyəm, ey-bəni insan, it kimi hür, onda sən də hür. Deyəcəyəm ey bəni insan, eşşək kimi anqır, ey bəni-insan xoruz kimi banla, ey bəni insan, donuz kimi xortda. Sən bunların hamısını eləsən, cənnətə gedəcəksən. Bunları dedikdən sonra Yusif Ayyar padşahı tabutda uzandırıb ağzını möhkəm-möhkəm qayırıb, Hindinstandan çıxdı, onu gətirib padşahın meydanına qoydu. Padşaha dedi ki, car çəkdir. Bütün camaatı yığ meydana, özün də gəl qardaşının başının üstündə otur ki, duranda əvvəlcə səni görsün. Padşah bütün şəhər əhlini meydana yığdıqdan sonra gəlib özü də oturdu tabutun başında.

Yusif Ayyar çubuqla tabutu vuraraq dedi:

–Ey bəni-insan, it kim hür, padşah başladı it kimi hürməyə.

–Ey bəni-insan, eşşək kimi anqır, padşah anqırdı.

–Ey bəni-insan, donuz kimi xortda, padşah xortdadı, bunların hamısını padşah dedikdən sonra Yusif Ayyar tabutun ağzını açıb dedi:

–Ey bəni-insan, dur cənnətin qapısı üzünə açıqdı, bu gündən sən cənnətdəsən.

Padşah duranda gördü kü, qardaşının ölkəsindədi, başının üstündə də qardaşı durub, bütün şəhər əhli də tamaşa edir. Padşah xacalətindən bilmədi ki, nə eləsin, başını aşağı salıb durdu.

Padşah dedi :

–Salam-əleyküm, qardaş, sən bizim ölkəyə xoş gəlib, səfa gətirmisən! Bü nə gündü düşmüsən, hencəri bu uşağın əlində aciz qalmısan?

Padşah başını yuxarı qaldırıb dedi:

–Bağışla məni qardaş, mən belə bilmirdim.

Bütün bu əhvalatdan sonra padşah Yusif Ayyara dedi:

İndi gəl sən mənim yerimdə padşah ol, mən də sənə vəzirin, həm də mənim qızımı verim.

Yusif Ayyar dedi:

–Padşah sağ olsun, mənim atamın varı, dövləti var, mən öz vətənimə gedəcəm, mənə heç nə lazım deyil.

Padşah 40 gün, qırx gecə toy edib qızını verdi Yusif Ayyara. Sonra bir gecə qızı gocavaya mindirib, Yusif Ayyarın vətəninə yola saldı.

Onlar yeyib, içib dünyadan köçdülər, biz də xoşbəxt olaq.

## XANLA NÖKƏRİN NAĞILI

Biri varmış, biri yoxmuş, bir xan varmış. Xan çox qəddar olur. Nökəri hər gün çox işlədir. Xan bir gün səfərə çıxan zaman nökərə deyir ki, mən səfərə gedirəm. Sənə bir tula verəcəyəm. Tula nə qədər yeri gəzsə, sən də həmin yeri şumlayarsan. Nökər razı olur, xan səfərə çıxır. Səhəri gün nökər öküzləri, xışı götürüb çölə gedir. Tulanı buraxır. Nökər görür ki, tula bütün yeri gəzir. Buraları şumlayıb qurtarmaq olmaz. Nökər tulanı yanına çağırır. Tulanı öldürür. Yeri şumlamağa başlayır. Axşam olanda tulanın hər qıçını bir küncə basdırır, evə qayıdır. Bir neçə gün keçdikdən sonra xan səfərdən qayıdır. Səfərdən qayıdandan sonra nökərdən soruşur: "Ay nökər yeri şumladınmı?" Nökər deyir, xan sağ olsun, tula gəzən yerləri şumlayıb qırağını da çəpərləmişəm. Nökərin bu hərəkəti xanın xoşuna gəlir.

Xan nökərə deyir ki, səhər işdəməyəcəksən. Qonaqlarımız olacaq. Sən qoyunları kəsərsən. Nökər çox sevinir. Səhəri günü xanın qonaqları gəlir. Nökər fürsətdən istifadə edib xanın bütün qoyunlarının başını kəsir. Bu vaxt xan nökərə deyir: "Nökər qoyunları kəsdinmi?" Nökər deyir, xan sağ olsun, qoyunların hamısını kəsmişəm. Qonaqlar gedəndən sonra xan nökərin etdiyi hərəkətdən xəbərdar olub, nökəri döyür. Nökərə deyir ki, buralardan çıx get, səndən mənə nökər olmaz.

Nökər bir müddət gəzəndən sonra yenə xanın yanına gəlir. Xan nökəri tanımır. Onu yenidən özünə nökər götürür. Günlərin bir günü xan ailəsi ilə birlikdə gəzməyə çıxır. Bir az gedənnən sonra xanın oğlu ağlamağa başlayır. Xan nökərə deyir, apar bunun ağlamağını kəs. Nökər uşağı aparıb, qılıncını çıxarıb uşağı kəsib gətirir. Xan bunu görən kimi nökərə deyir: "Nökər, bu nədir, uşağı niyə kəsmisən?" Nökər deyir, xan sağ olsun, sən dedin apar bunu kəs gətir, mən də kəsib gətirdim. Mənim ki taqsırım yoxdur. Xan nökərə heç bir şey etmir. Sonra oradan evə qayıdır. Xan öz-özünə deyir:

– Nökər, səni öldürmək mənim boynuma.

Bir gün nökər öküzləri tövlədən çıxardıb sulamağa aparır. Sulayıb gətirəndən sonra yadına düşür ki, xan demişdi qapını açmamış öküzləri içəri salsın. Keçəl tövlənin arxasından bir deşik açır. Sonra qılıncını çıxarıb öküzləri doğramağa başlayır. Doğrayıb qurtardıqdan sonra tövlənin deşiyindən öküzlərin şaqqalarını bir-bir içəri tullayır. Sonra yeddi-səkkiz canlı pişik tapıb tövlənin deşiyindən içəri salır. Sonra xanın yanına gəlir. Xan deyir: "Öküzləri suladınmı?" Nökər dedi: "Bəli xan, öküzləri sulayıb gətirdim. Tövlənin arxasından içəri saldım. Qabaqlarına ot qoydum. İndi ot yeyirlər. İnanmırsan, gedək baxaq". Xan tövlənin qapısının yanına qədər gəlir, eşidir ki, içəridən səs gəlir. Qapının yanından qayıdır. Səhəri gün xan nökərə deyir, öküzləri aparıb sula gətir. Nökər tövlənin yanına gəlir. Tövlənin qapısını açıb içəridəki pişikləri çölə buraxır. Qapını bağlayıb xana deyir: "Xan, öküzlər, tövlədə deyil. Öküzləri oğurlayıblar". Xan əmr verir ki, öküzləri axtarsınlar. Nə qədər gəzirlərsə, öküzləri tapa bilmirlər. Axşam hamı kor-peşman evə qayıdır. Xan eşidir ki, öküzləri tapmayıblar. Xan axşam arvadına deyir ki, səhər tezdən ağaca çıxıb qu-qu eləsin. Arvad səhər ağaca çıxıb qu-qu eləməyə başlayır. Xan bunu eşidən kimi nökərə deyir, qu-qu gəlibdir. Gəl sənin haqqını verim çıx get. Heç demə axşam xanla arvadı danışan zaman nökər bunları eşidib. Nökər deyir: "Bu dəqiqə mən ağaca çıxıb onu öldürəcəyəm. Görüm qu-qu nə tez gəlibdir..."

Bu vaxt xan görür ki, nökər qılıncını çıxarıb ağaca yaxınlaşır. Xan tez nökəri tutub saxlayır. Keçəli ağaca çıxmağa qoymur. Onu evə apa-

rır. Bir azdan sonra xanın arvadı evə gəlir. Xan soruşur: "Sən indiyə qədər harada idin?" Arvad deyir ki, mən qonşunun yanına getmişdim. Xanın bu fikri də baş tutmur. Xan nə qədər fikirləşirsə, heç bir şey çıxmır. Belə qərara gəlir ki, bu vilayətdən çıxıb getsin. Axşam yatan zaman xan arvadına deyir ki, sən nökər yatan kimi ayağa dur. Sonra iki xurcun fəsəli bişir. Amma elə elə nökər bilməsin. Nökər bilsə, iş düz gətirməyəcək. Bunlar deyəni nökər eşidirmiş. Nökər özünü yalandan yuxuluğa qoyur. Arvad görür ki, nökər yatıbdır. Ayağa durur, fəsəli bişirməyə başlayır. Fəsəlini bişirib qurtardıqdan sonra yatır. Nökər yerindən durub, xurcunun birin boşaldır. Özü xurcunun içinə girib fəsəliləri başının üstünə qoyur. Səhərə yaxın xan arvadını durquzur. İki eşşək gətirib xurcunları eşşəyə yükləyir. Sonra yavaş-yavaş yol getməyə başlayırlar. Yol getdikləri zaman xan arvadına deyir: "Nə yaxşı keçəli başımızdan elədik. İndi gedib başqa vilayətdə rahat dolanarıq". Bunlar bir qədər gedənnən sonra yolda bunlara bir dəstə it rast gəlir. İtlər bunlara hücum etməyə başlayır. İtlər hücum edən zaman xan arvadına deyir: "Arvad nə edək? Heç olmasa nökər də burda yoxdur. Bu dəqiqə itlər bizi parçalayacaq". Bu zaman nökər qışqırmağa başlayır: "Xan, qoyma, itlər məni yedi". Xan öz-özünə deyir: "Nökər burda nə gəzir?" Xan deyir: – "Nökər haradasan?" Nökər deyir: "Boz eşşəyin qarnında". Xan qılıncını çıxardıb boz eşşəyi öldürür. Bu vaxt xan görür ki, keçəl xurcunun içindən çıxır. Xan deyir: "Yaxşı əlimə düşmüsən. Səni bu gecə nə təhər olsa, öldürəcəm". Boz eşşəyin yükünü o biri eşşəyə yükləyib yollarına davam etməyə başlayırlar. Axşam olur. Bunlar gecələməyi çayın yanında məsləhət görürlər. Axşam fəsəlidən yeyib qurtarandan sonra xan arvadına deyir: "Arvad, nökərin yerini çayın qırağında, özününkünü nökərin bu tərəfindən, mənimkini isə öz yerinin yanında sal". Nökər bütün işləri başa düşür. Bilir ki, yatan kimi onu çaya atacaqlar. Bunlar yatmağa başlayırlar. Gecənin bir vaxtında nökər yerindən durub arvadın yerilə öz yerini dəyişdirir. Bir qədər keçəndən sonra xan durub nökəri dümsükləməyə başlayır. Elə bilir ki, öz arvadıdır. Keçəl tez ayağa durur. Xan arvadının ayağından, nökər arvadın başından tutub çaya atırlar. Səhər açılanda xan yerindən durur. Elə bilir ki, nökəri çaya atıblar. Arvadının yerində yatan nökəri durğuzur. Bu vaxt görür ki, arvad deyil, nökərdir.

Xan nökərə deyir: "Hə olan-oldu, keçən keçdi. İndi elə bil ki, mən sənin atan, sən də mənim oğlum". Xanla nökər yollarını davam etdirirlər. Bir qədər getdikdən sonra xan nökərə deyir: "Keçəl, bir



az istirahət eliyək. Həm də sən məni çimizdir, mən də səni". Nökər iri qazan götürüb içini su ilə doldurub suyu qaynadır. Sonra sudan azca götürüb xanın başından aşağı tökür. Xan deyir, su yaman soyuqdur. Bir az isti elə. Nökər qazandakı qaynar suyu gətirib hamısını xanın başından tökür. Xanı öldürür. Sonra xanın paltarını geyindirib eşşəyin üstünə qoyur. Bir az gedənnən sonra xan eşşəyin üstündən yerə yıxılır. Nökər xanı yenə eşşəyin üstünə qoyub onu kəndirlə bağlayır. Sonra yolunu davam etdirir. Nökər görür ki, qabaqda bir xırman var. Nökər eşşəyi xırmana tərəf sürüb özü isə kolun dalında gizlənir. Xırmana araba ilə arpa, buğda gətirirlər. Bu zaman xırmandar görür ki, eşşəyin üstündə bir kişi eşşəyi arpanın üstünə sürür. Xırmandar deyir ki, ay kişi, görmürsən eşşək arpanı yeyir. Eşşək yenə yerindən tərpənmir. Yenə deyir: "Ay kişi, görmürsən eşşək arpanı yeyir". Eşşək yenə yerindən tərpənmir. Bu zaman xırmandar bir ağacla eşşəyi vurur. Xan yerə yıxılır.

Bu vaxt nökər kolun dalından çıxıb ağlaya-ağlaya xırmandara deyir: "Bu dəqiqə gedib şikayət eləyəcəyəm. Sən mənim atamı öldürmüsən".

Xırmandar nökərə yalvarmağa başlayır: – "Heç kəsə demə, mən sənə nə istəsən verərəm". Nökər deyir:

"Mən heç bir şey istəmirəm. Mən atamı istəyirəm. Mənə heç bir şey lazım deyil". Xırmandar yenə yalvarmağa başlayır. Nökər deyir: "Mənə bir ev, sonra yeddi araba buğda, yeddi araba arpa, on dənə qızıl verəcəksənsə, heç kəsə deməyəcəyəm". Xırmandar yalvarmağa başlayır:

–"Dediklərinin hamısını verirəm. Ancaq heç kimə demə". Nökərə əvvəl ev verir. Sonra deyir ki, səhər tezdən sənin dediklərini göndərəcəm. Nökər rahat evdə yatır, səhər tezdən yeddi araba buğda, yeddi araba arpa, qızıl, gümüş gətirirlər. Nökər bunların hamsını götürüb yavaş-yavaş yaşamağa başlayır. Sonra arabaçıları yola salır. Aldığı qızıllarla burada kefi kök, damağı çağ ömrünün axırına qədər yaşamağa başlayır.

## EVİ KİM TİKƏR?

Biri varmış, biri yoxmuş, bir padşah varmış. Bu padşahın isə yeganə bir qızı varmış. Bir gün padşah nahar etdikdən sonra arvadından soruşur ki, ay arvad, evi kim tikər? Anasından qabaq qız cavab

verir ki, ata, evi arvad tikər.

Padşah buna çox qəzəblənir. İkinci gün yenə də nahardan sonra sual verir ki, arvad, evi kim tikər, yenə də qız cavab verir ki, ata evi arvad tikər. Padşah qəzəblənərək vəzirə, vəkilə əmr edir ki, bu qızı aparıb bir uzaq yerdə öldürüb qanlı paltarını mənə gətirərsiniz.

Bunlar qızı götürüb uzaq bir meşəyə yollanırlar. Meşəyə çatdıqda görürlər ki, burada iki nəfər paltarsız adam gəzir. Vəzir bunları çağırıb qızı bunlara tapşırır, özləri isə bir quş vurub qızın paltarını qana bulayıb geriyə qayıdırlar.

Bunlar getdikdən sonra qız oğlana bir tük verir. Deyir ki, get meşənin kənarında bunu yandır, o dəqiqə bir nəfər adam yanında hazır olacaqdır. Ondan iki dəst libas al gətir. Oğlan belə edir, libası gətirib qıza verir.

Səhərisi gün qız oğlana deyir ki, indi sən get mənə iki şahı gətir. Oğlan yola düşür gedir. Səhərdən axşamadək dilənir, iki şahı ilə yenidən meşəyə qayıdır.

Səhərisi gün yenə də Pəri xanım buna deyir ki, bu gün üç şahı gətirməlisən. Oğlan yenə də gedir. Diləndiyi zaman bir nəfər ona deyir ki, burada dilənməkdənsə, gedək mənim bir az yerim var, onu bellə, mən sonə bir manat verim. Oğlan onun sözünə razı olur. Gedib işi görür, axşam bir manatını alıb, yenidən meşəyə qayıdır.

Qız görür ki, bu oğlan yavaş-yavaş çox pul qazanmağa başlayır. Bir gün meşənin kənarı ilə bir karvan getdiyini görürlər. Karvanbaşı oğlanı görüb onun onlar ilə başqa vilayətə qazanca getməyini təklif edir. Oğlan karvanbaşını Pəri xanımın yanına aparır onunla razılaşmağı təklif edir. Pəri xanım karvanbaşı ilə şərt kəsir ki, mən İsrafilin səninlə getməyinə razıyam, ancaq altı aydan sonra qazancın üçdə bir hissəsini İsrafilə verəcəksən. Karvanbaşı çox xəsis eyni zamanda qəddar adam olur. O, buna razı olur, ancaq ürəyində fikirləşir ki, bunu alver edib qayıdandan sonra yolda bir bəhanə ilə ya öldürər, ya bir təhər edər. Ona görə də Pəri xanımla razılaşıb İsrafili də götürüb yola düşürlər. Karvan yola düşüb iki gündən sonra bir şəhərə çatır. Bu şəhərdə alver edib yenidən başqa bir vilayətə səfər edirlər. Birinci şəhərdə bunların alveri yaxşı gedir. Karvanbaşı yol gedərkən İsrafili hansı yolla məhv edəcəyi haqqında düşünür.

O, bu fikirdə ikən karvan susuz bir səhradan keçirmiş. Həmin səhrada da bir quyu varmış ki, həmin quyudan karvanın qəflə-qatırı su içərmiş. Suyu isə quyudan böyük bir qab ilə bir adam çıxartmalı imiş.



Karvan quyunun başına yetişdiyi zaman karvanbaşı əmr edir ki, suyu quyudan İsrafil çıxartsın.

Onu həmin böyük qabın içinə qoyub quyuya sallayırlar. İsrafil qabı su ilə doldurur, yuxarıdan çəkirlər. Beləliklə, bütün karvanın adamları həm də qəflə-qatır su içdikdən sonra İsrafili çəkib yarı yolda ipini kəsirlər. O, bir müddət quyunun dibində otürüb gözləyir. O, başa düşür ki, onu xəyanətlə bura atmışlar.

İsrafil durub quyunun su gələn tərəfinə gedir. Xeyli getdikdən sonra bu quyunun tilsimli bir quyu olduğunu başa düşür. O, görür ki, burada bir əcayib adam oturub. Adam İsrafili görən kimi onu yanına çağırıb deyir: "Səndən bir söz soruşacam, əgər mənə düzgün cavab verməsən səni öldürəcəyəm". İsrafil çox ağıllı olduğu üçün onun sözü ilə razılaşır.

Həmin əcayib adam İsrafildən soruşur ki, sən mənə de görüm dünyada nə gözəldir? İsrafil cavab verir ki, könül sevəndən gözəl heç nə yoxdur.

Əcayib adam bu cavabdan çox xoşlanır, ona iki nar verib deyir ki, bu narları aparıb evdə kəsərsən. Onu öyrədir ki, gedib oturarsan həmin quyunun ağzında, İki gündən sonra oradan bir karvan keçəcək. Onlar həmin quyudan su götürəndə sən quyuya düşən adamdan əvvəl həmin su qabına gir. Səni yuxarı çəkərlər.

İsrafil quyunun ağzına yollanır. İki gün gözlədikdən sonra quyunun ağzında səs-küy gəldiyini eşidib sevinir. Aşağı düşən adam quyuya çatanda İsrafili görüb çox qorxur. İsrafil isə başına gələn əhvalatı buna danışır, onun quyudan çıxarılmasını xahiş edir.

Onlar qəflə-qatırı suladıqdan sonra birinci olaraq su qabına İsrafil girir, onu yuxarı çəkirlər. O, başına gələn əhvalatı karvan adamlarına danışır.

Sonra quyudakı adamı da çəkirlər. İsrafil həmin karvana qoşulub bir neçə aydan sonra gəlib Pəri xanımın yanına çatır. O, başına gələnləri söylədikdən sonra narları ona verir. Pəri xanım narların sehirli olduğunu o dəqiqə bilir, narın birin kəsir. Görürlər ki, narın içərisi nar dənəsi yox, ən qiymətli ləl-cəvahiratla doludur. Bunnan sonra Pəri xanım İsrafili şəhərə yollayıb ən məşhur ustaları çağırmasını tapşırır.

İsrafil gedib şəhərdən ən məhşur ustaları yığıb meşəyə gətirir. Burada böyük bir imarət başladırlar.

İmarət tikilib qurtardıqdan sonra onun içərisini gözəl bəzəyirlər. Bir

neçə müddətdən sonra padşaha xəbər çatır ki, onun vilayətində padşahın sarayından da böyük, gözəl bir imarət tikilib. Odur ki, bunu eşidən padşah vəzir, vəkilə əmr edir ki, qoşun hazır olsun, gedək görək bu necə işdir ki, mənim sarayım onun yanında balaca bir dama oxşayır.

Onlar yola düşüb xeyli getdikdən sonra Pəri xanımın tikdirdiyi imarətə yetişirlər. Nökərlər padşahı saraya aparırlar. Padşah saraya daxil olur, görür ki, doğrudan da burada böyük bir cah-cəlal vardır.

Pəri xanım padşahın adamları üçün böyük bir məclis düzəltdirir. O, İsrafilə padşaha layiq bir libas geyindirib məclisin başında əyləşdirir. Pəri xanım isə bir pərdə dalında əyləşib padşaha tamaşa edirdi. Məclis qurtardıqdan sonra Pəri xanım pərdənin dalından padşaha sual verir ki, qibleyi-aləm sağ olsun, sənə mənim bir sualım var. De görüm evi kim tikər? Padşah bu sualı eşidən kimi, bu sual üstündə əziz bir balasını məhv etdiyini yadına salıb dərin fikrə gedir, sualı cavabsız qoyur. Bu zaman Pəri xanım pərdənin dalından çıxıb həmin suala cavab verib deyir ki, qibleyi-aləm, indi gördün ki, evi arvad tikər. Padşah Pəri xanımın sağ qalmasını görüb çox sevinir. Məclis yenidən qurulur. Yeddi gün, yeddi gecə toy edib Pəri xanımı İsrafilə verirlər.

## ŞƏRABANI XANIMIN NAĞILI

Biri vardı, biri yoxdu, bir padşah varıydı. Bu padşahın adı Zülal padşah idi. Padşahın iki oğlu var idi. Birinin adı Əhməd, birinin adı İbrahim idi. Bir gün padşah ölür, bunun arvadı bir yəhudi ilə evlənir. Yəhudi çox qaniçən idi. Arvadın bir dövlət quşu var idi. Bir gün arvad quşu kəsdirib aş bişirəndə quşun başı ilə ürəyini, ciyərlərini bişirib verir oğlanlarına. Quşu isə bütöv verir yəhudiyə. Yəhudi deyir ki, quşun başı ilə ürək, ciyərini neyləmisənsə ver! Arvad deyir ki, verdim uşaqlara, yedilər. Yəhudi deyir ki, bu saat onları öldürüb quşun başı ilə ürək-ciyərlərini çıxart ver mənə.

Arvad buna razı olur. Elə bu zaman böyük qardaş qapıdan bu sözləri eşidib qayıdıb əhvalatı kiçik qardaşına danışır. Sən demə quşun başını yeyən padşah, ürək-ciyərini yeyən isə həm gözəl, həm də yaxşı oxuyan olurmuş. Qardaşlar bunu eşidən kimi baş götürüb vilayətdən çıxırlar. Böyük qardaş Əhməd görür ki, kiçik qardaş İbrahim yorulubdur. Deyir ki, sən otur burada, mən gedim o görünən kənddən bir az çörək tapıb gətirim ye, taqətə gəl. Əhməd gəlib bir kəndə çatır. Görür ki, padşah ölüb, yerinə padşah seçmək üçün quş uçur-



durlar. Quş uçub qonur Əhmədin başına. Camaat baxıb görür ki, bu qəribdir, odur ki, bunu tutub bir samanlığa salır, quşu təzədən uçururlar. Quş uçub bir deşikdən yenə girir içəri, qonur Əhmədin başına. Camaat deyir ki, gəlin qulaq asaq görək bu oğlan quşa nə deyəcək? Görürlər ki, Əhməd quşu sığallayıb deyir ki, ay quş niyə özünü yorursan, Allah istəsəydi elə məni atamın yerində şah edərdi. Camaat görür ki, bu padşah oğludur. Gətirif bunu padşah seçirlər.

Bu burada qalsın, görək İbrahimin başına nə gəldi? İbrahim günbəzin içində oturub gözəl səslə oxuyurmuş. Bu zaman buradan 40 haramı gəlib keçirmiş, bunların başçısı deyir ki, mənim övladım yoxdu, əgər bu oğlan uşağı olsa mənim, yox əgər karvan-zad olsa qarət edək, sizin olsun. Bunlar razı olurlar. Onlar baxıb görürlər ki, bu, gözəl bir oğlandır. Başçı bunu götürüb aparır evinə, bir daha quldurluğa getmir. Bunun qalan yoldaşları bir qarını öyrədirlər ki, get haramı başının arvadına de ki, bəs bu oğlanı evə saldığına görə camaat sizi sözə qoyur, deyir ki, sən onunla yaşayırsan.

Qarı gəlib bu sözləri haramıbaşının arvadına deyən kimi, arvad ərinə dirənir ki, tez ol bunu bu evdən rədd et getsin, ya da öldür. Haramıbaşı İbrahimi öldürməyə qoymayıb onu bazarda azdırır.

İbrahim gəlib bir halvaçı dukanının qabağında dayanır. Halvaçı soruşur ki, ay bala, nə istəyirsən, burda niyə durursan? İbrahim deyir ki, heç kəsim yoxdur. Getməyə yerim yoxdur, onun üçün burada durmuşam. Halvaçı İbrahimi özünə şagird götürür. Bu da burada işləməkdə olsun, sənə xəbər verim yəhudidən.

Bir nəfər yəhudi Dağıstan xanı Hüseyn qızı Şərabanı xanıma aşiq olubmuş, lakin qızı buna vermirlərmiş. Bu yəhudi gəlib bazarda İbrahimi görən kimi fikirləşir ki, bu oğlan çox gözəldir, xan qızını bu oğlana verər, sonra bunu öldürüb qızı alaram.

Yəhudi bu fikirlərlə halvaçıya bir qab halva bişirməyi tapşırıb deyir ki, filan yerdə gözləyirəm, ver şagirdə gətirib pulunu aparsın. Halvaçı razı olur. İbrahim halvanı aparan kimi yəhudi bunu tutub salır sandığa, düz aparır Hüseyn xanın sarayına. Hüseyn xan oğlanı görən kimi Şərəbanı xanımı verir ona. Yəhudi Hüseyn xana deyir ki, bu mənim oğlumdur, mən qızı buna alıram. Nəysə, qızı burdan götürüb gedib minirlər bir gəmiyə.

Yəhudi istəyir ki, İbrahimi öldürsün qolu quruyur, öldürə bilmir. Şərəbanı xanım deyir ki, qoy bunu mən öz bildiyim kimi cəzalandırım. Kişi razı olur. Şərəbanı xanım İbrahimi qoyur sandığa. Sandığın

ağzını mum ilə sıvayır, atır dəryanın üzünə. Özləri isə çıxıb gedirlər. Bunlar getməkdə olsun, İbrahim isə suyun üzündə, görək Əhməd şah necə oldu.

Əhməd şahın birdən yadına düşür ki, axı qardaşı bunu gözləyir. Camaatı yığıb deyir ki, biz hər cümə axşamı qəbirstanlığı ziyarət etməliyik. Camaat bundan çox razı qalır. Onlar yığılıb gedirlər qəbirstanlığa. Əhməd şah baxıb görür ki, nə qardaşı var, nə də heç kəs. Kor-peşman qayıdıb gəlir. Bütün körpüləri, gəmiləri, yeməkxanaları pulsuz edir ki, qardaşının pulu olmaz, acından ölər.

İndi görək İbrahim necə oldu. İbrahim suyun üzündə o qədər qalır ki, sandıq qırılır, o qalır bir dənə balaca taxtanın üstündə, Allaha yalvarır ki, bir az ləpə olsun, vurub qırağa çıxsın. Elə bu zaman ləpə vurub bunu bir qamışlığa salır. Sən demə burada bir çoban Əhməd şahın sürüsünü otarırmış. İbrahim qamışlıqdan çıxanda qoyunlar hürkürlər. Çoban gəlib İbrahimi döyür ki, niyə qoyunları hürküdürsən? O deyir ki, bunu qəsdən eləmədim.

Çoban İbrahimi özünə köməkçi götürür. Bir gün bunlar gedirlər bazara ki, İbrahimə paltar alsınlar. Bunlar bazarda olsun, görək yəhudi ilə Şərəbanı xanım necə oldular. Bunlar gəlib çıxdılar Əhməd şahın vilayətinə. Şərəbanı əmr edir ki, elə bir ev tikdir ki, oraya heç kim çıxa bilməsin, yeddi illik yemək-içmək azuqəsin də qoy oraya, daha yeddi il oradan düşməyək. Yəhudi buna razı olub xanımın dediyi kimi bir ev tikdirir, yeddi illik yemək-içməyi də yığır içinə. Şərəbanı xanıma deyir ki, indi ev hazırdır, gəl evlənək. Şərəbanı xanım deyir yaxşı, onda qoy mən əvvəlcə çıxım, sonra sən dalımca çıx.

Elə Şərəbanı xanım yuxarı çıxan kimi pilləkənı qaldırır yuxarı, yəhudi qalır aşağıda. Yəhudiyə deyir ki, nə zaman əlimlə tikib İbrahimə geyindirdiyim köynəyi onun qanına bulayıb gətirsən, onda səninlə evlənəcəm. Yəhudi düşür İbrahimi axtarmağa. Gəlib bazarda görür ki, çobanla İbrahim qoyun satırlar. Qoyunun pulunu artıqlaması ilə verib çobandan xahiş edir ki, qoy uşaq mənə kömək etsin, qoyunları qəssabxanaya aparım. Yenə tez göndərərəm. Çoban razı olur.

Yəhudi İbrahimdən qabaq girir qəssabın yanına, tapşırır ki, uşaq içəri girən kimi onu öldür, köynəyini qanına bula, ver mənə. Qəssab deyir ki, "yaxşı". İbrahim içəri girən kimi qəssab bunu tutub yıxır yerə, başın kəsmək istəyəndə görür ki, bunun gözləri Əhməd şahın gözlərinə oxşayır. Fikirləşir ki, bu oğlan Əhməd şahın qohumu olar, ondan sonra nəslimi yer üzündən götürdər. Tez oğlanın köynəyini



soyundurub bir qoyunun qanına bulayıb oğlanı dal qapıdan buraxır. Köynəyi isə verir yəhudiyə.

İbrahim gəlib Şərəbanı xanımın evinin qabağından keçəndə Şərəbanı xanım onu səsləyir. Pilləkəni yendirib İbrahimi çıxarır yanına. Onu çimdirib, geyindirib, oturdur yanında. Bir də görür ki, yəhudi tərə batmış, köynək əlində gəlir. Gəlib deyir ki, ala bu da İbrahimin köynəyidi, indi pilləkəni yendir, çıxım yanına.

Şərəbanı xanım deyir ki, rədd ol buradan, budu İbrahim oturub yanımda. Bunu görən yəhudi başına bir az ot dolayıb gedir Əhməd şahın hüzuruna.

Əhməd şah eyvandan bunu görüb əmr edir ki, onu gətirin bura, görək o niyə özünü yandırır?

Yəhudini gətirirlər, o deyir ki, bəs bir dənə oğlan arvadımı əlimdən aldı, özümü də evdən qovdu.

Elə bu zaman çoban, halvaçı, qəssab ilə harambaşı da İbrahimi axtara-axtara gəlib çıxırlar buraya. Qəssab işi başa düşür. Deyir ki, şah sağ olsun, sən adam göndər oğlanı gətirsin, ancaq içəridən çölə heç kəsi qoyma çıxsın. Şah belə də edir. Vəzir Rzanı göndərir İbrahimin dalınca.

Vəzir gedib Şərəbanı xanımdan İbrahimi tələb edir. Şərəbanı xanım deyir ki, al İbrahimi apar, ancaq sənə sözüm var:

- Rza, mən səndən razıyam. Dağıstanda Hüseyn xanın qızıyam. Bağrımın başı döndü qana, ey vəzir, İbrahimi salamat götür Əhməd şahın yanına. İlahidən bir od düşsün yəhudinin canına.

Vəzir İbrahimi gətirir şahın hüzuruna. İbrahim qardaşını tanıyır, lakin Əhməd onu tanımır. Əhməd şah deyir ki, oğlan nə üçün bunun arvadını əlindən almısan? İbrahim deyir ki, şah sağ olsun, icazə ver danışım. Şah izn verir.

İbrahim deyir:

Biz Zülal şah oğluyduq iki qardaş,
Vətəndən, eldən çıxdıq biz iki qardaş.

Elə bunu deyən kimi Əhməd şahın ürəyi gedir. Yəhudi tələb edir ki, tez onu öldürün, nə dedisə şahın ürəyi getdi. Vəzir razı olmur. Deyir qoy şah özü ayılsın, nə edərsə özü bilər.

Bu zaman şah ayılıb qardaşından bütün əhvalatı öyrənir. Yəhudi ilə gəmi sürənin boynunu vurdurur. Sürünü bağışlayır çobana, qəssabı dünya malından qane edir, harambaşıya da çox yaxşılıq edir. 40

gün, 40 gecə toy edib Şərəbanını alır, İbrahimlə bir yerdə şad-xürrəm yaşayırlar.

## TACİRLƏ DƏRVİŞ

Biri varıymış, biri yoxuymuş. Gülcahan şəhərində bir tacir varıymış. Tacirin arvadı özünü tacirə o qədər inandırmışdı ki, tacir deyirdi ki, varsa da, yoxsa da Gülcahan şəhərində mömün, müqəddəs mənim arvadımdır. Amma tacir bilmirdi ki, arvadın aşnası da var. Bir günləri arvad aşnasına dedi ki, gəl bu kişini uzaq bir səfərə göndərək, biz də bir rahat oturaq, söhbət edək. Arvad ikinci günü aşağıda oturub fikirləşdi: "Mən nətəri ölçü götürüm ki, kişinin gəlməyi bir ay çəksin". Arvad qərara gəlib qayçı ilə çuxasının bir qırağından kəsib qırağa qoydu. Kişi günorta nahara gələn zamanda gördü ki,arvad namaz qılır. Amma çuxasının bir parçası yoxdu. Kişi bunu görən kimi çox təşvişə düşdü. Arvad namazını qurtarandan sonra soruşdu:

–Çuxanın qırağına nə oldu?

Arvad söylədi:

–Günaşıda oturan zamanında bir erkək pişik mundarladı. Ona görə də kəsdim.

Kişi soruşdu:

–Bəyəm arvad, erkək pişik mundardı?

–A kişi, sən nə danışırsan?! Mənim, üçün erkək sərçə də mundardır.

Kişi soruşdu:

–Arvad, mən neynim onda?

–Heç bir şey lazım döyül.

– Yox-yox, nə danışırsan, mən səni çuxasız qoymaram. El baxıb nə deyər mana? Bu mömün, müqəddəs arvadı kişi gör nə libasla saxlayır? Kişi:

– Arvad, mana sovqat qayır, mən gedəjəm Təbrizə, sana çuxa alajam.

–Yox-yox kişi, nə zəhmət çəkirsən!

Guya arvad buna razı olmadı. Sonra sovqat hazırlayıb kişini yola saldı. Kişi ala toran Təbrizə yetişib gördü ki, bəzzazın tükəni açıqdı. Bəzzaz olduğundan o parçadan olmadığını dedi:

Kişi, bu parçadan məndə yoxdu.

İkinci bəzzazı gözətdədi. Dükan açılan kimi kişi bəzzaza yaxınlaşıb:

–Sizdən xahiş edirəm, bəlkə bu parçadan ola? Bəzzaz cavab verdi:

–Neçə top lazımdı? - deyə ona bənzər parçalar göstərdi.

Kişi dinmədi.

Bəzzaz:

–Parçamız xoşuna gəlmədi?

Tacir cavab verdi:

–Yox, bu parça boyda lazımdı-deyə evdən gətirdiyi parçanı göstərdi. Bu bəzzaz balaca parça olduğundan o saat tacirdən soruşdu:

–Neynirsən bu boyda?

Tacir cavab verdi:

–Bizim arvad eyvanda oturduğu zaman «erkək pişik» mundarlamış, ona görə də arvad çuxasının bir qırağını kəsmişdi. Dübarə bu sözü eşidən bəzzaz taciri şəhərdə məhşur olan başqa bir bəzzazın yanına göndərdi. Bəzzazın yanına çatan kimi bəzzaz tacirdən soruşdu:

–Xeyr ola, nə var?

Tacir əhvalatı söyləyəndən sonra bəzzaz bildi ki, bunun arvadının aşnası var. Bəzzaz dedi:

-A kişi nə danışırsan? Bu parçadan məndə beş tonuydu, bunu dünən İsfahanlı Murtuzalı adlı tacirə verdim, apardı. Kişi bikef öyünə qayıtdı. Arvad soruşdu:

–Kişi nə oldu?

Kişi cavab verdi:

–Arvad, getdim bəzzazı tapdım, dedi ki, bu parçadan varıydı. İsfahanda Murtuzalı adlı bir tacir var, o apardı. İndi mən İsfahana gedirəm. Arvad özünü naza çəkdi, kişini daha da inandırdı.

Kişi əl çəkmədi, arvadın isə Allahından idi. Arvad kişiyə sovqat qayırmaqda olsun, sizə kimdən danışım, arvadın aşnasından. Həmin gün aşna gəlib dedi:

-Nətəri elədin?

-Hey, kişiyə bir iş düzəltmişəm ki, heç bir aya da qayıtmaz. Aşna dedi ki, kişin günorta gələndə denən ki, eşikdən gir rəzə qayırarsan, gedəndə eşikdən qapını qıfıl ilə bağlarsan, gələndə isə qapını döyər, açarsan.

İndi sizə kimdən deyim, tacirdən. Tacir evə gələndə arvadı aşnasının sözlərini kişiyə söylədi. Kişi isə səhər dəmirçidən bir rəzə, bir qıfıl aldı, bir dülgər gətirib onu düzəltdirdi. Bundan sonra aşnası

rahat gəlif-gedərdi.
Aşna dedi ki, kişini yola salanda qoy itini də aparsın. Mən gələn zaman səs-küy edir. Arvad isə sovqatı kişi ilə itə qayırdı, kişini həm də iti yola saldı. Kişi İsfahana yola düşdü. Bir neçə gün yoluna davam edəndən sonra dörd yolun ayrıcına çıxdı. Nolasıdı, bir neçə gün yol getdiyindən yornux halda dörd yolun ayrıcında oturub, huşa getdi. Bu zaman it çox bərk hürdü. İtin səsinə kişi ayıldı, gördü bir atlı gəlir, öz-özünə dedi:
–Gör arvad məni nə qədər istəyir ki, bu iti mənim yanıma saldı, yoxsa bu atlı məni öldürəcəkdi.
Atlı kişiyə yaxınlaşıb soruşdu:
–A kişi haraya gedirsən?
–İsfahana.
–Nə var, xeyir olsun! Bu iti nə gəzdirirsən?
Arvadım dedi ki, yollar qorxuludur, yanınca apar.
–Nə məcbur edib?
–Heç, sağlığına bu parçadan bir az alajam.
–A kişi, bu parçadan Təbrizdə, Tehranda tapılmır ki, sən İsfahana gedirsən?
–Nə bilim, bəzzazdan soruşdum, dedi ki, bir neçə top var idi, İsfahana göndərdim.
A kişi, dur iti də burax gedək.
Kişi dünyagörmüş bir dərviş idi. Dərviş başa düşdü ki, bu tacirin arvadının aşnası var. Dərviş tacirə dedi ki, arvadının aşnası var. Tacir dedi:
-Yox-yox, mənim arvadım mömin, müqəddəs arvaddır. Dərviş əl çəkmədi.
Taciri də ata mindirdi, yola düşdülər, şəhərə çatdılar. Dərviş atı satıb, kişiyi də yanına aldı.
Deyirlər rəvayətə görə keçmiş zamanda dərviş cinsi hansı qapıya həsasını asarsa, o gecə orada qalmalı idi. Gəlib tacirin kəndinə çatdılar. Dərviş dedi:
–Sənin qapını mənə görkəz, həsamı asım. Tacir qapını görkəzdi.
-Tacir, indi mən sənin gözünü bağlayacağam ki, səni tanımasınlar. Qapını döyüb həsanı asdı. Bir qədər evdən aralandılar. Tacirin arvadı gəldi qapıya, gördü ki, dərviş həsasını asıfdı. Tez qayıdıf aşnasına dedi ki, nolujax, dərviş həsasını asıfdı, pişirdiyimiz burnumuzdan gələjəhdi. Nə bilir ki, aşnamsan, ərimsənmi?



Arvad pilo-çilo hazırladı. Bəli, dərviş ilə tacir evə daxil oldular. Arvad tez bunların hərəsinə bir stəkan çay qoydu. Aşnası isə qabağında bir stəkan çay, qəlyanını fısqırda-fısqırda yastığa söykənmişdi. Arvad isə qırğı kimi aşnanın qabağında çay qoymaqda, xörək çəkməkdə idi. Xörək çəkildi. Xörəyə "Bismillah" deyən zaman dərviş aşnanı elə vurdu ki, heç yerindən qalxa bilmədi, tacir isə arvadıyla aşnanı öldürdü.
–Kişi, indi inandınmı?
Kişi mətbəxdə yeri qazıb iki küpə qızıl çıxartdı. Qardaş, biri sənin, biri mənim, hara getsən gedək bir yerdə.
Dəviş dedi:
–Məndən sənə qardaş olmaz. Gətdim, görkəzdim, indi ki, gördün mömin, müqəddəs arvadının axırı nətəridir?!
Nə isə, dərviş bir yana, tacir qızılı götürüb, üz tutdu başqa bir padşahın torpağına. Getdi, neçə vaxtı başını bir təhər hərrədi. Sonra getdi çıxdı başqa bir padşahın şəhərinə. Bir neçə gün burda yaşadı. Günlərin bir günündə bir pinəçi ilə tanış oldu. Onun yanında söhbət eliyirdi. Pinəçi deyirdi:
–Qardaş, bilmirəm nə olan işdisə, şəhərdə var-dövlət qalmadı, hamısını quldurlar oğurladı, ancaq tapa bilmirlər.
Tacir isə nə olurdusa hamısını ürəyində saxlayırdı, heç kimə bir söz demirdi. Pinəçinin bir damı var idi, tacir orada qalırdı.
Bir gecə padşahın xəzinəsini apardılar. Pinəçinin evindən tutmuş hamının evini axtardılar. Ancaq Abidin evinə dəymirdilər. Abid isə özünü elə aparırdı ki, padşah elə bilirdi ki, varsa da Abiddi, yoxsa da. Ancaq bilmirdi ki, quldurlar Abidin evində yerləşir. Yenə də padşah hər yerə car çəkdi, xəzinə tapılmadı.
Pinəçinin işlədiyi yer elə bir görkəmli yerdə idi ki, hara gediləsi olsaydı, gərək oradan keçəydilər. Bir də gördü ki, o tərəfdən bir dəstə adam gəlir. Tacir təsbih çöyürə-çöyürə fikri bunlardaydı. Bir nəfər yolu süpürür, bir şəxs isə başına ağ salıb, sağ-solunda mömün adamlar bura gəlir. Tacir ürəyində dedi ki, burada iş var. Tacir dedi:
-Pinəçi qardaş, bu nə işdi?
– Şəhərin Abididir.
Tacir soruşdu:
–Yolu niyə süpürürlər, onun başına niyə ağ salıflar?
–O yolu süpürülər ki, ayağının altında qarışqa qalmasın, günahdır. Başına da ağ salıfdı ki, naməhrəm adam görməsin.

Tacir ürəyində dedi ki, vallah, bu da elə mənim arvadım kimi mömün, müqəddəsdi. İndi mən buna tədbir tökərəm. Axşam oldu. Pinəçi ilə tacir daxil oldular evə, çörək yeyib, çay içdikdən sonra tacir dedi:

–Pinəçi qardaş, sabah mən padşahın hüzuruna gedəjəm. Xəzinə aparanı tapajam.

Pinəçi dedi:

–Səni and verirəm öz canına, mənim öyümü dağıtma, get harada qalırsansa qal, mənim evimi dağıtma. Mənim balalarımı düzdə qoyma, padşah eşitsə mənim evimi yıxajax. Tacir dedi:

–Yaxşı getmərəm.

Sabah pinəçini yola salannan sonra yol başladı padşahın hüzuruna. Tacir qapını döyüb, dedi:

–Məni padşahın yanına buraxın, deyin bir nəfər gəlib. Padşah dedi ki, buraxın gəlsin. Padşah soruşdu:

–Kişi, xeyir olsun, nəyə gəlmisən?

–Padşah sağ olsun, sənnən xüsusi söhbətim var.

Padşah yanındakıları çölə çıxardıb, tacirnən söhbətə başladı. Tacir dedi:

-Padşah sağ olsun, sənin şəhərində olan oğurluqları, sənin xəzinəni aparanları mən taparam.

A kişi, nə danışırsan, səni dünya malından qane edərəm.

Padşah sağ olsun, mana bir şey lazım döyül, ancaq mən nə desəm, onu sən yerinə yetirərsən, Padşah dedi:

–Sənin əmrinə tabeyom, nə qədər qoşun desən taparam. Tacir dedi:

–Sənin şəhərinin abidinin evini mühasirəyə alarsan, abidi tutub buraya gətirərsən.

Padşah Abidi dustax şəklində bura gətirdi.

Abid məsələni başa düşən kimi:

–Padşah, nə danışırsan, göydən daş tökülər, sən mənim evimi yıxarsan. Padşah Abidin sözünə baxmayıb tacirin sözünə əməl etdi. Abidin evi axtarılan zaman qırx nəfər haramı çıxdı. Bundan sonra şəhərdə nə qədər oğurluq var idisə hamısı Abidin evindən çıxdı, bir də padşahın xəzinəsi çıxdı. Padşah tacirə dedi ki, indi səni özümə vəzir saxlayacağam. Tacir dedi: "Padşah sağ olsun, mənə heç bir şey lazım döyül. Sənin də Abidin mənim arvadım kimi Abid idi".

Padşah nə qədər dedisə, Tacir vəzirlikdə qalmadı, üz tutdu başqa şəhərin padşahının məmləkətinə.



## PADŞAHLA VƏZİRİN SƏYAHƏTİ

Biri var idi, biri yox idi. Keçmiş zamanlarda bir padşah var idi. Padşah öz vəziri ilə bir gün səyahətə çıxırlar. Bunlar qəbirstanlıqdan keçirdilər, gördülər ki, burda üç adam oturub. Padşah bunlardan soruşdu:

–Siz nəçisiniz?

Bunlar padşaha cavab verdilər ki, biz oğruyuq. Oğrular da qayıdıb bunlardan soruşdular:

– Bəs siz nəçisiniz?

Padşah da bunlara belə cavab verdi ki, biz də oğruyuq.

Sonra bunlar fikirləşdilər ki, hansı tərəfə oğurluğa gedək. Oğrular cavab verdi ki, biz gedirik padşahın xəzinəsini yarmağa.

Bu padşah soruşdu ki, siz nə sənətin sahibisiniz? Bunlardan birisi dedi ki, mən hara oğurluğa getsəm bütün xəzinənin qapıları mənim üzümə açıq olur. O birisindən soruşdu:

– Bəs sən nə işlə məşğulsan? O, cavab verdi ki, mən qaranlıq gecədə kimi görsəm, onu gündüz tanıyıram. O, birisindən soruşdu:

–Bəs sən nə sənətin sahibisən? O, da dedi ki, mən oğurluğa gedəndə it hürsə bilirəm ki, it nə deyir.

Bunlar padşahdan soruşdular ki, bəs siz nə sənətin sahibisiniz? Padşah cavab verdi ki, mən qıçımın sol tərəfini tərpətsəm şəhərlə kəndin bir tərəfini xaraba qoyaram. Qıçımın sağ tərəfini tərpətsəm isə camaata, rəhm eyləyib, vergidən, istismardan azad edərəm. Bu üç oğru gedib padşahın xəzinəsinin qapısının ağzına çatanda xəzinəsinin qapısı açılır. Bu qapı açılanda balaca bir it hürür. Böyük it qalxıb, bunu boğub deyir:

"Gələnin özü görmürmü? Sən niyə hürürsən?"

Bunlar padşahın xəzinəsini yarır, oğurlayıb aparırlar həmin qəbirstanlığa. Orada qızılı dörd yerə bölürlər. Üç pay oğruların özlərinə, bir pay isə padşaha götürürlər. Oğrular qəbirstanlıqda qalır. Padşah gedib öz taxtına çıxır. Padşaha xəbər verirlər ki, bu gecə xəzinəni dağıdıblar. Padşah qırmızı geyib taxta çıxaraq deyir:

–Filan qəbirstanlıqda üç oğru var. Onları gətirin buraya. O saat gəlib onları padşahın hüzuruna aparırlar. Padşah soruşur ki, bu gecə padşahın xəzinəsini dağıdıbsınız, sizi asdıracağam. Oğrulardan o dəqiqə biri deyir: "Padşah sağ olsun, ayağının sağ tərəfini tərpəd, bizi azad eylə". Padşah görür ki, gecə bunlara dediyi sözdür. İndi onu şaha deyir.

Gecə gördüyü oğrunun biri padşahı tanımışdı. Padşah onları azad eyləyib deyir: "Gedin qızılları gətirin. Xəzinəyə təhvil verin!" Padşah da hərəsinə bir neçə qızıl verir.

Günlərin bir günü padşah yenə öz vəziri ilə səyahətə çıxır. Bir neçə kəndi, şəhəri gəzdikdən sonra yol ilə gedirlər. Görürlər ki, yolun kənarında bir kişi yemiş satır. Padşah vəzirlə yemiş satan kişiyə yaxınlaşıb deyir:

–Kişi bu yemişlər neçəyədir?

Kişi deyir:

–Biri beş manatdır. Padşah vəzirə deyir:

–Ay vəzir, bu çox bahadır. Buna bizim gücümüz çatmaz. Baxdılar, gördülər ki, bir keçəl gəlir.O da kişidən soruşdu:

–A kişi, bu yemişi neçəyə verirsən? Kişi cavab verdi ki, biri beş manatdır. Keçəl pulu çıxardıb verir, yemişi götürür, yemişi kəsib yeyir. Padşah qayıdıb vəzirə deyir ki, vəzir, bu dünyanın zövqi-səfasını gədə sürür. Keçəl onlardan xahiş edir ki, bu kəlməni bir kağıza yazın, mənə verin. Kağızı padşahdan aldıqdan sonra Keçəl gedib, özgə padşahın şəhərinə çıxır, həmin şəhərdə bundan soruşurlar ki, sən kimsən? O isə deyir ki, şah Abbasın oğluyam. Şaha xəbər verirlər ki, bizim şəhərə qonaq gəlib. Padşah bunu yanına çağırtdırıb buna bir neçə otaq bağışlayır. Padaşahın evində gözəl bir qızı olur. Padşah keçələ deyir ki, gərək mənim qızımı alasan. Keçəl razı olur. Padşah öz qızını qırx gün, qırx gecə toy edib keçələ verir, bir neçə şəhəri də keçələ bağışlayır. Sonra bir il burada yaşayırlar. Sonra padşah şah Abbasa xəbər verir ki, oğlunuz bizə qonaq gəldi, qızımı verdim ona, qırx gün, qırx gecə toy elədim, bir neçə şəhər də bağışladım. İndi sizə qonaxlığa gəlirlər. Şah Abbas deyir:

"Keçəl adlı mənim oğlum yoxdur. Gəlirlər gəlsinlər".

Bunlar şah Abbasın evinə gəlirlər. Şah Abbas da qırx gün qırx gecə toy vurdurur. Bunlar burada şən həyat qurmağa, ailə həyatı sürməyə başlayırlar.

## İLANLA QIZIN NAĞILI

Biri var imiş, biri yox imiş. Keçmiş zamanlarda bir kişi, onun da üç qızı, bir oğlu var imiş. Bunların balaca bir əkin yerləri var imiş. Bu kişi həmişə əkin vaxtı olanda gedirmiş, yeri əkib-biçirmiş. Ondan aldığı məhsulla dolanırmışlar. O, əkinə bir də gedəndə görür ki, yerini əkiblər. Su vaxtı gedirmiş ki, gedim yeri suluyum. Gedəndə görürmüş ki, yer sulanıb. Bir gün biçin vaxtı olur. Atası oğluna deyir ki, oğul, gedək taxılı biçək. Gedəndə görürlər ki, taxılı biçiblər. Bir də gediblər ki, gətirələr. Baxıb görürlər ki, gətirib xırmana yığıblar. İndi kişi oğluna deyir:

–A bala, xırmanı qayıraq, taxılı döyək.

Bunlar səhər qalxanda görürlər ki, taxılı döyüblər. Üstündə bir ilan quyrulub yatır. Kişi ilana deyir:

–Ay ilan, sən düş mən taxılımı götürüm.

İlan kişiyə dedi:

–Sən qızının birini mənə ver, mən taxılı sənə verim.

Kişinin əlacı kəsilir. Gedib əhvalatı böyük qızına danışır. Qızı deyir ki, "mən ilana gedərəmmi?" Kişinin əlacı kəsilir. Ortancıl qızının yanına gəlib əhvalatı ona danışır. Bu qız da "mən ilana gedərəmmi?" – deyir.

Sonra kişi əhvalatı lap kiçik qızına danışır, kiçik qızı razı olub deyir:

–Mən gedərəm.

Atası qızını ilanın yanına gətirir. İlan düşür, kiçik qız ilanın yanı ilə gedir. İlanla qız uzaq bir yol gedib bir təpənin başına çıxırlar. Bura uzaqdan baxanda təpə görünür. İçəri girəndə bir otaq olur. İlan otağa girən kimi donunu dəyişir, bir oğlan olur. Bunlar burada ailə qurub yaşamağa başlayırlar. Günlərin bir günü qızın atası dedi:

–Ay arvad, bir qızımızı bir ilana verdik, indi gedək qızımızı axtaraq. Görək ilan qızımızı neylədi? Kişi gecə yatır, səhər qızı axtarmaq üçün uzaq bir yol gedir. Kişi az gedir, çox gedir, bir də görür ki, qızını verdiyi həmin ilan dərviş paltarında yolun kənarında durub. Kişi ilana çatdıqda ilan kişiyə dedi:

–Nə axtarırsan?

Kişi başına gələn əhvalatı söyləyir. İlan kişiyə dedi:

–Get o təpənin başına çıx, orada bir qapı açılacaq. Qızın oradadır, get görüş. Kişi gedib qızı ilə görüşür. Qız atasına qızıldan sovqat düzəldib verir. Atası sevinə-sevinə evinə qayıdır. Ata qızını tapdığını arvadına söyləyəndə demə qızlar eşidirmişlər. Bir-iki gündən sonra bacıları dedi:

–Biz də bacımızı gedib tapacağıq.

Bacıları səhəri uzaq bir yol gedirlər. Bu zaman onların qabağına ilan yenə bir dərviş paltarında rast gəlir. Qızlar əhvalatı dərvişə

danışdı. Dərviş bu bacılara da dedi:

–Gedin o təpənin başına çıxın. Orada bir qapı açılacaq, bacınız oradadır.

Bunlar gedib, qapıya çatdıqda qapı açılır. Burada bacılarını gördükdə sevinirlər, görüşürlər. Bacıları gedib, bu ilanın donunu tapırlar. Bacılar kiçik bacısına dedi:

–Get bizə o bulaqdan su gətir.

–Qız bulağa su gətirməyə gedən kimi bacıları ilanın donunu ocağa tullayıb yandırırlar. Sonra qaçırlar. Kiçik bacı ağlaya-ağlaya qalır. Bir də dərviş gəlib deyir:

–Mənim donumu gətir geyinim. Qız dedi:

–Mən bulağa su gətirməyə getmişdim, gəldim gördüm bacılarım donunu ocağa tullayıb yandırıblar. Bircə quyruğu qalıb. Kişinin barmağında bir üzük var imiş. Üzüyü çıxardıb qıza verib dedi:

–Mən daha getdim.

Oğlan bunu deyib gedir, bir daha geri qayıtmır.

## KƏLLƏGÖZÜN NAĞILI

Biri var idi, biri yox idi. Yer üzərində, bir şah var idi. Bu şahın varı, dövləti başından aşırdı. O, çox ədalətli şah idi. Onun övladı yox idi. Şah vəzirinə hökm elədi ki, bir tədbir töksün, onun övladı olsun. Vəzir fikirləşdikdən sonra belə qərara gəldi ki, şah dövlətini üç hissəyə bölüb, iki hissəsini yoxsullara paylasa, onun övladı olacaq. Şah vəzirin dediklərinə əməl etdi. 9 ay, 9 gün, 9 saat keçdikdən sonra şahın bir oğlu oldu. Şah car çəkdi, hökm elədi, bütün şəhərin adamlarını çağırtdırıb oğluna ad qoydu. Onun adı Aslan oldu. Bir neçə ay keçdikdən sonra, bir gün anası Aslanı bağa aparmışdı. Anası uşağı beşikdə qoyub başladı gül yığmağa. Bu zaman bir pələng Aslanı oğurladı. Anası qayıdıb gördü ki, uşaq beşikdə yoxdur. Bu xəbər gedib şaha çatdı. Şah hökm eylədi, qoşun atlandı. Başladılar Aslanı axtarmağa. Nə qədər axtardılarsa, onu tapa bilmədilər. Kor-peşman evə qayıdarkən yolda bir bükülmüş palaza rast gəldilər. Şahın əmri ilə palazı açdılar. Palazın içindən bir oğlan uşağı çıxdı. Baxıb gördülər ki, bu uşağın bir gözü var, amma kəlləsindədir. Şah çox fikirləşdikdən sonra onu özünə oğul götürdü. Adını isə Kəlləgöz qoydu. Uşağa dayələr tutuldu. Bir neçə gündən sonra xəbər gəldi ki, beş dayənin südü uşağı görmür. Şah əmr elədi ki, sürüdən bir inək ayırsın-



lar ki, uşağı yedirsinlər. Kəlləgöz illərlə yox, saatlarla yekəlirdi. Bu hadisənin üstündən on beş il keçdi.

Şahın oğlundan isə hələ heç bir xəbər yox idi. Günlərin birində şəhərə hay düşdü ki, bir nəfər adam yoxa çıxdı. Axırda camaat yığılıb dedi ki, gedib şaha desinlər. Şah əhvalatdan xəbərdar olduqdan sonra şəhərə qaravulçular qoydu ki, bu nə olan sirrdir? Bir neçə gündən sonra xəbər gətirdilər ki, adamları Kəlləgöz oğurlayır. Deməssənmi Kəlləgöz işdən xəbərdar olan kimi şəhərdən qaçdı. Bunlar burada qalsın, sənə kimdən danışım, şahın doğma oğlundan. Pələng Aslanı oğurlayıb aparandan sonra Aslanı yeməyib balaları ilə birlikdə böyütdü. Aslan artıq böyük bir pəhlivan olmuşdu. Günlərin bir günündə Aslan gəzə-gəzə gəlib şəhərə çıxdı. Baxdı ki, camaatın hamısı qara geyinib. Aslan işdən xəbərdar olduqdan sonra çıxıb getmək istədikdə bir də gördü ki, bir cavan qızı cəllad qabağına qatıb gətirir.

Soruşdu ki, bu qızı hara aparırsınız? Cəllad dedi ki, aparıram Kəlləgözün yeməsi üçün. Aslan cəllada dedi ki, qızı burax, ancaq gəl məni apar. Cəllad Aslanla birlikdə üz tutdular Kəlləgözün yanına. Aslan Kəlləgözün yanına çatıb başladı onunla vuruşmağa. Nə qədər vuruşdularsa, bir-birini öldürə bilmədilər. Axırda hər ikisi yorulub oturdular. Bir az dincəldikdən sonra yenə vuruşmağa başladılar. Yenə də yorulub oturdular ki, dincəlsinlər. Beləliklə, qırx gün, qırx gecə nə qədər vuruşdularsa, heç biri qalib gələ bilmədi. Axırda Aslan çıxıb getdi. Pələng anası Aslandan soruşdu ki, bu müddət harada idin? Aslan başına gələn əhvalatı pələng anasına dedi. Pələng anası Aslana dedi ki, sən şahın oğlusan. Mən səni uşaq vaxtı oğurlayandan sonra atan səni axtararkən Kəlləgözə rast gəlib, onu özü üçün oğul götürübdür. İndi ey oğul, Kəlləgözə qalib gəlmək çox çətindir. Kəlləgözün əcdadı divdir. Aslan anasından əl çəkmədi. Ya öləcəyəm ya da Kəlləgözə qalib gələcəyəm. Pələng Aslana dedi ki, sən əgər Kəlləgözə qalib gəlmək istəyirsənsə, gedərsən atanın yanına deyərsən ki, babandan qalmış yadigar oxu, qılıncı, qalxanı, bir də tövlədəki qara atı versin. Bunları aldıqdan sonra yanıma gələrsən. Ondan sonra atı sürüb şahın yanına gəldi. Şah gördü ki, belə pəhlivan olmaz. Aslan dedi ki, şah, izin ver indi gedim Kəlləgözün yanına. Ordan birbaş gəldi pələng anasının yanına. Pələng anası baxdı ki, doğrudan da gələn Aslan ən qüvvətli pəhlivanların birinə dönüb.

Dedi ki, gedərsən Kəlləgözün yanına onun gözünü nişan alarsan. Birinci oxun dəyməsə dizə qədər daş olacaqsan, 2-ci oxun dəyməsə

qurşağa qədər, 3-cü oxun dəyməsə təmiz daş olub orada qalacaqsan. Aslan atı ilə Kəlləgözün yaşadığı mağaranın yanına gəldi. Kəlləgöz insan iyi duyduğu üçün mağaradan eşiyə çıxdı. Aslan nişan alıb bir ox atdı. Birinci ox dəymədi. Aslan dizə kimi daşa döndü, ikinci oxu atdı, o da boşa çıxdı. İndi Aslan qurşağa qədər daşa döndü. Üçüncü oxu nişan alıb atanda ox Kəlləgözün gözünə batdı. Aslan Kəlləgözün başına kəndir salıb şəhərə apardı. Şah bunu görüb çox sevindi. Əmr etdi ki, Kəlləgözü edam etsinlər. Onu şəhər darvazasından asdılar. Şah Aslana dedi ki, gəl mənim yanımda qal. Mənə pəhlivan ol. Aslan isə dedi ki, anamdan icazə istəyim, əgər icazə versə, gələrəm.

Aslan gedib əhvalatı anasına danışdı. Anası dedi ki, get qal, ancaq bizi yaddan çıxartma. Əgər çətinə düşsən, bu tükü yandırarsan. Aslan atasının yanına gəlməkdə olsun, Kəlləgöz şəhərin darvazasından asılmaqda, sənə kimdən danışım, şahın vezirindən. Vəzir çox fikirləşdikdən sonra belə qərara gəldi ki, əgər Aslan şahın yanında qalarsa bundan vəzirə ziyan gələr. Məhz ona görə də fikirləşdi ki, Aslanı şahın gözündən necə salsın? Vəzir şahın yanına gedib söylədi ki, əgər Aslan qoçaq pəhlivandırsa, gedib yeddi qardaşın bacısı Pəri sultan xanımı sənin üçün gətirsin. Şah əmr elədi ki, Aslanı çağırın. Aslan şahın hüzuruna gəlib baş əyərək şahı dinlədi. Şah dedi ki, oğul, dünyada yeddi qardaş var, onların bir Pərisultan adlı bacısı var. Sənə qırx gün möhlət verirəm. Ya onu mənim yanıma gətir, ya da səni öldürəcəyəm. Aslan baş əyib getdi. Yaraqlanıb-yasaqlanıb pələng anasının yanına getdi. Anasına deyilən bütün əhvalatları danışmağa başladı. Pələng anası belə bir tədbir gördü ki, yeddi gün yeddi gecə yol gedərsən. Yolda bir qalaçaya rast gələcəksən. Pərisultan xanım həmin qalaçada yaşayır. Atını sürüb ona yaxınlaşan kimi onu dik qaldırıb atın üstünə qoyarsan. Sonra atını sürərsən ancaq geri dönüb baxmazsan. Geri dönən zaman daş olarsınız.

Aslan pələng anasının söylədiklərinə qulaq asdıqdan sonra üz qoydu həmin deyilən qalaçaya. Aslan yeddi gün yeddi gecə yol getdi. Nəhayət, deyilən həmin qalaçaya çatdı. O, qalaçanın yanında dayanan Pərisultan xanımı gördü. Aslan qıza yaxınlaşıb onu atın belinə qaldırıb şəhərə tərəf üz qoydu. Bir neçə gün yol getdikdən sonra şəhərə çatdı. Pərisultan xanımı atasına verdi. Şah da, vəzir də Aslanın igidliyinə heyran oldular. Hər kəs öz işinin dalınca getdikdən sonra Pərisultan xanım dura bilməyib şahdan soruşdu ki, məni kimin üçün gətirmisən?

Pəri sultan xanım şahın başına gələn əhvalatdan xəbərdar idi. Nəhayət, şah bildirdi ki, səni özüm üçün gətirmişəm. Pərisultan xanım bundan sonra bütün olmuş hadisələri danışmağa başlayıb dedi ki, şah, Aslan sənin öz doğma oğlundur.

Şah soruşdu: "Buna sənin sübutun varmı?"

Bu zaman Pərisultan xanım Aslanı yanına çağırtdırdı. O, Aslandan soruşdu ki, oğlan, sənin atan-anan kimdir? Aslan cavab verdi ki, atam yoxdur, anam isə pələngdir. Beləliklə, şah bundan sonra inandıkı, doğrudan da, Aslan onun doğma oğludur. Şahın sevinci yerəgöyə sığmadı. Şah qırx gün, qırx gecə toy edib Pərisultan xanımı Aslana aldı. Vəzirin isə şəhərin darvazasından – Kəlləgözün yanından asdırılmasını əmr etdi. Vəziri dar ağacından asdılar.

## ƏCCƏR OĞLUNUN NAĞILI

Biri var imiş, biri yox imiş bir İbrahim Soltan adlı padşah, onun da Əccər oğlu adında bir qardaşlığı var imiş. Bir gün Əccər oğlu gəlib görür ki, İbrahim Soltan çox fikirli oturub, ancaq o, Əccər oğluna heç nə demir. Bir gün belə, beş gün belə, elə Əccər oğlu görür ki, İbrahim Soltan gündən-günə sınıxır, Əccər oğlu İbrahim Soltandan əl çəkmir ki, de görüm sənin dərdin nədir? İbrahim Soltan axır ki, bu dərdə tab gətirə bilmir. Bu sirrini Əccər oğluna açıb deyir. İbrahim Soltan deyir ki, Şahin Dilavər xanımın şəklin atamın cibindən tapmışam. Şəkli görən gündən ona aşiq olmuşam. Ona görə də mən onu harada olursa-olsun axtarıb tapmalıyam. Əccər oğlu İbrahim Soltanın dərdinə şərik olub deyir ki, Şahın Dilavər xanımını mütləq tapacağam.İbrahim Soltanla Əccər oğlu yaraqalanıb-yasaqlanıb düşürlər yola. Yeddi gün, yeddi gecə yol gedirlər. Yolda yatarkən Əccər oğlu yuxuda görür ki, bir elatın qarısı deyir ki, gəl mənim yanıma, onun yerini deyim. Əccər oğlu İbrahim Soltanı götürüb gedir qarının yanına, qarı əvvəlcə başı ilə işarə edir, onlara deyir ki, on günlük yol ilə gedin, qabağınıza yeddi qardaş divin 40 otaqlı evi çıxacaq. Şahin Dilavər xanımı orda taparsız. Onlar gedirlər. Qapıya çatanda divlərin böyüyü çıxıb deyir:

"Adam-badam iysi gəlir". Onları görəndə div deyir ki, burdan gedin, qardaşlarım gəlir, sizi parçalayacaq. Bu vaxt divin anası gəlir. Əccər oğlu divlərin anasından xahiş edir ki, divlərə desin ki, biz onların qardaşıyıq, onlar bizə dəyməsin. Divlərin anası onlara deyir ki, mən qabağda bir oğlana getmişdim, indi bunlar mənim oğlumdur, gəlib məni tapıblar. Div anasına yenə də inanmır, deyir ki, indi ki

onlar sənin oğlundur, onda Əccər oğlu kiçik qardaşlarımla güləşsin görək, doğrudur ya yox? Bu vaxt Əccər oğlu divləri bir-bir əli ilə yuxarı qaldırır, yerə qoyur. Böyük divi isə yuxarı qaldıranda ona deyir ki, səni yerə necə qoyum bərk, yoxsa yavaş? Bu vaxt div ona inanır ki, onun qardaşıdır. Sonra bunlar dərdini bir-birinə açır. Əccər oğlu Dilavər xanımı da azad edib verir İbrahim Soltana. Sonra Əccər oğlu da divlərə qoşulub gedirlər quş ovuna. Onlar ova getməkdə, İbrahim Soltan isə bu evləri gəzməklə maraqlanır. 40 otağın açarını pişiyin boğazından açıb evləri gəzmək istəyir. Otağı gəzərkən axırıncı otaqda görür ki, inilti gəlir. Yaxınlaşıb görür ki, qara divi dəyirman daşının altına qoyublar. Şahin Dilavər xanımı isə ondan alıb zindana salıblar. İbrahim Soltan hamıdan gizli, gündə qara divi yemləyir. Nəhayət, qara div cana gəldikdən sonra qalxıb İbrahim Soltanı daşın altına qoyub, Şahin Dilavər xanımı götürüb gedir. Əccər oğlu axşam gəlib görür ki, nə pişiyin boğazında açar var, nə xanım, nə də İbrahim Soltan. Əccər oğlu gəlib axtarıb İbrahim Soltanı zindandan tapır. İbrahim Soltan əhvalatı Əccər oğluna danışır. Qara div isə xanımı götürüb 3 günlük yol gedirlər. Əccər oğlu atlanıb düşür qara divin arxasınca. Qara divi tapıb öldürür, xanımı isə gətirir. Onlar atlanıb, yığışıb qarının evinə gəlirlər. Əccər oğlu yatıb yuxuda görür ki, İbrahim Soltanın atası padşah bir zəhərli ilan, bir tula bir at qoyub qapıda ki, İbrahim Soltan o şəkli apardığına görə ata minsə yıxılsın ölsün, tulanı sığallayanda həlak olsun, ilan isə yatanda onu vursun.

Əccər oğlu bu yuxunu İbrahim Soltana demir. Onlar durub gəlirlər, şahın qapısına çatanda at gəlir, Əccər oğlu atı qılınc ilə öldürür. İlanı isə gözləyir. Gecə yatmır, ilanı da öldürür. Bu vaxt İbrahim Soltan Əccər oğlundan əl çəkmir, ona deyir ki, bu sirri mənə də aç. Qarı da Əccər oğluna tapşırıb ki, mənim bu sözümü kim eşitdi, daş olacaq. Vaxt gəlir, xanımın İbrahim Soltandan bir oğlu olur. İbrahim Soltan yerdə xəstə yatır ki, bu sirri niyə mənə açmırsan? Əccər oğlunun əlacı kəsilir, bir gün İbrahim Soltana sirri açır, özünün ölümünə razı olur. Bu vaxt Şahin Dilavər xanım özünü öldürür ki, niyə o sirri ona açdırdın ki, o daş oldu?! Xanım dincəlir, o yatarkən yuxuda görür ki, ona deyirlər ki, onun əncamı qarındadır. Onu biz orada saxlayırıq, o sağdır. Əccər oğlu bizimdir. Onlar üçü də gedirlər qarının evində qalırlar, bu vaxt qarı görür ki, bir qız ondan soruşur ki, qonağın kimdir? O deyir Əccər oğlunu daş eyləyib gəliblər ki, görək əncam nədir. Deyir onun bir oğlu var, xanım Əccər oğlunun dərdini çox çəkir. Ona görə də gərək oğlunun başını kəsib onun qanını daşa sürtə. Xanım ərindən xəlvət oğlunun başını kəsib onun qanını daşa yaxır.Əccər oğlu sağalır. İbrahim Soltan görür ki, oğlunun başın xanım xəlvət kəsib, Əccər oğlunu dindirmir. Evdən çıxıb gedir. Xanımın bu hərəkəti Allaha xoş gedir. Böyük Allah hökm edir ki, xanımın oğlu dirilsin. Allahdan səda gəlir ki, sən ki, oğlunu Əccər oğlunun yolunda qurban verdin, sən onun etibarın itirmədin ona görə də sənin oğlunu sağaldıram.

## ÇƏRXİ - GƏRDİŞ

Biri varmış, biri yoxmuş, bir kasıb kişi bir padşahla qonşu imiş. Kişi hər axşam gedib padşaha yaxşı söhbətlər edirmiş, padşah isə bunun əvəzində ona bir nimçə qızıl verərmiş. Bu işə vəkilin paxıllığı tutarmuş. Elə ona görə də, bir gün arvad kişiyə deyir ki, bir də padşahın yanına getmə. Məhəmməd axşam yatır, səhər görür ki, qışın ortasında həyətdə yemiş bitib. Tez bu yemişlərdən 5-6 dənə götürüb şahın evinə aparır. Ancaq onun heç nədən xəbəri olmur. Şah onun xurcununa iki çanaq qızıl tökür.

Şahın bu kasıb kişiyə qızıl verməsini istəməyən vəzir ilə vəkil gedib yolda Məhəmməd kişinin qabağını kəsir ki, qızılı alsınlar. Bu zaman Məhəmməd kişi onlara belə məsləhət edir ki, siz mənə çərxigərdişi göstərin, mən qızılları sizə verim. Vəzirlə vəkil bu sözə çox təəccüb edirlər. Onlar heç nə başa düşmürlər, bir-birlərindən soruşurlar ki, bu nə deməkdir? Məhəmməd kişi görür ki, onlar heç nə başa düşmür. Vəzirlə vəkilə deyir ki, onda mən sizi başa salaram. Vəzirə deyir ki, sən mənim paltarımı geyin, mən də sənin. Buna razı olurlar. Paltarı dəyişəndən sonra, Məhəmməd vəzirə deyir ki, çərxigərdiş bax budur! Bir vaxt mən kasıb idim, indi isə sən kasıb oldun, deyib atı çapıb gedir şahın yanına. Şah bu əhvalatdan xəbər tutandan sonra vəziri çağırtdırır yanına, onu zindana saldırır. Məhəmmədi isə özünə vəzir təyin edir. Məhəmməd gəlib görür ki, Gülxanım evdə xurcunun içindəki qızılı yığmağa yer tapmır. Kişi deyir ki, arvad onu da verən Allahdır, məni vəzir edən də Allahdır.

## ŞAHZADƏNİN NAĞILI

Biri var idi, biri yox idi, bir dərviş vardı.

Bir gün dərvişin arvadı xəstələnir. O, ərini çağırıb deyir ki, mən ölürəm. Bilirəm ki, sən bir gün evlənəcəksən. Olub-qalan birce

qızımı sənə tapşırıram. Evlənəndə mənim ayaqqabımı aldığın qadının ayağına keçir. Əgər yaxşı olsa, al.

Arvadı öləndən sonra kişi ayaqqabının bir tayını əlinə alıb bütün şəhəri gəzir. Ayaqqabı kiminin ayağına böyük, kimininkinə isə kiçik olur. Kişi isə doğma qızıyla evlənmək istəyir. Odur ki, evə gəlir, qızına deyir ki, mən ananın vəsiyyətinə əməl edib, səninlə evlənməliyəm. Çünki ayaqqabı sənin ayağına yaxşı olur.

Qız çox ağlayır, yalvarır, lakin bir xeyri olmur. Axırı qız razılaşır. Qız atasına deyir ki, indi ki belədi, qoy çayın qırağına gedim. Lakin kişi razı olmur. Qız deyir ki, yaxşı onda belimə kəndir bağla, gedim gəlim. Kişi elə də edir. Qızın belinə kəndir bağlayır. Qız gedir yolda kəndiri belindən açıb kola bağlayır. Özü isə meşəyə doğru qaçır. O, meşədə gecələməli olur.

Bu zaman padşahın oğlu – şahzadə ova çıxıbmış. O, meşəyə çatarkən görür ki, ağacda bir qız yatır. O, qıza ürəkdən bağlanır. Qızı atın tərkinə alıb yoldaşlarına deyir ki, mən ovumu etdim, gəlin gedək.

Onlar bir şəhərə gəlirlər. Padşah eşidir ki, oğlu qız qaçırıb. Onu yanına çağırır, əhvalatı öyrəndikdən sonra oğluna xeyir-dua verir. Sonra qırx gün, qırx gecə oğluna toy edir.

Toy günü qız şahzadəyə deyir ki, səndən bir xahişim var. Bizim evimizə heç bir vaxt dərviş qoyma gəlsin. Şahzadə qızın xahişini qəbul edir.

Onların şən, xoşbəxt günləri başlayır. Günlər keçir, şahzadə oğlan atası olur. Bir gün dərviş oxuya-oxuya qızıgilə gəlir. Qız atasını tanıyır, bir söz demir.

Dərviş Şahzadəyə deyir ki, mənə bir gecəliyə yer verin. Qız şahzadəyə yalvarır ki, dərvişi qoyma qalmağa. Lakin şahzadə razı olmur. Dərvişə evin birində yer verilir.

Dərviş gecə qızı yuxuya verəndən sonra qalxıb beşikdə oğlanın başını kəsir, qanlı bıçağı isə qızın xələtinin cibinə qoyur.

Səhər qız yuxudan durur, görür ki, körpəsi beşikdə al qanın içindədi. O, ağlayır, şivən qoparır.

Şahzadə deyir ki, uşağı kimin öldürdüyünü bilsə, onun gözlərinin çıxartdıracaq. Bütün sarayda axtarış başlayır. Lakin uşağı kimin öldürdüyünü tapmaq olmur. Çox sonra dərviş deyir ki, bir anasının da üstünü axtarsınlar. Qızın cibindən qanlı bıçaq çıxanda, şahzadə əmr edir ki, qızın gözləri çıxarılsın, özü də bayıra tullansın. Qız çox yalvarır, yaxarır, bir şey çıxmır. Nəhayət, qızın gözlərin çıxarırlar.



Onu gözlərindən qan süzülə-süzülə çölə tullayırlar.

Qız yıxıla-dura yol gedib bir ağacın altında gecələyir. O, öz taleyindən gileylənib ağlamağa başlayır. Bu zaman iki göyərçin bu söhbəti eşidir. Qıza deyir ki, sən başını yuxarı tut, mən sənin gözlərinə iki damcı gözümün yaşından tökəcəm. Onda sən də onu əlinlə sil. Bu zaman gözlərinə işıq gələr.

Qız tez evə gəlir, oğlunun cənazəsini bağrına basaraq qaçır. Gəlib həmin ağacın altında oturub göyərçinlərə yalvarıb imdad istəyir. Göyərçinlər yenə də öz göz yaşlarından uşağın boğazına salır, qız əliylə sürtür. Uşaq ayılır. Qadın sevincək uşağı bağrına basıb gedir.

Şahzadə pərt olur, deyir ki, mən şah oğlu şaham. Bu belə ola bilməz, qadını tapıb gətirin. Tez qadın içəri girir, gülüb deyir: – Padşah sağ olsun, bəs ana da öz oğlunun başını kəsərmi!? O, belə deyib uşağı şahzadəyə göstərir.

Şahzadə başa düşür ki, bu uşaq onun öz oğludu. O, tez uşağını bağrına basıb üz-gözündən öpür, arvadınnan üzr istəyir, evə aparır. Onlar şən, firavan həyat sürürlər.

## SULDUZLU BAYRAM

Biri var idi, biri yox idi, Bayram adında bir oğlan var idi. Bayram Sulduz kəndində doğulduğu üçün onun adına Sulduzlu Bayram deyərdilər. Bayram yetim bir oğlan idi, nə varı vardı, nə varisi. Bayram olduqca əziyyətli bir gün keçirirdi.

O, səhərdən axşamadək varlıların qapısında nökərlik eləyir, qazancı isə qapısında işlədiyi bəylərin süfrələrinin qırıq-quruğu, artıq-uruğu idi. Günlərin birində Bayram evlənmək fikrinə düşür. Çox çətinlikdən sonra özü kimi kasıb bir kişinin qızını alır. Bayramın arvadının yaxşı əl qabiliyyəti vardı. O, yaxşı dərzilik bacarırdı, lakin kasıb olduğundan heç kəs ona tikməyə bir şey vermirdi. Odur ki,o da əri Bayram kimi xırda-para işlər görüb qarnını doydururdu.

Yazda Bayram arvadını çağırıb deyir:

–Arvad, belə görürəm ki, biz bu cür yaşayışla ancaq yazı, yayı dolanacağıq. Qış gələn kimi biz acından, soyuqdan öləcəyik. Çünki əynimizdəki paltarlar da artıq tökülür. Odu ki, mən bir ağaya nökər durum, bir iş işləyim, bəlkə bir az pul qazandım.

O, bu fikirlə çox gəzib dolandıqdan sonra gəlib Fətullah adlı bir bəyə nökər durur. Bayram Fətullah bəylə şərt bağlayır ki, ona üç ay

nökər olacaqdır. Ancaq muzdur haqqı haqda heç bir kəlmə də kəsmir. Bəli, nağıl dili yüyrək olar deyirlər, üç ay gəlib keçir, Bayram Fətullah bəyin yanına gəlib, ondan muzdur haqqını istəyir. Lakin bundan Fətullah bəyin bərk acığı tutur:

"Üç aydı süfrəmin ən yaxşı yeməkləri ilə yemlənirsən, utanmırsan, hələ məndən muzudur haqqı da istəyirsən, rədd ol mənim qapımdan!" O, belə deyib, Bayramı bir az da kötəklədir.

Bayram kor-peşman evinə qayıdır. Arvadı onu döyülmüş vəziyyətdə görəndə məsələni başa düşür, başlayır Bayrama təsəlli verməyə. Bir müddət keçir, Bayramın kötək yaraları sağalır. O, yenə də işləmək, pul qazanmaq fikrinə düşür. Bayram bir qədər gəzdikdən sonra başqa bir vilayətə getməyi, orada nə iş olursa-olsun işləməyi, qış üçün pul qazanmağı qərara alır. O, bunları demək üçün arvadının yanına məsləhətə gəlib deyir:

Ay arvad nə deyirsən? Belə görürəm ki, belə avara-avara gəzməklə burada bir iş tapa bilməyəcəyəm. Deyirəm heç olmasa gedim bir vilayətə, bəlkə bir iş tapdım? Onsuz da burada işləməklə mənə heç kim muzdur haqqı vermir. Gedim başqa bir vilayətə, bəlkə orada bir insaflı adam tapdım.

Bu fikirlə Bayram heybəsinə bir az çörək götürüb yola düşür. Çox yerlər gəzir, axırda o, bir kəndə gəlib çatır. O, orada Məşədi Ulu xan adlı bir mübarizə rəncbər durur. Bayram Məşədi Ulu xanla sözləşir ki, ona ancaq üç ay işləyəcəkdir.

Məşədi Ulu xan çox hiyələgər, həm də qansız adam idi. O, hər dəfə özünə nabələd adamlardan muzdur tuturdu. Onlara yağlı dili ilə gözəl-gözəl vədlər edərdi, ancaq vədə başı muzdurlara pul verməmək üçün onları öldürərdi.

Bayram bütün bu işlərdən xəbərdar deyildi. Yazıq Bayram bilmir ki, Məşədi Ulu xan vaxt tamam olanda onu da əvvəlki muzdurlar kimi öldürəcəkdir. O yazıq hər gün səhərdən axşamadək Məşədi Ulu xanın zəmilərində biçin biçərdi. O, həm də elə işləyirdi ki, axşam yatmağa gələndə daş kimi yıxılar, o dəqiqə yuxuya gedərdi.

Günlərin birində Sulduzlu Bayram günorta vaxtı biçin biçərkən görür ki, həmişə onun yanına gələn, ona yemək gətirən nökər Canəli zəminin kənarında onu səsləyir. Yazıq Bayram həmişə olduğu kimi işdən ayrılmaq istəmirdi. Bayram istəyirdi ki, nökər Canəli həmişə ağası Məşədi Ulu xana onun haqqında yaxşı sözlər söyləsin ki, bəlkə Məşədi Ulu xan insafa gələ. O fikirləşdi ki, birdən Məşədi Ulu xan



da Fətullah bəy kimi onu vədə başı döydürüb pulunu verməz. Odur ki, o, həmişə özünü işgüzar adam kimi göstərmək istəyirdi.

Lakin Canəli onu ikinci dəfə çağırdı. Bayram dəryazı qoyub yavaş-yavaş zəminin kənarına, Canəlinin yanına gəlir. Canəli bir yumurtanı və bir parça quru çörəyi kirli bağlamadan çıxarıb yerə qoyur. Bayram çatanda adəti üzrə Canəlinin sol əlində tutduğu balaca su dolçasını alıb yarısını içir.

Sonra o üzünü qibləyə tutub namaz qılır, bardaş qurub Canəli ilə üzbəüz əyləşir. Bayram yumurtanı soyur, sonra da quru çörəkdən bir parça kəsib yeməyə başlayır. Bayramın Məşədi Ulu xanla bağladığı vədəyə üç gün qalırdı. Onu həmişə fikirləşdirən bir qorxu yavaş-yavaş özünü göstərirdi. Bayramın ürəyinə dammışdı ki, Məşədi Ulu xan onun muzdur haqqını vermiyəjək. O, üzünü könülsüz halda nökər Canəliyə tutub deyir:

–Necə bilirsən Canəli qardaş, Məşədi Ulu xan mənim haqqımı verəcəkmi?

Canəli onun sualından diksinir. Çünki bu üç ayda birinci dəfə idi ki, Bayramdan bü sözü eşidirdi. Canəli çoxdan Bayrama çox qorxulu sirrin üstünün açajeydi. Amma onun dili gəlmirdi ki, desin. Bu sualdan sonra Canəli bir az özünə toxdax verir. Çoxdan Bayrama demək istədiyi sözləri ona deməyə başlayır:

–Bayram, Məşədi Ulu xanın necə adam olduğu hələ sənə doğru-dürüst bəlli deyil. Mən iki ilə yaxındır ki, Məşədi Ulu xana nökərçilik eləyirəm. Bu iki ildə ona qədər nökərin Məşədi Ulu xan tərəfindən öldürüldüyünü öz gözlərimlə görmüşəm. O, çox qaniçən, zalım adamdır. Həmişə özünə nökər tutar, haqqını istəyən nökərləri isə öldürərdi. İndi mənim sənə yazığım gəlir. Görürəm ki, Məşədi Ulu xan o biri rəncbərlər kimi səni də öldürəcəkdir. Ancaq mənim sənə çox yazığım gəlir. Odur ki, sənə deyirəm ki, elə günü sabah qaç buradan. Yoxsa səni öldürəcəklər, yazıxsan.

Məşədi Ulu xanın belə bir adam olması Bayramın ürəyinə dammışdı. O, son tikəni uda bilmir. Bərk çeçəyir. Sonra kuzənin dibində qalan suyu içib yavaş-yavaş ayağa qalxır. Canəliyə verdiyi məsləhətə görə "çox sağ ol" deyir. Nökər Canəli gedəndən sonra bir az uzanıb dincəlmək istəyir. Lakin çox yorulduğundan yuxu onu tutur, o yatır. Bir də yuxuda görür ki, arvadı dəryaya düşüb boğulur. Elə hey Bayramı haraylayır. Bayram hövlank yuxudan ayılır, görür ki, artıq axşamdı. O ayağa qalxır. Dəryazı da götürüb öz vilayətlərinə tərəf

getməyə başlayır. Gecə səhərədək yol gedir. Səhərə yaxın kəndlərinə çatır. O, evlərinə gəlib görür ki, arvadı ağır xəstədir. O, yuxurinə çatır. Onun arvadı bərk soyuqlamışdı. Çünsunun düz olduğunu indi bilir. Onun arvadı bərk soyuqlamışdı. Çünki havalar artıq soyuyurdu. Qışa cəmisi on beş gün qalırdı. Bayram əynindəki çuxasını çıxarıb arvadının üstünə saldı. Axşamayaxın arvadın əhvalı bir az yaXşıllaşdı. Səhər o, tamam yaxşı oldu. Sanki ərinin cırıq çuxası ona sağlamlıq gətirmişdi.

Səhər Bayram Məşədi Ulu xanla olan əhvalatı arvadına danışır. Arvadı artıq heç bir söz demir. O bilir ki, bu qış ikisi də acından, soyuqdan öləjəklər. Lakin Bayram yeni bir plan hazırlamışdı. O fikirləşirdi ki, necə olursa-olsun başqa bir vilayətə gedib orada varlı bir kişiyə kələk gəlsin. Bu düşüncələr içərisində Bayram arvadı ilə xudafizləşib yol başlayır. O, çox yerlər keçib, gəlib Mərəndə çatır. Bayram soraqlaşa-soraqlaşa gəlib varlı, tamahkar bir kişinin evinə çıxır. Həmin kişinin adı Hacı Mürsəlqulu idi. O, Mərənddə hamıdan dövlətli olsa da, həddindən artıq tamahkar idi.

Bayram Hacı Mürsəlqulunun yanına gəlir. Hacı onun nə üçün gəldiyini soruşur. Bayram deyir:

–Hacı, mən bu yayı xeyli ot-ələf toplamışam, istəyirəm onu satam. Özüm də Sulduzdanam.

Hacının xeyli mal-qarası var idi. Ancaq qış üçün mal-qaraya yemək verməyə otu çatmayacağını bilirdi. İndi Bayramdan bu sözləri eşidəndə tamahdan onun gözləri parıldadı, dedi:

–Bayram, düzdür mənim heyvanım həddindən artıqdır. Bilirəm ki, mal-qaranı bu qışdan çıxarmaq çox çətin olajax. Ancaq görürəm ki, sən çox xeyirxah adamsan. Odur ki, mən öz heyvanlarımı sənə etibar eliyirəm, götür apar. Yaza kimi onlara əgər yaxşı baxsan, hər cinsdən sənə bir heyvan verərəm.

Bayram onunla razılaşır. Tez çıxıb tövləyə gedir. Camışları, öküzləri, atları, qoyunları, keçiləri, toyuqları, başqa cinsdən olan heyvanların hamısını çıxarıb qabağına qatıb yol başlayır Sulduz kəndinə tərəf. Günə bir mənzil, teymənzil axır gəlib yetişir öz kəndlərinə. Mal-qaranı sürür öz həyətlərinə. Arvadı görür ki, budur Bayram gəldi, özünün də qabağında böyük bir heyvan sürüsü. O, ərinin qabağına çıxıb heyvanları haradan aldığını soruşur. Bayram ona bütün əhvalatı danışır. Sonra öküzlərdən onunu bazara çıxarıb satır. Pullara bir neçə günün içində bir böyük pəyə tikdirirlər. Sonra Bayram camışlardan da bir neçəsini satıb bir az ot alır ki, heyvanlar yazatan qırılmasınlar. Bəli, Bayramgil gündə bir heyvanı kəsib yeyirlər. Üç ay onlar varlılara məxsus ömür sürürlər. Yaza qədər həm Bayram, həm də arvadı o qədər kökəlirlər ki, dərilərinə sığmırlar. Bəli, vaxt tamam olur. Bayram təzə paltar geyib Hacının yanına getməyi qərara alır. Arvadı çox qorxur ki, birdən Bayram gedər, Hacı onu öldürər. Lakin Bayram çox yaxşı bilirdi ki, Hacı onları axtaracaqdır. Odur ki, arvadına tapşırır ki, evdə nə qədər qiymətli şeylər varsa cəmləşdirsin, üç günə kimi qayıdacaqdır. Özü isə yol başlayır Mərəndə tərəf. Bayram iki günə özünü yetirir Mərəndə. Düz gəlir Hacı Mürsəlqulunun evinə. Sözsüz-soraqsız girir qapıdan içəri. Hacı Mürsəlqulu qəlyan sümürürdü. Gördü ki, ayə budu Bayram kişi içəri girdi, özü də elə bil bordaqdan çıxıb. Tez dedi:

–Ayə, Bayram, xoş gəlmisən, de görüm heyvanlar necədi? Bayram ona deyir ki, Hacı hələ qoy bir nəfəsimi dərim, sonra hamısını danışacağam.

Hacı çox qorxur. Elə bilir ki, Bayram heyvanı yəqin qurda-quşa yedizdirib. Bayram görür ki, Hacı çox qorxdu. Tez deyir:

–Hacı, heyvanlar barədə heç narahat olma, hamısı elə kökəliblər ki, üstlərində yumurta durar.

Hacı bu sözdən çox sevinir. Tez qulluqçularına tapşırır ki, Bayrama bir yaxşı yemək versinlər. Bayram möhkəm yedikdən sonra üzünü Hacı Mürsəllquluya tutub deyir:

–Hacı, indi qulaq as, gör heyvanlar necədirlər.

Bunu deyib Bayram başlayır oxumağa:

Hacı mənə tapşırıb qırx atnan, qırx qatır.
Yarısı şirnəkdi, yarısı qotur.
Tamamı çöllükdə yan-yana yatır,
Biri də pəyədə dildən olubdu.

Hacı çox qorxur, deyir:

–Ayə, Bayram, yoxsa heyvana qotur düşüb?

Bayram deyir:

–Ayə, Hacı, qotur-zad düşməyib, elə sözdü, ürəyimə gəlib deyirəm də. Başlayır oxumağa.

Sənə qurban olum, mərdlərin mərdi,
Məni də yandırır dananın dərdi.

Qırx inək vermişdin qalıbdır dördü,
O da qalmağına peşman olubdu.

Səhər olar, qar yağar qəsdən-qabaqdan,
Mərhəmət çörəyin kəsdi tabaqdan.
Öküzlər ağızdan tutub dabaqdan,
Camışlar sabaha ilqar alıbdı.

Ay ağalar, deyək qışı, soyuğu,
Gömbələn tutdu qırdı toyuğu.
Qurmuşdum mən orda-burda oyuğu,
Bir tülkü yüz leşə sərdar olubdu.

Sulduzlu Bayram deyor, Allahım aman,
Qurtarıbdı otum, qalmayıb saman.
Bir qotur oğlağa gəlirdi güman,
O da samanlıqda murdar olubdu...

Bunları deyib Bayram çıxıb qaçıb axşamadək yetişir evlərinə. Arvadı ilə köməkləşib, şeyləri yığırlar bir arabaya. Sonra onlar uzaq bir vilayətə gedib orda məskən salıb başlayırlar çox firavan yaşamağa.

## UÇAN PADŞAH

Biri varıymış, biri yoxuymuş, əyyami-qədimdə Əhməd adlı bir padşah varıymış. Bu padşah ömrünün çoxunu keçirmiş, azını yaşayırmış. Həmin padşahın üç oğlu varıydı. Birinin adı Cümşüd, birinin adı Hətəm, kiçik oğlunun adı isə İbrahim idi. Bu padşahın oğlanları artıx qonum-qonşu, vəzir-vəkil qalmamışdı atasının yanına göndərsin ki, oğlanlarının evlənmək vaxtıdır, onları evləndir. Padşah isə bunlara heç bir cavab vermirdi.

Bir gün oğlannar sözü bir yerə qoydular ki, indi ki atamız bizi öyləndirmir, gəl biz də baş götürüb gedək başqa bir ölkəyə, orada öylənək, üç qardaş çiyin-çiyinə verib yaşayaq. Şahzadələr buradan getməkdə olsun, eşit padşahdan. Padşah gecə yatan zaman bir qorxulu yuxu görür. Aləmi röyyada üç əjdaha bərənin ağzında durub, padşahı udmaq istəyir. Nə qədər qoşun, ləşkər gəlirsə əjdahalar onları udur. Bu zaman padşahın oğlanları atasına deyirlər ki, ata, bizi at əjdahanın ağzına. Padşah bərəni keçməyə az qalanda görür ki, əjdahalar dalınca elə gəlir ki, yel kimi. Padşah bir təhər canını qurta-



rır. Amma sora qabağına bir ağ paltarlı dərviş çıxıb, padşaha deyir, «ay insafsız" oğlanların sənin ucbatından özlərini öldürdülər, sənsə onlara yas tutmaq əvəzinə canını qurtardın». Padşah gözünü yumub açanda görür ki, qoja dərviş qeybə çəkildi.

Padşah yuxudan sərsəm oyanan kimi tez vəzir-vəkilə xəbər göndərir ki, bura gəlsinlər. Vəzir, vəkil, rəmmal, münəccim tez gəlirlər padşahın yanına. Padşah gördüyü yuxunu yozmağı bunlara əmr edir. Münəccimbaşı padşaha baş əyəndən sonra deyir ki, padşah sağ olsun, bu yuxu elə bir qorxulu şey deyil. Bu o, deməkdir ki, sən özün hər bir şeyi görüb, dövranını sürmüsən, indisə oğlanlarının hərəsi bir gümə qaraldıb, içinə girməlidir ki, səndən sonra bir şam yandıranın olsun. Yasda ki, toydur. Dərviş sana demək istəyirmiş ki, sən niyə oğlannarının toyunu etmirsən? Padşah sevinir, münəccimbaşıya çoxlu xələt, onam verir. Sonra tutduğu işdən peşiman olub, oğlanlarını öyləndirmək fikrinə düşür. Padşahın özü çoxdan vəzirin qızında idi ki, onu böyük oğlu Cümşüdə, Vəkilin qızını isə Hətəmə alsın. Amma tərəddüd edib, oğlanlarını evləndirmirdi.

Padşah yuxu görən gecənin səhəri əmr etdi ki, oğlanlarım hüzuruma gəlsin. Bu hadisədən bir qədər keçdikdən sonra qasid gəlib padşaha baş əyib dedi ki, padşah sağ olsun, oğlanlarınızı heç yerdə tapa bilmədim. Padşah məcbur olub, şəhərə car çəkdirdi. Yenə də oğlanlarından bir xəbər verən olmadı. Bir tərəfdən padşahın arvadı gecə-gündüz göz yaşı axıdıb, ahu-nalə edirdi ki, sən vaxtında onları öyləndirsəydin belə olmazdı. Odur ki, padşahın arvadı ərinə dedi: – Əgər üç günə kimi oğlanlarımdan bir xəbər çıxmasa özümü öldürəcəyəm". Padşah qaldı çar-naçar. Bilmədi nə eləsin. Bu vaxt padşah car çəkdirdi ki, kim mənim oğlanlarımın yerini desə, ona böyük ənam verəcəm. Bu sözləri eşidən şəhər qapıçısı padşahın hüzuruna gəlib baş əyib dedi ki, padşah sağ olsun, qabaqca istədim ki, deməyəm qorxumdan, sonra da düşündüm ki, sonra öyrənib, boynumu vurdurarsan, amma indi qalıb sənin öz mərhəmətinə, ya öldür, ya da bağışla. Üç gün qabaq oğlanların şəhərdən getdilər.

Padşah şəhər qapıçısına öz qızıl toqqasını bağışladı, qırx dənə çapar çağırıb hərəsini bir padşahın yanına göndərdi ki, oğlanlarını tapıb qolu bağlı onun hüzuruna gətirsinlər. Padşah taxt-tacını idarə etməkdə olsun, çaparlar yol getməkdə. Eşit indi sən oğlanlardan.

Padşahın oğlanları az getdi, üz getdi, dərə-təpə, düz getdi. Orada illə, burada şirin dillə, gündə bir mənzil, tayeyi-mənzil üçüncü günü gəlib

çatdılar, bir şəhərin kənarına. Böyük qardaş, ortancıl qardaşa dedi:

- Hətəm, biz burada oturaq bir az dincələk, sənsə get şəhərə bir az yeməkdən-zaddan al gətir, yeyək, qarnımızı doyduraq, axşama yaxın gedərik şəhərə. Bir də bax gör, buranın camaatı necədir, şəhərdə nə var, nə yox? Hamısını öyrənib gələrsən.

Hətəm şəhərə getməkdə olsun, eşit sən Cümşüd ilə İbrahimdən. Bu qardaşlar çox yorğun idilər. Odur ki, getdilər yaxınlıqda olan çinar ağacının altına kölgələnməyə. Çinar ağacının ətrafında böyük bostan var idi. Bu bostanın yiyəsi çox mehriban bir kişi idi. Nə oğlu varıydı, nə də ki qızı. Bir qarısıydı, bir də ki, özü. Qoja gördü ki, it çox hürür. Bildi ki, bu sədaqətli köpək havayıdan hürməz. Odur ki, qoja eşiyə çıxıb ətrafa göz gəzdirdi. Gördü ki, çinarın altında iki nəfər adam var. Qoja bunlara yaxınlaşanda gördü ki, bunlar elə gözəl cavanlardı ki, Yusif bunları görsə valeh olar. Özləri də elə bil bir almadı, yarı bölünüb. Qoja cavanlara yaxınlaşıb salamlaşdıqdan sonra, onlardan hal-əhvallarını, kim olduqlarını soruşdu. Cümşüd başına gələnləri, mən sizə söylədiyim kimi qojaya danışdı. Qoja dedi, ay oğul, mənim də övladım yoxdur. Allah sizi elə yaxşı göndəribdir. Gəl bizimlə ol. Biz də bu gün-sabahlığıq. Heç olmasa bilərəm ki, öləndən sonra yurdumda adımı anan, çırağımı yandıran, ojağımı közərdən bir varisim var. Oğlanlar razı oldular. Bunlar söhbətdə olsunlar, eşit ortancıl qardaş Hətəmdən.

Hətəm şəhərə girəndə gördü ki, bu şəhərin camaatı hamısı matəm libas olublar, qara geyiniblər. Hətəm bir qojaya yanaşıb, soruşdu ki, baba nə üçün bu camaat qara geyinib? Qoja oğlanın üzünə baxıb dedi:

– Ay oğul görünür ki, sən qəribsən, heç bir şeyi bilmirsən. Oğul, bizim qonşu padşahın üç oğlu itib. Nə öldüsü bilinir, nə qaldısı. İndi Əhməd padşah hər məmləkətə bir qasid göndərib, o məmləkətin də padşahından xahiş edibdir ki, oğlanlarını tapıb ona göndərsinlər. Hətəm kişiyə razılıq edib ayrıldı. Gedib dərzi dükanından üç dəst qara paltar, bir qədər də azuqə alıb, qayıtdı qardaşlarına eşitdiklərini danışdı. Qardaşları sözü bir yerə qoydular ki, bir daha evlərinə qayıtmasınlar. Bu minvalla düz üç həftə bunlar qojanın yanında qaldılar. Səhərdən axşama kimi qardaşlar yer belliyir, əkin əkirdilər. Bir gün Cümşüd Hətəmə dedi:

– Qardaş yenə şəhərə get gör şəhərdə nə var, nə yox. Bir də bir az ətdən-zaddan al.

Hətəm qara libası geyib, şəhərə yollandı. Hətəm şəhərə çatanda



yenə gördü ki, camaat qara paltardadır. O, qəssabdan soruşdu ki, nə üçün bu camaat qara geyib? Qəssab dedi:

– Ay oğlan Əhməd padşahın bu gün iyirmi dörd gündür ki, oğlanları itib, ona görə padşah qara geyinib. Bir də ki, Əhməd padşahın arvadının gözü ağlamaqdan kor olub, ona görə. Hətəm anasının kor olmasını eşidəndə az qaldı bihuş ola, ancaq bir təhər özünü saxladı. Gəlib bu acı xəbəri qardaşlarına danışdı. Onlar tutduqları işdən peşman oldular. İstədilər qayıtsınlar evlərinə, gördülər ki, pulları yoxdur, qojadan da istəməyə utandılar. Bu zaman qardaşlar belə fikirləşdilər ki, ikisi qocaya kömək eləsinlər, biri də gedib, şəhərə bir iş tapıb, yol pulu qazanana kimi işləsin. Səhərisi belə oldu. Hətəm getdi şəhərə iş axtarmağa. Amma oğlanlar bu sözü qojadan gizlədirdilər.

Günorta Cümşüd, İbrahim yer belləyəndə belləri nəyə isə toxundu. Nə qədər elədilər, həmin şeyi çıxara bilmədilər. Əl atdılar külüngə, bir qədər qazdıqdan sonra gördülər ki, bu, bir müjrüdür. Müjrünü çıxardıb açdılar. Gördülər ki, müjrünün içi doludur qızılnan, ləl-cəvahiratnan. İstədilər götürsünlər, sora dedilər ki, bəlkə bu qojanındır. Oğlanlar gəlib həmin müjrünü qojaya verdilər. Qoja dedi:

– Oğlanlarım, çox qədimlərdə atam mənə bir dəfə demişdi ki, onun babası harasa bir müjrü qızıl gizlətmişdi. Onu indiyə qədər hamı axtarmış, amma tapmamışdır. Çünki, onu basdıranı qaçaqlar öldürmüş, sirr indiyə qədər üstü örtülü qalmışdır. İndi ki, onu siz tapmısınız, götürün özünüzə. Oğlanlar çox dedilər, qoja az eşitdi, qoja çox dedi, oğlanlar az eşitdilər. Axırda qoja bir qədər qızıl götürüb dedi:

– Bu mənim də, qarımın da götürülməyinə, basdırılmasına çatar. Yerdə qalanı sizin. Oğlanlar çox sevindilər. Anasının gözləri tutulmasını, evlərinə qayıtmalarını qojaya bilidirib, onlara izn verməsini xahiş etdilər. Qoja onlara xeyir-dua verib yola salmamışdan qabaq hərəsinə bir qarpız verib dedi: - Balalarım, bu qarpızı aparıb verərsiniz atanıza, deyərsiniz yesin. Qarpızı kəsəndən sonra deyərsiniz ki, bunun mənasını tapsın. Səhər sübh tezdən oğlanlar vətənlərinə sarı rəvan oldular.

Bunlar yol getməkdə olsunlar, eşit xəbəri Əhməd padşahdan. Əhməd padşah çox peşiman olmuşdu. Nə gejəsi varıydı, nə gündüzü. Bir tərəfdən oğlanları, bir tərəfdən də arvadının kor olması. Padşah o təbib, o loğman qalmamışdı ki, arvadına ondan əlac istəməsin. Heç biri Əhməd padşahın dərdinə əlac edib, onun arvadının gözlərini sağalda bilməmişdi. Axırda padşah naəlac qalıb, başqa dövlətlərdən də loğmanlar gətirimişdi. Yenə də bir murad hasil olmamışdı. Odur

kı, padşah gözünü tikmişdi, Allaha ki, bəlkə Allahın rəhmi gəlib, bir əlac eləyə. Odur ki, padşah bütün fağır-fuğaranı, ajı-yoxsulu, əlsiz-ayaqsızı yedirdir, içirdir, köməklik edirdi. Bundan bir şey çıxmadı. Əlqərəz padşah əlacsız qalıb rəmmalı çağırtdı. Əmr etdi ki, bir rəm at, gör başımıza nə iş gələcək? Arvadımın gözü sağalajaxmı? Rəmmal bir rəm atdı, tutmadı, ikinci rəmi atdı tutğunluq gətirdi, üçüncü rəmi atanda sevindiyindən elə qışqırdı ki, bütün saray əhli onun başına yığıldı. Rəmmal dedi:

– Padşah sağ olsun, bu saat oğlanlarınız saraya qayıdırlar. Qürub çağı sarayda olacaqlar. Bir də rəm göstərir ki, arvadının gözü qırxıncı günə qədər sağaldı, sağaldı, sağalmadı heç kəsdən imdad gözləmə. Bir də rəm göstərir ki, arvadının gözlərini açan adam kiçik oğlun İbrahimin gələcək arvadıdır. Odur ki, onlar gələn kimi onları evləndir. Padşah razı olub, bu şad xəbəri arvadına çatdırdı. Padşahın arvadı sağalajağına o qədər sevinmədi ki, nə qədər oğlanlarının qayıtmasına sevindi.

Axşama az qalmış padşah gördü ki, sarayı bütün şeypur səsi başına götürüb, bildi ki, oğlanları qayıdırlar. Odur ki, başda padşah olmaqla bütün saray əhli şahzadələrin pişvazına çıxdılar. Padşah istədi ki, oğlanlarına icazəsiz getdiyi üçün cəza versin, sonra arvadı yadına düşüb bu fikirdən vaz keçdi. Gələn kimi onları evləndirəcəyinə söz verdi. Şahzadələr sağ-salamat evlərinə gəldilər. Amma analarının gözlərini kor görən kimi hər üçü də bihuş olub yıxıldılar. Bu minvalla üç gün onlar ayıla bilmədilər. Şahzadələr ayıldıqdan sonra bütün başlarına gələn əhvalatı ata-analarına mən sizə danışdığım kimi danışdılar, qoja bağbanın verdiyi qarpızları atalarına verdilər. Padşah ilk qarpızı kəsəndə gördü ki, bu qarpız tamamilə çürüyüb, Hətəm verən qarpızın yarısı xarab olub, yarısını yemək olar, İbrahimin qarpızı isə lap yeməlidir. Padşah tez vəziri-vəkili çağırıb, bunun mənasının nə olduğunu onlardan soruşdu. Vəzir dedi:

–Padşah sağ olsun, bunun mənası odur ki, Cümşüdün öylənmək vaxtı keçmiş, Hətəmin də vaxtını, Cümşüd kimi keçirmə. Nəhayət qoja demək istəyir ki, İbrahimin əsil evlənmək vaxtıdır. İzdivacı yubatma. Oğlanlarını öyləndir. Padşah bu kəlama əhsən deyib, həmin qojanı gətirtmək üçün onun dalınca adam göndərtdi.

Padşahın arvadının artıq düz bir ay iydi ki, gözləri tutulmuşdu. Odur ki, padşah oğlanlarını yanına çağırıb, dedi: -İndi ki, siz öylənmək istəyirsiniz, öylənin. Mən Cümşüdə, Hətəmə nişanlı tapmışam.



Amma İbrahimə layiq nişanlı tapmamışam. Odur ki, mən indi sizin hərənizə bir kaman, bir ox verəjəm. Həmin oxu çıxıb Qaf dağından atarsınız. Kimin oxu hansı dama, kimin damına düşsə, həmin ojaxdan ona arvad alajam. Oğlanlar sevindilər. Ox-kamanlarını götürüb yollandılar Qaf dağının zirvəsinə. Qabaqca Cümşüd atdı, oxun iziylə gəlib çıxdı düz vəzirin evinə, sonra Hətəm atdı. Bu da düşdü vəkilin damına, sonra növbə çatdı İbrahimə. İbrahim var qüvvəsiylə kamanı dartıb oxu atdı. Ox gedib, düşdü dağın döşünə. İbrahim gedib, oxu götürdü, qayıdıb bir də atdı. Beləliklə o, üç dəfə oxunu atdı. Ox yenə də gəlib həmin nöqtəyə düşdü. Axırda İbrahim öz-özünə dedi:

– Eh, görünür mənim bəxtim belə imiş. İstədi qayıtsın saraya, sonra düşündü ki, heç olmasa gedib həm oxumu götürüm, həm də bir ovuj torpaq götürüb atama aparım ki, ata mənim də bəxtimə bax bu düşdü. İbrahim qayıdıb oxu götürəndən sonra əyilib bir ovuj torpaq götürmək istəyərkən gördü ki, nə isə şey yapışıb onun çıçıla barmağına. İbrahim qolunu qaldıranda gördü ki, bu, bir balaca meymundur. Elə qışqırır ki, «mən də sənin qismətin, mən də sənin qismətin». İbrahim qavaxca istədi meymunu öldürsün ki, biyabır olmasın. Qılıncı çəkəndə yenə meymun dilə gəlib dedi: - Ey oğlan, sən mənim qismətimsən, sənin qismətin isə mənəm. Götür məni apar, peşman olmazsan. İbrahim çarnaçar qalıb, meymunu da götürüb saraya gəldi. Amma bu haqda heç kimə utandığından bir söz demədi. Səhəri gün padşah öz oğlanlarını yanına çağırıb, kimlərlə qohum olajağını öyrənmək istədi. Cümşüd atasına baş əyib, vəzirin qızın istədiyini, oxunun vəzirin damına düşdüyünü, Hətəmin oxunun vəkilin damına düşdüyünü söylədi. Padşah çox şad oldu. Növbə İbrahimə çatanda İbrahim dedi ki, atacan, mənim oxum bir naxırçının damına düşdü. Padşah bundan bir qədər dilxor oldu. İstədi ki oğluna başqa bir qız alsın, düşündü ki, axı mən car çəkdirmişəm, söz vermişəm ki, qərarım dəyişməzdir. Padşah oğlanlarına xeyir-dua verib, oğlanlarına dedi ki, yeddi günün ərzində gəlinlərimin hərəsi mənə bir yaylıq tikməlidirlər ki, onların əl qabiliyyətlərini görüm necədi. Sonra padşah xəzinədarı yanına çağırıb əmr etdi ki, bu gündən etibarən mənim oğlanlarıma istədiyi qədər pul, qızıl verərsən, oğlanlarına tapşırdı ki, toy gününə qədər hər biriniz, özünüzə şəhərdə istədiyiniz yerdə yeddi mərtəbəli ev tikdirərsiniz. Buna görə sizə qırx gün möhlət verirəm.

İbrahim evə gəlib çox fikir elədi. Uzandı dərddən yatağa. Meymun İbrahimə yaxınlaşıb soruşdu ki, ay İbrahim, nə üçün sən elə

həmişə bikefsən? Yeddi qıznan bir dərədə qalmamısan ki, ya da dəryada gəmilərin batmayıb ki, dərdin varsa, aç mənə söylə. İbrahim qabaqca atasının tapşırıqlarını, sonra anasının kor olmasını, vaxtının qurtarmasını meymuna danışdı. Meymunun ona bərk acığı tutdu. O dedi: «Ay İbrahim su ki, doldu qaba oldu içməli. Mən bütün biyabırçılığı və andlarımı pozub səni sevdim. Sən isə dərdini məndən gizlədirsən. Bəs ər-arvada, arvad-ərə nə gündə lazımdı? Sənin birinci günahın olduğu üçün səni bağışlayıram. Amma bir də mənə yalan danışsan, sözümdən çıxsan səndən üz döndərəjəm. Sonuncu təklifim sənə budur ki, məndən kim olduğum haqda bir kəlmə də olsun soruşma, tutduğum işin əleyhinə çıxma. Xeyir görməzsən. Mən özüm haqqında deyə bilərəm ki, adım Meymunə xatındır, özümüz də ki, üç bacıyıq. Qaldı sənin fikir eləməyinə onu da eləmə. Qulax as gör, sana nə deyərəmsə, ona əməl edərsən. Mənim böyük bacım dəryada bir balıxdı. Gedərsən Nil dəryasına, bu üzüyü suya salıb üç dəfə çalxalayar, deyərsən ki, ey dəryalar sultanı, nənənin eşqinə çıx üzə. Bu zaman bajım dəryanın ortasından sahilə yaxınlaşacaq. O zaman səndən məni soruşajax. Deyərsən ki, Meymunə xatının işi dara düşüb. Odur ki, məni sənin yanına göndərdi ki, nənəmin bağışladığı ləpiyi ona çatdıram ki, dardan qurtarsın». Bunu deyib, Meymunə xatın barmağından üzüyünü çıxardıb verdi İbrahimə. İbrahim üzüyü əlinə alanda gördü ki, üzüyün qaşı az qalır öz şoxu ilə adamı kor eləsin. Qərəz, İbrahim üzüyü alıb yola düzəldi. Meymunə xatın İbrahimi yola salanda ona tapşırdı ki, nə badə mənim haqqımda bajımdan bir söz soruşasan, bir də nabadə qayıdıb geri baxasan.

Meymunə xatın saraya qayıtmaqda olsun. Sənə kimdən danışım balıxdan. Bu balıx Meymunə xatının böyük bacısı Pəri xanım idi. Bir il olardı ki, bir-birindən xəbərsiz idilər. Gecə-gündüz Pəri xanım bajılarının həsrətini çəkirdi. Birdən Pəri xanım gördü ki, dəryanı xoş bir iy götürdü. O, elə bildi ki, Meymunə xatın gəlibdir. Tez özünü dəryanın dibindən verdi dəryanın üzünə. Sahilə yaxınlaşanda gördü ki, bir oğlan dəryanın qırağında dayanıb, boynunu büküb. Pəri gördü ki, bu elə bir oğlandı ki, gözəllikdə tayı-bərabəri yoxdur. Amma qorxdu Pəri bu bəni-insanın gözünə görünməyə. Odur ki, özünü yenə də vurdu dəryanın dibinə. Pəri dəryanın dibinə getməkdə olsun, eşit yenə də İbrahimdən. İbrahim ikinci dəfə üzüyü çalxaladı dəryaya, bir şey olmadı. Axırda dedi atalar üçəcən deyib, qoy bir də bəxtimi sınayım. Üçüncü dəfə üzüyü çılxalayıb dedi: «Ey dəryalar sultanı, nənənin eşqinə üzə çıx». İbrahim elə bunu demişdi ki, birdən gördü ki, göy guruldadı, şimşək çaxdı, dərya təlatümə gəldi, dəryada qasırğa başladı, bir balıx sahilə çıxıb İbrahimə dedi: «Ey bəni insan, nə cürət edib buraya gəlib, məni narahat eləyirsən? Bilmirsən ki, mənim gözümə görünənə aman yoxdur» İbrahim bir az qabağa gəlib balığa dedi:

- Ey balıxların padşahı, dəryaların sultanı, məni sənin yanına göndərən doğma bajın Meymunə xatındır. O, dara düşüb, səndən kömək istəyir. Pəri bajısının adını eşidib sevindi.

O, üzə çıxıb Meymuna xatının arzusunu yerinə yetirir. İbrahim geri qayıdır. Ləpiyin köməyi ilə Meymunəxanımı dardan qurtarır. Onlar şad-xürrəm ömür sürməyə başlayırlar.

## AĞLAR-GÜLƏYƏNİN NAĞILI

Biri varıymış, biri yoxuymuş bir padşah varıymış. Bu padşahın iki uşağı varıymış. Bunların biri qızıymış, o biri oğlan. Qız o qədər ağıllıymış ki, şəhərin camaatı onu həmişə tərifləyərmiş. Həm də qız oğlandan böyük imiş. Günlərin bir günü padşah bərk xəstələnir. Hələ ölməmişdən qavax uşaqlarını çağırıb vəsiyyət edir. Padşah yazıx da baxıf görür oğlan hələ həm uşaxdı, həm də qızı ondan ağıllıdı. Odur ki qızını öz yerinə padşah qoyur, canını tapşırır.

Bu qıznan bu oğlan can bir qəlifnən yaşayırmış. Bunların bir alması olsa yarı bölüb yeyərmişlər. Oğlan günü-gündən böyüyür. Qız da ədalətlə padşahlıq edir. Bir gün yazıx qız deyir ki, qardaş, artıq sən böyüyüfsən. Gəl səni öyləndirim, özün padşahlıq eylə. Mənə yaraşmaz ki, qardaşım ola-ola padşah olum. Qardaşı deyir ki, bajı, özümdən böyük bajımsan nə deyə bilərəm.

Bajısı qardaşına bir varrı qız alır, özü padşahlıqdan çıxır. Oğlan bajısını o qədər çox istəyirmiş ki, arvadının buna paxıllığı tutarmış. Bir gün oğlan bacısına bir gözəl yaylıx, alıf gətirir. Bunu yengəsi qarnı yanmışın qarnı götürmür. Qız yazıq da yengəsinin* əlini qoymazmış isti sudan soyuq suya vursun. Oğlan padşahlıq eliyif qayıdanda görür ki, arvadı mısmırığını sallayıf. Nə qədər edirsə arvadının sirrini bilmir.

Günlərin bir günü bu öyü yıxılmış, qızı bazara göndərir, padşah öyə gəlir, o deyir ki, daha səndə oturmaram. Əri çox yalvarıf, yaxa-

---

* Yengə - qardaş arvadı

rannan sora arvadı deyir: «Sənin namusun yoxdu. Bajın hər gün bir keçəllə oynamağa gedir. Mən nə qədər eyləyirəm sözümə baxmır. Sənin heç namusun yoxdumu?». Oğlan deyir ki, ay arvad, nəhlət şeytana de, o mənim atamın ən çox istədiyi övlad oluf. Özü də böyük bajımdı. Mən ona heç nə deməərəm. Daha bu belə keçif gedər. Gedə bacısına bir şey deməyir ki, üzü qara olmuş arvadım belə deyir. Genə mehriban dolanırlar..

Bir gün padşahın bir oğlu olur. Yazıq qız da bunu o qədər çox istəyirmiş ki, gəl-görəsən. Ancax gəlin buları nə qədər fitnələyirsə, ərini baldızıynan dalaşdıra bilmir. Genə bu qardaş-bajı mehribanca dolanıllar.

Günlərin birində bu Allah nəhlət eləmiş gəlin o qədər qudurur ki, day dura bilmir. Odur ki, bir gecə yatdıxları vaxtı duruf oğlunun başını kəsif də, qanını pıçağı qızın döşəyinin altında gizlədif, savax qalxanda bir vay şivən salır ki, deməzsənmi uşağın başını kəsiflər.

Cəlladlar axtaranda görüllər ki, pıçax qızın yatdığı döşəyin altındadı. Daha oğlan dözə bilmir. Həm də bacısına yazığı gəlir. Ancax axırda qəzəblənir, qızın qollarının ikisini də kəsdirir. Sonra aparıb öz torpağından çıxartdırır. Qız yazıx da, nə qədər yalvarırsa olmur. Qızı aparıb bir meşəyə tullayırlar.

Eşit kimnən deyim, bu qızı tulladıqları vilayətin padşahının oğlundan. Oğlan yuxuda görür ki, ova çıxıf. Bu meşədə bir ahu var. Yeməiçmə, xətti-xalına gül camalına tamaşa eylə. Savax tezdən yayını-oxunu götürüf, nökərinnən meşəyə oy-oylamağa gedir. Bunlar o qədər gəzillər ki, daha əldən düşürlər. Axırı gəlif su gölünün yanında dincəlillər. Padşahın oğlu nökərə deyir ki, apar atdarı sula. Bular atdarı gölə yaxınlaşdırandan atdarın hamısı su içir, padşahın oğlunun atı su içmir. Padşahın oğlu gəlif gölə baxanda görür ki, göldə nəsə var. Atdar bundan huyuxur. Sonra bu zənnən baxanda görür ki, Allah, göldə, ağacın başında bir qız şəkli var, elə bil mələykədi. Atdar bundan huyuxur. Padşahın oğlu dönüf ağacın başına baxanda görür bir gözəl qızdır. Bunun da şəkli gölə düşdüyündən atdar su içmir. Şahzadə deyir. "Allah bunu mənim baxtıma göndərif. Dilənçi qız da olsa bunu alacam". Bu yazığı dütürüf görürlər ki, bunun əlləri yoxdu. Vəzir-zad razı olmayır ki, yoqin oğurluq üstündə bunun əlini kəsiflər. Bunnan xeyir gəlməz, gedək. Şahzadə görür o, çox gözəl qızdı, ancaq nə bəlasa buna üz verib, heç kimə qulaq asamayıb bunu öz öyünə aparır.

Şahzadənin ata-anası da bunu qəbul eləyirlər ki, bizim oğlumuz



bəyənif, bizim qızımız olsun. Buna poladdan əl qayırırlar.

Bir padşah da varıymış. Bu, bütün padşahlara qan ağladarmış. Bir gün qızın əri qoşun göndərif özü döyüş paltarı geyinir. Sonra da arvadını atasına, anasına tapşırıf düşmənin canını almağa gedir. Özü də deyir ki, ata, mənim oğlum ya qızım olsa, muştuluxladarsan. Oğlan gedənnən üç-dörd ay sonra qız bir cüt oğlan doğur. Oğlanlar da gül parçası kimi. Nökəri padşah oğluna muştuluxçu göndərif deyir ki, bu kağızı oğluma ver. Ona de ki, sən gələnə kimi onları gözüm üstə saxlayacağam.

İndi sənə kimdən deyim, nökərdən. Nökər o qədər yol gedir ki, gəlif qızın qardaşının öyünə çıxır. Orda yalvarıf qonaq qalır. Sonra başına gələnləri burada danışır. Bu nəhlətdəmələr də nökər yatandan sonra kağızı götürüf yerinə ayrı kağız yazıf qoyullar. Padşahın dili ilə yazıllar: «Ay səni öl oğul. Gətirdiyin topal bir cüt küçük doğuf, nökərin özünə də inanma». Sonra nökərə pul verib deyillər ki, gələndə də burdan gəl. Nökərin nə xəbəri var ki, gedib Şahzadəyə nə qədər deyib oğlun olub, o inanmayıb. Şahzadə yazıb: «Mənim arvadımın yüz cüt küçüyü olsa yenə saxlayın». Nökər qayıdanda genə də burada qalır. Bu dəfə yazıllar ki, ata, mən gələnə kimi ifriteni uşağıynan öz torpağınan çıxart.

Elə ki, gəlib nökər kağızı verir, bunlar məhəttəl qalırlar ki, neyləsinlər. Padşahın arvadı nəvələrini çox istəyirdi. Odur ki, bir xurcun qızıl doldurub qızın çiyninə salır. Sonra uşaxları xurcunun üstünə mindirif ağlaya-ağlaya yola salır. Yazıx qız o qədər gəlir ki, su deyin ciyəri yanır. Bir dəfə baxır ki bir bulaq var. Bu bulax da bir az dəriniymiş. Bu, əyilif su içəndə qavaxdakı uşax suya düşür. Allah görkəzməsin, qız ağlını itirif yıxılanda bir səs gəlir: «Ay qız ağlama, əllərin sağdı, nə durmusan balalarını çıxarsana?!!" Qız deyir ki, hanı mənim əllərim, qardaşım kəsif. Bir də baxanda görür ki, canım fəda olmuş əlini sağaldıf. Sonra uşaxlarını sudan çıxarıf bir kəndə gedir. Orada bir tükənə girif kişi paltarı alıf geyinir. Özüdə o qədər gözəliymiş ki, başına qarın geyinif keçəl olur ki, bunun incintməsinlər.

Kəntdə bir qarıya qonax olur. Sonra qarıya deyir ki, nənə, mənim arvadım qaçıb dədəsi öyünə. Gəl nə qədər istəyirsən pul verim ancaq mənim uşaqlarımı gözün üstə saxla. Hər həftə də gəlib baş çəkəcəyəm. Nəyin çatmasa deyərsən. Özü də bir padşaha mehtər olur. Bu padşahın bir atı varıymış ki, kim yaxın gəlsə başını qopararmış.

Bir gün qız deyir ki, şah sağ olsun sənin o atını tövlədən çıxarıb

qoşaram. Şah buna təəcüb eyləsə də razı olur. Özü də möhlət alır. Sonra bir gün qapının çölündə qalır. Belə-belə iyirmi günə kimi beləjə ata yaxınlaşır.

Vəhşiləşmiş at da qıza meylini salır. Beləliklə, qız atı töylədən çıxarır. Padşah buna çoxlu bəxşiş verir. Sonra hara getsə padşah onnan gedərmiş.

Bir gün xəbər yayılır ki, filan padşahı məğlub ediflər. Qız ərinin qəhrəmanlığına çox sevinir. Bütün padşahlar həmin şahzadəyə çoxlu bəxşişlər verirlər. Qızın padşahı da tapşırır ki, biz hamıdan tez ora çataq.

Qız padşahdan xahiş edir ki, nə desən yerinə yetirəcəm. Ancaq arada deynən ki, mənim mehtərim bir ağlar-güləyən nağıl danışsın. Padşah buna razı olur. Qız keçəl libasında öz padşahını hamıdan qabaq ora yetirir. Bütün padşahlarnan bərabər qızın qardaşınnan yengəsi bura gəlif çıxırlar. Elə ki, ara sakitləşəndə padşah nökərinin bir yaxşı nağıl danışmasını bildirəndə hamı bir səslə deyir: «Əgər doğrudan da o ağladan-güldürən danışmasa onun boynunu vurajıyıx. Qız da buna razı olub, öz şərtini belə deyir:

– «Mənim də ağalardan bir xahişim var. İçəri adam buraxılsın", çölə adam buraxılmasın. Buna da razılaşandan sonra qız öz başına gələnləri bir-bir danışır. Ancaq orasını da deyim ki, Şahzadə gəlib arvad-uşağının başına gələn müsivətə dözmürdü. Gecə-gündüz ağlayırdı. Gördü yox, bu keçəl danışdığı əhvalat bunun başına gələndi. Qızı gördüyü vaxtdar yadına düşdü. Onda ağlayıb dedi:

«Ay keçəl, sənin qadan alım, sonra nə oldu?..»

Onda keçəl dedi: «Ey padşahları zülümdən qurtaran qəhrəman oğlu, qulaq as!».

Belə olanda qızın qardaşı, yengəsi gülürdü. Qız başına gələnləri danışanda əri ağlayırdı. Elə ki,əli sağaldığını eşidəndə şahzadə güldü. Onda qardaşıgil ağladı ki, işin üstü açılsa, vay halımıza. Şahzadə oğlan söyündü ki, arvad – uşağı sağdı, harada olsa tapacaq.

Əhvalat qurtarana yaxın qardaşıgil mahna* edib çıxmaq istədilər. Onda qız razılıq vermədi. Sonra ərini intizarda qoymamax üçün əlin atıb başınan qarını götürəndə saçları qulaş-qulaş dalına tökülür. Onlar elə sarmaşdılar ki, bir səhənk su töksən də ayıra bilməzdin. Axırı qız uşaqlarını da xəlvət gətirib qonşu bir qarının öyündə qoyduğunu

---

* mahna etmək - bəhanə etmək.



dedi. Əri ürək eyləyib, ona baxa bilmədi. Nökərləri göndərif uşaqlarını gətirdi. Yenidən həsrət-həsrət qucaqlaşıb ağlaşdılar. Sonra əri qardaşıgilin də cəzasını verib, qonşu ölkəyə geri qaytardı. Sonra yoxsullara nəzir-niyaz verib, bayram elədilər. Onlar yeyif yerə keçdi, biz yeyif dövrə keçək.

## ADIGÖZƏLLƏ ASLAN ŞAHIN NAĞILI

Şah Abbas cənət məkan,
Tərəziyə vurdu təkan,
İki qoz bir girdəkan,
Milçək mindik, çay keçdik,
Yabaynan dovğa içdik.

Sizə kimdən deyim, kimdən xəbər verim, Yəmən vilayətindən. Yəmən vilayətində kimdən? Həmin vilayətin padşahı Hacısayaddan.

Günlərin bir günündə padşah öz vəzir-vəkili, qoşun-ləşkəri ilə ova çıxmışdı. Onlar xeyli ov etdikdən sonra gəlib bir çölü-biyabana çıxdılar. Birdən göyün üzün qara bulud aldı. Bir külək qalxdı ki, yerdəki tozu göyə sovurdu. Padşahı tozanaq tutub iki gözlərini kor elədi. İllər keçdi.

Günlərin birində qapıya bir dərviş gəlib çıxdı. Hacısayad dərvişə dedi ki, mənim iki gözlərim kor olub. Əgər onun dərmanını desən, sənə özün ağırlıqda qızıl verərəm. Dərviş çox fikirləşdikdən sonra dedi:

-«Padşah sağ olsun, dəryada bir balıq var, onun qanı sənin gözlərinin dərmanıdır. Əgər o balığı kəsib, qanını gözlərinə çəksən onda gözlərin sağalar».

Hacısayadın iki oğlu vardı. Böyüyünün adı Aslan, kiçiyinin adı isə Adıgözəl idi. Günlərin birində Hacısayad vəzir-vəkilini vilayətin qurtaracağındakı dəryaya göndərir ki, gedin dəryadakı balığı tutub gətirin. Vəzir-vəkil dəryaya nə qədər tor atırdısa, balıq heç birinin toruna düşmürdü. Nəhayət, Hacısayad padşah öz oğlanlarını göndərməyə məcbur olur. Oğlanlar toru atan kimi balıq tora düşür. Onlar baxırlar ki, bu çox yaraşıqlı balıqdı. Fikirləşirlər ki, atamızın yaşının çoxu gedib, azı qalıb, bu balıq da hayıfdır. Balığı atırlar dəryaya. Deyirlər ki, «Balıq da bilməsə, xalıq bilər».

Oğlanlar kor-peşman geri qayıdırlar. Qapıçılar padşaha xəbər verirlər ki, balıq oğlanlarının toruna düşdü, onlar da balığı yenidən dəryaya atdılar. Padşah çox qəzəbləndi, oğlanlarını vilayətdən qovmağı

əmr etdi. Anası bədbəxt övladlarının çantasına bir qədər yavanlıq qoyub ərindən xəlvət ikisinə bir at verdi.

Qardaşlar az getdilər, çox getdilər baş götürüb ölkədən çıxdılar. Günlərin birində onların çörəyi qurtardı, atları yoruldu. Onlar bir məzarıstanlığa pənah gətirdilər. Adıgözəl Aslan şahı çörək dalınca göndərdi. Lakin çox gözlədi, şər qarışdı, Aslan gəlib çıxmadı. Adıgözəl gözləməkdə olsun, sizə kimdən deyim Aslan şahdan. Aslan şah gəlib bir kəndə çıxdı, o, gördü ki, burada böyük bir məclis qurulub. Görür ki, məclisdəkilər dövlət quşu uçurdurlar. Quş gəlib Aslan şahın başına qonur. Məclisdəkilər Aslan şahı aparıb bir daxmaya saldılar ki, biz səni tanımırıq, öz şəhərimizdən şah seçmək istəyirik. Onlar təkrar quşu uçurdurlar, quş daxmanın dalından bir yırtıq tapıb içəri girib Aslan şahın başına qonur. Ağsaqqallar məsləhət gördülər ki, onu padşah seçsinlər, əgər padşahlıq eləyə bilər qalar, eləyə bilməz çıxardıb başqasını qoyarıq. Aslan şahın başı işə qarışdı, qardaşı isə tamam yadından çıxdı.

Adıgözəl çox gözlədi, ancaq qardaşı gəlib çıxmadı. Adıgözəl yola düşdü, xeyli ketmişdi ki, yolda bir tacirə rast gəldi. Tacir onu şəhərə apardı. Yolda vilayət padşahının qızı Nazlı xanım onu görüb bir qəlbdən min qəlbə ona aşiq oldu. Günlərin bir günündə vilayətdə yaşayan bir şəmi cuhudu tacirin qılığına girib dedi ki, bu oğlanı mənə sat. Adıgözəl qızıl olmuş şəmi cuhuda satıldı.

Şəmi cuhudu İstanbul padşahının qızına aşiq olmuşdu. O, padşaha demişdi ki, qızını oğluma alaram. Padşah isə şərt kəsmişdi ki, oğlunu gətirərsən baxım, sonra. Şəmi cuhud Adıgözəli bir bağlı sandığa qoyub bir nökərin dəvəsinə yüklədi və dedi ki, ey karvançı, mənim karvanımı Nazlı xanımın qapısından keçirdərsən. Karvançı sandığı Nazlı xanımın qapısından keçirəndə Adıgözəl sızlayaraq dedi:

> Ey Nazlı xanım,
> Atım-atım atılmışam.
> Nər, qutulara tutulmuşam.
> Nər mayaya çatılmışam,
> Bir qızıl almaya satılmışam.
> Şəmi cuhuda satılmışam,
> Nazlı yarım, halal eylə,
> İstambula aparırlar.

İstambul padşahı oğlanı görən kimi ona aşiq oldu, qızını ona verib



40 gün, 40 gecə toy elədi. Qoşuna gecəavə qoşub onu gəmiyə mindirdilər. Gəmi dəryanın ortasında olanda şəmi cuhudu gəmiçiyə dedi ki, Adıgözəli at dəryaya. Gəmiçi Adıgözəli yanına gətirib dəryaya atmağa hazırlaşanda o bir torbanı qucaqlayıb dedi:

> Sənə qurban olum, loğmanlar başı,
> Axıtma gözlərimdən qanlı yaşı.
> Adıgözələm, Aslan şahın qardaşı,
> Tut qolumdan, qoyma düşəm dəryaya.

Loğman şəmi cuhuddan qızıl aldığına görə qaramıx kolu ilə Adıgözəlin əllərinə o qədər vurdu ki, o, dəryaya düşdü. Adıgözəl suya düşən kimi qızıl balıq onu udub dəryadan kənara çıxarır. Burada Adıgözəl atlı bir çobana rast gəlir. Çoban onu evlərinə gətirir, anasına tapşırır ki, mənə elədiyin hörməti buna da elə. Mənim qardaşım olmayıb. Mən bu oğlanı özümə qardaş götürürəm. Adıgözəl burda qalsın, indi sizə kimdən xəbər verim, Şəmi cuhuddan.

Şəmi cuhudu Adıgözəli dəryaya atandan sonra padşahın qızını öz evinə gətirdi, dedi ki, səni özüm üçün gətirmişəm. Şah qızı çox ağlayıb ah-fəryad eləyəndən sonra deyir ki, mən 7 il Adıgözəl üçün yas saxlayacağam.

Aylar, illər keçir, bir gün Şəmi cuhuduna xəbər gedir ki, bəs filan şəhərdə Adıgözəli görüblər. Şəmi cuhudu tez padşahın yanına gedib deyir ki, filan şəhərdə Adıgözəl adlı bir oğlan var. O, mənim ev-eşiyimi var-dövlətimi qarət edib qaçıb. Gərək sən onu öldürdərsən. Padşah əmr edir ki, gedin Alı çobana deyin ki, yanındakı Adıgözəl adlı oğlanı mənim yanıma gətirsin. Alı çoban çox qoçaq, fərasətli bir oğlan olduğundan padşahın bu əmrinə acıqlanır, deyir ki, gedin deyin ona bir çomaq vuraram, taxt-tacı ilə yerə gələr. Mən ona qardaşımı verən deyiləm. Bu xəbərdən padşah çox acıqlanır, Alı çobanla Adıgözəli hüzuruna gətirdir. Padşahın otağına girəndə Şəmi cuhud Adıgözəli görən kimi həm qorxur, həm də hiddətlənərək deyir:

«Oğlan, bu gün sənin boynunun vurulan günüdür». Padşah carçılara car çəkdirir ki, hamı meydana toplaşsın. Adıgözəl padşaha baş əyib deyir ki, padşah sağ olsun, icazə ver bu son günümdə mən başıma gələn qəzavü-qədərdən bir neçəsini sənə danışım. Deyir:

– Bir padşahın qızı Nazlı xanım sevgilim idi. Məni karvan ilə aparanda dedim ey sarvançı, Nazlı xanımın qapısından sür karvanı. Dedim ey Nazlı xanım, bir almaya satılmışam. Mən mayaya çatılmı-

şam. Məni İstambula apardılar. Orada padşah öz qızını mənə verdi. Sonra məni dəryaya atdılar.

Bu vaxt padşahın gözləri qaraldı, o, tələsik taxtından enib Adıgözəli qucaqladı. Tanıyıb gördü ki, öz qardaşı Adıgözəl şahdı. Əmr edib Şəmi cuhudunun boynunu vurdurdu. Sonra 40 gün, 40 gecə toy eləyib Nazlı xanımı Adıgözələ aldılar. Aslan şah qızları qoşunla gacavə qoşub Adıgözəllə atasının vilayətinə göndərdi.

Qoşun çox gedir, az gedir gəlib bir çəmənlikdə düşərgə salır. Birdən Adıgözəl görür ki, bir oğlan gəlir. Deyir ki, bir qab gətirin, o, qolunu çərtib qolundan qanı qaba axıdır. Oğlan deyir ki, bəs dəryaya atdığın balıq mənəm.

Adıgözəlin qoşunu yığışıb yola düşür. Onlar az gedirlər, çox gedirlər gəlib atasının vilayətinə çatırlar. Adıgözəl görür ki, ağlamaqdan anasının gözləri tutulub. O tez gətirdiyi qanı ata-anasının gözünə çəkir. Ata-anasının gözləri açılır, onlar şad-xürrəm, xoşbəxt ömür sürürlər.

## ÜÇ BACININ NAĞILI

Biri varmış, biri yoxmuş Məhəmməd adlı orta yaşlı bir kişi varmış. Bu kişinin arvadı neçə illər idi ki, vəfat etmişdi. Günlərin birində Məhəmməd qonşu kənddən bir dul qadınla evlənir. Bir müddət keçdikdən sonra arvad Məhəmmədə deyir ki, bu evdə ya gərək mən qalam, ya da qızların. Kişi arvadına deyir ki, sən getmə, mən qızlara bir əncam çəkərəm. Günlərin birində kişi qızlarına deyir ki, gəlin meşəyə gedək. Mən çiyələk görmüşəm, gedək onnan bir az yığıb gətirək. Məhəmməd qızları başına yığıb meşəyə apardı. Meşənin ortalarına çatanda o, qızlara dedi ki, siz çiyələk yığın, mən də bir az odun doğrayım. Qulaq asarsız, nə vaxt baltanın səsi kəsilsə onda hazırlaşarsınız gəlib sizi apararam. Bu vaxt meşədə bərk külək əsirmiş. Məhəmməd gedib iki ağacı bir-birinə bağlayır ki, budaqlar bir-birinə dəyib səs salsın. Kişi işi qurtaran kimi xəlvətcə çıxıb evinə gedir.

Şər qarışır qızlar nə qədər gözləyir, ataları gəlib çıxmır. Ağacların da taqqıltısı kəsmək bilmirdi. Qızlar çox gözləyəndən sonra böyük bacı deyir ki, gedək görək atamız işini nə vaxt qurtaracaq? Qızlar az gedirlər, çox gedirlər ancaq atalarını görmürlər, nəhayət, gəlib taqqıltı gələn yerə çıxırlar, ancaq görürlər ki, burada adam-zad yoxdu, Atası iki ağacı bir-birinə bağlayıbdır. Taqqıltını da onlar salır. Qızlar çox qəmlənib bir ağacın dibində oturdular. Gecə yarıya kimi üçü də ağacın altında oturub atalarını gözlədilər.

Ancaq onların atalarından bir xəbər-ətər olmadı. Qızlar qəmgin halda oturmuşdular ki, bir də gördülər meşənin dərinliyindən bir işıq gəlir. Qızlar bu işdən həm qorxdular, həm də sevindilər. Tez işıq gələn tərəfə yollandılar. Çox getdilər, gəlib işıq olan yerə çatdılar. Baxıb gördülər ki, bəs bu, böyük tövlədir. Tövlədə də çoxlu yekəlibalacalı atlar bağlanıb. Ancaq bir ins-cins yoxdu. Atların axuruna da ağzına kimi qeysi, kişmiş töküblər. Qızlar bu qeysi kişmişdən xeyli götürdülər ki, yeyərik, bu minvalla bir müddət dolanarıq.

Günlərin birində padşah atlarına baxmaq üçün yola çıxmışdı. Padşah tövləyə girəndə gördü ki, atlar çox sınıxıblar. O, tez mehtəri yanına çağırıb dedi ki, atlara yaxşı qulluq eləməmisən, onlar çox sınıxıblar. Mehtər nə qədər and aman elədi ki, mən bir dənə də qeysi götürməmişəm, ola bilər ki, gecə tövləyə oğru girib. Padşah mehtərə dedi ki, gecə keşik çək, gör tövləyə girən kimdi. Mehtər gecənin bir vaxtında tövlənin yanında oturmuşdu ki, gördü üç qız tövləyə yaxınlaşırlar. Mehtər bunu görən kimi tez qızların dalınca tövləyə girdi, gördü ki, qızlar axurda olan qeysi-kişmişin hamısını yığışdırıb çıxmaq istəyirlər. Elə bu vaxt mehtər tez qızların birindən yapışdı. Sonra onların üçünü də tutdu.

Onları səhər açılan kimi, mehtər, padşahın hüzuruna gətirib dedi ki, atların yemlərini yeyən bunlardır. Padşahın qızlara çox acığı tutdu, onları ən dərin zindana saldırdı. Qoca bir qarını da onlara gözətçi qoydu ki, gör onlar təklikdə nə danışırlar? Qızlar zindanda bir qədər öz bəxtlərindən şikayətlənib, ağladılar. Axşam olanda söhbətləşməyə başladılar, böyük qız dedi ki, nə olaydı padşah məni alaydı, onda mən elə bir xalça toxuyardım ki, üstündə padşahın bütün qoşunu otursa da hələ bir az da boş yer qalardı.

Ortancıl qız dedi ki, nə olaydı vəzir məni alaydı onda mən iki yumurtadan elə qayğanaq bişirərəm ki, padşah yeyər hələ bir az artıq da qalar.

Kiçik qız dedi ki, nə olaydı vəkil məni alaydı. Onda mən elə bir uşaq doğardım ki, onun birçəyinin biri qızıldan, biri gümüşdən olardı.

Qarı bu söhbəti eşidən kimi onu padşaha danışdı. Padşah bu əhvalatdan sonra böyük qızı vəzirə, ortancılı vəkilə, verdi, kiçiyi isə özü aldı. Padşah bu üç bacını sınaqdan keçirdi. Böyük qız toxuyan xalçanın üstündə oturanda qızıl adamı incitdiyindən heç kim xalçanın

üstündə otura bilmədi. İkinci qız iki yumurta, bir girvəngə duz götürüb qayğanaq bişirdi. Ancaq heç kim bu qayğanaqdan yeyə bilmədi.

Kiçik qız hamilə oldu. Hər iki bacı onun paxıllığını çəkirdi. Günlərin birində kiçik qızın vaxtı tamam oldu. Böyük ilə ortancıl qız padşahın arvadını azad etmək üçün bir küpəgirən ara arvadı gətirdi. Padşahın arvadının bir qızı, bir oğlu oldu. Həqiqətən uşaqların birçəyinin biri qızıldan, biri gümüşdən idi.

Vəzir-vəkilin arvadlarının uşaqları olmadıqlarından buna çox paxıllıqları tuturdu. Onlar küpəgirən qarını öyrətdilər ki, sən bu uşaqları gizlət, qoy padşah uşaqları görməsin. Küpəgirən qarı uşaqların ikisini də bir sandığa qoyub suya atdı. Padşaha isə xəlbirdə iki küçük göstərib dedi ki, bunlar sənin uşaqlarındı. Padşah arvadının bu işinə çox qəzəblənib onu ən dərin zindanına atdırdı. İndi isə sizə kimdən xəbər verim, uşaqlardan.

Kəndin kənarında bir dəyirman vardı. Dəyirmanda isə qoca dəyirmançı, bir də onun qarısı yaşayırdı. Onlar çox mehriban yaşayırdılar. Onların bircə dərd-səri var idisə o da övlad dərdi idi. Günlərin birində dəyirmançı yenə dəyirmanda işləyirdi ki, birdən gördü ki, dəyirmanın sovuracağında düz arxın ortasında bir sandıq var. Dəyirmançı tələsik sandığı arxdan çıxardı, qapağını açanda gördü ki, içində bir oğlan, bir də qız uşağı var. O, uşaqları sandıqdan götürüb, içəri gətirdi. Uşaqlar da soyuqdan tamam donmuşdular. Qarı qocası ilə sevindiklərindən bilmirdilər nə etsinlər. İllər, aylar, ötürdü, uşaqlar tamam böyümüşdülər. Artıq onların 10 yaşı vardı. Qoca dəyirmançı belə qərara gəldi ki, oğlanı artıq mollaxanaya qoymaq olar. Oğlan adəti üzrə hər gün mollaxanaya gedir, bir də şər qarışanda evə qayıdırdı. Günlərin birində padşah öz vəzir-vəkili ilə yoldan ötəndə dəyirmançının oğlu ilə rastlaşdı. Nə isə, bu oğlanda özünə qarşı məhəbbət oyandı. Səhərisi o oğlanı yanına çağırdı, onun ata-anası, kimliyi ilə maraqlandı.

Hələ oğlan saraya girəndə vəzir-vəkilin arvadları onu görən kimi tanımışdılar. Arvadlar tez küpəgirən qarını çağırtdırıb dedilər ki, bayaq padşah oğlu həyətdə gəzirdi. Küpəgirən qarı bu işə bir əncam çəkməyə söz verdi.

Səhərisi qarı, dəyirmançının həyətinə girəndə gördü ki, bir qız qapının yanında oturub. Qarı qızı görəndə ağlı başından çıxdı, az qaldı ki, yıxılsın. Çünkü ömründə belə gözəl görməmişdi. Qarı qıza yaxınlaşıb şirin dilə tutub onun ata-anasının kimliyini öyrənəndən sonra müəyyən etdi ki, bəs bu uşaqlar suya atdığı uşaqlardır.



Qarı qızdan soruşdu ki, qardaşın səni çoxmu sevir, qız dedi ki, lap dünyalar qədər. Qarı işin düzəldiyini bilib dedi:

– Bəs səni niyə tək qoyub darıxmağına razı olur, qonşu kənddə bir çalıb oxuyan qız var, de, qoy o qızı sənin yanına gətirsin.

Axşam qardaşı evə girəndə qız ağlayıb dedi ki, mən təklikdən darıxıram, get qonşu kənddəki çalıb oxuyan qızı evimizə gətir, qoy mənimlə qalsın.

Dəyirmançının oğlu bacısını çox sevdiyindən onun könlünə dəymək istəmədi. Ona görə də səhər evdən bir az çörək, su götürüb yola düşdü. Az getdi, üz getdi, dərə-təpə düz getdi, nəhayət, gəlib bir dağın ətəyində alçaq bir komaya rast gəldi. Oğlan komaya sarı getmək istəyirdi ki, birdən daxmadan nurani bir qoca çıxdı. O, oğlanı içəri gətirib onun kimliyini, haradan gəlib hara getdiyini öyrəndi. Qoca çox fikirləşəndən sonra dedi: «Oğlum gəl sən bu fikirdən daşın, qayıt geri. Ora getmək mümkün olan şey deyil». Oğlan isə öz sözündən dönməyib həmin kəndə gedib özü çalıb oynayan qızı gətirəcəyini söylədi. Qoca gördü ki, yox, oğlan ətəyindən daşı yerə tökən deyil. Odur ki, dedi: "Oğul, sən ki, getmək istəyirsən onda əvvəl mənim məsləhətlərimi qəbul et". Qoca sözünə davam etdi. "Oğul, bu gördüyün dağı aşandan sonra dağın ətəyində yekə bir ağac görəcəksən. Ora çatan kimi çıxarsan həmin ağacın başına, günortaya kimi gözləyərsən. Günorta ora bir dəstə adam gələcək. Onların arasında gözəl bir qız görəcəksən. Onlar nahara oturanda qız öz sehirli donunu çıxardıb ağacdan asacaq. Onun adı da Gülzardı. Onda sən onun həmin paltarını tez götürüb qaçarsan. Onu da bil ki, sən qaçdıqda qız da sənin arxanca qaçıb səni çağıracaq, ancaq sən geri dönmə, əgər geri dönsən, onda özün bir parça daşa çevrilərsən. Sən çalış ki, o paltarı gətirib mənim daxmamdan keçirdəsən. Elə ki, bu daxmadan ötdün, onda donun tilsimi itəcək". Qoca sözünü bitirəndən sonra oğlan yoluna davam etdi, dağı aşıb həmin qoca deyən ağacın yanına çatdı, cəld ağaca çıxıb orada gözləməyə başladı. Birdən gördü ki, elə bil yer-göy silkələnir. Birdən baxdı ki, ağacın altında bir dəstə adam var. Onların arasında da gözəl bir qız. Sonra oğlan qocanın dediyi kimi hərəkət elədi. Qızı düz gətirib evlərinə çıxartdı. Gülzar içəri girəndə orada bir qoca qarı ilə bir gözəl qız gördü. O, tezliklə bu ailəyə uyğunlaşdı. Günlərin birində qarı uşaqların başına gələn əhvalatı ona danışdı. Yenə həmin adəti üzrə padşah hər gün oğlanı evinə apardı. Günlərin birində Gülzar dəyirmançı oğluna dedi ki, bu gün

sən padşahı evimizə qonaq çağır. Oğlan səhər tezdən saraya gedib padşahı günorta naharına evlərinə qonaq çağırdı. Padşah da bu təklifi qəbul etdi. Çünki, o, oğlanı dünyalar qədər sevirdi. Oğlan evə gələndə gözlərinə inanmadı. Onların daxmalarının yerində uca bir bina ucalırdı. O, içəri girəndə stollar düzəlib, qonaqları gözləyirdilər. Günorta padşah öz qoşunu ilə dəyirmançıgilə getdi. Onlar xeyli yeyib içdikdən sonra çıxıb getdilər. Padşah da vəzir-vəkil ilə çıxıb getmək istəyəndə Gülzar onların bir qədər oturmasını xahiş etdi, qulluqçudan yemək gətirilməsini tələb etdi. Qulluqçu tavada iki dənə qızardılmış küçük gətirdi, padşahın qabağına qoydu. Padşah bir tavaya baxdı bir də vəzir vəkilə, sora fikirləşdi ki, oğlanın xətrinə dəyər, yəqin bunlarda belə adət var. O, əlini tavaya uzadanda Gülzar dedi ki, şah sağ olsun bu ki, küçükdü siz nə üçün bunu yeyirsiniz. Şah dedi ki, düzdü, mən də yemək istəmədim ancaq fikirləşdim birdən bu oğlanın könlünə dəyər, həm də elə hesab etdim ki, bu sizdə adətdi. Sonra qız dedi ki, bəs siz küçük olan balalarınızı nə üçün qəbul etmirsiniz? Bu sözdən padşah çox qəzəbləndi, o qızı öldürmək əmri verdi. Bu vaxt dəyirmançının qarısı gəlib bütün hadisəni, vəzir-vəkilin arvadlarının, küpəgirən qarının tutduğu işləri yerli-yataqlı nağıl etdi. Padşah övladlarını qucaqladı, əmr etdi ki, arvadını zindandan çıxartsınlar. Səhərisi şah qırmızı geyinib taxta çıxdı, iki gəlinləri, bir də küpəgirən qarını çarmıxa çəkdirib darvaza qapılarından asdırdı. Sonra o, öz tacını götürüb oğlunun başına qoydu. Onlar şad, xürrəm ömür sürməyə başladılar.

## GÜLQAHQAHIN NAĞILI

Biri var idi, biri yox idi, Məhəmməd adlı bir çoban var idi. Məhəmməd bir bəyə çobanlıq edirdi. Bir gün qoyun otararkən onun yanına bir kişi gəldi. Həmin şəxsin adı Əli idi. Əli Məhəmmədə yaxınlaşıb dedi:

- A kişi, bərəkətli olsun.

Məhəmməd dedi:

- Xoş gəlibsən qardaş.

Əli dedi:

- Qardaş, soruşmaq ayıb olmasın bu qoyunlar özünündü, ya başqasının? Məhəmməd cavab verdi:

- Yox, qardaş, özümün deyil. Bəyindir.



Əli soruşdu:

- Qardaş, bəy sənə nə qədər çoban haqqı verir?

Məhəmməd dedi:

- Haqqım bütün ömrüm boyu on qoyunadır. Neçəki sağam, ona çobanlıq edəcəm.

Əli dedi:

- A çoban qardaş, sən bu on qoyunu ver mənə. Bazara gələrsən, on qoyunun əvəzinə sənə otuz qoyun verərəm.

Çoban fikirləşir ki, mən ömrüm boyu on qoyuna çobanlıq edirəm, ancaq bu on qoyunu versəm otuz qoyun öz-özünə gələcək.

Məhəmməd razılaşıb qoyunları Əliyə verdi. Ertəsi gün qoyunları almaq üçün bazara gəldi. Əlini çox axtardı, amma tapa bilmədi. Axşama kimi bazarı hərləndi, axşamı gəlib məscidin yanında yapıncısını başına çəkib yatdı.

İndi haradan sənə xəbər verim, padşahın qızından. Padşahın qızı vəzirin oğlunu sevirdi. Vəzirin oğlu da onu istəyirdi. Lakin padşah qızını vəzirin oğluna layiq bilmirdi, o qızını ayrı padşahın oğluna vermək istəyirdi.

Qız vəzirin oğlunu çağırtdırıb dedi:

- Atam məni ayrı padşahın oğluna vermək istəyir. Fikrin nədir?

Vəzirin oğlu dedi:

- Mənim gücüm nəyə çatar, nə edə bilərəm?

Padşahın qızı dedi:

- Gəl belə məsləhətləşək; mən iki at hazırladım. İki dəst də kişi paltarı götürüm. Birini mən geyinim, birini də sən geyin. Sən məscidin yanında məni gözlə, gəlim, baş götürüb atamın torpağından çıxaq. Ayrı vilayətə gedək. Ondan sonra bir təhər dolanarıq. Oğlan razı olur. Sonra evə gəlib fikirləşir ki, əgər mən padşahın qızını aparsam, padşah bütün qohum-qəbiləmi öldürtdürər, ondan sonra qızı neyləyəcəm? Oğlan vədə verdiyi yerə getmir.

Padşahın qızı bir qədər qızıl-gümüş götürüb atın birini minir, birini də yedəyinə alıb məscidin yanına gəlir. Görür ki, məscidin yanında bir oğlan yapıncısını başına çəkib yatır. Padşahın qızı qılıncının ucu ilə onu qurdalayıb qaldırdı. Çoban tez yerindən qalxdı.

Padşahın qızı dedi:

- Oğlan, min!

Atın birin də çoban mindi, sürüb şəhərdən çıxdılar.

Çoban dedi:

- Əli, məni hara aparırsan? Mənim qoyunlarımı ver.
Padşahın qızı geri çönəndə gördü oğlan əli çomaqlı bir çobandır. Qız fikir etdi ki, qayıtsın. Sonra fikirləşdi ki, daha keçib, baxtıma çıxıb. Yaxşı olar, baxtım kəsdi, pis olar, qovaram. Atları sürdülər, gəlib bir düzəngaha çıxdılar. Çoban yenə dedi:
- Əli, mənim qoyunlarımı ver.
Padşahın qızı dedi:
- Hələ bir az dincələk, sonra qoyunlarını verəcəm.
Düşüb atları bağladılar. Padşahın qızı yol üçün özü ilə hər şey götürmüşdü. Qız çobana dedi:
- Çoban fərasətli olar. Buraları axtar, gör su taparsanmı? Çoban gəlib bir bulağa çatdı. Əl-üzünü yuyub su doldurdu sonra isə suyun içindəki daşlardan bir qədər götürüb geri qayıtdı.
Çoban suyu gətirib padşahın qızının yanına qoydu, sudan götürdüyü daşları da ona verdi. Çörək yeyib qurtardıqdan sonra çoban yenə padşahın qızından qoyunlarını istədi. Padşahın qızı dedi:
- Çoban, gedək bir mənzilə çataq, qoyunlarını verəcəm. Atları minib yola düşdülər. Gəlib bir şəhərə çıxdılar, atları satıb bir imarət aldılar.
Padşahın qızı çobana dedi:
- Çoban, get bazara, bir az ət, kişmiş, çörək al!
Padşahın qızı çobana bir qədər qızıl verib bazara göndərdi. Çoban gedəndən sonra padşahın qızı fikirləşdi ki, əgər çoban aldığı şeyləri bir nökərin dalına verib, özü də ciblərini noğul, kişmişlə doldurub yeyə-yeyə gəlsə, əsil mənim malımdır. Yox, özü dalında gətirsə, qovacam getsin.
Çoban bazardan aldığı şeyləri bir nökərin dalına verib, özü də noğul, kişmiş yeyə-yeyə evə gəldi. Padşahın qızı gördü ki, iş onun fikirləşdiyi kimi oldu. Dedi: "Çoban əsl mənim malımdır".
Padşahın qızı çobanın aldığı şeyləri alıb dedi:
- Çoban, indi də get, bir axund gətir, sənin qoyun haqq-hesabını qurtarım.
Çoban axundun dalınca getdi. Qız tez kişi paltarını dəyişib, öz qiymətli paltarını geyindi. Evin ortasına bir pərdə çəkdi, özü də əyləşdi pərdənin dalında.
Çoban axundu götürüb evə qayıdanda gördü ki, evin ortasına pərdə çəkilib. Pərdənin dalına baxanda çoban gördü ki, bir gözəl qız əyləşib, yemə, içmə onun camalına tamaşa elə.



Çoban fikirləşdi ki, qızı yəqin bəy özünə gətirib. Gəlib axundun yanına oturdu ki, görək bəy nə vaxt gələcək. Bu zaman padşahın qızı pərdənin dalından dilləndi:
- Axund əmi, mənim kəbinimi çobana kəs.
Axund çobandan soruşdu:
- Çoban, razısanmı?
Çoban dedi:
- Razıyam, axund əmi, canla-başla razıyam.
Padşahın qızı ilə çoban Məhəmməd xoşbəxt yaşamağa başladılar.
Günlərin birində padşahın qızı Məhəmmədə dedi:
- Məhəmməd, gəl yaxşı bir xonça düzəldək. Sən apar padşahın hüzuruna, de ki, qərib adamıq bizə əlkölgəlik et, dolanaq.
Məhəmməd qızın fikrinə razı oldu. Bir xonça bəzədilər. Məhəmməd qıza dedi:
- Sudan tapdığım daşlardan ikisini də gətir qoyaq xonçaya yaxşı görünsün.
Amma qız razı olmadı. Padşahın qızı bilirdi ki, o daşlar qiymətli ləldir. Padşah onları görsə yenə istəyəcək. Qız nə qədər etdisə, çoban dediyindən dönmədi. Axırda qız naəlac qalıb daşlardan ikisini xonçaya qoydu.
Çoban xonçanı aparıb padşahın hüzuruna qoyub dedi:
- Qibleyi-aləm sağ olsun, biz qərib bir adamıq. Sən bizə əlkölgəlik elə, sənin sayəndə bu qərib eldə dolanaq.
Padşah çobanın kim olduğunu öyrəndikdən sonra ona getməyə izn verdi. Çoban qayıdıb evə gəldi.
Günlərin birində padşah öz veziri ilə şəhərə gəzməyə çıxmışdı. Şəhərin içi ilə gəlib çobanın evinin yanından keçəndə külafirəngidə bir qız gördülər. Padşah qıza vuruldu. Vəzirə dedi:
- Vəzir, daha mən şikarımı aldım, gəl qayıdaq. Gəl xəbər al görək bu kimin qızıdır?
Vəzir öyrəndi ki, bu, həmin çobanın arvadıdır.
Padşah dedi:
- Vəzir, nə edək?
Vəzir dedi:
- Qibleyi-aləm sağ olsun, əlac bircə çobanın başını əkməkdir. Sən çobanı çağırtdır, de ki, xonçada gətirdiyin daşdardan 40 dənə mənə gətirməlisən. Əgər gətirməsə, boynunu vurdurarsan, qız sənə qalar.

Padşah vezirin fikrindən razı qaldı.

Ertəsi gün padşah çobanı çağırtdırıb dedi:

- Çoban, həmin daşlardan qırxını mənə gətirməlisən. Gətirməsən boynunu vurduracam.

Çoban kor-peşman evinə qayıtdı. Padşahın qızı soruşdu:

- Məhəmməd, padşah sənə nə dedi? Çoban əhvalatı arvadına söylədi.

Padşahın qızı dedi:

- Məhəmməd, o vaxt sənə dedim ki, o daşları aparma. Sən mənə qulaq asmadın. İndi o qədər daşı haradan alacaqsan? Çoban fərasətli olar, getsən həmin bulağı tapacaqsanmı?

Çoban dedi:

- Gündüz getsəm taparam, gecə getsəm tapmaram.

Nə isə çoban hazırlaşıb yola düşdü. Günü bir mənzil gəlib işıqlananda bulağa çatdı. Çoban bulaqda əl-üzünü yuyurdu, birdən suya bir damcı qan düşdü. Çoban o yan-bu yana baxıb gördü ki, ağacdan saçlarından bir qız asılıb. Burnundan damcı-damcı suya qan düşür. Qanın hər damcısından suda bir daş əmələ gəlir.

Çoban tez qızın saçını açıb yerə endirdi. Əl-üzünü yuyub başını dizi üstünə aldı. Qızın huşu özünə gələndən sonra gözünü açıb dedi:

- Məhəmməd, quş quşluğu ilə bura səkə bilmir. Sən hara, bura hara? Div gəlib görsə, səni də, məni də öldürəcək.

Qız başına gələn əhvalatların hamısını Məhəmmədə nağıl etdi. Dedi ki, div hər gün məni saçımdan asır, gələndə isə açır.

Məhəmməd dedi:

- Qız, eşitmişəm divin canı özündə olmaz. Axşam gələndə de ki, div eşitdiyimə görə divin canı özündə olmaz. Məni niyə saçımdan asırsan? Divin canının yerini de, sən gəlincə onunla məşğul olum.

Günorta div evə gələnə yaxın Məhəmməd gizləndi. Qızı da əvvəlki yerindən asdı. Div gələndə qız soruşdu:

- Deyirlər, divin canı özündə olmaz. Məni niyə saçlarımdan asırsan? Canının yerini mənə de, sən gəlincə onunla məşğul olum.

Div axşam gələndə qız yenə canının yerini soruşdu.

Div dedi:

- Mənim canım o qara daşdadır. Div gedəndən sonra Məhəmməd gizləndiyi yerdən çıxdı. Qızla həmin qara daşı güllə-çiçəklə bəzədi. Div axşam gələndə gördü ki, tikanı bəzəyiblər.

Dedi: - Ay ağılsız bəni-insan, divin də canı tikanda olarmı? Mənim canım şüşənin içərisindəki göyərçindədir. O da balıqdadır. Sən onu oradan çıxara bilməzsən. Div gedəndən sonra Məhəmməd bulağın başına gəldi. Şüşəni bulağın gözündən çıxardı. Göyərçinin başını üzüb atdı. Div gurultu ilə yıxılıb öldü. Div öləndən sonra qız dedi:

- Məhəmməd, mən səninəm, sən də mənim.

Məhəmməd dedi:

Mən səndən ötəri gəlməmişəm. Mənə daş lazımdır.

Qız dedi:

- Daşı neyləyirsən? Dediyin daş məndən əmələ gəlir.

Məhəmməd dedi:

- Nağdını qoyub, nisyə dalınca niyə gedirəm. Məhəmməd xurcunu daşla doldurub qızla bərabər geri qayıtdı. Həmin daşdan qırx dənəsini padşahın hüzuruna apardı. Sonra qayıdıb evinə gəldi.

Padşah dedi:

- Vəzir, bir əlac, çoban daşları da gətirdi.

Vəzir dedi:

- Padşah sağ olsun, darıxma. İndi də çobanı Gülqahqaha göndər. Denən get oradan mənə qırx dəstə gül gətir. Qoy gedib orada daş olsun. Padşah çobanı çağırıb dedi:

- Bilirsənmi nə var, Məhəmməd?

Məhəmməd dedi:

- Qibleyi aləm sağ olsun, mənə görə nə qulluq?

Padşah dedi:

- Çoban, gərək gedib mənə qırx dəstə gül gətirəsən. Təzə imarət tikdirirəm, lazımdır.

Çoban dedi:

- Padşah sağ olsun, mənə izin ver, fikirləşim.

Çoban evə gəldi. Padşahın qızı gördü ki, Məhəmməd çox bikefdir.

Arvadları soruşdu:

- Məhəmməd nə olub?

Məhəmməd dedi:

- Arvad, padşah deyir ki, gərək Gülqahqahdan mənə qırx dəstə gül gətirəsən.

Arvadlar dedi:

- Qorxma, get padşahdan möhlət al, gəl.

Çoban gəldi padşahın hüzuruna - dedi:

- Padşah sağ olsun, izn ver gedim.

Məhəmmədin ikinci arvadı bir kağız yazıb ona verib dedi:

- Məhəmməd, gedərsən əvvəlcə sənə bir dərya rast gələcək. Bu kağızı göstərən kimi sənə yol verəcək. Ondan sonra sənə bir dağ rast gələcək. Görəcəksən ki, dağ od tutub yanır. Kağızı göstərən kimi dağ sənə yol verəcək. Ondan sonra o yerə çatacaqsan ki, ora Gülqahqah adlanır. Orada minlərlə adam daş olub yatır. Sən onun 100 metirliyində dayanacaqsan, orada bir luh var. Oxu həmin luha atacaqsan. Əgər birinci dəfə dəyməsə dizə qədər daş olacaxsan. İkinci dəfə qurşağacan daş olacaqsan. Üçüncü dəfə dəyməsə tamam daş olacaqsan.

Məhəmməd qızın dediyi haman yerdə dayandı. Birincini atdı dəymədi, dizəcən daş oldu, ikinci dəfə atdı yenə dəymədi, qurşağacan daş oldu. Üçüncü dəfə atanda luh sındı, içindən Gülqahqah gülə-gülə gəldi. Bütün dağlar, daşlar çiçək oldu. Bütün daş olmuş insanlar hamısı ayağa qalxıb getdilər, tilsim sındı.

Qız dedi:

- Məhəmməd, sən mənimsən, mən də sənin.

Məhəmməd dedi:

- Mən səni neynirəm? Mən padşaha qırx dəstə gül gətirməyə gəlmişəm.

Qız dedi:

- Evin yıxılmasın gülü neynirsən? Mən güləndə hər yer gül olur.

Məhəmməd dedi:

- Mən nağdını qoyub, nisyənin dalınca niyə gedim?

Axırda qız əlacsız qalıb Məhəmmədlə birlikdə qırx dəstə gül yığdı. Məhəmməd gülləri də, qızı da götürüb geri qayıtdı. Bu qızın da kəbinini özünə kəsdi. Başı qarışdı yeyib-içməyə. Bir də gördü ki, güllər xarab olub. Məhəmməd qorxuya düşdü.

Axırıncı qız dedi:

- Məhəmməd, qorxma, mən güləndə hər yer gül-çiçək olur. Yığıb aparıb verərsən.

Qız güldü, hər yer gül oldu. Məhəmməd yığıb padşahın hüzuruna gətirdi.

Padşah vəziri çağırıb dedi:

- Vəzir, bu köpək oğlu gülü də gətirdi. Buna bir əlac, mən ölürəm.

Vəzir dedi:

- Qibleyi aləm sağ olsun, səbr eylə. Səhər yenə çobanı çağırtdır. Denən ki, dənizdə mənə bir imarət tikdir, bir tərəfi qızıl, bir tərəfi də gümüş olsun. Özü də əmr et ki, bir gecədə hazır etsin. Sabahısı gün padşah çobanı hüzuruna çağırtdırdı.



Çoban gəlib baş əyib dedi:

- Qibleyi-aləm sağ olsun, mənə görə nə qulluğunuz var? Hər əmrinizə tabeyəm.

Padşah dedi:

- Çoban, gərək dənizin içində mənə bir tərəfi qızıl, bir tərəfi gümüş bir imarət tikdirəsən. Özü də bir gecənin içində hazır ola.

Çoban dedi:

- Padşah sağ olsun, izn ver, fikirləşim. Çoban kor-peşman evinə qayıtdı. Arvadları gördü ki, Məhəmməd çox bikefdir. Axırıncı arvadı soruşdu:

- Məhəmməd, olmasın azar, sənə nə olub? Məhəmməd qəmgin halda cavab verdi:

- Padşah deyir gərək bir gecənin içində bir tərəfi qızıl, bir tərəfi gümüş imarət tikdirəsən.

Qız dedi:

- Qorxma, get padşaha denən baş üstə.

Çoban padşahın hüzuruna gəlib dedi:

- Qıbleyi-aləm sağ olsun, əmrini yerinə yetirirəm.

Çoban qayıdıb evinə gəldi. Qız çobana bir kağız verib dedi:

- Məhəmməd, bu kağız əlində gedib dənizin qırağında durarsan. Mənim bacım dənizdədir. Sən kağızı göstərəndə o çıxıb bir daşın üstündə durub deyəcək: "Mənə görə nə qulluq?" Sən deyərsən ki, mənə bir imarət tikdir. Bir tərəfi qızıl, bir tərəfi gümüş olsun.

Çoban qızın dediyini yerinə yetirdi. Gəlib yatdı, səhər durub gördü ki, imarət hazırdır. Çoban padşahın yanına getməmişdən əvvəl qız dedi:

- Məhəmməd, padşah imarəti görəndə deyəcək bunun qapısı, pəncərəsi düz deyil. Onda sən deyərsən ki, günahkar ustadır. O deyəcək ki, ustanı çağır. Sən yenə gələrsən dənizin qırağına, həmin kağızı göstərərsən. Bacım çıxacaq, səndən soruşacaq ki, nə istəyirsən? Onda sən denən ki, daşdı daşını, kərpicdi kərpicini çəksin, imarət dəryaya qərq olsun.

Çoban gəlib padşahın hüzuruna dedi:

- Qıbleyi-aləm sağ olsun, imarət hazırdır.

Padşah adamları ilə gəlib girdilər imarətə.

Vəzir dedi:

-Padşah sağ olsun, denən ki, evin qapısı, pəncərəsi əyridir.

Padşah çobanı çağırtdırıb dedi:

- Çoban, imarət düz tikilməyib.
Çoban dedi:
- Qibleyi-aləm sağ olsun, günah tikəndədir.
Padşah əmr elədi ki, ustanı gətir. Çoban qızın dediyi kimi yenə dənizin qırağına gəldi. Kağızı göstərdi, qız çıxdı.
Çoban dedi:
- Daşdı daşını çəksin, kərpicdi kərpicini, imarət dəryaya qərq olsun. Qız "baş üstə!" – deyib yox oldu.
İmarət dəryaya qərq oldu. Çoban Məhəmməd padşahın taxt-tacına da əyləşdi. Arvadları ilə xoşbəxt yaşamağa başladı. Sizi də xoşbəxt yaşayasınız.

## XOCANIN NAĞILI

Biri var imiş, biri yox imiş, bir mahalda Xoca adlı kasıb bir kişi yaşayırmış. Xocanın külfəti çox, qazancı isə olduqca az idi. Külfətini dolandırmaq üçün hər gün səhər çıxar, bir də gün batanda gələrdi. Ailə yarı ac, yarı tox günlərini bir təhər başa vurardılar.
Xoca bir axşam övrətinə deyir:
- Ay arvad, deyirəm elə adam var ki, heç mənim qədər əziyyət çəkmir, güzaranları da bizdən qat-qat yaxşıdır?! Uşaqlar da lap çılınçılpaqdır. Yeməkləri də özün görürsən, güclə çatdırıram. Deyirəm ki, Allah təala bizə də öz evimizdə ruzi yetirsəydi, biz də insan kimi yaşayardıq.
Arvad ərinə təsəlli verir, əri isə elə dediyini deyir:
- Yox, arvad, Allah mənə ruzunu qoy öz evimizdə versin. Çöldən gələn ruzu mənə lazım deyil. Onsuz da külfət dolanmır. Xoca axşamı yatır, səhər tezdən yenə baltanı, külüngü götürüb iş dalınca gedir. Dağın yamacına gəlib çatır, bir az dayanır ki, nəfəsini dərsin. Qərara alır ki, burada əkin əkim, məhsul yetişdirim. Bu qayda ilə Xoca yer şumlamağa başlayır. Az şumlayır, çox şumlayır, birdən bel nəyəsə ilişir. Xoca əyləşib görür ki, bir küp qızıl. Dayanır, bir qədər fikirləşib deyir:
- Allah-taala mənə nə ruzi verirsə qoy öz evimdə versin. Çölün düzündə verilmiş ruzi mənə lazım deyil.
Axşam Xoca evinə gəlir. Evdə oturub bayağ gördüklərini gözləri qabağına gətirir. Bu vaxt qapı açılır. Qapının ağzında iki dilənçi dayandığını görür. Onlar əlini açıb, xocadan pay istəyirlər.



Xoca onlara deyir:
- Ey Allahın yoxsul bəndələri, mən də Allahdan öz evimdə pay istəmişdim. Allah mənə payı öz evimdə deyil, dağın yamacında verdi. Mən də götürmədim. İndi gedin siz mən deyən yerə. Bir küp qızıl var. Nə qədər istəyirsiniz götürün.
Dilənçilər Xoca deyən yerə gəlib çatdılar. Axtarıb qızılla dolu küpü tapdılar. Hər ikisi sevinə-sevinə xurcunlarına istədikləri qədər qızıl doldurub evlərinə sarı getməyə başladılar. Onlar yolda Xocanın avamlığından deyib gülür, bir küp qızıldan götürmədiyini yadlarına salanda uğunub gedirdilər. Onlar bir az dincəlmək üçün bir ağacın kölgəsinə yetişdilər. Oturub bir-iki tikə çörək yedilər. Ayağa durub xurcunu götürmək istəyəndə nə görsələr yaxşıdır? Xurcundakı qızıllar hamısı ilana dönüb. Dilənçilər dinməz-söyləməz xurcunu həmin Xocanın evinə gətirib dedilər:
- Bu bəlaya bizi Xoca salıb. Biz də ilanları gəl onun evinin buxarısından içəri tökək.
İçəridə Xoca ilə arvadı oturub, söhbət edib dərdləşirdilər. Birdən onlar çöldən ilan töküldüyünü gördülər. İlanlar isə töküldükcə qızıla çevrilirdilər. Xoca sevinə-sevinə arvadına dedi:
- Arvadı sənə deyirdim Allah mənə ruzunu qoy öz evimdə versin, gördünmü Allah mənə nə qədər qızıl göndərib? Yığışdır onları, hələ bir hissəsi də dağın yamacındadır. Gedək onları da gətirək.
Onlar hər ikisi sevinə-sevinə küpdəki qızılları da evlərinə gətirdilər. O gündən sonra bu kasıb ailə şən, firavan yaşamağa başladılar. Siz də yeyin-için, şən, firavan yaşayın.

## PADŞAHIN NAĞILI

Biri var idi, biri yox idi bir padşah var idi. Padşah öz-özünə fikirləşib vəzirə dedi:
Vəzir, görəsən bu dünyada mənim kimi padşah varmı? Vəzir dedi: Padşah, necə?
Padşah dedi:
– Ona görə ki, mən bir saray yapdırmışam, 40 qapı qoymuşam, hər qapıya da bir kisə gümüş pul. Camaata yaxşı lətif xörəklər yedirdirəm, bir manat da xərclik verib yola salıram.
Vəzir cavab verdi ki, padşah sağ olsun, sənin bu var-dövlətin heç. Ona görə ki, uzaq yerdə bir bakirə qız var, padşahdır. O, bir saray

yapdırıb, 80 qapı qoydurub, hər qapıya da bir kisə qızıl pul qoyub, yanında da adam. Lətif xörəklər yedirdib-içirdir, hərəsinə də bir qızıl pul verib yola salır.

Padşah dedi: Vəzir, bu iş gerçək olmasa, gedib-qayıdanda sənin nəslini yer üzündən kəsəcəyəm.

Padşahla vəzir dərviş libasına girib yola düşdülər. Az getdilər, çox getdilər gəlib saraya çatdılar. Yemək yedilər, elə ki çıxmaq istədilər qapıda duran adam dedi:

Dərviş baba, qızıllarınızı götürün.

Padşahla vəzir dedi:

– Biz cahankeş dərvişik, bizim qızıla ehtiyacımız yoxdur.

Bəs nə istəyirsiniz?

Biz padşahı görmək istəyirik.

Onda dayanın gedim padşaha deyim.

Həmin adam getdi padşahın yanına. Padşah sağ olsun, iki dərviş gəlib, qızılı götürmür. Sizi görmək istəyirlər. Padşah buyurdu ki, qoy gəlsinlər.

Elə ki, dərvişlər salam verdi padşaha, padşah dedi: - Dərviş baba qızılı niyə götürmədiniz? Dərvişlər cavab verdi ki, bizim qızıl ehtiyacımız yoxdur, biz cahankeş dərvişik. Padşah dedi: – Bəs məndən nə istəyirsiniz? Dərvişlər məsələləri açıb dedilər. Padşah dedi:

– Mən bu sirri sizə deyə bilməyəcəyəm. Bir şəhər var, iki günlük yoldur. Orada bir nurani kişi var. Hər səhər gəlib qızılı tökür qabağına, həvəngdəstədə döyüb sovurur. Onun sirrini öyrənib mənə desəniz, mən bu sirri sizə deyərəm.

Günə bir mənzil dərvişlər gedib həmin şəhərə çıxdılar. Gördülər ki, doğrudan da şəhərin kənarında bir nurani kişi əyləşib, qızılı töküb qabağına, həvəngdəstədə döyüb göyə sovurur. Dərvişlər dedi ki, əmi, hayıf deyil, bu qızılı göyə sovurursan? Bu sirdən bizi agah eylə. Nurani kişi cavab verdi ki, mən bu sirri sizə deyə bilməyəcəyəm. Filan şəhərə bir günlük yoldur. Orada bir pinəçi var, ayaqqabı yamayır, onun sirrini öyrənib mənə desəniz, mən də bu sirri sizə deyəcəyəm. Dərvişlər gedib həmən şəhərə çatdılar, baxdılar ki, şəhərdə bir dükan var, orada qoca bir kişi işləyir. Salam-kəlamdan sonra gördülər ki, bu kişi ayaqqabı tikir, əvvəl bizi dizlərinə, sonra dilinə, axırda isə ayaqqabıya soxur. Dərvişlər dedi ki, yazıq deyilsənmi, özünə bu qədər əziyyət verirsən? Bu sirrdən bizi agah eylə. Dərviş baba, bu sirri mən sizə deməyəcəyəm. Bir şəhər var, bir



günlük yoldur. Həmin şəhərdə bir oğlan var, oturub yolun kənarında səhərdən axşamadək ağlayır. Bu sirri öyrənib mənə desəniz, mən də bu sirri sizə deyərəm. Elə ki, dərvişlər gedib həmin şəhərə çıxdılar, baxdılar ki, gözdən məhrum bir oğlandı, başına döyür, ağlayır. Dərviş dedi ki, oğul, yazıq deyilsən, niyə ağlayırsan? Bu sirdən bizi agah eylə. Oğlan dedi ki, siz kimsiniz? Dərviş cavab verdi ki, biz dünyanı gəzən dərvişik. – Dərviş baba, mən bu sirri heç kəsə deyən deyildim, ancaq siz cahankeş dərviş olduğunuz üçün sizə deyirəm.

Günlərin birində şəhərə çıxmışdım, baxdım ki, yeyib-içənə bax, deyib-gülənə bax. Dedim ay Allah, mən də sənin bəndənəm, mən də yazığam. Mənə də rəhm eylə. Rəhm eylə deyəndə baxdım ki, bir dərviş böyürdən çıxdı, salam verdi, sonra dedi: "Oğul, dalımca gəl". Dalınca getdim, məni bir şəhərə apardı, gördüm 3 dənə at orada hazırdı. Dedi: "Oğul o atı çək". Atların üstü çuval, xurcunla dolu idi. Atın birini mən mindim, birini dərviş mindi, birini isə yedəyimə aldım. Dərviş baba, bura da qızılla dolu idi. Qızılı doldurub çuvala, gəldik. Şəhərin kənarında dərviş atın birini mənə verdi, dedi: "Oğul, ye onu, mənə dua oxu". Sonra iki qədəm getdim, gedəndən sonra dedim ki, dərviş, bu gün-sabah sən qoca kişisən, öləcəksən, o atı da mənə ver. "Ay oğul, mən qoca kişi piyada gedim?" dedi, sonra o atı da mənə verdi. İki qədəm gedəndən sonra dedim gərək o qızıl hasanı da alaydım, o öləndən sonra hasa kimə qalacaq? Qızıl hasanı da aldım. Alandan sonra içməyə su tapmadım, alışıb yandım. Dedim ki, dərviş baba, mənə su, alışıb yanıram. Dedi: "Ay oğul, bəs bu suyu görmürsən ki, alışıb-yanırsan?" Suyu içdim, sonra Allah gözümü əlimdən aldı. Yalvardım ki, dərviş baba, amanın bir günüdür, məni qapıma sal. Baxdım ki, nə tas var, nə hamam, nə at var, nə dərviş. Bundan sonra dərvişlər gəldilər pinəçinin yanına. Oğlanın danışdıqlarını nağıl eylədilər pinəçiyə. O, öz sirrini bunlara dedi:

Allah məni bundan da pis günə qoysun, görürsən də əhvalımı, dərviş baba! Nə qədər çalışırdım, bir abbası zornan qazanırdım. Bir də baxdım ki, bir nurani kişi bir cüt ayaqqabı əlində gəldi, dedi ki, bunun bir iynəlik yeri var onu tik, tikdim, bir onluq qızıl verdi, dedi: "Başına dönüm, mənim xırdam yoxdur". Dedim ki, elə onun qiyməti odur. Bir ay gəldi, bir il gəldi. Dükanın bir tərəfi qızılla doldu, özüm də saymıram. Fikir eylədim ki, olmaya bu padşahın xəzinəsini yarıb, padşah mənim boynumu vurdurar, gedim padşaha deyim. Getdim dedim: "Padşah sağ olsun, sonra mənim boynumu vurdurarsan". Bir nurani ki-

şidir, ayaqqabı gətirir, iynə vururam, bir qızıl verir. Mənə iki yasovul verdilər, gətirib dükanın yanında gizlətdim. Bir də baxdım ki, nurani kişi əlində ayaqqabı gəldi: "Əmi, bunun dabanına iki mismar vur". İşarə eylədim yasovullara, quş olub çıxdılar. Dedi: "Əmi, mən sənə nə pislik eylədim? Mən padşahın xəzinəsini yarmışdım ki, indi sən məni tutdurmaq istəyəsən? Geri döndüm ki, nə qədər qızıl var hamısı dəmir olub. İndi ondan ötəri bu bizi dizlərimə soxuram ki, qırılmışlar, niyə getdiniz padşahın yanına? Dilimə ondan ötrü soxuram ki, o qarılmışlar getdi, sən lal olaydın, o getmişdi, sən deməyəydin.

Dərvişlər gəlib nurani kişinin yanına, sirri ona danışdılar. Nurani kişi öz sirrini dərvişlərə dedi: "Camaat yığıldı mənim varımı – dövlətimi yedilər, qurtardılar, sonra mən şəhərə çıxdım, salam verdim. Salamımı almadılar. Məni görəndə şəhərdə gizləndilər. Fikirləşə-fikirləşə gəlirdim ki, bunlara mən nə pislik eyləmişəm, salamımı almırlar. Onda baxdım ki, bir qara ilan ağ ilanı tutur. Bir daş götürüb qara ilanı vurdum, daş gedib ağ ilana dəydi, ağ ilan yaralandı. Öz-özümə fikirləşdim ki,mən hansını vurdum. Onda baxdım ki, iki qara ilan gəldi, məni qabaqlarına salıb apardılar. Dedilər ki, pul versələr, alma, denən 40-cı otağı sənə versinlər. Məni apardılar bir zağanın içinə. Padşaha salam verdim. Xoş səfadan sonra dedi: "Məndən nə istəyirsən istə". Dedim ki, padşah sağ olsun verirsən 40-cı otağı mənə ver. Bu anda gördüm ki, açarları tulladı üstümə, dedi:

– Get, hansını istəyirsən götür. Gedib otaqlara baxdım ki, ləlcə-vahir doludur. 39-cu otağı götürdüm. Padşah açarı mənə verdi. İndi bir dəyirman ki, gecə-gündüz işləyə, onun sərvəti tükənərmi? Ona görə də onların acığına bu qızılı qabağıma töküb sovururam. Ondan sonra dərvişlər gəldilər qızın yanına. Sirri ona söylədilər. Qız dedi:

Biz çox kasıb olmuşuq, gedib o meşəyə, odunu qaldırdım belimə, belim yara olduğundan götürə bilmədim. Allaha yalvardım ki, mənə rəhm eylə. Onda baxdım ki, bir qoca dərviş gəldi, dedi ki, gəl min tərkimə. Dedim dəlisən, nəsən mən niyə sənin tərkinə minim? O, məni dörd mənzilə apardı. Bir dağın dibində saldı, dedi: "Get o dağın başında ot var, get o otdan mənə gətir". Gedib otdan gətirdim. Sünbülü vurdum döşlərə hamısı oldu qızıl. İstəsəm dünyanı qızıl edərəm. Padşah dedi: "Ay qız, mən də filan yerin padşahıyam. Bu mal-dövlət bir yerdə olsun, biz də evlənək, qurtarsın əhvalat". Göydən üç alma düşdü, biri mənim, biri nağılı söyləyənin, biri də qulaq asanın.



# QƏŞƏM ŞAHIN NAĞILI

Günlərin bir günündə Hindistan vilayətinin şəhərlərinin birində bir padşah yaşayırmış. Bu padşahın meşələr qələm olsa dəryalar mürəkkəb, var-dövlətini yazıb qurtara bilməzdilər. Padşah özlüyündə isə öz xalqına qarşı ədalətli, rəhmkar idi. Bu padşahın adına Abdürrəhman şah deyərmişlər. Şahın iki oğlu var idi. Böyük oğlunun adı Cümşüd, kiçik oğlunun adı isə Qəşəm idi. Hər ikisi qüvvətli, şücayətli pəhlivanlar idilər. Böyük qardaşı Cümşüd şah atasının hüzurunda böyük qəhrəmanlıq göstərmiş, ölkələrdən bac-xarac alıb xalq arasında böyük hörmət qazanmışdı. Kiçik qardaşı Qəşəm şah isə yeniyetmə, həddi buluğa çatmış bir oğlan idi. Əbdürrəhman şah isə hər hansı bir xeyir, şər iş tutanda oğlanlarının birini sağında, o birisini isə solunda əyləşdirib hökm verərdi. Beləliklə, şah öz xalqı arasında xoş güzəran keçirib, hökmdarlıq edirdi. Əbdürrəhman şahın Kim vilayətindən olan bir tacir dostu var idi. Tacir ticarətə çıxanda mütləq dostu Əbdürrəhman şahın yanına böyük töhfələrlə gəlib onu eşitdiyi, gördüyü yeniliklərlə tanış edərdi. Bir gün həmin tacir böyük bir töhfə ilə şahın yanına gəldi. Hər ikisi görüşdülər. Şah axşama böyük bir ziyafət düzəldib tacirlə, öz ailələrini dəvət etdi. Hər kəs öz yerini tutandan sonra şah üzünü tacir dostuna tutaraq dedi:

- Eşitdiyin, gördüyün əhvalatlardan danış, biz də qulaq asaq. Tacir söhbətə başladı:

- Ey padşah, yolnan gəlirdik, qafiləmizi yolda gözəl bir çəmənlikdə dayandırmışdıq. Bu anda gördük ki, üç nəfər cavan oğlan toz-torpağa bulanmış halda özlərini bizim qafiləmizə saldılar. Mənim nökərlərim həmin oğlanları mənim yanıma gətirdilər. Mən baxdım ki, bu oğlanlar üz-gözündən gözəl oğlanlardır. Ancaq sir-sifətlərindən yorğun, ac olduqları aydın bilinirdi. Mən qonaqlarım üçün xörək pişirtdim, çörək yeyib qurtarandan sonra mən onlardan soruşdum: «Siz haradan gəlib haraya gedirsiniz?» Əvvəl oğlanlar bir-birlərinin üzlərinə baxıb söyləmək istəmədilər. Nədənsə bunlardan daha yaşlı görükənin biri dedi ki, «Qardaşlar, qoyun dərdimizi bu tacirə söyləyək». Qardaşlar razı oldular. Böyük oğlan sözə başladı: «Biz Gülüstan-Bayram padşahının qullayırıq. Üçümüz də qardaşıq. Bizim şahımız bizi çox sevir. Həmişə öz yanında saxlayır. Bir gün şahın nökərləri atları suvaran zaman çaydan bir dənə gül tapırlar. Elə bir gül ki, nə bu dünyada, nə behiştdə bu gülün tayı, bərabəri tapıl-

maz. Nökərlər həmin gülü padşaha verdilər. Gülün həm iysinə, həm gözəlliyinə valeh olan padşah gülün harada bitməsini bilmək üçün bütün alimləri yığdırır. Hərə öz fikirini söylədikdən sonra qoca bir alim rəmm kitabını qabağına qoyub rəmmi atmağa başlayır. Nəhayət deyir: - Ey padşah, bil, agah ol ki, bu gül Gülücaqa adında bir qızın ağzından düşən güldür. Padşah soruşur ki, ey alim, bu gülün macərasını söylə. Alim söyləməyə başladı: "Padşah sağ olsun, bizim vilayətlərdən çox uzaqlarda, harada isə tilsimdə bir şah yaşayır. O şahın bir qızı var. Adına Gülcağa deyirlər. Qız olduqca gözəl qızdır. Bu qızın dalısınca neçə-neçə pəhlivanlar və şahlar gediblərsə də nəticədə heç nə əldə edə bilməyib məğlub olublar. Həmin qız ağlayanda gözlərindən bir tavax mirvari, güləndə isə bir tavax gül tökülər". Padşah bunu eşidən kimi üzünü biz qardaşlara tutaraq" ey mənim əziz qullarım, siz ki tilsim duvasını bilirsiniz, oxuyub olarsınız göyərçin, həmin qızı nə təhər olursa olsun mənim üçün gətirərsiniz. Sizi bütün dünya malı ilə qane edəcəyəm. Biz isə əlimizi gözümüzün üstünə qoyub, yeddi ildi ki, bütün hər torpağı, hər diyarı gəzirik, ancaq heç nə əldə edə bilməmişik. Ey tacir, bir il bundan qabaq tilsimli olan bir bağa düşmüşdük ki, bir az yatıb dincələk. Bu halda gördük ki, qızların gülüşmə səsi gəlir. Biz özümüzü kolların dibində gizlətdik ki, görək qızlar hansı tərəfdən gələcək. Bir də baxdıq ki, bir dəstə qız bağın sağ tərəfindən oynuya-oynuya gəlirlər. Bu qızların arasında üç nəfəri bir-birinə daha çox oxşayırdı, həm boyda, həm də gözəllikdə. Bunlar elə gözəl idilər ki, bütün dünyada tayı, bərabəri yox idi. Qızların biri nə dedisə, ortadakı qız qəh-qəhə ilə güldü. Gülən qızın ağzından o qədər gül töküldü ki yerə, arxadan gələn qızlar gülləri yığışdırmaq istədilər. Bu zaman bizi gördülər, hamısı çığırışıb birdən-birə bağdan yox oldular. Biz indi başa düşdük ki, bu həmən Gülcağa imiş. Biz həmin gülləri yığışdırdıq. Yenə də bir il sərbəsər həmin bağı gəzib qızlardan heç bir əsər tapa bilməyib naəlac qalıb qayıtdıq. Ey tacir, bizim macəramız belədir».

Ey padşah, həmin oğlanlar o güllərdən üç dənəsini mənim üçün veriblər. Mən də həmin gülləri sənin üçün töhfə gətirmişəm.

Padşah gülləri görən kimi ağlı başından gedib yıxıldı. Padşahı uzun bir çətinlikdən sonra özünə gətirdilər. Padşah həmin gülləri götürüb sol tərəfində oturan Qəşəm şaha üzünü tutaraq dedi:

–Oğlum, qardaşın Cümşüd şah böyük igidliklər göstərib ad qazanmışdır. Özü üçün dünyanın ən gözəli olan Pəri xanımla evlənmişdir.



Sən də get həmin Gülcağanı tap, onunla evlən. Qoy güləndə ağzından gül tökülüb şahlığımızın yaraşığı, ağlayanda isə gözündən mirvari tökülüb xəzinəmizin olsun. Qəşəm şah atasından bu sözü eşidən kimi gözlərinə qannıq enib qıp-qırmızı oldu, atasına baş endirib saraydan çıxdı. Gəlib öz mənzilində üç gün üç gecə behuş halda yatdı. Şah bu sözü oğlana dediyinə görə şahı əyanları danladılar ki, -ey şah, Qəşəm şah hələ heç bir yeri görməyib, o haradan gedib Gülçağanı tapa bilər? Şah da öz dediyindən peşman olub, tapşırdı ki, Qəşəm şahın başını qatsınlar, həmən sözü onun yadından çıxarsınlar. Qəşəm şah üç gün yatandan sonra fikrini dağıtmaq üçün başında bir neçə atlı ilə dəniz kənarına səyahətə çıxdılar. Bu zaman Əbdürrəhman şahın balıqçıları dəryada balıq tuturdular. Balıqçıların böyüyü baxıb gördü ki, Qəşəm şah bir dəstə qoşunla dəniz kənarına doğru gəlir. Balıqçı özünü yetirib Qəşəm şahın qabağında torpağa düşüb dedi:

–Ey şahzadə, biz bu gün atacağımız toru sizin baxtınıza atacağıq. Gəlin gedək, tordan nə çıxsa sizinkidir.

Qəşəm şah balıqçının sözünün yerə salmayıb torun çıxmasını gözlədi. Torçular toru uzun çəkə-çəkdən sonra tor qırağa çıxdı. Torda cəmi iki balıq var idi. Balıqlar o qədər gözəl idilər ki, hələ indiyənə kimi belə balıq görməmişdilər. Qoca torçu şahzadəyə baş əyib dedi ki:

–Ey şahzadə, mən yaşımın çoxunu balıqçılıqla məşğul olmuşam, hələ indiyənə qədər belə balıqlar görməmişəm. Şahzadə balıqları götürüb bir gölməçəyə qoydu ki, ölməsinlər, dedi ki, qayıdanda atama töhfə aparacağam. Qəşəm şah nə qədər çalışdı ki, balıqlar gölməçədə o tərəf bu tərəfə gedib oynasın, balıqlar hərlənib gözlərini Qəşəm şahın üzünə dikib, elə bil ki, danışmaq istəyirdilər. Şahzadə balıqlarda bu sirri görən kimi hər ikisini götürüb suya tulladı. Üzünü çevirib qoşuna dedi:

–Siz burada durun, mən dəniz yuxarı gedib qayıdacağam. Qəşəm şah atını məhmizləyib dəniz yuxarı getmişdi ki, bir də gördü ki, bir oğlan qabağına çıxıb dedi:

–Qəşəm şah, xoş gəlmisən.

Qəşəm şah tərəddüd içində dedi:

–Mənim Qəşəm şah olduğumu haradan bilirsən?

Oğlan dedi ki:

–Bil, agah ol ki, mənim adım Səlimcinindir. Cinlilər padşahının oğluyam. İstəsəm suda, istəsəmdə quruda gəzə bilərəm. İki saat bundan qabaq dərya padşahı ilə söhbət edirdik. Dərya padşahına xəbər

verdilər ki, sənin oğlanlarının ikisini torçular tutub Qəşəm şaha peşkəş ediblər. Dərya padşahı oğlanlarının qurtarılmasını məndən xahiş etdi. Az keşmişdi ki, xəbər gəldi ki, Qəşəm şah oğlanlarını suya buraxdı. Odur ki şah məndən xahiş etdi səni onunla görüşdürəm.

Qəşəm şah razılıq verdi. Həmin oğlan o saat özünü suya vurdu. Aradan bir neçə dəqiqə keçməmiş dərya təlatümə gəldi. Qəşəm şah baxdı ki, miqdarı bilinməyən balıq sürüsü gəlir. Ortalarında da mirvaridən qırılmış bir taxt üzərində yarıya qədər adam gətiririlər. Taxtı qırağa yaxınlaşdırdılar. Həmin yarı balıq, yarısı isə adam olan şah dilə gəlib dedi:

– Ey Qəşəm şah, yaxın gəl, mən tam sudan çıxa bilmərəm.

Qəşəm şah ayaqlarını soyunub suya girdi, bir qədər söhbətdən sonra şah təşəkkürünü bildirib və dedi:

– Özün istədiyin zaman gəlib mənimlə burada görüşə bilərsən, bu işi isə Səlimcinin edəcəkdir.

Hər ikisi halallaşıb ayrıldılar. Səlimcinin cibindən bir üzük çıxarıb Qəşəm şaha verib, dedi:

–Al bu üzüyü, bax bu zağanın ağzındakı daşı görürsənmi, həmin daşa vurub məni səsləyən kimi mən hazır olacağam. Səlimcinin elə də halallaşıb, qoşunun içinə qayıtdı. Qoşunu götürüb şəhərə daxil oldu.

Aradan bir neçə gün keçəndən sonra Qəşəm şah öz dərdini dağıtmaq üçün şəhərə çıxmışdı. Gördü ki, bir nəfər dəvriş cibindən bir şəkil çıxarıb həm gülür, həm də ağlayır. Qəşəm şah xəlvətcədən arxadan dəvrişi tutdu. Dərviş nə qədər çalışdısa, onun əlindən çıxa bilmədi. Qəşəm şah dəvrişin nə üçün ağlayıb, nə üçün güldüyünü soruşdu. Dərviş dedi: "Ey şahzadə, Allahdan gizlin deyil, səndən nə gizlin olacaq. Al bu şəkli bax, bu dünya gözəli Pəri xanımın şəklidir. Bu bir div əlində giriftardır. İldə bir dəfə gətirib bu Süleymani şəhərində xalqa göstərir. Hər bir görüşü yüz tümən puldur. Odur ki, mən fikirləşirdim ey Allah, elə bir adam ola, mənə yüz tümən pul verə, mən də gedəm o qıza baxam, onda gülürəm. Bir də deyirəm, kim pulunu mənə verər, onda da ağlayıram. Qəşəm şah soruşur:

–Qız nə vaxt gələcək? Dərviş təxminən bir aydan sonra bizim şəhərdə olacağını bildirdi. Qəşəm şah dərvişi də götürüb öz evinə qayıtdı. Dərvişi evdə qoyub, atını sürüb dərya kənarına gəldi ki, dərya padşahı ilə görüşüb yola çıxsın. Üzüyü zağanın ağzındakı daşa vurub Səlimcinini səslədi. Səlmicinin hazır oldu. Qəşəm şah dedi: -Dərya padşahını çağır, görüşək. Səlmicinin özünü suya vurdu. Aradan bir az



keçmişdi ki, dərya padşahını qabaqkından da daha ağır təmtəraqla kənara çıxardılar. Qəşəm şah dərya padşahının qabağına getdi. Şahla öpüşdülər. Bir az söhbətdən sonra Qəşəm şah dedi: -Mən Gülcağanın dalınca gedirəm. Şah nə qədər dedisə getmə, Qəşəm şah dediyindən dönmədi. Axırda şah Qəşəm şahdan soruşdu: "Sənin ora getmək üçün atın hansıdır?" Qəşəm şah atını, qılıncını göstərdi.

Şah dedi: "Belə atla, qılıncla getmək olmaz. Xızır peyğəmbər buradan keçərkən onun atı, qılıncı, paltarı dəryaya tökülmüşdür. Həmin onları mən sənə bağışlayıram". Şah əmr elədi balıqlara bütün şeyləri göstərsinlər. Bir azdan hər şey hazır oldu. Atın altı ayaqları var idi. Ona görə ata Şəşbaşbəhri deyirdilər. At insan kimi danışa bilirdi. Hərbi ləvazimat isə elə möhkəm idi ki, heç bir qılınc onu kəsə bilməzdi. Qəşəm şah ata minib, qılıncını belinə bağlayıb, polad paltarı geyəndən sonra dəniz atı ilə yoluna düzəldi. Şəhər əhli Qəşəm şahın altındakı atı görüb atasına xəbər apardılar ki, oğlun belə bir əcayib at gətirib. Şah çox sevindi ki, oğlu həmin fikri başından çıxarıbdır. Qəşəm şah dərvişi yanına çağırıb öz atını dərvişə verib, Şəşbaşbəhrini də özü minib yola düşdü. Bir neçə gündən sonra Süleymani şəhərinə yetişdilər. Qəşəm şahı dərvişə pul verib, özü üçün bir dəst çoban paltarı almasını əmr etdi. Dərviş paltarı alıb gətirdi. Qəşəm şah öz paltarının üstündən çoban paltarını geyib, başına çoban papağı, əlinə çomağ alıb dərvişlə dünya gözəli olan Pərinin görüşünə gəldilər. Bu zaman div özü hər bir adamdan yüz tümən pul yığdı, elə ki, çatdı Qəşəm şaha, dedi: - Ay axmaq çoban, bu başının papağına, əyninin paltarınamı yaraşır dünya gözəlinə baxmaq? Qəşəm şah hirslənib pulu divin üstünə tulladı. Div pulları yığıb bir səkinin üstünə çıxdı. Divin işarəsi ilə Pəri xanımı külafirəngiyə çıxardılar. Pəri xanım gözəlliyi ilə bütün məclisi işıqlandırdı. Div dedi: -Hər kəs Pəri xanımın yolunda canından keçərsə, mənimlə vuruşsun. Bir neçə pəhlivanla şahzadələr divlə vuruşdularsa da hamısı öldülər. Bu zaman Qəşəm şah çoban paltarını tullayıb özünü meydana atdı. Div çobandakı bu hərəkəti görəndə çox qorxdu. Hər ikisi bir-birinin kəmərlərindən yapışdılar. Heç hansı bir-birinə güc gələ bilmədilər. Axırda əllərini qılınca atdılar. Qəşəm şah divin qılıncını vurub yerə saldı, ikinci qılıncla vurub divin qolunun birini yerə saldı. Div əhvalatı belə görən kimi bir tilsim oxuyub, Pəri xanımı da götürüb ordan çıxdı. Bütün hamı bildi ki, div Pəri xanımı tilsimlə apardı. Qəşəm şah dedi: "Heç kəs nəyran olmasın, mən gedib onu tilsimdən qurtaracağam". O, Şəşbaşbəhri minib yola başladı. At bir

qədər gedəndən sonra dilə gəlib dedi: -Ey şah, daha yorulmuşam, düş, burdan belə tilsimdi, getmək olmaz. Qəşəm şah atın üzündən öpüb onu buraxdı. Az yatmışdı ki, gördü bir səs gəlir. Ayılıb gördü əlində əsa bir kişi dayanıb, dedi:- Qəşəm şah, hara gedirsən? Qəşəm şah cavab verdi ki, Gülcağanın dalınca gedirəm. Qoca Qəşəm şaha dedi:

–Al bu iki oxu, görükən dağın başına çıxarsan, orada iki əjdaha yatır. Sol tərəfdəki, əjdahanın yanında durub sağ tərəfdəki əjdahanın başına bu oxu atarsan, qayıdıb bura qədər gələrsən. Ancaq dalınca baxmazsan. Sonra sağ tərəfdəki əjdahanın yanında durub sol tərəfdəkini vurarsan. Ondan sonra tilsim sınar, sən də hara istəsən gedə bilərsən.

Qəşəm şah qocanın dediyi kimi tilsimi sındırıb Şəşbaşbəhri minib yola başladı. Bir qədər gedəndən sonra at dilə gəlib dedi ki, bura Behişdirəbli şahının bağıdır. Bura girmək qadağandır. Odur ki, Qəşəm şah atdan yerə enib özünü bağa atdı. Bağda nə görsə yaxşıdır, bağdakı Gülcağa, başında qırx incəbelli qızla bağı seyr edir. Qəşəm şah özünü qızlara yetirib Gülçaqaya bir könüldən min könülə aşiq oldu. Gülcağa da Qəşəm şaha aşiq oldu. Qəşəm şah qızların qabağına düşüb qızın atası Əli şahın yanına getdi, Gülcağanın elçiliyini özünə etdi. Əli şah Qəşəm şahdakı qəhrəmanlığı görüb qızını ona verdi.

Qəşəm şah Gülcağanı orada qoyub dünya gözəli Pəri xanımın dalınca yola düşdü. Bir neçə gün yol gedəndən sonra Pəri xanımı olan tilsimə çatdı. Gördü ki, orada böyük qalaça var. Qalaçanın içərisinə baxanda gördü ki, dünya gözəli Pəri xanım əlində kitab oturub ağlayır. Qız Qəşəm şahı görən kimi ayağa qalxıb divin yatdığını söylədi. Qəşəm şah əl atıb divin yaxasından tutub qaldırdı, hər iki düşmən vuruşmağa başladılar.

Bir qədər əlbəyaxadan sonra Qəşəm şah divi öldürdü. Div öldükdən sonra Pəri xanımı da götürüb Gülçağanın yanına qayıtdı. Orada bir neçə gün qaldıqdan sonra Əli şahla vidalaşıb Gülcağanı, Pəri xanımı götürüb öz vilayətlərinə yola düşdülər.

Bir neçə gün getdikdən sonra gəlib Hindistan vilayətinə çatdılar. Əbdürrəhman şaha xəbər getdi ki, oğlun dünya gözəli Pəri xanımı, Gülcağanı gətirib gəlir. Əbdürrəhman şah qoşunla oğlunun qabağına çıxdı. O oğlunu, qızları böyük təmtəraqla şəhərə daxil etdi. Böyük bir məclis düzəldib qırx gün, qırx gecə toy edib dünya gözəli Pəri xanım ilə Gülcağanı Qəşəm şaha aldı.

Beləliklə göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, birisi isə qulaq asanın.



## ƏDALƏTLİ VƏZİR

Biri var idi, biri yox idi bir padşah var idi. Bu padşah əzazil, camaatnan dolanmayan idi. Ancaq bunun bir vəziri var idi ki, bu padşahın əksinə. Bütün camaat onu sevir, onun hər bir əmrini can-başla yerinə yetirirdilər. Bir gün vəzir padşaha deyir ki, mənə icazə ver, gedim dünyanı gəzim. Padşah ona icazə verir. Vəzir gedir paltarını dəyişir, yola düşür. O gedir-gedir bir çobana rast gəlir. Görür ki, çoban uzanıb tütək çalır, qoyunlar isə hərəsi bir tərəfdə yatır. Çobanın yanında isə bir it var. Vəzir bu itdən qorxub yaxına getmir. Uzaqdan çobanı çağırır. Çoban dinmir, ancaq ayağının birini göyə qaldırır. Vəzir heç bir şey başa düşmür, bir də çağırır, bu zaman çoban dalı üstə qalxır, üzünü vəzirə tutub deyir: "Nə deyirsən, səhərdən sənə hay vermirəmmi?" Vəzir çobana deyir: "Ay çoban, bu qoyun səninkilərdi, yoxsa kimindi? Yox özgə adamındı". Vəzir gördü ki, yox, bu ağıldan kəmdir, üzünü ona tutub deyir: "Ay çoban, mən bu ölkənin vəziriyəm. Apar qoyunları yiyəsinə tapşır, sənə sözüm var". Çoban deyir yaxşı, de görüm nə deyirsən. Vəzir başlayır çobanı öyrətməyə. Sən gedib padşaha deyərsən ki, ay padşah mənim sənə gizli bir sözüm var. Padşah da deyəcək yaxşı de. Onda sən ona belə deyərsən: "Ay padşah, filan çoban mənim dörd qoyunumu aparıb, buna sən nə deyə bilərsən. Sən ona belə deyəndə padşahın sənə acığı tutacaq ki, məni dolayırsan, sənin gizli sözün budurmu. Bu vaxt o cəllad çağıracaq ki, sənin boynunu vursun. Bu vaxt sən qorxma, mən gəlib səni azad etdirərəm. Ancaq sən bu vaxtı ağlayarsan. Mən səndən soruşacam ki, ə, niyə ağlayırsan? Onda sən deyərsən ki, ay vəzir, padşah məni öldürür. Mən öz ölümümə ağlamıram, ancaq bir neçə vaxt olar ki, quş dili öyrənmişəm. Ancaq heç kəsi öyrədə bilmədim, qarnımda gedir. Ona görə də ağlayıram. Onda deyəcəyəm, əyə, onu mənə öyrədə bilərsənmi? Deyərsən ki, niyə öyrətmirəm. Onda deyəcəyəm, neçə günə öyrədərsən, deyərsən ki, 2-3 aya. Onda padşahın əlindən səni alacam. Deyəcəm ay hökmdar, bu çoban nə qanır, qoy quş dilini bizə öyrətsin, lazım olar. Çoban onunla razılaşıb, saraya tərəf üz tutdu, padşaha necə ki, vəzir demişdi o cürə də dedi...

Doğrudan da padşah acıqlandı, cəllad çağırdı ki, onun boynunu vurdursun. Bu vaxt necə ki, vəzir demişdi, gəlib çıxdı, çobanı onun əlindən alıb aşbazxanaya gətirdi. Aşpaza tapşırdı ki, ona nə qədər ki, yemək istəyir verin yesin. Çoban burada qalmaqda olsun, sizə kim-

dən deyim, vəzirdən.

Elə üç ay keçmişdi ki, padşah vəziri yanına çağırır, ona tapşırır ki, qoşun-zad hazırlasın, səyahətə gedək. Vəzir qoşun-ləşkər yığıb, padşaha xəbər verir, birlikdə gedirlər. Az gedirlər, çox gedirlər, gedib bir xəraba olmuş şəhərə çatırlar, barının üstündə iki quş görürlər. Padşah görür ki, bunlar bir-biri ilə danışırlar. Vəzir bir az dincəldikdən sonra deyir ki, ey hökmdar, bu quş öz oğluna o biri quşun qızını istəyir. O biri quş ona deyir ki, yaxşı mən qızı versəm nə verəcəksən. O biri quş deyir ki, xəraba yer görsən bunların hamısının adını sənin qızının adına saldıracam. Quş buna razı olmur, deyir ki, bu azdır. O biri quş ona deyir ki, sən heç narahat olma. Bu gələn padşahı görürsən. O bu ölkənin hökmdarıdır. Bu padşah hara getsə ora xəraba qalacaq, mən də hamısın sənə verərəm. Padşah bu vaxt bərk qəzəblənir, vəzirə deyir ki, vəzir, mənim zülmkarlığımı quşlar da bilir. Bunlar elə burdanca geri qayıtdılar. Gecə düşdü, hamı yatmağa getdi. Ancaq padşah yata bilmədi. O, fikirləşdi. İndi mən zülmü necə aradan qaldırım, haqnan, nahaqqı necə ayırım. Bu fikrnən o yatır. Səhər yuxudan ayılanda görür ki, eyvandan aşağı bir zəncir sallanır. O bu işə çox məəttəl qalır, vəziri çağırtdırır. Vəzir gəlib padşaha deyir ki, mənə görə qulluq. Padşah deyir ki, ay vəzir gör bu zəncir nədir, buradan niyə sallanıb. Vəzir deyir ki, de görüm bu gecə yatanda nə fikirləşib yatmısan. Padşah deyir ki, heç, elə fikirləşirdim ki, görəsən mən nə bilim haqq nədir, nahaq nədir. Vəzir bunu eşitdikdən sonra əmr edir ki, dustaqxanadakı bütün dustaqları bura gətirin. Bütün dustaqlar gələndən sonra vəzir üzünü padşaha tutub deyir ki, indi bilərsən. Vəzir əmr edir ki, dustaqlar gəlib bir-bir bu zəncirdən tutsunlar. Hansı ki, haqq dustağıdır zəncirdən tuturdu. Hansıki nahaqdır, zəncirdən tutan kimi zəncir yuxarı qalxırdı. Burada padşahla, vəzir haqqla, nahaqqı seçdilər. Bundan sonra vəzir üzünü padşaha tutub dedi ki, bu zəncirə ədalət zənciri deyillər. Padşah həmin gün çox kədərli gəzdi. Səhərisi gün o yenə yuxudan durub eyvana çıxanda, buradan zəncirin yenə asıldığını gördü, qabağa getdikdə gördü ki, zəncirin üstündən yekə bir ilan yuxarı qalxır, aşağa enir. Padşah qorxub vəziri çağırtdırdı. "Ay vəzir, gör bu ilan nə istəyir?" Vəzir baş üstə deyib, qabağa gəldi. Sonra padşahın yanına gəlib danışdı: "Ey hökmdar, bu ilanın dərdi var. Ərz elə şəhərdə olan nə ki, sənətkarlar var hamısı bura yığılsın. Görək ilanın hansı sənətkarlarla işi var". Bütün sənəkarlar hamısı yığıldılar. Bu vaxt ilan zəncirdən açılıb dülgərin ətəyindən tutdu. Dülgər qorxdu, qışqırdı ki, axı mən nə pislik eləmişəm. Vəzir ona dedi ki, qorxma. Camaat dağıldı. Vəzir dülgəri götürüb padşahın yanına gəldi. Dedi: "Ey hökmdar, ilanın işi dülgərlədir, ancaq o qorxur ki, əgər başına bir iş gəlsə, onun övladlarını kim saxlayacaq? Padşah ona dedi ki, ey dülgər, sən ilanla get-qorxma, əyər sənin başına bir iş gəlsə, onda mən sənə söz verirəm, sənin övladlarını mən saxlayacam. Dülgər qorxa-qorxa razılaşır ilanla getməyə başlayır. Az gedir, çox gedir axırda gəlib ilanlar şəhərinə çatır. Buraya çatanda dülgərin qorxudan ürəyi sıxılır, bir azdan özünə gələndə görür ki, ilanların hamısı bunun başına toplanıb. Bununla gələn ilan dülgərə him eyləyir ki, qorxma, dalınca gəl. Dülgər ayağa qalxır, ilanın dalınca dərəyə düşür. Birdən o gördü ki, bir səs gəlir, qorxudan gözləri qaralmağa başladı, dizləri əsdi. İlan ona işarə elədi ki, qorxma, gəl. Dülgər yenə onun dalınca getdi. Bunlar getdikcə səs çoxalırdı. Getdilər, gördülər ki, bir əjdaha uzanıb, ağzında maral. Ancaq maralın buynuzları qoymur ki, o maralı yesin. Bu çığırtı ona görədir. İlan dülgərə him eyləyir ki, qorxma. Gəl bu maralın buynuzlarını kəs.Dülgər gedib maralın buynuzlarını kəsir. Əjdaha özündən gedib yıxılır. Qalxanda ilana him eyləyir. İlan da dülgəri yanına çağırıb onunla bərabər gedib bir zağaya girirlər. Dülgər bura girəndə qorxdu, istədi geri qayıtsın, gördü ki, zağanın ağzı bağlıdı. İlan ona him elədi ki, qorxma, gəl. Dülgər də qabağa getdi, gördü ki, burada o qədər buğda sünbülü var ki, zağanın bir tərəfini tutub. İlan dülgərə him elədi ki, bundan götürsün. Dülgər az götürdü. Ancaq ilan him elədi ki, xurcunun hamısını doldursun. Dülgər xurcunu ağız-ağıza doldurdu, ilanın qabağına düşdü. İlan onun gəldikləri yola qədər gətirdi, dedi ki, sağ ol!

Kişi sevincək evə gəldi. Arvadı xəbər aldı, ay kişi, de görüm ilan səni neyləyirdi? Kişi başına gələnin hamısın arvadına danışdı, axırda dedi ki, ay arvad, o xurcundakı buğda sünbülünü mənə verdilər. Arvad durub xurcunu gətirib dedi: "Ay kişi, nə çox sünbül veriblər. Bunlar sünbülün birini qıranda gördülər ki, bu buğda deyil, bunun içi ləldir. Bunlar axşam yatdılar. Səhər dülgər həmin xurcunu padşahın yanına gətirdi. Başına gələnin hamısını padşaha nəql elədi. Padşah baxıb gördü ki, doğurdan da bunun içi ləldir. Tez vəziri çığırtdırdı: "Ay vəzir, de görüm bu nə olan şeydir?" Vəzir dedi: "Ay padşah, bu çox çətin şeydir. Mənə möhlət ver gedim görüm bu nə işdir". Padşah vəzirə möhlət verir. Vəzir yol tədarükü görüb gedir ki, harada qoca varsa on-

ları yığsın, öyrənsin. Gedir-gedir bir qocaya rast gəlir. Deyir: "Ay qoca, neçə yaşın var. Deyir: 200. O, əhvalatın hamısını söylədi. Qoca dedi ki, yox mən elə şey görməmişəm. Vəzir soruşdu ki, ay qoca, ayrı qoca yeri bilirsənmi. O dedi: "Ay oğul, get Təbrizə, orada bir qoca var, 300 yaşı var, bəlkə o bildi. Vəzir buradan üz tutur Təbrizə, gedib qocanı tapıb əhvalatı ona danışır. Qoca deyir ki, ay oğul, mən bilmirəm. Ancaq İsfahanda mənim bir qardaşım var, onun 400 yaşı var. Get onun yanına, o bilər. Vəzir İsfahana gedir, qocanı tapır. Əhvalatı ona danışır. Qoca deyir ki, ay bala, belə bir əhvalat var. Vəzir deyir ki, ay qoca, onu yerli-yerində mənə danış. Qoca başlayır danışmağa. Deyir ki, ay oğul, neçə illər bundan əvvəl bir kəndli bir əkin yeri alır. Bu başlayır buranın torpağını yumşaltmağa ki, taxıl əksin. Bu taxılı əkdiyi yerdə birdən əlindəki dəmiri yerə batır. Bu nə qədər əlləşirsə dəmiri çıxara bilmir. Bunu belə qoyub evə gedir, evdən bel götürüb bir də geriyə qayıdır. O, gəlib yeri qazmağa başlayır. Görür ki, burada bir zəncir var, dəmir də gedib ona ilişib. O, bu yeri qaza-qaza getdi gördü ki, bu zincir bir qazana dolanıb. O, qazanın ağzını açanda gördü ki, bunun hamısı qızıldır. O, hər şeyi burada qoyub, hansı ki bu yeri satmışdı o adamın yanına gedir. Deyir ki, ay kişi, sənin yerindən qızıl çıxıb, gəl hamısını apar ki, mən də yerimi əkim. Kişi ona deyir ki, əyə qızıl sənə çatır.Çünki o yer sənindir. O, əyər mənim olsaydı mən o yeri əkəndə çıxardı. İndi o sənin bəxtinə çıxıb. Bunlar başlayırlar burada dalaşmağa. Axırda camaat bunlara deyir ki, niyə dalaşırsınız. Gedin qazının yanına o ayırd etsin. Bunlar bu işə razı olurlar, ikisi də qazının yanına gedir. Qazı bunları qarşılayır, nə olduğunu soruşur. Bunlar bütün əhvalatı söyləyirlər. Qazı deyir ki, yaxşı, deyin görüm hansınızın oğuldan, qızdan var. Bunlardan biri deyir ki, mənim oğlum, o biri deyir ki, mənim də qızım var. Qazı deyir: "Lap yaxşı. Onda sən qızını ver onun oğluna, qızıl da elə bil ki, ikinizə də çatıb. Hə oğul, o həmən sünbüldür ki, ondan da ilan aparıb". Vəzir qocaynan görüşdükdən sonra ona öz təşəkkürünü bildirib geriyə qayıdır. O, gəlib necə ki qoca ona danışmışdı, hamısını nəql edir. Bundan sonra padşah vəzirə deyir ki, ay vəzir, gör o kəndli necə yaxşı adam olub ki, o qızılın hamısını özü heç kəsə bildirmədən götürməyib.

Bundan təsirlənən padşah, o gündən ədalətli, camaatla yaxşı dolanmağı fikirləşdi, belə də etdi. Vəzir isə onun bu işinə çox sevindi.



## BƏHRUZUN NAĞILI

Biri var idi, biri yox idi, keçmişdə bir padşah var idi. Bu padşahın üç oğlu, üç qızı var idi. Bir gün padşah azarlayır. Oğlanlarını yanına çağırıb deyir:

- Oğlanlarım, mənim sizə iki vəsiyyətim var. Biri budu ki, mən öləndən sonra üç gün qəbrimi qoruyun. Birinci gün böyük oğlum, ikinci gün ortancıl oğlum, üçüncü gün balaca oğlum qəbrimin üstündə qaravul çəksin. İkincisi budur ki, mənim elçi daşımın üstündə hər kim oturub qızımı istəsə, verərsiz ona.

Bir neçə gündən sonra padşah öldü. Padşahın kiçik oğlu o biri qardaşlarından çox qoçaq idi. Axşam padşahın balaca oğlu dedi:

–Atamızın vəsiyyətinə əməl etməliyik, böyük qardaş bu gün sənin növbəndir. Böyük qardaş geyinib, atını mindi, yola düşdü.

Böyük qardaş gedəndən sonra kiçik qardaş Bəhruz öz yaraq-paltarını geyib, onun dalınca getdi ki, görsün qardaşı atasının qəbrini doğurdan da qoruyacaq, yoxsa yatacaq.

Kiçik qardaş gedib gördü ki, qardaşı qəbrin üstündə bir saat dayanıb, sonra gedib samanlığa, çardağa çıxıb yatdı. Bunu görən Bəhruz atasının qəbrinin üstündə qarovul çəkməyə başladı. Gecə idi, bir də gördü ki, bir atlı gəlir. Atlı qırmızı geymiş, qırmızı yaraq taxıb, qırmızı ata minmişdi. Atın ağzından qırmızı alov çıxır. Atlı oğlanın üstünə hücum etdi. Padşahın oğlu bunu görüb, cəld öz qılıncını siyirib elə çaldı ki, atlının başı yerə düşdü. Atlının yarağını, atını da götürüb evə gəldi, gətirdiklərini gizlətdi. Səhər açıldı, böyük qardaş gəldi. Qardaşlar soruşdular:

–Nə gördün? Nə eşitdin?

Böyük qardaş cavab verdi ki, heç bir şey görmədim.

Yenə axşam oldu, bu gecə də ortancıl qardaş getdi. Bu gedəndən sonra yenə balaca qardaş öz atına minib onun dalınca getdi. Bir qədərdən sonra gördü ki, bu da böyük qardaşı kimi bir az dayanandan sonra gedib samanlı çardaqda yatdı. Bəhruz gəlib atasının qəbri üstündə dayandı. Gecənin yarısı gördü ki, bir atlı gəlir. Yaşıl paltar yaraq geyinmiş, yaşıl da at minmiş. Atın ağzından yaşıl alov çıxır. Atlı oğlana həmlə edəndə, padşahın oğlu buna aman verməyib, onu da öldürdü. Oğlan atı tövləyə çəkdi, yaraq-paltarları evdə gizlətdi.

Təzədən ortancıl qardaş da evə gəldi, bundan da soruşdular ki, qardaş nə gördün. Bu da böyük qardaş verən cavabı verdi. Üçüncü

gün kiçik qardaş getdi. Bir də gördü ki, uzaqdan bir sarı atlı, sarı paltar, sarı yaraq taxmış, atın ağzından sarı alov çıxan bir atlı gəlir. Padşahın kiçik oğlu bunu da öldürdü. Paltarını, yarağını, atını götürüb səhər tezdən gəlib atı o biri atların, paltarı paltarların, yarağı da yaraqların yanına qoydu. Qardaşlar soruşdular ki, nə gördün. Nə eşitdin? Bəhruz cavab verdi ki, heç nə görmədim, heç bir şey də eşitmədim. Beləliklə, bir neçə zaman keçdi. Bir gün günorta vaxtı padşahın kiçik oğlu bazardan evə qayıdarkən gördü ki, elçi daşının üstündə bir yekə quş oturub. Oğlan quşdan soruşdu:

–Nə istəyirsən?

Quş dedi:

–Atanın vəsiyyəti ilə sənin böyük bacını istəyirəm.

Bəhruz bacısını gətirib quşa verdi. Axşam qardaşlar soruşdular:

–Böyük bacımız hanı?

Bəhruz əhvalatı danışanda, qardaşların acığı tutub dedilər:

–Bundan sonra sən evdə oturub bacımızın yerində işləərsən. Bir gün yenə Bəhruz gördü ki, elçi daşının üstündə bir ilan oturub. Oğlan soruşdu:

–Ilan qardaş, nə istəyirsən?

Ilan dedi:

Mən ilanlar padşahıyam. Sənin atanın vəsiyyəti ilə ortancıl bacını istəyirəm. Oğlan bacısını gətirib ilana verdi.

Axşam qardaşlar bacılarını evdə görməyib soruşdular:

–Bəs bacımız hanı?

Bəhruz əhvalatı danışdı. Qardaşlar dedilər:

–Sən dəli olmusan nədi?! Bundan sonra hər iki bacımızın yerinə işləyəcəksən.

Bir gün yenə bir aslan elçi daşının üstündə oturdu.

Bəhruz soruşdu: – Nə istəyirsən?

Aslan dedi:

– Atanızın vəsiyyəti ilə kiçik bacınızı istəyirəm. Bəhruz kiçik bacısını da gətirib aslana verdi. Qardaşları bundan çox acıqlanıb dedilər:

–Bundan sonra hər üç bacımızın işini sən görəcəksən. O gündən Bəhruz evdə qalıb evi süpürür, xörək bişirir, ev-eşiyi təmizləyirdi. Bir neçə ay bu cür dolandılar. Bu zaman şəhərdə ən böyük bəylərdən biri sayılan Əhməd adlı bir varlı var idi. Bunun üç gözəl qızı var idi. Bu qızları çox bəylər, xanzadələr istəyirdi, ancaq Əhməd bəy heç birini verə bilmirdi. Çünki birisinə versə, o biriləri bundan inciyerdi.



Ona görə də şəhərin kənarında bir böyük xəndək qazdırıb, içini su ilə doldurub, dedi:

–Hər kim atını xəndəyin bu qırağından o biri qırağına sıçratsa, qız onundu.

Bütün şəhərdə olan bəylərin, xanzadələrin oğlanları atlanıb xəndəyin qırağında at çapmağa başladılar. Heç kim xəndəyin o bir qırağına atını sıçrada bilmədi. Padşahın iki oğlu da 500 manatlıq at alıb buraya gəldilər. Bəhruz yalvardı ki, məni də aparın, qoymadılar ki, sənin yerin deyil. İki böyük qardaş atlanıb getdilər. Bəhruz da tövləyə gedib atasının qəbri üstündən birinci gecə gətirdiyi qırmızı atı, paltarı, yarağı götürüb yola düşdü.

Xəndəyin qırağında toplaşmış adamlar gördülər ki, bir qırmızı atlı gəlir. Atın ayağı yerə dəymir, ağzından qırmızı alov çıxır. Onlar kənara çəkildilər. Bəhruz yaxınlaşıb atını elə sıçratdı ki, at qırx addım da xəndəkdən o yana düşdü. Bir də atı qaytarıb, böyük qızı ötürdüb gözdən itdi. Oğlan evə çatan kimi paltarı, yarağı soyunub yenə də gizlətdi, atı isə tövləyə çəkdi. Axşam oldu, qardaşlar çox bikef gəldilər.

Bəhruz soruşdu:

Söyləyin görüm, nə təhər oldu, qızı kim apardı?

–Bir qırmızı atlı gəlib qızı apardı, ancaq biz gərək sabah adama 1000 manatlıq at alaq. Səhər tezdən qardaşlar getdilər. Bəhruzu isə yenə də aparmadılar. Bir az sonra Bəhruz tövləyə gedib ikinci gecə gətirdiyi yaşıl paltar, yarağı götürüb getdi. Camaat gördü ki, bir atlı gəlir, ağzından da yaşıl alov çıxır. Oğlan gəlir, xəndəyin qırağına çatan kimi atı elə sıçratdı ki, iyirmi addım da o yana düşdü, ortancıl qızı götürüb gözdən itdi. Bəhruz qızı evdəki qızın yanına apardı, paltarları, atı da öz yerinə qoyub, ev işləri ilə məşğul olmağa başladı. Axşam oldu, qardaşlar gəldilər. Bəhruz soruşdu:

–Nə gördünüz? Nə eşitdiniz?

Qardaşlar dedi: nə olacaq, yenə bir yaşıl atlı gəlib qızı apardı. Əgər qismət olsa, sabah gərək hərəmiz 2000 manatlıq at alaq. Bəlkə bir iş edə bildik. Səhər tezdən gəlib, hər iki qardaş durub at tədarükü başladılar. Yenə Bəhruz yalvarmağa başladı ki, məni də aparın, axırıncı gündü, tamaşa eyləyim. Qardaşları razı olmadılar, özləri getdilər. Bunlar gedəndən sonra Bəhruz üçüncü gecə gətirdiyi sarı atı, paltarı, yarağı da götürüb yola düşdü. Camaat gördü ki, yuxarıdan bir atlı gəlir. Atın ağzından sarı alov çıxır. Camaat dedi:

–Bu gün də qızı bu apardı. Bəhruz bu minvalla axırıncı qızı da

götürüb gözdən itdi. Axşam Bəhruz yenə də qardaşlardan soruşdu:

–Deyin görüm bu gün qızı kim apardı? Səhər tezdən iki qardaş bazara öz işlərinə getdilər. Balaca qardaş da ev işləri ilə məşğul oldu. Beləliklə bir neçə gündən sonra Bəhruz dedi:

–Qardaşlar, atamız öləndən sonra biz bilmirik ki, atamızdan bizə nə qalıb. Durun evləri gəzək, görək nə var?

Qardaşlar razı oldular. Əvvəlcə tövləyə getdilər, gördülər ki, üç dənə at var, hərəsi bir rəngdədir. Qardaşlar bunu görüb içəri yürüməyə başladılar. Bəhruz onları dala itələyib:

–Atamızdan qalan atlar bunlar deyil,-deyib qapını bağladı, dedi:

–Gəlin otaqları gəzək. Otaqların birisinin qapısını açan kimi gördülər ki, üç dəstə yaraq asılmışdır. Qardaşlar özlərini yarağın üstünə saldılar. Bəhruz otağın qapısını bağlayıb, o biri otağın qapısın açdı. Gördülər ki, üç qız bir-birindən gözəl, taxt üzərində oturmuşlar. Qardaşlar özlərini içəri soxdular. Bəhruz qabaqların kəsib dedi:

–Dayanın!

Qardaşların ikisi də dayandı. Bəhruz böyük qardaşına dedi:

–Qardaş, yadındadırmı, atamızın birinci gecə qəbrini qorumağa gedəndə çıxıb samanlığa çardaqda yatdın. O gecə mən qırmızı atı, o qırmızı yarağı da bu qıza gətirmişəm. Al, bunlar sənindi. Sonra üzünü ortancıl qardaşa tutub dedi: sən də yatdın, bu yaşıl atı, yarağı da o gecə gətirmişəm. Bunlarla da bu qızı gətirmişəm. Al, bu da sənindi. Üçüncü gecə də növbəmdə bu sarı atı, sarı yarağı gətirmişəm. Bunlarla bu qızı gətirmişəm. Bunlar da mənimdi. Mənim arvadım evdən bayıra çıxmayacaq, çünki bu qızın Abid Kosa adında bir düşməni var ki, on ildi bu qıza aşiqdi. Beləliklə, hər iki qardaş öz arvadına tapşırdı ki, Bəhruzun arvadından göz-qulaq olsunlar, evdən eşiyə çıxmağa qoymasınlar. Bu gündən sonra hər iki bacı silirdi, süpürürdü, bişirirdi. Bir gün bu iki bacının kiçiyə acığı tutub həsəd aparırdılar. Öz aralarında dedilər ki, biz bunun qaravaşı deyilik ki. Qoy bir gün də o işləsin. Bunu deyib kiçik bacını çağırdılar ki, gəlib evi süpürüb, zibili aparıb tullasın. O gedən, qız bir də geri qayıtmadı. Axşam oldu, qardaşlar gəlib əhvalatı bildilər. O saat Bəhruz qızın dalınca getdi. Səhər aslanın evinə çatdı. Bəhruz məsələni açıb söylədi, qızın yox olmağını bildirdi. Aslan o saat dedi ki, qızı Abid aparıb. Bəhruz gecə aslanın evində qalıb, səhər tezdən ilanın mənzilinə gəldi. Bəhruz əhvalatı söyləyib, Abid Kosanın mənzilini soruşdu. İlan dedi:

–Tanıyıram, sən bu gecə qal, səhərdən qoşun götürüb gedərik.



Oğlan dedi:

–Yox, mən tək getməliyəm. İlan nə qədər elədisə, oğlanı yoldan döndərə bilmədi. Oğlan ilanla salamatlaşıb yol getməyə başladı. Axşam üstü quşun mənzilinə çatıb qapını döydü. Qapını açıb gördülər ki, Bəhruzdu. Bəhruz quşu görüb, əhvalatı söyləyib, Abid Kosanın mənzilini soruşdu.

Quş dedi:

–Gecəni burada qal, səhər mən sənə yol göstərərəm.

Bəhruz gördü ki, axşamdı, gecə vaxtı bir yerə gedə biləsi deyil. Gecəni quşun mənzilində qaldı. Səhər tezdən durub, quşdan Abid Kosanın mənzilin soruşdu. Quş dedi:

–Bax bu yol elə düz ora gedir, ancaq ehtiyatlı ol, çünki Abid Kosa yaman məlundu, özünü gözlə. O hər gün tezdən ova gedir. Bir tərəfdə dur gözlə. O gedən kimi, sən gedib qızı götür, qaç. Bəhruz gəldi, Abid Kosanın mənzilinə çatdı. Bir vaxt gördü ki, Abid Kosanın altında üç ayaqlı at darvazadan çıxıb dağa tərəf yol getməyə başladı. O saat oğlan həyətə girib, qızı səslədi. Qız gələn kimi, onu atın tərkinə alıb, başladı yol getməyə.Bu halda Abid Kosa onların dalınca tərpəndi. Bir vaxt Bəhruz gördü ki, Abid Kosa bunlara çatmaqdadır. Atını nə qədər bərk sürdüsə, qürtara bilməyib Abid Kosanın qabağına döndü. Abid Kosa Bəhruza çatan kimi qılıncını vurub onun təpəsini iki yerə böldü. Sonra atdan düşüb oğlanı parça-parça doğrayıb xurcununu gözünə doldurub atın belinə qoydu, qızı aldı, yenə də öz mənzilinə gətirdi. Oğlanın atı bir baş gəlib quşun mənzilinin qabağında dayandı, bərkdən kişnədi. Quş bunu eşidən kimi, qapını açdırdı, gördü ki, Bəhruzun atıdı, amma özü yoxdur. Atın üstündən xurcunu düşürüb gördülər ki, Bəhruz xəncəl kimi parça-parça doğranmış parçalarını necə ki, lazımdı öz qaydası ilə yerinə düzdü. Qanadının altından bir tük çəkib Bəhruzun cəmdəyinə çəkdi. O saat Bəhruz qalxıb oturdu, soruşdu ki, bəs qız hanı?

Quş soruşdu:

–Qızı görə bildinmi, yoxsa yox? Bəhruz əhvalatı quşa söylədi.

Quş dedi:

–Dur atı min, get Abid Kosanın mənzilinə. Bir kənarda durub gözlə. Nə vaxt Abid Kosa ova getsə, sən gedib qıza deyərsən ki, Abid Kosa gələndə atın haradan alındığını öyrənsin. Özün də bir tərəfdə gizlənib, onların danışıqlarını tamam eşidərsən. Ondan sonra qızı qaçırmaq asandı. Bəhruz quşdan bu sözləri eşidəndən sonra atını

minib yol getməyə başladı. Gedib Abid Kosanın bağında bir ağacın dalında gizləndi. Bir vaxt gördü ki, Abid Kosa atını minib evdən çıxdı. Bəhruz o saat gəlib qıza dedi:

–Abid Kosa gələndə ondan soruş gör üçayaqlı atı hardan alıbdı.

Axşam oldu. Abid Kosa ovdan gəldi, atını bağlayıb qızın otağına getdi. Abid Kosa qızın ağlamağını görüb səbəbini soruşdu. Qız göz yaşlarını silib dedi: Sən məndən öz sirlərini gizlədirsən. Elə olur ki, məni üçgünlərlə evdə tək qoyub gedirsən, hara gedirsən, hardan gəlirsən, o üçayaqlı atı haradan alıbsan, mənə söyləmirsən.

Abid Kosa dedi:

–Mən hər səhər tezdən ova gedirəm. O ki, üç gün gedib, gəlmirəm, onda bu dağın dalında mənim bir qoca anam var, onun yanına gedirəm. Mənim bu atım da bizim bu eşikdə bir daş var, hər kim o daşın üstündə oturur, qamçısını tez vurub qalxırsa, oradan dördayaqlı at çıxacaq. O ata heç bir quş çata bilməz. Yox, tez vurub qalxıza bilməzsə, oradan üç ayaqlı at çıxacaq ki, o at birincidən bir az yavaş gedəcək. Mən də bu atı ordan çıxarmışam. İndi bildinmi. Bunlardan başqa mənim heç bir sirrim yoxdur.

Səhər tezdən yenə Abid Kosa atını yəhərləyir ova gedir. Bu gedən kimi, Bəhruz evdən çıxıb birbaşa eşikdəki daşın yanına getdi. Daşın üstünə çıxıb qamçını cəld vurub qalxızdı. O saat daşdan bir dördayaqlı at çıxdı. Bəhruz ata minib, qızı da tərkinə alıb yol getməyə başladı. O saat Abid Kosaya xəbər getdi ki, qızı apardılar. Abid Kosa da Bəhruzun dalınca atını tərpətdi. Bəhruz atının cilovunu çəkib aram ilə gedirdi. Bir vaxt gördü ki, Abid Kosa gəlir.

Bu halda Abid Kosanın atı bərkdən qışqırıb qabaqdakı ata dedi:

–Ay nankor, mənim yiyəmin arvadını hara aparırsan?

O saat oğlanın atı dala dönüb dedi:

–Sən hələ dalına alıb mənim üstümə gətirdiyin adamın üzünə bax, sonra mənim üstümə gəl, heç olmasa mən bir qəribə, igid oğlan gəzdirirəm. Sən isə bir kaftarı alınısan dalına, mənim üstümə gəlirsən.

Bu halda Abid Kosanın atı dayandı, dönüb yiyəsinin üzünə baxdı. Bu vaxta qədər at Abid Kosanın üzünə baxmamışdı. At gördü ki, üstündəki bir kaftardı. O saat silkələnib, Abid Kosanın ayaqları altına salıb öldürdü. Bəhruz Abid Kosanın atına qızı mindirib düz öz evlərinə gəldilər. Qırx gün, qırx gecə toy edib, şad xürrəm yaşamağa başladılar.



## AQİL PADŞAH

Keçmiş zamanlarda Şah oğlu şah Abbas bir vilayətdə hökmranlıq edirdi. Çalışırdı ki, onun xalqı həmişə yaxşı güzəran keçirsin. Belə ki, şah Abbas həmişə şam edərkən əvvəlcə deyirdi:

Ey bizi xəlq edən Allah, əgər mənim vilayətimdə ac adam varsa qarşımdakı xörəyi mənə qismət etmə. Beləliklə hər axşam bu sözləri dedikdən sonra şam edərdi. Günlərin bir günündə axşam şam etmək istərkən həmin sözləri təkrar edib əlini xörəyə uzatdı. Bu zaman əlinə götürdüyü xörək töküldü və ona qismət olmadı. O əlini geri çəkib yerindən qalxdı. Öz imarətinin ətrafından bir imarətə çıxıb şəhərə göz gəzdirdi. Bu zaman şəhərdə evlərin bütün lampası sönmüş, lakin şəhərdən kənarda bir evdən işıq gəlirdi. Şah Abbas öz şahzadə libasını dərviş libası ilə dəyişib, bir qədər xörək götürüb həmin işıq gələn aynaya tərəf yola başladı. Get ha get bir qədər getdikdən sonra gəlib o evə çatır. Aynanın pərdəsi cırıq olduğundan evin içi görünürdü. Bu evin içinə baxıb nə gördü? Təxminən əlli yaşında bir qadın, evin müəyyən hissəsində olan ocağın üstündə bir qazan var. Bu qazanın altını qalayaraq hönkür-hönkür ağlayır, ətrafda isə cındır bir həsirin üzərində beş uşağın bir mitil altında uzandığını görür. Uşaqlar, "ana, bişdimi, ana, bişdimi?" – deyib fəryad qoparırlar. Ana isə gözündən qanlı yaşı axıda-axıda deyirdi: Hələ bişməyib.

Şah Abbas bu hadisəyə bərk təəccüb edib bu sirri öyrənmək fikri ilə qapını döydü.

Qadın: Kimsən? – deyə cavab verdi.

– Dərviş babayam, Allah qonağıyam. Qapını aç – deyə şah Abbas dilləndi. Qadın qəmli-qəmli köksünü ötürərək, get ruzunu başqa qapıdan istə, məndə heç bir şey yoxdur, dedi. Şah Abbas dilləndi:

– Mən pay verən dərvişəm, ay bacı, qapını aç. Qadın istər-istəməz qapını açır, Şah Abbas dərviş libasında otağa daxil olur. İrəli yeriyir, ocaqdakı qazanın ağzını açır, görür ki, qazanda su ilə birlikdə qara çay daşı qaynamaqdadır. Şah Abbas onsuz da bu sirri bildiyinə baxmayaraq qadından soruşur:

Bu nə işdir, bunu mənə başa sal.

Uşaqlar qəmli, intizarlı gözləri ilə qonağı süzürdü. Qadın dedi: Allahdan gizli olmayan sizdən nə gizli olar. Bu gün səhər tezdən indiyə qədər uşaqların, mənim dilimə heç nə dəyməyib. Beləki heç bir şeyimiz yoxdur, yoxdan Allah da bezardır. Odur ki, qazandakı

daşı qaynadaraq uşaqları aldadıram ki, yuxuya getsinlər. Bildiyimiz kimi ac adamın gözünə yuxu çətin gedər. Bəli mənim müsibətim belədir – deyə yenidən hönkürtü ilə ağladı. Bu zaman hirs başına vuran Şah Abbas vilayətində olan vəziyyətə təəccübləndi, gətirdiyi xörəyi ortalığa qoyaraq qadını, uşaqları doyunca yedirtdi. Nəhayət atasından yadigar olan üzüyü çıxarıb qadına verib dedi: Mən dövlətli dərvişəm bacı, necə ki, mən sağam, sizin dolanmağınıza mən kömək edəcəyəm. Al bu üzüyü, səhər get, bazarda qırx ədəd zərgər tükanı var. Həmin tükanların qırxında da yəhudi işləyir. Birinci, ikinci yox, üçüncü tükançıya müraciət edib, bu üzüyü xırdalarsan. Sizə lazım olan şeyləri alıb, qaytarıb gətirərsən. Beləliklə sən o pulu xərclə, mən özüm səni həmişə yoxlayacağam. Bu sözü deyərək Şah Abbas qapıdan çıxır. Uşaqlar bir ağızla "çox sağ ol dərviş baba" dedilər. Şah Abbas öz imarətinə gəldi. Qadın, uşaqlar isə yatdı.

Necə deyərlər Allah səhəri üzümüzə açsın. Səhər açıldı. Qadının beş nəfər olan uşaqlarının böyüyü 8 yaşında, kiçiyi isə 3 yaşında idi. qadın uşaqları başına toplayıb evin qapısını qıfılladı, uşaqlarına dedi: Mehriban balalarım siz məni qapıda gözləyin. Mən sizə hər şey alıb gətirəcəyəm.

Uşaqların hərəsi bir tərəfdən dedi: Mənə qırmızı çəkmə al, biri isə mənə don al, digəri isə qırmızı yaylıq almağı təklif edirdilər. Hamısına vəd verərək, balalarını qapıda qoyaraq ana bazara üz qoydu. Gəlib həmin tükanların qarşısında durub üçüncü tükanı müəyyən edib tükana daxil olur. Uzun göz, seyrək saqqalı olan tükan sahibi yəhudiydi:

Qardaş, xahiş edirəm mənim bu əmanətimi xırda edəsən, deyərək kağızın arasından birliyant üzüyü çıxarıb ona tərəf uzatdı. Yəhudi cəld qalxıb qadından bükülü kağızı aldı, açıb birliyant üzüyə diqqətlə nəzər saldı, qadına təklif etdi ki, içəri keç, xırdalayım. Qadın içəri keçdi. Yəhudi əlindəki birliyanta nəzər salıb müəyyən etdi ki, baxmayaraq qırx dükançının içində ən dövlətlisi mənəm, əgər dükanımdakı malı, qıraqdakı pulumu versəm yenə üzüyün qiymətini ödəyə bilmərəm. Qadına şər atmaq məqsədi ilə istər-istəməz qadına möhkəm bir şillə vurdu. Qadın özündən gedərək ağzı-burnu qanamış halda üzü üstə yerə düşdü. Bu halda həmin yəhudi haray salır, camaata belə elan edir ki, guya bir il bundan qabaq bunun tükanı yarılmış, həmin birliyant üzükdən bir cüt oğurlanmış ki, üzüyümün birinin başını bu qadında tutmuşam, digərini isə bu qadından tələb edirəm.



Haray-həşirə gələn camaatın içərisində bazar darğası olan yəhudi gəlir, bu nə hadisədir – deyərək qoca yəhudidən soruşur.

Yəhudi isə bazar darğasına göz vuraraq deyir. Sənin yaxşı yadındadır ki, bildir mənim dükanım yarıldı, bildiyin kimi iki birliyant üzüyüm oğurlandı. Onun isə birini bu qadında tutmuşam deyib, qadını göstərib təkrar edir.

– Əgər yalan deyirəmsə 12 imamın 6-sı sənə qənim olsun, 6-sı mənə. Vurğunu başa düşən darğa qoca yəhudinin dediklərini təsdiq edərək zavallı qadının qolların bağlayaraq aparır salır öz yaşadığı evin zirzəmisinə. Ağzına qıfıl vuraraq yəhudinin yanına gedir, onunla qarşı-qarşıya oturub şərab içərək qəniməti bölmələri haqqında söhbət edirlər. Qadının uşaqları isə intizarla analarının yolunu gözləməkdə idilər.

Qadın zirzəmidən fəryad qoparaaraq kimi isə köməyə çağırırdı. Darğanın arvadı zirzəminin qapısına gəlib, nədir deyərək, soruşur. Ay bacı, yanıram mənə rəhm et, mənə bir qədər su ver. Darğanın arvadı gedir, bir çaynik su gətirir, qadına su içirdir. Qadın su içdikdən sonra yalvara-yalvara deyir:

– Mənim uşaqlarım yiyəsiz qaldı, qan-ürək olacaqlar. Ərin gələndə de ki, aldıqları üzük də onların olsun, məni buraxsınlar. Mənim heç bir işdən xəbərim yoxdur. Mən oğru deyiləm.

Darğanın arvadı deyəcəyini vəd edib, evinə döndü. Bir qədərdən sonra darğa sərxoş halda evinə daxil oldu. Arvadı qadının dediyi sözləri ərinə söylədi. Əri isə arvadına "qadını get gətir" dedi. Darğanın qarşısında diz çökən qadın çox and-aman etdi ki, mən oğru deyiləm. Bunu gecənin birində bir dərviş verib. Məni azad et, gedim uşaqlarımın yanına. Darğa isə qadının dediklərini rədd edir, təzə itilədiyi dəhrə ilə kötüyü qarşıya gətirir. Qadına axırıncı dəfə müraciət edir. Ya üzüyün digərini boynuna al, ya da biləkdən iki əlini vurub salacağam. Qadın necə demişdi, yenə də elə söylədi. Çünki başqa çıxış yolu yoxdu. Düzü nədir o da budur. Darğa qadına əhəmiyyət verməyərək onun əlini biləkdən vurub salır, rədd ol get, deyir. Qadın qanlı göz yaşı axıdaraq darğanın arvadına müraciət edir. Aç mənim şalımı, əllərmi bağla, boynumdan as. Darğanın arvadı qadının əllərin boynundan asır, qadın uşaqlarının yanına yola düşür. İntizar içərisində analarını gözləyən uşaqlar analarını bu müsibətdə görüb hamısı vay-şivən edərək içəri daxil olurlar. Ana ilə balaları vay-şivənlə ağlamaqda olsunlar, sizə xəbər verim Şah Abbasdan. Şah

Abbas həmişəki kimi həmin gecə də həmin sözləri təkrar edərək yemək istədikdə bu zaman elə bil onun qolu qurudu. Belə ki, xörəyə əl apara bilmədi. Qəzəbli halda həmin minarəyə çıxaraq şəhərə nəzər saldı, həmin aynalıqdan işıq gəlməsini müəyyən etdi. Cəld dərviş paltarı geyib üz tutdu qadının evinə. Həmin aynanı görürkən yerindən içəri nəzər salıb gördü ki, qadının iki əlləri biləkdən kəsilmiş, boynundan asılmışdır. Qadın qızıl qan içərisində çırpınır, uşaqlar ətrafında qoyun-quzu kimi mələşirlər. Bunu görüb qəzəblənən Şah Abbas qapını döyür. Qadın deyir kimsən, şah cavab verir, həmin dərviş babayam, qapını aç.

Qadın deyir sən gələn yollara daş yağaydı, mən ona-buna nökərçilik edərək uşaqları birtəhəri saxlayırdım. Niyə sən mənə oğurluq üzüyü verib, əllərimi kəsdirib, məni zəlil etdin. İndi nə istəyirsən, get.

Şah Abbas inad edərək qapını açdıraraq içəri daxil olur. Xörəkdən uşaqları doydurub yatırdır. Qadını isə özü yedirdib, hadisənin necə baş verdiyini öyrənir. Mən sizə danışdığım kimi qadın da dərviş paltarında olan Şah Abbasa deyir. Şah Abbas səbr et, hamısı aydın olar- deyib evdən çıxır. Gecə ikən əmr verir, səhər heç bir tükan-bazar işləməsin. Səhər açılır. Şah Abbas qırmızı paltar geyib intiqam meydançasına gəlir. Bütün şəhər əhli meydançaya toplaşır. Şah Abbas öz əyanlarına qırx yəhudinin qolu bağlı gətirilməsini əmr edir. Əyanları otuz doqquz yəhudini qolu bağlı gətirib, cərgə ilə düzür, şahın hüzuruna gedib, qoca yəhudi darğanın tapılmamasını deyirlər. Şah əmr edir ki, bir saatlıq möhlət verirəm, əgər hər ikisin gətirməsəniz sizin boynunuzu özüm vuracağam. Necə deyərlər, can şirin olar. Əyanlar özlərini hər tərəfə vurub müəyyən bir samanlıqda, samanın altında bazar darğası ilə yəhudini qolları bağlı şahın hüzuruna gətirirlər. Şah öz oturduğu yerə gətirilməsini əmr edir, hər ikisini şahın yanına gətirirlər. Şah həmin birliyant üzüyü gətirdir, soruşur, qadının əllərini kim kəsib?

Qoca yəhudi darğanın üzünə baxır. Darğa cavab verir: "Bir oğurluq etdiyinə görə onun əllərini mən kəsmişəm".

Şah deyir: "Nə oğurlayıb?"

Bu zaman darğa qoca yəhudinin üzünə baxır. Qoca yəhudi deyir: Keçən il mənim tükanımdan bir cüt qızıl üzüyümü oğurlamışdır ki, onun da birini qadının əlində tutmuşam, digərini də istəyirəm.

Bu zaman şah deyir: Əgər bu üzük sizin olmasa sizə qarşı cəzanı qəbul edirsiniz?



Bəli, deyərək darğa, qoca yəhudi cavab verir. Həmin üzüyü bağışlayan Şah Abbasın atasının ən yaxın dostu 125 yaşlı zərgəri Şah Abbas gətizdirib deyir: Əmi, bu üzüyü tanıyırsanmı?

Qoca zərgər üzüyə baxan kimi üzüyün hansı tarixdə kim tərəfindən kimə hazırlanmasını deyir. Bu zaman darğa ilə qoca yəhudi sübut tələb edir. Qoca zərgər cəld bir halda nəqqaş üzüyün zümrüd qaşını götürür, qaşın altında zərgarın dediyi sözlərin olduğu sübuta yetirilir. Bu zaman şah deyir, nədir sözünüz, bu zaman hər iki nankor müqəssir heç bir söz demədən başlarını aşağı salır. Şah qoca yəhudi ilə birlikdə qırx yəhudinin başını vurdurur. Darğanı isə qadının qarşısında qadına bir qədər təsəlli olsun deyə aşağıdakı kimi qətlə yetirir. Onun qollarını, qılçlarını bağladır, uzadır, sərəncamındakı ləzgini çağırtdırır, işi başla deyir. Ləzgi altı santimetr uzunluqda mismarların hər iki üzünü biz edib darğanın ağzını açır mismarın bir ucunu üst damağına o biri ucunu alt damağına qoyur. Qurğuşunu əridərək damcı-damcı onun xirtdəyinə tökür. Bu zülm ilə onu məhv edir. Mərəkə dağılır, şah vəzirinə əmr edir. Həmin qadını uşaqları ilə birlikdə apar, öz ailən kimi onlara baxarsan. Vəzir onları qəbul edib uşaqları ilə birlikdə qadını öz imarətinə gətirir, hamısına təzə paltar verib, lazım yemək-içmək ilə təmin edir. Günlərin birində şahın, vəzirin arvadı həmin qadını götürüb hamama gedirlər. Hamamdan qayıdarkən Allahın şikayətxanasına daxil olub ziyarət edirlər. Biləkləri boynundan asılmış qadın getmir. Bunların getməsini buyurur, mən bir qədərdən sonra gələrəm deyir. Bir qədər ağlayaraq Allahtəaladan özünə şəfa istəyir. Qadını yuxu aparır. Bir qədərdən sonra görür ki, bunu kim isə durquzub deyir ki qalx zavallı qadın, istədiyinə çatdın. Qadın gözünü açıb heç kimsəni görmür. Lakin hər iki əlin sağ-salamat olduğunu görüb ağlayır. Ağlaya-ağlaya uşaqların yanına gəlir, bunda sonra şad-xürrəm yaşayırlar.

## BAZUBƏND NAĞILI

Biri var idi, biri yox idi, çox yaraşıqlı bir qoca padşah var idi. Bu qoca padşahın 3 oğlu var idi. Bir gün padşah bərk xəstələnir. O ölüm yatağında ikən öz böyük oğlunu yanına çağırır. Padşah görür ki, onun böyük oğlu çox mərifətsiz, ehtiramsızdır. Ona vəsiyyət edir ki, padşahlığı sənə verirəm. Padşah sonra ortancıl oğlunu yanına çağırır. O da böyük qardaşı kimi atası ilə kobud rəftar edir. Padşah bu oğlunu

da vəzirliyə verir. Axırda padşah kiçik oğlunu yanına çağırır. Kiçik oğlu içəri girərkən atasına baş əyir, onun sol əlindən öpərək sağına keçir. Padşah bunu görüb, cibindən bir dənə qutuya oxşar bir şey çıxarıb kiçik oğluna verir. Bir həftə keçdikdən sonra padşah ömrünü oğlanlarına bağışlayır. Padşahın böyük oğlu taxta çıxıb padşahlıq edir. Padşahın ortancıl oğlu da vəzirlik edir. Kiçik oğlu bunu görüb padşahdan bir iş istəyir. Padşah ona acıqlanıb deyir:

- Rədd ol buradan. Yəqin atam da sənə bir iş verib, sən özün bizdən gizlədirsən. Kiçik oğlu bundan hirslənib anasının yanına gedib deyir:

– Ana, mən bu vilayətdən gedəcəyəm, mənim üçün yol tədarükü gör.

Anası onu bu yoldan qaytarmaq istəyir. Ancaq İbrahim öz sözündən dönmür. Anası məcbur olur, ona yol tədarükü görür, üstəlik ona bir at da bağışlayır. İbrahim ata minərək başlayır yol getməyə. Az gedir, çox gedir, dərə-təpə, düz gedir, nəhayət bir düzənliyə çıxır. Onun yol tədarükü qurtardığı üçün məcbur olur ki, atını kəsib yesin. İbrahim bir neçə gün bu atın əti ilə dolanır. Nəhayət, bu at əti də qurtarır. O piyada, acqarına gəlib bir ağacın dibində uzanıb yatır. Atasının ölərkən ona verdiyi qutu onun heç yadına düşmür. Yatarkən onu nə isə incidir. O yuxudan oyanır, əlini cibinə salır. Bu vaxt o əlini nəyə isə toxunduğunu görür. Çıxarıb baxır ki, bir qutudur. O, bunu əlində oynadıb sevinərək öz-özünə deyir: Mən şəhərdən gedərkən bunu satıb özümə çörəkpulu edərəm. Birdən qutuya diqqətlə baxarkən onun üstündə bir yazı görür. Oxuyub görür ki, bu qutunun qiyməti yeddi padşahın xəzinəsindən də artıqdır. O əlini qutuya sürtür. Bu vaxt birdən qutunun qapağı açılır, bir qoca kişi hazır olur. Qoca üzünü İbrahimə tutub deyir: Mənim üçün nə qulluq?

İbrahim dedi:

– Bu necə olan işdir. Sən haradan gəldin?

Qoca kişi isə dedi:

– Sən atanın verdiyi bu bazubəndi möhkəm saxla. O, sənin üçün hər şeydən artıqdır. Sən nə kimi çətinliyə düşsən bu bazubənd sənə kömək edər. Sən nə istəsən o dərhal sənin arzunu yerinə yetirəcək.

İbrahim onun bu sözlərindən çox sevinib deyir: Mənim üçün bir neçə dadlı xörəklər gətir.

Bir neçə anın içində qoca onun dediyi şeyləri hazır edir.

İbrahim yeməyini yeyib qocaya deyir:



– Məni buradan şəhərə apar. Qoca bir dəqiqənin içində onu şəhərə gətirir, deyir: İbrahim, sən bu bazubəndi heç kimə göstərmə, heç kimə vermə. İbrahim şəhəri dolanıb özünə iş tapmaq istəyir. Axırda bir ustanın yanına gəlib çıxır, deyir: Usta, məni özünə şagird götürərsənmi?

Ustabaşı dedi: mən heç özümə çörək pulu qazana bilirəm ki, qaldı sən.

İbrahim ona dedi: Mənim yemək-içməyim özümdən. Ancaq mən bu sənəti öyrənmək istəyirəm. Bir çox sözdən sonra ustabaşı İbrahimi özünə şagird götürür.

Günlərin bir günündə bu şəhərin padşahının qızının toyu imiş. Toy üçün paltar tikməli idi. Lakin heç kim padşahın qızının paltarlarını tikmək istəmirdi. Çünki əgər dərzilərin tikdiyi paltarlar qızın xoşuna gəlməsə dərhal boynu vurulurdu. Bir gün padşahın adamları usta başının yanına gəlib deyirlər: Padşah əmr edir ki, bu paltarları tikəsən. Lakin ustabaşı qorxub paltarları tikmək istəmir. Bu vaxt şagirdi İbrahim irəli yeriyib deyir: Usta paltarları götür, mən tikərəm.

Ustabaşı hirslənib ona deyir ki, bir belə camaat tikə bilmədi, sən necə tikəcəksən.

İbrahim söz verir ki, paltarları tikəcəkdir. Ustabaşı çar-naçar razı olur. Qonşu ustalar İbrahimin yanına gəlir, ustabaşını danlayırlar. Sən qırx günə bu paltarları necə tikəcəksən? Özün-öz əlinlə ölümə gedirsən. Paltarları tikə bilməsən boynun vurulacaq.

Usta görür ki, onlar düz deyirlər. Çox qəmgin evə gəlib bu məsələni arvadına deyir. Arvad hirslənib deyir:

– Onlar çox düz deyirlər, sən paltarı tikə bilməyəcəksən.

Ustabaşı çox fikirləşir. Axırda arvadına deyir: Mən bu işə bir əncam çəkməliyəm. Usta həyətdə bir quyu qazdırır. Qırx günlük yemək-içməyin bura yığır. Arvadına tapşırır ki, kim məni soruşsa deyərsən ki, ustabaşı ölüb, onu dəfn etmişəm. Ustabaşı arvadına deyir:

– Arvad, iki gündən bir İbrahimin yanına gedərsən, baxıb görərsən ki, o paltarı tikir, ya yox.

Arvad həmişə gedir, görür ki, paltarlar necə gətirilibsə elədir. İbrahim bütün günü heç bir iş görmür. Bazubəndi silir, bu vaxt qoca hazır olur. İbrahim əmr edir ki, bir tay kişmiş, bir tay fındıq gətirsin. Qoca onun dediyi şeyləri hazır edir. İbrahim bütün günü kişmiş yeyir. Bir gün ustabaşının arvadı onun yanına gəlir, görür ki, İbrahim boş-bekar oturub fındıq yeyir. Paltarları tökülüb qalıb. Kişi arvadına

deyir: Arvad səsə salma, kim məni soruşsa deyərsən ki, ölüb.

Günlər ötür, qırx günün tamamı olmağına az qalır. 38 gün keçir. Axşam olanda İbrahim qutunu silir. Bu vaxt qoca hazır olub deyir: Mənə nə qulluq?

İbrahim: Qul sahibi olasan. Bu paltarları iki günə tikib hazırlamalısan.

İki günə paltarlar hazır olur. Hamı gəlib paltarlara baxır, onun tikilməsinə heyran qalırlar. Gələnlər ustanı soruşurlar. Lakin şagird ustanın yerini bilmir. Qırx günün tamamında padşahın adamları gəlib paltarları istəyirlər. İbrahim deyir ki, ustabaşı gəlib çıxmayınca mən paltarları verə bilmərəm. Nə qədər gözləyirlərsə də usta gəlib çıxmır. Axırda İbrahim ustanın evinə gəlir, arvadından soruşur. Arvad deyir ki, usta 20 gündür ki, ölüb, hələ sən indi onu soruşursan. İbrahim onun sözünə inanmır. Deyir ki, sən yalan deyirsən. Usta evdədir. İbrahim evi axtarır, ustanı quyudan tapır. O ustanı quyudan çıxarır.

Usta deyir: – Mənə yaxşı gün ağladın. İkimizin də boynu vurulacaq.

İbrahim deyir: – Qəm yemə usta, paltarlar hamısı hazırdır.

Usta qorxa-qorxa gəlib şahın sarayına çatır. Padşahın adamları ustanı şahın hüzuruna gətirirlər. Usta baş əyib kənarda dayanır. Padşah ustaya deyir: Usta sənin tikdiyin paltarlar mənim çox xoşuma gəlir. Məndən nə istəyirsən istə, nə desən verəcəyəm.

Usta deyir: Mən paltarları tək tikməmişəm. Mənim şagirdim paltarları tikib.

Padşah ustaya qiymətli daş-qaş verib yola salır. Usta sevinə-sevinə evə gəlir. Padşah sonra da İbrahimi saraya çığırtdırır. İbrahim şahın hüzuruna gələrkən ona ədəblə baş əyir. Padşah üzünü İbrahimə tutub deyir: Oğlum, məndən nə istəyirsən istə. Oğlan istər-istəməz utancaq bir tərzdə dedi: Bu paltarları tikilən qızı istəyirəm. Padşah bunun ağıllı olduğunu görüb öz qızını ona verməyə razılaşır. Bu sözdən sonra onlar vidalaşıb ayrıldılar. İbrahim gəldi dükanına. Səhəri gün usta dükana gələndə İbrahim ustanı görüb dedi: Get padşahın yanına. O bir yer təyin etsin, mən orada imarət tikdirim.

Usta getdi padşahın yanına. Padşahdan əvvəl vəzir qəzəbləndi. Bir böyük nəhəng daşlı dağı nişan verib göstərdi ki, imarəti orada tikdirin. Bu sözdən padşah narazı qaldı. Ancaq kürəkənin cəsarətini öyrənmək üçün bir söz demədi. Usta xudafizləşib İbrahimin yanına gəlib dedi: – Qız tapmırdın evlənməyə. Gör səni necə çətinliyə saldı.



İbrahim dedi: – Usta eybi yoxdur. Haranı nişan verirlər mən orada imarət tikdirərəm. Elə ki, gecə oldu, İbrahim tək qaldı dükanda. Atası bəxşiş edən bazubəndi cibindən çıxardı. Düyməsini basdı. Bazubəndin qapağı açıldı. Dərhal yanında bir qoca kişi hazır oldu. Dedi: oğul, mənim üçün nə qulluq? İbrahim dedi: o hündür dağları uçurub yerində imarət tikdirərsən. Özü də bir kərpici qızıl, o biri kərpici gümüş. Bir şərtlə ki, bu gecə ərzində hazır olsun. Qoca İbrahimə təzim edərək ondan ayrıldı. Qocaya yeddi padşahın qoşunu tabe idi. Yarım gecənin müddətində dağı sökdülər, torpağını kənara atdılar. Yerində qalan hissəsində imarəti qurdular. Səhər günəş təzəcə boylanırdı ki, imarətin qızıl-gümüş kərpicləri günəş işığına qarışıb padşahın pəncərəsindən onun gözünə düşdü. Padşah ətrafa nəzər saldı. Dağların yox olduğunu görüb çox təəcübləndi. Padşah fikirləşdi ki, belə adama qızımı verməklə mən heç də uduzmuram. Bu adam gələcəkdə mənə lazım olar. Padşah bu fikrindən sonra qırx gün toy çaldırıb qızını İbrahimin evinə köçürdü. Qızın İbrahimi görməyə gözü yox idi. Yarıkönül qızla oğlan yaşayırdı. Gəlin kədərli surətdə öz nişanlısı ilə rəftar edirdi. İbrahim öz nişanlısına dedi: – Nə üçün sənin üzün gülmür? Səni mən necə cah-calala gətirmişəm.

Nişanlısı cavab verdi: – Əgər mənim gülməyimi istəyirsənsə mənim sualıma düzgün cavab ver. Məni nəyin səbəbinə ala bilibsən?

Bu sözdən İbrahim öz nişanlısının bu halını görüb onun könlünü aldı. Bazubəndi çıxarıb dedi ki, bunun səbəbinə. O günü gülə-gülə keçirdilər, axşam oldu. Onlar gecə yatdılar. Amma qızın gözünə yuxu getmədi. Gecə yarısından sonra qız gördü ki, İbrahim ağır yuxudadı. İbrahimin üst-başını axtarıb bazubəndi tapdı. Dərhal bazubəndin qapağını açdı, qoca yanında hazır dayandı. Çox məyus halda soruşdu: Mənim üçün nə qulluq?

Qız dedi: – Mənim bu nişanlımı aparıb dəryanın yanında, orada daşa elə çırparsan ki, onun əti, şilləsi da qalmasın.

Qızın əmrini qoca yerinə yetirdi. Apardı, ancaq oğlanı öldürmədi. Ona töhmət verib geri döndü. Gəldi qızın yanına. Qız əmr etdi ki vəzirin oğlunu mənim yanıma gətir. Qoca da elə həmin anda vəzirin oğlunu gətirib qızın yanına qoydu. Qızın birinci nişanlısı olmaq üçün bir-biri ilə söhbətə başladılar. Bunlar burada söhbət eləsinlər, görək İbrahimin halı necə keçdi. Cinlər padşahının qızı Ağca Pəri xanım bu əhvalatı gecə yuxuda gördü. Səhər durub belə qərara gəldi ki, yuxunu sınamaq üçün görək bu düzdürmü? Ona görə bir ovsun oxu-

yub bir göyərçin oldu. Qabaqca qərara gəldi ki, Nil dəryasının yanına gəlib. İbrahimin orda olub-olmamasını bilsin. Gəldi bir ovsun oxudu, oldu gözəl bir qız. Gördü ki, İbrahim əzab çəkir. Soruşdu: İbrahim bu nə gündür. Niyə bu hala düşmüsən. İbrahim ağlayır, qıza yalvarırdı. Məni burdan xilas et. Qızın rəhmi gəldi İbrahimə. Oradan oğlanı xilas edib apardı öz imarətinə. Ağca Pəri xanım öz qulluqçularına əmr etdi ki, İbrahimi yuyundurub təzə libas geyindirsinlər.

Bir neçə gün beləcə yaşadılar. İbrahimin üzü gülürdüsə, qəlbindən qara qanlar axırdı. Ağca Pəri xanım soruşdu: İbrahim, mən səni xilas edib bura gətirmişəm. Sən nə üçün gündən – günə solub-saralırsan? İbrahim cavab verdi ki, dərdim çox böyükdür. Ağca Pəri xanım maraqlandı bunun dərdini öyrənməyə. İbrahim belə qərara gəldi ki, bu günə kimi olan əhvalatı Ağca Pəri xanıma söyləsin.

Bundan sonra qız gördü ki, vəziyyət nə yerdədir. Dedi: mən sənin bazubəndini alıb gətirsəm rəngin açılarmı?

Çox böyük maraqla İbrahim cavab verdi ki, ayaqlarına diz çökərəm. Bu danışıqdan sonra Ağca Pəri Xanım qərara gəldi, uçub gəldi imarətin üstünə, göyərçin şəklində qondu. Səhər vəzirin oğlu ilə nişanlısı imarətin bağçasında gəzişirdilər. Necə oldusa padşahın qızı göyərçini görüb dedi: Oxu gətir, bunu vur. Vəzirin oğlu buna razı olmadı. Dedi nə üçün, gör quş nə gözəldir. Bu sözlərdən sonra göyərçin özünü gizlətdi. Vəzirin oğlu öz nişanlısı ilə gününü keçirib öz evlərinə getdilər. Bu vaxt göyərçin yerə endi, imarətin yanına gəldi. Bütün imarətin qapısın axtardı ki, bir yol tapsın. Lakin yol tapa bilmədi. Bu vaxt göyərçin bir ovsun oxuyub oldu bir qarışqa. İçəri daxil olandan sonra bir ovsun oxuyub oldu bir siçan. Bütün imarətin hər yerini axtardısa bazubəndi tapa bilmədi. Oğlanında hər yerini axtardı, lakin heç nə tapa bilmədi. Şam yeməkləri çox yağlı olduğu üçün yemək stoluna sirkə qoyulmuşdu. Siçan quyruğunu batırdı sirkənin içərisinə, sonra qızın burnuna saldı. Elə bu vaxt qız asqırdı. Asqıranda qızın ağzından bazubənd kənara düşdü. Siçan bazubəndi götürən kimi dərhal ovsun oxuyub oldu bir qarışqa. Oda bir ovsun oxuyub oldu bir göyərçin. Uçdu qondu imarətin üstünə. Özlüyündə belə qərara gəldi ki, bu qız İbrahimin sinəsinə dağ çəkib, gərək mən onun sinəsinə dağ çəkəm. Səhərin açılmasını gözlədi. Bunlar bağçaya çıxıb gəzinəndə bazubəndi onlar göyərçinin ağzında gördülər. Qız çağırıb haray saldı ki, Göyərçin bazubəndi apardı. Lakin onlar silah gətirənə kimi göyərçin çox uzağa uçmuşdu. Onların qərarı puça çıxdı. Göyərçin öz



yerinə uçub gəldi. Yenə də bir ovsun oxuyub oldu bir qız. Ağca Pəri xanım bazubəndi götürüb İbrahimə verdi. İbrahim həddindən artıq sevindi. İbrahim razılıq verdi ki, Ağca Pəri xanıma evlənsin. Sonra bazubəndi silib oxuyan kimi qoca yanında hazır oldu. Çox salamdan sonra İbrahim dedi: – Əmi, o imarəti söküb götürərsən, yerində həmin dağı qurarsan. Qoca əmr etdi, imarəti söküb götürdülər, yerində əvvəlki dağı qurdular. Bundan sonra İbrahim Ağca xanımı da götürüb, bazubəndə özü sərkərdə oldu. Gəldilər həmin qızın atası padşah olan torpağa. Çadırlar quruldu. Adam göndərdi. Qaynatasını çağırdı. Padşah da sevinə-sevinə böyük bir sovqatla gəldi. Padşah nə qədər baxırdısa imarəti görmürdü. Buna da çox təəccüb edirdi. Nəhayət gəlib çadırlara çatdılar. Bunları böyük ehtiramla qarşıladılar.

Padşahı bəzəkli çadırın içinə apardılar. Padşaha layiq yer düzəltmişdilər. Oraya dəvət edib əyləşdirdilər. Ağca Pəri xanım padşaha özü qulluq edirdi. Padşah elə bildi ki öz qızıdır. Dərhal qalxdı ayağa. Ağca Pəri xanımı qucaqlayıb öpdü, əhvalatı soruşdu. Ağca Pəri xanım cavab verdi: Mehriban ata, qızını tanımırsan?

İbrahim Ağca Pəri xanımın sözünü kəsdi, qoymadı danışmağa, əhvalatı danışdı. Buna padşah çox qəmgin oldu. Daha orada qalmağa qərarı gəlmədi. Qəzəblənib öz qızını, vəzirin oğlunu həlak etdi. İbrahim ilə Ağca pəri xanım da padşahın torpağını tərk etdilər. Oradan birbaşa ata yurduna yol aldılar. Gəldilər öz ata torpağına çatdılar. Çadırlar qurub rahat olandan sonra İbrahim öz doğma qardaşı padşaha elçi göndərdi, müharibə elan etdi. Elçilər gəldilər, İbrahimin sözünü padşaha yetirdilər. Padşah üç gün möhlət istəyib cavab verəcəyini bildirdi. Nümayəndələr geri qayıdandan sonra padşah günahlı surətdə bir neçə nəfər göndərdi ki, göz qoysunlar. Vəzir İbrahimin çadırına yaxınlaşanda gördülər ki, onların qoşunu çox böyükdür. Onlar qorxub geri çəkildilər. Padşaha vəziyyətin nə yerdə olduğunu xəbər verdilər.

Padşah fikirləşdi ki, bunlara gücü çatmayacaq. Dərhal öz tərəfindən elçi göndərdi İbrahimin üstünə, nə istəyirsinizsə verək, bizim müharibə etməyə gücümüz yoxdur.

İbrahim dedi: – İndi ki, müharibəyə gücünüz yoxdur, Mən də sizdən heç nə istəmirəm. Ancaq sizin padşahı görmək istəyirəm. Mənim onnan söhbətim var.

Padşah İbrahimi görəndə onu tanımadı. İbrahim söhbətə başladı. Söhbət o yerə gəldi çatdı ki, bu padşah onun doğma qardaşıdır. İbra-

him başına gələn əhvalatları söylədi. Bu sözdən sonra hər ikisi çox sevindilər, yeddi gün yeddi gecə toy çaldırdılar. İbrahimlə Ağca Pəri xanımın toyu oldu. Ömürlərinin sonuna kimi öz ata yurdlarında ömür sürdülər. Xoşbəxtliklə yaşadılar.

## TÜLKÜNÜN NAĞILI

Biri var imiş, biri yox imiş. Bir meşə varmış. Bu meşədə bir tülkü yaşayırmış. Tülkü tək-tənha ömür sürürdü. Bu ətrafda bir dəyirmançı da varmış. Bir gün tülkü fikirləşir ki, tək yaşadığım bəsdir, gedirəm dəyrmançının yanına. Tülkü onun yanına gəlib deyir:

–Aya, dəyirmançı, bir qulaq as gör nə deyrəm. Gəl əl-ələ verək, qardaş olaq, köməkli dolaşaq. Nə deyirsən, fikrin nədir?

Dəyirmançı deyir: – Tülkü qardaş, mən razı. Lap yaxşı fikirdir.

Bəli, həmin gündən etibarən tülkü ilə dəyirmançı birlikdə yaşamağa başladılar. Onların həyatı kasıbçılıqla keçirdi. Tülkü fikirləşdi ki, gərək nə yolla olursa olsun biz varlanaq. O düşünüb tədbirlər tökməyə başladı. Tülkü ilə dəyirmançının yaşadığı bu yerdə bir padşah da var idi. Övlad sarıdan padşahın gözünün ağı-qarası təkcə bir qızı var idi. Əhd eləmişdi ki, qızını varlı bir adama verəcək.

Bir gün tülkü gəlib padşahın elçi daşının üstündə oturdu. Heç kim ona fikir vermirdi. Lakin padşah onu gördü, nökər-naibə əmr etdi:

-Ey, tez gedin o tülkünü bura gətirin, görüm orada nə məqsədlə oturur. Yəni tülkü mənim qızım üçün gəlib?

Bunu eşidən qulluqçu-qarabaşlar yüyürərək tülkünü şahın hüzuruna dəvət etdilər. Tülkü daşın üstündən qalxdı. Ağır-ağır, qulluqçulara yuxarıdan aşağı baxa-baxa gedirdi. Nəhayət o şahın hüzuruna yetişdi. İçəri daxil olan kimi şaha baş əydi. Padşah dedi:

–Ey tülkü, de görüm sən kimsən, nə səbəbə mənim elçi daşımın üstündə oturmuşdun?

Tülkü dedi:

–Böyük hökmdar, mən belə bir xəbər gətirmişəm ki, siz mütləq sevinəcəksiz. İndi isə bil, agah ol ki, mən İran şahının elçisiyəm. Gəlmişəm sizə deyəm, bizim hökmdar qızınızı oğlu üçün istəyir. Fikriniz nədir?

Bu xəbər padşahı çox sevindirdi. O, dedi: – Mən razıyam, tülkü qardaş. Bu qohumluq mənim üçün şərəfdir.

Bəli, onlar çox danışdılar, çox götür qoy elədilər. Belə müəyyən



etdilər ki, tülkü toy gününü qabaqcadan xəbər versin.

Məxləs, tülkü şad-xuraman, keyfi kök evə qayıtdı. Dəyirmançıya dedi: – Aya, qardaş şadlıq evinin qapısını döyür. Padşahın qapısını iyləmişəm. Qızı verir. Birdən varlanacaqsan.

Nəhayət toy günü yetişdi. Tülkü dəyirmançını da götürüb yola düşdü. Şahın sarayı yanında bir meşə var idi. Meşəyə çatcaq tülkü dedi:

– Dəyirmançı qardaş, sən burada dur, məni gözlə. İndi gəlirəm.

Tülkü gəlib saraya yetdi. Onu böyük hörmətlə şahın hüzuruna dəvət etdilər. Yetcək tülkü baş endirib dedi:

– Böyük hökmüdar, gəlmişik qızı aparmağa. Şahzadə də gəlib. Ancaq bizim yerlərdə belə bir adət var ki, gərək qaynatası kürəkənə bir dəst gözəl paltar, şahanə qılınc, kəhər at versin. O paltarı geyib, qılıncı taxıb, atı minib toya gəlsin. Şah əmr etdi, tülkünün dediklərini hazır etdilər. O bunların hamısını götürüb dəyirmaçının yanına gəldi. Dəyirmançı paltarı geydikdən sonra dönüb bir gözəl oğlan oldu. Tülkü qardaşını saraya apardı. Padşah oğlandan çox razı qaldı. Padşah da öz adətlərinə görə oğlana bir gözəl, misli-bərabəri olmayan saray bağışladı.

Padşah qırx gün, qırx gecə toy elədi. Qızını dəyirmançıya tapşırdı. Bəli qız, dəyirmançı, tülkü padşahın bağışladığı sarayda kefi kök, damağı çağ ömür sürdülər. Bir gün tülkü, fikirləşdi ki, aya, mən bu dəyirmançıya bu qədər yaxşılıq etdim, görəsən, o mənim qədrimi bilirmi? Gəlsənə onu bir yoxlayım. Bir gün tülkü özünü xəstəliyə vurdu. Tir-tap uzandı yerə. Qıraqdan baxan deyirdi ki, tülkü dünəndən ölüb. Eyvana çıxan dəyirmançı dedi:

–Gedin görün o tülkü niyə uzanıb?

Nökərlər gəlib tülkünü tərpətdilər. Lakin o heç qımıldanmadı da. Nökərlər dedilər:

–Ağa, tülkü çoxdan ölüb.

Dəyirmançı əmr etdi:

–Tez aparın onu bir dərəyə tullayın. Qoymayın həyətdə qalsın. Tez olun, aparın tullayın.

–Nökərlər yaxınlaşıb tülkünü götürmək istəyəndə o ayağa qalxdı, dəyirmaçıya baxıb dedi:

–Ay namərd, dostluğun, mərdliyin bu imiş? Mən sənin yolunda nə əziyyətlər çəkdim, ancaq yenə də dinmədim. Ay dəyirmançı oğlu dəyirmançı, bəs sən nə etdin? Hə, nə etdin?

Padşahın qızı tülkünün sözünü eşitdi. Tülküdən hər şeyi soruşub öyrəndi. Gördü ki, bu adam ona layiq döyül. Qız tez öz atasının yanına qayıtdı.

Tülkü də dəyirmançıdan ayrılıb getdi. Bir daha onun yanına ayaq basmadı.

Tək qalanda dəyirmançı yenə öz köhnə peşəsiylə məşğul olmağa başladı. Öz əməlinin nəticəsi olaraq yenə də kasıbçılıqla ömür sürməyə başladı.

## MƏHƏMMƏDİN KƏLƏYİ

Sizə xəbər verim, Təbriz şəhərindən. Bu şəhərdə Məhəmməd adlı bir kasıb oğlan yaşayırdı. Onun qohum əqrabasından yalnız bir anası, dayısından başqa heç kəsi yox idi. Ancaq dayısı başqa şəhərdə yaşadığından Məhəmməd onu tanımırdı, kim olduğunu bilmirdi. Günlərin bir günündə Məhəmməd anasından soruşur ki, ana, bə bizim heç bir qohumumuz yoxdur? Anası bir qədərdən sonra deyir ki, bala sənin İsfahan şəhərində bircə dayın var, ondan başqa bizim heç kimimiz yoxdur. Məhəmməd anasından izn alıb dayısının yanına gedir.

Çox əziyyətlər çəkdikdən sonra Məhəmməd dayısını tapır. Anasının göndərdiyi kağızı dayısına verir. Məhəmməd baxıb görür ki, dayısının həddindən artıq cəh-cəlalı, var-dövləti var. Bir müddət qalandan sonra baxır ki, dayısı heç bir işlə məşğul deyil. Məhəmmədi bu iş çox maraqlandırır. Odur ki, dayısından xəbər alır ki, dayı, sən işləmirsən, eləmirsən bə bu qədər mal-dövləti haradan alıbsan? Məhəmmədin dayısı istədi Məhəmməddən dansın, ancaq bir qədər fikirləşdikdən sonra deyir ki, mən oğurluq etməklə bu qədər dövlətlənmişəm. Sən var-dövlətdən götür, get ananın yanına, o təkdir.

Məhəmməd deyir: Mənə heç bir şey lazım deyil. Mən də qalıb səninlə oğurluq edəcəyəm. Dayısı Məhəmmədi sınamaq üçün deyir ki, əgər sən də mənim kimi olmaq istəyirsənsə, mənim qapımda bir çinar ağacı var, ağacın budağında bir quş yuvası var, quşun yuvasında da balası var. Sən ora çıxıb quşun balasını elə gətir ki, quşun xəbəri olmasın. Yenə qaytar apar yerinə qoy.

Məhəmməd dayısının hiyləsini başa düşüb deyir: dayı qabaqca özün çıx, baxım görüm necə çıxırsan? Sonra da mən çıxaram. Məhəmmədin dayısı ağaca çıxan kimi Məhəmməd tez dayısının ayağından ayaqqabısın çıxardır ancaq dayısı bunu bilmir, çünki Məhəmməd çox bacarıqla ayaqqabını çıxardır. Dayısı başa düşür ki, Məhəmməd ondan üstün oğru olacaq. Məhəmmədin dayısı deyir ki, indi ki sən oğurluqda məndən üstün oldun, sabahkı səfərimiz şahın xəzinəsinə oğurluqdu. Gecə dayı, bacı oğlu gedib şahın xəzinəsini yarıb gətirirlər. Bundan heç kəsin xəbəri olmur. Gündüz paltarlarını dəyişib şəhər çıxırlar ki, görək kim nə danışır. İsfahan şəhərində oğurluq həddən ziyadə idi. İsfahan şəhərinin əhalisi götürüb Türkiyə şahına xəbərdarlıq edir ki, bizim şəhərdə oğruluq həddən artıqdır. İsfahan şah bunun öhdəsindən gələ bilmir. O idi ki, Türkiyə şahı götürür belə bir namə yazır, əgər oğrunu tapa bilmirsənsə mənə tabe ol. Gəlim mən oğrunu tapım. İsvahan şahı vəziri, vəkili çağırır ki, gəlin bir məsləhət görək, bütün şahlar məni tənqid eləyir. Belə bir məsləhətə gəlirlər ki, xəzinənin dörd tərəfini xəndək düzəldib qırla içərisini dolduraq. Həmin gecə elə də edirlər. Ancaq bu işdən Məhəmmədin dayısının xəbəri olmur. Elə həmin gecə yenə xəzinəni oğruluğa gəlirlər. Bu zaman dayısı qıra batır. Məhəmməd görür ki, dayısı qıra batıb. Nəalac qalıb dayısına deyir: Dayı icazə ver, mən sənin çiynindən keçim xəzinəni oğurlayım, sənin başını kəsib evimizə aparım, çünki sənin başın burada qalsa, səni üzdən tanıyarlar, şah bizim nəslimizi qırdırar. Məhəmməd xəzinəni yarıb dayısının başını kəsib evə gətirir. Səhərisi şah görür ki, həm xəzinəni, həm də xəzinəni oğurlayanın başını üzüb aparıblar.. Şah heç bir şey başa düşə bilmir ki, bu nə sirdir. Məhəmməd evlərinə gedib dayısının arvadına bərk-bərk tapşırır ki, olmaya bu sirri bir adama deyəsən, küçədə ağlayasan. Şah eşidib hamımızı qırar. Qorxma dayımın meyitini də oğurlayıb gətirəcəm. Bunlar burada qalsın görək şah nə edir. Şah nə qədər axtarırsa meyitin yiyəsini tapmır. Əmr edir ki, bu meyit-hər kimindir gəlsin aparsın. Məhəmməd çox çətinliklə də olsa dayısının meyitini şahın sarayından oğurlayıb gətirir. Şah belə sərancam verir ki, kim mənim xəzinəmi, oğrunu aparıb üzə çıxsa qızımı ona ərə verərəm. Məhəmməd şahın hüzuruna gəlib deyir: şah sağ olsun, bu işləri mən etmişəm. Ancaq mən sənin qızını bir şərtlə alıram. Şah dedi, o şərtin nədi, Məhəmməd dedi: Şah sağ olsun, mən sənin qızını ona görə hələ almıram ki, Türkiyə şahı çox töhmətli məktublarla səni hədələyir. İzn ver, gedim Türkiyə padşahını sənin sarayına oğurlayıb gətirim. Sonra sənin qızını alım.

Məhəmməd çox əziyyətdən sonra əzrail sifətində türk şahının sarayında gözünə görsənir. Türk şahı qorxusundan özündən gedir.

Bu vaxt Məhəmməd şahın əl-ayağını sarıyıb ata mindirir. Gətirib şaha təqdim edir. İsfahan şahı baxır ki, doğrudan da şahlığa layiq bir oğlandır. Öz qızını qırx gün qırx gecə toy edib Məhəmmədə verir. Məhəmmədi öz yerində şah qoyur, onlar şad-firavan həyat sürürlər.

## ŞİRZADIN NAĞILI

Biri var idi, biri yox idi, İsvahan şəhərində bir padşah var idi. Bu padşah övlad üzünə həsrət idi. Günlərin bir günündə padşahın arvadı hamilə olur. 9 ay, 9 gün, 9 saat tamam olandan sonra padşahın arvadının bir oğlu olur. Ancaq padşahın adamlarının buna paxıllığı tutur. Odur ki, bir it küçüyünü həmin oğlanın yerinə qoyurlar, oğlanı isə bir kolun dibinə atırlar ki, padşahın xəbəri olmasın. Sizə hardan xəbər verim, çöldə yaşayan vəhşi bir şirdən. Şir çölü gəzə-gəzə gəlib uşaq olan kolun yanına çatanda qulağına bir səs gəldi. O tərəf bu tərəfi iylədi. Gördü ki, kolun dibində bir uşaq var. Şirin də təzəcə balası öldüyündən döşləri südlə dolu idi. Odurki uşaq şiri əmməyə başladı.

Bunlar burada qalmaqda olsun, sizə kimdən xəbər verim həmin padşahın qardaşı Məhəmmədən. Məhəmməd on beş min qoşunla ova çıxmışdı. Onlar gəzə-gəzə gəlib bir düzənliyə çatdılar, bu vaxt şiri gördülər. Başladılar şiri oxlamağa. Şir tez durub qaçdı. Məhəmmədlə adamları həmin şir olan yerə gəlib gördülər ki, şirin altındakı bir oğlan uşağıdır. Onlar uşağı danışdırmaq istədilər. Ancaq uşaq danışa bilmirdi. Elə hey adamların üzünə tamaşa edirdi. Məhəmməd uşağın adını Şirzad qoyur. Günlər aylar keçdi, Şirzad Məhəmmədin yanında qalmaqda olsun, sizə kimdən xəbər verim, həmin şəhərdə Məhəmmədin Qara vəzir adlı bir düşməni vardı. Qara vəzir gördükü Məhəmmədin yanında pəhlivan gövdəli bir oğlan olur. O öz-özünə dedi: Aslan bir idi, indi oldu iki. Bunların başları bir gündə əzilməlidir. Qara vəzir İsvahan şəhərində on beş ağaclıq o tərəfə çarhovuzlu bir bina tikdirib qızı Gülgəzi orada saxladı. Qara vəzir qoşunlarını meşəlikdə gizlətdirib gözləməyə başladı. Bu vaxt Şirzad əmisindən izn alıb, ova çıxmışdı. Şirzad çox gəzdi, çox dolandı. Çox susamışdı, su axtara-axtara gəlib Gülgəz xanım olan imarətin qabağına çıxdı. Elə Gülgəz xanıma bu lazım idi. Atası Qara vəzir Şirzadı tutmaq üçün qoşunu meşədə gizlətmiş, özü isə Gülgəz xanıma tapşırmışdı ki, Şirzad adlı oğlan bura gəlsə dilə tutub evə gətir, dalısınca sənin işin yoxdur. Gülgəz xanım baxdı ki, qapıda bir pəhlivan gövdəli gözəl bir oğlan durur. Ondan



soruşdu ki, oğlan nə axtarırsan burada? Şirzad axtardığını qıza bildirdi. Qız oğlanın adını soruşub onun Şirzad olduğunu bilində çox sevindi, oğlanı dilə tutub evə gətirdi. Şirzadı evdə qoyub qapını daldan bağladı, atasına xəbərə qaçdı ki, day nə durmusan, Şirzad öz ayağı ilə bizə gəlib, durma gəl. Qara vəzirə də bu lazım idi. Oradan qoşuna əmr edib düz Şirzadın üstünə gəlirlər.

Sizə kimdən xəbər verim Şirzaddan. Eləki Şirzad Gülgəz xanımın imarətinə gəldi, oturub Gülgəz xanımı gözlədi ki, ona su gətirəcək, çünki, Gülgəz xanım Şirzada dedi ki, sən burada gözlə, gedim sənə su gətirim. Şirzad heç bir şey başa düşmədən oturub Gülgəz xanımın yolunu gözlədi. Şirzad dözə bilməyib eşiyə çıxmaq istəyəndə gördü ki, qapı bağlıdı. Tələyə düşdüyünü dərhal anladı, aynadan özünü eşiyə tulladı.

Nə görsə yaxşıdır?

Gördü ki dörd tərəfi qoşun mühasirəyə alıb, tez qılınca əl atıb qoşunu çala-çala özünü ata çatdırdı. Başladılar qılınc çalmağa. Şirzad tək on beş min qoşunla bir gün, bir gecə qılınc çalıb, nəhayət əldən düşüb yoruldu. Qara vəzirin qoşunu tökülüb Şirzadı diri-diri tutmaq istəyəndə əmisi Məhəmməd özünü yetirdi. Şirzad əmisini görcək çox şad oldu, qollarına yeni qüvvə gəldi. Məhəmməd qoşunu ilə bir tərəfdən, Şirzad da bir tərəfdən Qara vəzirin qoşununa bir hay verdilər ki, gəl görəsən. Qoşun qırılandan sonra başladılar İsvahan şəhərinə getməyə. Məhəmməd padşahın 2 oğlu var idi. Birinin adı Əhməd o birisinin adı Hümbət. Bunlar Şirzadın paxıllığını çəkirdilər. Odur ki, ataları oğlanlarını çağırıb dedi: oğlanlarım siz Şirzadın yerini verə bilməzsiniz. Şirzad çox qoçaq oğlandır. Mən Şirzadı ona görə çox istəyirəm.

Günlərin bir günü Əhməd atasından izn alıb uzaq bir səfərə gedir. Gəlib bir meşəyə rast gəlir, çox axtarıb gəzəndən sonra bir ağacın altında oturub dincəlmək istəyir. Ağacın budaqlarına baxır ki, bura qızıl almalarla doludur. Əhməd ömründə bu qızıl almalardan heç birini də görməmişdi. Almalara valeh olur, öz-özünə fikirləşir ki, yaxşı oldu, bunlardan yığıb atama hədiyyə aparaream. Atam görər ki, Şirzad qoçaq oğlandı ya mən. Əhməd almalardan xurcunun iki gözünü doldurub atasının yanına qayıdır. Atası Əhmədin gəlməyinə çox şad olur. Əhməd almaları atasına göstərib deyir ki, ata bunlardan heç harada yoxdur bu qızıl almaları sənə hədiyyə gətirmişəm. Atası heç bir söz deməyib Əhmədə bir dəstə açar verib deyir: Get otuz

doqquzuncu qapını aç. Əhmədə gəlib otuz doqquzuncu qapını açanda görür ki, otaq bu qızıl adamlarla doludu. Çox bikef olur. İkinci dəfə Hümmət atasından izn alıb gedir. Hümmət çox gəzib, dolanır. Gəlib bir çınqıllığa rast gəlir. Xurcunu daş-qaşla doldurub atasını yanına gəlir. Bu gətirdiyi şeyləri atasına görsədir. Atası heç bir söz deməyib yenə Hümmətə bir dəst açar verir və deyir get qırxıncı otağın qapısını aç. Hümmət gəlib qırxıncı otağın qapısını açanda görür ki, doğrudan da bura daş-qaşla doludur. Heç bir söz deməyib çox bikef olur. Üçüncü dəfə Şirzad əmisindən izn istəyib uzaq bir səfərə getməsini bildirir.

Məhəmməd Şirzadı gözündən kənara qoymaq istəmədi. Şirzad çox yalvardıqdan sonra əmisi ona izn verdi. Şirzad atını mindi, qılıncını götürdü, yola düzəldi. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Gəlib bir düzənliyə çatdı. Atdan yerə düşüb bir az dincəlmək üçün bir daşın üstündə oturdu. Bir də baxdı ki, yerdə bir paslı lampa var. Tez onu götürüb o tərəf bu tərəfinə diqqətlə baxdı. Bu vaxt gözü lampanın böyründə bir yazıya sataşdı. Burada yazılmışdı «ey məni tapan, mən dünyada iki dənəyəm, mənim tapmısan o birisini tap «Şirzad bunu oxuyub heç bir şey başa düşmədi». Bir istədi əmisinin yanına qayıtsın. Lakin geri qayıtmayıb başladı yol getməyə. Az getdi, üz getdi, dərə-təpə, düz getdi. Gəlib bir qarının mənzilinə çatdı. Qarı Şirzadı çox mehribanlıqla qarşıladı, Şirzadı evində qonaq saxladı. Axşam oldu, qaranlıq düşdü. Qarı gətirib lampanı yandırdı. Şirzad baxıdıkı, həmin tapdığı lampadan qarının evində də var. Şirzad qarıya yalvarıb dedi: Qarı nənə, neçiyə verirsən ver, o lampanı mənə ver. Qarı deyir ki, mən lampanı bir şərtlə sənə verərəm. Get bu yaxınlıqda ağ divin mənzilində sənə layiq bir qız yatır. O qırx günlük yuxuya gedib, get onu gətir. Lampanı da verirəm, qızı da götür, get. Şirzad durub yola düzəldi. Az getdi, üz getdi gəlib bir meşəyə çatdı. Bir ağacın altında oturub, fikirləşdi ki, indi mən hara gedim? Bu vaxt göyərçin gəlib Şirzad oturan ağacın budağına qondu, Şirzadı səsləməyə başladı. «Ey Şirzad, eşit, bil, agah ol, qarı səni gedər-gəlməz yola göndərir. Qızı da aparsan sənə verməz. Şirzad get o qara dağın dibində Ağ divin mənzili yerləşir. İçəri girən kimi qızı görəcəksən. Qız qırx hörüyü ilə dirəyə bağlanıb, özü də yuxuya gedib. Sən çatan kimi bir qılıncla onu biləkdən ayır. Əgər iki qılınc çalsan o yuxudan ayılar, səni divlərin əlinə verər. Sən qızı birinci dəfə yerdən götürdün-götürdün, götürməsən olacaq daş. Şirzad yoluna düzəlib düz qız olan ağ divin sarayına gəldi.



Saraya girəndə gördü ki, qız yuxuya gedib, ancaq qırx hörüyü dirəyə bağlıdır. Ancaq qız, nə qız yemə, içmə, xətti-xalına, gülcamalına tamaşa elə. Şirzad bircə qılıncla qızın hörüyününün qırxını da dirəkdən ayırdı, tez var qüvvəsilə onu yerdən götürdü. Atına minib yola düşdü. Həmin quş gözə görsənib dedi: Şirzad, durma, tez özünü o uzaqda görünən ağacın altına çatdır, qızı ağaca bağla, özün isə ağacdan bir az aralı bir xəndək var, ora gir, gizlən. Qız bir vaxt yuxudan ayılıb sənə çox yalvaracaq ancaq nəbada çıxasan. Sən qızı anasının südünə and içirt ki sənə bir xata yetirməyəcək. Qız anasının südünə and içəndən sonra çıxarsan. Şirzad göyərçinin dediyi kimi etdi. Qızı həmin ağaca bağladı, özü isə xəndəkdə gizləndi. Qız yuxudan qalxıb elə qışqırdı ki, xəndəkdə Şirzadın qulaqları tutuldu. Şirzadı səsliyib dedi: Oğlan, and olsun anamın südünə, sənə heç bir şey etməyəcəyəm, quyudan çıx. Şirzad quyudan çıxdı. Onlar başladılar yol getməyə. Yolda bir qarıya rast gəldilər. Qarı dedi: Şirzad mən bilirəm sən haradan gəlib, hara gedirsən. Qarı div cildini dəyişib qarı libasına girib, qızı səndən alacaq, səni öldürtdürüb, lampanı da əlindən alacaq. Mən bu qızın cildinə girirəm, sən məni aparıb qarıya (divə) verərsən. Qızı da, bir gün lampanı da götürüb gedərsən. Şirzad qız cildinə girmiş qızı aparıb lampa olan qarıya (divə) verir. Lampanı da alıb başlayırlar yol getməyə.

Onlar az gedir, üz gedir, dərə-təpə, düz gedirlər. İsvahan şəhərinin qırağına çatırlar. Bunlar burada qalsın, sizə Məhəmməddən xəbər verim. Eləki, Şirzad uzaq səfərə gedəndən bəri Məhəmmədin günü ağlamaqla keçirdi. Bir nəfər Şirzadı tanıyıb Məhəmmədə xəbər çatır ki, bə deməzsənmi Şirzad bir gözəl qızla gəlir. Məhəmməd çox şad oldu. Şirzadın qabağına on beş min qoşun çıxdı, ayağının altında çoxlu qurbanlar kəsildi. Şirzad gətirdiyi sehirli lampaları əmisinə göstərdi. Məhəmməd qırx gün qırx gecə toy edib Pərixanı Şirzada verdi. Məhəmməd oğlanlarını çağırıb dedi: Oğlanlarım görün ki, Şirzad çox qoçaq oğlandı. Mən Şirzadı ona görə çox istəyirəm. Qarı toy gecəsi hazır olub dedi: Mənim yerimi Şirzadla Pəri xanımın yatdığı otağın qapısı ağzında salın. Elə də etdilər. Səhərisi Şirzad əmisinə dedi, əmi, bu qarını öldür. Bizi səhərə qədər qoymayıb yatmağa. Qarı Şirzadın sözündən çox pis olub dedi: Şirzad mən sənə pislik etmirəm ki, sən məni öldürtdürürsən? Mən olmasaydım səni həmin qarı libasına girmiş div öldürərdi, bunu deyib üstündə yatdığı kilimi götürdü. Bir yoğun ilan Pəri xanımın üstünə atıldı. Pəri xanım elə qışqırdı ki, orada olanların qulaqları tutuldu. Qarı

dedi: Qız bu ilan sənin nəyindi?

Pəri xanım dedi: Bu ilan mənim nişanlımdı. Qarı dedi: Mən bu gecə burada qalmasaydım bu ilan Şirzadla səni tas-tas eləyərdi. Qarı sözünü deyib, cildini dəyişib, on beş yaşında gözəl bir qız olur. Qız Şirzada deyir: -Şirzad mən əhd eləmişdim ki, bir bəni-insana kömək edim. İndi əhdim yerinə yetdi. Mən indi dönüb daş olacam. Əgər məni yenidən diriltmək istəsən, sənin bir oğlun olacaq, onun başını mənim sinəmin üstündə kəssən, mən yenidən dirilib adam olaram. Bunu deyib qız daş oldu. 9 ay , 9 saat, 9 dəqiqə, 9 saniyə keçəndən sonra Pəri xanımın bir oğlu olur. Şirzad tez bu uşağın başını daş olmuş qızın sinəsi üstündə kəsir. Qız o dəqiqə qalxıb adam olur. Şirzadla bu qız bacı- qardaş olurlar. Onlar yedi yerə keçdi, siz də yeyin, mətləbə keçin.

Göydən üç alma düşdü. Biri mənim, biri sənin, biri nağıl söyləyənin.

## ŞUMXİYAR

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşahın övladı yox idi. Bir gün padşah arzu edir ki, bir oğlum olsun. Özü də at çapan olsun. Körpünün bir gözündən yağ, o biri gözündən də bal axıdacağam.

Vaxt olur, il dolanır padşahın bir oğlu olur, özü də at çapan. Padşah körpünün bir gözündən yağ, o biri gözündən bal axıdır. Gəlib-gedən kənd əhalisi bunlardan yığır. Bu zaman bir qarı gəlib çıxır. Soruşur ki, bu nədi yığırsınız. Camaat deyir ki, padşahın oğlunun bu gün at çapan günüdü. Ona görə də padşah belə edir. Qarı da bu axıdılan baldan, yağdan yığmağa başlayır. Bu vaxt padşahın oğlu atını çapıb gələrkən atın ayağı dəyib, qarının yığdığını tökür. Qarı hirslənib deyir ki, səni görüm şumxiyara qismət olasan. Oğlan onun yanına gəlib: «Qarı nənə nə dedin?» deyə soruşur. Qarı cavab verir ki, pis söz demirəm, deyirəm ki, Şumxiyara çatasan. Orada qəşəng qızlar var. Onlardan birini alasan.

Oğlan gəlir evə. Atasına-anasına deyir ki, mən gedirəm Şumxiyara. Atası deyir nəyə gedirsən? Oğlan cavab verir ki, orada gözəl qızlar var, qız almağa gedirəm. Atası bildirir ki, kimin qızını istəyirsənsə alım sənə, ancaq getmə. Oğlan inadından dönmür.

Oğlan yola düşür. Bir qədər yol getdikdən sonra qarşısına bir nəfər adam çıxır. Oğlan ondan soruşur: - Əmican, Şumxiyarın yolu haradandı?

Kişi deyir: - Neyləyirsən?

Oğlan deyir ki, ora gedirəm əmi, orada qız alacağam.

Kişi deyir: - Oğul, gəl sən mənim sözümə bax, getmə.

Oğlan deyir: - Yox əmi, gedəcəyəm.

Kişi görür ki, oğlan sözündən dönmür. Rast ki, bala, gedirsən, barıdan bağa gir. Atını sür bağın başına. Orada zəncirdən üç xiyar var. Üçünü də qır, amma bəri qayıdanda baxçada nə qədər ağac, meyvə varsa, hamısı dillənəcək, lakin sən dönüb geri baxma. Onlar div olub səni yiyər. Onları da gətir. sulu yerdə kəs. Nəbadə susuz yerdə kəsəsən. Özü də yandım deyən kimi suya sal. Oğlan kişinin dediyi kimi də edir. Lakin bir qədər gəldikdən sonra çox susuzlayır, amma su tapmır. Xiyarın birini kəsir. O, yandım-yandım deyib ölür. Oğlan az gəlir, çox gəlir, dərə-təpə düz gəlir, yenə də susuzluqdan yanır. Xiyarın o birini də kəsir. Bu da ölür. Oğlan çox fikirləşir. Özünə söz verir ki, necə olursa-olsun üçüncü xiyarı kəsməyəcəyəm. O, bir qədər də gəldikdən sonra bir suya rast gəlir. Xiyarı suyun kənarında kəsir. Yandım-yandım deyən kimi suya salır. Bu olur bir qəşəng qız. Oğlan baxır ki, bu qənirsiz gözəldir. Fikirləşir ki, bunu atla kəndə aparmalıyam. Burada bir çinar ağacı var idi. Oğlan qıza deyir ki, sən çıx bu ağacda otur, mən isə gedim kənddən at gətirim. Qız razı olur. Oğlan baxır ki, o qədər gözəldir ki şəkli suya düşür. Oğlan at gətirməyə getsin, eşit qızdan. Qız oturub yola baxırmış. Bir də görür ki, yoldan köç gedir. Bu köçdə bir qız var, özü də bu qızı hamı döyür. Qızı yanına çağırır. Soruşur ki, səni niyə döyürlər. Qız deyir ki, mənim atam-anam yoxdur, yetiməm, ona görə də hamı məni döyür. Qız deyir: -Gəl mənim yanımda qal. Köç qızı çox şad olur. Şumxiyardan gələn qız onu yanında otuzdurur. Köç qızı onu aldadıb nəyi vardısa əlindən alır. Qızı itəliyib salır yerə, özü isə oturur ağacda. Şumxiyardan gələn qız bir qızıl gül olub, ağacın dibində bitir. Bir neçə gündən sonra oğlan gəlir. Suya baxdıqda qızın şəklini görmür. Ağaca baxıb görür ki, ağacda bir qara qız oturub. Soruşur ki, ay qız niyə belə qaralmısan? Gec gəldin, gün məni vurub qaraltdı. Yaxşı düş min ata, gedək. Qız düşüb ata minir. Oğlan görür ki, ağacın dibində bir qızıl gül var. Onu qırıb qızın əlinə verir. Oğlandan xəbərsiz qız gülü didikləyib tökür yerə. Bu bir quzu olub düşür mələyə-mələyə atın dalına. Oğlan qızdan icazə alıb quzunu qoyur atın üstünə. Kəndə

çat ha çatda qız deyir gərək quzu kəsilə. Oğlan qızın sözü ilə quzunu kəsir. Bu zaman quzunun qanından bir damcı yola düşüb, olur bir yorğan iynəsi. Oğlan qızı kəndə aparıb 40 gün 40 gecə toy edir. Bundan bir neçə gün sonra qarı yol ilə gedirmiş. Qarı görür ki, yolun kənarında bir yorğan iynəsi var. Qarı iynəni götürüb evə gətirir. Qarının da heç kəsi yox idi. Ancaq bu qarı bundan sonra hara gedirdisə, gəlib işin hazır görürdü. O, fikirləşir ki, bu nə olan işdir. Bir gün qarı yenə qapını bağlayıb, həyətə çıxır. O, burada gizlənir. Bir də görür ki, tapdığı iynə bir qız oldu, başladı ev-eşiyi yığışdırmağa. Qarı tez içəri girib, qızı qucaqladı. Ay bala sən kimsən? Qız başına gələn hadisəni qarıya danışdı. Qarı dedi, eybi yoxdur sən mənim qızım ol, mən də sənin anan. Baş-başa verək, dolanaq. Bunu qoyaq, sizə kimdən xəbər verək, padşahın gəlinindən. Bu gəlinin boyun bağısının zənciri qırılır. Padşah car çəkib, bildirir ki, kim bunu düzsə onu dünya malından qane edəcəyəm. Qarı bunu eşidir. Gəlib evdə qıza danışır. Qız deyir ki, sən al gətir mən düzüm. Ay bala, düzə bilməzsən, padşah boynumuzu vurdurar. Sənin nə işinə qalıb, sən al gətir. Qarı padşahın yanına gəlib, deyir ki, ver mən aparım zənciri düzüm. Ay arvad, sən qoca arvadsan. Heç yolunu yeriyə bilmirsən, mənə zəncir düzəcəksən? Əgər düzə bilməsəm boynumu vurarsan -deyə arvad cavab verir. Padşah razı olur. Qarı evə gəldikdən sonra oğlan çox fikirləşir. Qarı yolunu gedə bilmir. Görəsən bu nə işdir? Burada bir sirr var. Səhər oğlan gəlib qarının qapısını pusur. Baxıb görür ki, burada bir qəşəng qız var. Zinciri düzə-düzə deyir:

Biz üç bacı idik zincirdə:
Zincirim düzül-düzül.
İki bacım susuz yerdə kəsildi, zincirim düzül-düzül.
Sonra mən sulu yerdə kəsildim,
Zincirim düzül-düzül.
Bir oğlan məni çinar ağacında otuzdurub,
at gətirməyə getdi. Sonra mən baxdım ki,
köçdən bir qız gedir,
Zincirim düzül-düzül.
O qızı mən çağırdım yanıma,
Zincirim düzül-düzül.
Ona yaxşılıq etdim. O, isə məni itələyib saldı ağacın altına,
Zincirim düzül-düzül.



Gül oldu bir quzu mələyə-mələyə düşdü atın dalına,
Zincirim düzül-düzül.
Kəndə çat ha çatda qız dedi, quzu kəsilsin,
Zincirim düzül-düzül.
Quzu kəsildi,
Zincirim düzül-düzül.
Quzunun bir damcı qanı oldu iynə, düşdü yolun kənarına,
Zincirim düzül-düzül.

Bu zaman oğlan girib gördü həmin qızdır. İkisinin də ürəyi getdi. Arvad məətəl qaldı ki, görəsən bunlara nə oldu. Sonra su töküb hər ikisini oyatdı. Oğlan qarını qucaqlayıb, üzündən öpdü. Qarı nənə bu gündən sən oldun mənim anam. Sonra oğlan evə gəldi. Əmr etdi ki, 40 qatır gəlsin, 40 da qancıq. Gəlini bağladılar qatırın quyruğuna. Yanında da qancıqlar. Oğlan yenə də əvvəlki nişanlısına toy elədi. Onlar yedilər, içdilər, ömür sürdülər. Siz də yeyin, için, ömür sürün. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də qulaq asanların.

## QOLUYOX QIZIN NAĞILI

Biri varmış, biri yoxmuş, yer üzündə Allahdan başqa heç kəs yoxmuş. Bir bacı varmış, bir qardaş. Bacının adı Mələk, qardaşın adı Tapdıq idi. Bir müddətdən sonra bunlar böyüyüb, boya-başa çatdılar. Oğlan evlənməli, qız ərə getməli oldu. Əvvəlcə qız qardaşını evləndirdi. Tapdığa aldığı qızın adı Gülgəz idi. Bəli, ay dolandı, günlər keçdi, bu Gülgəzin bir cüt oğlu oldu. Bu işə bunların hər üçü şad oldular. Tapdıq bir erkək kəsib, şadyanalıq keçirdi. Uşaqlar da yavaş-yavaş böyüyürdülər.

Bir gün qaş qaralanda bunların qapısında bir dərviş göründü. Dərviş gecəni bunlarda qalmağını Tapdığa dedikdə Tapdıq bir şadlıqla razı oldu ki, gəl görəsən. Amma, Mələyin nədənsə könlü olmadı. Qardaşı dediyinə görə dinmədi. Dərviş gecə onlarda qalmalı oldu. Axşam şamından sonra hər kəs öz otağına çəkildi. Hamı yatmaqda olsun, sənə kimdən deyim, dərvişdən. Dərviş elə ki, gördü hamı yatıb, yataxdan qalxdı. Asta-asta gedib, Tapdığın uşaqlarının ikisinin də başını kəsdi. Onların qanından bir az şüşəyə töküb, qanlı bıçağı da gətirib Mələyin cibinə qoyub, ehtiyatla kənddən çıxdı.

Dərviş getməkdə olsun, sənə kimdən ərz eləyim, Gülgəzdən.

Gülgəz səhər açılan kimi qalxıb, inəyi sağdı, qapı-bacanı süpürüb, təmizlədi. Səhər yeməyini hazırladıqdan sonra getdi ki, uşaqları oyatsın. Gülgəz uşaqların çarpayısına yaxınlaşanda nə görsə yaxşıdır? Uşaqların yerləri qızıl al qana boyanıbdır. Gülgəz donub qaldı. Hay düşdü kənd əhlinə. Dərvişi axtardılar. Dərviş tapılmadı ki, tapılmadı. Dərviş kənddən çoxdan çıxmışdı. Bir neçə atlı atlanıb, onu axtarmağa getdi. Nəhayət, dərvişi tapıb, gətirdilər. Dərviş kənd əhlini bir yerə toplayıf dedi:

- Tapdığın uşaqlarının qatilini tapmaq üçün ancaq bircə yol var ki, o da uşaqlardan tutmuş, böyüklərə kimi hamının cibi gəzilsin. Qanlı bıçaq kimdən çıxsa, o uşaqların qatilidir. Bütün kənd əhlini bir yerə yığıb uşaqdan böyüyə kimi axtardılar. Növbə Tapdığın bacısına çatdı. Mələk əlini cibinə atan kimi qardaşının gözü qabağında qanlı bıçaq onun əlinə keçdi. Mələk donub qaldı. Dərviş ucadan dedi:

- Hə, Tapdıq bala, öz bacın sənin uşaqlarının qatili imiş. İndi biz getdik, bacının cəzasını özün ver.

Tapdıq dərvişin sözünə baxıb öz əli ilə bacısının hər iki qolunu kəsib, gecə ikən onu saldı çölü biyabana. Həmin gündən Mələk oldu çöl heyvanı kimi vəhşi insan.

Mələk az getdi, çox getdi gəlib bir xarabalığa çatdı. Oturub bir az dincini aldı, gördü ki, səhərin gözü açılır, durub özünü pünhan yerə saldı. Gündüzü gizləndi, axşam olanda başladı yol getməyə. Çox kəndlər keçdi. Nəhayət bir kəndə yaxınlaşdı. Mələk həmi bərk acmışdı, həm də yaraları onu incidirdi. İstirahət etdikdən sonra qalxıb hərləndi görsün yeməyə bir şey tapırmı. Hərlənib gəlib bir bostana çıxdı. Bir az ayaqları ilə qovun-qarpızın yaxşısından qırıb yedi. Özünə də gündüzlər daldalanmaq üçün yaxşıca bir yer tapdı. Gündüzlər yatıb, gecələr həmin bostanda yeyib yatmaqda olsun, sənə kimdən deyim, bostanın sahibindən. Bostançı görür ki, hər gün yetişmiş qovun-qarpız qırılıb, içi yeyilir. Bir az fikirləşdi, izə düşdü, heç bir şey başa düşmədi. Evə qayıdıb bütün əhvalatı nəql etdi. Bostançının oğlu fikirləşdi ki, bu nə ola bilər?!

Atasına dedi:

- Ata, bu gecə mən bostanı gözləməyə gedəcəm.

Atası çox tərəddüd etdi ki, getmə. Oğlan əl çəkmədi, gedib bostandan xeyli aralıda gizləndi. Bir azdan sonra qız öz komasından çıxıb gəldi bostana. Qovun-qarpızdan yenə qırıb qarnını doydurduqdan sonra qayıdıb getmək istədikdə oğlan qızın qabağını kəsdi. Qız



qaçmaq istədi, gördü ki, oğlan onu tutacaq, dayandı. Oğlan yaxınlaşıb gördü ki, bir qız xeylağıdır, özü də qollarının ikisi də yoxdur. Soruşdu ki, ey bacı, de görüm, hardan gəlib, hara gedirsən, məni bu sirdən agah elə.

Qız əhvalatı olduğu kimi oğlana danışdı. Oğlan əhval tutduqdan sonra fikirləşdi ki, bu mənim ilk ovumdu. Nə təhər olursa, olsun bunu alacağam. Qıza paltar gətirib paltarını dəyişib, apardı kəndə. Ata-anasına bildirdi ki, bu qızı alacam. Razılıqdan sonra toy etdi. Bir az sonra oğlan çıxıb başqa məmləkətə getdi. Bir azdan Mələyin bir cüt oğlu olur. Ata-ana bu işə çox sevinir, bir neçə gün şadyanlıq edir. Oğlanın atası götürüb oğluna bir məktub yazır ki, bəs oğul, gözün aydın olsun, bir cüt oğlun olub. Məktubu bir nəfərə verib, göndərir oğluna. Qasid az gedib, çox gedib, bir kənddə gecələyir. Ev yiyəsi qasidin hardan gəlib-hara getməsini soruşur. Hamı yatağına çəkilən kimi ev yiyəsi durub qonağın cibini yoxlayır, məktubu tapıb, məzmununu dəyişib yazır ki, bəs oğul, üzün qara olsun, bir cüt it küçüyün olub. Məktubu əvvəlki kimi gətirib qoyur qasidin cibinə, çəkilib öz yatağına gedir.

Sübhdən qasid tez geyinib yoluna rəvan olur. Məktubu gətirib verir oğlana. Oğlan məktubu oxuyub çox qəmgin olur. Lakin atasına yazır ki, ata, hər nə olsa mənə qəbuldu, heç narahat olma. Məktubu verir qasidə. Qasid çox yol gedib, az dayanır, bir gün gəlib gecələdiyi kəndə yetişir. Gəlib həmin evdə yenə qonaq qalır. Ev yiyəsi onu çox şad üzlə qarşılayır. Axşam olcaq qonaq yorunuq olduğu üçün tez yıxılıb yatır. Ev yiyəsi yenə qonağın cibindən məktubu çıxardıb oxuyur. Məzmununu dəyişdirib, yazır ki, ata, mən kəndə gələnə kimi uşaqları da şəlləyin onun dalına, onu kənddən qovun.

Qasid məktubu gətirib kişiyə verir. Kişi məktubu oxuyub çox pərt olur. Əhvalatı arvadına danışır. Çox götür-qoy edirlər. Qız isə bunların vurnuxduğunu görüb, fikirləşir ki, görəsən nə olub. Axırda kişinin üstünü kəsib əhvalatı öyrənir. Qız bilir ki, bu işdə yenə həmin dərvişin əli var. Qaynanasına deyir ki, mənə bir xurcun tik, boynumdan asım, elə et ki, uşaqları əmizdirmək mümkün olsun.

Gəlinin dedikləri hazır olandan sonra, uşaqları xurcuna qoyub, gəlinin boynundan asırlar.

Mələk kənddən çıxdı, uzaq bir kənddə bir qarının yanında qalmaqda olsun, sizə kimdən deyim, Mələyin nişanlısından. Elə ki, qasid xəbər verəndən sonra kəndə gəlməyə çox narahat oldu. Bir gün

kəndə gəldi, gördü nə Mələk var, nə uşaqlar. Atasından əhvalatı öyrəndi. Atası əhvalatı necə olmuşdu oğluna nəql etdi, oğlunun ona yazdığı məktubu verdi ona. Oğlan məktubu oxudu, az qaldı ki, dəli olsun. Qasidi çağırdılar. Qasid heç bir kənddə qalmadığını dedi: -Qasidi oğlanın atası öldürdü. Oğlan düşdü kəndbəkənd, o fikirləşdi ki, müəyyən bir şey aparıb, kəndlərdə satmaqda bəlkə də Mələyi tapdı.

Sənə kimdən ərz eləyim Mələkdən. Mələk ki, gəldi həmin qarının evinə, gündüzlər işləyib, gecələr rahatlanırdı. Mələk bir gecə yatmışdı, yuxusunda gördü ki, bunların evinin arxasında olan ağacın altında oturub, bu vaxt iki göyərçin uçub qondu ağacın başına başladılar bir-birilə söhbət etməyə. Göyərçinlərdən biri, o birisinə dedi: Bacılı, - bacılı, bəs bu ağacın altında oturan Mələyi görürsən, onun başına nə müsibətlər gəlib. İndi də qovublar gəlib bir qarını özünə pünhan eyləyib, buna biz nə cür kömək edək, o biri göyərçin dedi: - Gəl Mələyə bir yaxşılıq edək. Göyərçinlər hər ikisi üzlərini Mələyə tutub dedilər: Mələk, yatmısan oyan, oyaqsan eşit. Gördüyün o kəndin baş tərəfində olan çay 40 gündən bir öz-özünə daşır. İndi sən gərək onu gözləyəsən, hər gecə gedib həmin çayda çiməsən.

Qırxıncı günündə həmin çay coşanda gərək çiməsən ki, qolların üstünə gələ, deyib uçub çıxıb getdilər. Mələk yuxudan qalxdı. Qarı uşaqları bələyib Mələyə əmizdirdikdən sonra Mələk çıxıb işə getdi. Belə ki, axşamlar hamı yatandan sonra mələk özünü yetirirdi həmin çayın üstünə, çimib qayıdırdı evə. Qırxıncı gün gecə gedib, bir az gözlədi, gördü həmin çay öz-özünə coşdu. Tez gözünü yumub özün atdı çaya. Gözün bir vaxt açdı ki, çay tamam sakitləşib, özünün qolları da tamam sağalıb. Qayıdıb gəldi evə, yatdı. Səhər adəti üzrə yenə uşaqları yerləşdirəndən sonra işə getdi. Axşamlar qarı yatırdı, durub görürdü ki, işlər tamam öz qaydasındadır. Həyət-baca gül kimi təmiz, inək sağılıb, qarı Mələkdən şübhələnir, onun üstünü kəsir ki, bu sirrdən məni agah elə. Mələk qarını başqa cür başa salır ki, özüm elə etdim ki, mənimlə heç kəsin işi olmasın. Qarı; bu işə çox sevindi. Uşaqlar da xeyli irilənmişdilər.

Sənə kimdən deyim qızın qardaşı Tapdıqdan. Tapdıq bir müddət keçdi, bacısı üçün çox darıxdı, bacısının qolarını kəsdiyinə çox heyifsilənirdi. Alver məqsədi ilə bir az yük götürüb, kəndbəkənd düşüb bacısı Mələyi axtarmağa getdi. Nəhayət, Tapdığın bacısının nişanlısı ilə Tapdıq bir kənddə rastlaşıb, hər ikisi birləşib kəndbəkənd alver eləməyə başladılar, ancaq fikirlərini heç bir-birinə bildirmədilər. Nəhayət gəlib Mələk olan kəndə çıxdılar, bir neçə gün orada qaldılar. Bunlar burada alma, armud alveri edirdilər, Mələk qarını göndərdi ki, get uşaqlara meyvə al gətir. Qarı aldı gətirdi, bəs eləmədi. Bu dəfə özü getdi, meyvə çəkdirib 2 kloy aldı. Mələk qardaşını da, öz nişanlısını da tanıdı. Özü tanışlıq vermədi. Axşam olduğundan qonaqlar gecələmək üçün yer axtarırdılar ki, Mələk qarını göndərib, onların hər ikisini qonaq gətirdi. Qardaşı gəlini bacısına oxşadır, istəyir soruşsun, ancaq fikirləşir ki, mən bacımın qollarını öz əlimlə kəsmişəm, həm də ki, bunun uşaqları var, deyir, fikrindən daşınır. Oğlan da qızı oxşadır, ancaq qolları olduğuna görə dinmir. Axşam şam vaxtı ancaq uşaqlar Tapdığa dayı, qızın nişanlısına isə ata deyir. Bunlar heç uşaqlara fikir vermirlər. Axşam bunlar yatandan sonra Mələk öz qəməltisini aparıb qoyur qardaşının xurcununa - gəlib yatır. Səhər bunlar nahar eləyəndən sonra hazırlaşırlar ki, getsinlər, Mələk qardaşının qabağını kəsib deyir, bəs deyilmi, biz qonaq saxladıq, siz isə bizim qəməltimizi oğurlayıb aparırsınız. Bunların hər ikisi donub qalır. Qız əl atıb qardaşının xurcunundan qəməltini çıxardır. Tapdıq məətəl qalır ki, bu nə olan işdi başıma gəldi. Qız görürki, qardaşı çox pis oldu. Ürəyi durmur, deyir qardaş, mən həmin sənin öz bacın Mələyəm ki, dərviş sənin uşaqlarının başını kəsib, qanını şüşəyə doldurub götürdü, sonra da qanlı buçağı qoydu mənim cibimə, məni 2 qollarımdan şikəst edib, saldın çölü-biyabana. Belə dedikdə qardaşı atılır bacısının üstünə, öpüşüb-görüşür. Sonra qız üzünü çevirir, oğlan tərəfə ki, bəs sənin də arvadınam. Həmin dərvişin məktubu ilə uşaqlarımı boynuma asdırıb çöllərə düşməyə vadar oldum. Burda bunlar təzədən görüşüb, oğlan qızı, uşaqları götürüb öz kəndlərinə, Tapdıq isə öz kəndinə getdi.

## ALIN YAZISI

Biri var idi, biri yox idi, Həsən adlı yoxsul bir dəmirçi, onun Gülsün adında gözəl bir arvadı vardı ki, hədsiz xoşbəxt gün keçirib, şadxuraman yaşayırdılar, bir-birlərinə can deyib, can eşidirdilər. Ancaq paxıl qonşular həmişə onların paxıllıqlarını çəkir, həmişə bir yerdə oturanda onlardan danışır, tez-tez Gülsünə bəxtəvər verərdilər. Günlərin birində Gülsün əri evə gələndə onu hədsiz sevindirdi, bu yaxınlarda ana olacağını söylədi. Həsən çox söyündü, Gülsünün alnından öpüb onu əzizləməyə başladı. Bu gündən başlayaraq Həsən

Gülsünü çox işləməyə qoymadı, ona hər cür rahat şərait yaratmağa cəhd etdı. Kasıb olsalar da bu kiçik daxmalarında bütün cahana sığmayan sevgi dolu ürəkləri bir-birinə hörmət hissləri bəsləyirdi. Ay ötdü, artıq Gülsünün ağrıları başladı, lakin vaxta var idi, ilk doğuş olduğu üçün Gülsün böyük həyacanla mama adlanan el anasını gətirdib məsləhətlər aldı, mama tez-tez baş çəkəcəyinə söz verib çıxıb getdi. Bir axşam yenicə yemək yiyib qurtarmışdılar ki, astaca qapıları döyüldü. Həsən qapıya getdi.

- Kimsən?

- Aç ay qardaş, Allah qonağı istəmirsənmi?

- Allaha da qurban olum, onunu qonağına da.

Qonaq keçib rahatdandı o yana baxdı bu yana baxdı, gördü elə bunlar iki nəfərdilər. Özü də arvad iki cannıdı. Bir az kişi utansa da heç üzə vurmayıb üzünü oyana çevirdi.

- Kimsən ay qardaş, hardansan, bu gecə vaxtı hardan belə?

- Yaylağdan gəlmişəm ki, görüm şəhərdə dolanışıq nətəridir, tək adamam, orda da heş kəsim yoxdu, mən onsuz da, harada olsam qəribəm.

- Ay qardaş ajdığın yoxdu ki, varsa utanma de, olanımızı əsirgəmərik.

- Allah var elesin, heç nə yimirəm. Elə bir yer göstərin, oradaja bürüşüm yatım. Gəlin ehmalca durub keçdi o otağa, iki yer hazırrıyıb ərinnən qonağı ora götürdü, özü də yerinə girdi.

Az keşdi, çox keşdi; gejənin bir vaxtı gəlin ağrıdığını hiss edib, ehmalca Həsən deyib çağırdı. Həsən səsə diksinib cəld qalxdı. Tez geyinib mamanın dalınca qaşdı, Gəlin o cür ağrıların qarşısında yenə qonağın yanında biabır olduq deyə xəjalət çəkirdi. Az keçmişdi ki, qonşudan gələn arvad qorxa-qorxa Həsənin yanına xəvərə getdi. O elə bilirdi ki, qız olmağına Həsənin acığı gələcək, özü də yaxşı muştuluq ala bilməyəcək. Lakin, əksinə, Həsənə Gülsünün yaxşı qurtarması, hələ yenicə anadan olan balasının da həzin səsi bəs idi...

Səhər heç nədən xəbəri olmayan qonaq yanında heç kəsi görməyib xofa düşdü. Belə tezdən Həsənin qalxmasının səbəbini bilmədi. Bu halda yan otaxdan körpə səsi, zahı arvadın ufultusunu eşidib hər şeyi başa düşdü. Kişi uzanıb gözlərini tavana dikmişdi, heç bir səs-səmir yox idi. Ona görə də qalxıb qapının arasından baxmağa başladı. Gördü ki, pəncərədən bir mələykə içəri qonub uşağın alnını yazmağa hazırlaşır. Zahı arvad isə bir qayda olaraq bir saat doğandan sonra çox ağır



yuxuya gedir. Kişi hər şeyi görür, ehmalca içəri girib mələkdən onun alnına nə yazdığını soruşur. Mələykə deyir bunu bilməyə həvəsimə, çünki bunu heç kəsə demək olmaz. Kişi çox yalvarır, mələykəni getməyə qoymur. Mələykə məcbur olub deyir, bu iş sənnən əlaqəlidi ona görə də sənə deyirəm, yoxsa heç kəsə demək olmaz.

Bu qızın alnına yazdım ki, aylar, illər ötəcəy, bu qızı sən bulaq başında görüb bəyənəcəksən, onu alıb xoşbəxt olmaq istəyərkən bədbəxt olacaqsan. O qızı böyə vuracaq, o öləcəy, sən də onun dərdindən əvvəl dəli olacaqsan, sonra öləcəysən. Kişi gözünü açıb bir də baxanda görür heç kim yoxdu, özü də düz çağanın yanında dimdik durubdu. Eşiddiklərinə əvvəl inanmır, sonra doğrudan da bütün bədbəxtliyini yadına salıb çağanı öldürmək qərarına gəlir. Xəncəlini çıxardıb çağanın bələyini açır, onun düz sinəsindən aşağı xəncəli qarnına çəkir. Sonra həmin qonaq çıxıb gedir, onu görən olmur. Zahı arvad birdən bələyi qan içində görür, mamanı çağırtdırıb atəmi başına tökür. Tez ara həkimləri uşağın qarnını tikib üstündən uşağın yarasına bal tökürlər ki, tez bitişsin. Aylar ötür, illər ötür qız elə bir gözəl olur ki, hamı qızın gözəlliyinin qarşısında heyran qalır. Qız bir gün qızlarla bağdan gəzməkdən gələndə həmin Səyyah adlanan qonaq qızı qıraqdan görür, ancaq tanımadan, bilmədən qıza bir könüldən min könülə aşiq olur. Düz hər gün bu yerdən durub o qıza uzaqdan baxır. Az qalır məhəbbətdən dəli olsun. Axırda əlacsız qalıb evlərinə elçini-elçi dalınca, minnətçini minnətçi dalınca göndərir. O qədər yalvar-yaxardan sonra toy edib qızı evlərinə köçürür. Bu uzun illər ərzində Səyyah dükanlarda işləyib axırda sərbəst tacir olmuşdu. Var dövləti başınnan aşırdı. Qız bir gün çimirdi ki, Səyyah gəlib çıxdı, qızın qarnındakı cırığın nədən olduğunu soruşanda Sənəm özünün anasından öyrəndiyi əhvalatı Səyyaha danışdı. Əhvalatı eşidən Səyyah işin nə yerə gəlib çatdığını, eşitdiyərinin yavaş-yavaş həqiqətə çevrildiyini gördü. Səyyah hər şeyi başa düşüb, xatırlasa da Sənəmə bu barədə heç nə demədi. O yavaşca evini başqa yerə köçürüb, gənc arvadını gözlənilən bədbəxtlikdən xilas etməyə yollar aramağa başladı. Gözəl göy çəməndə, çay kənarında hündür, ikimərtəbəli, bir neçə otaqdan ibarət ev tikdirdi. Gəlini ora köçürüb artıq onu böyədən xilas etməyə çalışırdı. O tez-tez qadınına özünü böyədən xilas etməyə yollar göstərir. Böyə gördüyü yerə getməməyi, onu tez bir qalın şeylə götürüb atmağı məsləhət görürdü. Bir gün bu söhbət əsnasında Sənəm dedi:

- Ay Səyyah, sən elə həmişə böyə haqqında danışırsan, axı bilmirəm o nə cür şeydi, bir onu mənə göstər görüm o qorxulu şey nə boydadır.

- Yaxşı, tapıb sənə göstərərəm, o yaramaz şeyi. O bir gün dostları vasitəsilə böyə ölüsü tapıb Sənəmə göstərdi, pəncərədən həyətə – otluğa atdı. İşdən yorulan Sənəm artıq ərinin hər yeməyini razı edib düzdü yerə, özü də bir tərəfdə sərin yerə uzanıb yuxuya getdi.

Səyyah gəlib gördü ki, Sənəm daməməyə uzanıb elə şirin yatıb ki, heç durquzmağa ürəyi gəlmədi. Ehmalca üstünə bir örpək saldı. Sonra yeməyini yeyib, özü də onun yanına uzanıb yatdı. O yuxudan ayılanda Sənəm hələ də yatırdı. Axı o bilirdi ki, Sənəmin çox yatmaqla arası yox idi, odur ki, Sənəmi oyatmağa başladı, lakin Sənəm durmadı ki, durmadı. O birdən Sənəmin sinəsindən özü gətirdiyi böyənin ölüsünün düşdüyünü gördü, Sənəmin öldüyünü yəqin edən Səyyah qəş edib yerə sərildi. Hannan hana özünə gələn Səyyah olan keçmişləri xatırladı... Son demə yenicə yuxuya gedən Sənəmin heç nədən xəbəri olmur. Böyə gəlib onun sinəsindən keçib iki döşlərinin arasından gözəl gəlini vurub məhv edir. Artıq Sənəmin gözəl çöhrəsinə baxan Səyyah qahqahla gülüb, gülməkdən qəşş edirdi. O qədər gülmüşdü, özü də taqətdən düşmüşdü.

Biçarə artıq ağlını itirib, dəli olmuşdu. Bu münvalla Səyyah düz qızın qırxı çıxana qədər sərsəri gəzir. Axırda özünə gəlir, Sənəmi axtarır, hamıdan soruşur. Lakin Sənəmi gördüm deyən tapılmır. Onun ölüsünü qəbirstanlığa çatmamış Gəncə çayının daşları üzərindən tapırlar.

## GÜLPƏRİNİN NAĞILI

Biri var idi, biri yox idi, Allahdan savayı heç kim yox idi. Allah bəylərə, xanlara, çoxlu var-dövlət, kasıblara da o qədər dərd vermişdi ki, varlıların dövləti qədər. Bu kasıbların içində də bir qarı var idi. Bu qarının vaxtı iylə yeddi oğulu, bir qızı varmış. Günlərin bir günü bu qarı olan şəhərdə uşaq oğurluğu başlayır. Hamının körpəsini gecə yatmadan oğurlayırlarmış. Padşah bu işi belə görəndə öz məmləkətində olan cavanların hamısına car çəkdirib bildirir ki, çalışIn oğrunu tapasınız. Hər kim ki, oğrunu tutsa ona istədiyi kəndi bağışlayacam. Bu qarının oğlanları iylə bu şəhərin darğası düşmən idi. Odur ki, darğa padşahın yanına gedib deyir ki, padşah sağ olsun, Fatma qarının 7dənə nər kimi oğlanları var. Gəl sən onları göndər oğruları tutmağa. Mən bilirəm ki, şəhərdə bircə onlar oğrunu tuta bilərlər. Padşah bu sözü bəyənir, Fatma qarının böyük oğlu Məhəmmədi yanına çağırıb deyir. Məhəmməd, sənə 7 gün vaxt verirəm. Gərək oğrunu tapasan. Məhəmməd çar-naçar qalıb razı olur. Həmin gecə padşahın 7 yaşlı oğlu ilə Məhəmməd yoxa çıxır. Şəhərdə 2 yerdə yas qurulur, bir padşahın evində, bir də Fatma qarının evində. Bu zaman padşah əmr edir ki, kim mənim oğlumun ölüsünü, ya dirisini mənə versə, özü ağırlığında ona qızıl verəcəyəm. Heç kəs qorxusundan buna razı olmur. Çünki hər kəsi oğrunu tutmağa göndərirdilərsə həmin adamın özünü də oğurlayırdılar. Darğa bu sözü eşidib, yenə gəldi padşahın hüzuruna, ona baş əyəndən sonra dedi: Padşah sağ olsun, bu işin öhdəsindən Fatma qarının oğlanlarından başqa heç kəs gələ bilməz.

Padşah Fatma qarının oğlanlarını hüzuruna çağırıb əmr edir ki, 7 günün içində oğrunu tapmasanız boynunuzu vurduracağam. Oğlanlar razı olmaq istəmirlər. Ancaq padşah onlara əmr edir ki, ya tapmalı, ya da başınızdan keçməlisiniz. Oğlanlar çar-naçar razı olurlar. Beləliklə oğlanlar gəlib öz ataları, bacıları ilə görüşüb, halallaşıb ayrılırlar. 6 qardaş şəhərin qırağında pusquya dururlar. Onlar hər şeydən əvvəl öz itmiş qardaşlarının xətrəsi üçün bu işə boyun olmuşdular. Odur ki, qardaşların hərəsi gecə gedib şəhəri gəzib, səhərə yaxın yenə də şəhərin qırağındakı xarabalığa gəlirdi. Bu minvalla qardaşların hamısı yoxa çıxdı. 7-ci gün xarabalıqda qardaşların izi belə qalmadı. Padşah 8-ci günü taxta çıxıb gördü ki, Fatma qarının oğlanları gəlmədi. Əmr etdi ki, Fatma qarını hüzuruma gətirin. Bu vaxt darğa da padşahın yanında idi. Padşahı da öyrədən, bu işə vadar eyləyən darğa oldu. Padşahın adamları gedib Fatma qarını padşahın hüzuruna gətirmək istəməkdə olsun, eşidin Fatma qarıdan, onun qızı Gülpəridən. Fatma qarı oğlanlarının dərdindən o qədər ağlamışdı ki, az qalırdı dərddən bağrı çatlasın. Fatma qarı bilirdi ki, bu darğanın fitnəsidir, bilirdi ki, Fatma qarının nəslini yer üzündən kəsməmiş darğa ondan əl çəkməyəcək. Odur ki, istəyirdi ki, padşaha darğadan şikayət etsin. Çünki bir vaxt darğa Gülpərini almax istəyirdi. Fatma qarı sevimli qızı Gülpərini atası yaşında olan darğaya verməzdi. Darğa Gülpərini zorla qaçırmaq istədikdə qardaşları darğanı möhkəm döymüşdülər, tapşırmışdılar ki, bir də Gülpərinin adını çəksə onu tikə-tikə doğrayacaqlar.

Əlqərəz, padşahın adamları Fatma qarını zorla apardılar padşahın

hüzuruna. Padşah Fatma qarıya dedi: - Ey qoca, de görüm oğlanlarını harada gizlətmisən? Fatma qarı and-aman elədi ki, bilmirəm. Padşah yenə soruşdu, qarı dediyini dedi. Bu zaman padşah əmr eylədi ki, qarını zindana salın, bütün məmləkətə car çəkdirdi ki, əgər 40 günə kimi Fatı qarının oğlanları üzə çıxıb divana təslim olmasalar - qarının boynu vurulacaq. Fatma qarı zindanda qalsın, carçılar da car çəkməkdə, sizə deyim darğadan. Darğa gördü ki, Fatma qarı zindanda, oğlanları da itkin düşüb, Gülpəri qalıb evində tək-tənha, odur ki, bir gecə gəldi Gülpərini qaçırsın. Gülpəri bu zaman yatmışdı. Birdən gördü qapı döyülür. Tez oyandı. Atasından qalma xancalı götürüb durdu evin ortasında. Darğa qapını qırıb Gülpəriyə hücum edəndə Gülpəri xancalı onun sinəsinə sancdı gecə ikən üz qoydu bəri-biyabana, səhər gəlib darğanın meyidini apardılar. Camaat ona nəhlət oxumaqda, Fatma qarı zindanda. Gülpəri yol getməkdə, itkin qardaşlar qayibanə yerdə olsunlar, eşit padşahın oğlundan.

Padşahın böyük oğlu kiçik qardaşının oğurlanmasını eşidəndən dərdə düşmüşdü. O, çox istəyirdi ki, sarayı buraxıb kiçik qardaşını axtarmağa getsin, amma padşah, saray adamları buna razı olmurdular ki, gedib sən də itkin düşərsən. Taxt-taca yadlar yiyə çıxar. Padşahın arvadı da and içmişdi ki, Məlik Cümşüd getsə, özümü öldürərəm. Odur ki, Məlik Cümşüd qalmışdı naəlac. Padşah gördü ki, Məlik Cümşüd çox fikir edir. Odur ki, vəzirin-vəkilin oğlunu çağırıb onlara dedi ki, bir qədər qoşun götürün, öz dostunuz Məlik Cümşüdü ova aparın, bəlkə onun dərdi azala, eyni açıla.

Vəzirin, vəkilin oğlu Məlik Cümşüdlə dost idilər. Onlar öz dostlarının dərdini azaltmaq üçün padşahın bu təklifinə ürəkdən sevindilər. Səhəri gün boylananda 40 atlı vəzirin, vəkilin oğlu Məlik Cümşüdü meşəyə ova apardılar. Bunlar ov etməkdə olsunlar, eşit Gülpəridən. Gülpəri bildi ki, padşah onu zindana salacaq, boynunu vurduracaq, darğanın da qohumları onu dinc qoymayacaqlar, ona görə də baş götürüb bəri-biyabana qaçmışdı. Gülpəri gördü ki, hava işıqlaşır, özünü verdi meşəyə. O, qədər gəzdi, dolandı ki, axırda acıdı. Ac adamın burnu çox iyli olur. Odur ki, Gülpəri gördü ki, haradansa burnuna kabab iyi gəlir. Tez başladı tüstü gələn tərəfə getməyə. Çox axtardı, axırda gəlib bir yerə çatdı, gördü ki, burada üç nəfər padşah balası kimi oğlan oturub ceyran kababı yeyirlər. Amma birinə nə qədər eyləyirlərsə, nə çörək yeyir nə də şərab içir. Qız bir könüldən min könülə bu oğlana aşiq olur. Amma oğlanlar Gülpərini



görmürdülər. Vəzirin vəkilin oğlu o qədər şərab içdilər ki, axırda kefləndilər. Dedilər Məlik Cümşüd gəl bir az dincimizi alaq. Səhərdən at belində yorulmuşuq. Bu zaman Gülpəri eşitdi ki, bu oğlan padşahın böyük oğlu Məlik Cümşüddür. Gülpəri bu sözü eşidən kimi qəlbində intiqam hissi baş qaldırdı, oğlana bənd olduğu üçün özünü xeyli danladı. And içdi ki, padşah ki, bizim evimizi dağıtdı, qardaşlarımı itkin saldı, anamı da zindanda saxlayır, gərək onu gülləyə qurban eləyəm ki, padşah bilsin mən nə çəkirəm. Oğlanlar başladı yatmağa. Onlar yatmışdılar ki, Gülpəri öz-özünə dedi: - Padşah namərdlik edibsə mən hələ namərdlik edib, yuxulu, yatan yerdə öldürmərəm. Qoy yuxudan oyansınlar, ondan sonra mən onunla vuruşaram. O, məni öldürsə öldürər, onsuz da həyatda bir kəsim yoxdur. Anamdan, qardaşlarımdan ayrı mənə yaşamaq da haramdır. Əgər mən onu öldürsəm heç olmasa onların yanında o dünyada xəcalət çəkmərəm. Gülpəri bu fikirlə oğlanların oyanmasını gözləyirdi ki, birdən gözlərinə meşənin sıx yerindən bir dəstə adam gəldiyini gördü. Gülpəri özünü göstərməməkdən ötrü gizləndi, bu məsələni öyrənməyə çalışdı. Həmin dəstə yaxınlaşıb oğlanların yanına, aşağı endilər. Bu zaman biri o birisinə dedi ki, istədiyimizi Allah özü bizə rast gətirdi. Bu yatanlar padşahın, vəzirin, vəkilin oğludur. İndi bunları oğurlayandan sonra padşahın ocağını kor qoyacaq, quldurbaşının əhdini yerinə yetirəcəyik. Onlar öz yapıncılarının altından kəndir çıxarıb oğlanların üstünə cumdu, onların hər üçünün əl-qolunu bağlayıb yapıncıya büküb apardılar. Gülpəri tez barmağını dişləyib bildi ki, şəhərdən adam oğurlayanlar elə deyəsən bunlardır. Gülpəri tez gizləndiyi yerdən çıxıb onların dalına düşdü. Pusa-pusa gedirdi ki, yolda bir xəncər tapdı. Xənçəri götürüb baxanda gördü ki, bu şahanə xəncərdir. O saat bildi ki, bu Məlik Cümşüdün xəncəridir. Gülpəri xəncəri götürüb qoltuğunda gizlətdi, quldurların dalınca getdi. Quldurlar getməkdə olsun, Gülpəri də onları pusmaqda, sizə kimdən deyim qoşundan. Qoşun başçısı gördü ki, şər qarışmaq üzrədir. Tez qayıtmaq lazımdır. Odur ki, onlar Məlik Cümşüdü axtarmağa başladılar. O qədər axtardılar ki, gün batdı, ay çıxdı. Hər yeri qarış-qarış gəzdilər, oğlanlardan bir xəbər-əsər tapmadılar. Kor-peşman qayıtdılar saraya, onlar düşündülər ki, bəlkə onlar bizsiz qayıdıblar. Qoşun başçısı sarayın qapıçısından soruşdu ki, sən Məlik Cümşüdü görmüsənmi, onlar saraya qayıdıbmı, dedilər, yox. Odur ki, qoşun başçısı üzünü 40 pəhlivana tutub dedi: - Görünür padşahın oğlunu,

yoldaşlarını qurd-quş yeyib, yadakı azıblar. Odur ki, mən saraya getmirəm. Kim də getsə, bilirəm ki, padşah boynunu vurduracaq. Buna görə mən baş götürüb gedirəm. Ya padşahın oğlunu tapıb gətirəcəm, yadaki, bir də bu torpağa qayıtmayacağam. 40 pəhlivan da öz başçılarından təvəqqe etdi ki, onları da özü ilə aparsın. Qoşun başçısı buna razı oldu, 40 pəhlivan da üz tutdular meşəyə tərəf.

Padşah o qədər gözlədi ki, qaş qaraldı, camaatın gedəni gəldi, ayaq kəsildi, çıraqlar söndü, amma gedənlər qayıtmadı. Padşah, vəzir, vəkil bilmirdilər ki, narahatlıqdan neyləsinlər! Padşah saray qapıçısını yanına çağırıb əmr etdi ki, səhərə qədər darvazanı bağlama, çünki, oğlum hələ ovdan qayıtmayıb. Bu zaman qapıçı 40 pəhlivanın, başçısının elədikləri söhbəti padşaha danışdı. Padşah vəziyyəti bütün saray əyyanlarına danışıb, kömək, məsləhət istədi. Saray əyyanları padşaha dedilər ki, səbr eləsin, hər şey səbrlə başa gəlir. O gecə nə padşah, nə arvadı, nə vəzir, nə vəkil nə də onların ailələri yata bildilər. Səhər padşah qara geyib taxta çıxdı, carçıları yanına çağırıb tapşırdı ki, kim mənim adamlarımdan mənə bir xəbər versə qızıl toqqamı ona bağışlayacam. Car çəkildi, amma heç bir xəbər gətirən olmadı. Bir həftə keçdi, gedənlərdən bir xəbər çıxmadı. Axırda padşah təzədən car çəkdirdi ki, hər kim itənlərdən bir xəbər versə tacımı, toqqamı ona verəcəyəm. Vəzir də padşahdan icazə alıb car çəkdirdi ki, vəzirliyimi ona verəcəyəm. Bu minvalla on gün keçdi.

Padşah, vəzir car çəkdirməkdə olsunlar, sizə xəbər verim Gülpəridən. Gülpəri o qədər getdi ki, gördü quldurlar meşədən çıxıb, dağın altındakı bir mağaraya girdilər. Gülpəri axşama qədər gözlədi. Hava qaraldı. Göz gözü görmürdü. O, gəlib mağaranın ağzında durdu ki, görsün bir şey öyrənə bilirmi. O, qədər gözlədi ki, gördü mağaradan iki nəfər adam çıxdı. Bu bayaq Məlik Cümşüdgili gətirən quldurlardır. Sakitcə dayanıb onlara qulaq asdı. Bu zaman quldurun biri, o birisinə dedi ki, sabah şəhərə gedib, Məlik Cümşüdü gətirdiyim üçün quldurbaşının mənə verdiyi üzüyü satıb karvansarayda keyf eləyəcəyəm. Gecə də əlimə bir şey düşsə oğurlayıb gətirəcəyəm. Bu sözlərdən sonra Gülpəri arxayın oldu ki, oğurlanan adamlar buradadır. Ancaq yerinə yetmək fikrinə düşdü. Quldurlar mağaraya qayıtdıqdan sonra Gülpəri də meşəyə qayıtdı. Səhəri günün axşamı Gülpəri şəhərə gəldi, düz getdi karvansaranın qabağına. Amma Gülpəri başına qara çadra örtmüşdü ki, onu tanımasınlar. Gülpəri o qədər gözlədi ki, axırda quldur gəlib çıxdı. Gülpəri qulduru görən kimi



onun dalınca karvansaraya girdi. Gülpəri quldurun nə məqsədlə gəldiyini bildiyi üçün bir təhər ona yaxınlaşdı. Quldur sözə başlayıb dedi ki, onda bir üzük var, onu satıb xərcləmək istəyir, belə üzük heç padşahın sarayında yoxdur. Gülpəri quldurla söhbət etdikdən sonra ona özünü bir falçı kimi göstərib dedi ki, bu üzüyü sənə filan mağarada olan quldurbaşı verib. Özü də padşahın oğlunu oğurladığın üçün.

Quldur bu sözləri eşidib məhəttəl qaldı, Gülpəridən təvəqqe etdi ki, bildiyi sirri pünhan saxlasın. Gülpəri gördü ki, quldur bərk qorxur. Odur ki, ona dedi: İndi ki, sən deyirsən sirri saxlayım, onda de görüm siz 7 qardaşları neylədiniz. Quldur dedi ki, oğurlanan bütün adamlar mağarada bir qalacıq var, oradadırlar. Bundan sonra Gülpəri bütün sirrləri quldurdan öyrəndi. Gecə onlar karvansarada qaldılar. Gülpəri yatağının altına qılınc qoyub yatdı ki, ona quldur yaxın gəlməsin. Bir də o, quldura tapşırmışdı ki, əgər o ona yaxın gəlsə, aləmi bura tökəcək. Səhər açıldı, görüş verib onlar ayrıldılar. Həmin gün Gülpəri Məlik Cümşüdün meşədə tapdığı xəncərini bir balaca sandığın içinə qoyub padşaha göndərdi. Bu o, gün idi ki, sabah Fatma qarının boynu vurulacaq idi. Həmin hadisədən 39 gün keçmişdi. Gülpəri karvansara mehtərinə sandığı verdi, içinə bir kağız yazıb qoydu. Mehtərə tapşırdı ki, əgər bunu aparıb padşaha versən, o, səni dünya malından qane edər.

Mehtər sandığı alıb üz qoydu padşahın sarayına. Padşaha xəbər gəldi ki, padşah sağ olsun, şəhər karvansarasının mehtəri gəlib deyir ki, padşaha bir hədiyyəm var, buraxaqmı gəlsin hüzuruna?

Padşah dedi: Buraxın.

Mehtər gəlib sandığı padşaha verib, dedi ki, bu sandığı qara çadra örtmüş bir zənən xeylağı verdi. Padşah sandığı açıb gördü ki, yazılıb ey padşah, bu sənin oğlunun xəncəridir, əgər oğlunun qayıtmasını istəyirsənsə, Fatma qarını zindandan azad et. Ondan üzr istə, onu mən sənin oğlunu gətirənə qədər sarayda saxla. Mən gedirəm sənin oğlunu azad etməyə.

Bu zaman meydan sulanmış, süpürülmüşdü. Günorta carçı car çəkəcəydi ki, sabah Fatma qarının başı bədənindən ayrılacaq. Çünki onun oğlanları əhdə naxələf çıxmış, qızı isə darğanı öldürmüşdü. Padşah tez vəzir-əyanı çağırıb dedi, ey məni istəyən, mehtərə xələt. Mehtərə o qədər xələt verdilər ki, üç gün daşıyıb, qurtara bilmədi. Sonra padşah arvadını, saray xanımlarını çağırıb əmr etdi ki, gedin tez Fatma qarını zindandan çıxarın. Hamama aparın, libas geydirib, saraya

gətirin. Bu zaman Fatma qarı zindanda oturub ahu-zar edirdi ki, ömrü nə pis əcəllə sona yetdi. Oğlanları, qızı yanında olmadı ki, onu çiynində qəbrə aparalar. Əlqərəz, Fatma qarı bir də gördü ki, zindanın qapısı açılır. Öz-özünə dedi ki, mənimki də bura qədər imiş. Amma qapı açılan kimi Fatma qarı gözlərinə inana bilmədi. Elə bildi yuxu görür. Padşahın arvadı, vəzirin, vəkilin əyalı qarının ayağına yıxılıb ondan üzr istədilər, əvvəl hamama, sonra saraya apardılar.

Fatma qarı sarayda, qırx incəbel qız qulluğunda olsun, eşit Gülpəridən. Gülpəri gördü ki, anasını padşah öldürmədi. Öz-özünə düşündü ki, artıq işə başlamaq olar. Gülpəri həmin gecənin sabahı quldura söz vermişdi ki, gələrsən karvansaraya, görüşərik. Quldur da gəlmişdi. Onlar doyunca söhbət etdikdən sonra quldur dedi biz 40 yoldaşıq, varımız-dövlətimiz həddindən aşıb, hamısı da arvadsızdır. Hər gecə günümüz yeyib-içməklə keçir. Əgər Gülpəri onun arvadı olmaq istəyirsə, getsin onunla mağaraya. Gülpəri yalandan razı oldu, dedi ki mənə 7 gün möhlət ver fikirləşim, buna indidən hazırlaşım. Gülpəri gecələr mehmanxanaya gedib, orada qalar, mehtərin komasında, səhərlər də meşəyə çəkilərdi. Gülpəri qoca mehtərlə ata-bala olmuşdular. Bir gün Gülpəri meşədə gəzərkən 40 atdıya rast gəlir. Qabaqda gələn atlıların başçısı Gülpərini meşədə tutub elə bildilər ki, Məlik Cümşüdün oğurlanmasında, deyəsən bu qızın əli var. Odur ki, o, Gülpəridən necə, kim olduğunu, niyə meşəyə gəldiyini soruşdu. Qız elə bildi ki, onlar onu öldürəcək. Odur ki, başına gələn bütün hadisələri başçıya danışdı, dedi ki, indi quldurun biri onun əlindədir. 40 atlılar bu görüşdən çox sevindilər. Onlar Gülpəriyə "çox sağ ol" dedilər, tapşırdılar ki, quldurn tapsın, ondan mağaranın yolunun sirrini öyrənsin. Bu halda vəzirin qızları da car çəkdilər ki, kim bizim qardaşımızı xilas etsə, ona gedəcəyik. Vəzirin də yeddi qızı var idi, gözünün ağı-qarası bir oğlu. Əlqərəz, Gülpəri quldurn görüb, karvansarada onu içirdib sərxoş etdi, dedi ki, gəl gedək mağaraya. Quldurla Gülpəri mağaraya gedən zaman 40 atlı onların dalınca düşüb pusa-pusa gəldilər mağaraya. Atlıların hər biri bir quldurun üstünə cumub, onların qollarını bağladılar. Sonra gedib bütün oğurlanan adamları qaladan xilas etdilər. Padşahın kiçik oğlu ilə Məlik Cümşüdün sağ olması hamını sevindirdi. Gülpəri qardaşlarını da tapıb, görüşüb, öpüşdülər. Bütün mağaradakılar sağ-salamat, yanlarında da qolları bağlı 40 quldur oradan çıxıb gəldilər padşahın sarayına. Padşaha xəbər getdi ki, gözün aydın, oğlanların, bütün itmiş adamların sağ-salamat qayıdırlar. Padşah əmr



verdi yollara xalı döşədilər, saray bütün çıl-çıraqla, xalı-gəvə ilə bəzəndi. Qızlar, gəlinlər gələnləri gül-çiçəklə qarşıladılar. Padşah qırmızı geyib taxta çıxdı, əmr elədi ki, bütün şəhər bayram etsin. Padşah öz oğlanlarını sağ-salamat görüb sevindi, onların xilaskarını yanına çağırıb dedi: Sən ki, mənim oğlanlarımı ölümdən qurtardın, xalqın düşmənlərini tapdın, nə əmr eyləsən mən yerinə yetirərəm. Sonra da vəzir qızlarının əhdini Gülpəriyə danışdı. Gülpəri dedi:

– Madam ki, vəzirin qızları belə əhd ediblər, onda qoy o 7 qız mənim 7 qardaşıma ərə getsinlər. Ey padşah, mənim səndən istədiyim budur ki, mənim anamı, qardaşlarımı azad et. Mən də sənin darğanı öldürən Gülpəriyəm. İndi sən mənə nə cəza verirsənsə, ver.

Sonra Gülpəri başına gələn əhvalatı padşaha, bütün xalqa danışdı. Padşah Gülpərinin günahsız olduğunu bilib ona baraət verdi. Məlik Cümşüd Gülpərinin belə qoçaqlığını görüb bir könüldən min könülə ona bənd oldu. Padşah bunu belə görüb Gülpəridən soruşdu ki, Məlik Cümşüdə gələrsənmi? Gülpəri dedi: - Qardaşlarım, anam olan yerdə mən nə deyə bilərəm? Onlar vəkildi. Hamı razı oldu. Bu zaman padşah üzünü Məlik Cümşüdə tutub dedi:

– Oğul, artıq biz qocalmışıq. Bu gün sabahlığıq. Mən sağ ikən öz taxt-tacımı sənə verirəm.

Vəzir də, vəkil də padşahdan icazə alıb, öz vəzifələrini padşaha tapşırdı. Padşah vəzirin oğlunu vəzir, vəkilin oğlunu isə vəkil qoydu. Bu zaman karvansara mehtəri saraya gəlib padşaha göz aydınlığı verdi. Mehtərin adı dillərdə gəzən 2 gözəl ekiz qızı var idi. Padşah mehtərdən icazə alıb, onun qızının birini vəzirin, o birini vəkilin oğluna aldı. Səhərisi gün sarayda on yerdə toy çalındı. Toy 40 gün davam etdi. Cavan padşahla, cavan vəzir, vəkili hamı təbrik etdilər. Camaat yeddi qardaşı təbrik etdi. Deyirlər ki, həmin dövlətdə o qədər var-dövlət əmələ gəldi ki, kasıblıq sözünü hamı unutdu. Onlar yeyib içib yerə getdilər, siz də yeyin, için dövran sürün. Göydən üç alma düşdü. Biri mənim, biri nağılı yaradanın, biri də bu nağıla qulaq asanların.

## MƏHƏMMƏDLƏ GÜLCAHANIN NAĞILI

Keçmiş zamanda öz qəddarlığı, zalımlığı ilə məşhur olan bir şah yaşayırmış. Şah qocalanda ona arxa dursun deyə - oğlan övladı istəyirmiş, lakin nə qədər arvad alırmışsa bədbəxtlikdən qızı ölürmüş. Buna görə də arvad alarkən əvvəlcədən şərt qoyurmuş - əgər qız olsa, səni

də, qızı da öldürtdürəcəyəm, yox əgər oğlan olsa səni qızıl-gümüş içində saxlayacağam. Beləliklə neçə arvad alırsa mümkün olmur, şah da sözünə əməl edib onları öldürtdürür. Şah axırıncı arvadı Pəri xanıma da bildirir ki, oğlun olmasa səni də qızınla birlikdə öldürtdürəcəyəm. Şahın zalımlığını bilən Pəri xanımın canına qorxu düşür.

Həmin şəhərdə yoxsul bir naxırçı yaşayırdı. Naxırçının o, qədər uşağı var idi ki, qazandığı cüzi gəlirlə onları bir qarın ac, bir qarın tox zorla saxlaya bilirdi. Aylar keçdi, bir gün naxırçı çöldən evə qayıdan zaman ona xəbər verdilər ki, arvadın ağrı çəkir, tez mamaça gətirmək lazımdır. Bu xəbərdən şad olmaq əvəzinə bərk kədərlənən naxırçı bəxtinə lənət yağdıra-yağdıra şəhərdə bircə nəfər olan mamaçanın dalınca yollandı. Mamaça gəlib arvadın yanına girdi, naxırçı isə bayırda oturub cibindəki olan-qalan qəpik-quruşu toplamağa başladı. Nəhayət mamaça çıxıb naxırçını muştuluqladı ki, bəli gözün aydın, səkkizinci oğlun dünyaya gəldi. Naxırçı topladığı pulları mamaçaya verib yola saldı.

Şəhərin ortasında şahın imarətində də böyük çaxnaşma var idi. Pəri xanım da ağrı çəkirdi. Tez həmin mamaçanı tapıb gətirdilər. Ancaq yazıq Pəri xanımı ağrıdan çox qorxu əldən salmışdı, bilirdi ki, əgər qızı olsa şah hər ikisini öldürtdürəcək. Buna görə otaqdakı adamları otaqdan çıxartdırdı. İçəridə yalnız qoca mamaça ilə tək qaldıqdan sonra, mamaçanı başa saldı ki, əgər qızım olsa şah hər ikimizi öldürtdürəcək. Mamaça işi belə görüb həm özü qazanmaq, həm də Pəri xanımı ölümdən qurtarmaq qərarına gəldi. Nəhayət Pəri xanımın qızı oldu, o qorxusundan qarıya yalvarmağa başladı. Qarı isə əgər uşağın ağırlığı qədər qızıl verərsə qız ilə bir saatda doğulmuş naxırçının oğlunu dəyişməyə söz verdi. Tez uşağı bir cındıra büküb naxırçının yanına qaçdı. Qızılın yarısını verməklə onları razı saldı, uşaqları dəyişdi. Özü isə şaha muştuluğa getdi ki, bəs gözün aydın, oğlun olub. Şah bu xəbəri eşidib bərk sevindi, əmr etdi ki, üç gün, üç gecə kef məclisi qurulsun. Qarıya isə ürəyi istəyən qədər pul verilsin. Aylar, illər keçdi, uşaqlar on yeddi yaşına çatdılar. Şah oğlu Məhəmməd gəlib elə bir oğlan oldu ki, gəl görəsən.

Naxırçı qarıdan aldığı pula böyük bir imarət tikdirib, külfəti ilə birlikdə kef-damaqla ömür sürürdü. Qız isə elə bir qız olmuşdu ki, yemə-içmə xətti-xalına, gül camalına tamaşa eylə. Günlərin bir günündə Gülcahan xanım pəncərə qabağında oturub özünə sığal verən zaman, şah öz başının dəstəsi ilə ova gedirmiş. Şah Gülcahan xanımı



görüb bir könüldən min könülə ona aşiq olur. Həmin gün şah ova getməyib geri qayıdır. Vəzir-vəkili çağırtdırıb elçi getmələrini əmr edir. Qıza elçi gedirlər, naxırçı şahın qorxusundan qızın ona verilməsinə razı olur. Bu xəbəri Pəri xanım eşidir, bu xəbərdən bikef olur. Məhəmməd bu xəbəri eşidib anasının yanına gəlir, görür ki, anası çox bikefdi. Məhəmməd soruşur ki, ana niyə qəmginsən? Pəri xanım məsələni olduğu kimi Məhəmmədə danışır. Deyir ki, oğlum bil və agah ol, sən həmin naxırçının oğlusan, uşaq vaxtı səni şahın qorxusundan mən öz qızımla dəyişmişəm. İndi şah öz qızı ilə evlənmək istəyir. Məhəmməd deyir ana, sən fikir eləmə, mən qızı da götürüb bu vilayətdən qaçaram.

Məhəmməd Pəri xanımla görüşüb, bir başa öz doğma anasının yanına gəlib, onlarla da görüşüb Gülcahan xanımı da götürüb şəhərdən çıxır. Bacı-qardaş bir neçə gün yol getdikdən sonra bir qalaçaya rast gəlirlər. Bunlar içəri girib mağarada gecələyirlər. O, gündən bunlar burada yaşamağa başlayırlar.

İndi sənə kimdən xəbər verim, yeddi qardaş divlərdən. Həmin qalaça yeddi qardaş divlərin idi. Onlar bir neçə aylıq səfərə getdikləri üçün, qalaça boş qalmışdı. Axşam böyük qardaş yatır, yuxuda görür ki, evlərində nə isə bir hadisə baş verib. Tez yuxudan ayılıb qardaşlarını da yuxudan oyadır, deyir, mən gərək evimizə qayıdam. Məni üç gün gözləyin, gəldim gəldim, yox əgər gəlmədim, siz evə qayıdanda görüşərik. Div qardaşları ilə görüşüb yola düşür. Bu boş qalaçaya gəlir, burada nə görsə yaxşıdır. 17 yaşında bir qız, elə gözəldir ki, aya deyir sən çıxma, mən çıxacam, günə deyir sən çıxma mən çıxacam. Div bir könüldən min könülə qıza aşiq olur. Qız divi görüb qorxur. Div isə bunu hiss edib qıza deyir, əgər-səsini çıxarsan səni öldürəcəyəm, de görüm kimsən, səni buraya kim gətirib. Qız başına gələn əhvalatı danışır, deyir ki, məni buraya Məhəmməd gətirib. Div deyir. Əgər mənim burada olduğumu Məhəmmədə desən səni də onu da öldürəcəyəm. Gülcahan Divin qorxusundan Məhəmmədə heç bir söz demir. Gecə yatırlar, səhər açılan kimi, Məhəmməd ova gedir. Div isə gizləndiyi yerdən çıxıb qızla söhbət etməyə başlayır. Belə-belə Məhəmməd hər səhər durub ova gedir, dev isə gizlindən çıxıb qızla əylənir. Aylar keçir, Gülcahan hamilə olur. O devə deyir, bəs indi neyləyək? Məhəmməd bilsə bizi öldürəcək. Div deyir, qulaq as, Məhəmməd gələndə sən özünü xəstəliyə vur, de ki, yeddi ağaclıqda bir qara div yaşayır, əgər onun bağında olan almalar-

dan mənə gətirməsən mən öləcəyəm. Axşam olur, Məhəmməd evə qayıdır, görür ki, bacısı xəstədir, soruşur bacı, sənə nə olub? Gülcahan deyir, qardaş, yeddi ağaclıqda bir qara dev yaşayır, əgər onun bağındakı almalardan gətirməsən bir də məni görməyəcəksən. Məhəmməd altdan geyinib, üstdən qıfıllanır, üstdən geyinib altdan qıfıllanır, bacısı ilə görüşüb yola düşür.

İndi eşit Gülcahan xanımdan. Məhəmməd yola düşəndən bir neçə gün sonra devdən oğlu olur. Gülcahan xanımla gündüzlər kefə baxan, gecələr gizlənən Dev indi şad-xuraman yaşamağa başlayır.

İndi görək Məhəmməd necə oldu.

Məhəmməd bir ay yol getdikdən sonra nəhayət qara devin məkanına yetişir. Məhəmməd bir təhər bağa girə bilir. Bağdakı meyvələrdən heybəsinə yığıb, qara Devin qırx mərtəbəli otaqlarını gəzməyə başlayır. Qırxıncı otağa girəndə görür ki, burada bir qız var, özü də elə gözəldi ki, yemə içmə, onun xətti-xalına, gül camalına tamaşa elə. Məhəmməd qızı görən kimi bir könüldən min könülə aşiq olur. Qız saçından asılı idi. O, Məhəmmədi görən kimi dedi, ey cavan, yazıqsan, tez buradan çıx get, indicə qara dev gəlib səni parça-parça edər.

Məhəmməd dedi: – Mən qovun-qarpız deyiləm ki, məni parçalasın.

Qız çox dedi, Məhəmməd az eşitdi. Ey gözəl, sən mənə kömək elə, bir yol göstər, buradan çıxaq. Qız razı olub dedi, əgər sən qılıncınla birinci zərbədə mənim hörüklərimi kəsib, məni tutsan, mən sənə kömək edərəm, yox əgər kəsə bilməsən onda hər ikimiz daş olacağıq. Məhəmməd razı oldu. Qılıncını götürüb, birinci zərbədə qızın hörüklərini kəsdi, tutub yerə qoydu. Qız deyir: -ay pəhlivan, bu gündən mən səninəm, özüm də cinlər padşahının qızıyam, yeddi ildir ki, bu Dev məni burada saxlayır, indi isə gedək atamın vilayətinə, orada biz xoşbəxt yaşayarıq.

Məhəmməd deyir: -Yox Gülzar xanım, mən qara Devi öldürməsəm burdan gedən deyiləm.

Gülzar xanım deyir: -Məhəmməd, sən qara Devi öldürə bilməzsən. Qara Dev öləndən sonra onun qənədindən yeddi dənə dev əmələ gəlir.

Məhəmməd Gülzar xanımın dediklərinə qulaq asmır. Qara Devi öldürmək üçün öz kəməndini qırxıncı mərtəbəyə bağlayır. Məhəmmədin kəməndi rezin kimi idi. O, kəməndi belinə bağlayıb qırxıncı mərtəbədən yerə tullanır, Məhəmmədin ayağı yerə dəyən kimi kəmənd onu yuxarı çəkir. Məhəmməd bir neçə dəfə məşq edir, elə bu vaxt qara Dev gəlir, görür ki, bir oğlan aşağı tullanır, yuxarı qalxır. Qara dev bunu görüb hirslənir. Ağacı kökündən çıxarıb dəyirman daşına taxır. Məhəmməd bunu görür, Dev ağacı elə tullayır ki, Məhəmmədə dəyməyərək yerə girir. Məhəmməd yuxarı qalxır, Dev yaxına gəldikdə tullanıb, onu qılıncla vurur. Qara Dev Məhəmmədin vurduğu zərbəyə dözə bilməyib ölür. Bu zaman Devin qanadından yeddi dənə Dev əmələ gəlir. Məhəmməd hər tullandıqca devin birni öldürür. Nəhayət yeddinci Devi öldürə bilmir. Kəmənd belindən açılıb yerə düşür. Onlar qırx gün qırx gecə güləşirlər. Axırda Məhəmməd Gülzar xanımı da götürüb yola düşür. Gülzar xanım Məhəmmədin buraya gəlməsinin səbəbini soruşur. Məhəmməd başına gələn hadisələri Gülzar xanıma söyləyir. Gülzar xanım deyir, Məhəmməd, bacın səni aldadıb. Onun devdən bir oğlu var. Səni də ölümə göndərən həmin Devin sözləridir ki, bacın onları sənə yalandan demişdir.

Məhəmməd, gəl atamın vilayətinə gedək, orada biz xoşbəxt yaşayarıq.

Məhəmməd Gülzarın dediklərinə inanmır: -Yox, Gülzar xanım, gərək gedim, bacım xəstədir, məni gözləyir.

Gülzar çox dedi, Məhəmməd az eşitdi. Gülzar xanım dedi, onda al bu üzüyü, qaşı solsa bil ki, mən ölmüşəm. Məhəmməd də öz üzüyünü Gülzar xanıma verib dedi, əgər bu üzüyün qaşı qırmızı rəngdə olsa, onda bil ki, mən ölmüşəm. Əgər başıma bir iş gəlməsə, mən səni axtarıb taparam.

Gülzarla Məhəmməd görüşüb ayrıldılar. İndi eşit devdən, dev eşidir ki, Məhəmməd qayıdır. O tez qızın yanına gəlib deyir: -Xanım, qardaşın qara Devi öldürüb qayıdır. Gülcahan xanım dedi:

– Bəs indi biz neyləyək?

Dev dedi: -İndi sən qulaq as. O durub bir mumla düzəldilmiş kəndir gətirib deyir, al bu kəndiri Məhəmməd gələndə de ki, qardaş, sən ki, belə güclüsən gətir qollarını bu kəndirlə bağlayım, əgər kəndiri qırsan onda bilərəm ki, qara devi öldürübsən.

Məhəmməd bu kəndiri qıra bilməz, onda mən onu öldürərəm, sonra biz arxayın yaşayarıq.

Məhəmməd bir neçə gün yol gəldikdən sonra qalaçaya çatır, içəri girir, görür ki, bacısı həminki kimi yatır. Bacısı ilə görüşüb almaları ona verir. Qız almalardan yeyən kimi yerindən durur. Məhəmməd başına gələn əhvalatı danışır. Gülcahan fürsətdən istifadə edib deyir: -

Məhəmməd, sən ki, belə qoçaqsan, gəl əllərini bu kəndirlə bağlayım, əgər bu kəndiri qıra bilsən onda bilərəm ki, sən qara devi öldürmüsən.

Gülzar xanımın dedikləri Məhəmmədin yadına düşür, bilir ki, burada nə isə bir sirr var. O razı olur. Qız Məhəmmədin əllərini möhkəm bağlayır.

Məhəmməd bir güc verir, iki güc verir, görür ki, yox kəndir ətini kəsib sümüyə kimi işləyir. Bu zaman Dev gizləndiyi yerdən çıxıb Məhəmmədin gözlərini çıxardıf ovcuna qoyur, sonra Məhəmmədi meşəyə aparıb bir ağaca bağlayır. Məhəmmədin gözlərini qurşağının başına qoyur. Dev oradan evə qayıdıb Gülcahanla arxayın yaşamağa başlayır. Məhəmməd gözü qan-yaş içində iki gün ağaca sarılı qalır.

Təsadüfən yoldan bir karvan keçir, karvan başçısı zarıltı eşidib həmin səmtə gedir. Nə görsə yaxşıdır, gözləri qan-yaş içində zarıyan bir oğlan, özü də ki, ağaca bağlıdır. Məhəmmədi ağacdan açıb sudan, çörəkdən verirlər. Məhəmməd bir az özünə gəlir. Məhəmməd onlardan xahiş edir ki, onu da şəhərə aparsınlar. Məhəmməd şəhərə gəlib dilənməyə başlayır. Axşama kimi bir qədər pul yığır. Sonra bir qocaya rast gəlir, deyir əmi, məni bir gecəliyinə evinizdə qonaq saxlayarsanmı? Qoca deyir, rəhmətliyin oğlu mənim axşama yeməyə çörəyim yoxdur, sənə necə baxım? Məhəmməd deyir, bəs indi neyləyək, məni ajdıx lap əldən salıb. Qoca deyir, yaxşısı budur ki, Cinlər padşahının qızı ehsan verir, dur gedək ora, qırx gün, qırx gecə yeyib içərsən, sonrası da Allah kərimdir. Məhəmməd yığdığı pulları qocaya verib xahiş edir ki, məni oraya apar. Qoca Məhəmmədi ehsan verilən yerə aparmaqda olsun. İndi eşit Gülzar xanımdan.

Gülzar xanım pəncərənin qabağında oturub camaata baxırdı. Bir də gördü ki, budur bir qoca yanında da bir kor oğlan içəri girdi. Gülzar xanım Məhəmmədi tanıdı, bildi ki, onun gözlərini bacısı ilə dev çıxartmışdır. Tez adam göndərib Məhəmmədi yanına gətirtdirir. Məhəmmədə xörək gətirdir, yeyib qurtardıqdan sonra Məhəmməd başına gələnləri Gülzar xanıma danışır. Gülzar xanım Məhəmmədi hamama göndərir, ona təmiz paltar geyindirir. Məhəmməd o gündən burada yaşamağa başlayır. Bir gün Gülzar xanımla Məhəmməd ağacın altında oturub söhbət edirdilər. Elə bu zaman iki dənə göyərçin deyişə-deyişə gəlib ağaca qonurlar, bir-birinə deyirlər, bacılı, bu oğlan bilirsən kimdi, Gülcahan xanımın qardaşı Məhəmməddi. Bacılı, bəs ona nə olub? Onun gözlərini div çıxarıb, özü isə Gülcahan xanımla ömür sürür. Bəs biz Məhəmmədə necə kömək edək? Ey oğlan



yatıbsansa ayıl, ayıqsansa eşit, indicə sənin qabağına bir lələk düşəcək, əgər gözlərini yerinə qoyub lələyi üstündən çəksən o, saat gözlərin sağalar. Göyərçinlər lələyi salıb uçur. Gülzar xanım Məhəmmədə deyir, bəs sənin gözlərin hardadır. Məhəmməd deyir köhnə paltarımı axtar orada olacaq. Gülzar xanım paltarları axtarıb, gözləri tapır, tez gətirib gözləri yerinə qoyub lələyi üstündən çəkir. Məhəmmədin gözləri həminki kimi olur. Gülzar xanım kef məclisi qurdurur. Qırx gün, qırx gecə kef elədikdən sonra intiqam almaq Məhəmmədin yadına düşür. Gülzar xanım Məhəmmədə deyir ki, Məhəmməd atam bizim toyumuzu eləmək istəyir, sən necə, razısanmı? Məhəmməd deyir, razıyam, Gülzar xanım, ancaq mənim bir şərtim var, izn ver, əvvəlcə gedim devdən, bacımdan öz intiqamımı alım, sonra. Gülzar xanım razı olmaq istəmir, Məhəmməd isə əl çəkmir.

Gülzar xanım deyir indiki gedirsən, onda atamdan izn istə, əgər versə, get.

Məhəmməd cinlər padşahının yanına gəlib əhvalatı ona danışır. Cinlər padşahı izn verir.

Məhəmməd Gülzar xanımla görüşüb yola düşür. İndi eşit Gülcahan xanımdan, elə ki arxayın oldu ki, Məhəmməd ölüb, o, çox sevindi. O, Devnən xoş gün, xoş güzəran keçirirdi. Dev də səhərlər ova gedir, axşam evə qayıdardı.

Məhəmməd bir neçə gün yol gedəndən sonra qalaçaya çatır. Qapını açıb içəri girir, görür ki, Gülcahan öz oğlu ilə söhbət edir. Gülcahan gözlərinə inanmır, sonra Məhəmmədin ayaqlarına yıxılıb yalvarmağa başlayır. Məhəmməd əvvəlcə Gülcahanın oğlunu sonra isə özünü öldürür. Axşam olur, dev gəlir, içəri girib oğlunun, arvadının meydini görür. Məhəmməd fürsəti əldən vermir, gizlindən çıxıb Devi öldürür. Oradan bir başa Gülzar xanımın yanına qayıdır. Gülzar xanım Məhəmmədin gəldiyini eşidib çox şad olur.

Qırx gün, qırx gecə Məhəmmədlə Gülzar xanıma toy edirlər.

Onlar muradlarına çatdılar, dövran keçirtdilər. Siz də muradınıza çatın, dövran sürün.

## CİMEŞİN NAĞILI

O, yalan, bu yalan, eşşəyi minib, fili qucağına alan, qarışqa şıllaq atdı, dəvə buynuzunu çıxartdı.

Biri var idi, biri yox idi, keçmiş zamanlarda Məhəmməd adlı bir

kasıb oğlan var idi. Bu Məhəmmədin varı-yoxu bir qoca atası, bir də bir bacısı var idi. Atası həmişə ovçuluqla məşğul olardı. Bir gün o, Məhəmmədi yanına çağırıb dedi:

- Oğlum, mən artıq qocalmışam, bu gün sabah dünya üzündən köçməliyəm. Qulaq as mənə, bir-iki söz deyim. Bax, biz dörd dağ ətrafında yaşayırıq. Ova gedəndə o üç dağa gedərsən. Amma bu qarşımızdakı dağa heç zaman getmə, xeyir tapmazsan.

Aradan bir neçə vaxt keçir. Məhəmmədin atası rəhmətə gedir. Məhəmməd el qaydası ilə atasını götürüb basdırır, bacısı ilə birlikdə yaşamağa başlayır.

Bir müddətdən sonra Məhəmməd atasının silahını götürüb ova gedir, atası göstərən o, üç dağda ov edib qayıdır. Bir neçə il keçir Məhəmməd beləcə ov edib bacısı ilə dolanır. Bir gün Məhəmməd yenədə ova çıxmışdı, fikirləşdi ki, görən o, dağda nə var ki, atam mənə dedi o, dağa getmə. Məhəmməd bir qədər fikirləşir, sonra özözünə deyir: - Bu gün necə olur-olsun mütləq o, dağa ova gedəcəm.

Məhəmməd yola düşür. Dağın hər yanını gəzir, ancaq əlinə heç bir ov keçmir, kor-peşman evə qayıdır. Yolda ona bir kiçik muncuq rast gəlir. Məhəmməd muncuğu götürüb cibinə qoyur, fikirli halda evə gəlir. Bacısı Məhəmmədi görüb deyir:

- Nə olub qardaş, nə səbəbə görə belə fikirlisən. Sən ki, həmişə evə şah qayıdardın.

Məhəmməd başına gələn əhvalatı bacısına söyləyir. Bacı, mən atamın vəsiyyətini yerinə yetirmədim, o boz dağa getdim, amma heç bir ova rast gəlmədim, ona görə də fikirliyəm.

Bir gün Məhəmməd ova getdiyi zaman bacısı onun paltarını yuyur, ciblərini axtarır. Bu zaman Məhəmmədin cibindən bir muncuq tapır. Əli sabunlu olduğuna görə muncuğu ağzına alır, yadından çıxıb muncuğu udur. Bu hadisədən bir neçə ay keçir, Məhəmmədin bacısı hamilə olur. Məhəmməd bunu başa düşür, istəyir bacısını öldürsün, ancaq camaat tökülüb qoymur. Qız başına gələn əhvalatı söyləyir. Məhəmməd buna inanır, yenə də əvvəlki, kimi yaşamağa başlayırlar.

Vaxt olur, Məhəmmədin bacısının bir oğlu olur. Oğlanın adını Cimeş qoyurlar.

Bir gün Məhəmməd öküzləri qoşub yer şumlamağa getmişdi. Bacısı istədi ona çörək aparsın, ancaq uşağı sahibsiz qoymaq istəmədi. Bu zaman uşaq dilə gəlib dedi:

- Ana, çörəyi ver mən aparım dayıma.



Anası bunun danışmasına çox təəcübləndi, dedi:

- Bala sən hələ uşaqsan, böyüyəndə apararsan.

Uşaq eşitmədi, dedi:

- Yox, olmaz ki, olmaz, dayımın çörəyini mən aparacam. Tövlədəki eşşəyi gətir, palanını belinə qoy, sonra da xurcunu belinə sal, suyu, çörəyi xurcununun bir gözünə, məni də bir gözünə qoy, sonrası ilə işin yoxdur.

Anası Cimeşin dediyi kimi etdi, eşşəyi qardaşı işləyən tərəfə yönəltdi. Cimeş «ism-əzəm» oxuyub eşşəyin qulağına girdi, eşşəyin qulağını bizləməyə başladı. Cimeş gedib dayısına çatdı. Yerin bu başında durub dayısını çağırdı.

Dayı ho, dayı ho.

Dayısı ora baxdı, bura baxdı bir şey görə bilmədi. Bir də baxıb gördü kü, bir eşşək görünür, yavaş-yavaş eşşəyin yanına gəldi, gördükü bacısı oğlu Cimeşdir.

Məhəmməd deyir:

- Ay balama qurban olum, ay balama qurban olum, dayısına çörək gətirib.

Cimeş eşşəyin üstünə minib evlərinə qayıdır. Özü eşşəkdən düşə bilmədiyi üçün anasını çağırır:

- Ana ho, ana ho! Anası gəlib oğlunu düşürür. Axşam Məhəmməd evə gəlir, səhəri həmin qayda ilə yenə də işləməyə gedir.

Bunlar burda qalsın, sizə kimdən deyim, İran xanı Əhməd xandan. Əhməd xanın qırx arvadı varmış, gündə bir arvadı buna xörək bişirib gətirərmiş. Bir gün arvadlarının biri balıq qızardıb gətirir. Əhməd xan təəcüblənir, gülür. Yenə də balıq, gündə balıq, bu nə təhər balıq imiş, bunun heç dadı tamı yoxdu. Bu vaxt balıq qəh-qəh çəkib Əhməd xana gülür. Əhməd xan qorxur ki, heç bişmiş balıq da gülərmi?

Əhməd xan vəziri, vəkili yanına çağırtdırır. Deyir, vəzir-vəkil bu işə tədbir tökün, yoxsa boynunuzu vurduracam.

Bunlar qırx gün möhlət alırlar. Ayaqlarına dəmir çarıq, əllərinə dəmir əsa götürüb, şəhərdən çıxırlar. Az gedirlər, dərə-təpə düz gedirlər, qaça-qaç, nallı dovşan, çullu qurd, gəlib bir şəhərə çatırlar. Şəhərdən hərəsi bir at alıb yola düzəlirlər. Yolda bir eşşəyə rast gəlirlər, baxıb görürlər ki, eşşəyin üstündəki xurcunda həm çörək, həm də su var. Toqquş-toqquş deyib eşşəyi dayandırmaq istəyirlər. Bu zaman Cimeş eşşəyin qulağından qışqırır. Yoldan çıxın, yoldan çıxın. Çox təəcüb edirlər ki, görən bu səs haradan gəldi. Qorxuların-

dan eşşəyə əllərini vura bilmirlər, bir-birinə deyirlər ki, gəl bu eşşək haraya getsə biz də onun dalınca gedək, onsuz da otuz doqquz gün keçib, bir gün qalıb, səhər xan bizi asdıracaq.

Eşşək gəlib Məhəmmədin yanına çatır. Bunlar da eşşəyin arxasınca gəlirlər. Məhəmməd bunlara çörək təklif edir. Bunlar da o saat oturub çörək yeyirlər. Məhəmməd bunlardan soruşur ki, xeyr ola buralarda nə gəzirsiniz? Vəzir bütün əhvalatı söyləyir. Kim bu sirri tapsa Əhməd xan ona öz ağırlığında qızıl verəcək deyir. Onlar getmək istəyirdilər ki, Cimeş dilləndi: - Dayı, mən o sirri açaram.

Dayısı dedi:

- Oğlum, sən hələ balacasan.

Cimeş dedi:

- Yox dayı, mən bu sirri mütləq açaram. Atlılar bunu eşidib dayandılar. Məhəmmədin evinin yerini öyənib getdilər. Səhəri gün Əhməd xan əmr etdi ki, vəzir-vəkili çağırır. Vəzir-vəkil gəlib baş əyib dedilər, xan sağ olsun, sirri açmaq üçün biz adam tapmışıq, adam göndər gətirsinlər. Əhməd xan adam göndərdi, Məhəmmədi, onun bacısı oğlu Cimeşi gətirdilər.

Cimeş dedi:

- Gətir bir kağız, bir qələm yaz ki, bu sirri kim açsa ona öz ağırlığında qızıl verəcəyəm.

Əhməd xan o saat bir kağız, bir də bir qələm gətirdi, tez kağızı yazıb, qol çəkdi, Cimeşə verdi.

Cimeş kağızı alıb dedi: - Xan, iki usta gətir, bu iki evin arasından bir qapı açın.

Usta gəlib qapını açdı. Qapı açıldıqdan sonra Cimeş, xanı, vəziri, vəkili çağırıb dedi:

- Baxın, görün içəridə nə var.

Baxıb gördülər arxadakı otaqda qırx kişi, qabaqdakı otaqda isə qırx arvad var.

Cimeş dedi:

- Ay camaat, siz hələ bizim bu xana baxın, bunun qırx arvadı, hər arvadın bir kişisi var. Xan bunlara gülmür, yağın içində qızardılmış balığa gülür.

Xan, bax buna görə də balıq sənə gülüb deyir: - Mənə gülüncək özünə gül.

Padşah cəlladları çağırıb arvadların, kişilərin boynunu vurdurur.

Cimeş xanın öz dəstixətti ilə yazılmış kağızı çıxarır, qızılı tələb



edir.

Xan Cimeşə baxıb deyir: - Bunun ağırlığı beş qızıl ağırlığında olar, siz ona on qızıl verin.

Cimeş deyir: - Xan sağ olsun, gərək mənə öz ağırlığımda qızıl verəsiniz.

Xan xəzinədarı çağırıb deyir ki, buna özü ağırlığında qızıl ver.

Cimeş «ismi-əzəm» oxuyub tərəziyə minir. Xəzinədar bütün xəzinəni çəkir, yenə də Cimeş ağırlığında olmur. Xəzinədar tez qaçıb xanı çağırır. Əhməd xan gəlib görür ki, hələ beş xəzinə də olsa Cimeş ağırlığında ola bilməz. Əhməd xan Cimeşi yanına çağırıb deyir: - Oğlum, səni ağırlığında mənim xəzinəm yoxdu. Gəl sən mənim yerimə xan ol, artıq mən də qocalmışam.

Cimeş dedi:

- Yaxşı xan, o ki, elə oldu, onda mənim dayım Məhəmməd vəzir, sən də öz yerində xan ol.

Bəli, belə də etdilər, Məhəmməd xanın vəziri oldu. Əhməd xan Cimeşi özünə oğulluğa götürdü. O gündən şad, xoşbəxt yaşamağa başladılar.

## ŞORGÖZ PADŞAH

Biri olur, biri olmur, keçmiş əyyamda iki qardaş olur. Qardaşlardan biri padşah, o biri isə onun vəziri olur. Bullardan böyük qardaş, yəni padşah olan qardaş çox əzazil, rəhmsiz, şorgöz idi. Harada bir gözəl görsə mütləq onu hərəmxanasına qatmalı idi.

Kiçik qardaş rəhimli, ağıllı idi. Bu iki qardaşın heç birinin övladı olmurmuş. Günlərin birində vəzir olan qardaş, padşah olan qardaşı evinə çağırır. İki qardaş yeyib-içib kef edirlər. Bir də görürlər ki, qapı döyüldü, içəri nurani bir qoca girdi. Qoca içəri girən kimi ədəbərkanla baş əyib salam verir. Padşah salamı alıb ona oturmaq üçün yer göstərir, sonra isə deyir:

- Qoca, de görüm nə üçün gəlmisən?

Qoca deyir ki, bala, mən dərvişəm, oxuya-oxuya gəzirəm. Padşah deyir:

- Nə isə, onda bir az oxu, qulaq asaq.

Dərviş baş üstə deyib oxuyur. Padşah cibinnən bir qızıl çıxarıb dərvişə uzadır.

Dərviş deyir, padşah sağ olsun, mən pay alan dərvişlərdən deyi-

ləm, pay verən dərvişlərdənəm.

Padşah deyir:

- Baba dərviş, sən bizə nə pay verərsən, bizim varımız- dövlətimiz həddindən artıqdı.

Vəzir olan qardaş sözə qarışıb deyir:

- Baba dərviş, dünyada ən şirin şey nədi?

Dərviş deyir dünyada övladdan şirin şey ola bilməz. Vəzir də qayıdır ki, elədir, dünyada övladdan şirin şey yoxdur. Bax, bizim dərdimiz də övlad dərdidi.

Dərviş cibinnən iki alma çıxarıb hər qardaşa birini verir, tapşırır ki, almaları iki bölüb arvadları ilə yesinlər. Dərviş bu sözləri deyib yox olur. Qardaşlar dərvişi nə qədər gəzirlərsə də bir şey tapa bil-mirlər, kor-peşman evə qayıdırlar.

Axşam olur, qardaşlar almaları arvadları ilə bölüb yeyirlər. Bəli, deyirlər nağıl dili yüyrək olar. Ay dolanar, il keçər, padşah qardaşın oğlu, vəzir qardaşın isə qızı olar. Bu qızla oğlan bir-birinə elə oxşar ki, elə bil bir alma imiş iki kəsibsən. Qardaşlar böyük bir məclis düzəldirlər, yeyib-içib, şadlıq edirlər, elə orada da qızı oğlana göbəkkəsmə eləyirlər.

Qızla oğlan bir-birinə o qədər mehriban olurlar ki, bir-birindən bir dəqiqə də ayrı durmurlar.

Padşahın çoxdan idi ki, qardaşı arvadına gözü düşmüşdü. Bilmirdi necə eləsin ki, onu ələ keçirsin. Buna görə də o vəkili yanına çağırıb dedi:

- Vəkil, bir tədbir tök, görürsən qardaşım mənlə yola getmir. Bir təhər edib başını batırsaq, sən də onun yerinə vəzir olarsan.

Vəkil sevindiyinnən bilmədi nə etsin. O, çoxdan istəyirdi ki, vəzirin başını əksin, özü onun yerinə vəzir olsun. Ona görə də də dedi:

- Padşah sağ olsun, ona nə var ki, mən sizi evimizə qonaq çağıraram, onun xörəyinə zəhər tökdürərəm, o da ölər.

Bunu eşidən padşah vəkilə afərin söylədi. Axşam vəkil padşahla vəziri evinə qonaq çağırır. Böyük bir məclis düzəldir. Vəzirin xörəyinə zəhər tökdürür. Aradan bir-iki gün keçməmiş vəzir bərk xəstələnir, qardaşını yanına çağırtdırıb deyir:

- Qardaş, artıq mən ölürəm, uşaqların toyunu görmək mənə qismət olmadı. Mən öləndən sonra onlara bir yaxşı toy elə.

Padşah dedi:

- Qardaş, dəli olma, niyə ölürsən, Allah qoysa qalxarsan,



uşaqların da toyunu edərik.

Padşah bu sözləri demişdi ki, vəzir gözlərini yumdu.

Padşah sevinə-sevinə onu basdırdı. Hiyləgər vəkil padşahın vəziri oldu. Aradan beş-altı gün keçmişdi ki, padşah vəziri yanına çağırıb dedi:

- Vəzir, gərək qardaşımın arvadını mənə alasan.

Vəzir o saat dedi:

- Padşah sağ olsun, ona nə var ki, istəyirsən bu gün alım.

Padşah dedi ki, vəzir, di durma.

Vəzir durub arvadın yanına gəlir, yağlı dilini işə salıb deyir:

- Padşah səni istəyir, onsuz da ərin dirilməyəcək, sən ona get. Həm özüyün vəziyyətin, həm də uşaqların vəziyyəti yaxşı olsun. Arvad vəzirin yağlı dilinə aldanıb razılıq verir. Padşah arvadı alır.

Vaxt gəlir, qızla oğlanın on beş yaşı tamam olur.

Bir gün padşah bağa gəzməyə çıxıbmış, bir də görür ki, budur hovuzun başında bir oğlan bir qızla qucaqlaşıb yatıblar. Padşah bunları belə görəndə ağzının suyu axır. Baxıb görür ki, oğlan öz oğlu, qız da qardaşının qızıdır. Padşahın oğluna acığı tutur, tez qılıncı çıxarıb oğlunun başını kəsib hovuza atır.

Sonra qızı qucaqlayıb üzündən öpür. Qız da elə bilir ki, əmisi oğludur. Bir də gözlərini açıb görür ki, əmisinin qucağındadı. Əmisini itələyib əlindən çıxır. Padşah nə qədər əlləşirsə qızı tuta bilmir. Padşah görür ki, bir şey çıxmır, tez evə gəlib qızın anasını öldürür ki, bu işdən xəbər tutmasın.

Padşah vəziri yanına çağırıb deyir ki, vəzir, tədbir tök. Arvadımla oğlumu oynadıqları yerdə tutdum, ikisini də öldürdüm. İndi qorxuram qız özünü öldürər. Tez qızı gətirmək lazımdır.

Bullar burda qalsın, sizə kimnən deyim, qızdan. Qız gördükü əmisi getdi, gəlib ağacın dibində oturub ağlamağa başladı.

Ağlayıb-ağlayıb yatdı. Bir də gördü ki, budur, bir qoca dərviş ona deyir:

- Qızım, səni də, nişanlını da atanıza mən pay vermişdim. Mən bunu bilirdim ki, əmin sizə xəyanətkarlıq edəcək. Sənin atanı öldürdü ki, ananı alsın. Oğlunu öldürdü ki, səni alsın. İndi sən qorxma, gözünü aç, bu lələyi götür, oğlan hovuzdadır, başını yerinə qoy, lələyi boğazına çək, o saat sağalacaqdır. Özünüz də burada durmayın, tez qaçın.

Qız gözlərini açıb görür ki, yerdə bir lələk var. Lələyi götürüb tez

hovuzun yanına qaçır, özünü hovuza atıb oğlanı qırağa çıxardır, dərvişin dediyi kimi edir. Oğlan sağalır. Qızla oğlan təzədən qucaqlaşırlar.

Qız başına gələni oğlana danışır, deyir ki, dərviş dedi ki, tez buradan çıxın, yoxsa sizi öldürərlər.

Bəli, bullar getməyə üz qoyurlar. Az gedirlər, üz gedirlər, dərətəpə, düz gedirlər, taki gəlib bir bulağa çatırlar. Bulaqdan su içib uzanırlar ki, bir az dinclərini alsınlar, ancaq yuxu bulları aparır.

Sən demə, burada divlər üstündə işıq yanır. "Adam-madam iyisi gəlir, yağlı adam iysi gəlir deyə bulağa divlər yaxınlaşır. Baxıb görür ki, bir qız bir oğlanla qucaqlaşıb yatıb ki, qız oğlandan gözəl, oğlan qızdan. Div yaxınlaşıb qızı oğlannan aralayır, götürüb aparır. Oğlan yuxudan oyanıb görür ki, qız yoxdu, bu işə özü də məətəl qalıb deyir ki, yəqin atamın adamları aparıb. İstədi durub geri qayıtsın, bir də gördü ki, dağın təpəsinnən nəriltili, gurultulu bir div gəlir ki, adam baxanda az qalır ki, bağrı çatlasın. Div yaxınlaşıb deyir:

- Ey bəni-insan, sən bilmirsənmi bura divlər padşahının torpağıdı, nə cürət edib bura gəlmisən? İndi mən səni yaxşıca yeyərəm.

- Ey div, o yan-bu yan eləmə, istəyirsən gəl güləşək, kim yıxsa o, onun başını kəssin.

Bunu deyib güləşməyə başladılar. Oğlan bir dəli nərə çəkib divi yerə vurdu, istədi başını kəssin. Div yalvarmağa başladı ki, sənin yanındakı qızı mən aparmışam. Ancaq divlər padşahı əlimnən aldı. Sən məni öldürmə, mən sənə hər vaxt kömək edərəm. Div dedi:

- Oğlan, bu gün divlər padşahı buranı gəzməyə gələcək. İstəyirsən gözlə. Ancaq sənə bir şey deyim, əgər ona üstün gəlsən o, sənə yalvarmağa başlayacaq, onda sən qızı istə.

Div elə bunu demişdi ki, birdən gurultu qopdu.

Div oğlana dedi:

- Divlər padşahı gəlir. Mən gedirəm, əgər burda olsam gərək ona kömək edəm. Div bu sözü deyib yox oldu.

Divlər padşahı guruldaya-guruldaya özünü bulağın üstünə yetirdi, oğlanı görüb dedi:

- Ey bəni-insan, de görüm sən kimsən, bura nə üçün gəlmisən? Bu saat mən səni yeyərəm.

Oğlan: "Gücün çatsa yeyərsən -deyib başladılar güləşməyə. Nə qədər əlləşdilər bir-birini yıxa bilmədilər. Axırda oğlan bir dəli nərə çəkib divi dizinin altına qoydu. Div yalvarmağa başladı.

Oğlan başına gələn əhvalatı divə danışdı, qızı divdən geri istədi.



Divdən razılıq alıb onu ayağa qaldırdı.

Divlər padşahı oğlanı da götürüb evə gəldi, qızı oğlana verdi, bütün divləri yanına çağırıb dedi ki, hazırlaşın səhər başqa yerə səfərimiz var.

Bəli, səhər divlər padşahı oğlanla qızı da götürüb oğlanın atası padşah olan yerə gəldilər.

Divlər o saat hücum eləyib padşahı, vəziri, vəkili parça-parça etdilər. Qoşunu tamam qırdılar. Divlər oğlanı padşah, qızı vəzir seçdilər. Toy tədarükü başlandı, qızı oğlana verdilər. Toydan sonra divlər evlərinə qayıtdılar. Oğlanla qız şad, xoşbəxt yaşamağa başladılar.

## HƏZRƏTİ SÜLEYMAN EŞQİNƏ

Biri varıydı, biri yoxuydu. Bir padşah varıydı. Bu padşahın da üç qızı. Qızların üçü də yetişmişdi. Padşahın qorxusundan heç kəs bunlara ağız açammırdı. Bir gün bacılar fikir elədilər. Biz neyləyək? Bunu atamıza nətəri çatdıraq? Kiçik qız dedi ki, gəlin bir qarı çağıraq, dərdimizi açaq. Belə də elədilər.

Qarı gəldi. Dedi:

- Nökəri göndərin bazara. Üç yemiş alsın. Biri bir az ötmüş, biri lap yeməli, biri də tam yetişməmiş.

Bəli, nökər yemişləri alıb gətirdi. Qızlar bunu qızıl məcməyidə padşaha göndərdilər. Padşah əyan-ərfanı yığdı. Dedi:

- Gəlin, bu yemişləri kəsək!

Padşahın bir ağıllı vəziri varıydı. Dedi:

- Qibleyi-aləm sağ olsun! Bu yemişlər elə belə gəlməyib. Bax bu vaxtı ötmüş yemiş böyük qızındı. Yeməli ortancıl qızındı, bu biri də kiçik qızındı.

Padşah barmağını dişlədi. Dedi:

- Vəzir, belə?

Dedi:

- Belə.

Padşah car çəkdirdi. Vilayətində nə qədər cahıl varıydı hamısını yığdırdı. Meydan sulandı. Qızın hərəsinə bir qızıl alma verdilər, bəyəndiyi oğlana atsın. Böyük qız vəzirin oğluna, ortancıl qız vəkilin oğluna atdı, kiçiyin alması əlində qaldı. Atmadı. Bu qız bağmanın yanında bir keçəl varıydı onu sevirdi. Gördüyü keçəl deyildi; bir teli qızılıydı, bir teli gümüş. Özü də padşah oğluydu. Sirri açılmasın

deyin başına qarın keçirərdi.

Gördülər kiçik qız almanı atmadı. Dedilər kim qalıb, kim qalmayıb? Bəs deməzsənmi bağmanın yanındakı keçəl qalıb. Padşah bərk qəzəbləndi. Dedi:

- Allah bu qızın əvəzinə mənə bir qara daş verəydi. Bu ki məni xar elədi, qoy elə keçələ də getsin. Heç buna toy-zad lazım deyil.

Kiçik qız keçəlin dalına düşüb getdi. Keçəl qızı hər gün döyürdü. Gecə yatanda qılıncını sıyırıb ortaya qoyurdu. Qız dinib-danışmırdı.

Günlərin bir günündə, iraq üzümüzdən, padşah bərk azarlandı. Buna ov əti buyruldu. Kürəkənlər hərəsi bir at minib ova çıxdı.

Keçəlin adı Məlikməmməd idi. Məlikməmməd iki tükü bir-birinə tutuzdurur. Həzrət Süleyman eşqinə nə istəsə hazır olurdu. Bir dəfə də Süleyman peyğəmbəri çağırdı. Bir quyu açıldı. Quyudan yəhərli, yüyənli bir at çıxdı. Məlikməmməd ata mindi. Süleyman peyğəmbər eşqinə nə qədər quş varıydı, ceyran-cüyür varıydı, hamısını bir dərəyə doldurdu.

Vəzirnən vəkilin oğlu ha gəzdilər, ha dolandılar, əllərinə ov keçmədi. Gəldilər Məlikməmmədin yanına. Məlikməmməd başındakı qarını atmışdı. Gözəl libasdaydı. Kürəkənlər bunu tanımadı. Gördülər dərə ovnan doludu. Məlikməmməddən ceyran-cüyürün birini istədilər. Dedilər qızılnan bir çəkək, ver bunlardan bizə. Məlikməmməd dedi:

- Elə şey olmaz. Məndə damğa var. Gərək sizin kürəyinizə damğa basam. Siz mənim qulum olasınız.

Bunlar bir-birinin üzünə baxdılar. Dedilər,əşi kimdi kürəyimizi görən? Vurur, qoy vursun.

Məlikməmməd vəzirnən vəkilin oğluna damğa vurdu. Sonra ceyranlardan birini kəsdi, soydu. Süleyman peyğəmbər eşqinə dua oxudu:

- Dadı başına,
Tüpürüm leşinə.

Bunu deyə-deyə ətə tüpürdü. Kürəkənlər ovu götürüb getdi.

Məlikməmməd ceyranın başını evə gətirdi. Arvadına dedi:

- Bunu təmizlə, bişir. Atana apar.

Qız Məlikməmmədin dediyini elədi. Ceyranın başını gətirib anasına verdi. Anası gəldi padşahın yanına, yalvar-yaxar elədi.

- A kişi, sənin o kəsiyin gözünün yaşını tökür. Nolar bundan bircə qaşıq ağzına al. Bəlkə düşəri düşdü.



Padşah bircə qaşıq yeyən kimi gözünə işıq gəldi. Dedi:

- Arvad, bundan varsa, yenə gətir!

Qada-bala sizdən uzaq olsun, padşahın azarını o vermişdi, o da aldı. Padşah qalxdı ayağa.

Bu padşahnan bir ayrısı dava eləyəsi oldu. Dedi ki, qızının üçünü də mənə verməlisən. Keçəlin anası qəvıl eləmədi. Gəldi şahın imarətinə. Bir silah, bir də bir at istədi. Buna bir axsaq qatır verdilər.

Keçəl Həzrət Süleyman eşqinə yenə iki tükü tutuzdurdu. Yəhərli-yüyənli bir at, bir də bir qılınc hazır oldu. Girdi meydana Keçəl, nə girdi? Düşmən tərəfi qırıb tökdü. Qılınc dəydi başına, keçəl yaralandı. Padşah özü də vuruşurdu. İşi belə görəndə yaylığını oğlanın yarasına soxdu. Keçəl öyə gələndə qız dədəsinin yaylığını tanıdı. Gedib xəlvətcə anasına dedi:

- Ana, dədəmin yaylığı keçəlin başındadı.

Padşah car çəkdirdi. Dedi:

- Mənim qızıl yayılığım kimin başındadısa, gərək həmin adam tapıla. Keçəl gördü sirr açıldı, mindi axsaq qatıra, getdi imarətin qabağına. Padşah öz-özünə dedi əşi, yəqin nəmərə gəlib. Qız da yuvada Allaha yalvarırdı. Oğlan dedi:

- Padşah sağ olsun, davanı yatızdıran yuxarıda Allah, aşağıda mənəm. İndi kürəkənlərini çıxart ortaya. Bir sirri açmalıyam.

Padşah soruşdu:

- O nə sirdi?

Keçəl dedi:

- Kürəkənlərinin kürəyini aç, ortasına bax. Orada mənim adıma damğa var.

Baxdılar ki, keçəl doğru deyir. Keçəl yenə üzünü padşaha tutdu:

- Qibleyi-aləm, mən keçəl deyiləm. Filan padşahın oğluyam. Atamın səltənəti mənimdi.

Padşah Keçəli bağrına basdı:

- Bu günnən mən də taxt-taxımı sənə bağışlayıram.

Padşah qırx gün, qırx gecə toy vurdurdu. Oğlan hər iki vilayətin padşahı oldu.

# VII. QARAVƏLLİLƏR

## KEÇƏLİN KƏLƏYİ, HACININ TAMAHI

Biri varmış, biri yoxmuş, bir keçəl varmış. Keçəlin adı Qədir imiş. Keçəl Hacının nökəri idi. O, gecə-gündüz işləyirdi. Lakin anasını, özünü dolandıra bilmirdi. Keçəl çox fikirləşdi, nəhayət bir gün bazarı dolandıqdan sonra Hacının yanına getdi.

–Hacı əmi, bazara getmişdim. Nə görsəm yaxşıdır? Gördüm ki, dəvə toxumu satırlar, mən də gəldim ki, səndən pul alım. Türkmən vilayətinə dəvə toxumu almağa gedim.

Onlar çox danışdılar. Nəhayət, Hacı keçələ min tümən verdi. Keçəl tez özünü bazara yetirdi. Evə qış azuqəsi, anasına, özünə paltar, iki kiloqram da çuğundur toxumu alıb evə gətirdi. Anası görən kimi keçəlin pulu haradan aldığını öyrəndi.

Bir neçə gündən sonra keçəl Hacının yanına getdi.

–Ağa, dəvə toxumunu gətirdim. Sabah əkəcəm torpağa, sulayacam, bir aydan sonra dəvələrin qulağı çıxacaq, sonra bədənləri, ayaqları çıxacaq. Biz aparıb bazara birini yüz tümənə satıb çoxlu pul əldə edərik.

Hacı keçəlin sözlərinə inandı, gecə-gündüz çoxlu pul alacağına sevindi. Keçəl isə öz kefində idi. Dəvə toxumu artıq torpağa səpilmişdi. Bir müddətdən sonra Hacı keçəlgilə gəlib, birlikdə dəvə toxumu əkilən sahəyə getdilər. Hacı dəvələrin qulaqlarının çıxdığını görüb sevindi .

Keçəl fikirləşdi ki, gec-tezi kələyin üstü açılacaqdır.

Bir gün keçəl anasına dedi:

–Anacan, pul götür bazara get, on metir güllü çit al, gətir.

Qarı bazardan on metir güllü çit alıb evə gəldi. Keçəl dedi:

–Anacan, bu çitin beş metrinə don, beş metrinə isə tuman tik. Keçəlin anası donu, tumanı tikib hazırladı. Keçəl sahəyə baxıb gördü ki, dəvələrin torpaqdan bayıra çıxan qulaqları da günün şüası altında quruyub yox olmuşlar.

O, tez evə qayıdıb anasını çağırdı.

–Ana can, mən bu qadın paltarını geyib oturacam evdə. Hacı isə mütləq gələcək. O, evdə heç bir şey tapmayacaq, məni aparacaq, sən də ağla, Hacıya yalvar ki, məni aparmasın, sonra fikir eləmə, qoy aparsın.



Bir neçə müddətdən sonra Hacı sahəyə baxmağa gedir. O, görür ki dəvələrin qulaqları da yoxa çıxmışdır. Hacı hirslənir, tez keçəlgilə gedir. Bu vaxt keçəlin anası həyəti süpürürdü.

–Hacı, qurbanın olum, o vaxt keçəl səndən ayrılandan evə gəlməyib. Hacı tez evə girir, görür ki, evdə heç bir şey yoxdur. Pulunu ödəyəsi heç nə görmür. O, bir də görür ki, evin küncündə bir qız oturmuşdur, tez qızın qolundan tutub, çəkə-çəkə aparır. Keçəlin anası nə qədər yalvarır, yaxarır, Hacının ürəyi yumşalmır. O, qızı evinə aparır. Bu qızdan başqa Hacının iki qızı da var idi. Onu qızlarına kəniz təyin edir.

Günlərin birində bir dövlətli Hacının qızına elçi gəlir ki, qızın birini oğluna alsın. Hacı bu xəbəri eşidən kimi sevinib qonaqları qəbul edir.

O, arvadı ilə məsləhətləşir ki, keçəlin bacısını verək, üstəlik çoxlu pul alaq. Hacı başlığı təyin edir. Gələn qonaqlar da gəlib qızın şirinliyini içib-gedirlər.

Aradan bir müddət keçir. Qıza toy edib köçürmək istəyirlər.

Qız isə getmək istəmir, deyir:

–Mən əhd etmişəm ki, məni köçürəndə bir gecə səhərə kimi qız-gəlinlərlə çalıb oynayacağam. Oğlan tərəf qızla razılaşır. Gəlini köçürürlər. Təzə gəlin xoruzların birinci banına kimi qız-gəlinləri o qədər oynadır ki, hamı taqətdən düşür. Hərə bir tərəfə yıxılır, yatır. Bu fürsətdən istifadə edən keçəl gəlinlərlə qızların qızıllarını boyunlarından açıb səhərə yaxın pəncərədən çıxıb qaçır. Keçəl kəndə gəlib anasını da götürüb uzaq şəhərlərdən birinə gedir. Onlar yeyir, içir, bütün arzularına çatırlar.

## KEÇƏL

Biri var imiş, biri yox imiş, bir şəhərdə bir keçəl var imiş. Bunun adına bəzən dızmırı keçəl də deyərmişlər. Bu keçəlin özündən başqa iki qardaşı, bir gözəl anası varmış. Keçəlin birinci qardaşının adı İsgəndər, o birisinin adı isə Əlisgəndər imiş. İsgəndər cütçülük edər, axşamlar isə yasin oxuyarmış. İkinci qardaşı Əlisgəndər isə dəyirmanda dən üyüdərmiş. Keçəlin vəzifəsi isə hamıdan pis imiş. O, həmişə öz yerlərində olan malları aparıb otararmış. Keçəlin anası için çox xəbərçi arvad imiş. Qardaşları axşam olanda evlərinə gəlir, başlarına gələn hadisələri bir-birinə danışardılar. Səhər açılan kimi

anası bütün söhbətləri qonşulara söyləyərmiş.

Günlərin bir günündə bir tacir dəvə yükləyib başqa şəhərə gedirmiş. Yolda taciri yuxu aparır, dəvələr isə çıxıb gedirlər. Gün günortadan bir az əyilmişdi, keçəl naxırın arxasınca ağır-ağır addımlayırdı. Birdən keçəl başını yuxarı qaldırıb, yüklü dəvələri gördü. Sonra onları yatırıb yükünün nə olduğunu yoxladı. Dəvənin birinin yükü düyü, o birinin yükü isə qızıl, gümüş, kişmiş idi. Axşam keçəl dəvələri evlərinə gətirdi. Qardaşları məsləhətləşib dəvənin kəsilməsini keçələ söylədilər. Keçəl buna razı oldu, dəvəni kəsdilər. Səhər açılan kimi keçəl bazara gedib, aşıq dəstəsini öz qapılarına gətirib, deyir ki, axşama kimi qapıda çalsınlar. Keçəl isə naxıra gedir. Gün günortanın yerinə qalxanda keçəlin anası yuxudan ayılıb görür ki, qapıda çalğı çalınır. Durub aşıqlara deyir ki, bu nə deməkdir. Aşıqlar isə dinmədən çalğı çalmağa davam etdilər. Keçəl gedib bir qoca kişiyə deyir ki, anamı sənə verirəm. Qoca buna çox şad olur, axşam olanda keçəlin anasının kəbinini qocaya kəsirlər. Bir neçə gün ona toy edirlər.

İndi sizə xəbər verim tacirdən. Tacir ayılıb görür ki, dəvələr yoxdu. Durub dəvələri axtarmağa başladı. Şəhərbə-şəhər, kəndbə-kənd axtarmağa başladı. Gəlib bir dəyirmana çıxdı. Burada Əlisgəndərə rast gəldi. O Əlisgəndərdən dəvə soruşdu. Bunun əvəzində isə Əlisgəndər dəyirmanın yaxşı işləmədiyini söylədi. Tacir belə hesab edir ki, Əlisgəndər bəlkə onu yaxşı eşitməyib, ona görə onu dəyirmandan çölə çıxarıb, ikinci dəfə ona deyir. Siz iki yüklü dəvə görmədinizmi?

Əlisgəndər isə cavab verir:

-Dəyirmanın sağ tərəfini deyirsiniz, onu bu yaxınlarda düzəldəcəyəm.

Tacir bunun dəli olduğunu zənn edib, yoluna davam etdi. Amma Əlisgəndər yalandan belə deyirdi.

Sonra tacir cütcüyə rast gəldi. Cütcü İsgəndər xışı öküzə qoşub, cüt əkirdi. Tacir bunu görüb ondan sual etdi: "Cütcü qardaş, dəvə görmüsənmi?"

Cütcü cavab verdi: "Öküzüm yaxşıdı, amma dəni az verirəm". İkinci dəfə yenə tacir həmin sualı verdi.Cütcü İsgəndər isə «xışım köhnədir, təzəsini almamışam» cavabını verdi.

Tacir bunun da guya dəli olduğunu düşünüb, yoluna davam etdi. Az getdi, üz getdi, dərə, təpə, düz getdi, gəlib bir kəndə çıxdı. Səhər yenicə açılmışdı. Keçəlin anası yuxudan durub bir adam axtardı ki,



bir neçə gün bundan əvvəl oğlanlarının dəvəni kəsməsini xəbər versin. Göz gəzdirib uzaqdan bir adam gəldiyini gördü. Öz-özlüyündə düşündü, bu kimdirsə dəvənin kəsilməsini ona deyim. Bu fikirlə o, evin arxasındakı arxın üstündə oturdu. Tacir bunu görüb, ona yaxınlaşıb və dedi: "Ay arvad, dəvə görməmisən?" Keçəlin anasının bu sual ürəyindən idi. O, dedi: "Ay kişi yaxın gəl, deyim dəvəni kim kəsib". Tacir dedi: "Ay arvad, de, sənin qadan alım". Keçəlin anası dedi: "Dəvəni mənim oğlanlarım kəsib".

Tacir dedi: "Ay arvad havax?" Arvad dedi: "Toyumnan bir gün qabax". Tacir təəccüb etdi. Sonra dedi: "Ay arvad, sənin neçə yaşın var?" Arvad dedi: "76 yaşım var".

Sonra tacir dedi: "Bəs sizin toyunuz havaxt oldu?" Arvad dedi: "Mən 16 yaşımda ərə getmişəm". Tacir düşündü demək bunun 16 yaşında toyu olub, hələ ondan bir gün qabaq dəvəni kəsiblər. Sonra tacir yəqin arvadın da dəli olduğunu düşünüb yenə yoluna davam etdi. Səni yüz yaşa, məni iki əlli, bu hamısından bəlli. Göydən üç alma düşdü, biri danışanın, bir yazanın, biri qulaq asanın.

## KEÇƏLİN SƏRGÜZƏŞTİ

Bir qoca kişinin iki oğlu var imiş. Qoca öləndən sonra var-dövlət qaldı bu iki oğula. Amma böyük oğul Əhməd bütün var dövləti mənimsəyib, balaca keçələ heç nə vermədi. Gün keçdi, ay dolandı bu keçəl böyüyüb ərgən bir oğlan oldu. Gördü ki, onun evlənmək vaxtıdır. Amma heç nəyi yoxdur. Gəldi qardaşının yanına, dedi ki, mənə bir qədər qızıl ver, özüm toy eyləyim. Əhməd simic olduğu üçün keçələ pul vermədi, dedi ki, pulum yoxdur. O, zaman keçəl dedi: "Bəs mənim atamdan qalan var-dövlət hanı, niyə mənim payımı vermirsən?" Əhməd dedi ki: "Atamızdan nə qalmışdısa hamısını xərcləyib səni böyütdüm". Əhməd bir qədər keçələ torpaq verib dedi ki: "Get bu yeri ək, məhsulunu apar sat, pulunu topla, sonra evlən". Keçəl razı oldu. Amma Əhmədin gözü keçələ verdiyi torpaqda qaldı. Sonra Əhməd fikirləşdi ki, bir qədər pul verib, torpağı keçəlin əlindən alaram. Keçəl deyirlər bic olar. Odur ki başladı torpağı becərməyə. Kotanı, xışı, arabası yox idi. Odur ki, o, gəldi qardaşı Əhmədin yanına dedi ki: "Atını mənə ver yeri kotanlayıb, axşam yenə atı qaytararam özünə". Keçəl Əhmədi bir təhər razı saldı. Keçəl atı sürüb gətirdi öz sahəsinə, kotana qoşdu. Əhməd keçələ arıq, təmbəl bir yabı vermişdi. Odur ki,

nə qədər keçəl atı vurdu, at yerindən tərpənmədi. Odur ki, atı sonna qədər keçəl atı vurdu, at yerindən tərpənmədi. Odur ki, atı son-cuqladı. At soncuğa dözməyib baş qoydu qaçmağa. Keçəl yüyürüb atı bir təhər tutdu. Amma at yerindən tərpənmədi. Keçəl atı dartmaq istədikdə atın quyruğu yerindən qopub qaldı keçəlin əlində. Keçəl bilmədi ki, neyləsin. Gəldi Əhmədin yanına. Yalvardı ki: "Məni bağışla, atının quyruğu qopdu". Əhməd heç cür razı olmadı, keçəlin əlindən qazıya şikayətə getdi. Keçəl bilmədi ki, nə eləsin. Çox fikirləşdi, çox dərd çəkdi, axırda özünü öldürmək qərarına gəldi. Keçəl körpünün üstünə gəlib kəlmeyi-şəhadətini deyib özünü atdı körpüdən çaya. Sən demə şəhərin mollası bu zaman çaya enib dəstəmaz alırdı. Keçəl özünü atıb, bu Mollanın üstünə düşür. Molla həmin saat murdar olur. Mollanın arvadı Keçəli aparıb verir divana ki, onu zindana salsınlar. Bu zaman Əhməd eşidir ki, keçəl qazının hüzurundadır. Əhməd gəlir ki, bir təhər qazıya rüşvət verib, keçəli bir təhər eləsin. Əhməd gəlib qazı ilə cücə-plov yeyir. Keçəl də taxçada oturmuşdu. Bu zaman o aclıqdan başı gicəllənir, yıxılır qazının beşikdəki uşağının üstünə. Qazının uşağı ölür. Qazı Keçəlin bu hərəkətini görüb onu gətirir padşahın hüzuruna. Padşah əmr edir ki, divan qurulsun, keçəlin işinə baxılsın. Keçəl bilirdi ki, qazı ilə qardaşı Əhməd məhkəmənin divanbəyisini rüşvətlə əlinə alacaq. Odur ki, keçəl məhkəməyə gələndə əbasının altına çoxlu daş yığır ki, əgər divanbəyi ona cəza təklif eləsə vursun onu öldürsün. Məhkəmədə divanbəyi keçəldən söz soruşanda Keçəl əbasının altındakı daşı göstərir. Divanbəyi elə bilir ki, keçəl rüşvət gətirib odur ki, Keçələ bəraət qazandırmaq məqsədi ilə divanbəyi belə bir hökm verir:

– Atın quyruğu çıxana qədər Əhmədin atı Keçəldə qalsın.

– Mollanın arvadı Keçəldən qisas almaq üçün çıxsın körpünün başına, özünü atsın ordan çayın içində olan Keçəlin üstünə.

– Qazı arvadını versin Keçələ o vaxta kimi ki, arvadın Keçəldən uşağı olsun, o da verilsin Qazıya.

Məhkəmə qurtarandan sonra divanbəyi Keçəli yanına çağırıb gətirdiyi rüşvəti ondan istəyir. Keçəl əbanın altından daşı çıxarıb verir divanbəyinə. Divanbəyi deyir ki: "Bu ki, daşdır, daşdan da rüşvət olarmı?" Keçəl deyir ki, bu rüşvət-zad deyil: "Mən daşı ona görə götürdüm, ona görə sənə göstərdim ki, deyim əgər kim mənim xeyrimə olmasa bu daşla başını əzəcəyəm, vurub kəlləsini dağıdacağam. Allahın verdi ki, məhkəmə mənim xeyrimə oldu". Yoxsa kəlləni bu daşla dağıdacaq idim. Divanbəyi sevinir ki, yaxşı oldu ki, belə qərar verdi.



# VIII. ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

## A

Arpaya qatsan at yeməz, köpəyə qatsan it.
Arxı hoppanmamış hop demə.
Alan alıb allanıb, satan satıb pullanıb.
Ata oğula bir bağı qıydı, oğul ataya bir salxımı qıymadı.
Aclıq bir il gedər, töhmət min il.
Adam yediyi qaba qusmaz.
Ağladan yanında otur, güldürən yanında oturma.
Ağanın malı gedər, nökərin canı.
Analı qızın işi görünər, anasız qızın dişi.
Ağıllı olub dərd çəkincə, dəli ol, qoy dərdini çəksinlər.
Aşına ha aşına, çıxdı ocaq başına.
Abrı kimdən öyrəndin?-Abırsızdan.
Allah adamı sonku ayıbından saxlasın.
Ay mənnən olsun, ulduz-mulduz nə qələt eliyir.
Atlı qonaq sığışdı, itli qonaq sığışmadı.
At olan günü atdı, oğul olan günü oğul.
At öləne qədər yeyər.
Ağ at arpa yeməz?
Ana deyər: Nişanlısı qızımı çörək bişirəndə görsün. Qaynana deyər: Oğlum gəlinimi paltar yuyanda görsün.
Atıcı vurur, kürd oynayır, bir oynayan bir də oynayır.
Atdım göyə fındığı, nəyimə lazım nə qaldığı, nə sındığı.
Az qan uddurar, çox yağ.
Aftafa düzəldən bilir lüləyini hardan qoyur.
A xala, donun niyə gödəkdi? Deyir: Bezin qıtlığından.
Ağıllı zəhər də versə iç, nadanın balından da qaç.
Allah dəvəyə qanad versə, uçurmamış dam-daş qoymaz.
Adam torbanı dibindən silkələməz.
Ağzım çörəyə çatan yerdə canımı əzrail aldı.
Ağzıma dad, qarnıma fəryad.
Alı da od tutub yanar.
Ağaclı ağacını götürdü, suçlu suçunu başa düşsün.
Ağ yelnən Qara yeldi.
Adam bir il uşaq anası olar, bir il iş anası.
Allah əyməyəni bəndə əyə bilməz.

Allah heç kimin əppəyini tək eləməsin.
Ağır hapılı, taxta qapılı.
Allah dərdi çəkənə verər, ağını yalayana.
Atı torbalı dalaşdırır.
Ayı qandı, ayrım qanmadı.
Adam torbanı tüpürsən, elə bilər yağış yağır.
Almağa alıcı quşdu, verməyə kor yapalaq.
Axşam bəzəyi - yer təzəyi.

Ağam bir xanım aldı,
Davanı satın aldı.

Almanı say ye,
Armudu soy ye.

Armud kaldı, yemək olmur, hər sözü demək olmur.

Ayran duru, çörək quru,
Ağız yara, qanın qara.

Ağzına sığan söz danış.
Aza dedilər: hara gedirsən, dedi: çoxun yanına.
Acda iman olmaz, toxda aman.

Aranda tutdan olduq,
Dağda qurutdan.

Ağac naziklikdən, insan yoğunluqdan.
Adını çıxart, dəyirmanda dur.

Asta vur,
Rasta vur.

Ağda nə var ki, kirə də nə verə?
Adam iki dəfə uşaq olar.
At alanda cavan gözüynən bax, arvad alanda qoca.
Axmaq köpək qaysavadan pay umar.
At mıxını qopardanda bir yerə vurar, beş də özünə.



Aftafa görməyən xorruyar.
Allah heç kəsin əvvəlini əziz, axırını ucuz eləməsin.
Allah adamı sonlu ayıbdan saxlasın.
Acıqlandın yüzə kimi say.
Acığın tutdu, bir parç su iç.
Allah sağ əli sol ələ möhtac eləməsin.
At almamış nal alır.
Adamınkı Allahdan üzülməsin.
Aclıq adama hər oyun öyrədir.
Avara qonaq ev yiyəsini də avara elər.
Arvad bənnadır, kişi fəhlə.
Atın ağzına baxıb arpasını verərlər.
Axşam - sabah yalan deyil ha.
Allah-Allahla donuz darıdan çıxmaz.
Ağac barınnan gözəldi.
Ağıllı düşmən axmaq dostan yaxşıdı.
Ağlamağın dalı gülməkdi.
Acam - quyruq acıyam, bağır öfkə acı deyiləm.

Ağıllı deyər: bu gün işlərəm, sabah oynaram,
Tənbəl deyər: bu gün oynaram, sabah işlərəm.

Ağzını yandıran aş olsun,
Başını yaran daş olsun!

Ağ olsun, bez olsun,
Əynimdəki təzə olsun.

Allahdan qorxmayan kafirdi.
Arını bilməyən itinin adını Gümüş qoyar.
Ağacın yumşağını qurd yeyər.
Arif tərif istəməz.
Ağıllı gördüyünü, ağılsız eşitdiyini söylər.
Ağılsız baş əlindən səfil ayaq nələr çəkər.
Adam iş başında bəlli olur.
Ayıb söyləyənin, ayıbını söyləyərlər.
Atın ürkəyi, oğlun qorxağı.
Axacaq qan damarda durmaz.

Andına inanım, ya qoltuğundakı xoruza?
Ağladan yanında otur, güldürən yanında oturma.

B

Buğdanın qarnı yarıqdı.
Bala bağır ətidi.
Boğaz başdan aşağıdı.
Bir dərədə iki axsaq ceyran olmaz.
Bu evin işığı o biri evə düşməz.
Bir qız ərə gedər, yüz qız yelə.
Basdırdığın özü özündən qabaq gəlib.
Bayram əmisiz toy olmaz-məsəldir.
Baş sağ olsun, papaq tapılar.
Bir adam ki, səhər yalan danışdı, axşamacan yalan danışar.
Biri acından paltarını satırdı, dedilər: - Nisyə verərsənmi?
Borc alan bicdir, borc verən gicdir.
Burda oturma atamındır, orda oturma anamındır.
Bulud altından çıxan gün, yaşmaq altından çıxan dil.
Bir gün gələn bir gün gedər.
Bostançının kar vaxtıdı.
Birə də hey, minə də.
Birənin ya qınını aldın ya canını.
Başına kül də sovursan uca kəklikdən sovur.
Bulaq gözünü kor istəməz.
Baltanı ağaca vurduqca deyər: Sanım səndədi.
Bir tikənin qırx il haqqı var.
Bir tikəni bilməyən min tikəni də bilməz.
Biri yeyər, biri baxar, qiyamət onda qopar.
Bala baldan şirindi.
Bir gün duz yediyin yerə düz qırx gün salam ver.
Bar gətirən ağaca balta çalmazlar.
Borclunun dili gödək olar.

Bir kəndin iki koxası mürdəşir ola,
Heç olar ki, orda xeyir ola.

Bir gördün yoldaş, iki gördün qardaş.
Bu evin işığı o evə düşməz.



Bir əli oddu, bir əli su.
Buğda çörəyin yoxdu, buğda dilin olsun.
Bu da dağarçıcını sürüyüb çuvallar cərgəsinə qoyur.
Balını yadlar yeyir, mən çəkirəm bəlasın.
Başımı yarıb ətəyimə qoz tökür.
Baxmaqla öyrənmək olsaydı, sallaqxanadakı itlər qəssab olardı.
Belimizə qara yun bağladı.
Bir şeyin önünə baxma, sonuna bax.
Bir sənnən böyüyü, bir də səndən kiçiyi dinlə.
Borc qaldıqca balalar.
Bəla gələndə "gəlirəm" deməz.

C

Can sənin, cəhənnəm Tanrının.
Can candan ayrıdı.
Cökədən saz da olur, paz da.

Cavanlıqda daş daşı,
Qocalanda ye aşı.

Camış ola,
Qamış ola.

Ç

Çağrılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə.
Çarıxçını saymırlar, çəkməini sayırlar.
Çox qarışqa bir fili öldürər.
Çörək Qurandan irəlidi.
Çay hər axanda qızıl alma gətirməz.

Çolaq dedi: durun qaçaq,
Çətini öyrənənə qədərdir.

Çeynənən saqqız çürüyər.
Çöp altda dəyirman tikir.
Çömçə tutan bir tərəfdi.

Çiy ət ət gətirər,
Çiy çörək dərd gətirər.

## D

Düz adam düzdə qalar.
Diriyə də rəhmət var, ölüyə də.
Dəm dəm gətirər, qəm də qəm.
Dava-dalaşdan bir büküm halva yaxşıdı.
Dost adımı ansın, bir çürük qoznan.
Dərdi çəkər dərdəcər, eybi çəkər eybəcər.
Dağarcığını sürüyüb çuvallar cərgəsinə qoyur.
Dəli dəliyə qoşulub, dəyənək göydən yağır.
Döş döşnən də toqquşur.
Dəvənin nəri, kişinin əri.
Dədə evində də soğan-çörək, ər evində də soğan-çörək?
Dəvə bir fikir eləsə, sarvan iki fikir elər.

Dılqır ələk,
Dılqır saç.

Dostluq bir almadı, dəm səndə, dəm məndə.
Dəvə şıllağa qalxanda qar yağar.

Deyir: Dədən acından öldü,
Deyir: Tapdı, yemədi?

Dəmiri çox döyərsən itilənər, əlini kəsər.
Dəvə böyüdükcə çulu da böyüyər.
Dünyanın quyruğu uzundu.

Dedilər: Əzrayıl oğul paylayır,
Dedi: Özününkü özünün olsun, mənimkinə dəyməsin.

Diriyə dirrik gərəkdi.
Dişnən dodaq arsızdı.
Dəlini yüz öyrət, yenə öz bildiyini elər.
Dəli öz xeyrini, şərini bilsə, niyə adına dəli deyirlər?
Dost daşı baş yarmaz.
Dost adamın eyibini üzünə deyər.
Dovşan balasına üççə gün süd verər.
Dolunu yeyib, boşa bir təpik vurur.
Dadanmış duzlu dolmaya, o da bir gün olmaya.



Düşməni ocaq başında tanı.
Dərviş qarnı doyunca gözü yolda qalar
Dərd-dərdi açar.
Dərdin yoxsa dillən, borcun yoxsa öylən.
Dərd olsun, ürək dələn söz olmasın.
Dərviş Türkiyədə, hacı Məkkədə.
Dərvişin fikri nədi, zikri də odu.
Dünyada hər zaman mərdə arxalan.
Dəlisi olan hər gün ağlar.
Doğru sarsılar amma yıxılmaz.
Dədəmin dədəsi, dədəsizin Allahı.
Düşmən-düşmənə Quran oxumaz.
Davadan, bir büküm halva yaxşıdı.

Dünən şeş,
Bu gün beş?

Doğru qapıdan gələndə, yalan bacadan qaçar.

## E

Evdə dingnən dəyirmandan başqa hər şey olar.
Elini hürküt, axsağından yapış.
Eşşək palçığa bir dəfə batar.
Ev davasız, gor əzabsız olmaz.
Erkək atın çulu cırıq olar.
Evin kiçiyi olunca, donuz otaranın böyüyü olasan.
Ellərə gülən canım, indi olmuşam el gülüncü.
Elə bilir yuxa içində halva var.
Ev davasız, kor əzabsız olmaz.
Elə bil İsa yeyib, Musa təpib.
Elə elə ki, qapına bir də şorsatan gəlsin.
Ev satan qırx gün varlı olar, ev alan qırx gün kasıb.
Ellərə gülən canım, indi olmuşam el gülüncü.
Elə bilir yuxa içində halva var.
Elə bil İsa yeyib, Musa təpib.
Ev yıxanın evi yıxılar.
Elin keçdiyi körpüdən sən də keç.
El dəlisini çölə atmaz.

El gözü sərraf olar.
Ev oğrusunu tutmaq olmaz.
El atan daşı qaldırmaq olmaz.
Eşşəyin buynuzu çıxmayıb.
Eşşəyim körpüdən keçdi.
Elindən ayrılanı qurd yeyər.
Eşşək palçığa bir dəfə batar.
Eşşəyə dedilər mərifətini göstər, getdi samanlıqda ağnadı.
Ehtiyatlı igidin anası ağlamaz.
El üçün ağlayan göz kor qalmaz.
Evçiyə zaval yoxdu.
Elə yerdən yıxılım, heç yerim ağrımasın.
Elmi bilməyənin, heç zaman cəmiyyətdə yeri olmaz.
Ev yıxanın evi olmaz.
Elini hürküt, axsağından yapış.

## Ə

Əziz ölür, boğaz ölmür.
Əkinçi ol, bilici olma.
Ər evi, gor evi.
Əmiyə qalan dəmyə qalar.
Əvvəl məscidin içi, sonra çölü.
Ərindiyindən erməniyə ər deyir.
Əvvəlin gəlincə axırın gəlsin.
Ərsiz arvad, yüyənsiz at.
Əzrayılnan çilingacağ oynayır.
Əti az alginən, küftəni yekə salginən.
Ərə gedən gora gedər.
Ərin başı, arvadın daşı.
Ərnən arvadın torpağı bir yerdən götürülər.
Əsnək əsnək gətirər, vay samanlıqdakının halına.
Ət yeyən quşun dimdiyi əyri olar.
Əl tutmaq Əlidən qalıb.
Əsəbləşən tez qocalar.
Əti ətdən kəsərlər, uman yerdən küsərlər.
Əcəl gəldi dabana, baş ağrısı bahana.
Əlin dəllal əlinə dəymeyib.
Ələ də yetir, əlləzə də.



Əlim xəmir.
Qarnım ac.

Ətin çiyi ət gətirər, xəmirin çiyi dərd gətirər.
Əbləh odur dünya üçün qəm yeyə.

Ərsiz arvad -
Yurdsuz at.

Əlim xəmir, qarnım ac,
Ağzıma dad, qarnıma vay.

Əl əldən üstün olar,
Əl ələ hökm edər.
Əlim daş altdadı.
Əl tutmaq Əlidən qalıb.
Əldəki sərçə göydə üçan göyərçincə yeydür.

Əkinçi ol,
Bilici olma!

Əyni parıldar,
Qarnı quruldar.

Əziz ölür,
Boğaz ölmür.

Əzizim əziz, tərbiyəsi ondan əziz.

## F

Fərəsətdi oğulun papağı şiş durar.
Filin gücü xortumundadır, dəvənin gücü-dizində.
Fərli cücə yumurtadan cikkildər.

## X

Xanım qıran boşqabın səsi çıxmaz.
Xalqa qarın ağrısı gələndə bunun tuman bağı əlindədi.
Xalqa aftafa-ləyən gələndə bizə də sarımsaqdöyən gəlir.
Xoca məndə, xurcunu səndə.
Xəngəl, əngəl.

Xəşil, lümbədən aşır.
Xəmiri linc olana.
Xam adam xoflu olar.
Xəmir aşı-bəylər aşı, umac onun yoldaşı.
Xiyar pulu ilə alınan eşşək suda boğular.
Xanım qıran boşqabın səsi çıxmaz.
Xəsisin malı arvadın sonunku ərinə qalar.
Xətir ucundan xəstə yatır.

Xalam bildi,
Aləm bildi.

G

Göz gördüyündən qorxar.
Gəlin ayağa durdu, başdı başın saxlasın.
Gəlin ocağa gələr.
Gəlin gəlin olmaz, gəlin düşən yer gəlin olar.
Gündə gedən kül üstə, ayda gedən gül üstə.
Gəzən ayağa daş dəyər.
Gəzəyən gəzməyə bilməz, gəzməsə dözə bilməz.
Görək lələ şələni basacaq, yoxsa şələ ləlləni.
Gədədən bəy olmaz, dəlidən darğa.
Gec danışsan, kəlamın gül olar.
Gölməçəyə su gəlincə, qurbağanın gözləri bərələr.
Gülmə gülünc olana,
Gün keçir, ömür gedir, dəli bəzənir ki, bayram gəlir.

Get naxıra,
Gəl axıra.

Gəlin bəzənincə toy əldən gedər.
Göydən nə yağsa, Yer götürməlidi.
Göydə yeddi batman ağırlığında dəyirman daşı var, kim özünü pis bilsə, başına düşəcək.
Göy üzünə bulud gəldi, vay sarının halına,
Gəzən ayağa daş dəyər.

Gəzəyən gəzə bilməz,
Gəzməsə dözə bilməz.



Günorta bəzəyi - yar bəzəyi,
Görən desin habelə.
Gecə dərd artıran olur.
Gözü ilə görən mən, xəbər verən sən?
Gücün çatan işdən yapış.
Gücünə bax, şələni bağla.
Gəlin ayağa durdu, başlı başını saxlasın.
Gəlmişdi bay olmağa, yan quyruğunu da qırxdılar, day oldu.
Gen qaz, dərin qaz. Özün düşərsən.
Göz haqdı, qulaq nahaq.
Gözün ağını başa qaxarlar.
Gödək xəlbir sudan nə çıxardar?

H

Hax haxdan kəsəndə Murtuzəli hər ikisindən kəsər.
Hərənin qarğası özünə qırğıdı.
Haca gedən gəldi, saca gedən gəlmədi.

Həsən xəstə,
Hüseyn bemar,
Hər kəs nə eləsə, özünə eləyər.

Hörmət var xalvar-xalvar,
Hesab var dinar-dinar.

Hər çayın bir dənizə yolu vardır.
Həmişə bayram şənbəyə düşməz.

Hərə bir tük versə, kosa da saqqallı olar.
Hərənin öz örüşü özünə xoş gələr.
Hərə öz keçəlini özü yaxşı qaşıyar.
Hər kəs öz ölüsünü oxşar.
Hərcayı sözün mərcayı cavabı olar.
Hər dərdin dərmanı var, axtarıb tapan gərək.
Haray bəri başdan.
Hərə öz şəhərindən xəbər verər.
Hamı hamıynan olanda, keçəl də papağınnandı.
Harada yaşasan, ora vətəndi.
Hər şey vaxta baxar, vaxt heç nəyə baxmaz.

Həvəsdi - bəsdi,
Gilasdı - bəsdi.

Hər keçəlin baxtı bir olmaz.
Hər üzə güləni evə qoymazlar.
Heyvanın dişinə baxarlar, insanın işinə.

## İ

İlan yuvasına girəndə dəvə də çıxarda bilməz.
İt itnən boğuşdu, yolçuya girəvə düşdü.
İki düşmən arasında elə söz danış ki, onlar barışanda utanma.
İrəmədə yovşan da yiyəsiz bitməz.
İş olanda qız deyər: ərə gedəcəm, gəlin deyər: doğacam, qarı deyər: öləcəm.
İtin hürəni yox, tutanı yaxşıdı.
İt əppəyə, uşaq məhəbbətə.
İt deyər: Yiyəmin yeddi oğlu olsun, qapıya çıxanda hərəsi mənə bir loxma çörək tullasın. Pişik deyər: Yiyəmin yeddi qızı olsun, özü də kor. Bir-bir yeddisinin də əlindəki kökəni qapım, yeyim.
İlan ilandı, o da torpağı isrifnən yalayır.
İtin axmağı tula olar, atın axmağı yorğa.
İt özünü murdar bilməz.
İştah diş altındadı.
İki arvadlı ev zibilli olar.
İşi kim görər? - Boynuna düşən.
İlanın balası özünə qənimdi.
İştahın çəkməyən xörəyi yemə.
İki cürə qoca var; ipək qoca, köpək qoca.

İlanın dili,
Dəvənin kini.

İtin qulağını kəssən, beşi deyər uzundu, beşi deyər gödəkdi.
İndi gəl bu kolu körpüdən keçirt.
İnsan dilindən dağlanar, heyvan belindən.
İşi hacətnən görərlər, höcətnən yox.
İynəynən gor qazır.
İtdən bir əppək borc alıb.
İtdən çox çarıq yığan yoxdu, yenə ayağı yalındı.



İtin ayağını köçdən əsirgəməzlər.
İş tərs gələndə, xəşil də diş sındırar.
İki yana baxan çaş qalar.
İtin qursağı yağ götürməz.
İlan yerisin, balası dalınca.

İt ola,
Küt ola.

İnsafsız ağa,
Yağmursuz hava.

İlanı görənə lənət,
Öldürüb basdırmayana lənət.

İtə arpa atır, ata sümük.
İş tərs gətirəndə, burunun suyu gözə damar.
İtə qoşulan it damına düşər.
İpi ilə quyuya düşən quyuda qalar.

İşdəyənin ömrü uzun
İşdəməyənin günü qısa olar.

İnsanın zilləti də öz əlindədir, illəti də.

## K

Kasıb köçəndə varlanar.
Kələknən gələn küləknən gedər.
Keçinin qoturu döl başına keçər.
Keçi öldü, qoturu kəsildi.
Kor günortayatan nə görüb, günortadan sonra da nə görə.
Kar iki dəfə gülər.
Kasıbın sacı qızanda kündəsi qurtarar.
Kasıb mərd olar.
Kir kiri açar, sirr sirri.
Keçəlin dərdi-başı, bir qazan ayran aşı.
Kasıb toy eliyəndə gecə gödək olar.
Kasıb təzə geyəndə deyərlər:Hardan almısan? Varlı təzə geyəndə deyərlər: Sağlıqnan.

Kök nəzilincə arıq üzülər.
Kasıbın sacı çörəyi qurtarana qızar.
Kürəkən imam kimi gələr, sonra yezidə dönər.
Külü küllükdən götür.
Kotan nə bilir, qayış nə çəkir.

Kasıbın sözü,
Ulğunun közü.

Kor dedi: səs gəlir, kor dedi: odur bax, oğru gəlir.
Lüt dedi: tərpənməyin, gələrlər soyarlar.

Küsülü qardaş, gəl bu yükü qataq, sonra yünə küsün, üz yerində qalsın.
Kürəyi yayda al, orağı qışdı.
Kar nə bilir taqqıltı hardan gəlir.
Kor canvarınkını Allah yuvasında yetirər.
Korun tutuşu, karın vuruşu.
Kölgədən heç zaman insana arxa olmaz.
Kişi gətirməyi bilməli, qadın yetirməyi.

## Q

Qarğa çoxbilmişliyindən uzağa düşər.
Qoyun qoyun deyil, oyundu.
Qışın günü adamı isitməz.
Quru süfrəyə dua olmaz.
Qız baxt üstündə oturar, taxt üstündə oturmaz.
Qurd da qonşusuna dəyməz.
Qol qırılında boyundan asarlar.
Qatıq özünə qab tapacaq.
Qorğanan gözə çöp düşər.
Qapının itini döyərsən, zəncirini qırıb qaçar.
Qoyunu soyub quyruğunda bıçaq sındırır.
Qəbrə girən ölü geri qayıtmaz.
Qərib itin quyruğu belində olar.
Qız anadan olanda deyər: Bu baca bizimki deyil.
Qız qarıyanda dayısının boynunda qalar.
Qonağı evdən qovmazlar, altından palazı çəkərlər.
Qonaq gəlməyən ev xaraba qalar.



Qohum qohumun ətini yesə də, sümüyünü çölə atmaz.
Qoy qazan ağzı örtülü qaynasın.
Qapının nökəri uzağın bəyindən yaxşıdı.
Qoyunu olmayanın bıçağı iti olar.
Qəribin boynu uzun olar, dili qısa.

Qışa, dedilər-Harada qışladın?
Dedi: - Yoxsulun yanında.

Qulluqçudan borc eləmə, ya toyda istər, ya yasda.
Qohum qohumun ətini yesə də, sümüyünü çölə atmaz.
Qırılan qoşunnandı.
Qız qapısı, şah qapısı.
Qurbağa gölünə daş atıblar.
Qazıcaq da bilir, quzucaq da.
Qar yağıb ayaq üşüməyə.
Qurban olum o qala, üstündən bir gün keçə.

Qızını qoy beşiyə.
Cehizini qoy eşiyə.

Qılınc kəsməyəni söz kəsər.
Qarına gedən qazançıdı.

Qaşıq qayıranın öyündə qaşıq tapılmaz.

Qara ağarmaz,
Su qurtarmaz.

Qarğalar mənim toyuğum, yumurtasını ki, görmürəm.
Qurddan qorxan qoyun saxlamaz.
Qurd qocalanda köpəyə gülünc gələr.

Qoyunun oldu əlli,
Adın oldu bəlli,
Qoyunun oldu yüz,
Süd gölündə üz.

Qız deyər: Qarnımı doydur, qora basdır,
Oğlan deyər: Qarnımı doydur, qara basdır.

Qoy mənim xoruzum özgə çəpərində banlasın.
Qoyun olmayan yerdə keçiyə kəraməddin ağa deyərlər.
Qarğa özünü quş bilər, xəşil aş.
Qonaq evin gülüdü.
Quş dənə gələr, milçək qana.

Qoca quyruq yedirdər,
Cavan yumruq.

Qurd balası qurd olar.
Qonağın ruzusu özündən qabaq gəlir.
Quru süfrəyə dua olmaz.
Qara sudan qaymaq tutur.
Qorx payızdan, qabağından qış gəlir,
Qorxma qışdan, qabağından yaz gəlir.

Qışın günü adamı isitməz.
Qorxulu baş salamat olar.
Quyruğu qapı arasında qalıb.
Qara gün adamı tez qocaldar.
Qonşu qızı gözəl olmaz.
Qurd da qonşusuna dəyməz.
Qohumun kimdi? - yaxın qonşum.
Qarğa çoxbilmişdiyindən buzağa düşər.
Qılıqlı min evi yeyər, qılıqsız bir evi də yeyə bilməz.
Quyuya girməmişdən əvvəl çıxmağı fikirləş.

Qızsız - ana,
Duzsuz ana.

Qardaş adamın təkcə ölümünü istəməz.
Qız qızıl qırığıdı.
Qızın oldu qırmızı, donunu soyun qoy.
Qalan işə qar yağar.
Qaranı qaraya tutmazlar.
Qızın vətəni olmaz.
Qardaş sümüyü ölçür, sonra udur.
Qızıl odla, arvad qızılla, kişi arvadla imtahan edilər.
Qonağa hörmət gərək, kafər də olsa.



Quru quyudan su çıxmaz.
Qadının biri əla, ikisi bəla.
Qəbul olmayacaq duaya amin demə.
Qərib quşun yuvası çox olar.
Qələm qılıncdan kəskindir.
Qəm qəm gətirər, dəm dəmi.

Qazan altdan köz,
Adam altdan söz.

## L

Lalın dilin nənəsi bilər.
Loxma dediyin boğmadı.

## M

Meyvə pis olanda ağacın dibinə düşər.
Məclisin dalı-qabağı olmaz.
Mal bir yerə gedər, güman min yerə.
Mal can yonqarıdı.
Mərdi qova-qova namərd eləyirlər.
Mən oğru oldum, Ay dala qaldı.
Min xala yığışa, bir ananın yerini verməz.
Mənə dəyməyən qurd yüz yaşasın.
Malın mal olunca, bazarın bazar olsun.
Milçək şirəyə qonar.
Məsciddə yerini bil. Deməsinlər dur burdan.

Məndən sənə öyüd,
Öz dənini özün üyüt.

Milçəkdən fil düzəldir.
Mərd ilə daş daşı, namərd ilə bal yemə.

## N

Nəslində olan dırnağında bildirər.
Naxırçı qızının könlü naxır əppəyi istəyir.
Namərdi bir gördüm, bir də görsəm namərdəm.

Nə işim işdi,
Nə əlim boşdu.

Nə altda undu nə üstdə kəpək.

Ö

Özgənin sözünü sənə deyən, sənin də sözünü özgəyə deyər.
Özü üçün yatıb, özgələr üçün yuxu görür.
Özgə danası bağlayanın çatısı əlində qalar.
Özgə özgənin itini hololo bayatıynan çağırar.
Özgənin sözünü özgəyə deməyə nə var.
Ölünü qoyub dirini ağlamazlar.
Ölümün atı yüyürək olar.
Ölən inək südlü olar.
Öz əliylə özünə quyu qazır.
Öz daşımız öz divarımız.

O

Oğul da bir ev tikir, qız da.
Otuz ilə yelinlədi, qırx ilə qulunladı.
Oynasa ümid olan, ərsiz qalar.
Oğlan evi alınca, qız evi ölüncə.
Olan oldu, torba doldu.
O dağa yağdı qar, bu dağı yıxdı xəbər.
Oğru tülküdən şir olmaz.

Od qonşusu,
Gor qonşusu.

P

Paxılın yeri cəhənnəmdi.
Pəh-pəhlə plov olmaz, yağ ilə düyü gərək.
Pis qonşu adamı hacatlı elər.
Paxıl artmaz.
Pişiyi divara qısnarsan qayıdıb üzünü cırar.
Pişiyi torbada boğarlar.
Pıçı-pıçı ev yıxar.

S

Söz sözün söykəyidi.
Surfa duası hər duadan əvzəldi.
Süddən ağzım elə yanıb, elə bilirəm qatıq da yandıracaq.



Saqqalım yoxdu, sözüm ötmür.
Sürüdən ayrılan qoyunu qurd yeyər.
Sənnən ötəri nə bağayarpağı, nə quzuqulağı?
Sözü ağzında bişir, sonra danış.
Söz sözü gətirər, arşın bezi.
Salam Allah salamıdı.
Siftə bazarını kor eləmə.
Sənnən hərəkət, mənnən bərəkət.
Süddü qoyun sürüsünnən ayrılmaz.
Salyan arabası kimi cırıldayır.
Sənə bir toy tutaram ki, əlinnən it ətəyini alar.
Söz sözü kəsər,
Soğan kimi acı olma, bal kimi şirin.

Sağalarsa, həkiməm,
Sağalmasa, mən kiməm?

Səhər bəzəyi - el bəzəyi.

Soruşan dağlar aşar,
Soruşmayan düzdə çaşar.

Siçandan olan çuval dibi kəsər.
Su sudu, o da bir yerdə duranda iylənər.
Söymə nökər atamı, söyməyim bəy atanı.
Son sözünü əvvəl demə.
Sonlayan sonda qalar.
Sən özünü bəyənmə, qoy səni bəyənsinlər.
Səbr Allahın adıdı.
Sümüksüz ət olmaz.
Söz vaxtına çəkər.

Sirr sirri açar,
Kir kiri.

Sənətkar günortaya kimi ac qalar.
Suçıxmaz arxa çuvar oldum.
Sən gedən yolu getmişəm də, qayıtmışam da.

Sözü acı olanın,
Dostu az olar.

Saç ürəkdən su içər.
Sifarişçinin hacı qəbul olunmaz.

Ş

Şor yağdan baha olub.
Şabalıddan yağ çıxmaz.
Şəriətin kəsdiyi barmaq qanamaz.

T

Tamarzıdan al, dadmala ver.
Turpun sıxından seyrəyi yaxşıdı.
Tumanın balağını bərk tut, qonşunu oğru görmə.
Tərəzi çəkənin yüzdə biri cənnətə gedər.
Təqsir həmişə öləndə olur.
Tök ortaya xəngəli, artsın onun əngəli.
Toy gedər, tövlə qalar.
Təzə süpürgə yaxşı süpürər.
Təzə bardağın suyu sərin olar.
Tova (tövbə) toxluqdan, üz-göz yoxluqdan.
Tata baxanda kürd musurmandı.
Toyuq eşələnib, özünə bıçaq qazanar.
Toyuq toyuqdu, o da su içəndə Allaha baxar.
Təndirə saldım, külfədən çəkdim.
Tox deyər acmaram, ac deyər doymaram.
Təmiz gəlin, tarıx gəlin, bir uşağın olsun, görək, qaynanan ölsün, görək.
Tanımadığın adamı evə buraxma.
Tatın gəlişi, kürdün görüşü.
Tula itdən murdar.
Təknədən əppək qurtardı, vay qaranın halına.
Tanrı bilir kim qazana, kim yeyə.
Taqqıltısını eşidirəm, üzünü görmürəm.
Toyuğun uçuşu zibilliyə qədər olar.

Torpağı daşdı yerdən,
Qızı qardaşdı yerdən.



Toyuq qaz yerişi yeriməz.
Tamahkarın imanı olmaz.
Toyuq yumurtasına görə qaqqıldar.

Tövbə toxluqdan,
Üz-göz yoxluqdan.

Tövbə, tövbə, nə tövbə?! Öyrənmişə nə tövbə?!
Tanrısına təpik atır.
Tutulan işdən gül iyi gələr.

U

Urvan mənnən olmasa, çörəyin küt gedər.
Uzun saçlının ahı yerdə qalmaz.
Utanırsan, üzünə ələk tut.
Uşağın ağlı, itin ağlı.
Uşaq anadan yetim qalar.
Uşaq dədəsini hamıdan güclü bilər.

Uzundıraz beynamaz,
Yetim yarımaz, yarısa da qarımaz.

Utanmağın da öz yeri var.
—Utanırsan üzünə ələk tut.
Uşaq gördüyünü götürər.

Ü

Ürək süfrə deyil, hər yetənə açasan.
Üz tanınar qaşı ilə, qız qardaşı ilə.
Üzülkəslilik döy ha.
Üzü öpülənin əli öpülməz.

V

Var əli kərəm əli, yox əli vərəm əli.
Varlı arvadın cehizi sonra gələr.
Vay o gündən ki, adamın öz iti özünü qapa.
Var adamın gözünü açar.
Varlıya bəli deyərlr, yoxsula dəli.
Verən əli kəsməzlər.

Varlının gözü dar olar,
Kasıb ürəkli olar.

Verən əli kəsməzlər.
Vurammayan çomağın yekəsini götürər.

Var əli verən əli,
Yox əli, vərəm əli.

Verən Allahdı.
Varlığa tələsən yoxsulluğa tez düşər.
Varlığa toxun keç, yoxsuldan qorun keç.
Varlının əli yaralansa, yoxsul ətəyin cırar.
Ver qırxı, çəkmə qorxu.
Vətənə arxa olmayan,
Evinə dayaq olmaz.

## Y

Yüyürən yıxılana baxmaz.
Yüz mamaça yığıla, güc doğanındı.
Yalamasan doymazsan, yamamasan geyməzsən.
Yüz il quraqlıq oldu, aclıq olmadı, bir il yağınlıq oldu, aclıq oldu.
Yad gələ-gələ qohum olar, qohum gedə-gedə yad.
Ya üz, ya düz.
Yüz iyirmi dörd min peyğəmbərə yalvarınca, bir Allaha yalvar.
Yüyrək at özünə qamçı vurdurmaz.
Yağmasa da guruldayır.
Yiyə gözü, həkim gözü.
Yaxşını yer tanıyır.
Yoxdan Allah da bezardı, bəndə də.
Yatan ölmür, yetən ölür.
Yatmaqnan deyil, yetməknəndi.
Yayın yaxantısı-qışın yavanlığı.
Ya Allah əmrinnən, ya yan dəmirinnən.
Yaman deyənin olunca, yaman yeyənin olsun.
Yatan ölməz, yetən ölər.
Yolnan gedən yorulmaz.
Yetişən meyvə ağacda qalmaz.
Yara yetişəndə deşilər.



Yeməyə də kömək, işləməyə də.
Yeməknən doymayan yalamaqnan heç doymaz.
Yağın şora ziyanı yoxdu.
Yüz dərənin başı bir dağa bağlandı.

Yarın yara sovqatı,
Bir dəstə bulaq otu.

Yolu azana it səsi xoş gələr.
Yüyürən at arpasın artırar.
Yırtıcı quşun ömrü az olar.

Yaxşılığa yamanlıq,
Kor eşşəyə samanlıq.

## Z

Ziyanın yarısından qayıtmaq da hünərdi.
Zalım görər, zorla alar, fağır görər, yalvarıb alar.
Zurnada pişro olmaz, bəxtinə nə çıxsa çal.
Zərb zəyərəkdən yağ çıxardar.

# IX. TAPMACALAR

Həşədən, ay həşədən,
Bir səs gəlir meşədən.
Atamın beş oğlu var,
Hamısı bir peşədən.
**(Corab milləri)**

Gedər, gələr, evə girməz.
**(Qapı)**

Yerdə doğar, göydə ölər.
**(Tüstü)**

Çəpərdən bir kişi baxır,
Ağzından ayran axır.
**(Bulaq)**

Ağ yumaq, qırmızı yumaq,
Nə vaxt gəldi bizə qonaq.
**(Xonça)**

Dəmirdən at, şeytan milçək,
Allah qüdrət.
**(Tüfəng)**

Gecə qızarar, gündüz bozarar.
**(Çıraq)**

Hap-hapı, dəmir qapı, şah ölkəsi,
xan bağı.
**(Hamam)**

Evimizdə bir kişi var,
Ağzında qırx dişi var.
**(Oraq)**

Ağac başında dalı taxtalı qarı.
**(Xirnik)**

Ayağında qıllı-qıllı corablar.
**(Ayı)**

Xədcəvanı, Xədcəvanı,
Altı qıçı, iki davanı.
**(Tərəzi)**

O nədir ki, yerir-yerir, izi yox.
**(Bulud)**

Əzan çəkir,
Namaz bilmir.
Arvad alır,
Kəbin kəsmir.
**(Xoruz)**

Bir qutum var, iki əppək tutur.
**(Qoz)**

Hilli-hilli mərciməyim,
Qırağı güllü mərciməyim.
Nə iyiməz,
Nə çürüməz.
**(Ad)**

Tap-tapı,
Qızıl qapı.
Şah ölkəsi,
Xan bağı.
**(Arı pətəyi)**



Gündüz dirilər,
Gecə ölər.
**(Ayaqqabı)**

Bu gülün adı nədir?
Çevir gör ardı nədir?
Dəryamızda min gül var,
Onların adı nədir?
**(Ürəkdə söz)**

Sildim, süpürdüm,
Gəl oynayaq, a dıvraq!
**(Cəhrə)**

Bizdə bir kişi var,
Köndələn yatışı var.
**(Farmaş)**

O nədir ki, uzun hoqqar?
Onu tapmayan olsun çaqqal.
**(Qarğıdalı)**

Ləkdə yatır mışıl-mışıl,
Çiçəyi sarı, özü yaşıl.
**(Xiyar)**

Bir dərədə yeddi təpə,
Bir təpədə yeddi dəlmək.
Bir dəlməkdə yeddi tülkü,
Bir tülkünün yeddi balası,
Eyləyir neçə hamısı?
**(İyirmi səkkiz tülkü balası)**

İlim-ilim ilməsi,
İlmə xatın düyməsi.
Hərkim onu bilməsə,
Yeddi ilin xəstəsi.
**(Üzərrik)**

O nədir ki, geri baxır, gözü yox?
**(Zəli)**

Qara toyuq qarnı yarıq.
**(Buxarı)**

Qara ayı yağladım,
Qaya dibinə bağladım.
**(Sac)**

Bizdə bir kişi var,
Saqqalı yer süpürür.
**(Süpürgə)**

Səfər bu evdə yatır,
Qol-qanadın o biri evə atır.
**(Bostan)**

Əlim ətdə, gözüm süddə, başım yunda.
**(Qoyunun sağılması)**

Dörd qardaşın bir papağı var, hamısı birdən qoyur.
**(Stol)**

Tapdım bir haça,
Lazımdır saca.
Atdım bir itə,
İt də lap qoca.
**(Kösöv)**

O nədir ki, göbəyindən nallanır?
**(Pul)**

Dəryada bir gül bitib adı yox.
Şirinlikdən yemək olmaz, dadı yox.
**(Yeni doğulmuş uşaq)**

Ana bir qız doğdu, nə əli var, nə ayağı.
**(Yumurta)**

Tat tatı götürdü, tat oğlunu götürdü,
Oğlu yarpax götürdü, yarpax torpax götürdü.
**(Ev)**

Bizə bir qonaq gəlib Qüdrətdən,
Bir qoyunumuz var, xırp ətdən.
Nə qonağımızın dişi yoxdu,
Nə qoyunumuzun sümüyü.
**(Körpə uşaq)**

Hacıleylək haca gedir,
Gündüzü qoyub gecə gedir.
Bir yumurta içində
Yüz əlli cücə gedir.
**(Nar)**

Tut, tut, tuğulğa,
Tutdan bir tuğulğa çəkdim,
Nə tutdu, nə tuğulğa.
**(Qatır)**

Sağsağan səkər,
Quyruğun bükər.
Qaz qaqqıldayar,
İliyin tökər.
**(Nəhrə)**

Göydən gəlir yağış kimi,
Suyunu dadmaq olmaz.
Toxuyur Culfa şalı,
Onu da geymək olmaz.
**(Hörümçək)**

Atası üç yaşında, oğlu bazara gedir.
**(Xiyar)**

Duzsuz bişər, tez düşər.
**(Qovut)**

Üstü yanıb dağıldı, altı hələ çiy qaldı.
**(Qəlyan)**

Nar da var,
Nardan şirin harda var?
Əl tutmaz, bıçaq kəsməz,
Ondan şirin harda var?
**(Ana döşü)**

Başa yapışıq,
Bir sapsız qaşıq.
**(Qulaq)**

Bir atım var mehriban,
Kösü suda hər zaman.
Gecə-gündüz kişnəməz,
Arpa-saman istəməz.
**(Qayıq)**

Ağrısız-qəmsiz ağladır.
**(Soğan)**

Adam udar, canı yox.
**(Qəbir)**

Bir balaca adacıq,
İçi dolu ağ muncuq.
**(Ağız, dişlər)**

Bu gün şənbədi,
Küyləmə, düşənbədi.
Od yox, ocaq yox,
Qazanda bişən nədi?
**(Pendir)**



Qıçları var, əli yox, yanları var, qabırğası yox.
**(Səndəl)**

Dam üstə daylaq oynar.
**(Dolu)**

Məcnunda yoxdu, Leylidə var,
Yusifdə yoxdu, Züleyxada var.
**(L hərfi)**

Bir atım var ağ alaca, özü gedər yəhəri qalar.
**(Körpü altında su)**

Üç qardaşım var: biri sulayır, biri üfürür, biri bitirir.
**(Yağış, yer, günəş)**

Biri gəlir, biri oturur, biri yatır.
**(Çay, ağac, torpaq)**

Bir qapağı, yüz yarpağı.
**(Kitab)**

Bir qarpızım var, cığır üstünə dünya sığar.
**(Qlobus)**

Bakıda bişər, Gəncədə düşər.
**(Məktub)**

Özü qara, sözü ağ.
**(Yazı lövhəsi)**

Mən aşiqəm buz bağlar,
Qışda çaylar buz bağlar.
Tapın görüm o nədir?
Od içində buz bağlar.
**(Qaymaq)**

Əziziyəm bir bəndi.
Qızlar bağlar hər bəndi.
Bağban oldum bir bağa,
Yüz arxı var, bir bəndi.
**(Bulaq)**

Ağ qıza əl uzatdım,
Məsti budaqda qaldı.
**(Pambıq)**

Dərya qırağı düzdü,
Sınasan əlli, yüzdü.
Yaşıl əkdim, al bitdi,
Görən əsli nə düzdü.
**(Xına)**

O nədi ki, boyanıb boyaqsız.
**(Qızılgül)**

Özü ala,
Yeri tala,
Para-para,
Qəlbi qara.
**(Lalə)**

Qapı-tapı
Gəcgi sapı
Altı gülü,
Beş yarpağı.
**(Zəfəran)**

Yaşılı yamanca bərkdi,
Sarısı lap göbələkdi,
Əl vurma düşəcəkdi.
**(Ağac yarpağı)**

Yer altında qıllı baş.
**(Soğan)**

İpsiz iynə, deşiksiz muncuq,
Allah düzər, adam üzər.
**(Üzüm)**

Gözlərində çırağı,
Dişlərində qırmağı,
Yağı adam küsdürər,
Zəhmi heyvan əsdirər.
**(Canavar)**

O nədi ki, evə girməz,
Sədaqəti eldə gəzər.
**(İt)**

O nədi ki, iynəsi çoxdu
Sap yeri yoxdu.
**(Kirpi)**

Başı daraq, quyruğu oraq,
Tezdən durar, surun vurar.
**(Xoruz)**

Otuz iki divar arasında,
Xan otağında.
**(Dil)**

Açıram danışır,
Bağlayıram barışır.
**(Televizor)**

Yayda yaşıllanır,
Payızda saralır.
**(Ağac)**

Səhər açır axşam solur,
Hər yana ətir saçır.
**(Qızılgül)**

Bir işığım var lampa deyil,
İşıq saçır Günəş deyil.
**(Ay)**

İçi boşdu,
Səsi xoşdu.
**(Qaval)**

Altı tavan üstü tavan.
İçində bir qırmızı oğlan.
**(Ağız, dil)**

Aş gördüm, aş gördüm,
Köpük qusan daş gördüm.
**(Sabın)**

Əldə yapılır,
Ətdə asılır.
**(Sırğa)**

Dayım oğlu İsmayıl,
Şapalağa daim mayıl.
Qulağı dəmirdəndi,
Köynəyi dəridəndi.
**(Dəf)**

Buxarı ha buxarı,
Tüstü çıxar yuxarı.
Cənnətdən viri gəlmiş,
Çiyni yaşıl çuxalı.
**(Bənövşə)**

Bir kişi çay keçdi,
Götürdü çay keçdi,
On iki qoyun, dörd keçi,
Götürdü çay keçdi.
**(İl, ay fəsillər)**



Zülfün ucu gümüşdür,
Sal boynuma ilişdir.
Yemişlərin içində,
Çiçəksiz nə yemişdir?
**(Yer alması)**

Əzizim, bir anası,
Hərənin öz anası.
Quşlardan hansı quşdu
Yüz bala, bir anası.
**(Arı)**

Əl-ayağı dəstədi,
Qolları qəfəsdədi.
Nə yerdədi, nə göydə,
Çərxi fələk üstədi.
**(Pəncərə)**

Əyə, ha əyə,
Hamıya dəyə.
**(Ad)**

Əvvəl meşədə idi,
Bircə peşədə idi.
İndi yarpaq olubdu,
Babam dayaq olubdu.
**(Əl ağacı)**

Əzəl vardı yeyərdik,
Yeməsəydik ölərdik.
İndi də var yemirik,
Yeməsək də ölmürük.
**(Arı südü)**

Dili yoxdu, dişləyir,
İliyiməcən işləyir.
**(Şaxta)**

Evin dalı gəlmədi,
Xana-xana bölmədi.
Bülərəngdə xalım var,
Səksənsəkkiz ilmədi.
**(Arı şanı)**

Damda damdıldar,
Suda gumbuldar,
Heyva qalar,
Nar parçalar.
**(Dolu)**

Daşdəmir daşdan,
Qarnı talaşdan.
Daşdəmir doymaz,
Min tağar aşdan.
**(Ding dəyirman)**

Dam üstə yağlı fətir,
Gücün çatır get gətir.
**(Ay)**

Dağlarda qar əridi,
Ayaq tutub yeridi.
Dərə görüb çığırdı,
Dərya görüb kiridi.
**(Çay)**

Dağdan gəlir ərəblər,
Ayağında corablar.
Elimizə qoymuruq,
Obamızı xarablar.
**(Sel)**

Qara toyuq qaq elər,
Qanadları şaq elər,
Dəmir vurub hürkütmüş,
Qapısını bərkitmiş.
**(Sandıq)**

Qara çadır açıldı,
İçindən nur saçıldı.
**(Sübh)**

Qaş-qaş qalacıq
Qan piyaləsi.
Uçdu anası
Qaldı balası.
**(Buğda, səməni).**

Bura gələn hacıdı,
Aş bişirən bacıdı.
Zoğ atar, yarpaqlamaz,
Görən nə ağacıdı?
**(Keçi buynuzu)**

Qanadı var, quş deyil,
Buynuzu var, qoç deyil.
**(Kəpənək)**

Qanadı yoxdur, uçar,
Ayağı yoxdur, qaçar.
**(Bulud)**

Br toyuğum var, yer alışanda yumurtlar.
**(Kartof)**

Bircə qardaşım var,
Getdi qayıtmadı.
**(Nəfəs)**

Bir quşum var,
Balası özündən tez uçar.
**(Patron)**

Bazarlarda satılmaz,
Tərəzidə çəkilməz,
Baldan şirin dadı var.
**(Yuxu)**

Balaca quyu,
Taqqıldar suyu.
**(Sulu qəlyan)**

Başı iki,
Ağzı bir,
Beldə kəmər,
Doşab əmər.
**(Çəllək)**

Babam məndən nar istədi,
Yuxu bilməz, var istədi.
Sancılmamış çillikdən
Dərilməmiş bar istədi.
**(Övlad)**

Bu dərə meşəlidi,
Germəşöv döşəlidi,
Bir atadan qırx oğul,
Hamısı bir peşəlidi.
**(Arı)**

Bu dərə mərhəmlidi,
Qüdrət dirəhlidi.
Xarrat əli dəyməmiş,
Xırmana gərəklidi.
**(Yel)**

Dağda od-alov gördüm,
Suda Süleyman gördüm,
Duzsuz bişmiş aş gördüm.
**(İldırım, balıq, halva)**

Tut-tut tubulğa,
Tutda bitər tubulğa.
Ağzı Quzey dağına,
Heç açılmaz tubulğa.
**(Qəbir)**



Bir təpədə yeddi dəlik.
**(Ağız, iki qulaq, iki göz, iki burun deşiyi).**

Hacılar haca gedər,
Cəhd edər, gecə gedər.
Bir yumurtanın içində
Qırx-əlli cücə gedər.
**(Nar)**

Bir atım var dərində,
Arpa yeyər sərində.
Gecə gündüz yol gedər,
Yerindədi yerində.
**(Dəyirman)**

Bir otağım var iki ağzı.
**(Burun)**

Çin-çin otaq,
Min bir otaq,
Yüz pilləkan,
Min bir otaq.
**(Kitab)**

İlim-ilim düyməsi,
İlim xatun düyməsi.
Kim onu tapanmasa,
Yüz manat cəriməsi.
**(Lobya)**

Bir evim var,
Bir dirəkli.
**(Göbələk)**

Bir öküzüm var,
Çulunu alanda,
Qabırğaları səyrişir.
**(Dəvə)**

Aşıq-aşıq bişirir,
Yanır, aşı bişirir.
Burda bir hikmət gördüm,
Ayaq başı bişirir.
**(Sünbülün samanı)**

Eləmi qan başı,
Qan-ayağı, qan başı,
Bu gün bir hikmət gördüm,
Üç başı on ayağı.
**(İnək balası, sağıcı)**

Gül heyran bağında,
Gül bitər qırağında.
Yel vurar yelləndirər,
Sırğası qulağında.
**(Gilas)**

Dağdan aşaram mən,
Duman kimi qaçaram mən,
Coşqun bir qazanam mən,
Xodumu az qoy, daşaram mən.
**(Çay)**

Yay gedən leylək,
Huy gedən leylək,
Gecəbə-gündüz,
Yol gedən leylək.
**(Su)**

Körpü altda qaz gedər,
Taqqıldaşar qaz gedər,
Bu qazlarda bir qaz var,
Yeddi il boğaz gedər.
**(Dəvə)**

Atasının beli donqar,
Anası dümbələmdüz,
Bacısı ellər gözəli,
Qardaşı hamıdan dəli.
**(Tənək, budağı, üzüm yarpağı, şərab)**

Dağda dəliman gördüm,
Suda süleyman gördüm.
Şit bitmiş aş gördüm,
Dəli yatmış daş gördüm.
**(Ceyran, balıq, halva, dəyirman)**

Ələmin su deyib ağlar,
Gecə-gündüz durmaz, çağlar.
Dəryada bir gül bitib,
O, hey su deyib ağlar.
**(Ürək)**

Harava gedər, hisi yox,
Ulğuna yanar, közü yox.
**(Çıraq)**

O gedən leyla, bu gedən leyla,
Gündə bir qarış yol gedən leyla.
**(Beşik)**

Şəkidə şəkər, kündə tökər.
**(Toyuq)**

Yil kilim, zincir kilim,
Silkinəndə İrəvana gedər.
**(İldırım)**

Yer künə, yeriməz künə,
Yüz il qalsa çürüməz künə.
**(Ad)**

Burdan vurdum baltanı,
Ordan çıxdı qalxanı.
Anam bir oğlan doğub,
Yerin, göyün sultanı.
**(Ay)**

Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar.
**(Yəhər)**

Biri gedir, biri durur, biri başın silkələyir.
**(Su, daş, camış)**

Başında var budağı,
Ağzında var orağı.
**(Maral)**

Min bir oğul, bir ata,
Hamısı minib bir ata.
**(Qarğıdalı)**

Bir güzgüm var,
Altı-üstü saçaqlı.
**(Göz)**

Şişi ətdən, kababı dəmirdən.
**(Barmaq və üzük)**

Evi gəzər, küncü bəzər.
**(Süpürgə)**

Az gedir, çox gedir,
Bircə qarış yol gedir.
**(Qapı)**

Hacıleyləyim haca gedər,
Yumurtası taca gedər.
Yumurtanın içində,
Yüz iki cücə gedər.
**(Nar)**



Yer altda qızıl qamçı.
**(İlan)**

İlim-ilim düyməsi,
İlim xatın düyməsi.
Hər kəs onu tapmasa,
Yeddi ilin xəstəsi.
**(Üzərlik)**

İki ləyən qapa-qap,
Biri itdi, birin tap.
**(Günəş və Ay)**

O nədir ki, kötüyü göydədir, budağı yerdə?
**(Günəş)**

O nədir ki, gecə-gündüz yol gedər, yorulmaz?
**(Su)**

Qulağını bururam,
Dilini çıxardır.
**(Lampa)**

Əmioğlu, dur gedək,
Bığlarını bur, gedək.
Otuz iki qapıya,
Bir qıfılı vur gedək.
**(Ağız)**

Meşədən çıxdı bir zoğ,
Üç gün onun adı yox.
**(Uşaq)**

İki qoyunqurban qanı yox.
**(Ana döşü)**

İki haça.
**(Qıç)**

Haçanın üstü küpə.
**(Bədən)**

Küpənin üstü təpə.
**(Baş)**

Təpənin üstü meşə.
**(Saç)**

Meşəni donuzlar eşə.
**(Bit)**

Qara köpək qanıda yatar.
**(Qıfıl)**

Bir təndirim var, iki əppək tutar.
**(Qoz)**

Duzsuz bişmiş aş.
**(Halva)**

Göydən düşdü,
Yerə yapışdı.
**(Yağış)**

Səksən səkkiz quş gördüm,
Hamısı bir yuvada.
**(Arı yuvası)**

Gələn leyli, gedən leyli,
Dabanı üstə duran leyli.
**(Qapı)**

Altı ayağı var, iki dabanı.
**(Tərəzi)**

Üç qardaşım var,
Biri suluyur, biri üfürür,
Biri bitirir.

**(Yağış, yel, Günəş)**

Bir kilimim var,
Minbir naxışı.
Yel baba süpürər,
Payızı, qışı.

**(Yer)**

Ağacda var bağırsaq,
Yel babanı çağırsaq,
Ağzın açıb ney çalar,
Süleymanı çalırsaq.

**(Kaman)**

Ayağından aldırmaz,
Ağza yüyən vurdurmaz.

**(Yel)**

Ahanı ha, ahanı,
Gəzər cümlə-cahanı.
Dərələrdə öldürdüm,
Nə əti var, nə qanı.

**(Külək)**

Tərəzidə durmaz, bazarda satılmaz,
Ondan şirin şey olmaz.

**(Yuxu)**

Su aşağı ziy-ziyi,
Su yuxarı diy-diyi.
Nə iliyi var, nə sümüyü.

**(Kəpənək)**

Heşədən ay heşədən,
Gün düşübdü meşədən.
Padşahın beş oğlu var,
Hamısı bir peşədən.

**(Corab iynəsi)**

Əl boyda məzar,
Dünyanı gəzər.

**(Ayaqqabı)**



# X. BAYATILAR (AĞILAR)

Ay azaldı,
Qış gəldi, ayaz aldı.
Könlüm yar sevdasında,
Ömrüm ay azaldı.

Dağ- dağ oldu,
Yağ yandı, dağ-dağ oldu.
Sən yadıma düşəndə,
Ürəyim dağ-dağ oldu.

Buda məni,
Xənjər al, buda məni.
Gör nə günə qalmışam,
Bəyənmir bu da məni.

Kürd qızı nara bənzər,
Qaynar bulağa bənzər.
Kürd qızının qaş-gözü,
Qaynar bulağa bənzər.

Bu dəryadan kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Əzrayıl sinən üstə,
Ürəyindən kim keçdi?

Gedərəm elinizdən.
Qurtullam dilinizdən.
Yaşılbaş ördək ollam,
Uçaram gölünüzdən.

Qızıl üzüyün qaşı,
Yandı bağrımın başı.
Mən deyən yar olmasa,
Yandırram dağı-daşı.

Dağları gəzdim gəldim,
Daşını düzdüm gəldim.
Baxdım viranə kəndə,
Əlimi üzdüm gəldim.

Əziziyəm nə qaldı,
Nə qurtardı, nə qaldı?
Fələk mənim başıma,
Gətirməmiş nə qaldı?

Evləri hasar neylim,
Qəm məni basar neylim?
Özü bir tülək tərlan,
Anası yasar neylim?

Üzüm sarı,
Bağda bitər üzüm sarı.
Tutaydım yar dəstindən,
Çəkəydim özüm sarı.

Qarabağı,
Gənjəni, Qarabağı.
İtirdim tülək tərlan,
Qoynunda qara bağı.

Nərgiz dər,
Bənövşələr, nərgizdər.
Əsrəmiş maya gördüm,
Qoltuğunda nər gizdər.

Sim bağlar,
Aşıq, sazın sim bağlar.
Köhnə yaram qövr eylər,
Təzə yaram sim bağlar.

Sənə dağlar,
Göy geymiş sənə dağlar.
Tutaydım yar dəstindən,
Çıxaydım sənə, dağlar!

Dağlar, maralımı ver,
Səbri-qərarımı ver.
Sağ maral sənin olsun.
Mənim yaralımı ver!

Alı dayı,
Xoş gəldin, Alı dayı.
Könlü bədəy istəyən,
Vaxtında alı, dayı.

Güləzardan,
Yol gedər Güləzərdan.
Xarın ölsün, a bülbül,
Qurtarsın gül azardan.

Tək-tək əli,
Tək evli, tək təkəli.
Qulun dara düşəndə,
Çağırır tək-tək Əli.

Gənjənin gejələri,
Banlaşır beçələri.
Mən nejə yalqız yatım,
Bu uzun gejələri?

Bakı böyük şəhərdir,
At belində yəhərdir.
Gəlir öz yarım gəlsin,
Ürəyim birtəhərdir.

Qızıl iynənin sapı,
Yar yolu bizim qapı.
Yarı mənnən eliyən,
Dilənsin qapı-qapı.

Qızıl iynə qınanmaz,
Bu qədər yar sınanmaz.
Canı qurban eliyəsən,
Yad oğludu, inanmaz.

Aftafanı doldurdum.
Doldurdum , gendə durdum.
Yad oğlundan ötəri,
Gül yanağım soldurdum.

Armud ağajı haça,
Əlim dolaşdı saça.
İgid oğlu istərəm,
Sevdiyin alıb qaça.

Əzizim yar içərdən,
Kəs bağrım, yar içərdən.
Gözüm yollarda qaldı,
Girmədi yar içərdən.

Gənjədən yendim düzə,
Tikan tək batdım dizə.
Dul arvaddan kam aldım,
Həsrət qaldım mən qıza.

Gün getdi sarı qaldı,
Günün əfsəri qaldı.
Gözüm yola dikməkdən,
Gözümdə sarı qaldı.

Mən aşığam, yaxşı din,
Yaxşı məssəb, yaxşı din.
Mərəkədə lal otu,
Dinəndə də yaxşı din.

İrəmələr, ha irəmələr,
İrəlidə kəklik mələr.
Ağ əllər, ağ biləklər,
Dəhnədə qar kürəklər.



Ax-vay dedim, əridim,
Ax-vaydan nə yarıdım?
Qüzeylər qarı kimi,
Gün görmədim, əridim.

El gedər dağa sarı,
Ujadı dağ hasarı.
Havax vaxtım çatanda,
Gedirəm qəbrə sarı.

Mən aşığam, mən kiməm?
Loğman mənəm, həkiməm.
Sərraf götür, bazara,
Qoy görsünlər mən kiməm.

Mən aşığam, ay mədəd,
Ülkər mədəd, ay mədəd.
Dan ulduzu ağladı,
Ayrılıqda, ay mədəd!

Sel-sular axdı getdi,
Daş, qaya yıxdı getdi.
Dünya elə güzgüdü,
Hər gələn baxdı getdi.

Aşıq Əli dadına,
Xalın Əli dadına.
Əli dadına yetəndə,
Məni də sal yadına.

Qazan ağlar,
Od yanar qazan ağlar.
Qərib eldə ölənin,
Qəbrini qazan ağlar.

Salı bağlar,
Dəryalar salı bağlar.
Gözlərim gözlərini,
Yadına salıb ağlar.

Dəryada qaldı,
İşim fəryada qaldı.
Ölməyimdən deyiləm,
Heyif, yar yada qaldı!

Ahular mələr gələr,
Dağları dələr gələr.
Yar yarını istəsə,
Gejəni dələr gələr.

Əzizim o güneylər,
O qüzey, o güneylər.
Yar yarını görəndə,
Bayramı o gün eylər.

Araza saldım teşti,
Dingildəmədi, keçdi.
Anama xəbər verin,
Ağ günüm qara keçdi.

Eləmi düşən yeri,
Aldanıb düşən yeri.
Göz yaşım ataş oldu,
Yandırdı düşən yeri.

Əzizim yaman yara,
Pis yara, yaman yara.
Qorxuram naşı təbib,
Yaramı yaman yara.

Ələk-ələk elədi,
Oxum lələk elədi.
Girdi bülbül bağçama,
Ələk-vələk elədi.

Bu dağlar, Kərəm dağlar.
Gülün yox dərəm, dağlar.
Gözlərəm, sən gəlməsən,
Ürəyim vərəm bağlar.

Aldı bu yara məni,
Gətdi zinhara məni.
Aparın yar yanına,
Bəlkə qurtara məni.

Ajı-qıjılar yarpağı,
Astanalar torpağı.
Hər kim yarı istəmir,
Gözünə bibər yarpağı.

Sandıq üstə səməni,
Oğlan, sevirəm səni.
Bəs sən nejə sevmirsən?
Heç dindirmirsən məni?...

Eləmi Məşəd olsun.
Get, yolun Məşəd olsun!
Səni məndən ayıran,
Nə gülsün, nə şad olsun!

Qarşıda çıraq yanar,
Məndən çox iraq yanar.
Dərdim çoxdu, ay ellər,
Çəkdikjə ürək yanar.

Əzizinəm əvəngəz,
Dağda bitər əvəngəz.
Yadlardan arxa olmaz,
Öz arxana güvən, gəz.

Örən dağlar,
Gülü yox, dərəm dağlar.
Günüm belə keçərsə,
Ürəyim vərəm bağlar.

Lala yalqız,
Gül qoşa, lala yalqız.
Qorxuram, qərib öləm,
Cənazam qala yalqız.

Bulaq ollam, bulannam,
Dağları dörd dolannam.
Əlin əlimə versən,
Sail olub dilənnəm.

Qəribəm bu vətəndə,
Qərib quşlar ötəndə.
Qəribə əsər eylər,
Tənəli söz yetəndə.

Dağların başı qara,
Dibi göy, başı qara.
Bir qız mənə ox vurdu,
Gözü göy, qaşı qara.

Arazın qırağıynan,
Yol gedir qırağıynan.
İtirmişəm yarımı,
Gəzirəm sorağıynan.

Eləmi buroy dağlar,
Başı qar, quroy dağlar.
Yüz il ovçuluq etdim,
Almadım bir oy, dağlar!

Eləmi, haralısan?
Yaman göylü, qaralısan.
Mən səni tanımıram,
De görüm, haralısan?

Əzizim gəmisinə,
Od düşdü zəmisinə.
Heç igidin balası,
Qalmasın əmisinə.

Eləmi yazıq mən,
Qəmdən oldum yazıq mən.
Nə qədər cəfa çəkdim,
Gün görmədim yazıq mən.



Çəpərə çəpər oldu, gəl,
Çəpərə quşlar qondu, gəl.
Dolaxsız gedən oğlan,
Dolax tamam oldu, gəl.

Sandıq üstə səməni,
Oğlan sıxma məməmi.
Sıxarsan, injidərsən,
Oyadaram nənəmi.

Naxçıvanın kişmişi,
Qızların yetişmişi.
Al qoynuna sıxjala,
Mən boğazı şişmişi.

Arazın qırağıynan,
Yol gedir qırağıynan.
İtirmişəm yarımı,
Gəzirəm sorağıynan.

Arı şana, bu şana,
Arı qonmaz bu şana.
İyidin oğlu gərək,
Qızdan olmaz nişana.

O da məni yandırır,
Bu da məni yandırır.
Əlimi atdım oda,
Od da məni yandırır.

Mən aşığam dəmə gəl,
Söhbətə gəl, dəmə gəl.
Dərdi de dərd bilənə,
Dərd bilməzə demə, gəl!

Aşığam , yazmamışam,
Oxuyub, yazmamışam.
Quyu qazan özü düşər,
Mən quyu qazmamışam.

Mən aşığam Daşkəsən,
Kiprik üstə qaşkəsən.
Gəldin dərdim artırdın,
Gəlməyəydin keşkə sən.

Gözlərin yedi məni,
Qurd oldu yedi məni.
Bir nadana sirr verdim,
Aləmə dedi məni.

Kəklik otdar gözə də,
Otdar durar gözədə.
Qurban olum o qaşa,
Onu görən gözə də.

Mən aşıq dalda yeri,
Dalda dur, dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri.

Mən aşığam baxtı kəm,
Bağman tikə, bağ tikəm.
Mən fələyə neylədim,
Fələk mənə baxdı kəm.

Qaladan yendim ancaq,
Başıma qızıl sancaq.
Nə qız oldum nə gəlin,
Odlara yandım anjaq.

Quşlar vətənə gedər,
Oxur, vətənə gedər.
Durram dərdim söyləyəm,
Ellər yatana gedər.

Baxtımı qara yazım,
Ujadı hara yazım?
Dolub sinə dəftərim,
Dərdimi hara yazım?

Mən aşiq gülə-gülə,
Gül əkdim gülə-gülə.
Canımı elə al ki,
Üzümə gülə-gülə.

Arxalığı bir üzdü,
Bir astardı, bir üzdü.
Üzün qoy üzüm üstə,
Görən desin bir üzdü.

Əzizim səndə qalsın,
Yaz dərdim səndə qalsın.
Can cismimdə dayanmaz,
Gəl verim səndə qalsın.

Köynəyin ağa dönsün,
Yuduqca ağa dönsün.
Sən gəl qapımızda dur,
Ürəyim dağa dönsün.

Araza gəmi gəldi,
Sanadım-hamı gəldi.
Evin yıxılsın, fələk,
Ayrılıq dəmi gəldi.

Karvanım gejə keçdi,
Bəzirgan, xoja keçdi.
Mənimki ah-vayınan,
Sizinki nejə keçdi?

Məni bir yağı vurdu,
Dolandı dağı, vurdu.
Nə axşamdı, nə sabah,
Gejənin çağı vurdu.

Çəkməni çəkdir, oğlan,
Boyun gödəkdir oğlan.
Sən gördüyün o dağlar,
Əlvan çiçəkdir, oğlan.

Bajımın bajı dərdi,
Yoxdur ilajı, dərdi.
Getdi şirin məhəbbət,
Qaldı bir ajı dərdi.

Bajı, bajım deyilsən,
Başda tajım deyilsən.
Bu günümdə gəlməsən,
Daha bajım deyilsən.

Haray, ellərim haray,
Fitnə, fellərim, haray!
Bir amansız yel əsdi.
Tökdü güllərim, haray!

Aşıq haradan gedər?
Bayqu haradan gedər?
Uçubdu könül quşu,
Görün haradan gedər.

O, taydakı quşa bax,
Qanadları düşə, bax!
Aləmə gələn yaza,
Mənə gələn qışa bax!

Bulağın başı ala,
Dibinin daşı ala.
Adına dayı deyəm,
Anam qardaşı ola.

Dağlarda gəzən mənəm,
Al geyib bəzənmənəm.
Dilim şad, ürək yara,
Dünyada gəzənmənəm.

Çay mənim, çeşmə mənim,
Çayımnan keşmə, mənim.
Ürəyim yaralıdı,
Yaramı deşmə, mənim.



Əzizim çiskin olmaz,
Qar yağar, çiskin olmaz.
Ağlamayım, neyləyim?
Bundan da pis gün olmaz.

Dağlar duman arzular,
Çaylar çəmən arzular.
Mənim bu sınıq könlüm,
Səni yaman arzular.

Mən neynim, özüm neynim,
Bu dərdə dözüm, neynim?
Ah çəksəm aləm yanar,
Çəkməsəm özüm neynim?

Mən aşiq el başına,
Ceyranı çöl başına.
Mənim başıma gələn,
Gəlməsin el başına.

Yoxuşda enənə bax,
Qaz kimi dönənə bax!
Diləyi hasil olub,
Çırağı yanana bax!

Yaralandım yanımdan,
Quşlar doymaz qanımdan.
Elə bir dərdə düşdüm,
Bezar oldum canımdan.

Ağrım var ürəyimdə,
Yaram var kürəyimdə.
Allah, məni öldürmə,
Arzum var ürəyimdə.

Qəribin səsi gəlməz,
Gülər, həvəsi gəlməz.
Baş yastıqda, göz yolda,
Gözlər, kimsəsi gəlməz.

Əzizinəm bizə gəl,
Çəpərdən keç, düzə gəl.
Əgər mənim olmasan,
Səni yaman gözə gəl.

Əzizinəm Ağdaşdan,
Bir quş gəlir Ağdaşdan.
Qardaş doysa bajıdan,
Bajı doymaz qardaşdan.

Əzizim çəkənə ver,
Qəlyanı çəkənə ver.
Bu dərdi çəkəmmərəm,
Qaldır, bir çəkənə ver.

Əzizim qara gəlsin,
Zülflərin dara gəlsin.
Məni yardan edənin,
Bayramı qara gəlsin.

Əzizim bu dağınan,
Yol gedər bu dağınan.
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

Mən aşiq yeri qalsın,
Yer salsın yeri qalsın.
Yaxşı gözəl sevməsən,
Gözünün yeri qalsın.

Bülbül giribdi bağa,
Qonub güllü budağa.
Sayana qul olginən,
Saymayana ol ağa.

Əzizim kimə gedim?
Kimim var, kimə gedim?
Canım bir dərdə düşüb,
Dərmana kimə gedim?

Mən aşıq qızaranda,
Dan yeri qızaranda.
Qalırsa oğlan qalsın,
Qalmasın qız aranda.

Göydə ulduz san verməz,
Qorxma, yaram qan verməz.
Yardan yaralı könlüm,
Əzrayıla can verməz.

Əzizim alışanda,
Şam yanar alışanda.
Cəsəddə can titrəyir,
Göz gözə alışanda.

Əzizim durma, keç, get,
Dərdimi sorma, keç, get.
Bir saralmış kövşənəm,
Sən də od vurma, keç, get.

Sənəm, yasamı gəldin?
Dabanbasamı gəldin?
Sağlığında gəlmədin,
Öldü, yasamı gəldin?

Mən aşiqəm gələndə,
Axar çaylar gələndə.
Dərd üstümdən azalar,
Yar üzümə güləndə.

Əziziyəm kim saya?
Kim qazana, kim saya?
Ye malın, sür dövranın,
Dünya qalmaz kimsəyə.

Əzizim bağda nə var?
El köçüb, dağda nə var?
Dərirsən dər şamama,
Qurumuş tağda nə var?

Ölürəm, üstümə gəl,
Yanıram, tüstümə gəl.
Əlməüzənnik eləmə,
Ayrılıq istəmə, gəl,

Gedirsən yara deynən,
Telini dara deynən.
Əgər məni soruşsa,
Günümü qara deynən.

Mən aşıq naz, bəri gəl,
Yolunu az, bəri gəl.
Bir öpüş versən mənə,
Dünya qopmaz, bəri gəl.

Mən aşiq asan dağlar,
Qar başı basan dağlar.
Sənə gələnlər gedər,
Sən elə osan, dağlar.

Mən aşığam, nədən var?
Nə söhbət var, nə dəm var.
Dəyirmana getməyə,
Nə ulaq var, nə dən var.

Əzizim dalda gəzər,
Gün gedər, dalda gəzər.
Mərdlər qabağı gözlər,
Namərdlər dalda gəzər.

Əzizim çaldı zalım,
Sazını çaldı zalım.
Götürüb qəm xəncərin,
Sinəmə çaldı zalım.

Mən aşıq qora çin-çin,
Mey çin-çin, qora çin-çin.
Yığdı dünya dərdlərin,
Apardı gora çin-çin.



Əzizim nərdivana,
Ayaq qoy nərdivana.
Zər qədrin zərgər bilər,
Nə bilər hər divana.

Təbriz üstü güneydi,
Şüşələr dolu meydi.
Balamdan kağız gəlib,
Tamam ərzi-gileydi.

Əziziyəm sis günə,
Pərdə tutub pis günə.
Özün öldün qurtardın,
Məni qoydun pis günə.

Mən aşığam nə çarə?
Biçarəyə nə çarə?
Ət qoxudu duz gətir,
Duz qoxudu, nə çarə?

Əziziyəm çiçəkdi,
Gülü ləçək-ləçəkdi.
Şəkidə qız sevmişəm,
Göyçəklərdən göyçəkdi.

Əziziyəm başda dur,
Ayaqda yox, başda dur.
Ağıl ki var satılmır,
Ağıl özü başdadır.

Əzizim sizə düşdü,
Gözlərim gözə düşdü.
Səslədim, səsə gəldim.
Əzrayıl sizə düşdü.

Dediyin demiş olsun,
Yediyin yemiş olsun.
Söykəndiyin qapının,
Yanları gümüş olsun.

Aşıq, bağça-bağ olsun,
Gülləri calaq olsun.
Yarım gələn yollarda,
Ürəyim çıraq olsun.

Mən gələndə qış idi,
Çöllər dolu quş idi.
İstədim namə yazam,
Barmaqlarım üşüdü.

Əziziyəm başdıqnan,
Qoyun gəlir daşdıqnan.
Qardaşa qız seçmişəm,
On min tümən başdıqnan.

Telləri varaq-varaq,
Heyifdi, vurma daraq.
Mən ki səni sevmirəm,
Aləmə salma soraq.

Eləmi, gəlisənmi?
İlqara bəllisənmi?
Cəllad, bıçaq gələndə,
Çağırram, gəlisənmi?

İpək yaylıq ad oldu,
Yırtıldı bərbad oldu.
Sən mənə yar olmadın,
Üstümə bir ad oldun.

Əzizim nədən oldu?
Ayrılıq nədən oldu?
Allah, görən neylədim?
Yar küsüb gedən oldu?

Eyvanında quş mənəm,
«Kiş» desələr uçmanam
Yarım mənə göz eylər,
Mən heç başa düşmənəm.

Əzizim, tən, geri dur,
Dağlara çən, geri dur.
Sənə gələn qadanı,
Mən alım, sən gər dur.

Əzizim başa çalar,
Çalmasın başa çalar.
Yemə namərd çörəyin,
Qaldırıb başa çalar.

Bulaq başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Güllə dəyən oğlanın,
Yarasını qız bağlar.

Dağda maral xoş mələr,
Xoş inildər, xoş mələr.
Mənim ahu-zarımdan,
Dağ inildər, daş mələr.

Haralıyam, haralı,
Bu dağların maralı.
Dost olursan yaxşı ol,
Olmursan, gəz aralı.

Qarabağda dağ olmaz,
Qara salxım ağ olmaz.
Qürbət eldə qalanın,
Ürəyində yağ olmaz.

Aşıq deyər oyan gül,
Oyan bülbül, oyan gül.
Qoy bir üzündən öpüm,
Sən yuxudan oyan gül.

Aşıq der nə bağışlar,
Dost dosta nə bağışlar?
Başım cəllad əlində,
Nə kəsər, nə bağışlar.

Mən aşiqəm ala göz,
Canı məndən ala göz.
Sevgi yükünü çəkən,
Yorularmı ala göz?

Bu dağdan aşmaq olmaz,
Qızıldan başmaq olmaz.
Fələk elə fələkdi.
Əlindən qaçmaq olmaz.

Mən aşiqəm o dalar,
Tikilibdi odalar.
Könül elə kövrəlib,
Bir çınqıldan od alar.

Neyləmişəm, neyliyəm?
Fələkdən gileyliyəm.
Sinəm qəmdən yaralı,
Halım yox dərdim deyəm.

Mən dostdan aralandım,
Oxlarla yaralandım.
Mən gördüm yar üzünü,
Dərdimdən aralandım.

Mən aşıq məzə qala,
Mey qanlı, məzə qala.
Qorxuram nakam öləm,
Eşqimiz təzə qala.

Mən aşiq eldən gələr,
Şirin söz dildən gələr.
Qardaş tapılan deyil,
Ər oğlan eldən gələr.

Mən aşiqəm qalasız,
Şəhər olmaz qalasız.
Qürbətə teylənirəm,
Siz salamat qalasız.



Aşıq deyər nə qaldı?
Nə qovğadı nə qaldı.
Yaxşı, sənə min rəhmət,
Yaman, sənə nə qaldı?

Mən aşiqəm, ağam gəl,
Yanında üzağam, gəl.
Elə dərd vermisən ki,
O dərdə dustağam, gəl.

Mən aşiq yana canım,
Od tutub yana canım.
Özümə nə idim ki,
Sənə də yana canım.

Mən aşiq dağda nə var?
El köçüb, dağda nə var?
Məjnun xəyallı könlüm,
Leylisiz dağda nə var?

Aşıq min aya dəyər,
Min qış, min aya dəyər.
Sənin ikijə qışın,
Bil ki, min aya dəyər.

Mən aşıq sərinə yaz,
Yaz başı sərin ayaz.
Mərdə gələn qadanı,
Namərdin sərinə yaz.

Mən aşiq ay amandı,
Xəbisdən ay amandı.
Namərd mərdi qovlayır,
Qoymayın, ay amandı.

Mən aşiq yerdə məni,
Salmayın dərdə məni.
Namərdə qul olmaram,
Qurban kəs, mərdə məni.

Mən aşiq nərdivana,
Ayaq qoy nərdivana.
Qədrimi hardan bilər?
Hər nadan, hər divana.

Mən aşiq nədə yandı?
De canım nədə yandı?
Nejə sinəm qaladın,
Nə alışdı, nə yandı.

Mən aşiqəm nə yardı
Bu gözəl can nə yardı.
Gözün canım doğradı,
Nə kəsdi nə də yardı.

Mən aşiqəm hər aylar,
Keçdi illər, hər aylar.
Namərddə aman olmaz,
Dilim mərdi haraylar.

Mən aşiq Şirvana yaz,
Burda yaz, Şirvan ayaz.
Yar Şirvanda yurd edib,
Məni də Şirvana yaz.

Mən aşiq qara dağ var,
Muğanda qara dağ var.
Müxənnətin əlindən,
Sinəmdə qara dağ var.

Mən aşiq qara dağlar,
Bürünüb qara dağlar.
Qoy dərdimi söyləsin,
Sinəmdə qara dağlar.

Mən aşiq aylar məni,
Həftələr, aylar məni.
Yüküm dərddən tay vurub,
Yordu bu taylar məni.

Mən aşiq yasdı dağlar,
Çən gəldi basdı dağlar.
Doqquz ay kef-damaxdı,
Üç ayı yasdı dağlar.

Mən aşiq bağda dara,
Aç zülfün bağda dara.
Ay insafsız, üstündə,
Çəkiləm bağda dara.

Mən aşiq qara gözlər,
Baxsana yara, gözlər.
Sinəm üstə tuş olub,
İstəyir yara gözlər.

Mən aşiq hər ayına,
Can verrəm hər ayına.
Dara düşsən bir çağır,
Can gələr harayına.

Aşiq eşqə a dalar,
Dəryada yar adalar.
Namərd qeylü-qal gəzər,
Mərdlər yaxşı ad alar.

Aşiqəm, sənəm sənsiz,
Dözmürəm sənəm, sənsiz.
Bir dərdli ah çəkəndə,
Bilginən mənəm sənsiz.

Mən aşiq sənəm, sənəm,
Çağırram Sənəm, Sənəm!
Dedim dodağın kimin?
Söylədi:- Sən əm, sən əm!

Mən aşiqəm ya Xalıq,
Zər düyməli yaxalıq.
Kişilər süfrə açıb,
Hey göstərə səxalıq.

Dağları gəzdim, gəldim,
Güllərin əzdim, gəldim.
Yarı beyvəfa gördüm,
Əlimi üzdüm, gəldim.

Mən aşiqəm, sar gəzər,
Sar yerində sar gəzər.
Yarı bir gün görməsəm,
Canım canımdan bezər.

Dağları dələrəm mən,
Torpağı ələrəm mən.
Belə ki dərd vermisən,
İnanma gülərəm mən.

Mən aşığam simsarı,
Aşıq sarı, sim sarı.
Yüz il keçsə unutmaz,
Heç simsar heç simsarı.

Mən aşıq gözəl varı,
Sallan gəl gözəlvarı.
Çirkini gözəl eylər,
Dünyanın gözəl varı.

Mən aşıq a çilovlar,
Qəm məni a çilovlar.
Yarın nazik əllərin
İncitmə, a çilovlar.

Mən aşıq aram-aram,
Gəlginən aram-aram.
Sən mənə yaranı vur,
Mən özüm sağalaram.

Mən aşıq yüz ətəklə,
Yaş yanmaz yüz ətəklə.
Namərddə mürvət olmaz,
Yüz yalvar, yüz ətəklə.



Mən aşıq telə bağlı,
Yel vuran telə bağlı.
Sinəmdə öz kilidin,
Qoymusan elə bağlı.

Mən aşiqəm nə yana,
Nə alışa, nə yana.
Bir gəlib söndürsənə,
Qalmışam yana-yana.

Mən aşiqəm nə dedin,
Nə danışdıq, nə dedin.
Əğyar, sənə neylədim,
Məni yardan eylədin?

Qardaş, gəl, gərəyimsən,
Ümidim, dirəyimsən.
Həmi könlüm istəyir,
Həmi gəl, köməyimsən.

Qardaşım birdi mənim,
Gözümə nurdu mənim.
Talehimdən küsərəm,
Talehim kordu mənim.

Mən aşiq gülə-gülə,
Gül əkdim gülə-gülə.
Namərdə bel bağladım,
Ağlatdı gülə-gülə.

Əzizinəm, ay gəlin,
Zülfün üzə yay, gəlin.
Təzə nehrə yığandan,
Göndər mənə pay, gəlin.

Stəkanım yağlıdı,
Əl vurma, dərmanlıdı.
Mənim sevdiyim qızın,
Anası Bozalqanlıdı.

Əzizinəm çəni mən,
Dumanı mən, çəni mən.
Dostuma xoş gün dedim,
Düşmənimə çəni mən.

Əziziyəm qəm qalar,
Qəm üstündə qəm qalar.
Hər yerdə yer quruyar,
Sevən canda nəm qalar.

Əzizim yaza qaldı,
Dağlar üz-üzə qaldı.
Sevgilim yenə küsdü,
Dərdimiz təzə qaldı.

Otağım dərd arxalı,
Tikili dərd arxalı.
Varmı heç mənim kimi?
Qəm yüklü, dərd arxalı.

Qarşımızda vay dərdim,
Vay dərmanım, vay dərdim.
Dərya mürəkkəb olsa,
Yaza bilməz vay dərdim.

Bu yollar bada yollar,
Sirr verməz yada yollar.
Gözüm yollarda qaldı,
Havaxtı vədə, yollar?!

Əzizim keçi gəldi,
Keçinin üçü gəldi.
Darvazanı gen açın,
Atamın köçü gəldi.

Fələk məndə üz gördü,
Meydanımı düz gördü.
Getdi dolandı gəldi,
Məni hey yalqız gördü.

Eləmi var gül bağda,
Gül bağda, bülbül bağda.
Sənsiz dözə bilmərəm,
Xəzan olsa gül bağda.

Fələkdən ay fələkdən,
Qolum çıxıb biləkdən.
Mənim çarxım dönübdü,
Üzü dönmüş fələkdən.

Mən aşiqəm haraylar,
Var çeşmələr, saraylar.
Başım cəllad əlində,
Dilim səni haraylar.

Gözüm o yola tikim,
Sağa yox, sola tikim,
Hansı yoldan gəlirsən?
Gözüm o yola tikim.

Duman dərə başına,
Çiskin bərə başına.
Heç özüm də bilmədim,
Bu iş gələ başıma.

Əzizim, yazığam mən,
Əl vurma, yazığam mən.
Mən ölsəm sənə qurban,
Sən ölmə, yazığam mən.

Enişdən enənə bax!
Dolayı dönənə bax!
Muradına çatmayıb,
Çırağı sönənə bax!

Arxam, hayanım, qardaş,
Harda dayanım, qardaş?
Baş qoyum dizin üstə,
Qoy çıxsın canım, qardaş.

Sözün demə aşkara,
Dərdə tapılmaz çara.
Dindirmə, qan ağlaram,
Ürəyimdə var yara.

Qalmadı azan yerdə,
Qəbrimi qazan yerdə -
Görüm qələmin sınsın,
Yazımı yazan yerdə.

Ay çıxıbdır kənarsız,
Niyə məni qınarsız?
Açıb desəm dərdimi,
Od tutarsız, yanarsız.

Əzizim, qaranı yaz,
Ağ üstən qaranı yaz.
Hər dəftərin başına,
Mən baxtı qaranı yaz.

Bağında gilas dəydi,
Yetişdi, gilas, dəydi.
Əlin qurusun, ovçu,
Atdığın nə rast dəydi.

Göydə ulduz üç keçdi,
Cavan ömrüm puç keçdi.
Fələk bir dərd göndərdi,
Ürəyimdən tuş keçdi.

Getmədin, qaldın fələk,
Xoş günüm aldın, fələk.
Yanar odun içinə,
Məni də saldın, fələk.

Dağlarda gəzən mənəm,
Əhdim var, bəzənmənəm.
Ürəyim yaralıdır,
Bu dərdə dözən mənəm.



Bir quş gəlir Ağdaşdan,
Papağım düşdü başdan.
Bu qız mənə yar olmaz,
Eylər qohum-qardaşdan.

Mən cavanam utancaq,
Başımda vardı sancaq.
Nə qız oldum, nə gəlin,
Odlara yandım ancaq.

Əzizinəm, olmasın,
Heç bir dava olmasın.
Tər açılmış bənövşə,
Yaşıl qalsın, solmasın.

Əziziyəm, yatalar,
Şirin-şirin yatalar.
Oğlu davada olsa,
Heç yatarmı atalar!?

Deməyinki yavadır,
Acı, şirin havadır.
Kəlmələrin içində,
Ən acısı «dava»dır.

Əzizinəm, qoy aşım,
Dərə keçim dağ aşım.
Vətənimdən uzaqda,
Ölüb əziz qardaşım.

Əzizim binə qaldı,
El köçdü, binə qaldı.
Bir də görüşməyimiz,
Qiyamət günə qaldı.

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tülək tərlanım itiv,
Ayağında qara bağ.

Dağlar marala qaldı,
Otlar sarala qaldı.
Göy yaylaq sərin bulaq,
Yanmış marala qaldı.

Qarabağdan gələsən,
Qara salxım dərəsən.
Gözüm yolunda qaldı,
Görüm yolnan gələsən.

Qarabağda quş durmaz,
Yaz əyləşər, qış durmaz.
Küsülüsən, gəl barış,
Mənim dilim dinc durmaz.

Qarabağ küçələri,
Banlayır beçələri.
Mən çağırram yarımı,
Hay verir neçələri.

Çəpərər qərq oldu, gəl,
Quş çəpərə doldu, gəl!
Vəfa verdin, gəlmədin
Vədən tamam oldu, gəl!

Əzizinəm ləkdə var.
Qarpız-yemiş ləkdə var.
Ay cüt gəzən bəxtəvər,
Demirsən ki, tək də var.

Əzizinəm gəl bəri,
Uzaq durma gəl bəri.
Küsmüsən, könlün allam.
Gendə durma, gəl bəri.

Səhəngin götürdü yar.
Gör hayana getdi yar?
Hava bulud, göy çəmən.
Aralıqda itdi yar.

Eləmi qarğamağına,
Qar yağar qar qalağına
Elə mən də neyləyim,
Fələk qarğamağına.

Qızım qızdar ağası,
Başında gül topası.
Qızma elçi göndərir,
Şahların böyük ağası.

Yaylaqda quzu mələr,
Dili yox, gözü mələr.
Gülüm, qırağa düşsən,
Leysanı gözüm ələr.

Dağ başını qar alıb,
Bağçaları bar alıb.
Namərd, alma canımı,
Bir canım var, yar alıb.

Sən mənim ağa dostum,
Gəl gedək bağa, dostum.
Sən duman ol, mən çiskin,
Çökilək dağa, dostum.

Eləmi üzüm yandı,
Tənəkdə üzüm yandı.
Sərt baxışa tuş oldum,
Alışdı üzüm yandı.

Əzizim birdənəsən,
Təkcəsən, bir dənəsən.
Ölsəm də qoy mən ölüm,
Sən ölmə, bir dənəsən.

Əziziyəm yenə yaz,
Bulud olsun yenə yaz.
Qələmin qurbanıyam,
Tez açılsın yenə yaz.

Aşıq, aşın bişdi gəl,
Bişdi yerə düşdü, gəl.
Yaxşı günüm səninlə,
Yaman günüm düşdü, gəl.

Mən aşıq belə bağlar,
Baxçalar, belə bağlar.
Xarav olsun belə il,
Bərbaddır belə bağlar.

Papirosun qəşəngi var,
Çəkməyə qəşəngi var.
Mən dedim sən qəşəngsən,
Səndən də qəşəngi var.

Bu qız kimin qızıdı,
Geydiyi qırmızıdı.
Səhər-səhər çıxanda,
Deyən dan ulduzudu.

Dağ başı qala yeri,
Gəz, dolan, qala yeri.
Yüz candan yanan olsa,
Heç verməz ana yeri.

Əzizinəm düşdüm gəl,
Atdandım gəl, düşdüm gəl,
Gen günümün qardaşı
Yaman günə düşdüm, gəl.

Yaqut Yəməndən gəlir,
Geynib çəməndən gəlir.
Qırmızı tuman, ağ baldır,
Gündə hamamdan gəlir.

Yaqut Yəməni neynir,
Geyinib çəməni neynir.
Qırmızı tuman, ağ baldır
Gündə hamamı neynir?



Eləmi o gün eylər,
Qar yağar, o gün eylər.
Ana balasın görsə,
Bayramın o gün eylər.

Ata mindim köndələn,
Qolum yoxdu, döndərəm.
Yara bir məktub yazdım,
Adam yoxdu, göndərəm.

Allah məni quş eylə,
Budağa qonmuş eylə.
Dar yerdə, dar küçədə,
Yarı mənə tuş eylə.

Əzizim sarı qaldı,
Gün getdi, sarı qaldı.
Qardaş, yol gözləməkdən,
Gözümdə sarı qaldı.

Əzizim yaş olaydım,
Su dəyib yaş olaydım.
Yar naxoş olan yerdə,
Mən ölmüş kaş olaydım.

Almanı qoydun getdin,
Qabığın soydun getdin.
Sinəmə yara vurdun,
Yaramı oydun getdin.

Bu gələn naxırdımı?
Saralan çaxırdımı?
Deyir qardaşım gəlir,
Mənzili yaxındımı?

Gülü əkdim ləyəndə,
Gül boynunu əyəndə,
Qoşa qurban kəsərəm,
Yarım bizə dəyəndə.

Alınca çiçəkdimi,
Çiçəyi göyçəkdimi?
Deyirlər yarım gəlir,
Görəsən gerçəkdimi?

Qərənfiləm, qalxaram,
Qanadlarım çalxaram.
Desələr yarım gəlir,
Xəstə olsam qalxaram.

Əzizinəm yaz gəlsin
Bahar gəlsin, yaz gəlsin.
Ağ kağız da tapmasan,
Yarpaq üstə yaz, gəlsin.

Əzizinəm ayranı,
Yemək olmaz ayranı.
Üzü cənnət görməsin,
Səni məndən ayranı.

Əzizinəm tər-tərə,
Bu yol gedər Tər-tərə.
Qoy üzün üzüm üstə,
Qarışsın qoy tər-tərə.

Heyva könlüm, nar könlüm,
Heyva könlüm, bar könlüm.
Gülməknən işim yoxdu,
Ağlamağa var könlüm.

Əzizim qazan ağlar,
Od vurar, qazan ağlar.
Bel batmaz, külüng kəsməz,
Qəbrini qazan ağlar.

Əzizinəm tər dəysin,
Aç köynəyin yel dəysin.
Qürbətdə kefində ol,
Qoy ananı dərd əysin.

Əzizinəm dərd üzdü,
Ördək göldə dörd üzdü.
Səndən məktub gəlincə,
Ürəyimi dərd üzdü.

Əzizim sənə dağlar,
Yol gedir sənə, dağlar.
Tutaydım yar əlindən,
Çıxaydım sənə, dağlar.

Əzizinəm sim bağlar,
Aşıq sazda sim bağlar.
Köhnə yaram qövr eylər,
Təzə yaram sim bağlar.

Kəklik gördüm boz, ala,
Qaş qaradır, göz ala.
İgid ona demişəm,
Sevdiyini tez ala.

Əzizim sini-sini,
Doldur ver sini-sini.
Mən istərəm oğlumu,
Neynirəm özgəsini.

Arxalığın mən özüm,
Boyunda qalıb gözüm.
Qonşular sənə qurban,
Birinci də mən özüm.

Kəklik daşda durubdu,
Qələm qaşda durubdu.
Yarı çirkin olanın,
Allah başına vurubdu.

Əzizim nazik ağlar,
Geyməyə nazik ağlar,
Ölüm çox ucuzlaşıb
Anam çox nazik ağlar

Arxalığım şaldı, yar
Dərdin məni aldı, yar.
İkimizin sirr sözü,
Qiyamətə qaldı, yar.

Aftafa güm-güm eylər,
Bizim yar sizə neylər?
Əlində mərmər tüfəng,
Dağlara sürgün eylər.

Dağlar başı meşədir,
Qəlbim sınıq şüşədir.
Yarın yara töhfəsi,
Bir dəstə bənövşədir.

Əzizim aşiq gəldi,
Elə yaraşıq gəldi.
Yel vurub sinən açdı,
Gözümə işıq gəldi.

Əzizim bağ çəpəri,
Dolan gəl bağ çəpəri.
Çəpər bağı dolanmır,
Dolanır bağ çəpəri

Əzizim yaza nə qaldı,
Daha yaza nə qaldı?
Əldə qələm neyləsin,
İnsaf yazana qaldı.

Əzizim sağa nə qaldı?
Soldan sağa nə qaldı?
Sahibi ölmüş inək,
İndi sağana qaldı.

Əzizinəm düşəndə,
Atdananda, düşəndə.
Yaxşı günü biləsən,
Yaman günə düşəndə.



Əzizim aralı dağlar,
Həkim yaramı bağlar.
Baxıram vətən görünmür,
Kəsib aranı dağlar.

Əzizinəm güləm mən,
Güləm mən, bülbüləm mən.
Yar üzünü görməsəm,
Çox çətin ki, güləm mən.

Ağ alma, qızıl alma,
Gəl yola düzül, alma.
Mənim də sevgilim var,
Qoy mən də üzüm alma.

Bağçamızda gül varmı?
Gül dibində yol varmı?
Bir gecənin qonağı,
Evinizdə gül varmı?

Bağçamızda gül də var,
Gül dibində yol da var.
Bir gecəlik deyirsən
Min gecəlik yer də var.

Durnalar yazda gələr,
Quzular onda mələr.
Yazın gözəl çağında,
Hicranlı xəstə ölər.

Aşıq gəraylı deyər,
Mizrab simlərə dəyər.
Biri muraz alarsa,
Biri kim-muraz gedər.

Oba-obaya bənzər,
O bağda sürü gəzər.
Biri çiçək açarsa,
Yüzünü quzu əzər.

El-elə olur dayaq,
Hamısın bir-bir sayaq.
Azadlıq olan yerdə,
Nə sərsəm ol nə sayıq.

İnsan-insana bənzər,
Hər kəs tayıyla gəzər.
Tayını tapmayan kəs,
Şirin canından bezər.

Kölgəyə düşəndə gül,
Vurnuxar şeyda bülbül.
Əgər gülün tapmasa,
Bahar gülməz həmin il.

Bu meşə qanlı meşə,
Yarpağı yerə düşə.
Dolana dövranımız,
Keçən gün elə düşə.

Alçalar a alçalar,
Yarpağı yaşıl çalar.
Meydimi daldan aparın,
Düşmən görsə əl çalar.

Dağlarda əkdim əkin,
Aldılar əlimdəkin.
Düşmanın da balası,
Olmasın mənim təkin.

Bostan əkdim xiyarsız,
Cana necə qıyarsız?
Səni yuxumda gördüm,
Oyandım ixtiyarsız.

Eləmi yad eli,
Ya divanə, ya dəli.
Qəbrim od tutar yanar,
Dəysə sənə yad əli.

Kür qırağı ad alar,
Yığılıb bəyzadalar.
Keşkə mənə gələydi,
Sənə gələn qadalar.

Gecələr, il gecələr,
Dərdimi bil gecələr.
Mən burda ağlayaram,
Sən orda gül gecələr.

Gecələr gecə keçdi,
Bilmədim necə keçdi.
Mənimki ah-vay oldu,
Səninki necə keçdi?!

Eləmi ləngəridi,
Qaş gözün ləngəridi.
Çox bilib az danışmaq,
Cavanın ləngəridi.

Əzizinəm gül açar,
Bülbül ötər, gül açar.
Yarı yanımda görsəm,
Gözlərim də dil açar.

Əzizinəm qan axar,
Xəncər batar, qan axar.
Səndən ayrılan gündən,
Ürəyimdən qan axar.

Əzizinəm gül bağa,
Bülbül bağa, gül bağa.
Mən küsmüşəm, gəlmirəm,
Barı özün gəl bağa.

Əzizim dönə-dönə,
Şam yanır sönə-sönə.
Yara qurban oluram,
Yarım da özgəsinə.

Əzizim yara bənddi,
Yar sevən yara bənddi.
Bülbül ağlar, yaş tökər,
Gülüdü, xara bənddi.

Əzizinəm yuxuma,
Bil dərdimi, oxuma.
Axşamdan yatıram ki,
Yarım girsin yuxuma.

Əzizim sinə-sinə,
Gir bağa sinə-sinə.
Mən həsrətdən ölərəm,
Sən baxsan özgəsinə.

Əzizim dəstə-dəstə,
Qızıl gül dəstə-dəstə.
Gül istədim, vermədin,
Gətir qoy sinəm üstə.

Əzizim araz məni,
Kür məni, Araz məni.
Eşqindən alışmışam,
Söndürməz Araz məni.

Əzizinəm mərdanə,
Gəl divanə, mərdanə.
Ya öldür, ya rəhm elə,
Ya qoy olum pərvanə.

Apardın başdan məni,
Uçurtdun daşdan məni.
Fələk, yaman ayırdın,
Qohum-qardaşdan məni.

Gözlərin şuxdu sənin,
Kipriyin oxdu sənin.
Dərdin məni öldürür,
Xəbərin yoxdu sənin.



Ağzımda dadsan, oğul,
Gözümdə odsan, oğul.
Qorxsan yad gülləsinnən,
Mənə də yadsan, oğul.

Göy üzü ilim-ilim,
Yar itdi ilim-ilim.
Kəsin düşmən dilini,
Doğrayın dilim-dilim.

Söz varmış demə səndə,
Demirsən, demə sən də.
Sirrin gözdən oxunur,
Nə fərqi deməsən də?

Ağ üzdən xal umursan,
Baxırsan lal, umursan.
Sancırsan arı kimi,
Dilimnən bal umursan.

İstərdim bir söz açam,
Bir yol salam, iz açam.
Bu namərd gözüm yaşı,
Heç qoydu ki, göz açam?!

Mən aşıq göyəm, yerlər,
Göyərib göyəm yerlər.
Məndən yadigar qalsın,
Əllərim dəyən yerlər.

Əlimə saz verdilər,
Sazıma naz verdilər.
Getdim loğman yanına,
Dərmanı az verdilər.

Ördək, gölə bir də gəl,
Ceyran, çölə bir də gəl.
And verirəm gözlərə,
Bizim elə bir də gəl.

Ceyran, çöldə nəyin var?
Ördək, göldə nəyin var?
Gedirəm başqa yerə,
Sizin yerdə nəyim var?

Ördək, gölə gəlmərəm,
Ceyran, çölə gəlmərəm.
Elə yerə getmişəm,
Sizin elə gəlmərəm.

Ay belə tək-tək doğar,
Gün belə tək-tək doğar.
Sənin kimi oğuldan,
Analar tək-tək doğar.

Əzizim, Kərəm kimi,
Dinərəm Kərəm kimi.
Yarım mənnən ayrılsa,
Yanaram Kərəm kimi.

Eləmi ana yeri,
Qurulub xana yeri.
Yüz qohum yığılsa da,
Heç verməz ana yeri.

Gəncənin gədikləri,
Xurmadı yedikləri.
Yadıma bir-bir düşər,
Yarımın dedikləri.

Sarı simə,
Əl vurma, sarı simə.
Gözlərim qan-yaş tökər,
Toxunsan sarı simə.

Mən aşıq Laçın, Şuşam.
Alınnuş Laçın, Şuşam.
Düşmən tutmuş yurdumu,
İndi yurdsuz qalmışam.

Mən sevirəm bu eli,
Bu el Cəbrayıl eli,
Gözəllərlə məşhurdu,
Gözəl Cəbrayıl eli.

Mən aşiq Qarabağa,
Baxmam qaraya, ağa.
Bir gün igidlər ilə,
Mən sarıllam silaha.

Əzizinəm gün gələr,
Gün gələr üzlər gülər.
Qarabağ alınan günü
Toy-düyünlər düzülər.

Əziziyəm yenə gül,
Yenə bülbül, yenə gül.
Dəryacan qəmin olsa,
Düşmən görsən, yenə gül.

Getdiyim bir il oldu,
Veran bağlar gül oldu.
Getdin ki qayıdacam,
Nə yalançı dil oldu.

Gedirəm qırağnan,
Gül biçdim orağnan.
İtirmişəm vətəni,
Gəzirəm sorağnan.

Ələylər hay ələylər,
Çirməli ağ biləylər.
Allahdan diləylədim,
Hasil oldu diləklər.

Mən aşiq nəzər sala,
Yanaqda bir cüt xala.
Sən yadıma düşəndə,
Düşərəm haldan-hala.

Həsrət əzizlər məni,
İçində gözlər məni.
Sən yanımda deyilsən,
Xəyalın izlər məni.

Əzizim oda gəldi,
Pərvanə oda gəldi.
Qorxurdum bircə dərddən,
Başıma o da gəldi.

Bülbül gülünnən düşər,
İgid elinnən düşər.
Adam dərdə-bəlaya,
Yaman dilinnən düşər.

Tulla daşı aşağı,
Üzük qaşı aşağı.
Dünya namərd dünyası,
Mərdin başı aşağı.

Bülbülə qəfəsdilər,
Külək kimi əsdilər.
Zor ilə nigahımı,
Bir özgəyə kəsdilər.

Sevən aşiq sınanmaz,
Sınansa da qınanmaz.
Çıxdım neçə sınaqdan,
Yenə yarım inanmaz.

Bu quş üstdən bahar yox,
Bitən ağacda bar yox.
Dəyişib qoca dövran,
Sabaha etibar yox.

Ay dünya, bica dünya,
Ucadan uca dünya.
Süleymana qalmayan,
Vəfasız qoca dünya.



Əzizinəm, söz olsun,
Yağı heç,dost yüz olsun.
İgid verdiyi sözdə,
İlqarında düz olsun.

Əzizim düşən yeri,
Atdanıf düşən yeri.
Göz yaşım oda dönüf,
Yandırır düşən yeri.

Əzizim daşa dəydi,
Üzündə qaşa dəydi.
Qolun qırılsın, ovçu,
Ox yenə daşa dəydi.

Əzizim nəyə dəyər,
Gül açar, nəyə dəyər?
Sevdiyin çirkin olsa,
Yediyin nəyə dəyər?

Əzizim gül üstünə,
Meh düşər gül üstünə.
Bülbül yenə qayıdar,
Getsə də gül üstünə.

## AĞILAR

Eləmi ana yeri,
Qurulu xana yeri.
Yüz min loğman yığılsa,
Verməz bir ana yeri.

Qərib öldü, götürün,
Dar küçədən ötürün.
Qəribin vay xəbərin,
Anasına yetirin.

Əziziyəm belə yaz,
Oxu dərsin, belə yaz.
Nə bitsin belə güllər,
Nə açılsın belə yaz!

Mollanın azan yeri,
Oxuyub yazan yeri.
Kor olaydı gözlərim,
Gördüm sən gəzən yeri.

Eləmi bülbül düşər,
Atdanar, bülbül düşər.
Sənnən keçən günlərim,
Yadıma bir-bir düşər.

Eləmi yaralandım,
Ox dəydi, paralandım.
Mən səndən ayrılmazdım,
Güjünən aralandım.

Dəryada sijim gördüm,
Sijimin ujun gördüm.
Gəlirdim yar yanına,
Fələyin güjün gördüm.

Ölürəm, üstümə gəl,
Yanıram, tüstümə gəl.
Sağlığımda gəlmədin,
Qəbrimin üstünə gəl.

Dam üstə yığdım taya,
Yel vurdu, tökdü çaya.
Çəkdiyim zəhmətlərin,
Hamısı getdi zaya.

Enişdən enənə bax,
Dolaydan dönənə bax.
Murazına çatmayıb,
Çırağı sönənə bax!

Arxalıq aldırmışam,
Yaxalıq saldırmışam.
Dərdim artandan bəri,
Ürəyim aldırmışam.

Yaralandım yanımdan,
Quşlar doydu qanımdan.
Canım bir dərdə düşdü,
Bezar oldum canımdan.

Nərgizlər, ay nərgizlər,
Döşdə bitər nərgizlər.
Cavanda nə qaydadı,
Torpaq örtər, yer gizlər.

Əzizim badam olmaz,
Əkməsən badam olmaz.
İstərəm görəm özün,
Şəkildən adam olmaz.



Əziziyəm, ay qardaş,
Qaşın uju yay, qardaş,
Ölsə bajılar ölsün,
Heç deməsin: vay qardaş!

Bir ev tikdim dəyirmi,
Çubuqları iyirmi.
Qoyub hara gedirsən?
Bu ev sənin deyilmi?

Bir bağ saldım bağbansız,
Dəvə gördüm sarvansız.
Fələk bir yara vurdu,
Həkim gördüm dərmansız.

Qaladan endirdilər,
Qara don geydirdilər.
Ölməyə könlüm yoxdu,
Zülmlə öldürdülər.

Qardaşlar, ay qardaşlar,
Yağış kəsər, qar başlar.
Çağırıram hay vermir,
Hayandadı qardaşlar?

Ağajda var ağ alma,
Böyrü çürük ağ alma.
Sənə kimlər qarğadı?
Sən bu dərddən sağalma!

Əziziyəm boyana,
Bağın yönü hayana?
Burda bir oğlan ölüb,
Layla çalın, oyana.

Qəlbim qara qazandı,
Dilim ərzə yazandı.
Fələyə bel bağlama,
Fələk pərgar pozandı.

Duman, dağdan belə gəl,
Belə dolan, belə gəl.
Əzrayıl ova çıxıb,
Səni vurar, belə gəl!

Eləmi hasan dağlar,
Başın qar basan dağlar.
Yetim gülsə zor gülər,
Ağlasa hasan ağlar.

Dağlar başı qarıymış,
Dibi bahram-barıymış.
Şirin dünyanın sonu,
Yaman zəhrimarıymış.

Eləmi qoşa dağlar,
Durub baş-başa dağlar.
Gəldik xəstə görməyə,
Xəstə köçüb, yurd ağlar.

Eləmi qalan qardaş,
Qahmarım qalan qardaş.
Ox dəydi, ucu sındı,
Qəhrimə qalan qardaş.

Fələyi dindirəydim,
Dindirib güldürəydim.
Mənə tale yazanın,
Qələmin sındıraydım.

Bir at mindim köndələn,
Qolum yoxdu döndərəm.
Nə qələm var nə dəftər,
Halımı yazam göndərəm.

Əzizim ağlamaqdan,
Bağa su bağlamaqdan.
Bağda xəzəl qalmadı,
Yarama bağlamaqdan.

Fələyi dindirdilər,
Bilməzin bildirdilər.
Mənə qələm çalanın,
Qələmin sındırdılar.

Ayın tamaşasına,
Günün tamaşasına.
Burda bir oğlan ölüb,
Gəlin tamaşasına!

Dəyirmanın püskünə,
Dən tökərlər püskünə.
Sən özün öldün getdin,
Məni qoydun pis günə.

Tüfəngin lüləsi var,
Silməmişəm pası var.
Burda bir oğlan ölüb,
İllərəcən yası var.

Mən aşıq başdan ağlar,
Kiprikdən, qaşdan ağlar.
Bunun anası olsa,
Durub o başdan ağlar.

Qamışlıq qalın oldu,
Ayağım yalın oldu.
Mən evdən ayrılmazdım,
Ayıran zalım oldu.

Açıq qoy pəncərəni,
Gözüm görsün gələni.
Necə qəbrə qoyarlar?
Qərib yerdə öləni?!

Yaralı, yaran necədir?
Qəmnən aran necədir?
Mənim yaram sağalıb,
Sənin yaran necədir?



# XI. GÜLMƏCƏLƏR

## SORAĞINI NALTÖKƏNNƏN ALMIŞAM

Bir ayrım Gəncədə qonaq qalası olur. Ev yiyəsi süfrəyə çay gətirir. Ayrım ömründə çay deyilən şey görməyibmiş. Gözünün altından çaya tərs-tərs baxır, amma nə oldğunu anlaya bilmir. Soruşmağa da üzü gəlmir. Axırda ayrım canını dişinə tutub stəkanı əlinə alır, birnəfəsə çəkir başına. Tərslikdən çay da yaman qaynarıymış. Dili-ağzı pörşələnir. Ayrım qınağa boğulub heç kəsə heç nə demir. Gecəni yatır, səhər özünə söyə-söyə kəndə qayıdır. Naltökən deyilən yerə çatanda bir də baxır budu ha, qabaqdan bir adam gəlir. Ayrım eşşəyin belində gələn ayrımla tanış çıxır. Əhvallaşandan sonra soruşur:

-Ə, xeyir ola, haana gedeysin?

-Gəncəə.

Gedeysin get, uğuruna xeyir. Bax, Gəncədə hansı öydə qalsan gətirib qabağına bir qırmızı şey qoyajaxlar. Olmaa-bilməə dilinə vurasan. Başın haqqı mənim atamı yandırıb o qırmızı şey.

Eşşəyin belindəki ayrım deyir:

-Əşi, arxayın ol, uşaxsanmı?

Kənddən gələn ayrım axşam tərəfi Gəncəyə çatır. Bu da bir evdə gecələyəsi olur. Yeməkdən qabaq ayrıma bir stəkan çay qoyurlar. Ayrım çaya əyri-əyri baxıb deyir:

-Nə buğlaneysın, haveyi buğlanma! Sorağını Naltökənnən almışam...

## MÜBARƏK OLSUN, AY ABBASƏLİ!

Abbasəli adında bir nökər varıymış. Novruz bayramında ev adamları ilə bərabər buna da təzə çuxa tikdirirlər. Gözü hamının üzündə qalan nökər ha gözləyirsə, çuxasına "mübarək olsun" deyən tapılmır. Çuxanı geyir, bir o başa gedir, bir bu başa. Yenə də heç kəs Abbasəlinin çuxasına tərəf baxmır. Nökər daha dözə bilməyib deyir:

-Mübarək olsun, ay Abbasəli ! Mübarək olsun, ay Abbasəli !

## SEYFƏLİSƏN, KEÇ BAŞA

Şəmkirin Seyfəli kəndində toy imiş. Ev sahibi öz kəndçilərini görən kimi tez süfrənin başında yer göstərir:

-Seyfəlisən, keç başa... Seyfəlisən, keç başa...

Qonşu kənddən gələn qonaqları heç saya salan olmur. Birdən toy meydanının qabağından bir it keçir. Qonaqlardan biri özünü saxlaya bilməyib itə deyir:

-Seyfəlisən, keç başa!

## GÖRMÜŞÜM DƏ, YİMİŞƏM DƏ

Bir ayrım o birisindən soruşur:

-Hamam görüfsənmi?

O biri ayrım forslanır:

Görmüşəm də, yimişəm də.

## BƏS O BİRİ KİMDİ?

Bəy evinə falçı gəlir. Fal açıb deyir:

-Bu evdən iki ölü çıxacaq.

Hamı nökərin üzünə baxır. Nökər özünü o yerə qoymayıb deyir:

-Biri mənəm, bəs o biri kimdi?

## KÜÇÜKDƏN SÜDƏ GETDİ

Ayrım qadın südü ocağa qoyub qonşuya gedir. Qızına da tapşırır ki, südə baxın, birdən küçük südü içər. Qayıdanda qızından soruşur:

-Aaz, aaz, a günüqara, südə baxdınmı?

-Ana, ana, dayımın başı haqqı, küçük başını elə yenicə qazana soxmuşdu. Tutdum elə sıxdım, elə sıxdım küçükdən südə getdi ki, süddən küçüyə getmədi.

## MƏNNƏN BULAMAQDI

Gəncədə Usta Zeynal adında bir kişi varıymış. Bir gün Ziyad xan camaatı Kür qırağında ot biçməyə göndərir. Usta Zeynal da bu camaatın arasındaydı. Nə qədər deyirsə ki, ayağım şişib, mən iş görə bilmərəm, xeyri olmur. Kişini məcbur göndərirlər biçinə. Deyirlər ayağın şişib, qolun ki salamatdır. Kərəntini bulamağa nə var ki?

Hamıya vər bölünür. Ustaya da bir vər düşür. Kərəntini bir çalır, iki çalır, bir də baxıb görürlər ki, usta heç yerindən tərpənmir, eləcə



kərəntini bulayır. Deyirlər:

Ay usta, bu nə işdi, camaat vəri başa vurub, amma sən hələ yerində sayırsan.

Usta Zeynal halını pozmayıb deyir:

-Əşi, bəs mən sizə demədimmi ki, ayağım şişib. Mənnən bulamaqdı.

## HEÇ YANA QAÇAN DEYİL

Gecə yarı bir ayrımın evinə oğru giribmiş. Ayrım sərvaxt yatıbmış. Ona görə də tez oyanır. Ayağa qalxıb bir kəndir tapır, başlayır qarabaqara oğrunu izləməyə. Fürsət tapan kimi oğrunun üstünə atılaraq onun ayaqlarını bağlayır, amma nədənsə əllərini bağlamağı unudur. Ayrım baxıb görür ki, oğru elə öz kəndçiləriymiş. Oğru ayrıma çox əzab veribmiş. Odur ki, ayrım öz-özünə fikirləşir: "Bu köpəyoğlunun başına oyun açmalıyam". Tez oğrunu evdə qoyub milis idarəsinə qaçır. Əhvalatı olduğu kimi danışır. Milis işçisi soruşur:

-Bəs oğru hanı?

Ayrım deyir:

-Oğrunu evdə qoyub gəlmişəm.

-Ə, bəs demirsənmi oğru pəncərədən düşüb qaçar?

-Əşi, heç yana qaçası döyül. Ayaxlarını bərk-bərk bağlıyıf da gəlmişim.

-Bə əllərini?

Ayrım iki əlli başına qapaz vurur:

-Vay dədəm, vay. Əllərini bağlamax heç yadıma da tüşmüyüf.

-Paho, indiyə qədər oğrumu qalar? Yəqin ki, çoxdan ayaqlarını açıf qaçmış olar.

Ayrım arxayınca deyir:

-Bileysəmmi oğru bizim kəndçidi. Mənim ağlımdan çıxan şey onun yadına tüşməz.

## BU DA MƏNİM BAXTIMDANDIR

Bir kişinin iki oğlu varıymış. Günlərin bir günü böyük oğul evlənir. Ertəsi gün arvadına deyir ki, aftafa-ləyən gətir, ayağımı yu. Gəlin ərinin tapşırığını canla-başla yerinə yetirir. Əri çıxıb işə gedir. Qaynı tez o biri otaqdan çıxıb deyir:

-Az, atafa-ləyən gəlir, mənim də ayağımı yu!

Bunu eşidən gəlin bərk dəyərrənir. Oğlan görür ki, gəlin onun ayağını yumaq istəmir, gəlinə gözağartması verir:

-Az, eşitmirsən? Karsan? Sənə demirəm gəl ayağımı yu!

Gəlinin hirsindən gözləri dolur. Tez özünü verir qayınatası olan otağa. Kişiyə deyir:

-Mən gedirəm dədəm evinə. Bu nədir, mən bilmirəm kimin arvadıyam? Ərim də deyir gəl ayağımı yu, qaynım da. Mən belə yerdə qala bilmərəm.

Qayınata şalvarının çirmələnmiş balağını düzəldə-düzəldə deyir:

-Get, a bala, get. Nə deyirəm ki! Bu da mənim baxtımnandı. Mən bilirdim ki, növbə mana çatanda belə olajaq.

## ŞOFER ÖLÜB

Qol saatının təzə çıxdığı vaxtlarda ayrım kəndlərinin birində bir ayrım öz arvadına saat alıbmış. Bir gün arvad ərinə deyir:

-Ay kişi, aldığın saat yerimir. Yəqin təkərləri xarab olub.

Kişi deyir:

-Bu saat baxaram, görüm niyə işləmir.

Kişi saatı açır. Baxıb görür ki, saatın içində bir dənə milçək ölüb. Tez üzünü arvadına tutub deyir:

-Ay arvad, sən demə şofer ölübmüş, ona görə saat yerimirmiş.

## SULU QURAN

Bir kişi yatırmış. Birdən dədəsi gəlir girir yuxusuna. Dədəsi deyir ki, a bala, neçə illərdi ölmüşəm, amma sən hələ də mənə Qur'an oxutdurmamısan. Səhər tövlədəki dananı apar ver Balçılı mollasına, qoy mənə bir Qur'an oxusun.

Kişi yuxudan sərsəm oyandı. Səhər lap o başdan durub özünü verdi tövləyə. Tövlədə onun var-yox bircə danası varıydı. Dananın çatısından yapışıb çölə çıxartdı. Elə bu vaxt arvad səs eşidib pəncərədən çölə baxdı. Gördü ki, kişi dananı dəhmərləyib harasa aparır. Tez kişinin yanına gəldi:

-A kişi, dananı hara aparırsan?

-Balçılı mollasına.

-Sən nə danışırsan, ay kişi, havalanıbsan nədi?



-Allah özü xeyirə döndərsin, arvad, dədəm rəhmətlik bu gecə yuxuma girmişdi. Dedi ki, niyə indiyə qədər mənə bir Qur'an oxutdurmamısan. Sonra da dedi ki, tövlədəki dananı apar ver Balçılı mollasına, qoy mənə bir Qur'an oxusun. Hə, arvad, indi mən o rəhmətliyin sözünə əməl eləməsəm, o dünyada inkir-minkirlər əl çəkməzlər yaxasından.

Arvadın əli ağzında qaldı. Ağ-bir, qara-iki, heç nə deyə bilmədi. Kişi dananı yedəyinə salıb Balçılı kəndinə tərəf üz tutdu. Xeyli gedəndən sonra bir irəməliyə rast gəldi. Burada da, Allah göstərməsin, ilan mələyirdi. Kişi bir az da gedəndən sonra qabağına tanımadığı bir adam çıxdı. Onlar yaxınlaşıb bir-birlərinə xeyli tamaşa elədilər. Axırda naməlum adam dilləndi:

-Yolçu qardaş, uğur olsun, hara belə?

Kişi əhvalatı bu adama da danışdı. Namə'lum adam dərhal hiyləgərcəsinə dananı süzdü, köksünü ötürüb dedi:

-Eh, qardaş, belə baxıram, ürəyim yanır sənə. Vallah, havayı yerə zəhmət çəkib o dananı uzaq bir yerə aparırsan. Allah özü səninkini yetirib. Bax, mən özüm mollayam, özü də əsl molla. Dərsimi də Kərbəlada almışam.

Naməlum adam o qədər dilə basdı ki, dana yiyəsi lap inandı. Yazıq başladı yalvarmağa:

-Allah köçənlərinə rəhmət eləsin, a molla əmi. Allah səni Tur dağına döndərsin. Balçılı çox uzaqdır. Bəlkə məni bu əziyyətdən qurtarasan, elə özün oxuyasan Quranı dədəmə. Həm də ölü üçün nə fərqi var ki, o molla olmasın, bu molla olsun. Təki Quran oxunsun.

Naməlum adam gördü ki, qabağındakının lap boş damarını tutub, bir az da basıb-bağladı:

-Əşi, əlbəttə, ölüdən ötrü nə təfavütü? O molla olmasın, mən molla olum. Quran özü də belə yazır. Hələ öz aramızdır, sənin dediyin o mollanın elə fırıldaqları var ha, eşitsən tüstün təpəndən çıxar. Hə, o köhnə lotulardandır. Gündə bir dəfə möhkəm vurmasa, dili söz tutmur. Əstəğfürüllah, əstəğfürüllah! Allah, sən özün saxla! Allah, sən özün kafirin bəlasını ver! Amma mən... hə, o ki qaldı mənə, biz elə nəsillikcən imam övladıyıq. Allaha qurban olum, Allah buyurmayannan işimiz yoxdur.

Dana yiyəsi qabağındakı adamın lap xalis molla olduğunu yəqin elədi. Başladı kişiyə bir də yalvarmağa:

-Molla əmi, oxuduğuna qurban olum, sən Allah, məni dağa-daşa

salma. Al bu dananı dədəmə bir yaxşı Quran oxu, qoy kişinin ruhu şad olsun.

"Molla" elə bu sözə bəndiydi. O saat dananın çatısını kişinin əlindən alıb bağladı öz belinə. Üzünü ona tutub dedi:

-A kişi, sən bax o daşın üstündəcə otur, mən bu saat dədənə bir yaxşı Quran oxuyum.

Kişi bir tərəfdə oturub mollanın hərəkətlərinə tamaşa eləməyə başladı. Gördü ki, molla əyilib bir ovuc qum götürdü, ovucunda ovxaladı, sonra da qumu gah üz-gözünə sürtdü, gah da başına tökdü. Qərəz, molla yüz oyundan çıxdı. Amma dana yiyəsi fikirləşdi ki, a balam, bu qum-zad nəyiydi kişi üz-gözünə sürtdü. Mən biləsi molla Quran oxumamışdan əvvəl dəstəmaz almalıdır, suynan əl-üzünü, ayaqlarını təmiz-təmiz yumalıdır. Ondan sonra Quran oxumalıdır.

Molla bir azdan üz-gözünü təmizləyib dedi:

-Allah atana rəhmət eləsin, qardaş. Dədənə yaxşı bir Quran oxudum. Di sana yaxşı yol, mən getdim.

Molla bunu deyib dananı qabağına qatdı. Dana yiyəsi tez dilləndi:

-A kişi, bir dayan görüm, soruşmaq ayıb olmasın, bu nə cür Quran oxumağıydı? Görmüşük ki, molla Quran oxumamışdan qabaq dəstəmaz alar, suynan əl-üzünü, ayaqlarını təmiz-təmiz yuyar, Ondan sonra Quran oxuyar.

"Molla" dana yiyəsinin avam olduğuna tam inandığı üçün onun sözünü azdırdı:

-Bıy.hə, sən sulu Quran deyirsən? Əşi, sulu Quranı oxumağa nə var ki, onu uşaq da oxuyar. Mən zəhmət çəkib sənin dədənə quru Quran oxudum. Əslində sən mənə bir dana yox, ikisini verməlisən. Eybi yoxdur, borc olsun.

Dana yiyəsi mollanın bu sözünə inanıb əli-ayağı boş, kor-peşman geri qayıtdı.

## SADIQ KİŞİNİN İNƏYİ

Deyir Sadıq adında bir kişinin qoca bir inəyi var imiş. Kişi hər bazar günü bu inəyi qabağına qatıb satmağa aparırmış. Bazara çatan kimi müştərilər tökülüb gəlirmişlər, hərə bir yannan inəyin yaşını soruşurmuşlar. Kişi də inəyin yaşını demək istəmirmiş. Hər dəfə də müştərilər inəyin ağzını açıb dişlərinə baxır "yox, qocadır" – deyib aralaşırlar. Bu hadisə hər bazar günü təkrar olunur. Axırda Sadıq kişi



bezib ta bazara çıxmaq istəmir. İnək isə hər bazar günü tövlədən çıxıb təkbaşına bazara qaçır, adam gördükcə ağzını açıb dişlərini göstərir.

## "KİŞİLİK" NAMİNƏ

Gəncədə Məcid, Hüseyn adında iki içki düşkünü varmış. Onlar bir-birilə möhkəm dost imişlər. Bu iki dostun qəribə bir şakəri var imiş. Şəhərə çıxar, bütün yeməkxanalara girib hərəsində əlli qram araq içərmişlər. Bir gün necə olursa Məcid Hüseynə deyir:

-Qardaş, gəl bir kişiliyimizi sınayaq, bu gün içməyək. Elecə yeməkxanaların qabağından keçək. Amma içməyək. Görək nəfsimizi saxlaya bilirikmi? Görək kişi kimi sözümüzün üstündə dura bilərikmi?

Hüseyn dostunun bu təklifi ilə razılaşır. Onlar belə də edirlər, yeməkxanaların hamısının qabağından keçirlər. Amma içəri girmirlər. Lap sonuncu yeməkxananın qabağında dayanırlar. Məcid deyir:

-Qardaş, biz doğrudan da kişiyik. Sözümüzün üstündə də kişi kimi durduq. İndi gəl bu sonuncu yeməkxanaya girək, kişiliyimizin sağlığına bir vuraq.

## QALANINI DA TALAN ELİYƏJƏKLƏR

Tovuzda Şərif adında bir kişi varıymış. Deyir bu kişi öz məhləsində qarğıdalı əkibmiş. Qarğıdalı sütül olan vaxtı dirriyə zığzığ dadanır. Nə illah eləyirlərsə, zığzığın ayağını qarğıdalılıqdan kəsə bilmirlər. Axırı bir gün Şərif kişinin oğlu zığzığın birini vurub qarğıdalıdan asır ki, o biri zığzığlara da dərs olsun. Bunu görən Şərif kişi tez oğlunu yanına çağırıb deyir:

-Ə, a bala, yeri o zığzığın leşini aç, oyzə tulla! Yoxsa yas yerinə gələn zığzığlar qarğıdalının qalanını da talan eliyəjəklər.

## SÖVDƏLƏŞMƏ

Deyir bir kişi öz oğluna tapşırır ki, a bala, get şəhərdən bir usta tap gətir, qoy bu ev-eşiyin uçub-tökülən yerlərini qaydaya salsın. Oğul "baş üstə" deyib tərpənir şəhərə. Bir azdan qayıdıb gəlir. Atası soruşur ki, ə, a bala, noldu, usta tapdınmı? Oğul deyir ki, hə, ay də-

də, tapdım. Atası soruşur:

-Hə, indi mənə de görüm nətəri danışdın ustaynan, nətəri sövdələşdin? Oğlu da qayıdır:

-Ay dodə, sövdamız belə oldu: bizdə işləyəcək, gedib öz evində yeyəcək.

Atası oğlunu danlayır:

-Yox, oğul, yaxşı danışmayıbsan. Sən gərək belə danışaydın, bizim də yeməyimiz ondan olaydı.

## ÜÇ KİŞİNİN SÖHBƏTİ

Üç kişi söhbət eliyirmiş. Söybət arvaddardan tüşübmüş. Kişilərdən biri deyir:

-Mənim arvadımın adı Maraldır.

O biri kişi deyir:

-Mənim arvadımınsa adı Ceyrandır.

Üçüncü kişi deyir:

-Vallah, heyvan olmağına mənim arvadım da heyvandır. Amma nə cür heyvan olduğunu hələ heç özüm də bilmirəm.

## O, MƏNİM KÖYNƏYİM OLACAQ

Bir dəfə bir ayrım bazara kartof gətirir. Satıb qurtarır. Sonra fikirləşir ki, bəs indi neyləsin? Bu qərara gəlir ki, şəhəri gəzib-dolaşsın. Bir hamamın qabağından keçəndə ayaq saxlayır. Ağzını ayırıb hamama tamaşa eləyir. Öz-özünə deyir ki, görəsən, bu nədir belə? Bir adamdan buranın nə olduğunu soruşur. Həmin adam deyir ki, bura hamamdı. Ayrım soruşur ki, bəs hamam nədir? Ona hamamın nə olduğunu başa salırlar. Biletin qiymətini deyirlər. Ayrım fikirləşir ki, cəhənnəm olsun, bir abbasıdan keçsin. Hamama girsin, çimib gözəlləşsin. Bilet alıb hamama girir. Hamamda bir nəfər ona yaxınlaşıb soruşur:

-Qardaş, sənə camadar lazımdır?

Ayrım qayıdır:

-Camadar nədir?

Həmin adam camadarın nə olduğunu başa salır. Ayrım razılaşır. Camadar ayrımın belini kisələməyə başlayır. Yarım saatdan sonra camadar ayrıma deyir:



-Qardaş, belində nəsə bir şey ağarır.

Ayrım sevincək deyir:

-Ə, Allahsız, o mənim köynəyim olajax. Mən də neçə ildir onu axtarerım.

## MƏN QAÇAQ OLAN İLİ

Yatmaqdan yanı ağrıyan, durmaqdan beli quruyan bir kişi arvadının təhnizindən bezar olub bir gün ayağa qalxır ki, a kişinin qızı, nə qaralamısan məni, nə əfəl yerinə qoymusan mən yazığı? İndi ki, belə oldu, lap gedib qaçaqlıq eləyəcəm. Bəri elə o tüfəngi, bir-iki günlük də ayınnan-oyunnan yığ torbaya. Çəkiləcəm dağlara.

Arvad peşman olub özünü möhkəm danlayır. Ürəyində deyir ki, yenə hər nədi, quru qaraltıdı damın altında.Yenə nə qədər olmasa balalarımın pənahıdı. Dilim qurusun, kişini nahaq didəgin saldım yurdundan-yuvasından. Qaçaq-quldur ki, var bir çiynində Əzrayıl oturur, bir çiynində divan-dərə. Bəs necə eləyim ki, kişini yola gətirim, inadından döndərim. Arvad çox yalvarır, kişi az eşidir. Yaraqlanıb-yasaqlanıb çıxır evdən. Bir səfalı dağ başında özünə məskən seçir. Gəliş-gedişdi bir cığırda uzanır. Acanda yeyir, susayanda su içir. Axşam olur, səhər açılır. Üç-dörd gündən sonra kişinin azuqəsi tükənir. Torpağın nəmişliyi çökür canına. Daha duruş gətirə bilməyib qayıdır evinə.

-Əşi, cəhənnəm olsun, atdım qaçaqlığın daşını! Mən bacaran iş deyil,-deyib yenə kürkünü sərir öz daxmasına.

O vaxtdan sonra harda söz düşsə, bir əhvalat danışmaq istəyəndə belə başdıyır: "O ili mən qaçaq olanda", "mən qaçaq olan ili".

## OYÇU QULU

Kəlbəcərdə Qulu adlı bir oyçu varıymış. Oydan gələndə heç nə gətirməzmiş, amma hər dəfə də deyərmiş ki, ayını belə oyladım, canavarı belə vurdum, pələngi belə yaraladım. Bağ belə, bostan belə.

Bir gün camaat belə qərara gəlir ki, Quluya bir şahid qoşaq, görək indi nə vurajaq, həm də görək dedikləri doğrudur, yoxsa yalan? Onlar Quluya bir nəfər qoşurlar. Qulu yanındakı adamla Petuqulu dərəsinə gedir. Birdən kolluxdan qavan çıxıf qaçır. Oyçu Qulu tez qavanın arxasınca bir güllə atır. Qavan gözdən itir. Oyçu Qulu deyir:

-Qavanı yaraladım.
Yanındakı adam deyir:
-Ay Qulu, dəymədi, dəysəydi yıxılardı axı!
Qulu deyir:
-Yox, dəydi! İnanmırsan gedək göstərim.
Gəlirlər qavan qaçan kolun yanına. Payızın son ayı olduğundan yarpaxlar qızarmışdı. Qulu yerdən bir qırmızı yarpaq götürüb deyir:
-Görürsən, qanı yerə tökülüb.
Yanındakı adam deyir:
-Qardaş, bu qan döyül, yarpağın öz rəngidi.
-Ayə, qandır.
-Yox, qan döyül.
Qulu əl atır belindəki xançalın dəstəsinə. Yanındakı adama qan-nı-qannı baxıb deyir:
-Ayə, sana deyirəm qandır.
Şahad qorxur. Deyir:
-Bəli, qandı, Qulu, qandı.
Axşam kəndə qayıdanda camaat yığışır onların başına. Soruşurlar:
Ayə, oyçu Qulu, nə vurdun?
Oyçu Qulu deyir:
-Bir yekə qavanı yaraladım.
Hamı Şahadın üzünə baxır. Şahad deyir:
Vallah, Petiqulunun dərəsi,
Oyçu Qulunun qəməsi,
Elə qandı ki, qandı...

## QOY YERDƏ ÖLSÜN

Bir kişi ot tayası yığırdı. Çox işlədi, axırda yorulub tayanın başında ja yatdı. Şər qarışanda biçinçinin yoldaşları baxıf gördülər ki, bu kişi yoxdur. Çox axtardılar, amma kişidən bir xəvər-ətər çıxmadı ki, çıxmadı. Kişi özü səs-küyə oyandı. Tez səsini çıxartdı, yoldaşları onu görüb yaxına gəldilər. Ona "aşağı düş, gedək"-dedilər. Kişi tayanın üstünnən atılıf yerə tüşmək istədi. Amma yuxarıdan aşağı baxanda gözdəri qaraldı. Gördü taya o qədər hündürdü kü, burdan düşmək müşkül işdir. Axırı dilə gəlib yoldaşlarına dedi:
-A kişilər, vallah, mən burdan düşə bilmərəm. Tüşsəm tikə-tikə olaram.



Biçinçilər tez yığılıf fikirrəşdilər ki, kişini tayanın başından nətəri düşürtsünnər. Çox götür-qoy elədilər. Amma bir əlac tapa bilmədilər. Elə bu vaxt ağıldan səyin biri dedi:
-Sizin işiniz yoxdur, onu tüşürtmək mənim boynuma.
Hamı mat-məətəl qaldı. Düşündülər ki, bu ağıldan kəmin biridir, nətəri oldu ki, bizim ağlımıza gəlməyən bunun ağlına gəldi. Nəysə, razılaşıf ona dedilər:
-Dəlidən doğru xəvər. Gəl tüşürt görək, necə tüşürdürsən?
Ağıldan səy tələb etdi ki, ona uzun bir kəndir versinlər. Kəndiri gətirdilər. O, tez kəndiri tolazlayıb tayanın üstünə atdı. Tayanın üstündəki kişiyə dedi:
-Ey, kəndirdən bərk yapış!
Sonra üzünü camahata tərəf çöyürüf dedi:
-Ay kişilər, yaxın gəlin, hamınız bu kəndirdən yapışın!
Mən işarə verən kimi kəndiri dartarsınız.
Hamı kəndirdən yapışdı. Birdən onlar ağıldan səyin işarəsi ilə kəndiri dartdılar. Dartan kimi tayanın üstündəki kişi bir parça ət təki yerə düşüb şil-küt oldu. Kişini qan apardı. Yaxınlaşıb gördülər ki, kişi ölüb. Ağıldan səyi ortaya çəkib yaxasıdan yapışdılar. Soruşdular:
-Ə, səy oğlu, səy, bu nə işiydi başımıza gətirdin?
Ağıldan səy cavab verdi:
-Ə, bəs nətəri olsun deyirsiniz? Yanı deyirsinizə ki, dağdan ağır kişi tayanın başında ölüf qurda-quşa yem olsun? Qoy hazır yerdə ölsün də!

## KAMAL KİŞİNİN YALANI

Kamal adlı bir kişi bazardan gəlirmiş. Yolda tanışlarına rast gəlir. Ondan soruşurlar ki, bazarda nə var, nə yox? Kamal kişi deyir:
-Sizin canınız üçün bazarda bir toyuq satırdılar, toyuq nə toyuq, az qala dəvə boyda.
Tanışları tez dillənirlər:
-Kamal kişi, bir az aşağı en.
Kamal kişi:
-Ay canım, dəvə boyda olmasa da at boyda varıydı.
Tanışları yenə etiraz edirdilər:
-Kamal kişi, bir az da en.
Bir dana boyda olardı.

-Kamal kişi, bir az da en.
-Bir qoyun boyda olardı.
-Kamal kişi, bir az da en.
-Bir quzu boyda olardı.
-Kamal kişi, bir az da en.
-Bir xoruz boyda olardı.
-Kamal kişi, bir az da en.
Kamal kişi pərt olur, özünü saxlaya bilməyib deyir:
-Əşi, ta hansı kopayoğludur bundan da aşağı enən.

## QATIR, CANAVAR, TÜLKÜ

Bir gün qatır, canavar bir də tülkü "dostlaşıb" göy çəmənlikdə söhbət eliyirdilər. Günortaya az qalmışdı. Onlar bərk acsalar da özlərinə yem tapa bilmirdilər ki, bilmirdilər. "Dostlar" çarəsiz qalıf bir-birlərinə hiylə işlətməyə başladılar.

Tülkü dedi:

-Mənim başıma ağıllı bir fikir gəlib. Gəlin belə eləyək, hərə öz yaşını desin, kim cavan olsa, onu yeyək.

Canavar o saat tülkünün bu təklifi ilə razılaşdı. Qatır isə susub durdu. Axı, o canavarnan tülkünü nətəri yeyə bilərdi?! O, tülkünün hiyləsini dərhal başa düşdü, amma üstünü vurmadı.

Tülkü canavara dedi:

-Hə, canavar qardaş, de görək sənin neçə yaşın var?

Canavar bir xeylax fikirrəşənnən sonra dedi:

-Mənim rəhmətdik atam həmişə deyirdi ki, mən dünya bina olunandan cəmi bir-iki il sonra dünyaya gəlmişəm. Hə, mən çox yaşdıyam.

Tülkü dedi:

-Mənim rəhmətdik atam isə deyirdi ki, mən anadan olanda dünya hələ bina olunmamışdı. Görürsən, canavar qardaş, mən sənnən də yaşdıyam.

Novat qatıra yetişdi. Amma o dinmirdi. Canavar dedi:

-Hə, qatır qardaş, dillən görək sən ha vaxt anadan olmusan?

Qatır asta səsnən dedi:

-Vallah, doğrusu mən nə vaxt anadan olduğunu bilmirəm.

Amma onu bilirəm ki, mənim rəhmətdik atam çox savatdı idi. O mənim təvəllüd tariximi dal ayağımın altındakı nala yazdırıf. Əyər oxuya bilirsinizsə, buyurun baxın.

Canavar tez qavağa yeridi:

-Əşi, rəhmətdik atam mana oxumaq öyrədif. Qoy mən oxuyum.

Canavar dodağını yalıya-yalıya qatıra yaxınnaşdı. Qatır dal əyağını yuxarı qaldırdı. Canavar diqqətnən onun nalına baxdı. Elə bu vaxt qatır var güjüynən canavarın ağzına elə bir təpik vurdu ku, canavar qanına qəltan oluf yerə sərildi. Bununla da ürəyi soyumayan qatır canavarı əyaqları altına alıb ölənə qədər təpiklədi. İşi belə görən tülkü cəld sürüşüf aradan çıxdı. Bir azdan özünə təsəlli verməyə başladı:

-Nə yaxşı ki, rəhmətdik atam mana oxumax örgətmiyif. Yoxsa mən də canavarın gününə düşərdim.

## TASA-PASAN YATDIMI?

Dağ kəntdərinin birində qız axşamdan atasına deyir ki, ata, yaman istidir, tasalanmışam, istiyirəm ki, bu gejə eşikdə yatım.

Atası razı olur. Sən demə, qız öz gözaltısınnan him-cim eliyifmiş ki, gejə oğlan gəlif onu qaçırtsın. Nəysə, qız açıq eyvanda yatası olur. Gejə oğlan gəlif onu aparır. Savax qızın atası yuxudan oyanıf görür kü, qız yoxdur, qoşulub qaşdığını başa düşür.

Bu əhvalatdan bir neçə gün sonra kişi ot piçirmiş. Bir də görür ki, yolnan bir at gəlir. Atın üstündə cavan bir oğlan, onun da tərkində kişinin qızı. Atlı gəlib kişinin yanına çatanda o, özünü saxlaya bilməyib qızına deyir:

-A bala, çox deyirdin ki, tasalanmışam, noldu tasa-pasan yatdımı?

## KİMDİR ELƏ XIRDALIĞA BAŞ QOŞAN?

Bir oğlan özünü öyürmüş ki, rus dilində sərbəst danışıram.Bunu eşidənlərdən biri ondan soruşur:

Rus dilində dəvəyə nə deyirlər?

Tez cavab verir:

-Biz hələ böyük məsələləri öyrənməmişik.

Bir başqası isə soruşur:

-Yaxşı, onda de görək bəs qarışqaya rus dilində nə deyirlər?

Bu dəfə də özünü o yerə qoymayıb cavab verir:

-Əşi, kimdir elə xırda şeylərə baş qoşan?

## BİR AZ DA PİYADA GEDƏK

İki ayrım eşidir ki, qatar deyilən bir şey peydah olub. Minirsən, səni hara istəsən aparır. Bu maraxnan da onlar Gəncəyə gəlirlər, buradan da Bakıya getmək fikrinə düşürlər. Görürlər ki, iki qoşa dəmir xətt uzanıb gedir. Onlara elə gəlir ki, qatar deyilən şey elə budur. Deyirlər ki, gəl minək qatara, gedək Bakıya. Hərəsi bir relsin üstünə çıxır, başdıyıllar getməyə. Gethaget, gethaget bir xeyli gedəndən sonra bərk yorulurlar. Ayrımın biri o birinə deyir:

-Əşi, bəsdir qatarnan getdiyimiz, gəl tüşək bir az da piyada gedək.

## MƏNDƏN ALACAQ

Hajı adlı bir nəfər bir xurcun qurut götürüf bazara yollanır. Bazarın qabağında bir hambala rast gəlir. Xurcunu hambala verir ki, bazara aparsın. Hambal xurcunu çiyninə alıb bazara gedir. Yolda Hajıyla hambal bir-birlərindən ayrı düşürlər Hajı hambalı nə qədər axtarırsa tapa bilmir, kor-peşman, əliboş geri qayıdır. Bir həftədən sonra Hajı öz oğluynan genə bazara gedir.

Görür kü, hambal xurcun da çiynində o tərəd-bu tərəfə vurnuxur. Bunu görən Hajı geri dönüb qaçmağa başdıyır. Oğlu soruşur:

-Ay ata, nöluf, niyə qaçırsan?

Hajı deyir:

-Oğul, səs salma, bax o hambalın çiynindəki mənim xurcunumdu, keçən həftədən qalıb. İndi məni axtarır. Gəl qaçax, yoxsa xurcun cəhənnəm, düz bir həftənin muzdunu məndən alajax.

## MOSKVANI GÖRSƏN NEYLƏYƏRSƏN?

Bir ayrım eşşəyin belində Gəncəyə gəlir. Qatara minif Bakıya getmək fikrinə düşür. Eşşəyini bağlayır qatara, özü də çıxıb rahat bir yerdə əyləşir. Bir azdan qatar yola düşür. Səhər tezdən Bakıya çatır. Ayrım qatardan düşür. Görür kü, şəhər nə şəhər! Baxmaqnan doymaq olmur. Adamın gözünün işığını çəkir. Birdən fikirləşir ki, gedib eşşəyin kəndirini açsın, minib şəhəri gəzsin. Gedib görür ki, eşşək arxası üstə sərilib, ağzı da açıq qalıb. Bunu görən ayrım deyir:

-Əşi, sən hələ Bakını görübsən, ağzın açıx qalıf, bə Moskvanı görsən neyləyərsən, ay yazıq?



## BƏS ONUN YERİNƏ OLSAN NEYLƏYƏRSƏN?

Bir neçə ayrım yük maşınında gedirlərmiş. Yolda maşın qəzaya uğrayır Ayrımın biri başdıyır zarımağa. Bunu eşidən başqa bir ayrım ona yaxınlaşıb deyir:

-Ə, zalım oğlu, nə bağırırsan, dağ boyda kişi yanında ölüb, amma heç səsini də çıxartmır. Onun yerinə olsan neyliyərsən?

## OLMASIN BİR ABBASI

Yaxşı üzməyi bajaran bir iranlı Arazın o tayından bu tayına adam keçirirmiş, özü də cəmi bircə abbasıyla. İranlı baxıb görür ki, o taydan bu taya keçmək istiyən çoxdur. Tamahı güj gəlir. Fikirrəşir ki, adamları bir-bir yox, iki-iki keçirsə, laf çox qazanar. Elə beləcə də eliyir. İki nəfəri çiyninə alıf çaya atılır. Bir az üzür. Çayın ortasına çatanda bərk yorulur. Görür ki, yox, daha bajarmır. Yoruluf əldən tüşür. Cəld çiynindəki adamlardan birini atır suya, deyir:

-Əşi, olmasın bir abbası!

## YAZIR YAZSIN, POZUR POZSUN

Bir qarıya toyda oynamağı təklif eliyirlər. Qarı deyir ki, yox, yox, oynamaq günahdı, Allaha ağır gedər.Qarıya çox deyirlər, qarı inadından dönmür ki, dönmür. Birdən elə gözəl, oynaq hava çalınır ki, qarının bütün sümükləri oynayır. Qarı özünü saxlaya bilməyib təklifsiz-filansız ortaya atılır, başlıyır oynamağa. Aradabir əlini göyə qaldırıf deyir:

-Allah, sən özün günaha yazma, yazığam.

Qarı sındıra-sındıra süzür. Bir azdan Allaha bir də yalvarır. Musiqi getdikcə tüğyan eliyir. Qarı daha özünü saxlaya bilmir: "Əşi, Allah özü bilər, yazır yazsın, pozur pozsun", deyib ortada cövlan eləyir.

## CANAVARIN YANINDA HÜR

Bir dəfə kəndə canavar girir. Canavar bir kəndlinin həyətinə soxulur. İt bunu görüb tez eyvana dırmanır, ordan hürməyə başlayır. Ev sahibi itin səsini eşidib çölə çıxır, dərhal canavarı görür. Başa düşür ki, it canavarın qorxusundan qaçıb eyvana dırmanıb. Bərk qəzəf-

lənir. Əlinə bir ağac alıb düşür itin üstünə:
-Burda hürməyə nə var, qeyrətin çatırsa, düş canavarın yanında hür.

## NİYƏ ÇOX PİŞMƏSİN?

Bir gün ata ilə oğul birlikdə ot pişməyə gedirlər. Günorta nahar eliyəndə ata ilə oğul hamıdan çox yeyirlər.
Oğul soruşur:
-Ata, axı niyə biz hamıdan çox yedik?
Ata deyir:
-Oğul, mən əjdaha, sən də bir əjdaha balası. Niyə hamıdan çox yemiyək?
Axşam olur. Evə qayıtmaq vaxtı çatanda oğul onlarnan bir yerdə də ot piçən oğlanı göstərib deyir:
– Ata, biz iki nəfər, o isə tək. Bəs nətəri oldu ki, biz ondan az ot pişmişik?
Ata cavab verir:
-Oğul, mən bir qoja kişi, sən bir balaca uşaq. Axı niyə o pəhləvan boyda oğlan bizdən çox pişməsin?

## GÜLÜ KİŞİ İTİNƏ YAXIN DURMUR

Qaradağlı kəndindən olan Gülü kişi bir gün öz iti ilə birlikdə Gəncə bazarına gedir.Bazarda it bir baqqalın yağ tuluğunu dağıdır. Baqqal iti möhkəm döyür, sonra da hay –haray salır ki, bu itin yiyəsi kimdirsə gəlsin,cəriməsini versin. Bunu eşidən Gülü kişi də baqqala qoşulub iti döyməyə başlayır. Özü də bərkdən deyir:
–Bu itin yiyəsi kimdirsə gəlsin cərimısini versin.Ayıbdır axı.
O vaxtdan da Qaradağlı kəndində belə bir məsəl işlənir:
"Gülü kişi itinə yaxın durmur."

## QURBAN OLUM, TƏSBEH, SANA

Qaradağlı kəndindən olan Saleh adlı bir kişi avam bir qonşunun inəyini oğurlayıb kəsir. Bir azdan çaya gedib əl–ayağını yuyur. Birdən görür ki, inək yiyəsi ona tərəf gəlir. Saleh kişi işi belə görüb tez təsbehi əlinə alır, avaznan oxumağa başlayır:



-Allahu Əkbər! Allahü Əkbər! Əşhədən-la-ilahə-iləllah!
İnək yiyəsi Saleh kişinin molla olduğunu güman eləyir.
-Canım, bu ki, molladır, Allah adamıdır,-deyərək geri qayıdır.
Bunu görən Saleh kişi başqa bir avaznan oxumağına davam edir:
– Qurban olum, təsbeh, sana,
Heç kim güman etməz mana.

## HALALLIQ ALIRMIŞ

Bir kişi pinəçilik sənətini öyrənir,amma işlətməyə hajatı olmur. Gedir pinəçi dostunun yanına. Dostuynan söhbət eləyən vaxtı başını qatıb hajatdarını çırpışdırır. Hajatdarı götürdükcə zümzümə eləyir:
– Axtararsan bizləri,
Tapa bilməsən bizləri,
Onda söymə bizləri.
Kişi zümzümə elədikcə pinəçi ona deyir:
–Əşi,bu nə sözdü danışırsan, səni niyə söyürük?
Kişi hajatdarı oğurruyan kimi çıxıb gedir. Dostu gedəndən sonra pinəçi bizi axtarıb tapmır. İşin nə yerdə olduğunu başa düşür.Öz-özünə deyir:
-Ayə, bu məndən halallıq alırmış.

## DƏDƏSİNİN DƏ QİYMƏTİNİ ÜSTÜNƏ QOYMUŞDU

Bir ayrım bazarda noxta satırmış. Biri ona yaxınlaşıb noxtanın qiymətini soruşur. Noxta satan elə qiymət deyir ki, kişinin gözü kəlləsinə çıxır. Özünü saxlaya bilməyib soruşur:
-Əşi, bunun nəyi var ki, belə baha deyirsən?
Ayrım cavab verir:
-Əşi, görmərsən nejə möykəmdi, necə parıldıyıy? Bunu hansı eşşəyin kəndirinə bağlasan, o eşşəyin qıymatı ikiqat artajax. Onçu da mən eşşəyin qıymatını da bu noxtanın üstünə qoymuşam.
Müştəri ta heç nə demir. Matı-qutu quruyur. Ordan uzaqlaşır. Bir tanışına rast gəlir. Tanışı soruşur ki, nə yaxşı çıxmışdın bazara, xeyiriydimi?
O deyir:
-Əşi, eşşəyə noxta almaq istəyirdim. Çox gəzib-dolaşdım. Orda bir yaxşısını tapdım. Amma yaman baha verirdi. Dədəsinin də qiymətini üstünə qoymuşdu.

## ÜSTƏLİK AŞNASINI DA GƏTİRİB

Deyir bir ayrımın evinə hər gecə oğru gəlirmiş. Amma ayrım nə illah eliyirsə, oğrunu tapa bilmirmiş. Bir gün ayrım arvadına deyir ki, gəl bu gecə yatmayaq, pusquda duraq, oğrunu tutaq. Arvad ərinin sözünnən razılaşır. Onlar gecə yatmırlar. Gecəyarı birdən ayrımın gözünə bir qaraltı görünür. Tez qaraltı gələn tərəfə qaçır. Ha gedirsə heç nə seçəmmir. Yaxınlıqdan balaca bir arx keçirmiş. Ayrım əyilib arxa baxanda suda öz şəklini görür. Sən demə, yazıq ömründə öz şəklini görməyibmiş. Ona görə də ayrım suda öz şəklini görəndə səksənir, elə bilir ki, oğrudur, suyun dibinə sinib. Tez arvadını çağırır:

-Arvad, arvad tez bura gəl, oğrunu tutmuşam!

Arvad qaça-qaça gəlir. Suya boylanır. Ərinin şəklini görür. Elə bilir ki, oğrudur. Deyir:

-Ay mürdəşir yumuş gör, bir hara sinif?! Necə də bədheyvətdi, ay Allah! Saqqalına-zada bax köpəyoğlunun. A kişi, nə durufsan, çaxmağı çək, öldür köpəyoğlunu.

Arvad birdən suda öz şəklini də görür, lap məhəttəl qalır:

-Booy, a kişi, sən Allah bir bura bax. Bu köpəyoğlu xalxın öyünə oğurruğa gəldiyi bəs döyül, hələ üstəlik aşnasını da özünnən gətirif. Ala ey, həyasız!

## YE, QOY BOYUN UZANSIN

Köç dağdan qayıdan vaxdlarıymış. Yol gələndə bir arabada ərlə arvad dalaşıb küsürlər. Yolda çörəkləri qurtarır. Öyə çatan kimi arvad tez xəmir yoğurur, ojax qalıyıb, saj asır. Kişi oğluna deyir ki, yuxa pişənə kimi gedək qarğıdalılığımızı gəzək, görək porsuq-zad qarğıdalıları yeməyib ki?

Qarğıdalılığı gəzib qayıdanda onlar bir-iki dənə də sütül üzüb gətirillər. Gələndə görüllər ki, ojax hazırdır, arvad sacın üstündə fətir salır. Kişi əlindəki sütülləri sajın altında qovurub dənəliyir, uşağa verif deyir:

-A bala, götür ye, qoy bir boyun uzansın.

Arvad da bu sözü eşidir, elə bilir ki, doğurdan da qarğıdalı adamın boyunu uzadır. Kişi də boydan gödəyiymiş. Amma arvad kişiynən küsülü olduğundan ağzını açıb deyə bilmir ki, ay ləvənd oğlu, ləvənd, o zəhrimarın bir-ikisini də özün ağzına tulla, qoy sənin də



boyun uzansın.

Kişi bir deyir-beş deyir, axırı arvad baxıb görür ki, cecənin üstündə qarğıdalı qalmadı. Söz sinəsini deşir. Özünü saxlıya bilmiyif deyir:

-O zəhrimarın bir-ikisini də özün ağzına tullasana, səni zəhərrəmiyəjək ha.

## ADI USUFDU, İŞİNDƏ OL

Bir məclisdə iki nəfər yanaşı oturmuşdu. Bunlardan biri basıb-bağlayır, adamlar da sakitcə qulaq asırdılar. Birdən içəri geyimli-kecimli biri girir. Keçib lap başda əyləşir. Bunu görən gopçu səsini xırp kəsir. Yanındakı da tez özünü yetirir həmən adamın yanına. Yavaşca soruşur:

-Qardaş, ismin nədi?

Kişi deyir:

-Usuf.

Gopçunun dostu deyir:

-Adı Usufdu, işində ol.

## SƏNİN DEDİYİN DAŞ ARMUDDUR

Bir ayrım üzüm yeyirmiş. Özü də nətəri. Üzümün saflağınnan tutuf ağzına qoyurmuş. Saflağı da üzüm qarışıx çiyniyif udurmuş. Başqa bir ayrım munu görüf deyir:

-Ayə, a görməmiş, o nətəri üzüm yeməkdir? Üzümü elə yeməzlər ey! Üzümün saplağınnan tutarlar, sonra da bir-bir, iki-iki, üç-üç dənələyib ağıza atarlar...

Ayrım onun sözünü kəsir:

-Yox, ə... Sənin dediyin daş armuddur, iki-iki, üç-üç ağıza tulluyuf udallar.

## UŞAĞIN SİFTƏSİNİ KOR ELƏMƏ

Vaxtilə oğurluqla məşğul olmuş bir kişinin şuluq bir oğlu varmış. Günlərin bir günü uşaq oğurluq eləmək fikrinə düşür. Bir axşam kəndin naxırını qabağına qatıf evlərinə gətirir. Atası da oğlunun bu hərəkətindən xəvər tutur, amma üstünü vurmur. Camaat əhvalatı

eşidib gəlir kişinin qapısına. Ağsaqqallardan biri deyir:

-Əşi, sənin oğlun mənim iki baş inəyimi oğurruyuf gətirib. Deyrəm, amma şikayətə-zada getmə. Bu iş balamın siftəsidir, sən Allah nən gətirsin versin. Mənim o boyda külfətim gözünü o mal-heyvana tikif. Əgər verməsə, gedəjəm kolxoz sədrinin yanına şikayətə.

Oğlanın atası deyir:

-A kişi, gəl sana o mal-heyvanın əvəzinə nə qədər desən mal verim, amma şikayətə-zada getmə. Bu iş balamın siftəsidir, sən Allah uşağın siftəsini kor eləmə!

## YA SƏN SAT, YA DA MƏN

Bir ayrım səhər tezdən qatıq satmağa gedir. Bir az gözdiyir, görür kü, müştəri gəlmir. Axırı əlacı kəsilib müştəri çağırmağa başlayır. Kişi ağzını açıf müştəri çağıran kimi yanındakı eşşək də bir yannan anqırırdı. Eşşəyin səsi ayrımın səsini batırır. Bir belə, beş belə. Gün günorta olur, müştəri də gəlmir ki, gəlmir. Qatıx satan da baxıb görür kü, bu gedişnən qatıq qıjqırajax. Eşşək də ki, səsini çıxartmağa aman vermir. Ayrım təngə gəlib astaca eşşəyin qulağına pıçıldayır:

-Ay Allahın heyvanı, nə anqırırsan? Bu zəhrimarı ya sən sat, ya mən.

## VAY SƏNİN, DIRMIQ YİYƏSİ

Bir oğlan əsgərlikdən gəlir, ata-anası, qohum-əqrabası ilə görüşür. Amma hamının yanında özünü elə aparır ki, guya öz dilini tamam unudub. Kimnən görüşürsə, onunla rusca danışır. Oğlanın anası da özünü yeyib-tökür: "Vay, yazıq balam, dilini yanılıb". Nəysə, oğlan başlayır məhləni gəzməyə. Hər nəyi görürsə anasından soruşur: "Mama, eto çto takoy?" Arvad da əlinnən-qolunnan birtəhər oğlunu başa salır. Yerdə bir dırmıq var imiş. Birdən oğlanın gözü bu dırmığa sataşır. Ayağını dırmığın ucuna qoyub soruşur:

-Mama, eto çto takoy?

Anası oğlunun nəyi soruşduğunu o saat başa düşüb tez dillənir:

-Dırmıqdı dana, qadan alım, dırmıq. Anan ölsün, nə tez yadından çıxıb? Nə yaman dilini yadırğadın?!

Oğlan guya dırmığı birinici dəfə görürmüş kimi başını tərpədir. Oğlan anası ilə danışa-danışa ayağı ilə dırmığın ucundan bərk basır. Birdən dırmığın sapı qanrılıb başına dəyir. Oğlan ağrıdan özünü itirib qışqırır:

-Vay sənin, dırmıq yiyəsi, belə atana lənət!



## GÖZÜMÜ NİYƏ TÖKÜRSƏN?

Bir nadürüst kişi namaz qılmaq, ömrü boyu elədiyi bütün günahları üçün tövbə eləmək istəyir. Münasib bir yer axtarır. Nəhayət, təzəcə biçilmiş bir yerdə qərar tutur. Dizi üstə çöküb Allaha tövbə edir, namaz qılır. Başını aşağı əyəndə birdən onun gözünə çöp batır. Kişi başını qaldırıb üzünü göyə tutaraq deyir:

-Əşi, namaz qılma deyirsən, qılmaram də. Ta gözümü niyə tökürsən??

## YORULMAYASAN

Alı adında bir kişi bir dağın başında kartof əkirmiş. Bu vaxt Məsim adlı birisi də dərənin dibində bulaqdan su içib göy çəmənlikdə dincəlirmiş. O, uzaqdan Alı kişini görüb qışqırır:

-Ayə, ayə, ay Alı kişi, ay Alı kişi, bir zəhmət olmasa dağdan bəri en. Sənnən vacib işim var. Mən bərk yorulmuşam, ora çıxa bilmərəm. Sən Allah, sən bir aşağı düş.

Alı kişi deyir:

-Ə, nə var, nə deyirsən, ay Məsim? Görmürsən, əlimdə işim var? Düşə bilmərəm. Yaxşısı budur, sən yuxarı çıxasan.

Alı kişi nə illah eliyirsə mümkün olmur. Məsim dağa çıxmır ki, çıxmır. Axırı Alı kişinin əlacı kəsilib dərəyə-Məsimin yanına enir, soruşur:

-Hə, nə deyirsən, ay Məsim? Xeyir ola, məni belə vacib çağırmaqda?...

Məsim göy çəmənlikdə üzü üstə çevrilərək laqeyd halda deyir:

-Alı kişi, mən yorulmuşam, yuxarı çıxa bilmirəm. Səni çağırdım deyəm ki, yorulmayasan.

## ÜRƏYİM ARXAYINDIR

Gədəbəyin Novruzlu kəndində bir molla varıymış. Bir dəfə inəyi itmiş bir kişi mollanın yanına gəlir. Görür ki, molla evin ortasına yun gəvə saldırıb. Gəvənin üstündə döşək, döşəyin üstündə mütəkkə, mütəkkənin də üstündə balış qoyub dirsəklənərək çay içir. İnəyi itən mollaya deyir ki, a molla əmi, bir Qurana bax, gör mənim inəyim hardadır? Tapılajaxmı?

Kişi bunu deyib mollaya bir onluq verir. Molla pulu cibinə qoyur. Quranı açıb yalandan ora-burasına baxır. İnəyin yiyəsi görür kü, molla fırıldaq adama oxşayır. Amma heç üstünü vurmur.

Molla Qurana ha baxırsa bir şey oxuya bilmir. Axırda deyir:

-Qardaş, mənim ürəyim arxayındır. Mənə elə gəlir ki, sənin inəyin gec-tez tapılacaq.

İnəyi itən adam daha dözə bilmir, ayağa qalxaraq mollanı bərk şamparlayır:

-Ə, fırıldaqçı kopayoğlu, sənin ürəyin arxayın olar də. Nə vecinə, söykənmisən rahat balışa, qabağında da pürrəngi çay. Sənin də mənim kimi inəyin itmiyif ha! Daha niyə narahat olasan ki...?!

## KOR DAVASI SALMIŞAM

Bir kişi atın belində arvadı da tərkində çayın kənarı ilə yol gedirmiş. Bir də görür ki, çayın o tayında bir kor haray çəkib:

-Ay yoldan keçən, sən Allah, məni də çayın o tayına keçir.

Atlı öz arvadına deyir ki, sən atdan düş, burda gözlə, mən gedim o yazığı çayın bu tayına keçirim. Arvad kişinin bu sözündən narazı qalır, deyir:

-Getmə, ay kişi. Mənim o adamdan heç gözüm su içmir.

Kişi inad edir. Arvadı atdan düşürüb korun yanına gedir. Kora çatıb onu atın tərkinə mindirir, çayın bu tayına keçirir. Kor atdan düşən kimi bağırır:

-Ay camaat qoymayın, kömək eləyin, mənim atımı da, arvadımı da əlimdən aldılar. Qoymayın!

Camaat bu səsə tökülüşüb gəlir, hamı atlı kişini məzəmmət edir ki, nə üçün o, korun atını, arvadını əlindən alıb. Atlı kişi nə illah eləyirsə camaatı inandıra bilmir ki, at da, arvad da onun özününküdür. Sonra da əli ilə başına bərk bir qapaz vurub deyir:

-Kül mənim başıma, arvadın sözünə inanmadım.

Camaatın başı beləcə qarışanda kor öz-özünə deyir:

-Bir kor davası salmışam. İndi ya at mənim olacaq, ya da arvad.

## YA BAND, ÇARIĞIM CIRILMASIN

Arandan yaylağa köç aparan bir kişi camış gönündən təzəcə tikdiyi çarığın üstündə yaman əsirmiş. Bir gün o, Band dağının ətəyindən



keçəndə üzünü dağa tutub deyir:

-Ya Band, mən yaylaqdan dönən kimi çarığım cırılmasın. Geri dönəndə nəzirini verəcəm.

Köç yaylağa çatan kimi, kişi xəstələnir. O yatan düz üç ay yorğan-döşəkdən qalxmır. El yaylaqdan arana dönəndə kişi də yaxşılaşır. Təzə qalmış çarığını geyinib arana yola düşür. Band dağının yanına çatanda əsən dizlərinə baxıb deyir:

-Mən naşükürə yaxşı elədin, ay Band. Sənə nəzir demişdim. Al bu da sənin nəzirin.

O, bunu deyərək çarıqlarını çıxardıb dağın ətəklərinə tullayır.

## BİZİ BİABIR ELƏMƏ

Tovuz kəndlərinin birində bir kişi öz arvadı ilə dalaşır. Nə qədər eliyirsə nə arvadın dilinə dil yetirə bilir, nə də onu yola gətirə bilir. Səs-küyə qonum-qonşu tökülür. Hərə bir tərəfdən ərlə-arvadı məzəmmət edir. Adamın çox olduğunu görən kişi arvadını-özünü öldürəcəyi ilə hədələyir:

-Bu saat gedib qayadan özümü atacam. Atacam özümü qayadan. Atacam... Atacam.

Qonum-qonşu kişinin qabağını kəsib deyir:

-Əşi, bir səbrin olsun. Hövsələni bas. Evdə söz-söhbət olar də. Adam hər xırda-para şeydən ötrü canına qəsd eləməz ki. Otur yerində.

Kişi inad edir:

-Yox, buraxın məni. Mən bu saat gedib qayadan özümü atacam. Daha boğaza yığılmışam.

Nə qədər eləyirlərsə kişini sakitləşdirə bilmirlər. Kişi qonum-qonşunun əlindən çıxıb qayalara tərəf qaçır. Gedib bir qayanın başına çıxır. Ordan yerə baxır. Gözü qaralır. Qorxudan rəngi avazıyır. Çox arzulayır ki, bir adam onun qolundan tutub bir kənara çəksin. Elə bu vaxt bir kişi gəlib ona deyir:

-Ə, yekə kişisən. Belə alçaq qayadan özünü atıb bizi biabır eləmə. Əgər özünü atmaq fikrin varsa, gəl gedək o biri kəndə. Orda daha hündür qayalar var. Özünü atsan heç tikən də tapılmaz.

Özünü atmaq istəyən kişi kor-peşman qayadan düşüb asta-asta öyünə tərəf yollanır.

# İSTİYİRSƏN İKİ-İKİ KƏSİM

Kəndə təzə köçmüş bir nəfər kolxoz sədrinə yaxınlaşıb işə götürülməsini xahiş edir. Kolxoz sədri onu bir dəfə başdan ayağa qədər süzüb deyir:

-Taxıl biçə bilərsənmi, ə?

-Niyə biçmirəm, ay sədr? Hər nə iş desən əlimdən gəlir-deyə o cavab verir.

Sədr deyir:

-Amma taxıl biçininin bir çətinliyi də var ha. Çətinlik də bundan ibarətdir ki, gərək səhər o başdan, yəni saat səkkizdə zəmidə olasan ki, gün yaxmamış bir iş görə biləsən. O deyir:

-Ay sədr, başına dönüm, saat səkkiz nədir, mən lap saat 5-dən işə başlayaram.

Sədr:

-Afərin! Lap yaxşı! – Onda səhərdən işə başla. Get, orağını-zadı da sazla.

Sədr öz-özünə sevinir. Fikirləşir ki,kolxozda işçi azdır. Taxıl da az qala çürüyüb gedir. Belə işçini Allah mənə göydə yetirdi. Yəqin ki, soyuq düşməmiş biçini başa çatdırarıq.

Səhər günortaya yaxın sədr təzə işçinin çalışdığı sahəyə yollanır. Uzaqdan baxıb görür ki, kişi bərk işləyir, amma yanında heç biçilmiş taxıl tayası görünmür. Yaxınlaşanda görür ki, kişi sünbülləri tutub bir-bir kəsir, sonra da səliqə-sahmanla bir tərəfə qoyur. Sədr əsəbləşir. Deyir:

-Ay kişi, sən nə oyun çıxardırsan? Belə işləməklə sən bu boyda zəmini nə vaxta biçib çatdıracaqsan?

-İstəyirsən iki-iki kəsim-deyə cavab verir.

# DİLİMƏ BAĞLA

Bir kişi atın üstündə gedirmiş. Ancaq qalmağa yeri yox imiş. Küçədə bir kişi durubmuş. Həmin kişiyə atlı salam verir. Salam verəndən sonra kişi atlıya deyir ki, düş qonağım ol. Bu söz kişinin ürəyindən olur, tez atdan düşür, deyir ki, atımı hara bağlayım? Kişi cavab verir ki, dilimə.



# LAL GƏLİN

Anası qızını ərə verəndə cibinə bir daş qoyub deyir:

- Qızım, bu daş dinəndə sən də dinərsən. Qulağını kar, dilini lal edərsən. Qız ər evinə köçür. Bir müddət heç nə dinib-danışmır. Ər nə deyib soruşursa, gəlin bir kəlmə də cavab vermir. Lal, dinməz oturub baxır. Qızın əri fikirləşir ki, bu arvad həm lal, həm də kardır. Mən yenidən evlənməliyəm. Qohum-qardaş toplanıb başqa bir mahaldan gəlin gətirirlər. Təzə gəlin at belində darvazaya çatanda görür ki, əvvəlki gəlin süd bişirir. Özü də süd aşıb daşır. Təzə gəlin at belindən boylanıb deyir:

Ay lal gəlin, kar gəlin,
Südün daşdı, dur gəlin.

Lal gəlin ona cavab verir:

Gözü ocaq başında,
Özü yəhər qaşında,
Hünərin var gəl düşürt,
Oturt ocaq başında.

Oğlanın adamları görür ki, gəlin nə lal deyil, nə də kar. Yenidən at belindəki gəlini geri qaytarırlar. Oğlan əvvəlki gəlinlə gün görüb, ömür sürməyə başlayır.

# MƏNİ MƏSCİDƏ SALMA

Bir kişi təqsiri olan oğlunu tutub döymək istəyirdi. Uşaq canını qurtarmaq üçün qaçıb məscidə girdi. Atası məscidin qapısında dayanıb qışqırırdı: Adə, köpək oğlu, gəl çıx bayıra, ağsaqqal vaxtımda məni məscidə salma.

# BÖLGÜ

İki ovçu dörd quş vurmuşdu, qaşqaldaq, ördək, qaz, qu. Bölgü üstə bunların mübahisəsi düşdü. Qazının yanına gəldilər ki, bunların mübahisəsini həll etsin. Qazı ovçuları dinləyib dedi. Ördək yağı bördənbördən bu sənin, qaşqaldaq yağı bardaq-bardaq o da sənin, o ki qaldı qaz-yağı hamısından az, Bunu da onun yanına yaz, bunlar da mənim.

## MƏN MƏSCİDƏ GİRİRƏMMİ?

Bir kişi itini döyürdü. Qonşusu bunu görüb soruşdu: İti niyə döyürsən, yazıqdır. İt sahibi cavab verdi: Mən iti ona görə döyürəm ki, qaçıb girib məscidə. Qonşusu dedi vurma, heyvandır, qanmayıb. Qanacağı olsaydı məscidə girməzdi. Gör heç mən məscidə girirəmmi?

## AĞILLI OLSAYDIN, KASIB OLMAZDIN

Bir kənd mollası dəyirmana buğda aparırdı. Xurcunun bir gözünə buğda, o biri gözünə isə daş doldurmuşdu. Yolda kasıb bir kişi ona rast gəldi. Salamlaşandan sonra molladan soruşdu, xurcunun bir gözünə daş niyə doldurmusan?

Molla dedi: Xurcun eşşəyin üstündən aşmamaq üçün.

Qonşu doyunca gülüb və dedi, ay molla, xurcuna daş doldurmaq artıqdır. Bu saat sənin işini asanlaşdırım.

Qonşu daşları yerə töküb, buğdanın yarısını xurcunun bu biri gözünə boşaltdı. Hə, gördün, indi düş yola, həm xurcunun gözləri bərabərləşdi, həm də eşşəyin yükü yüngülləşdi.

Molla dedi: Qardaş, mənə sənin bu məsləhətin lazım deyil. Sən ağıllı olsaydın kasıb olmazdın. Pulun, dövlətin olardı.

Molla təzədən buğdanın hamısını xurcunun bir gözünə, daşları da o biri gözünə doldurub yola düşdü.

## ÖHÖ-ÖHÖ LAZIM İMİŞ

Bir kişinin adı Ağa idi, amma çox tənbəl idi, işləməklə arası yox idi. Ona deyəndə ki niyə işləmirsən, cavab verərdi ki, mənim adım Ağadır, heç ağa da işləyər? Bu adla da orada, burada qarnını dolandırardı. Nəhayət bunun tənbəlliyi hamıya məlum oldu. Daha heç kəs - hətta qohum - qardaşı da ona yemək vermədi. Bir gün yeməyə heç nə tapa bilmədiyindən öz-özünə dedi: mollalar deyir ki, Allah ruzi verəndir. Mən də gedəcəyəm Allahın evinə, ibadətlə məşğul olacağam. Yəqin ki, Allah da mənim ruzimi verəcək. Gəldi məscidə, bir küncdə, sütunun dalında axşama kimi oturub ibadətlə məşğul oldu. Acından ürəyi gedirdi, amma Allah yemək yetirmirdi ki, yetirmirdi. Gələnlərin çoxu namazını qılıb gedirdi evinə. Ağanı heç dindirən də olmurdu. Axşam oldu, şamlar yandı. Tənbəl Ağa gördü ki, bir neçə



arvad gəldi məscidin aşağı tərəfində oturub süfrə açdı. Onlar çörəyə halva yaxıb məsciddə olanlara payladı. Ağa küncdəki sütunun dalında oturduğu üçün onu görmədilər. Arvadların birisi külçə paylayana dedi – yaxşı bax ha, qalan olmasın. Ağa gördü ki, arvadlar yığışıb gedir, ucadan öskürdü. Onun öskürəyini eşidən arvadlardan birisi dedi:

– Ay qız, deyəsən orada bir kişi var, ona da halva, çörək ver. Ağa halva çörəyi alıb yeyəndən sonra öz-özünə dedi, bir dişləm çörəyə də öhö-öhö lazım imiş, yoxsa adam acından ölər.

## KİSƏSİNİ DOLDURUB APARACAQ

Bir kişinin bağına bir molla bir də öküz girir. Oğlu qaçıb atasına xəbər verir. Atası tez deyir:Oğul qaç mollanı qovala, öküzə dəymə. Oğlu təəccüblənib səbəbini soruşanda ata deyir: Öküz ağaclardan yarpaqları yeyib doysa çıxıb gedəcək, amma molla bağda olan meyvələrdən yeyib doyandan sonra da ciblərini, kisəsini doldurub aparacaq.

## MƏSCİDƏ GEDƏN OLMAYACAQ

Bir məscidin iki mollası vardı, hər gün bunların arasında namaz qılmaq üstə dava düşərdi. Axırda bunlar təkcə gəlib bir-birinin üzünü görməmək üçün məscidin ortasından ip çəkib pərdə asır, hərə öz camaatı ilə bir tərəfdə namaz qılır. Bu əhvalatı eşidən dünya görmüş bir qoca evində pəsməzar qoydurur, camaat dəstə-dəstə yığılıb başsağlığına gəlir. Kimin öldüyünü soruşanda qoca deyir: Allah ölüb, onun yasını saxlamışam. Bu xəbəri eşidən mollalar qocanın yanına gəlib deyirlər Allah da ölərmi, ay kişi, bu nə sözdür deyirsən, əstəqfar elə. Qoca deyir: mən görmüşəm ki, ölənin malını bölərlər, görünür Allah ölüb ki, siz də onun evini aranızda bölüşdürmüsünüz. Bundan sonra məscidə gedən olmayacaq.

## HƏŞİM BABA İLƏ TAPDIQ

Həşim baba bir ili çoxlu badımcan əkibmiş. Badımcan o qədər məhsul verir ki, yığıb-yığmaqla qurtarmaq olmur. Tərs kimi badımcana müştəri də olmur. Həşim kişi badımcanı toplayıb dağ boyda topa düzəldir. Bu qədər badımcanı daşıyıb çölə tullamaq gözünü alır. Çox fikirləşir, az fikirləşir, nəhayət, çarə tapır. Həşim baba ça-

rəsini tapmaqda olsun. Sənə kimdən deyim onun kəndlisi Tapdıq kişidən. Bu kişi hündürboy, olduqca qüvvətli bir kişi idi. Onun dalına aldığı şələni iki at götürə bilməzdi. Özü də acgöz oğru idi. Tapdıq kişi gündüzlər yatar, gecələr ayıq olardı. Özü də bu kənddə Həşim babadan başqa heç kimə inanmaz, etibar etməzdi. Tapdıq kişi yuxudan təzəcə oyanıb əl-üzünü yuyurdu. Qapının döyüldüyünü eşidib qapıya gəldi. Həşim babanı gecənin bu vaxtında görüb mat qaldı:

–A kişi, xeyr ola, nə var, nə yox?

–Yavaş, səs salma, eşidən olar, xeyirdir, gedək evdə danışaq.

–Gəlib otururlar evdə, Həşim baba deyir:

–Tapdıq, bilirsən ki, heç kəsə pisdik edən deyiləm. Ancaq bir nəfər mənə elə dağ çəkib ki, onun əvəzini çıxmasam qəbirdə də yata bilmərəm, canım üçün xortduyaram. Bu işdə mənə kömək etməlisən. Bu adamın yaxşı tərəvəzi var. Bu axşam böyük bir əlbiz xiyar dənləyib. Gərək o xiyarı ordan elə götürək ki, səhər gəlib görsün ki, arı balı elə yayılıb ki, nə bal var, nə arı, bildin!?

–Baş üstə, gedək.

Həşim baba qabaqda, Tapdıq dalda qaranlıq zülmət gecədə gəlib dirəndilər badımcan təpəsinə. Həşim baba xiyarı doldurur. Tapdıq kişi də dalına alıb aparıb tökür bir dərin xəndəyə ki, səhər də oradan aparıb satsın bazarda. Bu minvalla bütün badımcan daşınıb tökülür xəndəyə. Səhərin açılmasına az qalmış Tapdıq kişi axırıncı xaralı götürüb gedir evinə.

Bir az dincini alandan sonra Tapdıq kişi xaralı dalına alıb gedir bazara. İki saat yol gedənnən sonra bazara çatır. Yükünü yerə qoyan kimi müştərilər toplaşır başına:

–A kişi, nədi satdığın?

–Xiyar, özü də lap sütülündən.

–Tez elə aç görək.

Tapdıq kişi xaralın ağzını açanda kişini elə bil ilan çalır:

–Evin yıxılsın, Həşim. Bu ki badımcandır! Badımcan!!!

Müştərilər kişinin bərəlmiş gözlərini görüb çıxıb gedirlər.

## ƏLLƏM-QƏLLƏM DƏRSİ

Kərbala şəhərində bir nəfər ruhani təhsil alırmış. O təhsilini qurtarıb gələrkən müəllim ona deyir:

- İstəyirsən sənə əlləm-qəlləm dərsi öyrədim.



Oğlan əlləm-qəlləm dərsinin proqramda olmadığını bilib razılıq vermir. Çıxıb gedir.

Öz kəndlərində savadsız bir molla var imiş. Adına Qaraca molla deyərmişlər. Qaraca molla mömin adam sayılarmış. Kəndin məscidinə yığılarkən hamı Qaraca Mollanın sözlərinə qulaq asarmış və ona pul verərmiş. Qaraca molla beləcə gün keçirərmiş. Oğlan bunu görəndə yenidən Kərbalaya qayıdır. Əhvalatı müəllimine söyləyir. Oğlan yenidən həmin dərsi öyrənir.

Müəllim ondan soruşur:

- Kəndin camaatı nə ilə məşğuldu.

O deyir:

- Keçi saxlamaqla.

Müəllim deyir: - Gedərsən, dalı-dalı çıxarsan mənbərə. Başlayarsan Qaraca mollanı tərifləməyə. Deyərsən, bu molla çox mömün adamdı. Onun dediyinin hamısı qanundur. Kim onun saqqalından bir tük qoparsa, bütün dünyada günahları yuyulacaq. Oğlan gəlir, müəllim dediyi kimi edir.

Camaat tökülüb mollanın saqqalını yolurlar. Hətta, çox adam bir yox, iki tük qoparır. Qaraca molla saqqalından qan axa-axa kənddən çıxır. Sonra kəndin mollası oğlan olur. Əlləm-qəlləm dərsi də elə o vaxtdan qalıb.

## QAVALI BELƏ ÇALARLAR

Bir Maqla bir gün cavan bir gəlinə aşiq olur. Gəlini almaq istəyir. Gəlinin isə ondan acığı gəlir. Maqlanı başından eləmək üçün ona deyir:

- Mən bir şərtlə sənə gələrəm ki, sən məsciddə qaval çalasan.

Maqla çox fikirləşir ki, nə etsin. Bir gün qavalı əbasının altına qoyub məscidə gedir. Minarəyə çıxıb camaata deyir:

- Camaat! Bu cavanlar dinimizə əməl eləmirlər. Onlar yollarını azıblar. Bir də görürəm ki ruhanilər oturan məclisdə qavalı götürüb tez-tez çalırlar, deyib qavalı əbasının altından çıxarıb çalmağa başlayır, davam eləyərək deyir.

- Belə olmaz axı: Qavalı elə çalmazlar.

Qavalı belə asta-asta çalarlar, deyərək yenidən çalmağa başlayır.

## SƏN AĞILSIZSAN, YOXSA MƏN?

Bəhlul Danəndənin zəngin bir qonşusu dinin əmrlərini yerinə yetirməzdi. Ancaq hər axşam yatarkən belə dua edərdi: «Ya Rəbbim, mənə cənnəti nəsib elə». Bir gecə yenə eyni şəkildə duasını edib yatdı.

Gecə yarısı damdakı bir tıqqıltıya oyandı. Ayaq səslərindən başa düşdü ki, damda kimsə var. Yatdığı yerdən bağırdı. Kimsən, damda nə işin var? Damdakı Bəhlul Danəndə idi. O belə cavab verdi. «Dəvəm itib, onu axtarıram». O Bəhlul Danəndəyə dedi. «Hey, sənin heç ağlın yoxdur? Dəvənin damda nə işi var. Sənin etdiyin ağılsızlıqdan başqa bir şey deyil.»

Bəhlul Danəndə cavab verdi: Sən dinin əmrlərini gözləmədən Allahdan cənnət istəyirsən. Sənin bu etdiyin ağıllı işdirmi? Sən öz ağılsızlığını görməyib başqalarının ağılsızlığına baxırsan.

Ev sahibi Bəhlul Danəndəni səsindən tanımışdı. Ona dərs vermək üçün belə etdiyini başa düşdü. Tövbə edib bir daha dinin əmirlərinə qarşı çıxmadı.



# XII. AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

## MOLLA ƏSGƏR

Molla Əsgər təxminən XIX əsrin sonları - XX əsrin əvvəllərində yaşayıb-yaratmışdır. Haqqında məlumat azdır.

Molla Əsgər Aşıq Nağının müəllimi olmuş və ona Qur'ani-Kərimi öyrətmişdir. Əlimizdə olan bir neçə şe'rini Aşıq Nağının əlyazmaları içərisindən tapıb üzə çıxarmışıq. "Nə qara bağlar", "Qatarqatar" çığalı təcnisləri, "Gəl" adlı divanisi sübut edir ki, Molla Əsgər aşıq şe'rinin ən mürəkkəb formalarında yazıb-yaratmışdır.

### *CIĞALI TƏCNİSLƏR*

### NƏ QARA BAĞLAR

Yenə mən neylədim qanlı fələyə?
Talehin sərinə nə qara bağlar.
    Aşıq deyər: nə qara?
    Zülflərində nə qara.
    Fələk bir gün vermədi,
    Nə ağ olsun, nə qara.
Bahar min büsatla çalsa nağara,
Ömrünü çovğuna, nə qara bağlar.

Günahkaram mən bu işdə düzünə,
Bildiyimi söyləmişəm düzünə.
    Aşıq deyər düzünə,
    Səhrası nə, düzü nə?
    Müxənnəsdən pay umma,
    Lə'nət olsun düzünə.
Düzəngahlar yetməz könlüm düzünə,
Nə Şəki, Şirvanlar, nə Qarabağlar.

Əsgər, könlüm sədəflənib yara tar,
Bu məclisə, bu şənliyə, yara tar.
    Aşıq deyər yara tar,
    Qüzeyində yara tar.

Namərdlərə ox ola,
Ciyərini yar atar.
Arsız gözəl matəm günü yara tar,
Nə yasını saxlar, nə qara bağlar.

## QATAR-QATAR

Hicran dəryasında mən bir körpüyəm,
Qəm keçər üstümdən ha qatar-qatar.
Aşıq deyər qatara,
Durna girər qatara.
Dosta dərdim ərz elə,
Demirəm ki, qat ara.
Bir kişiyə Şahi-Mərdan yar olsa,
Düzülsün düşmənlər ha qatar-qatar.

Bu ahu neyləyər şirin dilinə,
Yetirin Fərhadı Şirin dilinə.
Aşıq deyər dilinə,
Dəhanı nə, dili nə?
Müxənnəsdə sexa yox,
Doğru gəlməz dilinə.
Aldanma düşmənin şirin dilinə,
Qurşanıb altından ha qatar-qatar.

Xudam yazdı, aşiq oldum gözələ,
Dodaq şəbnəm, dəhan dürdü, göz ə'la.
Aşıq deyər gözələ,
Çək xurcunun, gözələ.*
Sərraf sənsən, insaf et,
Düşməz belə göz ələ.
Əsgər, aşiq olma yetən gözələ,
Lütfdə zay eylər ha qatar-qatar.

---

1. Gözələmək – xurcunun ağzını bağlamaq.





## GƏL

Səhralarda olar səda,
Haramsa, halala gəl.
Sərsərə həmrah olma,
Sahilsə, daldala gəl,
Lailahi illəllah,
Laillahi ilə Kərəm
Tutu köhər sehrikarə
Guki gəl, əhvalə gəl.

Məmmədə Məalladə,
Allah Məhəmməd rəsul.
Sər Allah, elmi Allah,
Var o kəsdə hala ol.
Həkri gahə mə'lul olma,
Kargaha olma mə'lul.
Al elə rahi-halal,
Dərk elə, kamala gəl.

Ləli-gövhər ismilərdə,
İsmə gərək dal gələ.
Əhəd, Səməd, Əsədullah,
Əsgərə əhval gələ.
Məhərrəm, Əhməd, Hilal,
Məhəmməd al gələ.
İrisalə Molla Murad,
Səs-səsə, suala gəl.

## BİSAVAD TEYMUR

Əhmədov Teymur Əsgər oğlu (Bisavad Teymur) 1903-cü ildə Goranboy rayonunun Tapqaraqoyunlu kəndində yoxsul kəndli ailəsində dünyaya gəlmişdir.

Zəngin yaradıcılıq irsi qoyub gedən Bisavad Teymurun şe'rləri dillər əzbəridir.

### *QOŞMALAR*

#### DEDİMMİ?

Dünya bivəfadır, aldadar səni,
Könül, uyma bu cahana dedimmi?
Bir kəsə qalmayıb, sənə də qalmaz,
Bivəfadan çəkil yana, dedimmi?

Bu dünya dediyin bir xanimandır,
Kim gəldi dünyaya bu dünya dandı.
İqbaldan yonulmuş bir nərdivandı,
Səni çəkər imtahana dedimmi?

Filqusu, Daranı keçirsək sənnən,
Keykavus, Keyqubad şöhrəti – şannan.
İskəndər cəlalı, şah Süleymannan,
Qalmayıbdı bir nişana dedimmi?

Eldəniz Atabəy, Şir Naxçıvani,
Özbək, Əbubəkr, bəs Toğrul hanı?
Qacar ayaqladı Azərbaycanı,
Yetişmədi bir məkana dedimmi?

Nəsimi, Məsihi oldu qəlbi xun,
Füzuli, Fələki, Fədai, Məzhun.
Vəhşilər ənisi divanə Məcnun,
Kərəm getdi yana-yana dedimmi?



Şair Bisavadın qalsa da namı,
Şairlər nasehi* hanı Nizami?
Nəbati, İraci, necoldu Cami,
Yox ölümdən bir nişanə dedimmi?

#### YADIMA DÜŞDÜ

Gəldi bahar fəsli, göründü dağlar,
Ellərin yaylağı yadıma düşdü.
Çəmənli çaylağın xoş düşərgəsi,
Leylinin oylağı yadıma düşdü.

Xurşidi camallı, sinəsi mərmər,
Ona pişvaz edər Şəms ilə Qəmər.
Başında kələğay, belində kəmər,
Qolunda qolbağı yadıma düşdü.

Hərdən sübhi-səhər bizə gəlməsi,
Gəlibən qəlbi-dilim bilməsi.
Gahdan qəmgin olub gahdan gülməsi,
Gahdan ağlamağı yadıma düşdü.

Şair Bisavadın cavan yaşında,
Sinəm bir dağ oldu eşq atəşində.
Xublar ittifaqı-çeşmə başında
Gözəllər yığnağı yadıma düşdü.

#### GEDİRƏM BU GÜN

Bir bəri gəl görüm, a nazlı dilbər,
Ay pərim, qürbətə gedirəm bu gün.
O qara gözlərə qonmasın kədər,
Ay pərim, qürbətə gedirəm bu gün.

Mən ki gedərgiyəm, qalası sənsən,
Baharın nərgizi, laləsi sənsən.

---

*Naseh - başçı

Pərişan könlümü alası sənsən,
Ay pərim, qürbətə gedirəm bu gün.

Sən Allah, amandı, bircə bəri bax,
Nagahdan üz verib bir qandı fəraq.
Gəl görüşək, halallaşaq, ayrılaq,
Ay pərim, qürbətə gedirəm bu gün.

Dolanım başına, mən qadan alım,
Bəlkə şəfa tapdı xəstə xəyalım.
Bisavaddan niyə küsdün a zalım?
Ay pərim, qürbətə gedirəm bu gün.

## DAĞLAR

Bir ahu gözlünün sorağındayam,
İtirdim, tapmadım maralı, dağlar.
Qəsdinə vardım ki, şikar eyləyəm,
İzlədim ki, gedib yaralı dağlar.

Neynirəm şövkəti, cahü-cəlalı,
Mənə lazım deyil dünyanın malı.
Yenə yada düşdü yarın camalı,
Könül dalısınca varalı, dağlar.

Nədir gözəllərdə bu ürfi-adət?
Müdam aşiqinə çəkdirir zillət.
Bisavadam, sizə edim şikayət,
Gəzirəm yarımdan aralı, dağlar.

## A CABBAR ƏMİ

Sən də qocalmısan, mən də qocaldım,
Axır qocalmışıq, a Cabbar əmi.
Biz şayəstə ön sırada gedərdik,
Karvandan qalmışıq, a Cabbar əmi.

Həyat bir mizandır, insanlar çəki,
Min əzab-əziyyət çəkər var nə ki.



Kuzələr misaldı bu dünya təki,
Dolub-boşalmışıq, a Cabbar əmi.

Mən səni görəndə növcavan vaxtı,
Sındırdım taxtını Cəmşidin taxtı.
Dünya həm yalançı, həm də yaltaqdı,
Ona əl çalmışıq, a Cabbar əmi.

Müdrik bir alimsən elmə müyəssər,
Bağışla, şe'rimdə yoxsa bir kəsər.
Sənin diləyində yazdım müxtəsər,
Şeri yanılmışıq, a Cabbar əmi.

Mərhəmət görmədik imanda, dində,
Yoxdu kəraməti ibadətin də.
Gülənlər qoy gülsün bizə bu sində,
Biz ki, çox gülmüşük, a Cabbar əmi.

Dünya yaranıbsa "kaf" ilə "nun"nan,
Əleysəl əxlaqdı, nə çıxar onnan.
Biz də yaşayaq el arzusunnan,
Qalmışıq, qalmışıq, a Cabbar əmi.

Ölüm ki, mənhusdur, dünyasa fani,
Fani olduğunu di bir də tanı.
Bir gün deyərlər ki, Bisavad hanı?
Vaxtı azaltmışıq, a Cabbar əmi.

## AĞLATDI

Səməd Vurğun köçən vaxtı dünyadan,
Matəminə cümlə-cahan ağladı.
Ölüm sədasını eşidən zaman,
Ah çəkdi hər tərəf, hər yan ağladı.

Kimsə bu dünyadan ummasın vəfa,
Səfası mindirsə, minbirdi cəfa.
Təbiblər dərdinə tapmadı şəfa,
Dərd fəğan eylədi, dərman ağladı.

Düşündü şairi ağladı həyat,
Hıçqırıq qopardı bütün kainat.
Açdı sinəsini mavi səmavat,
Aşkara hönkürdü, pünhan ağladı.

Onun tabutuna əyildi dağlar,
Çırpındı meşələr, döyündü bağlar.
Çaxdı ildırımlar, qopdu tufan-qar,
Şimşək şivən təpdi, duman ağladı.

Ağladı qayalar, ağladı daşlar,
Güneylər, qüzeylər, yallar, yamaclar.
Dənizdə balıqlar, havada quşlar,
Göydə buludlar da yaman ağladı.

Min xəbər tutduqda məcarasından,
Şe'r-qəzəlləri gəldi yasından.
Yazıb-yaratdığı poemalardan,
"Aygün" nalə çəkdi, "Muğan" ağladı.

Böyük Nizamidən qalan yadigar,
Vurğuna həsr oldu o ləli-gövhər.
Qəmli köynəyini geydi tək məzar,
"Talıstan" yaş tökdü, "Dilcan" ağladı.

Bisavad, çətindir ayrılıq, cuda,
Ağladı hava da, torpaq da, su da.
Əlvida, əlvida, şair, əlvida,
Tarix vidalaşdı, zaman ağladı.

## KÖNLÜMÜ

Bir Simnar gərəkdir səmtinə qursun,
Tağı düşmüş bu viranə könlümü.
Fikir əndişədən, cansız cəsəddən,
Qoy gətirsin təzə cana könlümü.

Bülbül nalə çəkir, gülün xar alıb,
Tərlan köçüb, şikarını xar alıb.



Könül baharını boran-qar alıb,
Döndəribdir zimistana könlümü.

Eşqin aşiqiyəm, dərdin həmdəmi,
Onunçün çəkirəm möhnəti, qəmi.
Bivəfa dostların dərdi, sitəmi,
Eyləyibdi aşiqana könlümü.

Qəzanın qəzəbi qətlimi çatdı,
Bəxtim gətirmədi, iqbalım yatdı.
Hicran oxlarını hər gələn atdı,
Fələk qoydu bir nişana könlümü.

Şair Bisavadın görsəydim üzün,
Çəkməzdim bu dərdin əllisin, yüzün.
Bimürvət, insafsız lap sözün düzün,
Qoyub getdin yana-yana könlümü.

## YATIR

Yaxınlaşdım bir məzarın daşına,
Görüm kimdi, burda nə vaxtdan yatır.
Heyrət etdim, tarix çatmır yaşına,
O vaxtdan keçibdir min zaman, yatır.

Bir səda eşitdim: qafil, bir dayan,
Bu sirri qoy sənə eyləyim bəyan.
Dağı cəsarətlə dağ üstə qoyan,
Mühəmtəm* qüdrətli pəhlivan yatır.

Doğulub, ömür edib hərə bir zaman,
Əcəl qapısını döyüb naxahdan.
Mürtədi həyata qaytaran Loğman,
Verirdi bu dərdə min dərman, yatır.

Kimi vaxtlı yatır, kimilər vaxtsız,
Kimi haqlı yatır, kimilər haqsız.

------------------

*Mühəmtəm - cəsur.

Kimi məhv olubdur tamam günahsız,
Kimilər tökübdü nahaq qan, yatır.

Kimi öz nəfsini saxlayır haqdı,
Kiminin xəyalı, fikri nahaqdı.
Kimi şuğulluqda, ara vurmaqda,
Damğalanıb olub kor şeytan, yatır.

Qoy qafil dünyaya meydan oxusun,
Könüllər sındırsın, qəlbə toxunsun,
O kimdir yatmayır hicran yuxusun,
Bəlkə bir guşədə bir milyon yatır.

Çox yazdı, yaratdı, getdi Nizami,
Ölüm xütbəsini oxudu Cami.
Torpaq ağuşuna aldı Xəyyamı,
Onun da köksündə min dastan yatır.

Vəsvi dildə gəzir çox şairlərin,
Vaqifin, Zakirin, həm Ələsgərin.
Qara qiyafədə qəmli dəftərin,
Sıxıbdı qoynuna Natəvan, yatır.

## MÜLKÜLÜ HƏSƏN

Mülkülü Həsən (Hüseynov Həsən Hüseyn oğlu) 1904-cü ildə Tovuz rayonunun Mülkülü kəndində anadan olmuşdur. 25 yaşlarından başlayaraq bədii yaradıcılıqla məşğul olan Mülkülü Həsən bir sıra ictimai vəzifələrdə çalışmışdır.

Xalqın həyatı ilə yaxından bağlılıq Mülkülü Həsənin şe'rlərində aydın görünməkdədir. Qəlblərə yol tapan el sənətkarı Azərbaycan Aşıqlarının III qurultayının iştirakçısı olmuşdur.

### *TƏCNİS*

### A YANA-YANA

Qəza tutdu, qəm də məni çulğadı,
Əl çəkmir yaxamdan a yana-yana.



Qərib-qürbət eldə xəstə düşmüşəm,
Yetiş harayıma, ay ana, ana!

Dost dostunu dar günündə sınaya,
Tifil kimi sarmaşasan sinəyə.
Can gəlibdi, yığılıbdı sinəyə,
Baxıram görünmür ay ana, ana!

Yazıq Həsən, nə ana var, nə ata,
Həzin-həzin gözüm baxır həyata.
Bir şəxsin ki, oyaq bəxti ha yata,
Çevrilər yığvalı ay ana, ana!

### *MÜXƏMMƏSLƏR*

### QONŞUNUZA

Ay qoca, mən aşiqəm,
Sizin qanan qonşunuza.
Əhli-hal, qədirbilən,
Könül alan qonşunuza.
Ləblərindən şirin busə,
Bizə qıyan qonşunuza.
Gül əndamı quyruq kimi,
Qan ki, kamil qonşunuza.
Bu sevdamız tutsa əgər,
Olmaz ziyan qonşunuza.

Yatmasın ovçu gərək,
Tərlanı tutmaq istəsə.
Dözsün gərək hər cəfaya,
Muraza çatmaq istəsə.
Aşiq də öz yarı ilə,
Ülfəti qatmaq istəsə.
Gündüzlər söhbət edir,
Gecələr yatmaq istəsə.
Ölüncə ayrılmaram,
Ollam həyan qonşunuza.

Laçın tək cilvələnib,
Nazına, qəmzəsinə bax.
Danışır tuti misal,
Qumru kimi səsinə bax.
Bir şirin dastan kimi,
Dillərdəki bəhsinə bax.
Hey gülür, hey danışır,
Bir onun həvəsinə bax.
Ərzimi söylə bu gün,
Eylə bəyan qonşunuza.

Yerişi lay-lay vurur,
Sanki göllər qazıdır o.
Yaraşır söz deyəsən,
Şairlər murazıdır o.
İnan ki, aşiqlərin,
Söhbətidir, sazıdır o.
Mən nə deyim, görürsünüz,
Gözəllər şahbazıdır o.
Nə danım, nə gizlədim,
Mənəm heyran qonşunuza.

Bilmə ki, vurulmuşam,
Bu obada mən ona tək.
Dolanır cahal-cümrü,
Ətrafında pərvana tək.
Gör necə gərdən çəkir,
Göldə üzən bir sona tək.
Dönmərəm bu sevdadan,
Girmişəm bu meydana tək.
Həsənəm, payəndazdır,
Bu cismi-can qonşunuza.

## GÖZƏL

Qulaq as, bir sözüm var,
Deyim dərdim sana, gözəl.
Dönübdür sinəm evi,



Zəmbur salan şana, gözəl.
Könlümün taxtı, inan,
Çevrilibdi yana, gözəl.
Qulunam, əsirinəm,
Deyirəm mərdana, gözəl.
Eyləyərmi insan olan?
Bu zülmü insana, gözəl?
Rəhm eylə mən fəqirə,
Qataq canı cana, gözəl.

Mən görüb danışmışam,
Gözəllərin xanımısan.
Gedibdi ixtiyarım,
Qurutmusan canımı sən.
Gec baxan, evlər yıxan,
Qırmısan bir yanımı sən.
Qalmayıb taqəti-dil,
Çün almısan canımı sən.
Əlindən şikayətə,
Mən gedim hayana, gözəl?

Təbiət edib qismət,
Yetirib dildara məni.
Gül yanaq, alma buxaq,
Son vəfalı yara məni.
Yanıram, dad-əlaman,
Salmısan odlara məni.
Həsrətin olub çətin,
Çəkir gündə dara məni.
Qaçırsan öz ovçundan,
Dönmüsən ceyrana, gözəl.

Sərrafam, qiymət qoyam,
Ağ üzünə xala təzə.
Geyinib zər-zibadan,
Bürünmüsən ala təzə.
Qoy edim minnət sənə,
Bəlkə gəldin yola təzə.

Baxmasan car eylərəm,
Ölkəyə, mahala təzə.
Öldürüb sən Həsəni,
Batma nahaq qana, gözəl.

## FƏLƏK

Cəfa çəkdim dolanmadım,
Bir doyunca bağı, fələk!
Yeməyimi, içməyimi,
Sən eylədin ağı, fələk!
Mən nə bilim sən imişsən,
İnsanlara yağı, fələk!
Köhnə yaram sağalmamış,
Bir də vurdun dağı, fələk!

Neynədim, a bimürvət,
Saldın müşkül işə məni.
Yorulub usanmayıb,
Ağlatdın həmişə məni.
Haradan tapdı bilməm?
Bu hicranlı peşə məni.
Aləmə ün salıbdı,
Qəlbimin fərağı, fələk!

Aləm belə gəldi axır,
Hər yığvalım yana döndü.
Dövran tamam dəyişibdi,
Mənimki nə gördüyündü.
Düşünürəm öz-özümə,
Zalım həyat, bu nə gündü?
Tufan əsdi, vaxtsız söndü,
Ömrümün çırağı, fələk!

Yetirdiyim bir oğlumu,
Sən aldın əlimdən mənim.
Anasından ayrı saldın,
Obamdan, elimdən mənim.



Sən özün ki, xəbərdarsan,
Qırılan belimdən mənim.
Qan ağlayıb yaş tökürəm,
Sınıb qolum sağı, fələk!

Mən Həsənəm, yaralıyam,
Qəbul eylə sözlərimi.
Qırdın qolum, qanadımı,
Tökdün iki gözlərimi.
"Qardaş" – deyə ağlar qoydun,
Yeniyetmə qızlarımı.
Toy libası əvəzinə,
Geyindirdin ağı, fələk!

## XATINCANLI KOR SÖYÜN

Zeynalov Hüseyn Dəmir oğlu 1907-ci ildə Tovuz rayonunun Xatıncan kəndində dünyaya gəlmişdir. Üç yaşında çiçək xəstəliyinə tutulduğundan gözlərinin nurunu itirmişdir.

Daxili aləminin işığında gördüklərini, duyduqlarını Kor Söyün adı ilə misralara köçürmüşdür.

## OYADA MƏNİ

Ellər, bilin dostum məndən küsübdü,
Görən salacaqmı o yada məni.
Dilimdə əzbərdi Allahın adı,
Pir deyib dolandır, o ada məni.

Kim deyər özünə pisəm dünyada,
Qiyamət günündə yandırma oda.
Sən mənə rəhm eylə, ey Sirri-Xuda,
Gəl möhtac eləmə o yada məni.

Söyünəm, istərəm işim düzələ,
Həsrətinəm, gəl ürəyim təzələ.
İltimas edərəm belə gözələ,
O şirin diliylə oyada məni.

## AY QOŞA-QOŞA

Ay Xatıncan, bircə məndən danışax,
Ötəri bülbüllər ay qoşa-qoşa.
Neynədin at minən mərd iyidləri?
Köçürdün qoynundan ay qoşa-qoşa.

Kimdi, kim ay yazıq, dərdini bilən?
Əhvalın soruşub, qeydinə qalan.
Həyatım günəşi, azca daldalan,
Qoy çıxsın səmanda ay qoşa-qoşa.

Bir iyid olmasın dünyada varsız,
Heç aşiq olarmı sevdasız, yarsız?
Ağlatma Söyünü, ay etibarsız,
Dağ çəkmə sinəmə ay qoşa-qoşa.

## SINAMAMIŞ

İnsanları bilmək olmaz,
Yeri gəlib sınamamış.
Özün üçün hörmət qazan,
Ellər səni qınamamış.

Nəhlət yaltağın üzünə,
Bədnəzərin bəd gözünə.
Baxmaz atalar sözünə,
Ağzı, burnu qanamamış.

Hüseyn, indi söylə sözün,
Bircə təhlil eylə özün.
Malın yemək, yedirtməyin,
Yox et malın sınamamış.

## AY SİNƏ-SİNƏ

Beyqafıldan üç gözələ tuş oldum,
Şox salıb buxağı ay sinəsinə.



Gözləri aladı, yanağı lalə,
Görən muştaq olur ay sinəsinə.

Üzünə baxanda dərdim bilərlər,
Şirin danışıban, şirin gülələr.
Yaylağı yaylanıb, dağdan gələrlər,
Dağ çəkib dağların ay sinəsinə.

Söyünün sinəsi aşıb-coşanda,
Gözəllərə qoşma-qəzəl qoşanda.
Belə sonalarla qavaxlaşanda,
Uzat əllərini ay sinəsinə.

## SORAĞINDAYAM

Gülün, ay qızlar, mən ruhdan düşmüşəm,
İndi qocalığın sayağındayam.
Əlbəttəki, yaxşı olar cavanlıq,
Mən ki eşq odunun qırağındayam.

Saqqalım ağarıb, bax, dümağ olub,
Tökülüb sinəndən bir qumaq olub.
Andır qalmış ürəyimə dağ olub,
Zalım qocalığın qucağındayam.

Söyün deyər: yenə həmən-həmənəm,
Qurdalasan, höcətdikdə yamanam.
Saqqalım ağsa da, özüm cavanam,
Bir qələm qaşdının sorağındayam.

## NƏ VAR Kİ

Bir adam düz olsa haqqın yolunda,
O savaşa bələnməyə nə var ki.
Əl uzadıb qızıl gülü dərəsən,
Dəstə tutub iylənməyə nə var ki.

Zənbur ola, zəhmətini çəkələr,
Bal becərə, təhnələrə tökələr.
Arx altına körpə şitil əkələr,
Ondan sonra sulanmağa nə var ki.

Bir bəxtəvər öz bəxtindən yarıya,
Zülm odur, bağ salasan quruya.
Bir insanın haxdan işi sarıya,
Söyün deyir: dolanmağa nə var ki.

## QOVALANMAMIŞ

Bizdən salam olsun, Hümbət əmoğlu,
Bir cücə vermisən mayalanmamış.
Gələndən bəridir arvad iyəşir,
Loyvamız qalıbdır payalanmamış.

Mən ha döydüm qohumluqdan keçəsi,
Qoysan bir seçəydi xoruz-beçəsin.
Mənə lazım deyil hindi cücəsi,
Baldırı bərkiyib sayalanmamış.

Pencərin, palçığın yudurdanmadım,
Arvada bir şükür dedirdəmmədim..
Yumurta bişirdim, yedirdəmmədim,
Yamanca tərs imiş yekələnməmiş.

Yazıq Hüseyn yaman azara düşdü,
Söyündüm, əlimə damazdıq keçdi.
Qazancım bir oldu əlimdən uşdu,
Ürəyi söyünüb qovalanmamış.

## NƏYNƏN OLSUN?

Allah bir insanı nəzərdən sala,
Ona can sağlığı, sağ nəynən olsun?
Nitqin tutub əl-qolunu bağlasa,
Dörd yanı bağçalı, bağ nəynən olsun?



Civdə əyər pulun, varın olmasa,
Doğru sözün, düz ilqarın olmasa,
Üzə gələn bir baharın olmasa,
Dost yanında üzün ağ nəynən olsun?

Yazıq Söyün qəm oduna qalandı,
Deməynən ki, bu sözlərim yalandı.
Mə'rifət deyilən varnan olandı,
Adamın əhvalı çağ nəynən olsun?

# XIII. DASTANLAR

## MƏHƏMMƏDLƏ GÜLƏNDAM

Sizə hardan söyləyim, Gəncə şəhərindən. Gəncə şəhərində Salah sövdəgar adında bir kişi var idi. Bu kişinin var-dövləti başından aşırdı, amma züriyyət üzünə həsrət idi. Salah sövdəgar avam idi, oxu-yuf-yazmaq bilmirdi. Ona görə də qırx lotular qumarda onun pulunu udardılar, sövdəgarın hesabına dolanardılar. Günlərin birində qumarbaz lotular başqa ölkəyə keçdilər. Salah sövdəgar yenə tacirliklə məşğul olmağındaydı. O, hərdən Əflatun, Şəbiyi şəhərlərinə alverə gedib-gələrdi. Salah sövdəgarın həmin şəhərlərə gedib-gəlməyi üç ay çəkərmiş.

Sövdəgar səfərdən qayıdanda Van şəhərinin yaxınlığındakı bir meşənin qırağında axşamladı. Burdan bir çay axırdı. Çayın üstündə də bir körpü var idi. Salah sövdəgar qula əmr verdi ki, get bulaqdan su gətir. Qul su gətirmək üçün bulağa tərəf gedəndə gördü ki, ayə, körpünün üstündə köynəkcək, zülfü dağılmış bir gözəl durub, elə bil təzə doğmuş aydı, hər tərəfə işıq saçır. Qul tez tacirin yanına xəbərə qaçdı.

Tacir gəlməkdə olsun, indi sizə xəbər verim, qızdan. Qız kim olsa yaxşıdı, Alı xanın arvadı Pəri xanım. Pəri xanım başına gələnləri bir məktuba yazdı, qoydu körpünün üstünə. Özünü verdi meşənin içinə. Salah sövdəgar gəlib gördü qız nə gəzir? Məktubda da yazıb ki, Qara Vəzir mənim bir cüt oğlumu öldürdü. Salah sövdəgar nə qədər axtardısa qızı tapa bilmədi. Sövdəgarın qıza bərk yazığı gəldi. Odur ki, üzünü haqqa çevirib dedi: "Mən bu məktubu sahibinə çatdıracam. Ey bizi yaradan Allah, sən bu savabın əvəzində mənə bir övlad ver".

Sövdəgar məktubu sahibinə çatdırdı, ordan da qayıtdı Gəncə şəhərinə. Aradan heç bir il keçməmiş Salah sövdəgarın bir oğlu oldu. Adını da Məhəmməd qoydular.

Məhəmmədin altı yaşı tamam olanda atası rəhmətə getdi. Qırx lotular da eşitdilər ki, Salah sövdəgar rəhmətə gedib, tez sayıl paltarı geyib özlərini yetirdilər Gəncə şəhərinə. Gündüz əl altından Salah sövdəgarın var-dövlətinin yerini öyrəndilər, gecə hamısını oğurlayıb apardılar. Sövdəgarın arvadı Şəhrəbanı səhər yuxudan oyananda gördü ki, evdə gecə yatdıqları yorğan-döşəkdən savayı heç nə qalmayıb. Arvad bərk fikrə getdi. Başına gələn bu işi uzun müddət unuda bilmədi.



Ay ötdü, il dolandı, Məhəmməd böyüyüb həddi-büluğa çatdı.

İndi sizə kimdən danışım, Salah sövdəgarın tacir dostlarından. Günlərin bir günü tacirlərin yolu Gəncədən düşdü. Tacirlər dedilər ki, bir gedək, Salah sövdəgara baş çəkək. Gələndə gördülər ki, sövdəgar rəhmətə gedib, ancaq evdə bir cavan oğlan var, elə bil Salah sövdəgarın özüdü ki, durub. Tacirlər soruşdular ki, bu oğlan kimdi? Şəhrəbanı dedi ki, Salah sövdəgarın oğludu, siz gedəndən sonra olub. Onlar məsləhət gördülər ki, qarı nənə, qoy oğlun bizlə getsin, tacirliyi öyrənsin. Şəhrəbanı tacirlərdən soruşdu:

-A bala, bir mənə deyin görüm, gedib-gəlməyiniz nə qədər çəkər?

Tacirlər dedilər:

-Üç ay getməyimiz çəkər, üç ay da gəlməyimiz. Allah qoysa, altı ayın tamamında burdayıq.

Qarı razılığını bildirdi. Tacirlər soruşdular ki, qarı nənə, heç pulun-zadın varmı? Qarı gətirib oğluna üç yüz tümən pul verdi.

Tacirlər Məhəmmədi də götürüb yola düşdülər. Yolda Məhəmmədə tapşırdılar ki, biz deməmiş pulunu xərcləmə. Bunlar üç ay yol gedəndən sonra bir karvansaraya çatdılar. Tacirlər dəvələrlə nökərləri Məhəmmədə tapşırıb şəhərə dağıldılar. Məhəmməd başladı darıxmağa, yollara baxmağa. Bir də gördü ki, uzaqdan duman kimi buğanax gəlir. Yaxınlaşanda gördü cəllad bir nökəri əlibağlı, atın döşündə gətirir. Məhəmmədin nökərə yazığı gəldi. Qılıncın əlinə alıb qəzəbli-qəzəbli cəlladın qabağını kəsdi.

Məhəmməd cəlladdan soruşdu:

-Cəllad, bu adamın günahı nədir, niyə bunu belə edirsən?

Cəllad cavabında dedi:

-Bu adam beş ildi ki, məndən sələminə yüz tümən borc pul alıb. İndi beş yüz pul edir. Borcunu qaytara bilmir deyin indi mənim ixtiyarımdadı.

Məhəmməd cəllada dedi:

-Mənim üç yüz tümən pulum var, onu verim sənə, bu yazığı burax. Cəllad bu sövdaya razı oldu, borclunu azad etdi. Məhəmməd bu adamı da götürüb karvansaraya qayıtdı. Tacirin biri gəlib Məhəmmədə dedi:

-Bala, indi pulunu ver, bir az sənə mal alaq.

Məhəmməd dedi:

-Pulum yoxdu, pulu verdim, bu nökəri azad elədim.

Tacirlər heç nə demədilər. Öz aralarında himləşdilər ki, Məhəm-

mədi yaxın şəhərlərin birində azdırıb getsinlər. Məhəmməd məsələdən duyuq düşüb yoldaşlarına yalvarmağa başlayır:

Başına döndüyüm bəzirganbaşı,
Bu kağızı mənim anama yetir.
Ayağına dəyməsin yolların daşı,
Bu kağızı mənim anama yetir.

Axşam olcaq qaş qaralar düzülər,
Xumarlanıb ala gözlər süzülər.
Sizin də əliniz eldən üzülər,
Bu kağızı mənim anama yetir.

Desələr ki, Məhəmməd harada qaldı?
Deyənən fələk onu qürbətə saldı.
Üç yüz tümən verib bir nökər aldı,
Bu kağızı mənim anama yetir.

Tacirlər məktubu götürüb yola düşdülər. Məhəmmədnən nökər axşama kimi karvansarada qaldılar. Nökər dedi:

-Məhəmməd, gəl gedək sizin evinizə.

Məhəmməd dedi:

-Mən qəribəm. Buradan savayı heç bir yeri tanımıram.

Nökər dedi:

-Onda mənim arxamca gəl.

Məhəmmədnən nökər bir xeyli yol gedib şahın sarayına çatıb elçi daşının üstündə əyləşdilər. Şah bunları hüzuruna çağırtdırdı, üzünü nökərə tutub soruşdu:

-Hə, indi deyin görək nə mətləbə gəlmisiniz, şikayətiniz nədi?

Nökər böyük bir dağı göstərib dedi:

-Şah sağ olsun, mən gəlmişəm bax o dağın qızıl mədənini işə salım.

Şah nökərin sözünə inandı, işə başlamaq üçün tez əmr verdi. Qoşun dağa yeridi, az bir vaxtda qızıl mə'dənini işə saldılar.

Nökərin göstərişi ilə qızıl mə'dəni işə düşdüyünə görə şah Məhəmmədnən nökərə on dörd gözlü bir saray bağışlayır. Nökər Məhəmmədlə şərt kəsdi ki, axşam olanda icazəsiz bir-birimizin qapısını açmayaq.



Nətəri oldusa bir gün səhər tezdən Məhəmməd icazəsiz nökərin otağının qapısını açdı. Baxdı ki, otaqda bir qənirsiz gözəl yatıbdı. Bu qızın on səkkiz-on doqquz yaşı ola-olmaya. Qızın gözəlliyi Məhəmmədin ağlını başından aldı. Məhəmməd özünü saxlaya bilmədi, istədi qızın üzündən bir öpüş alsın. Qız bunun hənirtisinə yuxudan ayıldı, oğlan qorxusundan otaqdan çıxmaq istədi, amma qız qabağını kəsdi. Qız Məhəmmədə tapşırdı ki, bir də mən olan otağa gəlmə.

Aradan bir müddət keçdi. Məhəmməd qızın gözəlliyini heç cür unuda bilmədi. Bir gün sübh çağı Məhəmməd yenə xəlvətcə qızın otağına getdi. İçəri girəndə gördü ki, yorğan qızın üzündən sürüşüb yerə düşüb, qızın üzü ay kimi işıq saçır. Məhəmməd bu dəfə də istədi qızın üzündən öpsün, qız səksənib oyandı, köynəkcək oğlanın qabağını kəsdi. Qılıncın dəstəyini əlinə alıb Məhəmmədə dedi:

-Bu saat kəlmeyi-şəhadətini de! Boynunu vururam.

Oğlan dedi:

-Xanım, bağışla, bizlərdə kəlmeyi-şəhadəti belə deyərlər:

Dilimdə car etdim la ilahi-illəllah,
Bağışla Allaha, öldürmə məni.
Məhəmməd həbibi xətmi-ənbiya,
O kanı-vəfaya bağışla məni.

Qəza məni qürbət elə salıbdı,
Gül irəngim saralıbdı, solubdu.
Gözü yaşlı mənim anam qalıbdı,
Bağışla Allaha, bağışla məni.

Səhər olub, dan qapısı sökülüb,
Bülbüllər yığışıb bağa çəkilib.
Gözəl zülfün dal gərdənə töküIüb,
Tökülən zülfünə bağışla məni.

Dərin-dərin dəryalara dalmışam,
Şirin canı eşq oduna salmışam.
Mən ki, səni o cəlladdan almışam,
Həmin o insafa bağışla məni.

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Qürbət eldə dərdim kimə ağlıyam?
Məhəmmədəm, Salah sövdəgar oğluyam,
Ədalət hakimə bağışla məni.

Söz tamam oldu. Oğlanın məhəbbəti qızın ürəyinə yol tapdı. Mə'lum oldu ki, qızın adı Güləndam xanımdı, özü də Əflatun şahın qızıdı. Güləndam xanım oğlana məsləhət elədi ki, ikimizdən birimiz gedək Gəncə şəhərinə. Orada bir ev, bir dükan, bir hamam tikdirək, ancaq evin kərpicinin bir üzü qızıldan, bir üzü gümüşdən olsun. Hamamın da qapısına bir elan yazaq ki, bu hamam üç ay pulsuz işləyir, kim istəsə, gəlib hamamlansın. Məhəmməd dedi:

-Mən o işi bacarmaram.

Qız dedi:

-Yaxşı, indi ki, belə oldu, mən özüm gedərəm.

Güləndam yenə nökər paltarı geyindi, dəvələri yükləyib yola düşdü. Gəlib çatdı Gəncə şəhərinə. Tez bir vaxtda bütün işlərini qurtardı.

Bu xəbər gedib şaha çatdı. Şah bilirdi ki, bu işləri görən bir cavan qızdı. Öz vəzirini qıza elçi göndərdi. Qız cavabında dedi ki, şah başının dəstəsi ilə bazar günü mənə qonaqdı. Güləndam xanım tez bazar gününə tədarük görür, şaha layiq süfrə açır. Süfrənin üstünə yemək-içməknən bərabər dörd ləl daşı, bir dənə də qılınc qoyur. Şah bunları görüb vəzirdən soruşur:

-Vəzir, bir məni agah elə görüm, bu şeyləri süfrəyə qoymaqla qız mənə nə demək istəyir?

Vəzir dedi:

-Şah sağ olsun, qız deyir ki, mən sənə nə qılınc gücünə gedərəm, nə də qızıl gücünə.

Qız şahnan vəzirin danışığını eşidirdi. Güləndam xanım üzünü şaha tutub dedi:

Başına döndüyüm ədalət şahım,
Ədalətsən, bu sirlərə var indi.
Ya qanginən, ya buradan dur, çəkil,
Tezliyinən paytaxtına var indi.

Vəkil bu işlərdə oldu bilici,
Yazıq vəzir oldu ellər gülüncü.



Görürsənmi bu qan tökən qılıncı?
Onu vuran əl də məndə var indi.

Güləndamam, qızıl güldən ayrıyam,
Həm gülüyəm, həm dibinin xarıyam.
Haqq bilir ki, Məhəmmədin yarıyam,
Məndən olmaz çal xoryada yar indi.

Şah Güləndamın bu sözlərinə qəzəbləndi, qoşununu da çəkib öz taxt-tacına qayıtdı. Qırmızı geyib taxta çıxdı, hökm etdi ki, Vayısa qarı gəlsin. Qarı gəldi, şaha baş endirib dedi:

-Şah sağ olsun, mənə görə nə qulluq?

Şah dedi:

-Məhəmmədə anasının dili ilə elə bir məktub yaz ki, həmin məktub çatan kimi Məhəmməd evinə qayıdıb Güləndam xanımı öldürsün.

Qarı dedi:

-Baş üstə. Mənim əlimdə bu su içmək kimi şeydi.

Vayısa qarı məktubu yazıb yola saldı.

İndi sizə kimdən xəbər verim Məhəmməddən. Məhəmməd neçə vaxt idi ki, qızıl mə'dənlərini işlədirdi. Gəncədən, anasından, Güləndamdan bir xəbər tuta bilmirdi. Günlərin bir günü Vayısa qarının göndərdiyi məktub Məhəmmədə yetişdi. Məhəmməd məktubu oxudu, əhvalatdan halı oldu. Ata minib Gəncəyə tərəf yol başladı. Gecə vaxtı gəlib Gəncəyə çatdı, birbaş evlərinə gəldi. Evin pilləkanında Güləndamnan qabaqlaşdı. Qəfildən xənçəri çıxarıb qızın ürəyinin başına sancdı. Sonra da evə keçib əhvalatı anasına danışdı. Anası da Güləndamın başına gələnləri oğluna söylədi. Arvad sözünü tamam eləyib eşiyə çıxdı. Gördü ki, yerə çoxlu qan tökülüb, amma qız yoxdu. Məhəmmədin anası işdən halı olan kimi üzünü göylərə tutub yanıqlı bir nalə çəkdi:

Zalım fələk, nə iş açdın başıma?
Bu dərdin oduna ha yanım indi.
Çox zülmnən zəhər qatdın aşıma,
Düşüm səhraları dolanım indi.

Qolların qurusun, oğul, Məhəmməd,
Cəmi dərdlərimdən oldu bədahət.

Gecə vaxtı kimə qılım şikayət?
Hicran atəşinə qalanım indi.

Şəhrəbanı qarıyam, gövhər kanıyam,
Əvvəldən qiymətli dürr məkanıyam.
Ağlamaqdan daha qəm tüğyanıyam,
Bu dərdli hicrandan nə qanım indi?

Məhəmməd da anasına qoşuldu, ha axtardılarsa, Güləndamı gördüm deyən olmadı. Odur ki, Məhəmməd ayağına dəmir çarıx geyindi, əlinə dəmir əsa götürüb Gəncədən çıxdı. Qarı qaldı evdə tək.

Məhəmməd yol getməkdə, Güləndamı axtarmaqda olsun, sizə kimdən deyim Güləndamdan. Güləndam xanımı yeddi loğman aparıb öz evində gizlətmişdi. Qırx günlük müalicədən sonra qız ayıldı. Güləndam aldı görək halına münasib nə dedi:

Əzrayıl zülümnən aldı canımı,
Qara gəldi kəm taleyim, ay fələk.
Almamışam bu dünyadan kamımı,
Qara gəldi kəm taleyim, ay fələk.

Dəryalardan ləli-gövhər çəkdirdim,
Dürr üstündən ləli-mərcan tökdürdüm.
Bir otaqnan bir hamam da tikdirdim,
Qara gəldi kəm taleyim, ay fələk.

O zaman ki, əflatunu aldılar,
Çox zülümnən paytaxtımnan saldılar.
Qul yerinə at qabağna saldılar,
Qara gəldi kəm taleyim, ay fələk.

Qadir Allah, seyraqublar bilməsin,
Şahnan vəzir heç kamını almasın,
Güləndamı qeylü-qala salmasın,
Qara gəldi kəm taleyim, ay fələk.

Güləndam əlavə qırx gün də qaldı loğmanların yanında. Loğmanların yeddisi də qıza aşiq oldular. Loğmanlardan biri üzünü qıza tutub dedi:



-Biz sağaltmasaq sən çoxdan ölmüşdün.
Güləndam xanım cavabında dedi:
-Çox sağ olun, yeri gələr, mən də sizin hörmətinizdən çıxaram.
Loğman deyir:
-Nə yeri gəlsə? Sən bizim hansımızı bəyənsən, birimizə getməlisən.
Qız dedi:
-Özünüz bilən məsləhətdi. Amma mən yaman acmışam, izin verin bir xörək hazırlayım, yeyək, sonra danışarıq.
Qız tez bir tər halva çaldı, içinə də bihuşdarı tökdü. Halvanı səkkiz büküm eləyib tərəzidən keçirdi, hamının payı bir bərabər oldu. Güləndam öz payını götürüb bir qırağa qoydu, qalanını payladı. Sonra loğmanlara dedi:
-Kim halva payını tez yesə, ona gedəcəm.
Loğmanlar Güləndamın sözünə inandılar, tez halvanı yeyib bihuş oldular. Güləndam xanım öz payını cibinə qoydu, aldı görək nə dedi:

Nahaq qırdım sizi, günah eylədim,
Getdim, loğman babam, qal innən belə.
Zülmkarlıq edib bədxah eylədim,
Getdim, loğman babam, qal innən belə.

Çərxi-qəza axırımı itirdi,
Şükür olsun, mətləbimə yetirdi.
Hərəsi bir büküm halva ötürdü,
Getdim, loğman babam, qal innən belə.

Əsil gülün ətrafında xar olmaz,
Xar vursa da, gül yarpağı saralmaz.
Güləndamdan, loğman, sizə yar olmaz,
Getdim, loğman babam, qal innən belə.

Söz tamama yetdi, Güləndam xanım yola rəvan oldu. Gethaget, gethaget gedib bir dağın ətəyinə çıxdı. Burda bir çobana rast oldu. Qız yenə hiyləyə əl atıb çobana dedi:
-Nənən məni sənə alır, bax gör xoşuna gəlirəmmi? İndi məsləhət səndədi.

Çobanın bir gülündən min gül açıldı, üzünü qıza tutub dedi:

-Belə nənəmə də qurban olum, onun bəyəndiyi qıza da.

Qız dedi:

-Mən yaman acmışam, gör yeməyə bir şey varmı?

Çoban tez bir əmlik kəsdi, kələpir bişirdi, qıznan ikisi də yedilər. Yeyib-içəndən sonra Güləndam çobana dedi:

-Nənən sənə Tanrı payı göndərib.

Qız cibindəki tərhalvanı çıxardıb çobana verdi. Çoban tərhalvanı yeyib bihuş oldu. Qız çobanın paltarını özü geydi. Yenə də yol başladı. Günə bir mənzil, az getdi, çox getdi, gedib bir meşədə bir talaya rast gəldi. Gördü burda gül-gülü çağırır, bülbüllər cəh-cəh vurur. Güləndam xanım coşa gəldi. Aldı görək nə dedi:

Ərənlər sərvəri, ərənlər şahı,
Mənim bu dərdimə dərman eyləyin.
İmamlar padşahı, dinin pənahı,
Mənim bu dərdimə dərman eyləyin.

Dərin-dərin dəryalara dalmışam,
Şirin canı eşq oduna salmışam.
Səhralarda zəlil, müstər qalmışam,
Mənim bu dərdimə dərman eyləyin.

Güləndamam, düşdüm çöldən-çöllərə,
Axdı eynim yaşı döndü sellərə.
Ağlaya-ağlaya düşdüm yollara,
Mənim bu dərdimə dərman eyləyin.

Söz tamama yetdi, Güləndam yola rəvan oldu. Az getdi, çox getdi, gəlib bir şəhərə çıxdı. Baxdı ki, bu şəhərdə camaat yığılıb özlərinə şah seçirlər. Güləndam xanım da adamlara qarışdı. Elə bu vaxt şahlıq quşunu göyə buraxdılar. Adamlar bir də baxdılar ki, quş bir az göydə qanad çalandan sonra aşağı enib bir çobanın başına qondu. Həmin çobanı döyüb bir otağa saldılar. Şahlıq quşunu bir də uçurtdular. Gördülər ki, quş bu dəfə də pəncərəni sındırıb içəri girdi, yenə bayaqkı çobanın başına qondu. Yenə quşu qovub eşiyə çıxartdılar. Quşu üçüncü dəfə uçurtdular. Quş yenə həmən çobanın başına qondu. Camaat bu işə lap məəttəl qaldı. Vəzir də camaatın arasında



idi. Vəzir işi belə görüb yanındakılara dedi:

-Siz gedib çoban olan otağın qapısını pusun, görün çoban o quşa nə deyir?

Çobanı pusanda gördülər ki, çoban quşu əlinə götürdü, o üzündən, bu üzündən öpdü, ağlayıb dedi:

-Ay Allahın dilsiz-ağızsız məxluqu, mənə İlahidən qismət yoxdu. Get, o qəlbindən şahlıq keçənlərdən birinin başına qon. Əgər mənə şahlıq qismət olsaydı, öz atamın təxti-tacı özgələrə qismət olmazdı.

Adamlar gəlib bu sözləri vəzirə çatdırdılar. Vəzir dedi:

-Onun danışığı heç çoban danışığına oxşamır. Tez gedin onu mənim yanıma gətirin.

Çobanı vəzirin yanına gətirdilər. Vəzir üzünü çobana tutub dedi:

-Qardaş, şahlığı bacara bilərsənmi?

Çoban cavabında dedi:

-Niyə bacarmıram?

Həmin saatdan çobanı şah seçdilər. Şah taxta çıxan kimi hökm elədi ki, bir mahir şəkilçəkən gəlsin. Şəkilçəkən gəldi. Şah yeddi şəkil çəkdirdi, yeddi bulaq sazladıb hər bulağın başına bir şəkil qoydurdu. Hərəsinin də yanına bir qarovulçu təyin elətdirdi. Sonra qarovulçuları yanına çağırıb əmr elədi:

-Bu bulaqların başında əylənən adamlara fikir verin. Hər kim bulaqdan su içib sakitcə yolunnan getsə, ona dəyməyin. Əgər görsəniz ki, biri şəklə baxanda ağladı, güldü, bir söz dedi, o saat həmin adamı mənim hüzuruma gətirin.

Şah öz işində, hökm verməyində olsun, indi eşit loğmanlardan. Loğmanlar qalxanda gördülər ki, qız bunların yanına bir məktub yazıb qoyub, özü də harasa çıxıb gedib. Həmin gündən loğmanlarda qızı axtarmağa başlayırlar. Onlar gəzə-gəzə qızın şahlıq elədiyi məmləkətə gəlib çıxdılar. Şah düzəltdirdiyi bulağın başında dayanıb su içdilər. Bir az burda dayanandan sonra birdən loğmanların gözü qızın şəklinə sataşdı. Onlar qızın şəklini görən kimi başladılar gülməyə. Qarovulçular bunu görüb loğmanları tez şahın hüzuruna apardı. Şah loğmanlara böyük bir saray, çoxlu var-dövlət bağışladı.

Bunlar burada qalsın, sizə kimdən xəbər verim, çobandan. Çoban da loğmanlar kimi ayılanda gördü qız-zad nə gəzir. Qız bunun paltarını soyundurub aparıb, öz pal-paltarını da bir məktubnan bərabər çobanın yanında qoyub gedib. Çoban da başladı qızı axtarmağa. Gün o gün oldu ki, çoban da gəzə-gəzə gəlib qızın düzəltdirdiyi bulaqlar-

dan birinin başına çıxdı. Əyilib bulaqdan su içmək istəyəndə qızın şəklini gördü. Çobanın gözünün yaşı bulağın suyuna qarışdı. Bu da qarovulçunun gözündən yayınmadı. O saat çobanı şahın hüzuruna apardılar. Şah çobana çoxlu zər-ziba bağışladı.

İndi görək Məhəmməd necə oldu? Məhəmməd ayağında dəmir çarıq, əlində dəmir əsa bütün dünyanı dolandı. Güləndamdan bir xəbər tuta bilmədi. Axırda Məhəmməd gəzə-gəzə gəlib qızın məmləkətinə çıxdı. Məhəmməd yorulub əldən düşmüşdü, özü də bərk susamışdı. Odu ki, özünü zorla şahın düzəltdirdiyi bulaqlardan birinin başına çatdırdı. Məhəmməd bulaqdan doyunca su içdi, uzanıb yorğunu almaq istəyəndə bir də gördü ki, Güləndamın şəkli budu ha bulağın başındadı. Məhəmməd şəklə baxıb bir başına döydü, bir dizinə. Gözünün yaşını sel kimi axıtdı. Qarovulçu üzünü Məhəmmədə tutub soruşdu:

-Oğlan, bir məni bu sirdən agah elə görüm, sənə nə oldu, niyə ağladın?

Məhəmməd dedi:

-Mənim dərdim dilnən deyiləsi deyil, dilnən desəm, dilim alışıb yanar. İzn ver, saznan deyim.

Məhəmməd sazını sinəsinə basdı, aldı görək yana-yana nə dedi:

Ay ağalar, gəlin sizə söyləyim,
Ellər, axtardığım maralı tapdım.
Xəncər alıb bağrım başın teyləyim,
Ellər, axtardığım maralı tapdım.

Sağlığında mən çəkmədim nazını,
Sinəm üstə qoydu hicran gözünü.
Adı bəlli Əflatun şah qızını,
Surəti şəkildə yaralı tapdım.

Məhəmmədəm, neyləmişəm, neyləyim,
Xəncər alıb bağrım başın teyləyim.
Öz dərdimi dinar-dinar söyləyim,
Ellər, axtardığım maralı tapdım.

Söz tamama yetdi, qarovulçu Məhəmmədi şahın hüzuruna apardı. Şah oğlanı tanıyıb əmr etdi ki, bunu da loğmanlarnan çobanın yanına



aparın. Onların yanında dincəlsin.

Bir neçə gündən sonra şah çobanı hüzuruna çağırtdırıb dedi:

-Çoban, de görüm, sənə nə verim, sən məndən razı qalasan?

Çoban dedi:

-Şah sağ olsun, o gördüyün sürü itibdi, heç bilmirəm neyləyim?

Şah ona bir sürü bağışlayıb yola saldı. Sonra loğmanları çağırıb dedi:

-Loğman baba, sizə nə versəm məndən razı qalarsınız?

Dərvişlər dedilər:

-Hərəmizə bir çanax qızıl ver, özümüzü də burax gedək dərvişliyimizi eləyək.

Şah əmr etdi ki, dərvişlərin hərəsinə bir çanax qızıl verib yola salsınlar. Bunlar gedəndən sonra şah Məhəmmədi hüzuruna çağırtdırdı. Məhəmmədə dedi ki, indi başına gələnləri söyləyə bilərsən. Məhəmməd olub-keçənlərin hamısını bir-bir şaha söylədi. Şah əhvalatdan halı olan kimi əmr elədi:

-Bunu tövləyə göndərin, qoyun-dəvələrin altını süpürsün.

Üç gündən sonra şah yenə Məhəmmədi hüzuruna çağırtdırdı, üzünü ona tutub dedi:

-İndi şahlıq paltarını geyin, taxta çıx görüm, şahlıq sənə yaraşırmı?

Məhəmməd şahlıq paltarı geyinib taxta çıxdı. O saat Güləndam zülfünü saz eləyib aldı görək nə dedi.

Cəllad olub şirin canım alan yar,
Keçən keçib, taxtın mübarək olsun!
Şirin canım eşq oduna salan yar,
Keçən keçib, taxtın mübarək olsun!

Aldı Məhəmməd:

Başına döndüyüm, qurban olduğum,
Bağışla təqsirim, səhv eyləmişəm.
Alışıb oduna büryan olduğum,
Bağışla təqsirim, səhv eyləmişəm.

Aldı Güləndam:

Necə qıydın, sevdiyini öldürdün,
Bu dərdini cəm aləmə bildirdin.
O zalım vəzirnən şahı güldürdün,
Keçən keçib, taxtın mübarək olsun!

Aldı Məhəmməd:

O zaman ki, düşdüm sənnən aralı,
Dərd əlindən gəzdim yaslı-yaralı.
Bulammadım sənin kimi maralı,
Bağışla təqsirim, səhv eyləmişəm.

Aldı Güləndam:

Tanırsanmı Güləndamı üzünnən?
Görürsənmi dürr tökülür sözünnən?
Mənə sitəm qıldın namərd sözünnən,
Keçən keçib, taxtın mübarək olsun!

Aldı Məhəmməd:

Dağların başına dolanır duman,
Səndən ayrı düşdüm xeyli bir zaman.
Məhəmmədin səri yolunda qurban,
Bağışla təqsirim, səhv eyləmişəm.

Söz tamama yetdi. Bunlar şahlıq dövrünü sürüb başa çatdıran zaman Güləndam Məhəmməddən soruşdu:

-Məhəmməd, bəs görəsən Şəhrəbanı qarı necə oldu?

Məhəmməd cavabında qayıtdı:

-Biz bir də o yerlərə qayıtmayaq. O vilayət bizə lazım deyil.

Güləndam xanım dedi:

-Səhvin var, Məhəmməd, biz gərək geri dönək, həm düşməndən qisasımızı alaq, həm də ananı axtarıb tapaq.

Güləndam xanımın tədbiri ilə çəkidə yüngül, qiymətdə ağır nə varıydısa dəvələrə yüklədilər, qoşunu çəkib yola düşdülər. Gəlhagəl, gəlhagəl, gəlib çatdılar Gəncə şəhərinə. Şahın qoşunlarını özlərinə tabe etdilər. Güləndam xanım Məhəmmədnən bərabər özünün tikdirdiyi üçmərtəbəli evin qabağına gəldi. Bunlar içəri girəndə baxdılar ki, Şəhrəbanı qarı oturub piltəsiz cəhrə əyirir. Güləndam xanım qarıdan soruşur:

-Ay nənə, piltə yoxdu, bə sən nə əyirirsən?

Şəhrəbanı qarı cavabında dedi:

-Bala, mən dərdimi əyirirəm.

Bunlar diqqətnən baxanda gördülər ki, qarı yazığın gözləri tutulub, heç kimi tanımır. Güləndam xanım aldı görək qarını necə dindirdi:



Başına döndüyüm, ay qarı nənə,
Ay nənə, müjdə ver, oğlun gəlibdi.
Şad xəbər söyləyim mən dönə-dönə,
Ay nənə, müjdə ver, oğlun gəlibdi.

Aldı qarı:

Başına döndüyüm, ay səsi gələn,
Sən Allah, deginən oğlun ölübdü.
Qara bağrım şan-şan eyliyib dələn,
Sən Allah, deginən oğlun ölübdü.

Aldı Güləndam xanım:

Qarğama, ay nənə, oğlun ölməsin,
Qeyri-bağban bağdan gülün dərməsin.
O vəzirnən şahın üzü gülməsin,
Ay nənə, müjdə ver, gəlnin gəlibdi.

Aldı qarı:

Bu dərd məndə nə sağalmaz, nə qala,
Fələk salıb məni bu qeylü-qalâ.
Müşkül işdi, ölən bir də sağala,
Neçə ildi, mənim gəlnim ölübdü.

Aldı Güləndam xanım:

Sənin ilqarını doğru bilmişəm,
O səbəbdən qulluğuna gəlmişəm.
Güləndamam, xidmətində olmuşam,
Ay nənə, müjdə ver, gəlnin gəlibdi.

Aldı qarı:

Şəhrəbanı qarıyam, gövhər kanıyam,
Əzəldən qiymətli dürr məkanıyam.
Gözlərim görmür ki, görəm, tanıyam,
Yəqin biləm, mənim gəlnim gəlibdi.

Söz tamama yetdi. Güləndam xanım qarının gözlərinə məlhəm qoydu, qarının gözlərinə işıq gəldi. Qarı oğlunu, gəlnini tanıdı. Görüşdülər, öpüşdülər, şadyanalıq elədilər.

## SƏMƏDLƏ SAVAD

### USTADNAMƏ

Dostum, fikir çəkib heç qəm eyləmə,
Ölməz-itməz, daim duran dünyadı.
Yoxdu e'tibarı, insaf, mürvəti,
İgidlər qanını soran dünyadı.

Fələyin bu dərdi məni alıbdır,
Dövran mərd işini tərsə salıbdır.
Daimi şan-şöhrət kimə qalıbdır,
Eşqin qəm atını yoran dünyadı.

Öysüzlü Səmədəm, düşdüm gümana,
Namərdlər dad edir, gəlmir imana.
Gülməyir üzümə belə zamana,
Yaram üstə yara vuran dünyadı.

Ustadlar ustadnaməni bir deməyiblər, iki deyiblər. Biz də deyək iki olsun, düşməniniz tək olsun:

Ulu Tanrı, bu fanidən köçürəm,
Qəm ləşkəri durub gəlsə, nə deyim?
Bu dünyada pünhan olan günahım,
Qiyamətdə aşkar olsa, nə deyim?

Kərim Allah, rəhmin gəlsin naçağa,
Qoyun necə tab gətirir bıçağa?
Sallayıb qəbirə, bükürlər ağa,
İnkir-minkir xəbər alsa, nə deyim?

Aşıq Səməd, doy dünyanın bəhsindən,
Oxu əlif-lamı, həmi yasindən.
İsrafilin qeylü-qallı səsindən,
Qəbir qazıb, ocaq olsa nə deyim?

Ustadlar ustadnaməni iki deməyiblər, üç deyiblər. Biz də deyək üç olsun, düşmənlərin ömrü heç olsun:



Yüz il də olasan bir bağa bağman,
Axır sərəncamı bağ sənə qalmaz!
Nə can qalar cəsədinin içində,
Nə də ki, cəsədin sağ sənə qalmaz!

Bir gün də qabağın açılsa yoldan,
Yenidən uzağa düşərsən dostdan.
Dirrikçi olasan, əkəsən bostan,
Nə şamama, nə də ki, tağ sənə qalmaz!

Qəlbimin tərlanı düşüb borana,
Fikrim dağınıqdı, qəlbim virana.
Yüz min yol salasan dağa, arana,
Nə aran, nə də ki, dağ sənə qalmaz!

Gərək mərd olasan, durasan yolda,
Çox-çox pəhlivanı yorasan yolda.
Yüz əlli minarə qurasan yolda,
Heç birindən bir otaq sənə qalmaz!

Səməd ki, var, dala baxmaz yerirsən,
Dağnan olsan, qılnan qalmaz, ərirsən.
Daşlar altda, torpaq üstdə çürürsən,
Axır sümüklərin sağ sənə qalmaz!

Sizə kimdən xəbər verim, nədən xəbər verim, ustad dediyindən. Əyyami-qədimdə Şəmşəddin mahalının Öysüzlüyü yurdunda Əskər ağa adlı varlı, dövlətli bir kişi var idi. Bu ağa çox səxavətli, adil bir adam idi. Bütün mahal ondan razılıq edirdi.

Əsgər ağanın oğlu Səməd on altı yaşına çatmışdı. Boy-buxunlu, bığ yeri yenicə tərləmiş cavan idi. Ancaq ağa oğlu olduğuna baxmayaraq çox utancaq idi. Qəti ağalığın işləri ilə maraqlanmazdı. Həmişə fikirli olur, tay-tuşundan uzaq gəzirdi. Ağalığın bəzi ağzı göyçəkləri, istəməyənləri bunu özünə dərd edirdi.

Bir gün Əsgər ağa uzaq səfərdən qayıtdı. Səməd dərhal atasının qabağına çıxıb üzəngini basdı. Onun düşməyinə kömək etdi. Kişi dedi:

-Səməd, at bərk tərləyib, nökərlərdən birinə ver, qoy gəzdirib

atın tərini soyutsunlar.
Səməd də nökərləri buyurmaq əvəzinə atı özü apardı. Əsgər ağa bərk qəzəbləndi, ürəyində dedi ki, ay Allah, niyə sən bunu belə aciz yaratdın? Bu öz qapısının nökərini də buyura bilmir. Məndən sonra ağalığın axırı necə olacaq? Sənə fəda olum, özün bunun qismətini ver.
Səməd də atı qara qüzehdə gəzdirib soyutdu. Gördü ki, heyvan ota dartınır, çidarlayıb buraxdı. Özü də bir dikdirə dirsəkləndi. Çox fikirli olduğundan onu yuxu apardı. Gördü ki, yolu itirib, özü də hansı tərəfə gedəcəyini bilmir. Bir də gördü ki, qabağında əli çəlikli bir kişi var. Qoca dedi:
-A bala, bilirəm, yolu itirmisən. Dalımca gəl.
Səməd də həmişəki üzüyolalıqla qocanın dalınca getdi. Gəlib bir sarayın qabağına çatdılar. Qoca içəri keçdi, Səməd də onun dalınca. Gördü ki, ağ xalçanın üstündə ağ çalmalı, ağ əbalı, ağ sifətli bir kişi oturub bunlara baxır. Qoca dedi:
-Sənə fəda olum, bunun qismətini ver, çıxsın getsin.
Səməd başa düşdü ki, bu ağ paltarlı, ağ sifətli kişi onun ağasıdır. Ağası ona bir cam uzadıb dedi:
-Oğul, ala bu badəni nuş elə.
Səməd yenə adəti üzrə dinməzcə camı alıb nuş elədi. Birdən qəfil bir atəş canını bürüdü. İstinin təsirindən dodağı çatladı, çənəsi aşağı al qan süzüldü. Atası dedi:
-Oğul, bu cam eşq camıdır. Ancaq dodağının qanamağı heç məni açmadı. Get, Hil şəhərindəki Hasan xanın qızı Savad xanımı sənə, səni də ona buta verdim.
Kişi sözünü qurtaran kimi sarayla bərabər qeybə çəkildi. Səməd bərk diksinib yuxudan ayıldı. Gördü ki, nə saray var, nə də cam, huşunu itirib yıxıldı.
Axşam toran düşüb şər qarışanda Əsgər ağa Səmədi soruşdu. Nökər dedi:
-Günortadan atı Qara qüzeyə apardığıdır, hələ gəlməyib.
Dünya elə bil kişinin başına hərləndi. Çığırdı:
-Allah kökünüzü kəssin, bəs niyə durmusunuz? Orada vahimədən adam gündüz dura bilmir, o da ki, gecə ola!
Kişi bütün ağalığa haray saldı. Atlı, piyada hamı özünü Qara qüzeyə yetirdi. Gördülər ki, Səməd huşsuz uzanıb. Ağzından gedən köpük dodağının qanına qarışıb. At da çidarlı-çidarlı qurdla, quşla əlləşir. Götürüb evə gətirdilər. Əsgər ağa hər tərəfə təbib-loğman



dalınca adam yolladı, at saldırdı. Başı çıxan olmadı. Axırda axund Kərbəlayı İbrahim gəldi. Xəstəyə baxıb dedi:
-Bu cavanda heç nə yoxdur. Üç gün keçər, əvvəlki halına düşər.
Üç gündən sonra Səməd özünə gəldi, Əsgər ağa dedi:
-Oğul, bu nə idi bizim başımıza gətirdin. Bizi bu sirdən agah elə.
Səməd saz istədi. Sazı gətirdilər. Bütün camaat Əsgər ağanın evinə yığışdı. Səməd sazı sinəsinə basıb ona buta verən kişinin şə'ninə görək nə dedi:

Mövladan səda gəldi,
Gördüm ki, bayram günüdür!
Dəstində bada gəldi,
Gördüm ki, bayram günüdür!

Üç kəlmə dilində gəldi,
Zülfüqar belində gəldi.
Dəstəsi əlində gəldi,
Gördüm ki, bayram günüdür!

Zülfüqar göydən sallanır,
Qanından dünya allanır.
Qızıl öküz də dillənir,
Gördüm ki, bayram günüdür!

Səmədəm, yaxında gördüm,
Əlinin sağında gördüm.
Behiştin bağında gördüm,
Gördüm ki, bayram günüdür!

Səməd sözünü tamama yetirdi. Gördü camaatın içində bir molla donquldanır ki, daha günümüz ağarıb. Əsgər ağadan sonra ağalıq da aşıqların əlində olacaq. İşlər belə getsə, ölünü də sazla götürəcəklər. Səmədin qulağı bu sözü çaldı. Aldı görək mollaya nə dedi:

Hərcayıya dost deyərsən, o sənə düşmanam deyər,
Dostluğu başacan eylə, axırda peşmanam deyər.
Hər kəs bir əlif-bey deyib alır əlinə çərəkə,
Ərəbcə mə'nasın bilmir, qarəyi-Qur'anam deyər.

Hərcayını dindirərsən, məclislərdə dil olacaq,
Zibillikdə bitən lalə xarabalıqda gül olacaq.
Qayalardan daman damcı mal izində göl olacaq,
Bir yol tapıb axar tapsa, dəryayi-ümmanam deyər.

Axmaq adamın məclisdə gələr sözünə həvəsi,
Həmişə hümbət üstədi peyğəmbərin əl kölgəsi.
Peyğəmbər haqqın tərəfindən Əlini tutdu vəsi,
Ömər də taxta çıxıb mən də bir divanam deyər.

Ey biçarə aşıq Səməd, axırı çox çəkdin zillət,
Bir kimsənə yol göstərdi, dedi, bax, ordadı cənnət.
Qananlar hörmət edər, qanmazlar bilməz nədir izzət,
Görməzlər yol göstərir, mən ordan bilənəm deyər.

Söz tamama yetdi. Camaat baxıb gördü ki, molla çoxdan dabanına tüpürüb. Hamı bir-birinə dedi ki, haqq aşığı hər sirrə vaqif olur. Əgər haqq aşığıdırsa, qoy bu dünya haqqında hələ deyilməmiş bir söz desin. Aldı görək aşıq Səməd bu gəlimli-gedimli dünya barəsində nə dedi:

Gəl mən səndən xəbər alım,
"Kaf" "nun"a xəlq olan dünya!
Əzəli gəl-gəl eylədin,
Sonra oldun yalan dünya!

Dünya, sən ki, əzəlkisən:
Hələ ananın ilkisən.
Neçə Süleyman mülkü-sən,
Bərbad edib, qalan dünya!

Necə ki, Səməd var idi,
Hər dərdə giriftar idi.
Sinəsi qəm dəftəridi,
Dilindədi qələm, dünya!

Söz tamama yetdi. Hər tərəfdən "Afərin, doğrudan da, haqq aşığıdır", -kəlmələri eşidildi. Əsgər ağa camaatı dağıdıb Səmədi sakitləşdirməyə başladılar. Onlar burda qalmaqda olsun, sizə kimdən



xəbər verək, Savad xanımdan.

Savad xanım gecə-gündüz yatmayıb, Səmədin yolunu gözləyirdi. Səmədi də ki, atası Əsgər ağa anası Pərzad xanım evdən çölə çıxmağa qoymurdular. Axırda Savad xanımın ürəyi bu ayrılığa tab gətirməyib görək Səmədi necə arzuladı:

Ay havada uçan quşlar,
Bu kağızı Səmədə yetirin!
Qanad çalar, mənzil başlar,
Bu kağızı Səmədə yetirin!

Dəhanımda tutmur dillər,
Gözlərimə batıb millər.
Qopan tufan, əsən yellər,
Bu kağızı Səmədə yetirin!

Sən ey göylə gedən mələk,
Nə başıma gətdin kələk.
Çarxımı döndərdi fələk,
Bu kağızı Səmədə yetirin!

Yetiş dadıma, ərənlər,
Gizli sirlər bilənlər.
Bu dərdi bizə verənlər,
Bu kağızı Səmədə yetirin!

Həmişə peyman üstəyəm,
Ciyəri al qan üstəyəm.
Mən Savadam, can üstəyəm,
Bu kağızı Səmədə yetirin!

Savad şe'ri oxuduqca qarabaş kağıza yazırdı. Qurtaran kimi Savad məktubu sümürğ quşunun ayağına bağlayıb quşu buraxdı. Savad xanım orda qalmaqda olsun, indi görək Səməd neynədi.

Bir gün Səməd yenə fikirli-fikirli bağda gəzirdi. Qəfil hiss etdi ki, çiyninə nə isə qondu. Gördü ki, sümürğ quşudur, ayağında da məktub. Tez açıb kağızı oxudu. Eşq başına vurdu. Sazı sinəsinə basıb bu münasibətlə görək nə dedi:

Bizim üçün namus olsun, ar olsun,
Kağız yazan kağzın gəldi, yetişdi!
Kağız yazan, ağ əllərin var olsun,
Kağız yazan, kağzın gəldi, yetişdi!

Elə yazmayıbsan biz onu bilək,
Fələk qoymur qəmdən baş alıb gülək.
Gətiribdir göylərdə gəzən mələk,
Kağız yazan, kağzın gəldi, yetişdi!

Qırxların camından içmişəm bada,
Haqq özü yetişsin dada, imdada.
Mövlam nicat versə iki saata,
Səməd qulluğuna gəldi, yetişdi.

Səməd sözlə dediyini kağıza da yazdı. Sümürğ quşunu buraxdı. Ata-anası gördü ki, daha Səmədi saxlamaq mümkün deyil, hər ikisi xeyir-dua verdi. Səməd sazını da götürüb yola çıxdı. "Ya mövlam, səndən mədəd"-deyib ağasını çağırdı. Gözünü açıb yumana kimi ağası onu Hil şəhərinə çatdırıb dedi:

-Səməd, bu şəhərdə bir Ağarza xan var. Yəhudi qızının sözü ilə dinindən dönüb. Onu dininə qaytarmağı da sənə tapşırıram. Savadı da onun toyunda görəcəksən.

Səməd şəhəri gəzə-gəzə gəlib bir imarətin qabağına çıxdı. Sən demə bu da Səlim xanın imarəti imiş. Xan aynadan baxanda gördü ki, bir cavan oğlan çiynində də saz onun evinə tamaşa edir. Özü də heç buralar adamına oxşamır. Əmr verdi ki, Səmədi gətirsinlər içəri. Səməd bir də onu gördü ki, iki zırpı qul qollarından yapışdı. Nəfəsini dərməmiş onu itələyib saldılar içəri. Səməd baxdı ki, bir gözəl sarayın içərisindədir, Səlim xan soruşdu:

-Aşıq, adın nədir, özün haralısan?

Səməd özünü nişan verdi. Nə başınızı ağrıdım. Səlim xan Səmədə yaxşı hörmət elədi. Səhər məclis quruldu. Xan Səməddən xahiş elədi ki, bu şəhərdə bir aşıq Fatma var, onunla deyişib bir yaxşı məclis aparsın.

Aşıq Fatmanı gətirdilər. Səməd baxdı ki, bu yüz əlli yaşlı bir qarıdır. Özü də bütün aşıqların sözlərini əzbər bilir. Tanımayan adam olsa elə bilər ki, ifritədir, qorxudan bağrı çatlar.



Qarı sazı götürüb dedi:

-Aşıq, qabağa düş görüm.

Qarının zəhmindən Səmədin matı-qutu qurumuşdu. Bir təhər özünü ələ alıb dedi:

-Bizlərdə fürsəti rəqibə verirlər. Sən de, mən cavab verim.

Aşıq Fatma görək nə dedi, Səməd nə cavab verdi, ərz eləyək qulluğunuza, kefiniz kök olsun.

Əyləşibsən bu məqamla dur, aşıq,
Desin görək nənən sənə nə deyir!
Mən dinməmiş cavabımı ver, aşıq,
Desin görək nənən sənə nə deyir!

Aldı aşıq Səməd:

Əyləşibən bu məqamda duraram,
Desin görək nənəm mənə nə deyir!
Sən dinməmiş cavabını verərəm,
Desin görək nənəm mənə nə deyir!

Aldı aşıq Fatma:

Oxunur tarixdə yüz əlli yaşım,
Səksənin də tamam ağardı başım.
Doxsanda qalmadı ağzımda dişim,
Desin görək nənən sənə nə deyir!

Aldı aşıq Səməd:

Mənim ağlım həqiqətdən qanandır,
Əlimdəsən, sənin halın yamandır.
Yüz əlli yaşında vədən tamamdır,
Desin görək nənəm mənə nə deyir!

Aldı aşıq Fatma:

Yox, yanıldım, nə əlliyəm, nə yüzəm,
Ürəkdən bütünəm, qamətdən düzəm.
Yüz əlli səhv oldu, cavan bir qızam,
Desin görək nənən sənə nə deyir!

Aldı aşıq Səməd:

Sənin yaşın əlli olmaz, yüz olmaz,
Ürək bütün, qamətin də düz olmaz.
Bu sinnidə, bu sifətdə qız olmaz,
Desin görək nənəm mənə nə deyir!

Qarı yandı-yaxıldı. Çərtdək boyda olan gözlərindən od çıxdı. Caynağa oxşayan dırnaqlarını saza elə çəkdi ki, az qaldı tellər qırılıb tökülsün.

Aldı aşıq Fatma:

Aşığam, çoxuna qırmışam hillə,
Danışa bilmirəm sən tək tifillə.
Arxan qaya olsun, qabağın güllə,
Desin görək nənən sənə nə deyir!

Səməd gördü ki, ayə bu qarı qanı-qarğışı çəkib tökür. Öz-özünə dedi ki, əgər bu kafir arvadın cavabını verməsəm camaat deyəcək ki, qonaq aşıq qorxdu.

Aldı aşıq Səməd:

Elə sözü danışmaz heç müsəlman,
Sən öləndə nəyə lazımdı Qur'an.
Əməli iblissən, axirəti beyman,
Desin görək nənəm mənə nə deyir!

Aldı aşıq Fatma:

Qarı ömrü hər tərəfə bağlanar,
Cavan sinən çalın-çarpaz dağlanar.
Kötük üstə çox çırpılar doğranar,
Desin görək nənən sənə nə deyir!

Aldı aşıq Səməd:

Əməl səni cəhənnəmə sürüyər,
Üzərinə yüz min oxlar yeriyər.
Çırpı altda çox kötüklər çürüyər,
Desin görək nənəm mənə nə deyir!



Qarı gördü ki, yox bu nə deyirsə, Səməd cavabını iki qat qaytarır. Fikirləşdi ki, gəl cavanlıq dövrünü tə'riflə, bəlkə ürəyi yumşala, çıxa gedə.

Aldı aşıq Fatma:

Elmimdə dəryayam, adım Fatmadı,
Çox gəlinlər, qızlar mənə çatmadı.
Yanağım almadı, qaşım çatmadı,
Desin görək nənən sənə nə deyir!

Səməd ürəyində güldü, öz-özünə dedi ki, gəl buna axır məkanını göstər, bəlkə onda yolunu tanıya.

Aldı aşıq Səməd:

Mən Səmədəm, eşq oduna qalannam,
Çaylar kimi, sellər kimi bulannam.
Sifətin əqrəbdi, yerin cəhənnəm,
Desin görək nənəm mənə nə deyir!

Söz tamama yetdi. Hər tərəfdən "Sağ ol, yaşa, aşıq Səməd" sədaları ərşə ucaldı. Aşıq qaçmaq istəyirdi. Camaat halqa-mə'rəkə eyləyib buraxmadı. Səməddən təvəqqe elədilər ki, bir yol deyişsinlər, özü də qabağa Səməd düşsün. Aşıq Səməd razı oldu. Məsələni uzatmamaq üçün birdəfəlik qıfılbənddən başladı.

Səndən xəbər alım, ay aşıq Fatma,
Söylə kimdi ustaların ustası?
Kim təhərə gətirdi, kim nişan aldı,
Çıxardı dəryadan dəstində dəsti?

Aşıq Fatma qıfılbəndin cavabını tapa bilmədi, donquldandı:
-Hamısına birdən cavab verəcəyəm, de gəlsin.

Aldı aşıq Səməd:

Səndən xəbər alım cəmi dünyanı,
Nədəndi cəsədi, nədəndi canı,
Haqq nə vaxt yaratdı Həzrət Adəmi
Nə ilə toxundu, nəydi libası?

Səməd, haradandı əlinin gücü?
Nədəndi niqabı, nədəndi tacı?
Nədəndi libası, nədir qılıncı?
Harda durur Zülfüqarın dəstəsi?

Söz tamama yetdi. Aşıq Fatma qıfılbəndi aça bilmədi. Gətirib sazını aşıq Səmədin ayaqları altına tulladı. Səməd də onun sazını qaldırıb özünə verdi, üstəlik yığılan xələtləri də. Özünü də buraxdı. Camaatın Səmədə məhəbbəti daha da artdı.Ondan xahiş elədilər ki, bir nəsihətamiz söz oxusun. Səməd camaatın sözünü yerə salmayıb görək nə dedi:

İki mələykədir, gözə görünməz,
Ağzından çıxanı yazarlar bir-bir!
Biri sağda, biri solda əyləşər,
Günahı, savabı düzərlər bir-bir!

Dünyadan getməsin heç kəs əliboş,
Məhşər günü onun üçün olmaz xoş.
Böyrün torpaq, altın torpaq, üstün dağ,
Gürzlə bədənini əzərlər bir-bir!

İnsan oğlu, bundan olginan halı,
Dar ayaqda itirməynən kamalı.
Sahibi istəsə haqqənnəs malı,
Əridib sümüyündən süzərlər bir-bir!

Yazıq Səməd, bir gün qədrin bilərlər,
Mərd adamlar sənə kömək edərlər.
Arayarlar, axtararlar, dilərlər,
Nəsihətli sözünü gəzərlər bir-bir!

Söz tamama yetdi. Hamı Səmədi alqışladı. Bir azdan məclis dağıldı. Xan Səmədə rahatlanmağı tapşırdı. Bunlar burda qalmaqda olsun, sizə kimdən deyim, Ağarza xandan.

Ağarza xan islam dinindən dönüb yəhudi olduğu üçün yəhudi qızı ona ərə getməyə razı olmuşdu. Bir həftəlik hazırlıqdan sonra toyu başladılar. Məclisin şirin yerində qonaqlar aşıq istədilər. Kimsə



xəbər verdi ki, Səlim xanın evində bir yaxşı aşıq var. Çox məsləhətdən sonra Səlim xana qasidlə bir məktub göndərib xahiş elədilər ki, aşığı toya göndərsin. Səlim xan məktubu oxuyub dedi:

-Qasid, aşıq mənim qonağımdır. Mən ona zor eləyə bilmərəm. Getsə də özü bilər, getməsə də.

Xan Səmədi çağırdı. Məsələni ona danışdı. Gecə də ağası Səmədin yuxusuna girib demişdi ki, səni Ağarza xanın toyuna çağıracaqlar. Onu dininə qaytararsan. Savadı da orada görəcəksən. Xan da Səməddən toya getməyini xahiş eləyəndə Səməd "baş üstə" dedi. Səlim xan Səmədlə bərabər mübarəkabadlığa adam da göndərdi. Çünki, Ağarza xan yəhudiliyə dönsə də, qüvvətli xanlardan idi. Onunla pis olmaq istəmirdi.

Səməd məclisə girdi. Ona yaxşı hörmət, ehtiram göstərdilər. O da dövrana ustadnamə ilə başladı. Aldı görək nə dedi:

Bu qoca dünyada yox əmrə vəfa,
Görün olacaqdı nələr dünyada.
İnsan olan həqiqətdən danışar,
Heyvan olan gedər-gələr dünyada.

Yeddi gedər, səkkiz çəkər, beş mələr,
Mənəm deyənlərin yurdu heç mələr.
Axar sular, qaynar bulaq, çeşmələr,
Necə olacaqdı sular dünyada.

Üstündən el köçmüş dağlar görmüşəm,
Dağılmış, talanmış bağlar görmüşəm.
Çox "mənəm" deyəni ağlar görmüşəm,
Kimi ağlar, kimi gülər dünyada.

Səməd ki, var bir quruca cəsəddi,
Əcəl də haqdandı, hamıya səddi.
Qanlı fələk, bəs bu necə mürvətdi?
Murazlı cavanlar ölər dünyada.

Söz tamama yetdi. Aşıq Səmədin toyu tə'rifləmək əvəzinə ustadnamə oxumağı Ağarza xanın xoşuna gəlmədi. Fikrində tutdu ki, Səmədi bağlatdırıb məclisdən qovdursun. Əlaltından başqa aşıq dalınca

adam göndərdi. Tərslikdən o da gedib aşıq Fatmanı gətirdi. Qarı Səmədi məclisdə görən kimi qorxuya düşdü. Üzünü Ağarza xana tutub dedi:

-Xan sağ olsun, bu məni Səlim xanın evində bağlayıb. Mən bu aşıqla deyişə bilmərəm. Adam göndər, qoy filan yerdən Aşıq Gülməmmədi çağırsınlar. Bəlkə bununla o bacara.

Nə başınızı ağrıdım. Aşıq Gülməmməd də gəlib çıxdı. Ədəb-ərkanla məclisə baş endirib salam verdi. Üzünü xana tutub dedi:

-Xan sağ olsun, mənə görə nə qulluq?

Ağarza xan dedi:

-Qulluğun bu cavan aşıqladır. Gərək onunla deyişəsən.

Aşıq Gülməmməd "baş üstə" deyib sazı köynəkdən çıxardı. Səmədдən soruşdu:

-Sən qabağa düşürsən, yoxsa mən? Səməd cavab verdi ki, sən qabağa düşürsən.

Aldı aşıq Gülməmməd:

Meydana giribsən bir qoçaq kimi,
Alıb bu meydannan gedərəm səni!
Qoyaram cibimə bir bıçaq kimi,
Alıb bu meydannan gedərəm səni!

Aldı aşıq Səməd:

Belindən qatlayıb qoyub qazana,
Qızdırıb, suyundan dadaram sənin!
Suyun isinməmiş, canın qızmamış,
Götürüb köndələn udaram səni!

Aldı aşıq Gülməmməd:

Meydanda qoyubsan xalqı mat kimi,
Düşübsən ortaya yanar od kimi.
Tövlədə bəslənmiş harın at kimi,
Minib, noxtalayıb gedərəm səni!

Aldı aşıq Səməd:

Mən bu işə haqqı bir iş deyərəm,
Nə qaş, nə göz nə də ki, baş deyərəm.
Qatır kimi yoxuşda toş deyərəm,
Düzdə noxtalayıb gedərəm səni!



Aldı aşıq Gülməmməd:

Adıma deyərlər Aşıq Gülməmməd,
Bu yerdə heç kəsə çəkmərəm minnət.
Hələ çox çəkərsən məclisdə zillət,
Alıb bu meydandan gedərəm səni!

Aldı aşıq Səməd:

Səmədəm, danışdım cəlil-din kimi,
Sözü elə söylə "cim"lə "mim" kimi.
Sözümə əl çatmır sıldırım kimi,
Sazınla dustağım edərəm səni.

Söz tamama yetdi. Bu deyişmənin axırından aşıq Gülməmmədin ağlı bir şey kəsmədi. Qorxdu ki, qabağa da Səməd düşsə işlər lap korlana. Məclisdən izn alıb aftafa götürdü. Çölə çıxan kimi aftafanı tullayıb dabanına tüpürdü. Məclis çox gözlədi, lakin o, gəlmədi. Çıxanda gördülər ki, aşıq Gülməmməd çoxdan qaçıb. Məclisi belə görən aşıq Fatma dedi:

-Xan sağ olsun, mənim dilim bunun yanında gödəkdi, ancaq bu da bir aşıq deyil.

Səməd gördü ki, bu aşıq Fatmaya nə qədər yaxşılıq eləsə də qarı pisliyindən qalmır. Özünə söz verdi ki, bu dəfə bağladığı aşığı dustaq edəcək.

Kəsəsi, bu dəfə meydana aşıq Vəlirza gəldi. Aşıq Fatma bu aşığı yaxşı tanıyırdı. Fürsət tapıb ona yanaşdı. Başa saldı ki, evin dağılsın, bu hərbə - zorbadan qorxan deyil. Nə qıfılbənd bilirsən de gəlsin. Görək başımıza haranın daşını tökürük.

Səməd dedi:

-Aşıq Vəlirza, fürsət sənindir.

Aldı görək Aşıq Vəlirza nə dedi:

O nədir ki, bir həftədə açılır?
Bir ayında danə olur, seçilir.
Üç ayında dəyir, durmur, tökülür,
Açmasan sazını alan mənəm, mən!

Aldı Aşıq Səməd:

O, almadı, bir həftədə açılır,
Bir ayında danə olur seçilir.

Üç ayında dəyir, durmur, tökülür,
Bir dürüst, bax, onu bilən mənəm, mən!

Aldı Aşıq Vəlirza:
O nədir ki, göydən yerə dayanır?
O nədir ki, löyün-löyün boyanır?
O nədir ki, ildə bir yol oyanır?
Açmasan sazını alan mənəm, mən!

Aldı Aşıq Səməd:
Gün şüası göydən yerə dayanır,
Haşiyədi iki löyün boyanır.
On iki ay ildə bir yol oyanır,
Bir dürüst bax, onu bilən mənəm, mən!

Aldı Aşıq Vəlirza:
Adıma deyərlər aşıq Vəlirza,
Sən kimlə çox durmuşam üz-üzə.
O kimdi ki, görünmoyir heç gözə?
Açmasan sazını alan mənəm, mən!

Aldı Aşıq Səməd:
Səmədəm, dürüst tanı, Aşıq Vəlirza,
Nə borcun var, durdun mənlə üz-üzə.
O bir Allahdı heç görünməz gözə,
Bir dürüst bax, onu bilən mənəm, mən!

Söz tamama yetdi. Camaat səs-küy saldı ki, indi də qabağa aşıq Səməd düşsün. Ağarza xan çar-naçar razılıq verdi.

Aldı aşıq Səməd:
Səndən xəbər alım, ay kamil aşıq,
Yerlə göyün nə qədər arası var?
"Əlif"lə "bey" söylə neçə urfatdı,
Ayəti-əl-Qur'anın neçə surəsi var?

Aşıq Vəlirza qıfılbəndə cavab verə bilmədi. Məclisdə qarışıqlıq qopdu, hamı bir-birinə qarışdı. Səməd saza bir təzənə çəkdi, məclisdə səs kəsildi. Aldı görək sözünü necə bitirdi:



Haqqın evi nə məqamı içidi,
De nədəndi cəhənnəmin keçidi?
De neçədi bir bəndənin məscidi?
O məscidin neçə minarəsi var?

Səmədəm, bir arif sözlərim yaza,
O kimdi şəfaqət eyləyər bizə.
O kimdi haqq ilə durdu üz-üzə,
O kimdi məhşərdə ol çarəsi var?

Söz tamama yetdi. Aşıq Vəlirza başını aşağı salıb dinmədi. Bunu görən Ağarza xan əmr elədi ki, gətirib sazını Aşıq Səmədə təhvil versin. Aşıq Vəlirza dinməz-söyləməz sazı təhvil vermək istəyəndə Aşıq Fatma ortaya girib dedi:

-Xan sağ olsun. Bəlkə bu sözün heç açması-zadı yoxdu. Qoy bir açsın, görək nə deməkdi. Ondan sonra Vəlirza bilər, o bilər.

Aldı görək Aşıq Səməd bu qıfılbəndi necə açdı, ərz eləyək qulluğunuza, kefiniz şad olsun:

Sənə cavab verim, bikamil aşıq,
Yerlə göyün səksən il arası var.
"Əlif"lə "bey" iyirmi doqquz urfatdı,
Ayəti-əl-Qur'anın yüz on dörd surəsi var.

Haqqın evi mömin qəlbin içidi,
Şəhadətdi cəhənnəmin keçidi.
Yeddi, yeddi, on dörd oldu məscidi,
On dörd məscidin on minarəsi var.

Səmədəm, dürüst bil, Aşıq Vəlirza,
Cənab Əmir edər şəfaqət bizə.
Məhəmməd haqq ilə durdu üz-üzə,
Fatmadı, məhşərdə ol çarəsi var.

Söz tamama yetdi. Hər tərəfdən aşıq Səmədə əhsən dedilər. Aşıq Vəlirza sazı ilə bərabər aşıq Səmədə dustaq oldu. İndi bu məclisdə Səməd oxumaqda, Savadı gözləməkdə, camaat da qulaq asmaqda olsun, sizə kimdən xəbər verim, Savad xanımdan.

Savad xanım huş-guşla Səmədin gəlişini gözləyirdi. Ağarza xanın toyunda Hasan xanın adamlarından var idi. Qayıdanda onlar Hasan xana haqq aşığı Səməddən danışdılar. Savad xanım məsələdən agah oldu. Paltarını dəyişib oğlan libasına girdi. Öz aşığı Xatunu da götürüb yola düşdü.

Yolüstü axşamlayanda Aşıq Xatunun əmisi qızı Bayqu xanımgilə qonaq düşdülər. Hamı Savadı oğlan kimi tanıdı. Yeyib-içəndən sonra Bayqu xanım əmisi qızından soruşdu:

-Xatun əmiqızı, bu oğlan kimdi?

Savad xanım bu sualdan diksindi? Barmağını təzənə eləyib saza çəkən kimi sinəsinə çəkdi? Aşıq Xatun məsələni başa düşüb dedi:

-Aşıqdı, Ağarza xanın məclisindəki Aşıq Səmədlə deyişməyə gedir.

Hamı bu sözə inandı. Çünki, aşıq Səmədin aşıqları necə bağlaması hər tərəfə yayılmışdı. Məsləhət gördülər ki, havayı əziyyət çəkməsin, o kişi haqq aşığıdır. Onu heç kim bağlaya bilməz.

Qohumlar şirin-şirin söhbətdə olsun, sizə kimdən deyim, Bayqu xanımın qızı Xırda xanımdan.

Xırda xanım qapının deşiyindən Savadı oğlan paltarında görüb ona vuruldu. Aşıq Səmədlə deyişmə söhbəti ortalığa gələndə Xırda xanım fikirləşdi ki, Aşıq Səməd o biri aşıqlar kimi bunu da dustaq eləyəcək, bir də üzünü görə bilməyəcəyəm. Anasını çağırtdırıb dedi ki, əgər bu gecə molla çağırıb məni bu oğlana verməsəniz, kəbin kəsdirməsəniz özümü öldürəcəyəm. Hamı qaldı mat-məətəl. Savad xanım gördü ki, Aşıq Xatun da başını itirib, bilmir neyləsin. Tez belə bir məsləhət elədi:

-İndi mən yol üstəyəm, tez-tələsik iş nəyə lazım? Qayıdanbaş qızınıza el qaydasında elçi göndərərəm.

Hamı bu fikrə razı oldu. Razı olmayıb neyləyəcəkdilər? Qız az qalırdı ki, özünü öldürsün. Onu da bir təhər yola gətirdilər. Ara sakitləşən kimi durub gəldilər Ağarza xanın məclisinə. Aşıq Səmədə xəbər verdilər ki, bir cavan aşıq gəlib onunla deyişmək istəyir. Deyirlər, məhəbbət gözdə olur. İlk baxışdan hər ikisi bir-birini tanıdı. Ürəkləri bərk-bərk döyündü. Hər ikisi deyişməyə hazırlaşdılar. Camaat iki cavan aşığın deyişməsini maraqla gözləyirdilər. Səməd başını aşağı salıb sazını kökləyəndə gördü ki, sevgilisinin telinin ucu papağın altından görünür. Özünü saxlaya bilmədi. Sazı alıb görək sevgilisinə necə xoş gəldin elədi:



De görüm hardan gəlirsən?
Elinə qurban, qaragöz!
Bircə danış şirin-şirin,
Dilinə qurban, qaragöz!

Vəsfinə dillər yaraşır,
Qolların boynumdan aşır.
Sona kimi başı yaşıl,
Gölünə qurban, qaragöz!

Savad xanım gördü ki, Səməd onu tanıyıb, qorxdu ki, camaat da tanıyar, atasına xəbər gedər. Özünü acıqlanmış kimi göstərdi:

-Aşıq, bura hərbə-zorba, qıfılbənd meydanıdır. Nə alagöz, qaragöz deyib ötürsən. Sazını köklədinsə, başlayaq.

Cavab əvəzinə aldı görək Səməd sözünü necə bitirdi:

Aşıq Səməd mə'lul baxar,
Nazü-qəmzən evim yıxar:
Daramısan, yana çıxar,
Telinə qurban, qaragöz!

Söz tamam oldu. Savad xanım çox arif qız idi. İşi başa düşüb tərini silmək bəhanəsi ilə telini gizlətdi. Sazını götürüb sorğu-sualsız qabağa düşdü.

Aldı Savad xanım:

Mərdsən mərd meydanında,
De, mərdü-meydandan danış!
Bu meydandan baş qurtarsan,
Qılınc-qalxandan danış!

Gəşt edib dolanıbsan,
Cümlə-cahandan danış!
Çəkib dü sər Zülfiqarı,
Əntəri böləndən danış!
Əgər sən ustasansa,
Həqiqət qanandan danış!

Aldı aşıq Səməd:

Mərdəm mərd meydanında,
Mərdü meydandan soruş!
Meydanda cövlan edərəm,
Qılınc-qalxandan soruş!
Gəşt edib dolanmışam,
Cümlə-cahandan soruş!
Çəkib dü sər Zülfiqarı,
Əntəri böləndən soruş!
Yəqin bil ki, ustadıyam,
Həqiqət qanandan soruş!

Aldı Savad xanım:

Bir ayədə neçə cismidən,
Salınıb behiştin bağı?
Neçə saydan yapılıb,
Cənnəti-rizvan otağı?
Kim idi endi göydən?
Kim aldı yerdən torpağı?
Neçə damar dəlil gəldi?
Həzrət Adəmdən danış!

Aldı aşıq Səməd:

Dörd yüz on dörd cisimdən,
Salınıb behiştin bağı!
Dörd saydan yapılıb,
Cənnəti-Rizvan otağı!
Cəbrayıl endi göydən,
Əzrayıl aldı torpağı!
Yetmiş iki damar gəldi,
Həzrət Adəmdən soruş!

Aldı Savad xanım:

Hava gəlibdir başına,
Olmusan sərsəri, dəli.
Nə günü çarxa çəkildi,
Varmı dünyanın əzəli?
Nə günü səf-səf olub?



Ruhlar deyib: bəli!
Kim kimə baş endirib,
Nuhi-qələmdən danış!

Aldı aşıq Səməd:

Anlayanlar dərk eləyir,
Anlamazlar deyir: dəli!
Adına günü çarxa çəkilib,
Varı dünyanın əzəli!
Cümə günü səf-səf olub,
Ruhlar deyib: bəli!
Həsən Hüseynlə baş endirib,
Nuhi-qələmdən soruş!

Aldı Savad xanım:

Savadın sözlərinin
"Əlif" yazılıb sağına.
Neçə min məleykə gəldi,
Bir kəlmənin müştağına?
Hansı gündə bina qoyub,
Musa çıxdı Tur dağına?
Əlindəki nə töhfədi?
Töhfeyi-kəlamdan soruş!

Aldı aşıq Səməd:

Mən Səmədəm, ustadımdan,
Dərsimi almışam sağına.
Yetmiş min məleykə gəldi,
Bir kəlmənin müştağına.
Şənbə günü bina qoydu,
Musa çıxdı Tur dağına
Əlindəki sirr töhfədi,
Töhfəti-kəlamdan soruş!

Söz elə yenicə tamama yetmişdi ki, Bayqu xanımın qızı Xırda xanım özünü Savad xanımın dalınca yetirdi. Savad xanımı məclisə göstərib dedi ki, mən bu aşıqla deyişəcəyəm. Aşıq Səməd heyrətlənib geri çəkildi. Sonra da məsələnin nə yerdə olduğunu başa düşüb xəlvətcə güldü. Savad xanım əlacsız qalıb başladı deyişməyə.

Aldı Xırda xanım:

Bizdə tarı, tutaq tarı,
Qoynumda yer də sənindi.
Müştəri çıxıb bazara,
Sinəmdə nar da sənindi.

Aldı Savad xanım:

Bizdə sazı, tutaq sazı,
Rəbbim yuxarıda mənimdi.
Sizi verən olmaz bizə,
Canımda ah-zar mənimdi.

Ortadakı pərdə kişi məclisini qadın məclisindən ayırırdı. Savad xanım kişi məclisində durmuşdu, Xırda xanım isə qadın. Bu da Xırda xanımı heç açmadı. Aldı görək bu münasibətlə nə dedi:

Aldı Xırda xanım:

Oğlan, pərdəni aç danışaq,
Həm danışaq, həm sarışaq.
Məməm yastıq, sinəm döşək,
İlkin nubar da sənindi.

Savad xanım gördü ki, yox, eşq qızın başına necə vurubsa özünü-sözünü bilmir. Kişi məclisinin içində indicə biabırçılıq çıxacaq. Qəzəblənib özündən çıxdı.

Aldı Savad xanım:

Gəl danışma uşaq-uşaq,
Sözün varsa, söz danışaq.
Sədrim sədrindən yumşaq,
Yanımda yar da mənimdi.

Aldı Xırda xanım:

Üzünə sürtərəm üzü,
Bir eylərəm gecə-gündüzü.
Bayqu xanımın qızı,
Bu canım Xırda sənindi.



Savad xanım gördü ki, yox, bu qız özünə gəlmir. Əlacsız qalıb özünü belə nişan verdi.

Aldı Savad xanım:

Ay xanım, incitmə bizi,
Tərs yazılmır avand yazı.
Savadam, Hasan xan qızı,
Qara tellər də mənimdi.

Söz tamam yetdi. Savad xanım Aşıq Xatuna işarə eylədi. Aşıq Xatun Xırda xanımı məclisdən çölə çıxardıb özünə də bir sillə çəkdi:

-Dincəl, ləçər! Bu Hasan xanın qızı Savad xanımdı. Sevgilisi aşıq Səmədlə görüşməyə gəlmişdi. Aləmi qatdın bir-birinə. İtil dağılmışınıza, həyasız!

Aşıq Xatun Xırda xanımı qızlara qoşub yola saldı. Xırda xanım gözünün yaşını tökə-tökə getdi.

Ağarza xan aşıq Səmədə dedi:

-Aşıq, səni bir sınaqdan keçirəcəyəm. O sınaqdan çıxsan, məndən nə istəsən verəcəyəm. Sınağım da budur ki, mən özümlə bərabər on nəfər nökərimə, on nəfər də kənizimə toy edirəm. Gərək onlara qatı açılmamış bir duvaqqapma deyəsən.

Beləliklə, xanın əmrinə görə on nəfər təzə bəy məclisə girib pərdənin bir tərəfində oturdu, on nəfər də təzə gəlin bir tərəfində. Aldı görək aşıq Səməd nə dedi:

Dəryadan su çəkmək ilə,
Görün dərya azalarmı?
Çəkib əfsanə tökməklə,
Görün dərya azalarmı?

Söz oxunur dastan ilə,
Payız keçir bostan ilə,
Bahar da zimistan ilə,
Bülbülsüz də yaz olarmı?

Yar yoluna varmamışam,
Qönçə gülün dərməmişəm.
Vallah, billah görməmişəm,
Görün, qız da qız alarmı?

Mövladan badə almayan,
Alıb da sərxoş olmayan,
Bir dərdi on beş olmayan,
Səməd, elə saz alarmı?

Söz tamama yetdi. Ağarza xan acıqlandı:

-Nə "qız da qız alarmı?" -deyib hədyan danışırsan? Mən səndən duvaqqapma istəmədimmi?

Aşıq Səməd xana cavab vermədi. Bəylərin birinə yaxınlaşıb qızın papağını götürdü. Qızın saçları kürəyinə töküldü. Ağarza xanın köpü yatdı:

-Sağ ol, aşıq, doğrudan da haqq aşığısan. İndi məndən nə istəyirsən istə. Əmr eləyim, Ərəb atımı min get.

Səməd dedi:

-Xan sağ olsun, mənim təmənnam başqadı.

Ağarza xan elə bildi ki, Səmədin könlündən başqa şey keçir. Dedi:

-Bildim, qızıl otağı istəyirsən. Verdim, halalın olsun.

Aşıq Səməd dedi:

-Xan sağ olsun, mənə qızıl otaq-zad lazım deyil. Əgər bacarırsan mənə üççə günlük xanlıq ver. Özgə sənin bir çöpünü də istəmirəm.

Savad-xanım tez dilləndi:

-Xan sağ olsun, o ağa oğludur, xanlığın qədrini bilməz. Ancaq mən xan qızıyam. Üç günlük lazım deyil. Sən mənə bircə günlük xanlıq ver, bu aşığın cavabını verim, çıxsın, getsin.

Səməd başa düşdü ki, ağası ona tapşırdığını Savada da tapşırıb. Odur ki, dillənmədi. Ağarza xan da Savad xanımın sözlərinə şadlıqla razılıq verdi. Savad xanım tacı başına qoyub taxta çıxdı. Əyan-əşrəf, vəzir-vəkil, kəsə sözü, saray camaatı bir gün ərzində Savad xana sadiq olacağına and içdi. Mərasim qurtaran kimi Savad xan cəllad çağırdı. Əmr elədi ki, köhnə xanın boynu vurulsun. Camaat mat-məəttəl qaldı. Qorxudan rəngi ağarmış Ağarza xan qışqırdı:

-Ay camaat, qoymayın məni öldürsünlər, cavanam, yazığam. Ay Savad xan, axı mənim günahım nədir?

Savad xan dedi:

-Sənin günahın böyükdür, İslam dinindən dönüb olmusan yəhudi. İndi də soruşursan ki, mənim günahım nədir? Sən indi batinində yəhudisən, gərəkdir ki, ya öləsən, ya da yəhudi dininə tövbə deyəsən.



Ağarza xan dedi:

-Axı mən İslam dinindən dönməsəm qız toya razılıq vermirdi. Mən onu sevirəm. Allahınızın, peyğəmbərinizin, dininizin xətrinə mənə aman verin. Cavanam, arzum, murazım var.

Savad xan dedi:

-İndi ki, belə oldu, gəl sən dön İslam dininə, qızı yəhudi dinindən tövbə elətdirib toyu təzədən eləmək mənim boynuma.

Ağarza xan sevinə-sevinə dedi:

-Döndüm İslam dininə!

Aşıq Səməd yerindən dik qalxıb dedi:

-Yalan deyir, dönməyib!

Camaat yenə mat-məəttəl qaldı, soruşdular ki, bəs nədən bilək, dönüb ya dönməyib? Səməd dedi:

-Xanın qabağına bir ağ kağız qoyaq. Əgər mən oxuduğum söz özözünə o kağıza yazılsa, deməli dönübdür.

Kağız qoyuldu Ağarza xanın qabağına. Aldı görək aşıq Səməd nə dedi:

Bu mə'lul könlümün heç getmir pası,
Saydır savabımı o barata yaz!
Əgər dönübdürsə, fəda olduğum,
Götür cavabımı o barata yaz!

Kim durub dünyada, mən də ki, qalam,
Eşqin əlindədir o qiblə, aləm.
Hur mürəkkəb versin, Sur də ki, qələm,
Etdiyi günahı məhəbbətə yaz!

Xəcalət eyləmə, ay ağa məni,
Səməd tək aşığın dünyada hanı?
Çəkibsən qələmi Ağarza xanı,
Öz dəsti-xəttinlə ziyarətə yaz!

Söz tamama yetdi. Baxıb gördülər ki, doğrudan da kağız öz-özünə yazılıb. Savad xan əmr elədi ki, yəhudi qızını başının dəstəsi ilə gətirsinlər. Qırmızı libaslı cəlladları görən kimi qız qorxusundan İslam dininə sitayiş etdi. Axund, molla, qazı gəldi, təzədən müsəlman şəriəti ilə kəbin kəsildi. Toy təzədən başlandı. Bu münasibətlə görək Aşıq Səməd nə dedi:

Aşıqların qaydasıdı, öz kəndindən söz deyər,
Kimi qafiyəsin əyər, kimi urfatın düz deyər.
Kimi yüzü bir danışar, kimi birə yüz deyər,
Mərdlərdə qayda budu, sözü üzbəüz deyər.

Bivəfanın qaydasıdı, möhkəm etməz dirəyin,
Əsillərin qaydasıdı, tez tapar dostun rə'yin.
Bədəsilin qaydasıdı, qabaq kəsər çörəyin,
Nə bir dala göz qoyar, nə qabağı gözləyər.

Aşıqlığın elmi dərindi, min bir məqamı var,
Sözlər xana-xanadır, hər kəlmənin canı var.
Təcnis, təxmis, dildönməz, misri, cəngi, divanı var.
Ürək coşar, əl iş görər, dil danışar, söz deyər.

Əlac olsa heç dindirmə dil qanmayan axmağı,
Öz başına dəyər cahillərin tə'nə toxmağı.
Süzgün olar gözəllərin yaylıq altdan baxmağı,
Qayda budur, qəlbi qara çirkin üzün gizləyər.

Aşıq Səmədin elminin cəmisində fəndi var,
Gücü həqiqətdəndi, beşdən-üçdən bəndi var.
Buna divani deyərlər, səksən qıfılbəndi var,
Neylim, hərə bir saz alıb meydana yalqız deyər.

Söz tamama yetdi. Ağarza xan cəhənnəm əzabına düşmədən sevgilisinə qovuşduğu üçün Savad xanıma, aşıq Səmədə o qədər xələt verdi ki, saymaqla saya-hesaba gəlməzdi. Onlar da bu xələtləri toy qulluqçularına, kəbin kəsənlərə verdilər. Savad xanım fürsət tapıb Səmədin qulağına pıçıldadı ki, atamın əhdinə görə, onun saray pəhləvanı Saddahla güləşsin. Özünə gümanın gəlmirsə, getmə, pəhlivan səni öldürər. Özü də günortadan sonra saray bağında səni gözləyəcəyəm.

Nə başınızı ağrıdım, toy qurtardı. Məclis dağıldı. Aşıq Səməd qaldı. Savad xanımla Aşıq Xatun isə getdi. Oğlan paltarını dəyişib özünə bəzək vurdu, əmisi qızı Sayat xanımla iki qızı götürüb bağa getdi. Qızlar yenicə gülə-bülbülə tamaşa etməkdə idilər ki, Aşıq Səməd özünü yetirdi. Söhbətin şirin yerində bağban gəlib çıxdı. Qışqıra-qışqıra Səmədin yaxasından yapışdı ki, sən burada neyləyirsən?



Olmaya xanın qızlarına söz atmaq istəyirsən? Aşıq Səməd istədi ki, canını xoşluqla qurtarsın, dedi:

-Ay kişi, mən qərib adamam. Tanımamışam, bilməmişəm ki, bura xan bağıdır. Burax məni çıxım gedim işimə, azarıma.

Bağban tərslik etdi:

-Yox, heç elə şey yoxdur, gərəkdir ki, mən səni öldürəm. Yoxsa xan bilib dərimə saman təpər. Bunu deyib əlindəki bellə onu vurmaq istədi. Əlacsız qalan Səməd onun belini əlindən alıb kənara tulladı. Bağbanın çığırtısına saray nökərləri tökülüb gəldi. Aşıq Səməd gördü ki, yox buradan yaxasını səssiz-küysüz qurtara bilməyəcək. Sazı götürüb aldı görək nə dedi:

Mən olmuşam vətənimdən, elimdən,
Məcnun tək səhrada gəzərəm, bağban!
Mövlam məni bu sevdaya tuş edib,
Görürsən, canımdan bezaram, bağban!

Kamil bağban bağ bəsləyər, gül açar,
Gəc danışma, tor kələfin dolaşar,
Ac pələnglə əcəli çatan dalaşar,
Çəkib pərənini pozaram, bağban!

Səmədəm, yaxşını-yamanı billəm,
Yarın mah camalın görməsəm ölləm.
Çəkibsən əlindən şiş belin allam,
Belinlə qəbrini qazaram, bağban!

Söz tamama yetdi. Səməd geri çevriləndə gördü ki, Savad xanım ağlaya-ağlaya gedir. Aşığın ürəyi kövrəldi, qayıdıb sazı bir də sinəsinə basdı. Aldı görək nə dedi:

Pərişan görürəm bağı mən belə,
Alması, heyvası, narı ağlamış!
Mən gəlmişdim deyəm, güləm, şadlanam,
Neyçün gördüm nazlı yarı ağlamış!

Namə yazdın, bizə çatdı nişanın,
Huridi, pəridi, şövkətin-şanın.

Xəstə idim, görkəzdilər dərmanım,
Saxlama qoynunda narı ağlamış!

Səmədəm, gəlmişəm sənə qurbana,
Qoy əmim ləbindən mən gəlim cana.
Məni gördü, üz çevirdi pünhana,
Dörd qızın içində biri ağlamış!

Söz tama yetdi. Bağban insafa gəlmədi ki, gəlmədi. Nökərlər aşıq Səmədi dartıb Hasan xanın yanına gətirdilər. Dedilər ki, xan sağ olsun bağa girmişdi. Zorla çıxartmışıq, özü də bir az gec getsəydik, bağbanı öldürmüşdü. Xan Səmədi başdan ayağa süzüb gördü ki, bunda oğurluq-əyrilik nişanı yoxdu. Soruşdu:

-Ay bala, kimsən, nəçisən, haradan gəlib hara gedirsən?

Səməd dedi:

-Xan sağ olsun, Şəmşəddin mahalındanam. Adım da aşıq Səməddir.

Hasan xanın yanında başqa xanlar da var idi. Onlar Aşıq Səməd adlı qərib bir aşığın Ağarza xanı necə öz dininə qaytardığını, aşıqları necə bağladığını eşitmişdilər, dedilər:

-Aşıq Səməd, səni haqq aşığı söyləyirlər. Sazını götür, sənətini göstər.

Aldı görək aşıq Səməd nə dedi:

Namərdin əlindən qurtarmaq olmaz,
Mərdə yalvarıban süyüşmək olar!
Bir şəxsin ki, sidqi haqqa düz olu,
Söyləyib dərdini sirr açmaq olar!

Yaxşı olur insanların qananı,
Hər kəs qansa, olur onun imanı.
Böyük dərddi bir də qohum yamanı,
İlqarlı yad ilə barışmaq olar!

Ustad oğulundan heç olmaz naşı,
Namərd olar namərdlərin sirdaşı.
Kişidən gədə olmaz, gədədən kişi,
Mərd oxundan qana bulaşmaq olar!



Bir dost ki, dost qədirini bilməyə,
Dil danışıb üz-gözünə gülməyə.
İlqar verə, birbaş gedə, gəlməyə,
Başını bir qoza dəyişmək olar!

Mən Səmədəm, məclisdən usanmaram,
Nakəs qapısına heç dolanmaram.
Namərd qardaş olsa, ona yanmaram,
Mərd düşmən qanına qarışmaq olar!

Söz tamama yetdi. Xanlar hamısı afərin dedi. Elə bu vaxt Sayat xanım gəldi ki, əmi, Savad deyir ki, bizi də Allah yaratmayıbmı? Aşıq gəlsin, bir az da bizim üçün oxusun. Hasan xan heç vaxt qızının sözünü yerə salmazdı.

Bir neçə ağsaqqalla Səmədi göndərdi qızların məclisinə. Ortada pərdə var idi. Qızlar bir tərəfdə oturdu, ağsaqqallarla Səməd də o biri tərəfində.

Savad xanım dedi:

Aşıq, indi səninlə deyişəcəyəm. Hünərin varsa cavab ver.

Aldı Savad xanım:

Qanın bulaq tək qaynayıb,
Daşmasa, axtarma məni!
Axan sellər tək bulanıb,
Coşmasa, axtarma məni!

Aldı aşıq Səməd:

Qan töküb bulaq kimi,
Daşıb axtarram səni!
Dəryalar tək bulanıb,
Coşub axtarram səni!

Aldı Savad xanım:

Ərz eləyim məddah ilə,
Məhəmməd, Əli iddah ilə.
Sən pəhlivan Səddah ilə,
Güləşməsən, axtarma məni!

Aldı aşıq Səməd:

Mövlam olsa buna razı,
İzn versə Qadir qazı.
Mən qoç ollam, Səddah quzu,
Güləşib axtarram səni!

Aldı Savad xanım:

İgid hər işdən hal olar,
Qorxuram qeylü-qal olar.
Qoç olsan Səddah kal olar,
Güləşməsən, axtarma məni!

Aldı Aşıq Səməd:

Mən ki, mövlamla birəm,
Mərd olam, meydanda duram.
Səddah kalsa, mən də şirəm,
Güləşib axtarram səni!

Savad xanım fikirləşdi ki, bu qərib adamdı. Bunu aldadıb torazada salarlar. Gəl qabaqcadan xəbərdar elə.

Aldı Savad xanım:

Qorxuram qırx dil olar,
Arada fitnə-fe'l olar.
Sən şir olsan, Səddah fil olar,
Güləşməsən, axtarma məni!

Aşıq Səməd fikirləşdi ki, deyəsən Savadın mənə gümanı yoxdur. Gəl de ki, gümanım olmasaydı Şəmşəddin mahalından bura gəlməzdim. Odur ki, yağmasa da guruldadı:

Sən onu qaldırdın haracan,
Mövlam dərsim verib oracan,
Səddah filsə, ollam kərgədan,
Güləşib axtarram səni!

Hər ikisi başını qaldıranda gördülər ki, deyişmə səsinə xanlar tökülüb gəliblər. Əlacsız qalan Savad sözünün bu xanasını möhürbənd elədi:



Səni bu məclisdə qoyub gedərəm,
Bağrımın başını oyub gedərəm.
Savadam, sözümü deyib gedərəm,
Güləşməsən, axtarma məni!

Aldı Aşıq Səməd:

Mən gəlmişəm sən xanıma,
Gümanım gəlir canıma.
Səmədəm, dürüst qanıma,
Bulaşıb axtarram səni!

Söz tamama yetdi. Səmədin məqsədi hamıya aydın oldu. Qayıdıb gəldilər Hasan xanın yanına. Orada Camal xan adlı bir igid adam var idi. O, ayağa qalxıb dedi:

-Aşıq Səməd, Savad xanımı almaq istəyən kəs Hasan xanın pəhləvanı Səddahla güləşməlidir. Əhd eləyib ki, kim pəhlivanı yıxsa, qızını ona verəcək. O pəhlivan da qızın üstündə çox adamları həlak edib. İndi sən, mənə de görüm, sabah o pəhlivanın meydanına çıxmağa hünərin var, yoxsa yox?

Səməd dedi:

-Olmasaydı neçə müddətdə qürbət ellərə düşməzdim.

Qərəz, sabah açıldı. Yenə xanlar yığıldı. Səmədi də götürüb gəldilər pəhləvan meydanına. Aşıq Səməd gördü ki, bu Səddah deyilənin boyu-buxunu yüzillik palıd ağacına oxşayır. Səddah pəhlivan soruşdu:

-Bu kimdi?

Camal xan soruşdu:

-Məgər bilmirsən? Aşıqdı də. Səninlə güləşmək istəyir.

Səddah pəhlivan dedi:

-Bu mənimlə güləşə bilməz. Əlimdə-ayağımda tələf olar, günaha bataram.

Səməd dedi:

-Yox, ölsəm də qalsam da güləşməliyəm.

Pəhlivan yenə razı olmadı:

-Aşıq, bu deyişmək deyil, döyüşməkdi. Burada qol sınmağı var, bel sınmağı var, ölmək var. Gəl şərt kəsək, barmaq basaq, sonra mən günahkar olmayım.

Elə də elədilər. Camal xan şərti kağıza yazdı. Hər ikisi barmaq

basdı. Aşıq Səməd gördü ki, pəhlivan dizinə ayna bağlayıb meydanda gərdiş edir. Qorxudan ağlı başından çıxdı. Sazı alıb dedi:

Yaman yerdə ilişmişəm,
Daha mən qaçmaq istərəm.
Bu yerdə gizlin sirrimi,
Söyləyib açmaq istərəm.

Xandan istəmirəm xələt,
Çətin görünür əhvalat.
Sözlərimdən çıxdı qələt,
Və'dimdən keçmək istərəm.

Əlacsız qalan aşıq Səməd ağasını çağırdı. Birdən qeybdən qulağına səda gəldi ki, qorxma, güləş. Mən sənə verdiyimi vermişəm. Aşıq Səmədin ağlı yerinə qayıtdı. Aldı görək sözünün dalısını necə bitirdi:

Mövlam izn verdi yəqin,
Söyləyim sözümün sağın.
Süpürüb yerin torpağın,
Meydanı eşmək istərəm!

Məhəmməd, Əli iddah ilə,
Rəbbi Cəlil Səddah ilə.
Mən Səmədəm, Səddah ilə,
İndi güləşmək istərəm!

Söz tamama yetdi. Səddah pəhləvanın əmri ilə meydana üç boyun kəl gətirdilər. Kəllərin boynunda halqalı zəncir var idi. Aşıq Səməd fikirləşdi ki, yəqin meydanı əkib, bizi şumda güləşdirəcəklər. Gördü ki, yox, hər kəlin boynuna bir qamçılı oğlan mindi. Səddah pəhləvan dizini yerə qoyub halqaların üçünü də əli ilə tutdu. Oğlanlar nə qədər qamçıladılarsa, kəllər Səddahı yerindən tərpədə bilmədilər. Yenə Səmədin ürəyinə qorxu düşdü. İstədi ki, qaçsın, xanlar dövrəyə alıb qoymadı. Aşıq Səməd başladı bir də ağasını köməyə çağırmağa:

Nə ola mövlam bu dərdimə vara, ya mövlam, səndən mədət!
Düşmüşəm dərgahında dara, ya mövlam, səndən mədət!



Məhmünəvvər dua edir, mələklər deyir amin,
Lütfündən irsala yetir hər intiqamın.
Bir əli yerə qərar, bir əli göyə zamin,
Behiştdə açarçı olub asimanı tutandan mədət!

Qılır onun namazını mələklər muştağında,
Mətləblər hasil olur behişt-cənnət bağında.
Xişm ilə nə'rə çəkib şəhadət barmağında,
Xeybərin qalasını alandan mədət!

Çəkibən Zülfüqarı qayalardan yol eyləyən,
Cansızlara can bəxş edib daşları dil eyləyən.
Saili borcdan qurtarıb özünü qul eyləyən,
Adını qəşəmşəm qoyub bərbərdə satandan mədət!

Mən Səmədəm, dürlü, mətah gətirmişəm bazara,
Təşneyi-ciyarım oldu sədpara.
Qərib adam, qürbət el, nə pis yerdə düşdüm dara,
Heç kimdən nicat yoxdur, ya Əli, səndən mədət!

Söz tamama yetdi. Onda gördü ki, ağasından səda gəldi ki, qorxma sənə yeddi böyük kəlin gücünü verdim, güləş. Aşıq Səməd ürəkləndi. Üz-gözünə zəhm verib meydana girdi, əlini yetirən kimi Səddah pəhləvanı qaldırıb yerə vurdu. Sanki, yüzillik bir palıd ağacı kökündən qopub yerə dəydi. Aşıq Səməd qürrəsindən bir nə'rə çəkib aldı görək nə dedi:

Mən nə deyim o canana,
Varımmı, varmıyımmı?
Üzü qara qanlı meydan,
Girimmi, girmiyimmi?

Çatıbdır haqqın nəzəri,
Olubdur qəssab bazarı.
Ortasından mən tən yarı,
Bölümmü, bölmüyümmü?

Səni sovurram saman kimi,
Ömrün oldu tamam kimi.

Odla atəş yanan kimi,
Yandırımmı, yandırmayımmı?

Belə dərdi kimlər çəkə?
Göz yaşını tökə-tökə.
Meydanda qızıldan təpə,
Qurummu, qurmuyummu?

Meydanda bənzərəm nərə,
Gumanım gəlir hünərə.
Səmədəm, Səddahı yerə,
Vurummu, vurmayımmı?

Söz tamama yetdi. "Sağ ol", "əhsən" səsləri göyə dirək oldu. Xanlar Səmədin başına o qədər qızıl, pul, xələt tökdülər ki, doğrudan da təpə əmələ gəldi Səməd də bunların hamısını meydan süpürgəçilərinə, Səddaha verdi. Camaat Səddaha dedi ki, sən özün də çox anaları ağlar qoymusan, indi get, qabırğalarını sınıqçıya sarıtdır.

Xannar işin gedişindən çox razı idilər. Bir-birlərinə deyirdilər ki, qırx gün, qırx gecə Hasan xanın hesabına yeyib içəcəyik.

Lakin Hasan xan hiylə niqabını üzünə çəkib nala-mıxa vurmağa başladı. Hamı gördü ki, Hasan xan qızı vermək istəmir. Camal xan dedi:

-Aşıq Səməd, deyəsən Hasan xan qızı vermək istəmir. Gəl sən haqqını sazla istə. Verməsə başqa tədbir tökərik.

Aldı görək aşıq Səməd nə dedi:

Mərdlərin pirindən, o bir Xudamdan,
Müşkülə düşmüşəm, imdad istərəm!
Məcnun necə ayrılsın öz yarından?
Mən səndən ayrılsam, fəryad istərəm!

Bir badə içmişəm mövlam əlindən,
Baxmaqla doymazsan pir kamalından.
Camal xan var olsun öz mahalında,
Hasan xanı bir Keyqubad istərəm!



Camal xan dedi:

-Aşıq, bizi tə'riflədiyinə görə sağ ol. İndi keç əsas mətləbə.

Aldı aşıq Səməd:

Oxunur dastanda Səmədin sözü,
Onun qələmində pozulmaz yazı.
Gözəllər sultanı Hasan xan qızı,
Düz ilqarlı ismi-Səmad istərəm!

Söz tamama yetdi. Xanlar Hasan xana dedilər:

-Hasan xan, sən də xansan, biz də. Sənin əhdə dönüklüyün bizim adımıza da ləkə gətirir. Gərəkdir ki, əhdə vəfa edəsən.

Axır ki, xanlar bir zülümlə Hasan xanı yola gətirdilər. Qırx gün, qırx gecə toy oldu. Savad xanımla aşıq Səmədi tapşırdılar bir-birinə. Toydan sonra da Səməd bir müddət qaldı burada. Günlərin bir günü ana vətən, ata-ana Aşıq Səmədin yadına düşdü. Ürəyi bərk kövrəldi. Savad xanıma dedi:

-Savad, gör neçə müddətdi ata-anamın gözü yoldadı. Gedək öz yerimizə. Mənim atamın varı-dövləti sənin atanın dövlətindən heç də az deyil. Bir də ki, qızın borcudur, oğlan hara getsə onunla getməlidir.

Savad dedi:

-Atam bilər, sən bilərsən. Mən atamdan icazəsiz heç yerə gedə bilmərəm. Get, atamdan icazə al. Ondan sonra hara istəyirsən, baş üstə.

Səməd gedib məsələni olduğu kimi Hasan xana danışdı. Onsuz da yadelliyə qız verdiyinə görə bərk peşmanlanmış Hasan xan bu xahişi eşidəndə lap dəli oldu.

-Bir də elə söz danışma. Gözümün ağı-qarası bircə övladımı qürbətə yola sala bilmərəm.

Aşıq Səmədin əlacı kəsildi. Qayıdıb Savadın yanına gəldi. Atasının dediyini ona söylədi. Savad xanım dinmədi. Səməd gördü ki, yox Savad atasından izinsiz getməyəcək. Odur ki, Savad xanımla halal-hümmət edib ata-anası ilə görüşmək üçün vətənə getmək fikri ilə yola çıxdı. Ağası onu bir göz qırpımında Şəmşəddin mahalına çatdırıb dedi:

-Oğul, hələ sənin bəlalı günlərin qabaqdadı. Diqqətli ol, evdə sənin pak sümüyünə murdarlıq salmasınlar, yoxsa qəzəbimə gələrsən.

Aşıq Səməd gəldi evlərinə. Bütün mahal göz aydınlığı verməyə gəldi. Qurban qurban üstündən kəsildi. Yetim-yesirin, əlsiz-ayaqsızın qarnı doydu.

Camaat dağılandan sonra Səməd başına gələnləri ata-anasına danışdı. Özü də dedi ki, bir həftədən sonra Hil şəhərinə qayıdacaq.

Səməd evdə olmayan vaxt Əsgər ağa ilə Pərzad xanım axund Kərbəlayı İbrahimi gətirtdilər. Kişi kitaba baxıb dedi:

-Sizə bir yol demişəm ki, bunun dərdi buta dərdidir. Mən buna dua yaza bilmərəm. Yazsam, buta verən kişinin qəzəbinə gələrəm. Məni havayıdan dilə tutmayın.

Əsgər ağa dedi:

-Axund, bəs biz neyləyək? Bir həftədən sonra yenidən Hil şəhərinə qayıtmaq istəyir. Biz hara, Hil hara? Bir tədbir tök, səni qızıla tutaram.

Qərəz, Əsgər ağa ilə Pərzad xanım axund Kərbəlayı İbrahimə o qədər qızıl verdilər ki, axund Allahın yolundan çıxdı. Dedi:

-Bunun bircə əlacı var. Gərək sümüyünə murdarlıq salasınız. Axşam yeməyini duzlu edin. Yatanda da yanına murdar su qoyun. Qalxıb yuxulu-yuxulu içəcək.

Allah şeytana lə'nət eləsin. Elecə də elədilər. Axşam Səmədin xörəyini anası özü gətirdi. Dedi ki, oğul, bunu özüm bişirmişəm. Gərək tərtəmiz yeyəsən. Səməd gördü ki, xörək çox duzludur. Lakin yol üstə olduğu üçün anasının xətrinə dəymədi. Xörəyi təmiz yeyib yatdı. Gecə bərk susadı. Duranda gördü ki, yanında sərin su var. Götürüb içdi.

Sabah yuxudan qalxandan sonra Səməd özünü yaman narahat hiss elədi. Nigaran olub tez yola hazırlaşmağa başladı. Mahaldan bir az aralanıb ağasını çağırdı. Onda gördü ki, qeybdən səs gəldi.

-Səməd, sən mənim sözümə yaxşı qulaq asmadın. Sümüyünə murlardıq saldırdın. Sən bir də Savadın üzünü görə bilməzsən. Mən də daha sənin ağan deyiləm. Bir də məni çağırma.

Səməd elə bil ki, dəli oldu. Gözünün on yerindən od tökdü. Ancaq nə fayda? Aldı görək ürək yanğısı, qəlb hicranı haqqında nə dedi:

Fələk, səndə nə qaydadı?
Ayırırsan yarı yarından!
Göz oldu görməmiş kimi,
Könül yox oldu varından!



Fələk, evin bərbad olsun,
İstəkli dostun yad olsun.
Ayrılan necə şad olsun?
Belə sərxoş maralından?

Səmədəm, ağlım itirdim,
Dərdimi minə yetirdim.
Cəfa çəkdim, bağ bitirdim,
Yemədim bəhrü-barından.

Söz qurtaran kimi Aşıq Səmədin bədəninin bir tərəfi quruyub ağaca döndü. Camaat onu götürüb evə gətirdi. Evdə ağlaşma dama dirək oldu. Səməd bir az huşa gətdikdən sonra gözünü açıb dedi:

-Bax, bax, gör Savad necə vəfalıdırsa mənimlə bərabər can verir. Bunu deyib Aşıq Səməd başını yastıqdan bir az qaldırdı, aldı görək son nəfəsində nə dedi:

Hicran ölkəsində bir qala yapdım,
Qüvvətim çatmadı, uçdu, qayıtdı.
Qəmdən kərpiciydi, dərddən hoqacı,
Uçunub başıma düşdü, qayıtdı!

Nə yamandı bu fələyin işləri,
Könül oldu keçmişlərə müştəri.
Həsrət bir cəlladdı, əzab neştəri,
Sinəmin başını deşdi, qayıtdı!

Səmədəm, dünyanı elədim soraq,
Sinəm bir kitabdı, saysan min varaq.
Alşan-gülşan oldu, yandı bir çıraq,
Mənzilə çatmamış keçdi, qayıtdı!

Söz tamama yetdi. Aşıq Səməd gözlərini həmişəlik yumdu. Əzizlərim, deyilənlərə görə, Şəmsəddin mahalında Aşıq Səmədin cənazəsi torpağa qoyulanda Hil şəhərində də Savad xanım dəfn edilirdi. Allah yaxşılara rəhmət, pislərə lə'nət eləsin. Sağ olun, salamat qalın.

Sizə ərz eləyim kimdən, Əhməd bəziryanla Məhəmməd bəziryandan. Əhməd bəziryan İstambullu, Məhəmməd bəziryan İsfahanlıydı. Bu şəhərlərin arası altı aylığ yoldu. Günlərin bir günündə Əhməd bəziryan İstambuldan aldan, qumaşdan, ağdan – bezdən alıb İsfahana aparırdı. Məhəmməd bəziryan da İsfahandan otuz doqquz yoldaşnan aldan, qumaşdan, zərbafdan götürüb İstambula yol başladı. İsfahanla İstambulun arasında üç aylıq yolda Alxa Çiməni deyilən gözəl yurd vardı. Burada Çeşmə bulağı adında gözəl bir bulaq vardı. Bəziryanlar burada düşüb dincəlirdilər.

Bir gün Əhməd bəziryan Məhəmməd bəziryandan qabaq Alxa Çimənə düşdü. Yoldaşlarına əmr elədi qəflə-qatırı düşürtsünlər, çay-çörək tədarükü eləsinlər. Bir az sonra Məhəmməd bəziryan da Alxa Çimənə gəlib çıxdı. Bir az aralı düşüb istirahət etməyə başladı. Bunlar çay-çörək tədarükü eləyəndə Məhəmməd bəziryan dedi ki, gedim tacirdən soruşum görüm xırıdımız necədi?

Hər iki bəziryanın sonu yoxuydu. Məhəmməd bəziryan qədəm basdı Əhməd bəziryanın yanına. Salamməleyk elədi. Əhməd bəziryan gördü bu bir mə'rifətli adamdı, yer göstərdi. Bunlar söhbətə başladılar. Elə şirin gəldi söhbətləri bir-birinə, hər ikisi əl tutub siğə qardaş oldular. Bunlar yenə söhbətə başladılar. Məhəmməd bəziryan Əhməd bəziryandan düşüncəli adamıydı. Bu dedi:

-Qardaş, Allahın yazısıdır, biz qardaş olduq. İndi gəl dərdimizi bir-birimizə söyləyək.

Əhməd bəziryanın dərdi açıldı:

-Qardaş, Xudavəndi-aləm yanında hər bir cəhətdə Allah məni yada salıb. Bir şeydə yox. Mən öldüm: yarğan uçdu, toz qopdu. Bir keçi başı tutan yoxdu yurdumda, sahaflıq eləsin.

O, belə deyəndə Məhəmməd bəzirgan qayıtdı:

-Vallah, qardaş, dədələrin goruna qurban olum. Yaxşı deyiblər: "Taylı tayını tapmasa, günü ay-vaynan keçər". Mən də sən günlüyəm. Allahın məsləhətinə şükür, iki dərdlini bir-biri ilə tapışdırdı.

Bunların ahı-zarı ərşi-əlaya bülənd oldu. Gördülər qıblə tərəfdən bir dərviş qəsidə oxuya-oxuya əlində hasa, başında əmmamə gəlir. Dərviş bunların yanına çatdı. Başda dərvişə yer göstərdilər. Dərviş baba mübarək əlləri ilə qoynundan bir üzü süddən ağ, bir üzü laladan qırmızı bir alma çıxarıb bu iki tacirin qabağına qoydu. Məhəmməd bəziryan Əhməd bəziryandan ağıllı idi. Göz elədi ki, bu nurlu dərvişə, çıxardax qızıl verək. Məhəmməd bəziryan əlini cibinə atanda dərviş deyir: -Mən pay alan dərvişlərdən deyiləm, pay verən dərvişlərdənəm. Bu almanı iki şaqqaya bölün. Nə qırmızıdan ağa, nə ağdan qırmızıya getsin. Əlimin urvatına görə hərənizin bir züryəti olacaq. Burda ya ilqar, ya iman eləyirəm. Sənin qızın bunun oğlunundu. Burada kəbinini kəsirəm.

Bunlar söyüncək almanı ipək dəsmalın üstünə qoydular. Hər ikisi əl uzatdı qırmızı almanı götürməyə. Məhəmməd bəziryan dedi:

-Qardaş, gəlsənə sağ-sağ özümüzü cəhənləmlik eləməyək. İlahi çöp buyurub. Gəl çöp ataq.

Çöp atdılar. Qırmızı alma Əhməd bəziryana, ağ alma Məhəmməd bəziryana düşdü. Hər ikisi almanı büküb dəsmala, qoydu qoynuna. Burda biri xırıdını ona, o biri xırıdını buna verdi. Malları dəyişdilər, hərə qayıtdı öz şəhərinə.

Aşıq dili yüyrək olar. Tez aparar, tez bişirər, tez yetirər. Hər kəs öz vətəninə daxil olanda hərəsi öz ailəsinə muştuluq xəbəri verdi:

-İlahi bizə tütyə göndərib. Bir yaxşı xörək hazırla.

Bunlar bir yaxşı, istəkli xörək bişirdilər. Hər ikisi öz yerində oturub almanı çıxardılar. Hərə almanı öz ailəsi ilə yedi.

İlahinin verməyinnən hər ikisinin arvadının boynuna uşaq düşdü. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqədən sonra hər ikisi yatdı. Əhməd bəziryanın bir qızı oldu. Məhəmməd bəziryanın arvadı ekiz gətdi: bir oğlu, bir qızı oldu. Nəzir-niyaz paylandı, qurbanlar kəsildi. Əhməd bəziryan belə söhbət buraxdı ki, mənim qızıma elə bir ad qoyulmalıdır ki, şəhərdə belə ad olmasın. Hamı yığıldı: buna nə ad qoyaq. Molla, axund, ağsaqqal, qarasaqqal hamısı dedi vallah elə ad uydura bilmərik. Bir yaxşı qarı çağıraq.

Çağırdılar. Qarılar gəldi. Qarı var iman - quran, qarı var ilan - vuran, qarı var hərcayı. Qarının birisi dedi: "Adını qoyuram Sicimqulu, ömrü sicim kimi uzun olsun". Qızlar qarını kötəklədilər, getdi. Qarının biri dedi: "Adını Örkənqulu qoyuram, ömrü örkən kimi uzun olsun". Bunu da o biri qarının dalınca yolladılar.

İman - Quran qarı irəli durub əlində Yusifi-təsbeh deyir:

-Mən bu qızın adını qoyuram Pərizad xanım.

Hamı bəyəndi. Qarıya çoxlu xələt verdilər. Qarı bir xələt götürdü. Qalanı mollalara qaldı. Yemək-içmək, şadlıq həddən aşdı.

Məhəmməd bəziryan da qızının adını Səlbi xanım qoydu, oğlu-

nun adını Nəcəf xan.

Uşaqlar iki yaşdan on beş yaşa çatdı. Əhməd bəziryan gördü qızı yetişib, vaxtıdı. Özü düşgünlüyüb, qocalıb.

Məhəmməd bəziryan uşaqlar bir az böyüyəndə Allah rəhmətinə getdi. Günlərin bir günündə Nəcəf xan yetirdi, anasına dedi:

-Ana, dəvə qumdan yeyən kimi atamın malını yeyirəm. Bəlkə qurtardı - Atam bu mal-dövləti hansı sənətiynən qazanıb? – deginən. Atamın sənətini işlətməliyəm.

Anası dedi:

-Oğul, bəziryan idi, atan.

Nəcəf xan başına İsfahandan otuz doqquz yoldaş yığır. Bir də özü olur qırx. Yoldaşlarına deyir:

-Gəlin tacirliyə gedək.

Yoldaşlarının heç birinin pulu olmur. Bunların hamısının əvəzinə pul qoyur. Mal yığıb İsfahandan İstambula yola düşürlər.

Sizə kimdən xəbər verim. Əhməd bəziryandan. Əhməd bəziryan görür qız böyüyür. On beş, on altı yaşına çatıb. Yadına dərvişin sözləri düşür. Deyir İstambulu gəzim, bəlkə İsfahandan bir adam tapa bildim. Gəzdi, gəzdi tapa bilmədi. Bir belə fikri-qərara gəldi ki, ayə çıxım şəhərdən kənara. Əhməd bəziryan belə də elədi. O yola, bu yola yüyürdü. Gözünə dəyən olmadı. Günorta gördü budur ha bir bəziryan karvanı gəlir. Gəldi, bir yol qırağında oturdu.

Karvan bunun yanına çatdı. Gördülər bir qoca yol qırağında oturub. Salam verdilər. Əhməd bəziryan sual elədi:

-Oğul, bu hara karvanıdı?

-Dedilər:

-İsfahan.

İsfahan sözünü eşidəndə Əhməd bəziryan ürəkləndi, soruşdu:

-Oğul, bir adam desəm tanıyarsanmı? İsfahanda Məhəmməd bəziryan varıydı. Bəlkə onun adamı ola içinizdə?

Dedilər:

-Əmi, budu oğlu.

Əhməd bəziryan oğlanı bağrına basdı, o üzündən, bu üzündən öpdü. Duzsuz qoyun duz yalayan kimi oğlanı yaladı. Dedi:

-Bala, vallah gəldiyinizi bilsəydim atınıza ot biçərdim. Gedək, bu gündən hamınız mənim qonağımsınız.

Cavanlar çox sevindilər. Əhməd bəziryan dedi bəlkə qızın oğlana könlü olmadı. Yaxşısı budu göstərim. Pərizad xanımın evi bir az



aralı idi. Əhməd bəziryan qəsdən karvanı evin qabağından apardı.

Pərizad xanım külafirəngidən baxırdı. Gördü vallahi bir oğlan gəlir, yemə-içmə, xəttü xalına, gül camalına tamaşa elə. Pərizad xanım ürəyində Allaha yalvardı: "Ey Xudaya, mənim yazımı yazmayıbsansa, bu oğlana yaz". Pərizad xanım bir könüldən min könülə oğlana vuruldu.

Əhməd bəziryan qonaqları gətirir evinə. Xoş-beş, on-beş, süfrə açılır. Yemək-içməkdən sonra, istirahət eləyirlər. Nəcəf xan yoldaşları ilə bir otaqda qalırdı. Gecə hamı yatandan sonra başlayır haqq-hesab çəkməyə.

İndi görək Pərizad xanım neylədi? Pərizad xanımın otuz doqquz qarabaşı varıydı. Əmr elədi qarabaşlara:

-Yeddi rəngdən özünüzə zinət verib ayağımı qoyduğum yerə getməlisiniz!

Qızlar əmrə hazır oldular. Pərizad xanım geyindi-kecindi. Nəcəf xanın otağına yaxın getdilər. Nəcəf xan oyaq idi. Gördü otağın bir tərəfi az qalır uça. Bir küncə qısıldılar. Onlar bir tərəfə yüyürəndə qapının bir tayı açıldı. Pərizad xanım çiynini bir də vuranda qapı uçub töküldü. Qızlar içəri girdilər. Pərizad xanım qapının çərçivəsinin bir yanını götürüb sinəsinə basdı:

Başına döndüyüm xan əmim oğlu,
Gəl gedək, gəl gedək qal bizim xanda.*
Lalə tək bağrımı eyləmə dağlı,
Alma bizim xanda, nar bizim xanda.

Nəcəf xan baxdı ki, Pərizad xanım bunu özünə dos-doğma əmioğlu çıxdı. Bu da çərçivənin o biri yanını söküb basdı şineyi-sandığına, görək nə dedi:

Başına döndüyüm xan əmim qızı,
Gəl gedək, gəl gedək qal İsfahanda.
Lalə tək bağrımı eyləmə dağlı,
Alma İsfahanda, nar İsfahanda.

Qarabaşların böyüyü Abdulla xanın qızı Ağ qarabaş baxdı ki, Pərizad xanım Nəcəf xanın ayağına yıxılacaq. Dedi:

----------------

* Xanda - xana, otaq mənasındadır.

-Gedib atana deyəcəm.

Ağ qarabaş belə deyəndə Pərizad xanım aldı görək nə dedi:

Pərizad xanım:

Ağamın əlindən içmişəm camı,
Mən kimi gözəldən alginən kamı.
Gəzdim İsfahanı, Urumu, Şamı,
Heç oğlan görmədim, yar, sən nişanda.

Nəcəf:

Ağzın dürdü, dişin inci, sədəfi,
İndi bildim ürəyində muradı.
Gəzdim İsfahanı, Urumu, Şamı,
Gəl gedək mətləbin al, İsfahanda.

Pərizad xanım:

Eşqin xəncərini minib çaparsan,
Bənna olub, sınıq könlün yaparsan.
Gedər olsan, mən Pərizadı apar sən,
İndi ki qalmadın, yar, bizim Xanda.

Nəcəf:

Şamama bəslərlər torpaq içində,
Qızılgül bəslərlər yarpaq içində.
Aynabəndli büllur otaq içində,
Qol-boyun olaydın, yar, İsfahanda.

Bunlar sözünü tamama yetirdi. Düşməninizin ömrü tamama yetsin. Pərizad xanım evə qayıdır. Nəcəf xan istirahət etməkdə olsun. Al xəbəri Pərizaddan.

Pərizad xanım evə qayıtdı, nə qayıtdı. Pərizad xanım yatmadı. Dəli qoyun duzdağı hərlənən kimi elə hərlənir ki, otaq yerindən oynayır. Bu səsə Əhməd bəziryan oyanır. Belə hesab eləyir ki, qonaqların atları açılıb bir-birini qırıb. Arvadı oyadır ki, görək bu nə səsdir? Arvad gördü ki, atlar-zad açılmayıb. Gurultu Pərizad xanımın otağından gəlir. Qız vaxt eləyir ki, özünü aynadan atsın. Anası özünü yetirib soruşur: -Qızım, sən ki, gün-günortaya qədər yatırdın. Bu nə səs-küydü, yoxsa dəli olmusan?

Pərizad xanım bu sözün cavabına dedi:

-Ana, mən dəli-zad olmamışam. Bax, deyirəm, atam versə də



mən o bəziryana gedəcəm, verməsə də.

Arvad gəlib bunu Əhməd bəziryana xəbər verdi. Əhməd bəziryan dedi:

-Get deginən onu elə sabah Nəcəf xana verəcəm. Heç fikir eləməsin. Pərizad xanım qərəl tapıb istirahət eləməkdə olur. Əhməd bəziryan özünü verdi bazara. Azdan verdi, çoxdan aldı, çoxdan verdi, azdan aldı. Səhəri gün Əhməd bəziryan yaxşı bir toy eləyib Pərizad xanımı verdi, sonra evə qayıtdı. Bunlara ayrıca bir imarət də bağışladılar. Bir gün Nəcəf xan dedi:

-Pərizad xanım, mən İsfahana qayıtmalıyam. Gedərsən, aparaım. Getməzsən, öz işindi. Atana da de.

Qız bu xəbəri çatdırdı Əhməd bəziryana. Əhməd bəziryan onların yol tədarükünü gördü. Sonra öz-özünə dedi: "Ey dili-qafil, bəlkə Nəcəf qızı aparıb yarı yolda qoydu, dedi səni aparmıram. Yerini, yurdunu da tanımıram". Əmr elədi, qoşunlar gəldi.

Qoşunlar hazır-yarax atlanıb əmrə müntəzir dayandı. Əhməd bəziryan dedi, neyləyim ki, İsfahana kimi Nəcəfin əli Pərizada dəyməsin. Bir molla çağırıb dərdini söylədi. Molla dizini qatlayıb bir cadu duası yazır ki, bunu ver Pərizad xanıma boynundan assın, özü də İsfahana kimi Nəcəf xanı yanına qoymasın.

Əhməd bəziryan duanı verdi Pərizad xanıma. Pərizad xanım da duanı boynundan asdı. Yol başladılar. Pərizad xanım gördü ki, İstambul qalır, qarabaşları, dostları qalır, bulud kimi doldu. Bunu görən anası dedi ki, gedək Pərizad xanımın bacılığı Ağ qarabaşı atasından alaq. Qərib-qürbət eldə həyan olsun. Ağ qarabaş da qoşuldu bunlara. Qoşun tərpənəndə Pərizad xanımın ürəyinin başına od düşdü. Əmr elədi ki, iki xanə sözüm var, dayanın onu deyim, sonra gedək. Aldı görək nə dedi:

Qürbət ölkələrə mən gedər oldum,
Allah belə yazıb yazımı mənim.
Atam yox, anam yox, qürbət ölkədə,
Bəs kimlər çəkəcək nazımı mənim?

Mən Pərzadam, necə düşdüm bu dərdə?
Heç kəslər düşməsin mən düşən dərdə.
Xan Nəcəfnən olmayaydım şərvəndə,
Daha görməzsiniz üzümü mənim.

Qoşun əhli bütün hamısı dəstə-tufaq bunları apardılar. Bir neçə mənzil getdi. Əhməd bəziryanın qoşunu qayıtdı.

Nəcəf xanın otuz doqquz yoldaşı, özü, Pərizad xanımnan Ağ qarabaş-qırx iki nəfər getdi. Az getdilər, çox getdilər. Alxa Çəməninə gedib çıxdılar. Gecavələr əylənib istirahət eləməyə məşğul oldular. Bunlar burda istirahət eləməkdə oldular, Nəcəf fikir elədi ki, sən İstambuldan İsfahana ailə aparırsan. Bir bax gör, bəlkə korun-keçəlin birini bəzəyiblər ki, bu Pərizad xanımdı. Dedi: yox, yoldaşlarını yuxuya ver, get Pərizad xanımın gecavasına. Pərdəni at, gör Pərizad xanımdı, ya başqası.

Yoldaşları yatdı. Nəcəf xan getdi Pərizad xanımın gecavasına. Getdi ki, Allah-Allah Pərizad xanım elə yatıb, elə yatıb, aya deyir, sən doğma, mən doğmuşam. İstədi Pərizad xanımın yanına paltarlı uzansın. Dedi yox, paltarı soyun, gir əmin qızının qoynuna. Paltarını soyundu. Əlini qızın döşünə uzadanda əli duaya dəydi. Dua göyərçinə döndü: "Əmioğlu, mən getdim, sən də gəl", -deyib uçdu. Nəcəf xan məhəttəl qaldı. Nə geyinə bildi, nə bir şey elədi. Göyərçinin dalına düşüb getdi. Göyərçin getdi bir qayanın başına qondu. Nəcəf xan istədi göyərçini tutsun. Əl uzadanda daşa dönüb qaldı.

Pərizad xanım yuxuda gördü ki, Nəcəf xan bir qanlı dəryaya düşüb axır. Yuxudan ayıldı. Əlini yanına atdı, Nəcəf xanın paltarını gördü. Əlini döşünə atdı, duanı görmədi. Pərizad xanıma demişdilər bu tilsimdi, qoyma Nəcəf xan əlini vursun. Pərizad xanım qaldı naçar: "Ata, evini Allah yıxsın, indi bəs mən neyləyim?" Axırda belə qərara gəlir ki, gey Nəcəf xanın paltarını o, belə də elədi. Yoldaşlarına da dedi ki, bəs haramı gəlib Pərizad xanımı aparıb.

Pərizad xanım Nəcəfin paltarını geydi. On yeddi para hörüyünü buxara papağının altını yığdı. Yoldaşlarına xəbər verdi ki, haramı Pərizad xanımı aparıb. Yoldaşları ata minib, ata əli çatmayan qılçasına minib – kimi dərəaşağı, kimi dərəyuxarı qaçdılar. Yorulandan sonra dedilər:

-Ə, biz niyə özümüzü öldürürük? Odu biri gedib, biri yanındadı. Qurbanı quruda ha döy...

Yoldaşları dedilər ki, Nəcəf xan, hər yanı axtardıq, Pərizad xanımı tapa bilmədik. Pərizad xanım gedib, Ağca qız ki, yerindədi. Bunlar bir az Nəcəf xana toxtaxlıq verib yatdılar. İlan vuran yatdı, Pərizad xanım yatmadı. Axırda belə qərara gəldi ki, arvad xeylağı zehinli olar. Get Ağca qızın gecavasına. Ağca qız tanıdı, qoşun əhli də



tanıyacaq, tanımadı tanımayacaq.

Pərizad xanım gecavanı açdı. Ağca qız onu tanımadı. Dedi nə olar, Pərizad xanım gedib. Mən ki, yerimdəyəm. Özüm də ondan heç əskik deyiləm. Nəcəf xan dedi:

-Dur axtaraq, bəlkə tapa bildik.

Sabah açıldı. Yoldaşları yeyib-içdi. Gecavalar tərpəndi. Pərizad xanım bir kağız yazdı, dedi, əmioğlu, Allah işinə rəvac versə, mən İsfahandayam, məni axtarsan, orda gəz. Kağızı yazdı, bir daşın altına qoydu. Yoldaşlarına dedi:

-Bir az dayanın, sinəmdə üççə xana söz var, deyim gedək.

Pərizad xanım aldı görək nə dedi:

Dad eylərəm qara baxtın əlindən,
Yar üzünə həsrət qalan mən oldum.
Əyyub kimi canda yara bəslədim,
Pərvanə tək şamda yanan mən oldum.

Nə yarım varıydı, nə yar-həmdəmim,
Günü-gündən artır möhnətim, qəmim.
Nuh kimi dəryaya qərq oldu gəmim,
Qəvvasam, dəryaya dalan mən oldum.

Nəcəfəm, oturdum qəm otağında,
Bülbül əl götürməz gül bulağından.
Üzündən, gözündən, tər buxağından,
Tərsa sevmiş kimi Sənan mən oldum.

Söz tamama yetdi. Gecavalar tərpəndi. Az getdilər, çox getdilər. Pərizad xanım bir də baxdı ki, göydə bulud karvanı İsfahan tərəfdən gəlib, İstambul tərəfə gedir. Yoldaşlarına dedi ki, gecavaları əyləndirin. İndi görək Pərizad xanım bulud karvanına üzünü tutub nə dedi:

Göydən gedən para-para buludlar,
Bulud, heç xəbərin varmı yarımdan?
Ciyər oldu hazar para, buludlar,
Bulud, heç xəbərin varmı yarımdan?

Bulud gedir ölkəsinə, elinə,
Qoymanı xəryat əli dəyə gülümə.
Xətrim üçün bir Allahın yoluna,
Bulud, heç xəbərin varmı yarımdan?

Mən Pərizadam, öz canımdan bezaram,
Kağız olsa dərdi-dilim yazaram.
Yeddi gündü buralarda gəzərəm,
Bulud, heç xəbərin varmı yarımdan?

Az getdilər, çox getdilər. İynə yarım yol getdilər. İsfahana çatmağa az qaldı. Yoldaşları deyir ki, Alağaca çatmışıq. İsfahana birցə günlük yol qalıb. Pərizad xanım fikirləşdi ki, adımı qoymuşam. Nəcəf, yaxşı getdim çıxdım Nəcəf xanın torpağına. Mən ki, onun atasını tanımıram, bacısını tanımıram. Dedi yaxşısı budur gəl üzünü zəfəranla, özünü xəstəliyə qoy.

Nəcəf xanın gülər üzü gülməz oldu. Saraldı, heyvaya döndü. Yoldaşları gördü ki, Nəcəf xanın halı birdən-birə qarışdı. Dedilər bir şey olar, Banı xanım nəfəsimizi kəsər. Bunlardan ikisi gedib Nəcəf xanın anası Banı xanıma, bacısı Səlmi xanıma, dayısı Salah bəyə, əmisi Pənah bəyə, qohum-qərəvəsinə dedilər:

-Nəcəf xan gəlib Alağacda naxoşlayıb.

Noolasıdı, xəbər çatandan sonra hamısı tökülüb getdi. Alağacda karvanı tapdılar. Nəcəf xanın gəcavasının başına yığıldılar.

Anası dedi:

-Məni tanımırsanmı, oğul?

Nəcəf xan dedi:

-Yox.

Anası ürək-dirək verdi:

-Fikir eləmə, oğul, nə olar, sağalarsan.

Nəcəf xan dayısı Salah bəyi, əmisi Pənah bəyi də onun kimi tanıya bilmədi. Hamıdan sonra bacısı Səlmi xanım yetirdi özünü. O saat gördü gəcavadakı qardaşı deyil. Anasına dedi:

-Ana, bu qardaşım deyil. Görmürsənmi gözünün altı qız gözüdü?

Anası acıqlandı, gəcavanın bir taxtasını çıxardıb qızı döydü, özünə də təpindi:

-Ağlın azıbdı, nədi? İrəli yeri, qardaşının üzündən öp!

Qız yenə sözünün üstündə durdu:

-Ana, sonra duyarsan. Bu, mənim qardaşım deyil.

Anası qızın sözünə inanmadı

Gəcavalar tərpəndi, gedib İsfahana çatdılar. İsfahana çatan kimi Nəcəf xan Şah oğlu Şah Abbasa üç qiymətli xonça aparır.

Şah oğlu Şah Abbasla arvadı belə qərara gəlirlər ki, xonçanın



əvəzinə qızları Gülgəz Pərini versinlər Nəcəf xana.

Gülgəz Pərini verirlər Nəcəf xana. Toy olur, toy dağılır, toydan üç-dörd gecə keçir, Nəcəf xan qızın otağına ayaq basmır. Qızın əlacı kəsilib Nəcəf xana məktub göndərir ki, gəl söhbət eləyək. Nəcəf xan Gülgəz xanımın yanına gəlib dedi:

- Gülgəz xanım, bilirsənmi, niyə gəlmirəm sənin yanına? Atam vəsiyyət eləyib ki, toy olandan qırx gün sonra əhya namazı qıl, sonra qıznan əl-ələ ver.

- Gülgəz xanım gördü qırx gün keçdi Nəcəf xan gəlmədi. Qırx iki, qırx üç gün keçir, amma Nəcəf xan yenə gəlmir. Götürüb bir hərceyi kağız yazır ki, gəl məni atam evinə apar.

Nəcəf xanın atasının güllü bağçası var idi. Gedir bağdan qırx çubuq qırır. Birdən Nəcəf xanın eşqi yadına düşür. Deyir: "Çubuğu dəstə bir eləyim, yavaşca vurum, andım sınsın. Çubuqnan qızın dizdən aşağısına vurub deyir:

-Bu yara sağalanacan biri sənə tapılar, biri də mənə.

Gülgəz Pəri bunu görüb xəlvətcə namə yazıb göndərir Şah Abbasa.

Bunlar burda qalmaqda olsun, sizə kimdən ərz eləyim, Nəcəf xandan. Nəcəf xan gecənin bir aləmi yuxusunda gördü ki, ağası gəlib başının üstünü kəsib deyir:

-Nəcəf xan, nə müddətdi ağanı yad-bud eləmirsən, əgər sidqinən yad etsən, ağan dadına çatar, inşallah.

Sabah açıldı, sabah üzünüzə xeyirriknən açılsın. Noolasıdı, ağacdaş çox, saz yox. Nəcəf xan daşın birini basıb sinəsinə, görək ağasını necə yad edir. Ağası dadına çatar inşallah:

Sidqinnən çağırram, ey şahlar şahı,
Haray, məni bu cadıdan qurtarın.
Ənbiyalar, övliyalar, ərənlər,
Haray, məni bu cadıdan qurtarın!

Şahi-Mərdan-ərənlərin sərvəri,
Kərəm eylə, qiblə səmtdən dön bəri.
Yerin, göyün, ərşin-gürşün ləşgəri,
Haray, məni bu cadıdan qurtarın!

Nəcəf də çağırar, bu şahlar şahı,
Dadına yetişsin o qibləgahı.

Xorasanda qızıl bəlkə sahabı,
Haray, məni bu cadıdan qurtarın.

Sözləri tamama yetirdi.

İndi sizə hardan ərz edim, Qəvvas Əhmədden. Bu dağın dalında bir şəhər vardı. Burada bir Qəvvas Əhməd vardı. Qəvvas Əhməd belə Qəvvas Əhməd idi ki, bütün xanlıq, xaqanlıq bundan qorxardı. Nədən ki, çox cadükün adamıydı. Kimə acığı tutsa, daş qayırıb divara qoyardı. Qəvvas Əhməd gecə yuxusunda gördü ki, bu dağdan ona qiymətli ənam çatacaq. Qəvvas Əhməd həm üzgüçü, həm ovçu, həm də cadükün idi. Oxunu götürüb dağın davamını getməyə başladı. Gethaget, dağın davamına çatdı. Gördü bir çoban bir sürü qoyunu otara-otara dağdan gətirir. Yaxınlaşıb dedi:

-Ay çoban, bu dağın dalından qulağına bir səs gəlməyib ki?

Çoban dedi:

-Bu dağın dalından bir zırıltı səs gəlir, qorxumuzdan heç birimiz qoyunu ora apara bilmirik, elə yazdan nə bitib üstündədir.

Ovçu Əhməd irəli yeridi, getdi ki, bir cavan oğlan tilsimə düşüb qalıb. Oğlana canı yandı. İrəli yeridi ki, bunu çəksin çıxartsın, əl uzadanda bu da daş olub burada qaldı. Ovçu Əhməd Qur'anını çıxardıb baxdı ki, onu tilsimə salan qabağındakı göyərçindi.

Ovçu Əhməd Nəcəf xana dedi:

-Özün ağ günlü idinmi məni də ağ günə çıxartdın? Göyərçinə bir ox atıram, onu tutub başını üzə bilsən, tilsim açılacaq.

Ovçu Əhməd oxu atır, göyərçin hərlənir başının üstündən. Nəcəf xan göyərçini tutub başını üzür, qanı tökülür üstünə, hər ikisi dardan qurtarırlar.

Ovçu Əhmədin bir qızı var idi. Adı Xanı Xanım idi. Bunu heç kəs qorxusundan ala bilmirdi.

At çapmaqda, ox atmaqda tayı-bərabəri yox idi. Ovçu Əhməd ürəyində dedi ki, elə yaxşı oldu, qızımı verərəm bu oğlana. Apardı Nəcəf xanı aşpazın yanına. Aşpazı çağırıb tapşırdı ki, bu oğlana, nə istəsə verərsən. Aşpaz Nəcəf xanı yedirdib - içirtdi. Ovçu Əhməd Nəcəf xana bir dəstə də bəylərə layiq paltar verdi. Bir müddət keçəndən sonra Ovçu Əhməd öz-özünə dedi: "Ayə, qarabağlı əmliyi kimi bunu bəsliyirsən, çağır gör qızı alır-almır? Bəlkə heç almadı. Bir fikrini öyrənim".

Ovçu Əhməd Nəcəf xana dedi:



-Oğul, bilirsənmi səni niyə çağırmışam? Mənim sineyi-pərdəmin dalında bircə qızım var: həm oğlum, həm qızım – Xanı Xanım. İstəyirəm onu sənə verim. Olarsan oğlum.

Nəcəf xan qaldı məətəl, bilmədi nə cavab versin. Əlacı kəsildi. Dedi:

-İndi ki, sən verirsən, mən də alıram.

Ovçu Əhməd Nəcəf xanın toyunu tutub Xanı Xanımı verdi Nəcəf xana. Xanı Xanım da ha gözlədi Nəcəf xan onun dediyini demədi. Axırda Xanı Xanım dilə gəldi. Nəcəf xan dedi:

-Məni quş kimi qəfəsə salmısan. Heç yerə getmirəm, könlüm açıla.

Xanı Xanım şəhərin istəkli cavanlarını çağırdı Nəcəf xanın yanına. Nəcəf xan başının dəstəsi ilə gəzə-gəzə gedib çıxdı Alxa çəməninə. Dedi:

-Ay uşaqlar, bura nə gözəl yurddu, gəlin bir az əyləşək.

Cavanlar Çeşmə bulağının üstündə oturdular. Nəcəf xan yurd yerini dolandı. Pərizad xanımın naməsini tapıb oxudu. Başını qaldıranda gördü bir atlı çapar İsfahandan kağız gətirir, İstambula aparır. Nəcəf xan dedi:

-Ay qardaş, ala bu kağızı İsfahana apar, bu da sənin qızılın.

Aldı görək nə dedi:

Əgər gedər olsan sən İsfahana,
Söylə salamımı yara, bəzirgan.
Tut vay xəbərini göndər yarıma,
Qoy yazsın ağ üstdən qara, bəzirgan.

Ağzı dürdü, dişi inci, sədəfi,
Sinəmdə çəkərəm dəmbədəm ahı.
Desələr gördünmü sən də Nəcəfi?
Deynən həsrət bir cüt nara, bəzirgan.

Çapar tələsirdi. Atına bir qamçı da artıq vurdu, çatdı İsfahana. Axtardı evi tapdı. Gördü Alxa çəmənində qoyduğu oğlan qabağına çıxdı. Çapar dedi:

-Ayə, özün məndən qabaq gəlirdin, bəs kağızı neyləyirdin?

Pərizad xanım barmağını dişlədi: "Şükür Xudaya, Nəcəf xan sağdı". Pərizad xanım məktuba cavab yazdı:

Göz yaşımnan namə yazdım o yara,
Naməm yetişcək, canan, durma, gəl.
Gözləri yolunda bu intizara,
Vədə verdin bu ilqara, durma, gəl.

Aşiq bilər mə'şuqunun halını,
Mən sevmişəm ağ üzündə xalını.
Gözləməkdən sən namərdin yolunu,
Qalmadı gözümdə qara, durma, gəl.

Pərizad deyər, düşmən bizə güldürər,
Süsəndilər, sünbüldülər, güldülər.
Qiyamətdi, qızı qıza verdilər,
Çox da keçir günüm qara, durma, gəl.

Söz tamama yetdi. Pərizad xanım kağızı verdi çapara. Çapar sürüb həmən kağızı Alxa çəmənində verdi Nəcəf xana. Nəcəf xan oxuyub vəziyyətdən halı oldu. Bildi ki, bu da gedib birini alıb.

Xanı xanım gördü Nəcəf xan elə gəlir, elə gəlir ox kimi. Xanı xanım onu qucaqladı. Nəcəf xan kağızı Xanı xanıma verdi. Xanı xanım kağızı oxuyub mətləbdən hali oldu. Sonra dedi:

-İndi ki, belədi gedək İsfahana. İki könülü yıxıb bir könülü şad eləmək də heç insafdan deyil.

Gəldilər Ovçu Əhmədin yanına. Ovçu Əhməd bunların hərəsinə bir at verib ləl cəvahiratla yola saldı. Bunlar şəhərdən çıxmaqda olsunlar. Az getdilər, çox getdilər İsfahan torpağına yaxınlaşdılar. Nəcəf xanın güllü bağçasına çatanda Xanı xanım dedi:

-Nəcəf xan, ta burdan o yana gedən deyiləm. Məni gözəllərin ayağına aparırsan.

Nəcəf xan Xanı xanımın könlünü aldı:

-Heç fikir eləmə. Elə eləyərəm gözəllər sənin ayağına gələr.

Nəcəf xanla Xanı xanım gəlib güllü bağa çıxdılar. Xanı xanım düşüb atları otarmaqda olsun. Nəcəf xan cəlt yola düşdü. Yolda fikir elədi ki, indi mən necə eləyim İsfahanda məni tanımasınlar. Uzaqdan bir qaraltı gördü. Yanına çatanda baxdı ki, ayə bu bir sayıldı. Bir cırıq tuman geyib, başına da cındır papaq qoyub, bir dağarcıq da çiynində budu ha gəlir. Nəcəf xan dilənçiyə dedi:

-Qardaş, hardan gəlib haraya gedirsən?

Dilənçinin bu sözə acığı tutdu:



-Sənə nə?

Nəcəf xan dedi:

-Qardaş, niyə acıqlanırsan? Əgər razısansa, gəl paltarımızı dəyişək. Hələ üstündə qızıl da verərəm.

Dilənçi inanmadı:

-Düz deyirsən?

Nəcəf xan and içib-aman elədi:

-Qardaş, vallah, düz sözümdü. O dağarcığındakı çörək haqqı, düz deyirəm.

Dilənçi sevincək Nəcəf xanın paltarını geyindi, qızılları da götürüb dərə aşağı yüyürdü.

Nəcəf xan da sayılın paltarını geyindi, dağarcığını çiyninə atdı. Birbaşa gəldi anasının öyünə. Gördü anası çörək bişirir. Bacısı Səlmi xanım da ev süpürür. Qız dilənçini görən kimi cumdu, üz-gözündən öpdü. Anası qızına bir şillə çəkdi ki, bu sayılın nəyini qucaqlayırsan? İşi belə görəndə Səlmi xanım anasına dedi:

Ana, məni niyə döydün,
Həmi döydün, həmi söydün?
Bənövşə tək boynun əydin,
Ana, bax, oğlun gəlibdi.

Anası da zəndlə baxıb oğlunu tanıdı. Elə bu dəm Səlmi xanım Pərizad xanıma muştuluğa qaçdı. Pərizad xanım toy paltarını soyundu. Yenə qız paltarını geyindi. Bu da qaçdı Gülgəz xanıma muştuluq xəbəri verməyə. Pərizad xanım gördü Gülgəz xanımın ayağının biri sayalanıb, biri yox. Üzünü Gülgəz xanıma tutub aldı görək nə dedi:

Dur ayağa, geyin alı qırmızı,
Sənə çox vermişəm, cəbrinən cəza.
Qırx günlük namazı mən qıldım qəza,
Mənim butam, sənin yarın gəlibdi.

Qırmızı, qırmızı, alı al yanaq,
Əmmək üçün ləzzət verir bal dodaq.
Kama yetək, dərdü-qəmi unudaq,
Mənim butam, sənin yarın gəlibdi.

Gecə deyil, gündüz bizə zülmətdi,
Bilməm fələk nəyimizə nə qatdı?

O Nəcəfdi, mənim adım Pərizaddı,
Hər iki gözəlin yarı gəlibdi.

Gülgəz xanım bəzənib axsaya-axsaya Nəcəf xanın qulluğuna gedir. Bunların hamısı gedir Xanı xanımı gətirməyə.

İndi sizə hardan xəbər verim, Şah Abbasdan. Gülgəz xanımın ərzəsi çatır şaha. Çatan kimi atası cəlladı gətirir, əmr eləyir:

-Get Nəcəf xanı gətir dar ağacının yanına.

Elə bu halatda Gülgəz xanım Xanı xanımı gətirdi. Xanı xanım gördü yox, bu xına o xınadan deyil, Nəcəf xan ölüm ayağındadı. Ürəyində deyir: "Mərdana libasında bir Koroğlu havasıynan atanın adını isnad ver, bəlkə Nəcəf xanı qurtara bildin". Xanı xanım Nəcəf xanın paltarını geydi, qılıncını götürdü, atını mindi, girdi meydana. Gördü Nəcəf xanı çəkirlər meydana. Mərdana libasında, Koroğlu havasıynan Xanı xanım görək nə dedi:

Allahı çağırram girrəm meydana,
Şah oğluna deynən meydana gəlsin!
Meydanı bularam zərcyşan qana,
Şah oğluna deynən meydana gəlsin!

Ovçu Əhməd qızı, Xanlar xanıyam,
Bu meydanda qənimimi tanıyam.
Yəqin bil Nəcəfin qoç qurbanıyam,
Şah oğluna deynən meydana gəlsin.

Söz tamama yetdi. Dar ağacının dibində olanlar Şah Abbasa dedilər:

-Biz bu qana şərik deyilik. İstəyirsən get Ovçu Əhmədə özün cavab ver.

Şah Abbas Ovçu Əhmədin adını eşidəndə deyir:

-Ay camaat, mən də Nəcəf xanı sizə bağışlayıram.

Xanı Xanım Nəcəf xanı qoltuğuna basıb gətirdi. Nəcəf xan bu qızların üçünü də aldı, onlarla xoş güzaran keçirdi.



# XIV. XALQ NƏĞMƏLƏRİ

## A YAR, YAR

Yelləncəkdə yellənəm,
Sındı belim, a yar, yar.
Gümüş kəmər, zər nimtənə,
Sıxdı belim, a yar, yar!
Yar ki, yara bab olmadı,
Oldu zülüm, a yar, yar.

## BİR OTAQ TİKDİRDİM

Bir otaq tikdirdim tamam buxarı,
Bir usta istərəm çəkə yuxarı,
Bir oğlan sevmişəm mahud çuxalı.

**Nəqarət**
Ay qız, ay qız, ay qara tel, ağlama,
O üzü dönmüş yara bel bağlama.

Bir otaq tikdirdim durna telindən,
Üstünə tökdürdüm xurma çöpündən,
Bir oğlan sevmişəm Urum elindən.

**Nəqarət**
Ay qız, ay qız, ay qara tel, ağlama,
O üzü dönmüş yara bel bağlama.

## QURBAN OLUM

**Qız:** -Qurban olum qoltuğunda bayaza,
Gecə soyuq, dalın vermə ayaza.
Toylar oldu, toyun qaldı payıza,
Gəl-gəl edir sənə İsanın qızı,
Üzü göyçək, yanaqları qırmızı.

**Oğlan:** -Qurban olum qoltuğunda Qur'ana,

Gecə soyuq, dalın vermə borana,
Toylar oldu, toyun qaldı bayrama.
Gəl-gəl edir sənə İsanın qızı,
Üzü göyçək, yanaqları qırmızı.

## YAYLIĞIM İTDİ, NƏNƏ

**Qız:** -Cürdəyi götdüm, nənə,
Mən suya getdim, nənə.
Viran qalmış çeşmədə,
Yaylığım itdi, nənə!

**Nənə:** -Alma barıydı, qızım,
Heyva, narıydı, qızım.
Viran qalmış çeşmədə,
Kimlər varıydı, qızım?

**Qız:** -Alma barıydı, nənə,
Heyva, narıydı, nənə.
Viran qalmış çeşmədə,
Mahmud varıdı, nənə.

**Nənə:** -Mahmudu görrəm, qızım,
Bir soraq allam, qızım.
Yaylıq Mahmudda olsa,
Bir qanlar sallam, qızım!

Mahmud coşar, ay nənə,
Həddin aşar, ay nənə.
Bir yaylıqdan ötəri
Dava düşər, ay nənə!

* * *

Damlar üstə xoruz banlar,
Onun dilin kimlər anlar?
Anam gələr, üzüm danlar,
Oğlan, dur get sabah oldu,
Yandı bağrım kabab oldu.



* * *

Ələyi mahna eliyib
Saca niyə gəlmirsən?
Gecələr gündüz olub,
Gecə niyə gəlmirsən?
Ətirşahdan can bəslədim,
Bizə niyə gəlmirsən?

* * *

Mən öləndə məzarımı qazarsan,
Sirr sözümü başdaşıma yazarsan.
İncimərəm, gözəllərlə gəzərsən,
Gülü qönçələrdə tar olan canım,
Yarı özgələrə yar olan canım.

* * *

Az danış, az danış, çatladı bağrım,
Nuhun dəryasında qərq olan canım.
Gen dünya başına dar olan canım,
Yarı özgələrə yar olan canım.

* * *

Əlin qoydun əl üstündə,
Gümüş kəmər bel üstündə.
Mən rast gəldim yol üstündə,
Deynən sənə neylim?
Düşüb sənə meylim.

# XV. UŞAQ FOLKLORU

## *OYUN-NƏĞMƏLƏR*

### A TƏRXANA, TƏRXANA

A tərxana, tərxana,
Al, di məni arxana!
Göydə nə var?
-Göy muncuğu.
Yerdə nə var?
-Yer muncuğu.
Adın nədi?
-Tərxana.
Al, di məni arxana!

### O QARA QAZAN DOLDUMU?

O qara qazan doldumu?
-Doldu da, boşaldı da!
Anan saçın yudumu?
-Yudu da, daradı da.
Hansı qızını ərə verirsən?
-Balaca qızı ərə verirəm.
Oğlan evi gəldimi?
-Gəldi də, apardı da.
Toynan gəldi, tütəknən?
-Toynan da, tütəknən də.
Anan nə qədər pul qoyub?
-Bir abbası pul qoyub.
Bir abbasını verək,
Gəlini geri göndərək.

### QIY QILINCIM

Qıy qılıncım,
Qıyma qılınc!
Ox atdım,
Oğru tutdum.



### ZULAMA

Ala qapı, qara qapı,
Tez gəlin, uşaqlar.
Ələk-tabaq,
Qaylan-qabaq.
Sarı yağa,
Sarımsağa,
Zuu demişəm,
Zuulamışam.

### GÖZBAĞLAYICI

Alma desəm açarsan,
Armud desəm açmazsan.
Alma saraldı,
Gözüm qaraldı.

### NEYNİRSƏN?

O kürəyi ver mənə!
-Neynirsən, ay bala?
-Ev tikirəm, ay nənə.
-Evi neynirsən, bala?
-Gəlin gətirrəm, nənə!
-Gəlin kimin qızıdı?
-Həsən bəyin qızıdı,
Ağıllıdı, kamallıdı,
Bəy oğluna nişanlıdı.
Getdik qızı görməyə,
İtləri var hürməyə.
Dədəsi köpək oğlu,
Çıxdı bizi döyməyə.
Anası yaxşı arvad,
Şəkərbura bişirdi.
Yedik, içdik,
Durduq, qaçdıq.

## OKUDU-BUKUDU

Okudu-bukudu bilmirəm,
Laləni dindirmirəm.
Lalə yaman forsludu,
Pişiklərin dostudu.

## BİRİ BİRƏ

Biri birə,
İkisi yerə.
Üçü üzük,
Dördü döşək.
Beşi beşik,
Altısı alma.
Yeddisi yemiş,
Səkkizi sərçə.
Doqquzu donuz,
Onu oraq.
Gəlin gedək,
Nənənin,
Evini "yaraq".

## ƏL-ƏL ƏPƏNƏK

Əl-əl əpənək,
Əldən çıxdı kəpənək.
Kəpənəyin yarısı,
Yumurtanın sarısı.
-Əmi, hara gedirsən?
-Qarabağa gedirəm.
-Qarabağda nəyin var?
Bir oğlum var, bir qızım.
Qızının adı nədi?
-Fatma.
Yerində şıllaq atma.



Yeddi xoruz, bir fərə,
Fatmanı verdim ərə.

## BİBİLİ QOZ

Bibili qoz, ay bibili qoz,
Nənəm gətdi iki qoz:
Biri ala, biri boz.
Mindim bozun boynuna,
Getdim Urum yoluna.
Urum yolu dərbədər,
İçində meymun gəzər.
Meymunları ürkütdüm,
Qulaqların qırpıtdım.
Yolda gəzən xocalar,
Vurdu qolum qırıldı.
Qolum qazanda qaynar,
Oğlaq yanımda oynar.
Oğlağı vurdum yerə,
Yer mənə yemlik verdi.
Yemliyi verdim tata,
Tat mənə darı verdi.
Darını verdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısı açıqdı,
İçi dolu işıqdı.
Qırmızı don,
Arabaya qon.
Arabanın təkəri,
İstanbulun şəkəri.
Hop-hop,
Qızıl top.

## ÇIXDIM ÇİNAR BAŞINA

Çıxdım çinar başına,
Baxdım üzük qaşına.

Üzük qaşı laxladı,
Verdim anam saxladı.
Anama qurban olum,
Yarı qonaq saxladı.

## PİŞİYİM

Pişiyim, pişiyim, piş başı,
Pişiyim yeyir döş-başı.
Döş-başı yağlıcadı,
Bazarda ballıcadı.
Keçəl getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil, qamışdı,
On barmağı gümüşdü.
Gümüşü vurdum, itirdim,
Gürcüstana yetirdim.
Gürcüstanın atları,
Məni gördü kişnədi.
Ay at, niyə kişnərsən?
-Arpa üçün kişnərəm.
Arpanı hardan alaq?
-Xanın qızından.
Xan qızı zili toxuyur,
İçində bülbül oxuyur.
Bacadan baxdım işıqdı,
Taxçalar dolu qaşıqdı.
A qarı, yanını burcutma,
Qızın mənə aşıqdı.

## PORTAĞALI SOYDUM

Portağalı soydum,
Dil ucuma qoydum.
Mən bir oyun uydurdum:
Duma, duma, dum.
Qırmızı don,
Sarı limon.



Lupa, tuka bitməz,
Yara-yara itməz.

## FATMACIQ

Fatmacıq,
Çıq-çıq.
Sən bu oyundan,
Çıx!

## ƏKDİM NOXUD

Əkdim noxud, bitdi söyüd,
Yarpağıdır şabalıd.
Şabalıdı bəsləmişəm,
Noxudları səsləmişəm.
Neçə rəqəm istəyirsən,
De.

## LƏMPƏNİ QOYDUM ORTAYA

Ləmpəni qoydum ortaya,
Günortadan-günortaya.
Həbil-bübül,
Çıx!

## ODUR, BUDUR

Odur, budur.
Gombulların,
Böyüyü budur.

## EKLİ-MEKLİ

Ekli-mekli,
Şam şariki.
Dolma, xiyar, aş,
Axşama bozbaş.

Dal qapıdan girməliyəm,
Müdirə salam verməliyəm.
KA-RAN-DAŞ,
Götür özünə bir yoldaş.

## DIMBILI QIZ

O çaynikə, bu çaynikə, dımbılı qız,
Səni verim nəçənniyə, dımbılı qız.
Nəçənnik də saxlamasa,
Min maşına,
Gəl öymüzə, dımbılı qız.

## BİR, İKİ QIRMADI

Bir,
İki,
qırmadı.
Üç,
Dörd,
vurmadı.
Beş,
Altı,
xurmadı.
Yeddi,
Səkkiz,
qurmadı.
Doqquz,
On,
durnadı.
On bir,
On iki,
basmadı.
On üç,
On dörd,
asmadı.
On beş,
dərdə salandı.



On altı,
can alandı.
On yeddi,
qız toyudu.
On səkkiz,
cənnət suyudu.
On doquz,
dərin quyudu.
İyirmi,
yada qalandı.
İyirmi bir,
yalandı.
İyirmi iki,
talandı.
İyirmi üç,
siftədi.
İyirmi dörd,
şər üstədi.
İyirmi beş,
Reyhandı.
İyirmi altı,
Ceyrandı.
İyirmi yeddi,
yağıdı.
İyirmi səkkiz,
ağıdı.
İyirmi doqquz,
pozandı.
Otuz,
şər üstə ozandı.

## İYNƏ-İYNƏ

İynə, iynə.
Ucu düymə.
Bəli-bəli,
Bətir keçi.
Qoz ağacı,

Qotur keçi.
Yırtıl-yırtıl,
Su iç qurtul.

## MOTAL-MOTAL

Motal-motal,
Dərzi motal.
İt qıl apar,
Qaymaq tutar,
Ağ quşum,
Ağarcığım,
Göy quşum,
Göyərçinim.
Əmim oğlu,
Üzü bığlı.
Vur nağara,
Çıx qırağa.

## BİR-İKİ

Bir-iki,
Bildirki,
Üç-dörd
Qapını ört,
Beş-altı
Daş altı,
Yeddi-səkkiz
Firəngiz,
Doqquz-on
Qırmızı don.

## ƏKİL-BƏKİL

Əkil-bəkil quş idim,
Divara qonmuş idim,
Divarın ağacları,
Dən götürüb ucları.



Çəpər çəkdim yol açdım,
Qızıl gülə dolaşdım.
Bir dəstə gül dərməmiş,
Nənəis gəldi mən qaçdım.

## BARMAQLAR

Baş barmaq,
Başa barmaq.
Uzun Hacı,
Qıl turacı,
Balaca bacı.
Bu vurdu,
Bu tutdu,
Bu bişirdi,
Bu yedi.
Vay, bəbəyə qalmadı.

# *DÜZGÜLƏR*

## ÜŞÜDÜM HA ÜŞÜDÜM

Üşüdüm ha, üşüdüm,
Dağdan armud düşüdüm.
Armudumu yedilər,
Mənə cuhut dedilər.

## KEÇƏL

Keçəl, keçəl, daz keçəl,
Balaları pərvaz keçəl.
Ayran içər kəndə qaçar,
Oxlov atar,
Gözünə batar.

## A NƏRGİZƏ, NƏRGİZƏ

A Nərgizə, Nərgizə,
Bir qaşıq götür gəl bizə.
Bizdən gedək Tiflisə,
Tiflis yolu bağlıdı,
Nənəmin gözü yağlıdı.
Nənəm quymaq çalanda,
Pişik başını buladı.
A pişik, kimin pişiyisən?
-Həsən bəyin pişiyiyəm.
Həsən bəyin nəyi var?
-Bir pota inəyi var.
Daram-duram toy gedir,
İçində fayton gedir.
Birisi əmim qızı,
Birisi dayım qızı.
Birisi xalam qızı,
Yanaqları qırmızı.

## QARĞA QAR İSTƏR

Qarğa qar istər,
Qəhrəman arvad istər.
Arvadı tuman istər,
Tumanı da pul istər...

## YAĞIŞ YAĞAR

Yağış yağar nəmçilər,
Qapını kəsər elçilər.
Anam deyər: Qoy verək,
Atam deyər: Qoy görək!
Ay dili qurumuş nənə,
Bir sən də dillən görək!



## MAŞIN GƏLİR

Maşın gəlir dalbadal,
Ay ana, mənə arvad al!
Arvad olmasın, qız olsun,
Əli-ayağı düz olsun.

## XANA

Bu xana, həndi xana,
Ayağımın bəndi xana.
Səni tezcə qurtarıb,
Gəzərəm kəndi, xana!

## GET BABADAN PUL İSTƏ

Get babadan pul istə,
Baba dedi: yoxumdu.
Get nənədən pul istə,
Nənə dedi:yoxumdu.
Get əmidən pul istə,
Əmi dedi: yoxumdu.
Get bibidən pul istə,
Bibi dedi: yoxumdu.
Get gombuldan pul istə,
Gombul dedi: baş üstə!
Gombulu partlatdılar,
Zeynəbi oynatdılar.

## DIMBILI KİŞİ TAR ÇALIR

Dımbılı kişi tar çalır,
Arvadı qarmon çalır.
Uşaqları oynayır,
Qonşuları əl çalır.

## ÇƏKMƏÇİLƏR ÇƏKMƏ TİKİR

Çəkməçilər çəkmə tikir,
Sapı burur, mumda çəkir.
Deşir gönü bizlər ilə,
Taxır sapı belə-belə.
Çəkməyə bir qəlibsalır,
Ağac mıxı gönə çalır.
Çəkicini alır ələ,
Mıxı döyür belə-belə.

## ARAZ GƏLİR

Araz gəlir, lil gəlir,
Dəstə-dəstə gül gəlir.
O gülün birin üzəydim,
Saç bağıma düzəydim.
Saç bağım qatar-qatar,
Üstündə oğlan yatar.
Oğlanın əl yaylığı,
Ucunun zər yaylığı.
Oğlan mənə bir qızıl alma,
Mən oğlana can bağışlaram.

## SİM, SİM, SİMGİLƏ

Sim, Sim, Simgilə,
Gedirdim nənəmgilə.
Nənəmə dedim getdim,
Qırmızı tuflimi,
Geydim getdim.
Tuflinin içi qırmızı,
Ölürəm, a doxdur qızı!
Əli dayı isti suda boğuldu,
Ö, ö, ö, ö!
Fatma nənə axtarmadan yoruldu,
Vay, vay, vay!..



## TAMARA, TAMARA, TAT QIZI

Oturmuşdum divanda,
Qarmonum da yanımda.
Birdən qapı döyüldü.
Elə bildim dədəmdi,
Elə bildim anamdı.
Baxdım gördüm siçandı,
Siçana bir təpik vurdum,
Getdi dəydi divara.
Divardan bir qız çıxdı,
Adını qoydum: Tamara.

## O TOY - BU TOY

O toy-bu toy kolxana,
Qolları bəzmət xana.
Ərzə yazdım göndərdim,
Gəncəli Məmmədxana.
Məmmədxanın qoşunu,
Aldı çayın başını.

## KEÇƏL

Keçəl, keçəl banıya,
Mindi quleybanıya.
Sürdü divanxanıya.
Keçəl deyər: vay başım,
Qazanda qaynar aşım.
Aşımı içən olmadı,
Başımı biçən olmadı.

## TURŞULU AŞ İÇMƏRƏM

Turşulu aş içmərəm,
Darvazadan keçmərəm.
Darvaza mənim olsun,
Qırmızı donum olsun.

Geyim gedim Tehrana,
Tehranda toyum olsun.
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.

## ZÖHRƏ ÖLÜB

Zöhrə ölüb yasıdı,
Pişiklər mollasıdı.
Gəlin gedək ağlıyaq,
Başına qara bağlıyaq.

## NƏRGİZ ÖLSÜN

Nərgiz ölsün, mən qalım,
Yeddi kilo qənd alım.
Halva çalım paylayım,
Başıma qara bağlayım.

## ÇINQIDI-ÇINQIDI ÇALEYDIM

Çınqıdı, çınqıdı çaleydım,
Ayrım qızı aleydım.
Ayrım qızı gəlməsə,
Özümü dağdan ateydım.

## ALIQ-BALIQ OLAYDIM

Alıq-balıq olaydım,
Bankalara dolaydım.
Təzə məllim gələndə,
Başıma papaq qoyaydım.
Tarix dərsi gələndə,
Sinifə düşdü vəlvələ.
Məllim dedi:
-Dur söylə!
Söyləməsən bir şillə!
Şillə yaman şartdadı,
Güllə kimi partdadı.



## DOLAMALAR

-Deynən tülkü!
-Tülkü!
-Geynən kürkü.

-Deynən əmi!
-Əmi!
-Çək yerindən gəmi.

-Deynən xala!
-Xala!
-Qazan dibi yala.

-Deynən Səlim!
-Səlim!
-Qoysan sizə gəlim.

-Deynən daş!
-Daş!
-Gəl olaq qardaş.

-Deynən alça!
-Alça!
-Dədən qalsın tayqılça.

-Deynən bə nə?
-Bə nə?
-Ağzına qıllı gənə.

-Deynən balta!
-Balta!
-Boğazında var xalta.

-Deynən yorğan!
-Yorğan!
-Tikə-tikə doğran.

-Deynən ağır!
-Ağır!
-Belin olsun yağır.

-Deynən ara!
-Ara!
-Canına düşsün yara.

-Deynən balıq!
-Balıq!
-Saxlasın səni xalıq.

-Deynən bərəkət!
-Bərəkət!
-Canında qalmasın hərəkət.

-Deynən ayı!
-Ayı!
-Sən də onun bir tayı.

-Deynən tat!
-Tat!
-Tabaq altda yat.

-Deynən tərəkəmə!
-Tərəkəmə!
-Girmə mərəkəmə.

-Deynən Qulu!
-Qulu!
-Ver bizim pulu.

-Deynən ləyən!
-Ləyən!
-Get nişanlını bəyən.

-Deynən kasa!
-Kasa!
-Batma yasa.



-Deynən bir!
-Bir!
-Birə qəbrinə gir.

-Deynən iki!
-İki!
-Uçub getdi sizinki.

-Deynən üç!
-Üç!
-İt qabından su iç.

-Deynən dörd!
-Dörd!
-Get qapını ört.

-Deynən beş!
-Beş!
-Burnunla torpağı eş.

-Deynən altı!
-Altı!
-Boğazına çatı.

-Deynən yeddi!
-Yeddi!
-Papağın əldən getdi.

-Deynən səkkiz!
-Səkkiz!
-Ağzına saqqız.

-Deynən doqquz!
-Doqquz!
-Başına toppuz.

-Deynən at!
-Ay!
-İynə vurum yat!

-Deynən qayçı!
-Qayçı!
-Navar a qaraçı.

-Deynən pendir!
-Pendir!
-Nənənin tumanı əldən getdi.

-Deynən Məhərrəm!
-Məhərrəm!
-Əppək verim zəhərrən.

-Deynən on!
-On!
-Get divara qon.

-Deynən sarımsaq!
-Sarımsaq!
-Kəs səsini qurumsaq!

## *CIRNATMALAR*

### ƏLİŞ

Əliş mənim dayımdı,
Ağaca çıxan ayımdı.
Getdim gördüm yatıbdı,
Burnu yala batıbdı.

### EMİŞQA

Emi-emi, Emişqa,
Cibi dolu semişqa.
Birin istədim vermədi,
Adını qoydum: hindişqa!



### XUMAR XAN

Adın nədi?
-Xumar xan.
Gözlərini yumarsan.
Özün özgəyə qıymaz,
Özgələrdən umarsan.

### TÜKƏZBAN YATIR

Tükəzban yatır,
Qız demə: qatır!
Xor-xor xoruldar,
Gur-gur guruldar.
Gözləri miş-miş,
Yanağı bişmiş.

### YANILTMACLAR

Qarğa qırdı qarğını,
Qırğı gördü qarğanı.
Qırğı tutdu qarğıdan,
Qarğa qaçdı qırğıdan.
Qovdu qırğı,
Sındı qarğa.
Uçdu qarğı
Qarr... Qarr...

* * *

Dadaş dayı, damın dalındakı danaları dama doldur!

* * *

Təndirə girdim, sildim, süpürdüm, silkindin çıxdım.

* * *

Qatığı sarımsaqlama! Sarımsaqlasan da yiyəcəm, sarımsaqlamasan da.

* * *

Çoban, çır-çır çağırmaqdan çənəmizin çüyü çıxdı.

* * *

Ay axır çərşənbə axşamı, gəlmişəm səninlə çərşənbələşəm, çərşənbələşsən də çərşənbələşəjəm, çərşənbələşməsən də, çərşənbələşəjəm.

* * *

Bu dükcə, cüt-cüt dükcə, üç cüt dükcə.

* * *

Dadaş dayı, dədəm deyir: dəmiri dəmirə döyməsin, döyəndə dəmir deşilir.

* * *

Dilim-dilim olasan dedim dilimə. Dedi: dinməz idim, dindirdilər, dindim mən.

* * *

Əlli əl, əlli əli, əlli dəfə əllədi.

* * *

Yetişmiş yemişi yetim yemiş.

* * *

Göy cöngə, gömgöy cöngə, dümgöy cöngə.

* * *

-Sağ ol səni, Səkinə, Səmədova Səkinə.

* * *

Səhər saat səkkizdə Səmədova Səkinə saatını, saatsaza saldırdı.

* * *

Səhər saat səkkizdə sovet sədri Səmayə su sənəyini suya salıb sındırdı.

* * *

Çatı gətir, çay içində çal qatıra çatı çataq.

* * *

Cümə axşamı Cümə məscidində cürə Cabbarın cübbəsini cüvəllağılar cilvitdilər.

* * *

Şikəstə çalan, şikəstəsizləmişəm, şikəstə çal!



# NAZLAMALAR

Səni verənə qurban olum,
Könül görənə qurban olum!
Mən demişdim xoruz ver,
Fərə verənə qurban olum!
Süd dibi, qatıq dibi,
Qadaların alsın bibi!
Süd yala, qatıq yala,
Qadaların alsın xala!

Evim-eşiyim, hədiyim,
Allahdan dilədiyim.
Qaraçıdan qapdığım,
Haqq yolundan tapdığım!

Dəyirman altı qabax,
Yarpağı tabax-tabax.
Nəvəmə bir qız seçəcəm,
Uzun boy, açıq qabaq.

Balam yaraşıqlıdı,
Qəndə bulaşıqlıdı.
Ay qara milçək,
Balamdan əl çək!

Pişiyim , pişiyim, bağda-sər,
Eşiyə çıxma, yel əsər.
Taxçada pendir,
Qaç onu yendir!

Qızım qızlar içində,
Əyrisi yox qıçında.
Qızıma elçi gələcək,
Gələn ayın içində.

A balaca oğlan,
Bazarda tullan!
Qoy qızlar görsün,
Dərdinnən ölsün!

Qızım, qızım, qızlar ağası,
Başında var tomağası.

Balama qurban iki kişi,
Bir fəsəli, biri pişi.

Əzizinəm əzəl sən,
Sən hər güldən təzəsən.
Arzum budu, a qızım,
Tuppulu-tuppulu gəzəsən.

Qızım, qızım, qız ağa,
Qızı verməıəm uzağa.
Qızıma elçi gələcək,
Əlli atlı, yüz ağa.

Balam o bağdan gəlir,
Zülfü sabahdan gəlir.
Çirməyib qol-biləyini,
Çiçək yığmaqdan gəlir.

Çirmənib ağ biləklər,
Dam üstdə qar kürəklər.
Görsə atası gəlir,
Həm qaçar, həm iməklər.

Qarayam Qəmbər kimi,
Müşk ilə ənbər kimi.
Anam məni çox sevir,
Tanrı, peyğəmbər kimi.

Qızıl gülün yarpağı,
Astanalar torpağı.
Kim balamı istəməsə,
Gözünə bibər yarpağı.

Balama quzu qurban,
Quzunun yüzü qurban.
Quzudan qurban olmaz,
Anası özü qurban.

Qurban olum qurbana,
Yüyürər çıxar xırmana.
Xırmançı vurar qıçına,
Yıxılar arxın içinə.
Arxın içi çiçək olar,
Balam hamıdan göyçək olar.

Ağacın göyü qadan alım,
Dibinin şöyü qadan alım.
Gözümü sənə dikmişəm,
Tezcə böyü, qadan alım.

Bala dadı,
Bal dadı, baladadı.
Nə balda nə şəkərdə,
Bulunmaz bala dadı.

Bala şirin,
Kim qatıb bala şirin?
Can hər şeydən şirindi,
Candan da bala şirin.

Qurbanam özüm sənə,
Hekətim sözüm sənə.
İşıqlı ulduz kimi,
Tikmişəm gözüm sənə.

Gül əkdim gül olasan,
Suvaram göyərəsən.
Çöldəki seyran təki,
Meylin mənə salasan.

## LAYLALAR

Xoruzun ban səsinə,
Oynaram, dan səsinə.
Sən get, şirin yuxuya,
Mən deyim can-səsinə.

Laylay çallam həməşə,
Karvan gedər Həbəşə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

Əzizim, sənə qurban,
Könül verənə qurban.
Elə bildim fərəsən,
Becə verənə qurban.

Acı-qıcılar yarpağı,
Astanalar torpağı.
Kim səni istəməsə,
Gözünə bibar yarpağı.



A tarı, tarı, han tarı,
Gəl baxçamızdan bax Tarı.
Hər kim balamı istəməsə,
Onun evini yıx Tarı.

A Tanrı-Tanrı, kərəm Tanrı,
Bunu da bizə verən Tanrı.
Birini veribsən nəzir-nizam,
Birini veribsən namə yazan,
Birini də ver üç olsun,
Şəhərlərə köç olsun,
İstəyənlər istəyir,
İstəməyənlər heç olsun.

Nənəm layla eyləsin,
Layla bilməz neyləsin?
Əgər layla bilməzsə,
Beşik desin, bələsin.

Laylay dedim adına,
Allah çatsın dadına.
Allah dada çatanda,
Məni də sal yadına.

Dağların lalasına,
Gözlərin alasına.
Bibilər qurban olsun,
Qardaşın balasına.

Laylay dedim adına,
Əli çatsın dadına
Laylay balam, a laylay,
Gülüm laylay, a laylay

Laylay dedim gözünə,
Su ələnsin üzünə
Heç vədə göz dəyməsin,
Sənin qara gözünə.
Laylay balam, a laylay,
Gülüm laylay, a laylay.

Laylay dedim yatasan,
Yastığa baş atasan.
Bala çəkim nazını,
Boya-başa çatasan.
Laylay balam, a laylay,
Gülüm laylay, a laylay.

Layla dedim yatasan,
Qönçə gülə batasan.
Qönçə gül payın olsun,
Kölgəsində yatasan.

Layla dedim yatgınan,
Bağ gülünə batgınan.
Bağ gülü kölgə salıb,
Kənarında yatgınan.

Leylanın adı nədi?
Şəkərdən dadı nədi?
Çağırıram səs verməz,
Bilmirəm dərdi nədi?

## OYUNLAR

### ÇİLİNG - AĞAC

Uşaqlar bir uzun, bir kiçik ağac götürürlər. Gödək ağacın adı çiling olur. Sonra iki dairə çəkirlər.

Oyunda iki nəfər iştirak edir. Uşaqlardan biri dairənin içində durub əlindəki ağacla çilingi vurur. Bacardıqca uzağa atır. O biri uşaq yüyürüb çilingi gətirir. Dairənin içinə atmağa çalışır. Çilingi atan əlindəki ağacla çilingi geri qaytarır. Çiling dairənin içərisinə düşərsə, oyunçuların yeri dəyişir.

### MÜÇÜK

Qoyun dərisinin üstündə yun olmaq şərtilə dəmir manatlıq boyda kəsirlər. Dəridən bir az balaca qurğusunu deşib dəriyə bağlayırlar.

Müçüyü ayaqda oynayırlar. Topuğun iç tərəfi ilə dayanmadan vurub sayırlar əgər müçük yerə düşsə, o biri oyunçunun növbəsi çatır.

### BƏNÖVŞƏ

Uşaqlar bərabər sayda iki dəstəyə bölünür. Hər dəstə özünə başçı seçir. Dəstələr bir-birindən xeyli aralı dayanır. Uşaqlar əl-ələ tutuşurlar. Dəstə başçılarından biri üzünü o biri başçıya tutur:

- Bənövşə.

O biri dəstə xorla deyir:

- Bəndələn düşə!

Birinci dəstənin başçısı soruşur:

- Bizdən sizə kim düşə?

Yenə xor cavab verir. Uşaqlardan birinin adını çəkirlər:

- Adı gözəl, özü gözəl Lalənin özü düşə!

Lalə öz cərgəsindən ayrılıb yüyürə-yüyürə qarşıdakı dəstənin içinə girir. OyunçularI biri-birindən aralamağa çalışır. Əgər cərgəni aralaya bilsə, uşaqların birini götürüb öz yerinə qayıdır. Mühasirəni keçə bilməsə, əsir düşür. Beləliklə, oyun davam edir. Hansı dəstədə çox uşaq qalarsa, həmin dəstə oyunun qalibi sayılır.



### SİÇAN-PİŞİK

İştirakçılar dairəvi düzülür. Bir-birinin əlindən möhkəm yapışırlar. Uşaqlardan biri siçan, o biri pişik olur. Siçan dairənin içinə girə bilməz. Hansı uşaq buna imkan versə, özü siçan olmalıdır. Dəstə pişiyin tərəfindədir. Hamı çalışır ki, pişik siçanı tutsun. Siçana yol verməsələr də, pişiyə yol verirlər.

Əgər pişik özü siçanı tuta bilsə, başqa iki uşaq siçan-pişik olur.

### MOZDAŞ

Bu oyunda iki uşaq iştirak edir. Xırda, yumru bir daş tapıb buna moza deyirlər. Mozanı böyük bir daşın üstünə qoyub, aralıdan xətt çəkirlər. Əl boyda yastı daş götürürlər. Bunun da adı löpükdü. Uşaqlardan biri mozadibi olur, o biri löpük atır. Löpüyü atan xətdən irəli keçsə, cığallıq eləmiş olur. O biri uşaq tələb edir ki, yenidən atsın. Löpük mozanı vurub saralsa, mozadibi gedib gətirməlidir. Yox əgər vura bilməsə, oyunçuların yeri dəyişir.

Əgər mozadibi mozanı gətirə bilməsə daş atan əlindəki daşla mozanın yerini döyəcləyir, açıq-qıçıq verir:

- İşlə, canın tərləsin,

Tərrəməsə, çərləsin:

Mozadibi mozanı yerinə qoyur, oyun davam edir.

### YEDDİ DAŞ

Yeddidaşın oyun qaydaları mozadaşla eynidir, fərqi yalnız daşların sayıdır. Burada sozadibi və moza qoymurlar. Yeddi ÿastı daşı üst-üstə yığırlar.

### GÖZBAĞLAYICI

Uşaqların sayında məhdudiyyət yoxdur. Nə qədər çox olsa, oyun o qədər maraqlı keçir. Sanama sanıyırlar, kim axıra qalsa, onun gözünü bağlayırlar. Gözübağlı uşaq o biri uşaqları əl fəhminə tapmalı və tutmalıdır. Uşaqlar onun yan yörəsində durub oynayırlar, səs salırlar. Gizlənməyə ehtiyac qalmır. Gözübağlı oyunçu kimi tutsa, həmin uşaq onu əvəz etməlidir.

## XAN-VƏZİR

Oyunda beş uşaq iştirak edir. Eyni ölçüdə beş kağız götürülür. Kağızlara beş ad yazılır: Xan, vəzir, axtarıcı, vurucu, oğru. Püşk atırlar. Hərə kağızın birini götürür. Heç kəs dinmir. Şah kimdədirsə, əvvəlcə dillənir:

- Axtarıcı oğrunu tapsın!

Yerdə qalanlar da bu sözü xorla deyir.

Oğru səsini çıxartmır.

Axtarıcı bir-bir uşaqların üzünə baxır. Əgər oğrunu düz tapmasa, şah əmr verir. Vurucu axtarıcını cəzalandırır. Əgər oğrunu düz tapsa, oğruya cəza verilir.

## DALA YAYLIQ ATMA

Oyunçular yerdə dairəvi istiqamətdə otururlar. Uşaqların biri dəsmal götürüb dairə boyunca yüyürür. Dəsmalı xəlvətcə birinin dalına atır. Həmin uşaq bunu bilərsə, yüyürüb dəsmal atanı tutur. Birinci uşaq öz yerində əyləşibsə, oyunçular dəyişir.

## QOTURUM SƏNDƏ

Bu oyunda əsas şərt əlini başqasına toxundurmaqdır. Onda qotur o biri uşağa keçir. O da əlini bir ayrısına vurur. Beləliklə, oyun davam edir.

## GİZLƏNPAÇ

Əvvəlcə sanama sanayırlar, kim sonra qalsa, o gözünü yumur. Qalanları gizlənir. Gözünü yuman açmamışdan əvvəl xəbərdarlıq eləyir:

- Açdım paç,
Gizlən paç.
Gizlənməyən
Yekəbaş.

Gizlənənlər deyir:

- Alma desəm açarsan,
Armud desəm, açmazsan.



Gözünü yuman uşaq yenə qışqırır:

- Alma saraldı,
Gözüm qaraldı.

Gizlənənlər alma deməsələr göz yumanın gözünü açmağa ixtiyarı yoxdu. Uşaqlar yerini bərkidəndən sonra biri, deyir:

- Alma, alma!

Yuman gözünü açır, kimi birinci tapırsa, həmin oyunçu gözünü yumur.

## BEŞDAŞ

Beş dənə xırda yumru daş götürülür. Əvvəlcə qərçimək olur Daşları qərçiləyirlər. Yəni ovucun içindən göyə atıb üstü ilə tuturlar. Kimin daşı yerə düşmüşsə, oyun ondadır. Daşları yerə atıb bir-bir dənləyirlər. Buna dənnəmə deyirlər. Daşın dördü yerdə qalır, birini göyə atırlar. O göydən düşüncə yerdən daşla bərabər tuturlar.

Dənnəmədən sonra ikiləmə gəlir. İkiləmədə daşı həmin qaydada göyə atıb yerdəkinin ikisi ilə birlikdə götürürlər. İkiləmədən sonra üçləmədi. Üç daşı bir, bir daşı ayrıca götürürlər. Sonra doppa gəlir. Doppa nisbətən çətindir. Bura çatanda rəqib oyunçu deyir:

- Doppa.
Yerdən qopma.

Doppada daşın beşini də ovucun içində tuturlar. Daşın birini göyə atıb, dördünü yerə qoyurlar. Sonra həmin daşları təzədən yerdən götürürlər. Oyunun axırıncı mərhələsi itələmədi. İtələmədə daşları dağınıq atırlar. Bir-birinə bitişirsə, oyunu davam etdirmək olmaz. O biri oyunçu üçüncü barmağın üstünə keçirir. Daşlardan birini götürüb rəqibə deyirlər ki, itini göstər. Bir daş it olur. İti adətən qapının ağzından keçirirlər ki, o biri daşları keçirməyə mane olsun. Tək əllə daşın birini tallamağa götürüb o biriləri qapıdan keçirirlər.

Beşdaşın xüsusi cəza qaydaları var: bal çıxartma, quşunu göstər, çimdikləmə, cırmaqlama, yağlama. Daşların hamısını əlin üstünə düzür, atıb tuturlar. Bu işi uduzan tərəf icra edir. Daşlardan hansı yerə düşübsə, həmin daş rəqibin cəzası olur. Əgər küpədən bal çıxartma düşübsə, daşı əlin içində gizlədirsən. Əli yerə dayayıb barmaqların arasında yer qoymaq şərti ilə daşı ovcunda saxlamalısan. Rəqib həmin daşı çıxartmaq istəyəndə əlini cırırlar. Əgər quş göstərmə yerə düşdüsə, daşı rəqibin barmaqlarının arasına qoyub bərk sıxırlar.

Quşu göstərə bilmirsə, istənilən qədər cəzalanır.

Çimdikləmə - daşı göyə atıb tutma məqamında uduzanın əlini çimdikləyirlər. Daş yerə düşənə qədər cəza davam edir. Yağlamada daşı atıb tutana qədər rəqibin əllərini yağlayır, yəni sığallayırlar. Beş daş oyunu yüksək məharət və ustalıq tələb edən oyundur. Bir zamanlar bu oyunu təkcə uşaqlar yox, böyüklər də oynamışlar.

## QARA QAZAN

Oyunçular iki dəstəyə ayrılırlar. Hər dəstənin öz başçısı olur. Arada müəyyən məsafə saxlayırlar. Birinci dəstə soruşur:

- O qara qazan doludumu?

İkinci dəstə cavab verir:

- Dolduda boşaldıda.

Onun bu qayda ilə davam edir.

- Çömçə yarım doldumu?
- Doldu da boşaldı da.
- Anan saçını yudumu?
- Yudu da daradı da.
- Hansı qızını ərə verir?
- Balaca qızını ərə verir.
- Toynan gələk, tütəknən?
- Toynan da tütəknən də.

İkinci dəstə çala-çala gəlir. Kiçik qızı gəlin aparırlar.

## A TƏRXANA-TƏRXANA

Bu oyunda iki uşaq iştirak edir. Uşaqlar qollarını bir-birinə tərsinə keçirirlər. Hərəsinin üzü bir tərəfə baxır. Biri belini aşağı əyir, o birini dalına alır. Aşağı əyilən soruşur:

- Göy də nə var?

O biri cavab verir:

- Göy muncuğu.

Bu dəfə göyə baxan uşaq soruşur:

- Yerdə nə var?
- Yer muncuğu.

Yenə birinci uşaq deyir:

- Adın nədi?



- Tərxana.

Bu sözü eşidən kimi əyilən uşaq belindəki uşağı yerə atır:

- Al di məni arxana!

Oyunçuların yeri dəyişməklə oyun davam edir.

## ƏNZƏLİ

Bu oyunu oğlan uşaqları oynayırlar. Əvvəlcə sanama sanayırlar. Hər kim sonda qalsa, əllərini dizinə qoyaraq iki qat əyilir. Sanamada birinci çıxan uşaq solla olur. İlk dəfə molla tullanır. Sonra qalan uşaqlar əlini əyilən uşağın belinə qoyub hoppanır və deyir:

- Ənzəli xan, Ənzəli.

İkinci dəfə tullananda deyirlər:

- Fikirə xatun rəhbəri.

Üçüncüdə yatan uşağa bir təpik vururlar, hoppanırlar.

- Üç də bir təpik vurarlar.

Hər dəfə tullandıqca bu sözləri deyirlər:

- Dörddə donquz əzərlər.

Beşdə papaq qoyun düşməsin.

Papaq qoyub hoppanarlar.

- Altda papağı götürərlər.

Papağı götürüb keçərlər.

Yeddincidə guya qılınc qırırlar. Əl hərəkətləri ilə göstərib tullanırlar:

- Yeddidə qılınc qırarlar.

Oyun bu qaydada davam edir:

- Səkkizdə əl dəysin, ətək dəyməsin.
- Doqquzda nə əl dəysin, nə ətək.

Hoppanan uşağın ətəyi, doqquzda nə əli, nə ətəyi yatan uşağa toxunmamalıdır.

Onuncuda yerdə xırda daşlar yığıb adını yumurta qoyurlar. Hoppanan deyir:

- Onda yumurtlayarlar.

# XVI. XALQ TƏBABƏTİ
## (Türkəçarələr)

**Turpla limon** azacıq yağ ilə salata qatıb yeyilərsə, dərideki qara ləkələri, yox edər.

**Qırmızı turp** iştah açar.

**Turp** qan təzyiqini aşağı salır, bədəndən zəhərin çıxmasına kömək edir.

**Narın qabığı** qarın ağrısına xeyirdir

**Heyvanın tumu** boğaz ağrısına, öskürəyə xeyirdir.

**Əncir ağacının südü** ziyili aparır.

Ayaqlar çox tərlədikdə **palıd qabığı** ilə vanna edilir.

Mədə xorasında, mədə qanaxmalarında **palıd qabığının** həlimi içilir.

Uşaqlarda dizenteriya olduqda **palıd qabığı** həliminə nişasta qatılıb içilir.

Dəri xəstəliklərində, kəskin yel xəstəliyində, qaraciyər iltihabında, mədə xorasında **ağcaqayın yarpaqlarından** istifadə edilir.

Saçlar töküləndə ağcaqayın yarpaqları qaynadılıb suyu ilə baş yuyulur.

**Ağcaqayın** xəstənin iştahasın qaldırır.

Dərman kimi **qovunun tumluğundan çəkilən** şirə işlədilir.

Şirənin zərəri olmadığından istənilən qədər içilə bilər.

Daş əmələ gəlməyə meyilli olanlara **qovun** yemək məsləhətdir. **Qovun** ürək və böyrək xəstəliklərinə də xeyirdi.

Yaxşı tərlədici vasitədir. **Moruğu qaynadıb ona bal qatdıqda** xroniki revmatizmdə və qızılcada müalicəvi vasitə kimi istifadə edilir.

**Yerkökündən** A vitamini alınır.

**Yerkökü** yağla daha yaxşı həll olur və **həzm edilir. Xora** xəstəliyində yerkökündən istifadə edilir. Yerkökü qum və **daşları** əridir.

**Yerkökü** qarın köpməsinə və əsasən böyrək **daşlarının** əridilməsinə xeyirdir.

**Sarımsaq** iştah artırır, qurd qovur.

Baş ağrısına kömək edir.

Böyrək ağrıyanda **sarımsaq** yeyilməlidir.

**Ağ turpun** şirəsinə qənd, ya da bal qarışdırıb öskürək zamanı gündə 3-4 dəfə, 1-2 xörək qaşığı içmək lazımdı.

**Bağayarpağı dəridə** əmələ gələn xoranın, çibanın müalicəsində



faydalıdır.

**Gicitkan raxid,** sinqa xəstəliklərində geniş istifadə edilir. Onda S, D, A vitaminləri var.

Şirəsi bəlğəmgətirici, yüngül qarın işlədici xassəyə malikdir.

Ürək-damar sisteminin xəstəliklərində xeyirlidi.

Qarının yaxşı işləməsinə böyürtkən kömək edir.

**Üzüm** ürək-damar sistemi, ağciyər və qaraciyər xəstəliklərində çox xeyirlidi.

**Qaranquşun peyini** suda isladıb, bir həftə qaranlıq yerdə saxlayırsan, sonra onu dəridə olan ləkələrin üstünə çəkirsən.

**Sarımsaq** (1 baş), cəfəri (1 dəstə) və 100 q. qara gavalı və bir limonu ət maşınından keçirirsən, səhər yeməkdən qabaq bir qaşıq udursan. Şəkəri (diabeti) aşağı salır.

**Qarğıdalı saçağı** ilə itburnu kolunun meyvəsini dəmləyirsən, böyrəyin daşının ağrısına görə xeyirlidir.

**Biyan kolunun kötüyünü** təmiz yuyub qaynadırsan, suyu öskürəyə xeyirdir.

## QIZILGÜL VƏ ONDAN HAZIRLANAN MƏHSULLAR

### GÜLQƏND

Qızılgülün ləçəklərini şəkər tozu ilə ovurlar. Sonra şüşə qablara doldurub gün düşən yerə düzürlər.

Gülqənd ürək ağrılarında, qan-damar xəstəliklərində çox faydalıdır.

### GÜLAB

Gülabın hazırlanma tarixi çox qədimdir. Nizami Gəncəvinin "Xəmsə"sində gülabın adı tez-tez çəkilir.

Gülab üçün qızılgül, az miqdarda mixəyi gül götürülür. Xüsusi qazanlarda ehtiyatla çəkirlər. Çünki ətri çox zərif, uçucudur. Gülabı şüşə qablara yığırlar. Qabın ağzını əvvəl tıxac, sonra xəmirlə bağlayırlar. Qırx gün günün altında saxlayırlar. Günəş şüalarının təsiri ilə gülün ətri özünə qayıdır.

Gülab baş ağrısını yox edir, qızdırmanı aşağı salır, qanı duruldur, xoş əhval gətirir.

### QIZILGÜL ŞƏRBƏTİ

Bu şərbəti ilin bütün fəsillərində hazırlamaq olar. Yazda gül suyu düzəldilir. Şərbət hazırlayanda isə həmin suyun içinə şəkər tozu qatırlar.

### GÜL SUYU

Qızılgülün ləçəkləri təmizlənir, doğranır. Ağzıbağlı qazana su töküb gülü qaynadırlar. Sonra şəkər tozu qatırlar. Hazır olanda limon duzu əlavə olunur. Mürəbbə yenə qızılgül rəngi alır.

Qızılgüldən hazırlanan digər məhsullar kimi qızılgül mürəbbəsi də ürək ağrılarında yaxşı təsir bağışlayır.



## ŞƏFALI BİTKİLƏR VƏ ONLARDAN HAZIRLANAN MƏHSULLAR

### KƏKOTU

Dağlıq yerlərdə, yamaclarda bitir. Kəkotunu yığıb kölgədə qurudurlar. Çay kimi dəmləyib içirlər.

Kəkotu çayı xəstəni tərlədir, qan dövranını qaydaya salır.

### QƏFLİ

Qəfli görünüşünə görə kəkotuya oxşayır. Lakin tamı kəkotudan fərqlidir. Qəfli həm dağlıq, həm də dağ ətəyi yerlərdə bitir.

Qəfli çayı sancını kəsir. Soyuqdəyməni götürür.

### QANTƏPƏR

Buna sarı çiçək də deyirlər. Dağlıq yerlərdə, çəmənliklərdə bitir.

Qantəpər çayı qan təzyiqini aşağı salır. Soyuqdəymə hallarında yaxşı təsir göstərir.

### DAŞ YARPIZI

Daşyarpızı adi yarpızdan fərqlənir. Par dəmləməsindən istifadə olunur.

Böyrəkdaşını salır, mədəsi pozulanlar üçün faydalıdır.

### GÜLXƏTMİ

Gülxətminin çiçəklərini yığıb kölgədə qurudurlar.

Çay kimi dəmləyib içirlər. Sinə ağrılarını və öskürəyi kəsir.

### ƏMƏNKÖMƏNCİ

Yarpaqlarını və zoğlarını yığıb sıyıq bişirirlər. Quru öskürək və sinə tutulması hallarında çox təsirlidir.

## GİCİTKAN

Gicitkana söyüd çubuğu, yarpız, qəfli, kəkotu, qantəpər, cökə çiçəyi, nanə qatıb bir yerdə qaynadırlar. Bu suya horhouş suyu deyirlər. Qarın ağrısı və səpmələrdə xəstəni horhouş suyuna salırlar.

## BAĞAYARPAĞI

Bağayarpağı irinləmiş yaralarda, çibanda, sızaqlarda istifadə olunur. Təzə dərilmiş bağayarpağını həmin yaraların üstünə bağlayırlar.

## NAR KÖKÜ

Narın nazik köklərini yuyub suda yaxşıca qaynadırlar. Nar kökünün suyu mədə ağrılarını, qarın ağrısını dayandırır.

## NANƏ ARAĞI

Nanənin çiçəklərini şaxlı-şəvəlli qazana doldurub arağını çəkirlər. Sonra şüşə qablara doldurub ağzını xəmirlə möhkəm bağlayırlar.

Nanə arağı sancını kəsir, ayaq işləməsini dayandırır.

## ŞAFTALI ARAĞI

Şaftalı çəyirdəkdən ayrılır, qıcqırır, ondan sonra araq çəkilir.

Şaftalı arağı uşaqlarda qurdu tökür.

## ŞAHTƏRƏ ARAĞI

Şahtərə dağətəyi yerlərdə bitir. Kövrək zoğları, xırda çəhrayı çiçəkləri olur. Şahtərə yazın axırlarında, yayın əvvəllərində yığılır, arağı çəkilir.

Şahtərə arağı qaşınmanı, səpgiləri sağaldır.



## YARPIZ ARAĞI

Yarpız çiçəkləyəndə yığırlar. Qazanlara doldurub arağını çəkirlər.

Yarpız arağı öd yolları və qaraciyər xəstəliyinə çox yaxşı təsir göstərir.

## BİŞMİŞ SOĞAN

Baş soğan qabıqlı halda közdə bişirilir. Qat-qat soyub isti-isti yaraya döşəyirlər.

Bişmiş soğan hoylamış yaralarda, çibanda, dolamada çox xeyirlidir.

## ƏVƏLİK

Qara əvəlik həm dağ, həm də aran yerlərdə bitir. Ağ əvəlik təkcə dağda olur. Əvəliyin dəmləməsi qarın ağrısını, sancını kəsir.

## QARĞIDALI SAÇAĞI

Qarğıdalı saçağını qurudurlar, dəmləməsi böyürək ağrılarında yaxşı təsir göstərir.

## YEL CÖVÜZÜ

Yel cövüzünü ana südü ilə qatıb körpə uşaqlara verirlər. Bunun üçün yel cövüzünü həvəngdə döyür, yaxud bıçaqla qaşıyırlar.

Yel cövüzü körpələrin sancısını götürür.

## DÜYÜ

Düyü həlimini camış qatığına, yaxud süzməsinə qatıb çalırlar. Mədəsi pozulmuş uşağa yedirtmək üçün çox faydalıdır.

## GÖYƏM

Göyəm suyu və mürəbbəsi mədə ağrıları və ayaq işləməsi zamanı çox yaxşı təsir göstərir.

## LİMON

Qanı duruldur, iştah açır, qan təzyiqini aşağı salır.
Limonu həm çaya salır, həm də dilimləyib yeyirlər.

## İSTİOT

İstiot bişmişlərə dad verməklə yanaşı, sancını kəsir, qarın ağrısını dayandırır.

## GAVALI

Gavalının bir neçə növü var: sarı gavalı, qara gavalı, uzunburun gavalı, albuxara gavalısı, partdax gavalı və s.
Qara gavalı ilə albuxara gavalısını qurudurlar. Bunları isladıb yemək qəbizliyi aradan qaldırır.

## ARMUD

Armudun müalicəvi əhəmiyyəti çoxdur. Mədəni qaydaya salır. Həzm prosesini yaxşılaşdırır, işləmə-qusmanı dayandırır.

## ƏNCİR

Əncirin həm özü, həm də mürəbbəsi və cemi ürək ağrıları, zəiflik hallarında çox xeyirlidir. Ənciri qurudub, qurusundan da istifadə edirlər.

## TUT VƏ TUTDAN HAZIRLANMIŞ MƏHSULLAR

Deyirlər tutu Xızır İlyas Özü əkib. Tut qədər bol məhsul verən ağac çətin tapılar. Tutun növləri çoxdur: ağ tut, qara tut, xartut, mor tut və s tut ehsandır.

## BƏHMƏZ

Tutu iri şala çırpırlar. Sonra pörtlədib süzürlər. Tut şirəsini mis tiyanlarda qaynadırlar. Bəhməz hazır olana yaxın üzündə sarı köpük



olur. Buna sarıköynək deyirlər. Sarı köynəyi tökməzlər. Ayrıca yığıb, qatıq bəhməz düzəldərlər.
Bəhməz sinə ağrılarında, öd, qara ciyər xəstəliklərində təsirli dərmanlardan sayılır. Suya, yaxud inək südünə qatıb içərlər.

## TUT QURUSU

Tutu çırpıb təmizləyirlər. Qarğıdan təpəcə hörüb üstünə bez salırlar. Tutu ora səpib qurudurlar. Çalışırlar ki, su dəyməsin. Su dəyəndə tut qaralır, öz keyfiyyətini itirir.
Tut qurusu şəkər xəstəliyi olanlar üçün xeyirlidi; qəndi əvəz edir.

## TUT ARAĞI

Tutu çırpıb taxta qablara doldururlar. Qıcqırdıqdan sonra arağını çəkirlər.
Tut arağı qan-damar sistemi xəstəliklərində xeyirlidir. Damarları təmizləyir, qanın qatılaşmasının qarşısını alır.

## TUT SİRKƏSİ

Tut sirkəsi hərarəti aşağı salır. Gülab ilə qarışdırıb bədənə sürtdükdə xəstəni tərlədir, soyuqdəyməni sağaldır.

## NAR VƏ ONDAN HAZIRLANAN MƏHSULLAR

Xalq təbabətində narın həm özündən, həm də ondan hazırlanan məhsullardan istifadə edilir. Nar qızdırmanı salır, nar qabığından hazırlanan dəmləmə qarın ağrısını kəsir.

## NARŞƏRAB

Turş narı sıxır, ağzı kip bağlanan şüşə qablara doldurub saxlayırlar. Narşərab iştahı açır, qanı durulaşdırır.

## NARTAŞA

Narın gilələrini sıxır, qaynadır və içinə azca şəkər tozu qatırlar.

Bir çox yeməklər süfrəyə nartaşa ilə verilir; əvəlikli umac, xəngəl, kabablar və s.

Nartaşanın müalicəvi əhəmiyyəti həzm sistemini qaydaya salmaq və soyuqdəyməni aradan götürməkdir.

## ÇÖRƏK NÖVLƏRİ

### ÇAD

Qarğıdalı unundan xəmir yoğrulur. Xamralı kimi yayılır, sac üstündə bişirilir.

### KÜLLÜ KÖMBƏ

Buğda ununa şəkər tozu, yağ qatılır, bərk xəmir yoğrulur. Sininin içini yağlayırlar. Xəmiri yastılayıb qoyurlar. Üstünə yumurta çəkir, küncüt, xaşxaş səpirlər. Çəngəllə bəzək vururlar.

Ocaqdakı közü götürüb qırağa atırlar. İstü külün üstünə qoyulmuş sininin ağzını sacla örtürlər. Sacın külünü təmizləyirlər. Sacın belinə köz tökürlər.

### XAMRALI

Buğda ununa balatı qatıb acıdırlar. Xəmir gələndə kündələyir, təndiri odlayırlar. Təndir ağarır. Közün üstünə su səpirlər. Buna dəndənə deyirlər. Təndirin ağzında başlayaraq cərgə ilə çörəkləri yapırlar. Təndir əppəyinin üzünə yumurta yaxır, xaşxaş səpir, çəngəllə naxışlayırlar. Yarısı qızarmış əppəkləri təndirin dibinə düzüb, koğa ilə qızardırlar.

### SAC YUXASI

Həm acıtmalı, həm acıtmasız olur. Yuxa nazik yayılır. Sacın üstünə salınır. O üz, bu üz çevirib götürürlər.



### FƏSƏLİ

Çox yuxa bişirəndə dalınca fəsəli salırlar. Deyirlər ki, günahdı, sac yanır, qarğış eləyir.

Beş-altı yuxanı yağlayır, üst-üstə yığırlar, sonra lülələyib yastılayır, təzədən yayırlar. Sacın üstündə oxlovun ucu ilə deşdəkləyir, deşiklərə yağ töküb o üz bu üz çevirirlər.

### FƏTİR

Fətir yuxaya nisbətən qalın yayılır, kiçik olur. Xəmiri yuxanın eynidir.

### TƏNDİR LAVAŞI

Xəmiri xamıralının eynidi. Azca bərk yoğrulur. Ən azı dörd, yaxud altı adam bişirir.

Təndir lavaşı quru olduğundan uzun müddət qalır. İlıq su ilə isladıb üstünü basdırırlar. Bir qədər keçdikdən sonra qatlayıb üst-üstə yığırlar.

### KƏTƏ

Bərk xəmir yoğrulur. Xəmirə maya vurulmur. Bir qədər qalın yayılır, içinə içlik qoyulub ağız-ağıza qatlanır.

### KƏTƏNİN İÇİ

Cincilim, çöl keşnişi, ispanaq, şomu və s. pencərdən kətə bişirlir. Göy doğranır, yuyulur, ovulur, pendir, yaxud şor qatılır, nar dənəsi və göy soğan vurulur.

Göy kətəsi bişən kimi üst-üstə yığılır, bir-bir yağlanır.

### QATDAMA

Yeddi yuxa yayılıb üst-üstə yığılır. Sonra lülələnib bir neçə yerə kəsilir. Yastılanır. Qatdamanı dağ olmuş yağa salıb o üz bu üz qızardırlar. Hazır qatdamanın üstünə şəkər tozu səpirlər.

## QUYMAQ

Unu su ilə möhkəm çalır, yumurta əlavə edib qarışdırırlar. Sonra xəmiri dağ olmuş yağın içinə tökürlər. Bir üzü qazmaq tutan kimi o biri üzünə çevirib qızardırlar.

## XƏŞİL

Suyu qaynadırlar. Bəzən bu su çiçəklərin (kəkotu, qəfli, qantəpər) dəmləməsi olur. Suya azca duz atırlar. Bir əllə unu yavaş səpir, o biri əllə qarışdırırlar. Xəşili taxta qaşıqla çalırlar. Sonra ağzını örtüb qaynamağa qoyurlar.

Hazır olduqda boşqablara çəkilir, üstünə kərə yağı tökülür.

## HALVA

Halvanı iki cür bişirirlər: un halvası, umac halvası. Gəncədə əsasən umac halvasına üstünlük verirlər. Bu halva daha ləzzətli çıxır.

Undan umac ovulur. Aş süzəndən keçirilir, irisi, xırdası ayrılır. İri umac əvvəlcə tökülür, xırda isə qızarana yaxın. Şərbəti düzəldib hazır qoyurlar. Şərbətə gülab, sarı kök, zəfəran vurulur.

Yağı dağ edib umacı yavaş-yavaş tiyənə tökür, iri kürəklə çalırlar. Umac qızaranda qaynar şirəni əlavə edib qarışdırırlar. Halva yağa düşür. Hazır olana yaxın qoz ləpəsi (əzilmiş halda) qatırlar.

Halvanı nazik yayılmış yuxa ilə yeyir, ehsanlıqdısa yuxalara büküb paylayırlar. Boşqablara düşdükdə qaşıqla naxışlar salırlar.

## YARMA XƏŞİLİ

Buğda arıtlanır, yuyulur, kirkirədə çəkilir. Su qaynadılır, azca duz atılır. Yarmanı yavaş-yavaş qarışdırmaqla xəşil çalınır. Yarma xəşili un xəşilinə nisbətən gec bişir. Hazır olanda üstünə sarımsaq-qatıq tökürlər.

## TUTMAC

Soğançanı yağda qovurub üstünə su tökürlər. Başqa qabda umac lobyanı bişirib qatırlar. Xəmir yoğrulur, əriştə kəsilir və qaynayan



suya əlavə edilir. Hazır olana yaxın doğranmış keşniş səpilir, duz, istiot vurulur.

## UMAC

Əvəlikli umac müalicəvi bişmişlərdəndi. Soyuqdəyməni götürür. Soğan qovrulur, üstünə su tökülür, əvəlik xırda-xırda doğranıb isti suda yüngülvari pörtlədilir. Umac ovulur və əvəliklə birgə qazana tökülür. Əvəlikli umaca duz, istiot əlavə edərək süfrəyə verirlər. Bu xörəyə nartaşa, yaxud alça turşusu qatanda daha ləzzətli olur.

## QAZXƏNGƏLİ

Soyuq havalarda tez-tez bişirilən xörəkdir. Əksər hallarda toyuq əti ilə hazırlanır.

Soğan doğrayıb yağda qızdırılar, üstünə əvvəlcədən bişirilmiş toyuq ətini suyu ilə bərabər tökürlər. Qaynayanda xırda-xırda doğranmış xəngəl əlavə edilir. Doğranmış keşniş, duz, istiot vururlar. Süfrəyə sarımsaq-qatıqla verirlər. Soyuqdəymə hallarında ən yaxşı dərman sayılır. El arasında deyirlər: "Ölü yesə dirilər".

## ƏVƏLİK AŞI

Əvəlik aşı da xalq təbabətində dərman kimi işlədilir.

Əvəlik aşı üçün götürülmüş düyü yuyulmur. Əgər yuyulsa müalicəvi əhəmiyyətini itirər.

Xırda-xırda doğranmış soğan azca yağda qızardılır. Bu xörək əsasən mədəsi pozulmuş xəstələr üçün nəzərdə tutulduğundan yağı az işlədirlər. Qızarmış soğana su əlavə edib qaynadırlar. Doğranıb isti suda yuyulmuş əvəlik və düyü qazana tökülüb qatılaşana qədər qaynadılır, istiot və duz vurulur.

# UNUDULMUŞ XÖRƏKLƏR

## HOPBACA

Südlə bişirilən xörəklərdəndir. Əriştəni kəsib qovururlar. Bişmiş südün içinə tökürlər. Süd əriştənin canına hopur. Bişmiş adı da

buradan götürülüb. Hazır olana yaxın duz və sarıkök əlavə edir, üstünə yağ tökürlər. Hopbacanı azca düyü qatmaqla da bişirmək olar. Süfrəyə verəndə şəkər tozu səpilir.

## FİRNİ

Gəncədə çox yayılmış xörəkdi. Düyünü arıtlayıb yuyurlar, sonra qurudub əl kirkirəsində yarma kimi əzirlər. Hazırlanmış unu camış südünün içinə töküb qaynadırlar. Bişənə yaxın şəkər tozu və gülab qatılır.

## SƏMƏNİ HALVASI

Buğda təmizlənir, cücərdilir. Cücərtilər həvəngdəstədə, yaxud daşla əzilir. Torbalara tökülüb sıxılır. Buğdanın şirəsi tiyanlara töküləb qaynadılır. Səməni halvası çətin hazırlanan və gec başa gələn xörək olduğundan bu işi tək görməzlər. Halvanı əksər hallarda kişilər çalırlar.

## SÜLFÜLLÜ

Sülfüllü çox zaman qaxac ətdən hazırlanır. Qaxac olmayanda təzə ətdən də götürmək olar. Əvvəlcə yağlı, sümüklü əti soğanla bişirirlər. Sülfüllü xəmiri oxlov formada yuvalanır. Bıçaqla kəsilir, araları açılıb qaynanmış duzlu suya tökülür. Qaynatdıqdan sonra süzülür. Üstünə sarımsaq-qatıq və əvvəlcədən hazırlanmış ət suyu ilə birlikdə əlavə edilir.

## BALIQ LƏVƏNGİSİ

Balıq bütöv təmizlənir, içərisi çıxarılır. Bir dəstə şüyüd, bir dəstə keşniş doğranır, halqa-halqa kəsilmiş bir limon, az miqdarda qoz, şabalıd, duz və istiot qarışdırılaraq balığın içinə qoyulur. Sonra qazana iki stəkan su tökülür. Hazırlanmış balıq buxarda bişirilir, süfrəyə nartaşa ilə verilir.



## QOVUT

Buğdanı arıtlayıb qovururlar. Qovurğanı kirkirədə çəkib ələyirlər. İrisi ayrı olur, xırdası ayrı.

Qovut ununu şərbətin içinə çalırlar. Halvayabənzər kütlə alınır. Əsasən Xızır Nəbi bayramında hazırlanır. Çox tamlıdı.

## HƏDİK

Buğdanı, qarğıdalını ayrı-ayrı bişirib yekə qazana doldururlar. Üstünə lobya və umac töküb yenidən qaynadırlar. Bişənə yaxın qoz ləpəsi tökürlər.

Bəzi hallarda hədik qazanına hazır baş-ayaq da salırlar. Hamısı birlikdə həl bişir.

Hədiyi çox vaxt diş çıxaran körpə uşaqların adına asırlar. Buna diş hədiyi deyilir. Diş hədiyini qonum-qonşuya paylayırlar.

# XVII. YUXUYOZMALAR

Avtobus-səfər gözlənilir.
Ağac-ən böyük arzun çin çıxacaq.
Ağlamaq-əsəbin pozulacaq.
Ad günü-yığıncaqda olacaqsan.
Ay-sınaqdan çıxacaqsan.
Aypara-itki.
Akvarium-xoş sıxıntı.
Alma-arzuna yetişəcəksən.
Alov-sıxıntı.
Ana-sıxıntıdan çıxacaqsan.
Ata-hərəkət et, bərəkətli olarsan.
Ağ gül-uzaqlaşmaq.
Bağ-bərəkətə yetmək.
Badam-şadlanmaq.
Bazar-xərcə düşmək.
Bal-bəddən çıxmaq.
Balıq-istəyinə nail olmaq.
Balta-kömək axtararsan.
Bahar-rahatlıq.
Balkon-vəziyyətin ağırdır.
Baş-şad xəbər.
Bit-şad olacaqsan.
Bitki-sevinəcəksən.
Beşik-uşaq olacaq.
Bulaq-işin düzələcək.
Buynuz-qalmaqal.
Buğda-ruzi.
Bulud-sevinc.
Boşanma-eşq.
Qab-qacaq-qayğıların çoxalacaq.
Qan-qovuşuqdu.
Qapı-bərəkətə işarə.
Qarpız-şad xəbər.
Qatıq-bərəkətə yetmək.
Qəbiristan-varlanmaq.
Qızıl-qəm.



Qovun-xəstəlik.
Qoyun-bərəkət.
Su-aydınlıq.
Üzüm-göz yaşı.
Qurd-sağlamlıq.
Quş-bərəkət.
Daban-səfər.
Dağ-ucalıq.
Daraq-qayğı.
Darı-bir müddət xoşa gəlməyən hadisə.
Daş-çətinliyə düşmək.
Dəri-kasıblaşmaq.
Dərman-xəstəlik.
Dovşan-haqqında dedi-qodu.
Duz-istək, mehribançılıq.
Ev-darlıq.
Əl-ayrılıq.
Ət-işlərin dolaşacaq.
Ətir-görüş.
Zəmi-bərəkət.
Zəng-ayrılıq.
Zibillik-dava-dalaş.
İlan-günah.
İp-yol, səfər.
İt-bəd hadisə.
Yağış-aydınlıq.
Kabab-xəstəlik.
Kömür-qara gün.
Güzgü-bəxt yuxusu.
Gül-sevgi.
Limon-naxoşluq.
Məscid-hallalıq, bərəkət.
Muncuq-ürəkaçan hadisə.
Nar-istək.
Ov-itki.
Ox-güc, qüvvət.
Ocaq-qalmaqal.

## GÖSTƏRİCİ

### I. Şəxs, mifoloji və folklor obrazlarının adları


**A**
Abbasəli
Abuzər
Abbas
Abdulla
Abuzər
Ağarza xan
Alı kişi
Anaxanım
Aşıq Alı
Aşıq Gülməmməd
Aşıq Məhərrəm
Aşıq Fatma
Ay
Ayyar
Ağlar-güləyən
Adıgözəl
Aldədə
Aslan şah

**B**
Bayqu xanım
Bədov kişi
Bənövşə
Bədnəzər
Boz ay
Bisavad Teymur
Bəhruz
Bayram

**C**
Cabbar
Camal
Ceyran
Cəbrayıl Əleyhissalam
Cürə Cabbar

**Ç**
Çoban Məhəmməd
Çilə

**D**
Daşdəmir
Dəli Alı

**Ə**
Əzrayıl
Əli
Əsgər ağa
Əhməd

**F**
Falçı
Fatma
Fatmacıq
Fələk
Firon

**G**
Güzar qarı
Güləndam
Gülü kişi
Günəş
Gülpəri

**H**
Hacı
Həzrət Adəm
Həzrət Süleyman
Həzrət Əli
Həsən bəy
Həsən xan
Hümbət
Hüseyn

**X**
Xalçoban
Xandar
Xatun
Xoca
Xumar xan
Xırda xanım
Xıdır Nəbi
Xudayar

**İ**
İmam Həsən
İsgəndər
İsmayıl
İmam Əli

**K**
Kamal kişi
Karvanbaşı
Keçəl
Kərbalayi İbrahim
Kor Fatma

**Q**
Qamanov
Qara Vəzir
Qəssab Əhməd
Qəhrəman
Qəşəm şah
Qırx lotu
Quleybanı
Qulu

**L**
Lalə
Laləzar

**M**
Maral
Mahmünəvvər
Mahmud
Məmmədalı
Məmmədxan
Məsim
Məhəmməd peyğəmbər
Məcid
Məlikməmməd
Murtuzəli
Musa

**N**
Nərgizə
Nərgiz

**O**
Ovçu Pirim

**P**
Pərzad
Piri baba

**S**
Saleh
Sara
Səlim
Süleyman
Suyun mələkləri
Sulduz

Ş
Şah oğlu Şah Abbas
Şalfiruz baba
Şərif kişi

T
Tamara
Təkə
Tərxala
Tükəzban

U
Usta Zeynal

Y
Yaqub peyğəmbər
Yazı yazan
Yezid

V
Vayısa qarı
Vəzir Allahverdi xan

Z
Zeynəb
Zöhrə
Zülfüqar

## II. YER ADLARI

A
Ağdam (rayon)
Ağkilsə (kənd)
Alıncalı
Alvız
Araz (çay)

B
Bakı
Balçılı
Band (dağ)
Böyük Bağman

C
Cümə məscidi
Culfa (rayon)

D
Daşkəsən (rayon)
Dəlidağ
Daşqalaq

Ə
Əmirvar yaylağı
Əflatun (şəhər)

G
Gədəbəy (rayon)
Gəncə
Gəlin qayası
Göyçə (mahal)
Güləzar
Gürcüstan

H
Hil (şəhər)
Hələb

X
Xanlar (rayon)
Xaçbulaq yaylağı

İ
İmamzada
İstambul



K
Kəlbəcər (rayon)
Kür qırağı
kəpəz dağı
Kələmərci
Kələm pörpüsü

Q
Qanlı körpü
Qara inək zağası
Qarabağ (mahal)
Qaradağ
Qaradağlı
Qoşqar
Qızılvəng (kənd)
Qılınclı (kənd)
Qızılhacılı (kənd)

M
Məşəd (şəhər)
Misir
Moskva
Murov (dağ)

N
Naxçıvan
Naftalan
Novruzlu (kənd)
Novruz bayramı

O
Ozan (məhəllə)

P
Petiqulunun dərəsi
Pirabdalqasım

R
Rey

S
Seyfəli
Samux

Ş
Şəbiyi (şəhər)
Şəmkir
Şəmsəddin (mahal)
Şərur

T
Tehran
Təbriz
Tərtər (çay)
Tiflis
Tovuz
Tur (dağ)

U
Urum
Urmiya

V
Van (şəhər)

## III. ƏŞYA-PREDMET ADLARI

**(Daşlar, bitkilər, heyvanlar, meyvələr, xörəklər, silahlar və s.)**

A
abbası
ağa
ağac

ay
ayı
ayran
alma
ala kərə
araba
armud
arpa
arxalıq
atıcı
aftafa
aftafa-ləyən
ahu
aş

B
baqqal
bağ
bağçı
bağır əti
bağayarpağı
bayquş
bal
balta
balaq
bardaq
batman
baca
bez
bəy
bərbər
biz
biyan
biçinçi
bıçaq
bozbaş
boyun
boyunduruq
boyunbağı
buğda
buxarı

C
camış
camış gönü
canavar
can dərmanı
ceyran
cehizlik
cəllad
cin
cöngə
cürdək
cüt

Ç
çaynik
çal qatır
çarıq
çarıqçı
çatı
çax-çax
çeşmə
çəkic
çəkmə
çəkməçi
çənə
çıraq
çomaq
çuval
çul
çuxa
çüy

D
dadamal



dağ
dağarcıq
damazlıq
dar ağacı
darvaza
darğa
darı
daxma
daş
daş armud
dəvə
dəyirman
dəmir
dərzi
dərə
dəri
divan
dik
ding
dolma
dolça
dovşan
don
donuz
duz
duzaq
dükcə
dırmıq
dırnaq

E
ev
elti
erməni
eşq camı

Ə
əvəngəz
əzgil
ələk
əppək
əjdaha

F
fil
fındıq

G
gədə
gəlin
gərdək
gilə
gor
gön
güzgü
gürz

H
haqq qapısı
hamam
hasa
hacıleylək
heyva
həkim
hil
hodaq
holavar

X
xana
xəzinə
xəngəl
xərək
xiyar
xoruz
xörək

xurcun

**İ**

ilan
iynə
inək
irəmə
it

**K**

karvan
kasa
kasıb
kələm
kəlləpaça
kəmər
kəndir
kəpək
kəpənək
kəfən
kirpik
kisə
kərənti
kotan
külüng
kündə
kürə
kürd
kürəkən
kürk
küftə
kişmiş
kökə

**Q**

qaval
qaz
qazal
qayalıq
qaynana
qamış
qamçı
qapı
qarağat
qara kərə
qarğa
qarğa-quzğun
qarğıdalı
qarpız
qatır
qaşıq
qəbir
qələm
qəmə
qəsr
qoz
qoyun
qol
qotaz
qoç
quzu
quzuqulağı
quymaq
quyruq
qul sahibi
qurut
quş südü
qılınc
qırğı
qurd

**L**

ləyən
ləmpə
ləçək
limon



lülək

**M**

mağar
mağara
mamaça
mac
məscid
misqal
mıx
mum

**N**

nal
nalbənd
naxır
naxır əppəyi
naxırçı
nəvə-nəticə
nehrə
nizə
noxta
noxud
nökər

**O**

ovsar
ovçu
olacaq
oraq
oxlov
ocaq ilanı

**Ö**

öküz
ördək

**P**

palıd ağacı
pələng
pəncə
piyalə
piltə
pinəçi
pişik
portağal
pota inək

**S**

saat
saqqız
sağsağan
samanlıq
saman çöpü
sandıq
sancaq
sap
sarıbaş qoyun
sarımsaqdöyən
sac
sərnic
sərçə
siçan
sicim
söyüd
süpürgə
sürü
süfrə

**Ş**

şabalıd
şahanə libas
şeytan
şir
şor

**T**

tabaq
taya
tamarzı
tat
taxt
taxça
tac
təkər
təndir
tərəzi
tərəkəmə
tərlan
təsbeh
təhnə
tikə
tısbağa
toğlu
toy paltarı
toyuq
toppuz
tövlə
tuman
turşulu aş
tülkü
tüfəng

**U**

ulduz
ulu
urva
urza

**Ü**

üzərlik

**V**

var əli
varlıq
vər

**Y**

yağ
yaylıq
yapıncı
yastıq
yarpız
yaxantı
yel
yelləncək
yemlik
yer
yəhər
yolçu
yorğa
yumurta
yurd bayquşu

**Z**

zahı qadın
zeh
zəhər
zili
zığzığ



## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

**I. İnamlar, sınamalar.**

Quliyeva Gülüstan İsa qızı, Goranboy rayonu, Qaradağlı kəndi.
İbrahimova Xalidə Cabbar qızı, Gəncə şəhəri.
Abbasova Mərziyyə Qəmbər qızı, Gəncə şəhəri.
Hacıyev Zülfüqar Əli oğlu, Xanlar rayonu.
Məmmədova Hürü İsa qızı, Goranboy rayonu, Dəlməmmədli qəsəbəsi.

**II. Ovsunlar, alqışlar, qarğışlar, yanamalar, lağlar, atmacalar, gileylər, tapşırmalar, andlar.**

Quliyeva Gülnabat Dadaş qızı, Tovuz şəhəri.
Zeynalzadə İsrayıl Məmmədhəsən oğlu, Gəncə şəhəri.
Quliyeva Durnatel Zaman qızı, Goranboy rayonu, Qaradağlı kəndi.
İsmayılov Qasım Məhəmməd oğlu, Goranboy rayonu, Qaradağlı kəndi.
İmanova Tərlan Əbdüləli qızı, Daşkəsən rayonu, Kollu kəndi.
Əliyev Fərhad İman oğlu, Şamxor rayonu, Alabaşlı kəndi.

**III. Mövsüm - mərasim nəğmələri və onlarla bağlı inamlar.**

**Üzərlikyandırma** - Quliyeva Gülüstan İsa qızı, Goranboy rayonu, Qaradağlı kəndi.
**Yağışı kəsmək** - Həsənova Məsmə Cəfər qızı, Gəncə şəhəri.
**Sayaçı sözləri** - Rüstəmova Şahnisə Rüstəm qızı, Gəncə şəhəri.
**Holavarlar** - İmanova Tərlan Əbdüləli qızı, Daşkəsən rayonu, Kollu kəndi; Rüstəmova Şahnisə Rüstəm qızı, Gəncə şəhəri; Quliyeva Zərqələm Mehdi qızı, Gəncə şəhəri.

**IV. Mifoloji rəvayətlər.**

**Ovçu Pirim** - Əliyev Fərhad İman oğlu, Şamxor rayonu, Alabaşlı kəndi
**Ocax ilanı** - Əliyev Fərhad İman oğlu, Şamxor rayonu, Alabaşlı kəndi
**Yeddi qardaş ilan** - Alırzayev Allahverdi Mahmud oğlu, Gəncə şəhəri.
**Qara pişik** - Quliyeva Firəngiz Qafar qızı, Gəncə şəhəri.

**V. Əfsanə və rəvayətlər**

Məşədi Xanoğlan Həzi oğlu, Gəncə şəhəri.
Məmmədov Tahir Abbasəli oğlu, Gəncə şəhəri.
İmanova Tərlan Əbdüləli qızı, Daşkəsən rayonu, Kollu kəndi.
Zeynalzadə İsrayıl Məmmədhəsən oğlu, Gəncə şəhəri.
İsmayılov Qasım Məhəmməd oğlu, Goranboy rayonu, Qaradağlı kəndi.
Quliyeva Gülüstan İsa qızı, Goranboy rayonu, Qaradağlı kəndi.
Quliyeva Durnatel Zaman qızı, Goranboy rayonu, Qaradağlı kəndi.
Müseyibov Ağakişi Zaman oğlu, Goranboy rayonu, Qaradağlı kəndi.
Əliyev Fərhad İman oğlu, Şamxor rayonu, Alabaşlı kəndi.
Hüseynova Vüsalə Cəbrayıl qızı, Gəncə şəhəri.
Axundov Sahib İbrahim oğlu, Gəncə şəhəri.
Quliyeva Zərqələm Mehdi qızı, Gəncə şəhəri.
Əmrahov Əli Əmrah oğlu, Gəncə şəhəri.
Əhmədov Maqbet Mütül oğlu, Gəncə şəhəri.
Məmmədov Məmməd Namazalı oğlu, Gəncə şəhəri.
Zeynalzadə İsrayıl Məmmədhəsən oğlu, Gəncə şəhəri.
İsayeva Həriz Sovzalı qızı, Gəncə şəhəri.
Hüseynova Hacıbaba Əli oğlu, Gəncə şəhəri.
Alırzayev Allahverdi Mahmud oğlu, Gəncə şəhəri.

**VI. Nağıllar. VII. Qaravəllilər.**

Əliyev Fərhad İman oğlu, Şamxor rayonu, Alabaşlı kəndi.
Nağıyeva Maya Bahan qızı, Gəncə şəhəri.
Alırzayev Allahverdi Mahmud oğlu, Gəncə şəhəri.
Nağıyev İsmayıl Bahan oğlu, Gəncə şəhəri.
Rzayev Cəlal Alməmməd oğlu, Daşkəsən rayonu, Dəstəfur kəndi.
Hacıyeva Sahilə Məcid qızı, Gəncə şəhəri.
Hümmətov Cəfər Məşədi oğlu, Gəncə şəhəri.
Hacıyev Zülfüqar Əli oğlu, Xanlar rayonu.

**VIII. Atalar sözləri və məsəllər.**

Əmrahov Əli Əmrah oğlu, Gəncə şəhəri.
İmanova Tərlan Əbdüləli qızı, Daşkəsən rayonu, Kollu kəndi.
Əzizova Nübubət Məhərrəm qızı, Gəncə şəhəri.
Quliyeva Rüxsarə Mirəli qızı, Gəncə şəhəri.



Museyibov Ağakişi Zaman oğlu, Goranboy rayonu, Qaradağlı kəndi.
Əhmədov Maqbet Mütülü oğlu, Gəncə şəhəri.
Quliyeva Firəngiz Qafar qızı, Gəncə şəhəri.
Verdiyev Qəzənfər Hüseynbaba oğlu, Xanlar rayonu.
Axundov Sahib İbrahim oğlu, Gəncə şəhəri.
Rəhimov Ziyad Müseyib oğlu, Gəncə şəhəri.
Əzimova Əsli İsa qızı, Gəncə şəhəri.
Məmmədova Safura Həbib qızı, Gəncə şəhəri.
Hacıyev Zülfüqar Əli oğlu, Xanlar rayonu
Quliyeva Validə Zaman qızı, Gəncə şəhəri.
Quliyeva Gülüstan İsa qızı, Goranboy rayonu, Qaradağlı kəndi.
Xasıyev Zirəddin Əsgər oğlu, Gəncə şəhəri.

**IX. Tapmacalar.**

Məhəmmədov Məhəmməd, Goranboy rayonu, Səfikürd kəndi.
Əliyeva Qəmər, Şəmkir rayonu.
Həmid Bayram oğlu İsmayılov, Gəncə şəhəri,
Məmmədov Yunis, Goranboy rayonu, Qızılhacılı kəndi, 75 yaş.
Pirəliyeva Bənövşə Məhəmməd qızı, Goranboy rayonu, Başqışlaq kəndi, 80 yaş.
Əhmədova Rəhilə. Şəmkir rayonu, Seyfəli kəndi.

**X. Bayatılar (Ağılar).**

Quliyeva Zərqələm Mehdi qızı, Gəncə şəhəri, 81 yaş.
İmanova Tərlan Əbdüləli qızı, Daşkəsən rayonu, Kollu kəndi.
Dürrə nənə, Gəncə şəhəri, 88 yaş.
Məşədi Kamilə, Gəncə şəhəri, 84 yaş.
Paşayeva Fatma Kərim qızı, Goranboy rayonu, 92 yaş.
Hacıyeva Sahilə Məcid qızı. Gəncə şəhəri. 78 yaş.
İsayeva Həriz Sozalı qızı, Gəncə şəhəri, 76 yaş.
Hüseynova Vüsalə Cəbrayıl qızı, Gəncə şəhəri, 82 yaş.
Quliyeva Gülüstan İsa qızı, Goranboy rayonu, Qaradağlı kəndi. 78 yaş.
Səfərova Zeynəb Vəli qızı, Goranboy rayonu, Muzdurlar kəndi, 80 yaş.

**XI. Gülməcələr.**

Mahmudov Əziz Bəylər oğlu, Gəncə şəhəri.

Şahhüseynov Mahmud Xələf oğlu, Gəncə şəhəri.

Məmmədov Məmməd Namazalı oğlu, Gəncə şəhəri.

Alırzayev Allahverdi Mahmud oğlu, Gəncə şəhəri.

Səfərova Zeynəb Vəli qızı, Goranboy rayonu, Muzdurlar kəndi.

Quliyeva Zərqələm Mehdi qızı, Gəncə şəhəri.

Zeynalzadə İsrayıl Məmmədhəsən oğlu, Gəncə şəhəri.

Müseyibov Ağakişi Zaman oğlu, Goranboy rayonu, Qaradağlı kəndi.

Məmmədova Hürü İsa qızı, Goranboy rayonu.

Şirinova Elmira Məhərrəm qızı, Gəncə şəhəri.

Hacıyev Zülfüqar Əli oğlu, Xanlar rayonu.

Quliyeva Validə Zaman qızı, Gəncə şəhəri.

Əliyev Dərgah Əli oğlu, Gəncə şəhəri.

Əzizova Nübkbət Məhərrəm qızı.

Axundov Sahib İbrahim oğlu, Gəncə şəhəri.

Əmrahov Əli Əmrah oğlu, Gəncə şəhəri.

**XII. Dastanlar.**

Alırzayev Allahverdi Mahmud oğlu, Gəncə şəhəri.

Əsgərov Ziyadxan Qəhrəman oğlu, Tovuz rayonu, Əlibəyli kəndi.

Qurbanov Müseyib, Goranboy rayonu, Qızılhacılı kəndi, 84 yaş.

**XIII. Xalq nəğmələri.**

Bayramova Nərgiz Hacıbaba qızı, Gəncə şəhəri.

Gülsüm nənə, Gəncə şəhəri, 93 yaş.

Allahverdiyeva Səkinə, Yevlax şəhəri, Qaraməmmədli kəndi, 75 yaş.

Nəbiyev Ələsdan Məhərrəm oğlu, Xanlar rayonu, Sabirkənd kəndi, 75yaş.

Həsənova Səriyyə, Şamxor rayonu, Plankənd kəndi, 70 yaş.

Kərimova Bahar, Gəncə şəhəri, 75 yaş.

**XIV. Uşaq folkloru.**

Abbasov Məmməd, Gəncə şəhəri, 85 yaş.

Hüseynov Baba, Qazax rayonu, Muğanlı kəndi, 70 yaş.

Məmmədov Hacı, Qazax rayonu, Poylu kəndi. 65 yaş.



Cəfərova Həcər, Şamxor st.Dəllər kəndi, 80 yaş.

Allahverdiyeva Güləbatın Allahverdi qızı, Goranboy rayonu.

Məhəmmədov Maarif, Gəncə şəhəri.

Məmmədova Simruz, Gəncə şəhəri.

Xəlilov Əziz Xəlil oğlu, Gəncə şəhəri, 85 yaş.

Mehdiyev Xəlil Hüseyn oğlu, Gəncə şəhəri.

**XV. Xalq təbabəti (Türkəçarələr).**

Xanım nənə, Gədəbəy rayonu, Əmiraslanlı kəndi, 73 yaş.

İlyas Namazov, Gəncə şəhəri, 60 yaş.

Paşayeva Fatma Kərim qızı, Goranboy rayonu, 92 yaş.

Tağıyev Qəhrəman Həsənalı oğlu, Tovuz rayonu, Bozalqanlı kəndi, 70 yaş.

Hacıyeva Sahilə Məcid qızı, Gəncə şəhəri. 78 yaş.

**XVI. Yuxuyozmalar.**

Əmrahov Əli Əmrah oğlu, Gəncə şəhəri.

Zeynalzadə İsrayıl Məhəmmədhəsən oğlu, Gəncə şəhəri.

Məmmədova Hürü İsa qızı, Goranboy rayonu, Dəlməmmədli qəsəbəsi.

Hacıyev Zülfüqar Əli oğlu, Xanlar rayonu.

Quliyev Məzahir Tapdıq oğlu, Xanlar rayonu.

## MÜNDƏRİCAT


AFA ....... 3
**İnstitutdan** ....... 5
**Etnik milli yaddaşdan – folklordan görünən Gəncə** *(H.İsmayılov)* ....... 6

**I. İNAMLAR, SINAMALAR** ....... 19
**II. OVSUNLAR, ALQIŞLAR, QARĞIŞLAR, YANAMALAR, LAĞLAR VƏ ATMACALAR, GİLEYLƏR, TAPŞIRMALAR, ANDLAR** ....... 25
**Ovsunlar** ....... 25
Qurdağzı bağlama ....... 25
Ziyili yox etmə ....... 25
Bədnəzərdən qorunma ....... 25
Duzyandırma ....... 26
Tüstü bazar ....... 26
Tapıl-tapıl ....... 26
Alqışlar ....... 27
Qarğışlar ....... 37
Yanamalar ....... 50
Lağlar və atmacalar ....... 51
Gileylər ....... 56
Tapşırmalar ....... 57
Andlar ....... 58

**III. MÖVSÜM-MƏRASİM NƏĞMƏLƏRİ VƏ ONLARLA BAĞLI İNAMLAR**
Üzərlik yandırma mərasimi ....... 63
Yağışı kəsmək ....... 63
Xıdır Nəbi ....... 63
Sayaçı sözləri ....... 64
Holavarlar ....... 64

**IV. MİFOLOJİ RƏVAYƏTLƏR**
Ovçu Pirim ....... 65
Ocax ilanı ....... 66
Yeddi qardaş ilan ....... 66
Qara pişik ....... 66





**V. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Qara inək zağası ....... 68
Həzrət Süleymanın üzüyü ....... 68
İman Həsənin arvadı ....... 69
Elm xəzinədir ....... 70
Musaynan Fürey ....... 74
Abuzərlə ilan ....... 78
Yaqub pyğəmbər ....... 79
Nə gəzirdin ozanda? ....... 80
Qanlı körpü ....... 81
Xan Çobanla Sara ....... 82
Kişilə cin ....... 83
Qoç daş ....... 85
Gəlin qayası ....... 86
Piri baba ....... 86
Həzrətalı peyğəmbər ....... 86
Daş oğlan ....... 87
Şalfiruz baba ....... 88
Pirabdalqasım ....... 88
Kələmərc ....... 89
Kərəm körpüsü ....... 90
Naməlum Azərbaycan şəhəri ....... 91
İsmayıl qurbanı ....... 92
"Gəlin qaya" ....... 93
Daşqalaq ....... 99
Kəpəz, Alvız, Murov, Qoşqar ....... 104
Dəlidağ ....... 105
Naftalan ....... 107
Məhəmməd peyğəmbərlə ilan ....... 108
Loğmanın cavabı ....... 108
Gəncə ....... 109
Qızılhajılı ....... 109
Aldədənin qazan plovu ....... 110
Novruz bayramı ....... 111
Qarının borcu ....... 111
Qurd Zöhrə ....... 112
Sona bulağı ....... 112
Hələ bircə mıxca çıxarmışam ....... 114
Daş hədiyyə dönəndə ....... 115
Qoy su nəyin üstündən axır-axsın ....... 115

Padşahla dilənçi....116
Gec gəlmişəm....117
Arvadın sözünə gah bax, gah baxma....117

**VI. NAĞILLAR**
Yazıya pozu yoxdur....120
Yolçuyla üç heyvan....125
Şah Abbasla qız....131
Şah Abbasla oğlan....132
Dəvriş Xudayarın nağılı....133
Yusif Ayyar....136
Xanla nökərin nağılı....140
Evi kim tikər?....143
Şərəbanı xanımın nağılı....146
Tacirlə dərviş....150
Padşahla vəzirin səyahəti....155
İlanla qızın nağılı....156
Kəlləgözün nağılı....158
Əccər oğlunun nağılı....161
Çərxi-gərdiş....163
Şahzadənin nağılı....163
Sulduzlu Bayram....165
Uçan padşah....170
Ağlar-güləyənin nağılı....177
Adıgözəllə Aslan şahın nağılı....181
Üç bacının nağılı....184
Gülqahqahın nağılı....188
Xocanın nağılı....196
Padşahın nağılı....197
Qəşəm şahın nağılı.... 201
Ədalətli vəzir.... 207
Bəhruzun nağılı.... 211
Aqil padşah.... 217
Bazubənd nağılı.... 221
Tülkünün nağılı.... 228
Məhəmmədin kələyi.... 230
Şirzadın nağılı.... 232
Şumxiyar.... 236
Qoluyox qızın nağılı.... 239
Alın yazısı.... 243



Gülpərinin nağılı.... 246
Məhəmmədlə Gülcahanın nağılı.... 253
Cimeşin nağılı.... 259
Şorgöz padşah.... 263
Həzrəti Süleyman eşqinə.... 267

**VII. QARAVƏLLİLƏR**
Keçəlin kələyi, hacının tamahı.... 270
Keçəl.... 271
Keçəlin sərgüzəşti.... 273

**VIII. ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR**.... 275
**IX. TAPMACALAR**.... 298
**X. BAYATILAR (AĞILAR)**.... 309
**XI. GÜLMƏCƏLƏR**
Sorağını Naltökənnən almışam.... 335
Mübarək olsun, ay Abbasəli!.... 335
Seyfəlisən, keç başa.... 335
Görmüşüm də, yemişim də.... 336
Bəs o biri kimdi?.... 336
Küçükdən südə getdi.... 336
Mənnən bulamaqdı!.... 336
Heç yana qaçan deyil.... 337
Bu da mənim baxtımdandır.... 337
Şofer ölüb.... 338
Sulu Quran.... 338
Sadıq kişinin inəyi.... 340
"Kişilik" naminə.... 341
Qalanını da talan eliyəjəklər.... 341
Sövdələşmə.... 341
Üç kişinin söhbəti.... 342
O, mənim köynəyim olacaq.... 342
Mən qaçaq olan ili.... 343
Oyçu Qulu.... 343
Qoy yerdə ölsün.... 344
Kamal kişinin yalanı.... 345
Qatır, canavar və tülkü.... 346
Tasa-pasan yatdımı?.... 347
Kimdi elə xırdalığa baş qoşan?.... 347
Bir az da piyada gedək.... 348

Məndən alacaq.......... 348
Moskvanı görsən neylərsən?.......... 348
Bəs onun yerində olsan neyləyərsən?.......... 349
Olmasın bir abbası.......... 349
Yazır yazsın, pozur pozsun.......... 349
Canavarın yanında hür.......... 349
Niyə çox pişməsin?.......... 350
Gülü kişi itinə yaxın durmur.......... 350
Qurban olum, təsbeh, sana.......... 350
Halallıq alırmış.......... 351
Dədəsinin də qiymətini üstünə qoymuşdu.......... 351
Üstəlik aşnasını gətirib.......... 352
Ye, qoy boyun uzansın.......... 352
Adı Usufdu, işində ol.......... 353
Sənin dediyin daş armuddur.......... 353
Uşağın siftəsini kor eləmə.......... 353
Ya sən sat, ya da mən.......... 354
Vay sənin, dırmıq yiyəsi.......... 354
Gözümü niyə tökürsən?.......... 355
Yorulmayasan.......... 355
Ürəyim arxayındır.......... 355
Kor davası salmışam.......... 356
Ya Band, çarığım cırılmasın.......... 356
Bizi biabır eləmə.......... 357
İstəyirsən iki-iki kəsim.......... 358
Dilimə bağla.......... 358
Lal gəlin.......... 359
Məni məscidə salma.......... 359
Bölgü.......... 359
Mən məscidə girirəmmi?.......... 360
Ağıllı olsaydın, kasıb olmazdın.......... 360
Öhö-öhö lazım imiş.......... 360
Kisəsini doldurub aparacaq.......... 361
Məscidə gedən olmayacaq.......... 361
Həşim baba ilə Tapdıq.......... 361
Əlləm-qəlləm dərsi.......... 362
Qavalı belə çalarlar.......... 363
Sən ağılsızsan, yoxsa mən?.......... 364

## XII. AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

**MOLLA ƏSGƏR** ..... 365
**Cığalı təcnislər**
Nə qara bağlar ..... 365
Qatar-qatar ..... 366
**Divani**
Gəl ..... 367
**BİSAVAD TEYMUR**
**Qoşmalar** ..... 368
Dedimmi? ..... 368
Yadıma düşdü ..... 369
Gedirəm bu gün ..... 369
Dağlar ..... 370
A Cabbar əmi ..... 370
Ağlatdı ..... 371
Könlümü ..... 372
Yatır ..... 373
**MÜLKÜLÜ HƏSƏN** ..... 374
**Təcnis**
A yana-yana ..... 374
**Müxəmməs**
Qonşunuza ..... 375
Gözəl ..... 376
Fələkm ..... 378
**Xatıncanlı Kor Söyün** ..... 379
Oyada məni ..... 379
Ay qoşa-qoşa ..... 380
Sınamamış ..... 380
Ay sinə-sinə ..... 380
Sorağındayam ..... 381
Nə var ki ..... 381
Qovalanmamış ..... 382
Nəynən olsun? ..... 382

## XIII. DASTANLAR

Məmmədlə Güləndam ..... 384
Səmədlə Savad ..... 398
Nəcəf ..... 434

## XIV. XALQ NƏĞMƏLƏRİ


A yar, yar........ 449
Bir otaq tikdirdim........ 449
Qurban olum........ 449
Yaylığım itdi, nənə........ 450


## XV. UŞAQ FOLKLORU


**Oyun - nəğmələr**........ 452
A tərxana-tərxana........ 452
O qara qazan doldumu?........ 452
Qıy qılıncım........ 452
Zulama........ 453
Gözbağlayıcı........ 453
Neynirsən?........ 453
**Sanamalar**........ 454
Okudu-bukudu........ 454
Biri birə........ 454
Əl-əl əpənək........ 454
Bibili qoz........ 455
Çıxdım çinar başına........ 455
Pişiyim........ 456
Portağalı soydum........ 456
Fatmacıq........ 457
Əkdim noxud........ 457
Ləmpəni qoydum ortaya........ 457
Odur, budur........ 457
Ekli-mekli........ 457
Dımbılı qız........ 458
Bir, iki qırmadı........ 458
İynə-iynə........ 459
Motal-motal........ 460
Bir-iki........ 460
Əkil-bəkil........ 460
Barmaqlar........ 461
**Düzgülər**........ 461
Üşüdüm ha üşüdüm........ 461
Keçəl........ 461
A Nərgizə, Nərgizə........ 462
Qarğa qar istər........ 462
Yağış yağır........ 462

Maşın gəlir ........ 463
Xana ........ 463
Get babadan pul istə ........ 463
Dımbılı kişi tar çalır ........ 463
Çəkməçilər çəkmə tikir ........ 464
Araz gəlir ........ 464
Sim, sim, Simgilə ........ 464
Tamara, Tamara, tat qızı ........ 465
O toy-bu toy ........ 465
Keçəl ........ 465
Turşulu aş içmərəm ........ 465
Zöhrə ölüb ........ 466
Nərgiz ölsün ........ 466
Çınqıdı, çınqıdı çaleydim ........ 466
Alıq-balıq olaydım ........ 466
**Dolamalar** ........ 467
**Cırnatmalar** ........ 470
Əliş ........ 470
Emişqa ........ 470
Xuman xan ........ 471
Tükəzban yatır ........ 471
**Yanıltmaclar** ........ 471
**Nazlamalar** ........ 473
**Laylalar** ........ 474
**Oyunlar** ........ 476
Çiling-ağac ........ 476
Müçük ........ 476
Bənövşə ........ 476
Siçan-pişik ........ 477
Mozdaş ........ 477
Yeddi daş ........ 477
Göz bağlayıcı ........ 477
Xan-vəzir ........ 478
Dala yaylıq atma ........ 478
Qoturum səndə ........ 478
Gizlənpaç ........ 478
Beşdaş ........ 479
Qara qazan ........ 480
A tərxana-tərxana ........ 480
Ənzəli ........ 480

## XVI. XALQ TƏBABƏTİ (TÜRKƏÇARƏLƏR)

**Qızılgül və ondan hazırlanan məhsullar** ........ 482
Gülqənd ........ 484
Gülab ........ 484
Qızılgül şərbəti ........ 484
Gül suyu ........ 484

**Şəfalı bitkilər və onlardan hazırlanan məhsullar**
Kəkotu ........ 485
Qəfli ........ 485
Qantəpər ........ 485
Daşyarpızı ........ 485
Gülxətmi ........ 485
Əmənkömənçi ........ 485
Gicitkan ........ 486
Bağayarpağı ........ 486
Nar kökü ........ 486
Nanə arağı ........ 486
Şaftalı arağı ........ 486
Şahtərə arağı ........ 486
Yarpız arağı ........ 487
Bişmiş soğan ........ 487
Əvəlik ........ 487
Qarğıdalı saçağı ........ 487
Yer cövüzü ........ 487
Düyü ........ 487
Göyəm ........ 487
Limon ........ 488
İstiot ........ 488
Gavalı ........ 488
Armud ........ 488
Əncir ........ 488
**Tut və ondan hazırlanan məhsullar** ........ 488
Bəhməz ........ 488
Tut qurusu ........ 489
Tut arağı ........ 489
Tut sirkəsi ........ 489
**Nar və ondan hazırlanan məhsullar** ........ 489
Narşərab ........ 489
Nartaşa ........ 489

**Çörək növləri** ... 490
Çad ... 490
Küllü kömbə ... 490
Xamralı ... 490
Sac yuxası ... 490
Fəsəli ... 491
Fətir ... 491
Təndir lavaşı ... 491
Kətə ... 491
Kətənin içi ... 491
Qatdama ... 491
Quymaq ... 492
Xəşil ... 492
Halva ... 492
Yarma xəşili ... 492
Tutmac ... 492
Umac ... 493
Qazxəngəli ... 493
Əvəlik aşı ... 493
**Unudulmuş xörəklər** ... 493
Hopbaca ... 493
Firni ... 494
Səməni halvası ... 494
Sülfüllü ... 494
Balıq ləvəngisi ... 494
Qovud ... 495
Hədik ... 495

**XVII. YUXUYOZMALAR** ... 496

**GÖSTƏRİCİ:** ... 498
**I. Şəxs, mifoloji və folklor obrazlarının adları** ... 498
**II. Yer adları** ... 500
**III. Əşya-predmet adları (Daşlar, bitkilər, heyvanlar, meyvələr, xörəklər, silahlar və s.)** ... 501

**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** ... 507

**Azərbaycan folkloru antologiyası,**
**IX kitab, (Gəncəbasar folkloru),**
Bakı, "Səda" nəşriyyatı, 2004.

***Nəşriyyat direktoru:***
***Elşən Hətəmzadə***

**Kompüterdə yığdı:**
***Ruhəngiz Əfəndiyeva***
***Aygün Balayeva***

**Korrektor:**
***Tahir Orucov***

**Kompüter tərtibçisi və**
**texniki redaktoru:**
***Baxşəli Süleymanov***

Kağız formatı: 60/84 16/1
Mətbəə kağızı: №1
Həcmi: 35 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab "Səda" nəşriyyatında
ofset üsulu ilə çap olunmuşdur.

Ш3
А99